İSSN 2224-0829

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

NDU

# ELMİ ƏSƏRLƏR

## İCTİMAİ ELMLƏR SERİYASI

# SCIENTIFIC WORKS

## SERIES OF SOCIAL SCIENCES

# НАУЧНЫЕ ТРУДЫ

## СЕРИЯ СОЦИАЛЬНЫХ НАУК

№ 5(79)

NAXÇIVAN, NDU, "QEYRƏT" - 2016

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2016, № 5(79)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2016, № 5 (79)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2016, № 5 (79)**

# TARİX

**ZƏHMƏT ŞAHVERDİYEV**

*Naxçıvan Dövlət Universiteti*

***UOT: 94 (479.242)***

## XX ƏSRİN AXIRLARINDA NAXÇIVANDA TARİXİ HADİSƏLƏRİN XRONOLOJİ TƏHLİLİ

*Naxçıvanda son illərdə quruculuq işləri gedir, məktəblər tikilir, yaşayış evləri tikilir. Bunlar bir daha onu göstərir ki, naxçıvanlılar ən çətin şəraitdə ruhdan düşmürlər, öz işlərini aparırlar, qururlar, yaradırlar.*

**Heydər Əliyev**
*Azərbaycan xalqının ümummilli lideri*

*Azərbaycan prezidentinə, dövlətçiliyə sədaqət təkcə sözdə yox, işdə, əməldə də göstərilməlidi.*

**Vasif Talıbov**
*Naxçıvan MR Ali Məclisinin Sədri*

***Açar sözlər**: Naxçıvan, milli azadlıq hərəkatı, imperiya, Milli Məclis, Ali sovet, mübarizə, sabitlik, azadlıq*

***Key words:** Nakhchivan, national liberation movement, empire, social-economical development, the National Assembly, the Supreme Soviet, struggle, stability, independence*

***Ключевые слова:** Нахчыван, национально-освободительное движение, империя, социально-экономическое развитие, Верховный Меджлис, Верховный Совет, борьба, стабильность, независимость.*

XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəli Azərbaycan, o cümlədən onun tərkib hissəsi olan Naxçıvan tarixinin ən ağır, məsul və mürəkkəb dövrünü təşkil edir. Həmin dövrdə sovet imperiyası rəhbərliyinin Azərbaycan xalqına zidd siyasəti, erməni quldurlarının Azərbaycandan, o cümlədən Naxçıvandan ərazi iddiaları və sərhədlərdə hərbi toqquşmaların yaradılması, uydurma Dağlıq Qarabağ probleminin ortalığa atılması və s. problemlər Naxçıvanda ictimai-siyasi şəraitin mürəkkəbləşməsinə gətirib çıxarmışdı. 1988-ci il mayın 18-də Bakıda Qarabağın müdafiəsi naminə güclü mitinq oldu. Bakıda keçirilən mitinqin təsiri nəticəsində mayın 20-də Naxçıvanda da əhalinin geniş miqyaslı mitinqi keçirildi. Bütün Azərbaycan xalqı kimi naxçıvanlılar da öz haqq səslərini qaldırdılar. Beləliklə, xalq öz ana torpağının müdafiəsinə qalxdı.

1988-ci ilin mart-aprel aylarında azərbaycanlıların Ermənistandan Naxçıvana ilk köçkün dəstəsi gəldi.Naxçıvan əhalisi bu hadisələri qəzəblə qarşıladı. Bunun nəticəsi olaraq Naxçıvanda may ayında daşnak və sovet imperiyasının siyasətinə qarşı ilk güclü mitinqlər başladı.

1988-ci il noyabr ayının 17-də Azərbaycanda, onun paytaxtı Bakıda yenidən xalqın əzəmətli mitinqləri başlandı. Xalq daşının, torpağının müdafiəsinə qalxmışdı. Bu mitinqin təsiri altında Naxçıvanda əhalisi 1988-ci il noyabrın 21-də xalq Azadlıq meydanına toplanaraq, erməni daşnaklarının və sovet imperiyasının Azərbaycan xalqının mənafeyini tapdalamaq siyasətini və yerli rəhbərlərin bu barədə düzgün mövqe tutmamalarını kəskin ifşa etdi. Həmin mitinqin nəticəsi olaraq Naxçıvan Vilayət Partiya Təşkilatının birinci katibi Nurəddin Mustafayev xalqın tələbi ilə vəzifəsindən uzaqlaşdırıldı.

Bu mitinqlərdə hətta Azərbaycanın müstəqilliyi məsələsi irəli sürülürdü. Lakin bütün bunlara baxmayaraq sovet imperiyası özünün müstəmləkəçilik siyasətini davam etdirərək, nəinki erməni daşnaklarının insanlığa zidd siyasətinin qarşısını almağa təşəbbüs göstərmiş, əksinə azadlıq hərəkatını qa içində boğmağa çalışırdı. 1988-ci il dekabrın 4-dən 5-nə keçən gecə Bakıda «Meydan

hərəkatı» sovet imperiyasının tanklarının gur səsi altında qan içərisində boğulmuşdu. Eləcə də Naxçıvanda başlayan mitinqlər zor gücünə dağıdılmışdı. Bütün Azərbaycanda, o cümlədən Naxçıvanda da «Xüsusi fövqəladə vəziyyət» rejimi yaradılmışdı. Bütün bunlara baxmayaraq, xalqımızın çağdaş tarixində «Meydan hərəkatı» ciddi iz qoydu. Meydan hərəkatına dərindən nəzər yetirdikdə aydın olur ki, Meydan, xalqın 1920-ci ildə sarsılmış inamını özünə qaytardı. Xalq inandı ki, onun təzyiqi altında nəinki Bakıdakı, hətta Kremldəki rəhbərləri də geri oturtmaq mümkündür. «Meydan» ümummilli mənafelər uğrunda birləşməyi bacardığımızı göstərdi.

Qeyd edək ki, həmin dövrdə Naxçıvanda gedən güclü siyasi hərəkata, xalqın mitinqlərinə rəhbərlik etmək üçün bir siyasi təşkilata böyük ehtiyac duyulurdu. Çünki təşkilatı olmayan xalq mübarizənin gedişində ciddi və mühüm qələbələr qazana bilməz. Düzdür, həmin dövrdə Naxçıvanda «Yurd birliyi» deyilən təşkilatı fəaliyyət göstərirdi. Lakin həmin təşkilat mübarizənin gedişi ilə müqayisədə xeyli geridə qalırdı. 1989-cu ilin iyununda Azərbaycanda Xalq Cəbhəsi yaranandan az sonra, Azərbaycan Xalq Cəbhəsinin Naxçıvan şöbəsi təşkil olundu. Naxçıvan şöbəsinin yaradılması mübarizənin sonrakı gedişinə müəyyən təsir göstərdi. Tədqiqat nəticəsində aydın olur ki, bundan sonra keçirilən mitinqlərdə xalqın milli istiqlalı uğrunda aparılan mübarizə aydınlıqla dərk olunaraq müəyyən mərhələlər üzrə həyata keçirilirdi. Artıq əvvəllərdə olduğu kimi, necə gəldi, elə çıxışlar edilmir, əksinə qabaqcadan razılaşdırılmış proqram əsasında mitinqlər keçirilirdi. Elə bunun nəticəsi idi ki, bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da 1989-cu ilin avqustundan başlayaraq milli-azadlıq hərəkatı yüksələn xətlə gedirdi. Demək olar ki, 1989-cu ilin avqustundan 1990-cı il yanvar qırğınına qədər Naxçıvanda mitinqlər ardı-arası kəsilmədən davam etmişdi. Həmin mitinqlərdə mühüm siyasi tələblər irəli sürülmüş, imperiyaya qarşı sərt mövqedə dayanmış, onun Azərbaycan xalqının mənafeyinə yeritdiyi zidd siyasəti kəskin pislənilmişdir.

Azərbaycan xalq hərəkatının tarixində həm də ilk dəfə olaraq Naxçıvanda qardaş xalqlar arasında olan sərhədlərin açılması tələbi də irəli sürülmüşdür. Azərbaycan xalq hərəkatı tarixində «sərhəd hərəkatı» özünəməxsus yer tutur. 1989-cu ilin dekabr ayının 1-dən etibarən Naxçıvanda sərhəd hərəkatı başlayır. Naxçıvan əhalisi «Azərbaycan -İran» sərhədinin Naxçıvandan keçən hissəsində bütün sərhəd boyu düzülərək, qan qardaşlarımızı bizimlə həmrəy olmağa çağırmış və sərhədlərin götürülməsini, gediş-gəlişə icazə verilməsini sovet imperiyasından tələb etmişlər. Meydan hərəkatının yatırılmasının ildönümü günündə, yəni 1989-cu il dekabrın 5-də bütün sərhəd boyu Naxçıvanda xalq əl-ələ tutaraq məşəllər yandırmış və sərhədlərin açılması tələbini irəli sürmüşlər.

Xalqın bu tələbi qarşısında aciz qalan imperiya sərhədlərin açılmasına razılıq verməyə məcbur olmuşdur.

1989-cu il dekabr ayının 31 də Naxçıvan MSSR ərazisində iki qardaş xalq arasında 170 ildən artıq davam edən sərhəd məftilləri sökülmüş və etiraz əlaməti olaraq o aradakı dirəkləri yandırılmışdır. Azərbaycanda, o cümlədən Naxçıvanda xalqın milli-azadlıq hərəkatının qarşısını almaq üçün imperiya qüvvələri daim planlar hazırlayır, bu hərəkatı daxildən yatırmağa çalışır, əgər bu baş tutmasa hərbi qüvvələr yeritmək planları həyata keçirməyə təşəbbüs göstərirdilər. Ermənipərəst siyasət yeridən imperiya özünün mənfur planını həyata keçirmək üçün 1990-cı il yanvarın 13-də Bakıda qəsdən erməni qırğını törətdi. Həmin hadisədən istifadə edən sovet imperiyası Bakıda «Fövqəladə vəziyyət» elan etdi. Bunun ardınca Azərbaycanın ayrı-ayrı bölgələrində təxribatlar törədildi. Təhlillər nəticəsində aydın olur ki, bu dövrdə imperiya qüvvələrinin ən çirkin niyyəti Naxçıvanı ermənilərə təslim etmək və bununla da burada xalq hərəkatını yatırtmaq idi. Həmin planı həyata keçirmək üçün artıq imperiya qüvvələri fəaliyyətə başlamış və yanvarın 18-də ermənilərin Naxçıvan ərazisinə hücumunu da təşkil etmişdilər.

Naxçıvan əhalisi, o cümlədən onun mütərəqqi ziyalılar bu hərəkata qarşı öz ciddi etirazını bildirmiş və 1990-cı il yanvarın 19-da Naxçıvan MSSR Ali Sovetinin fövqəladə sessiyası keçirilmiş, və Naxçıvan MSSR-in SSRİnin tərkibindən çıxması barədə qərar qəbul edilmişdi. Həmin qərar Naxçıvan televiziyası vasitəsilə xalqa, imperiyaya və dünyaya çatdırılmışdı.

Belə bir ağır vəziyyətdə Sovet imperiyası Bakıda 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqına qarşı ağır bir cinayət işlətmişdir. Bakıda Azərbaycan xalqına qarşı qırğın təşkil olunmuş, Azərbaycan xalq hərəkatı qan içərisində boğulurdu. Bundan istifadə edən sovet imperiya qüvvələri Naxçıvanda da «Fövqəladə vəziyyət» yaratmışdılar. Naxçıvana sovet imperiyasının qoşun hissələri xüsusi əsgər birləşmələri yeridilmiş və xalq hərəkatına ağır zərbə vurulmuşdu. Bütün bunlara

baxmayaraq, milli-azadlıq duyğusunu Naxçıvan əhalisi qəlbində yaşatmış və mübarizəni davam etdirmişdir. Bu mübarizəni qələbə ilə başa çatdırmaq üçün Naxçıvan əhalisinə geniş siyasi təcrübəyə, diplomatik qabiliyyətə malik, bütün varlığı ilə xalqına bağlı olan, xalq tərəfindən sevilən, rəhbər lazım idi. Belə bir rəhbər Azərbaycan xalqının böyük oğlu, görkəmli dövlət xadimi, siyasət aləmində böyük nüfuza malik Heydər Əlirza oğlu Əliyev oldu. Azərbaycanın görkəmli dövlət xadimi və böyük siyasətçi H.Əliyev respublikada gedən mürəkkəb ictimai-siyasi şəraiti yaxından izləyir, milli-azadlıq hərəkatına böyük rəğbət bəsləyirdi. O, Bakıda baş verən qanlı yanvar faciəsindən xəbər tutan kimi, həmin günün səhəri Azərbaycan xalqına başsağlığı teleqramı göndərmişdi.

H.Əliyev 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək, orada keçirilən yığıncaqda çıxış etmiş, sovet imperiyasının mənfur siyasətini kəskin pisləmişdi.

Görkəmli dövlət xadimi H.Əliyev həmin çıxışında göstərmişdir: «Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. Bunlar üçün ilk növbədə Azərbaycan KP MK-nın artıq sabiq birinci katibi Vəzirov müqəssirdir». «Qanlı yanvar» hadisəsini törədən sovet imperiyası rəhbərliyinin iç üzünü açan H.Əliyev daha sonra demişdir: «Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya, siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmazdı, başlıcası isə yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı». Bakıda «Qanlı yanvar» faciəsindən sonra Azərbaycanın böyük oğlu H.Əliyev öz doğma vətəninə, Azərbaycana gəlməyi qarşısına məqsəd qoymuşdu. Lakin Azərbaycan rəhbərliyi H.Əliyevin Azərbaycana gəlməsinin qarşısını almağa çalışırdı. Bütün bu maneələrə baxmayaraq, ürəyi doğma xalqı ilə bir döyünən H.Əliyev, nəhayət, 1990-cı il iyulun 20-də Bakıya, həmin ayın 22-də isə doğma vətəni Naxçıvana gəlmişdir.

Bu qayıdışla Naxçıvanın və eləcə də bütün Azərbaycanın xilasının əsası qoyulmuş oldu. H.Əliyev 20 yanvar Bakı hadisələri ilə bağlı ittifaq və respublika rəhbərlərini ciddi tənqid etdiyinə görə siyasi təqiblərə, partiya mətbuatında böhtanlara məruz qalmışdı.

H.Əliyev Naxçıvana gəldikdən sonra Naxçıvan şəhər zəhmətkeşləri ilə görüşmüş, rayon və kəndlərdə olmuş, adamlarla söhbətdə mövcud vəziyyəti təhlil edərək çıxış yollarını göstərmişdi. Həmin görüşlərdə H.Əliyev əsasən bir məsələni daha çox vurğulayırdı ki, indi hər şeydən əvvəl, bütün siyasi qüvvələr birləşməli, Azərbaycanın xoşbəxt gələcəyi naminə mübarizə aparmalı, xalqın tərəqqisinə kömək edilməlidir. Bütün bu vəzifələri həyata keçirmək üçün ancaq birlik, yekdillik lazımdır.

Qeyd edək ki, bu dövrdə Naxçıvan əhalisi böyük oğluna öz məhəbbətini bildirərək, demək olar ki, bütün seçki dairələrindən onu deputatlığa namizəd göstərmişlər. Özünün arzusu ilə Nehrəm seçki dairəsindən Azərbaycan SSR-nin xalq deputatlığına, Naxçıvan Alt Trikotaj Fabriki kollektivi tərəfindən isə Naxçıvan MSSR-in xalq deputatlığına namizədliyi verilmişdir. Seçicilərlə görüşündə H.Əliyev Azərbaycana gəlişinin məqsədini və platformasını belə bildirmişdir: «İlk növbədə respublikamızın bu ağır iqtisadi və siyasi böhrandan çıxması üçün var qüvvəmi sərf edəcəyəm. Xalqımız çox çətin bir dövr keçirir. Azərbaycan böhran içərisindədir. Başqa regionlara nisbətən Azərbaycan daha ağır vəziyyətdədir. Qarabağ problemi deyilən uydurma bir problem üç ilə yaxındır ki, respublikaya çaxnaşma salmışdır. Bu problem aradan qaldırılmayınca bizim rahatçılığımız tam təmin olunmayacaq. Mən bütün səyimi, bacarığımı və qüvvəmi Azərbaycanda əmin-amanlığın təmin olunmasına sərf edəcəyəm. Azərbaycanın milli ənənələri və milli xüsusiyyətlərinin inkişaf etməsinə çalışacağam. Onu da deyim ki, 70 il ərzində biz belə bir çətin vəziyyətə düşməmişdik. Bunun isə səbəbkarları ermənilər, Ermənistan respublikasının rəhbərləridir. Erməni quldurları tez-tez ərazimizə basqınlar edir, torpaqlarımızı ələ keçirməyə çalışırlar. Əlbəttə, bu, onlara müyəssər olmayacaqdır. Lakin bu məsələləri qətiyyətlə həll etməyin vaxtı çatmışdır. Bir sözlə, mənim əsas məqsədim Azərbaycanın ərazi bütövlüyünü və Azərbaycan hakimiyyətini respublikanın bütün ərazisində bərqərar etməkdən ibarətdir. Azərbaycan Respublikasının milli dövlət kimi inkişaf etməsi indi əsas məsələdir. Bunun üçün Azərbaycan tam müstəqil, azad, demokratik respublika olmalıdır. İndi hər şeydən əvvəl, bütün siyasi qüvvələr birləşməli, Azərbaycanın xoşbəxt gələcəyi naminə mübarizə aparmalı, xalqın tərəqqisinə kömək etməlidir».

H.Əliyev 1990-cı il seçkilərində həm Azərbaycan, həm də Naxçıvan MR parlamentinə deputat seçildi.

1990-cı ilin noyabr ayının 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyası Heydər Əliyevin sədrliyi ilə keçirildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında çox mühüm qərarlar qəbul olundu. Sessiya Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişdirərək bundan sonra Naxçıvan Muxtar Respublikası adlandırmağı qərara aldı. Naxçıvan MSSR Ali Sovetinin adı dəyişərək onun Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar qəbul etdi. Azərbaycan Respublikasının milli istiqlal rəmzi olan üçrəngli dövlət bayrağının bərpası, onun Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul olundu.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR Ali Sovetinin qarşısında həmin bayrağın bütünlükdə Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında və sadət qaldırdı.

Naxçıvan MR Ali Məclisinin birinci sessiyasında müzakirə olunan ən mühüm məsələlərdən biri də 1990- cı il 20 yanvar faciəsinə verilən siyasi qiymət idi. Sıravi deputat olan Heydər Əliyev həmin dövrdə «1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət veilməsi haqqında» qərar layihəsini işləyib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə təqdim etdi.

Ali Məclisin binası önünə toplaşan xalq kütlələrinin tələbi, muxtar respublika deputatlarının fəallığı və Heydər Əliyevin siyasi nüfuzu nəticəsində qəbul olunan və o zaman Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyən Azərbaycan xalqının böyük oğlu, mərhum Afiyəddin Cəlilov tərəfindən imzalanan bu qərarda ilk dəfə Yanvar hadisələrinə siyasi qiymət verilir, törədilən qırğının təşkilatçılarının məsuliyyətə cəlb olunması tələb edilirdi.

H.Əliyev rəhbərliyi və NMR deputatlarının səyi nəticəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi aşağıdakı qərarı qəbul etmişdi:

1. 1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilsin.

2. Dinc əhaliyə, silahsız kütləyə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahlarla, hərbi texnika ilə zorakılıq edilməsi, qocaların, qadınların, uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına qarşı açıq təcavüz kimi ittiham edilsin.

3. Bu qərar qəbul edilən andan 20 yanvar günü hər il Naxçıvan Muxtar Respublikasında milli matəm günü kimi qeyd edilsin.

4. Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin ki, 20 yanvar günü hər il Azərbaycan SSR-də milli matəm günü kimi qeyd edilsin.

1991-ci il sentyabr ayının 3-də möhtərəm Heydər Əliyev xalqın tələbi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri seçildi.

H.Əliyevin Naxçıvandakı fəaliyyətində ən uğurlu cəhətlərdən biri də Dünya Azərbaycanlılarının həmrəylik və birlik günü haqqında fərman verməsi olmuşdu. Həmin fərman bütün Naxçıvan əhalisinin ürəyindən olmuş və ictimai-siyasi şəraitin gələcək gedişinə çox yüksək səviyyədə təsir etmişdi.

Bu böyük dahi hər gün Azərbaycan üçün, onun müstəqilliyi və tərəqqisi üçün böyük tədbirlər həyata keçirildi. Elə o illərdə əhalinin iqtisadi vəziyyətinin pis olması ilə əlaqədar dövlətçilik məsələsində olduğu kimi, iqtisadi məsələlərin həlli sahəsində də H.Əliyev böyük addımlar atmış oldu.

Heydər Əliyev Naxçıvanın Türk dünyasına, İslam aləminə bir qapı olduğunu bilərək 1992-ci il mart ayının 22-də Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özalın və Baş Nazir Süleyman Dəmirəlin dəvəti ilə Türkiyəyə gedib Türkiyə ilə iqtisadi əməkdaşlıq barədə protokol imzaladı. Bu protokol əsasında Türkiyə ilə Naxçıvan arasında iqtisadiyyat, təhsil, nəqliyyat və rabitə sahəsində münasibətlərin inkişaf etdirilməsi, Araz çayı üzərində körpü salınması, muxtar respublikaya kredit verilməsi, 100 tələbənin Türkiyədə pulsuz təhsil alması və başqa məsələlərin həyata keçirilməsinə başlanıldı.

1991-ci il oktyabr ayının 18-də müstəqilliyini elan etdikdən sonra Azərbaycan xalqı özünün çox çətin günlərini yaşayırdı. Bir tərəfdən 70 il davam edən kommunist üsul idarəsindən miras qalmış zəhərli təbliğat, iqtisadi gerilik, bir tərəfdən də müstəqillik qazanandan sonra hakimiyyət uğrunda kreslo çəkişmələri və bununla əlaqədar dağıntılar, ölkənin parçalanma vəziyyətinə düşməsi, eləcə də torpaqlarımıza erməni təcavüzü Azərbaycanın əldə etdiyi müstəqilliyin məhvi təhlükəsini yaratmışdı.

Belə bir şəraitdə Azərbaycanı bu vəziyyətdən xilas etmək üçün geniş dünya görüşə, möhkəm iradə, qeyrət, təşəbbüs və lazımi hazırlığa malik bir rəhbər tələb olunurdu. Ona görə uzun illər boyu xalqa ləyaqətlə xidmət edən, ürəyi vətən eşqi ilə döyünən, dünyaya öz qüdrətini nümayiş etdirən,

Naxçıvan MR Ali Məclisinin sədri möhtərəm Heydər Əliyev xalqın tələbi ilə Bakıya dəvət olundu və 1993-cü ildə ikinci dəfə hakimiyyətə gətirildi. Bundan sonra həmin sosial-iqtisadi inkişaf proqramının ikinci mərhələsi başladı. Bu mərhələ isə 1993-1995-ci illəri əhatə etmişdir. Prezident Heydər Əliyevin Azərbaycana ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra əsas diqqəti vətəndaş müharibəsi təhlükəsinin qarşısının alınmasına, eləcə də Ermənistan- Azərbaycan və Dağlıq Qarabağ hərbi münaqişəsinin qarşısının dayandırılmasına yönəltmiş oldu. Görülən tədbirlərlə əlaqədar qısa müddətdə daxildə sabitlik bərpa edildi və 1994-cü ilin may ayının 12-də atəşkəsə nail olundu. Heydər Əliyev Naxçıvandan getdikdən sonra muxtar respublikada bir qədər boşluq yaranması ilə əlaqədar ictimai-siyasi vəziyyət gərginləşdi. Daxili və xarici qüvvələr tərəfindən dağıdıcılıq siyasəti, təxribatlar gücləndi. Lakin möhtərəm prezident Heydər Əliyev Azərbaycanın bütün regionlarında olduğu kimi, qısa bir müddətdə Naxçıvanda da ictimai-siyasi sabitliyin bərpa olunmasına nail oldu. Bundan sonar Azərbaycanda bütün sahələrdə, o cümlədən dövlətçilik, ordu, iqtisadi, siyasi və mədəni sahələrdə quruculuq işlərini həyata keçirməyə başladı. Naxçıvanda da tam sabitlik və əmin-amanlıq yaratmaq üçün dövlət quruculuğu sahəsinə ciddi fikir verildi.Naxçıvan Muxtar Respublikasında gərginliyin aradan qaldırılmasında və Heydər Əliyev tərəfindən əsası qoyulmuş quruculuq təməlinin pozulmasının qarşısının alınmasında 1995-ci ilin noyabr ayında keçirilən Naxçıvan MR Ali Məclisinin sessiyasının böyük rolu oldu. Muxtar respublikada kadr siyasətində köklü dəyişiklik edildi. Bu dəyişikliklərlə əlaqədar sessiyada Heydər Əliyev məktəbindən bəhrələnən, onun quruculuq ideyasına söykənən Vasif Talıbov yekdilliklə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə Sədr vəzifəsinə seçilir.

Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı əslində Azərbaycanın özünə qayıdışı oldu. Onun hakimiyyətə qayıdışı ilə Azərbaycanda mövcud olan gərginlik və müşkül məsələlər öz axarına düşdü. Azərbaycan xalqı azad, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə irəliləyərək, bütün ölkələr və xalqlar ilə sülh, dostluq və əməkdaşlıq şəraitində yaşamağa başladı. Müharibə şəraitinə, ağır iqtisadi vəziyyətə, 1993-1995-ci illərdə olan təxribatlara baxmayaraq, Azərbaycan yenidən bütün sahələrdə, o cümlədən dövlətçilik, ordu, mədəni, iqtisadi, siyasi sahələrdə quruculuq yoluna qədəm qoydu. Heydər Əliyev 1993-cü ilin oktyabr ayında xalq tərəfindən yekdilliklə prezident seçildikdən sonra, onun Naxçıvan Muxtar Respublikasında işləyib hazırladığı və həyata keçirdiyi sosial-iqtisadi inkişaf proqramının birinci mərhələsi başa çatdı.

## ƏDƏBİYYAT


1. Talıbov V. Heydər Əliyev cənablarının siyasi fəaliyyətinin Naxçıvan dövrünün elm və maarifçilik məsələləri. NDU-nun Elmi Əsərləri, 1997, №1, s. 5-6
2. Həbibbəyli İ., Hacıyev İ., İsmayılov B. İntibahın 15 ili. Naxçıvan, Əcəmi, 2010, 280 s.
3. Cabbarzadə M. Müstəqillik dövründə Naxçıvanda iqtisadiyyat. Elm və həyat, 2011, №4, s. 91-93
4. Şahverdiyev Z. Naxçıvan Muxtar Respublikası 1991-200-ci illərdə.Qismət, 2002-ci il
5. Şahverdiyev Z. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı. 2000-2012-ci illər. Dərs vəsaiti
6. 2001-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan, Əcəmi, 2002, 67 s.
7. Şərq qapısı qəzeti, 1990-1995-ci illərdəki sayları.


## ABSTRACT


**Zahmat Shahverdiyev**


**The chronologicalanalysisof historicaleventsin Nakhchivan at the end of XX century**


In the article the main goal was the exploring of this issues from historiography point of view and considering the need of events analysis took place in NAR at the end of XX century.

Azerbaijan`s integral part, Nakhchivan land passed the complex development path and lived the rich history heroically.At all stages of history, as a result of its children` efforts, the area of the region was protected from enemy attacks and developed. At the end of the 80s, the situation and difficulties Autonomous Republic faced, was eliminated with the skill of fearless and brave

children.Especially, in the summer of the 90s, the world-wide political figure HeydarAliyev`s return to Nakhchivan, his joint with the local people saved this land from future disasters, gave power and potency to the confidence and fighting of people.Indeed, in the early of the 90s, the attacks of Armenians to Nakhchivan was created complex and dangerous situation in the region.

The honorable HeydarAliyev`s election as the chairman of Supreme Assembly of NAR and the policy based on reality of the political figure saved the people and region from expected disasters. The elimination of foreign dangerous, the development and internal stability was based on those years. The direction of historical events on those years was deal with the name of the statesman HeydarAliyev.

The continue of honorable HeydarAliyev`s policy in NAR, and the events, works held in 1995-2001 dealing with this, gave special attention to the chronological analysis of historical events with the skill of VasifTalibov, the chairman of Supreme Assembly of NAR.

Thus, the chairman of Supreme Assembly of NAR Vasif Talibov implemented Heydar Aliyev`s policy with motherlandlove and principle, it was efforted to the exploring of achieved success scientifically.


**РЕЗЮМЕ**

**Захмат Шахвердиев**

**Хронологический анализ исторических событий**
**В Нахчыване в конце XX века**

Учитывая научную потребность в хронологическом анализе происходивших в конце XX века в Нахчыванской Автономной Республике событий, в статье поставлена цель рассмотреть эти вопросы с точки зрения краеведения.

Обосновывается мысль, что Нахчыванский край, являющийся неотъемлемой частью Азербайджана, проходя очень сложный, тернистый путь развития, одновременно пережил богатую героизмами историю. Во всех этапах истории в последствии усилий своих сынов территория региона защитилась от нашествий и развивалась. Трудная и сложная обстановка, с которой приходилось встречаться автономной республике в конце 80-х годов прошлого столетия, также была ликвидирована благодаря умению бесстрашных и мужественных сынов. Особенно приезд в Нахчыван политического деятеля мирового масштаба Гейдара Алиева летом 1990 года, его пребывание вместе с местным населением, спас этот край от будущих бедствий, придал силу и уверенность борьбе населения, когда действительно, в начале 1990-х годов нашествия армян в Нахчыван создали крайне сложную и опасную ситуацию в Нахчыване.

Избрание уважаемого Гейдара Алиева Председателем Верховного Меджлиса Нахчыванской Автономной Республики, проводимая этим видным политическим деятелем дальневидная и обоснованная на реальность политика спасла этот регион и его население от ожидаемых несчастий. Ликвидация внешней опасности, основа внутренней стабильности и развития были заложены именно в эти годы. Направление исторических событий тех лет на верное русло связано с именем всемирно известного государственного деятеля Гейдара Алиева.

В работе основное место также отведено мероприятиям, выполненным работам, осуществленным в 1995-2001 годах как продолжение политики великого Гейдара Алиева, особое внимание уделено хронологическому анализу достижений деятельности Председателя Верховного Меджлиса Нахчыванской Автономной Республики Васифа Талыбова, ставших возможным благодаря его инициаторской, организаторской и управленческой способностям.

Таким образом, сделана попытка в научном аспекте рассмотреть очень принципиальное, отличающееся любовью к родине проведение в жизнь линии Гейдара Алиева Председателем Верховного Меджлиса Нахчыванской Автономной Республики Васифом Талыбовым и оценить приобретенные ими достижения.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

**FƏXRƏDDİN SƏFƏRLİ**
*AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu*
*E-mail: hacifexreddin@yahoo.com.tr*

***UOT: 94 (479.242)***

# "NAXÇIVANQALA" TARİX-MEMARLIQ MUZEYKOMPLEKSİNDƏ NÜMAYİŞ ETDİRİLƏN EPİQRAFİK ABİDƏLƏR

***Açar sözlər***: *Naxçıvanqala, muzey, kitabə, İzzi Şərəf xanım, Kəngərli*
***Keywords***: *Nakhchivangala, museum, inscription, Izzi Sharaf Khanum, Kangarli*
***Ключевые слова:*** *Нахчыванкала, музей, надпись, Иззи Шараф ханым, Кенгерли*

Məlum olduğu kimi qədim və orta əsrlər zamanı düşmən hücumlarından qorunması məqsədi ilə strateji əhəmiyyətə malik yaşayış məskənlərinin ətrafında qala divarları hörülürdü. Yaxın Şərqin mühüm ticarət, sənətkarlıq və mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan şəhəri də belə yaşayış məskənlərindən biri olmuşdur. Qədim zamanlarda indiki Naxçıvan şəhərinin cənub-şərq tərəfindəki ərazidə yerləşən Naxçıvan şəhəri də möhtəşəm qala divarları ilə əhatə olunmuşdur. Yerli əhali arasında "Köhnəqala", "Torpaqqala" adı ilə tanınan qala ərazisindən əldə olunan arxeoloji materiallar, xüsusilə daş gürzlər Tunc dövründə (e.ə. III-II minilliklər) qədim duz mədənlərində duz çıxarılmasında istifadə olunan alətlərlə eyni olduğu üçün bu qalanın da həmin vaxtlardan inşa olunduğunu təxmin etmək olar. İnşa tarixi dəqiq məlum olmayan qalanın ilk orta əsrlər zamanı tikildiyi haqqında da fikirlər vardır. Zəmanəmizədək yarım dağılmış vəziyyətdə gəlib çatan qala Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 5 iyun 2013-cü ildə imzaladığı "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqındakı Sərəncama (3) əsasən qalada bərpa-abadlıq işləri aparılmış və orada Naxçıvanın qədim tarixi-mədəni irsinin mühafizəsini təmin etmək məqsədi ilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi yaradılmışdır. Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi şənliklərində iştirak etmək üçün Naxçıvana gələn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 7 aprel 2014-cü ildə bu kompleksi açmış, onun muzeyi ilə tanış olmuş, tapşırıq və tövsiyələrini vermişdir (2, s. 23-24).

Qalanın mərkəzində dairəvi planda yaradılmış iri həcmli muzeydə Naxçıvan ərazisindəki bir sıra arxeoloji abidələrdən aşkar olunmuş və bölgə tarixinin müxtəlif dövrlərini əks etdirən keramika məmulatları, xalçalar, geyimlər, silahlar və s. eksponatlarla yanaşı ərəb əlifbasının müxtəlif xətləri ilə həkk edilmiş bir neçə epiqrafik sənəd – kitabə də nümayiş etdirilir. Muzeyə gələn yerli və əcnəbi vətəndaşlara, turistlərə, ümumiyyətlə muzeyə baxanlara dəqiq məlumat verilməsi məqsədi ilə burada onlar haqqında, həmin kitabələr haqqında xronoloji ardıcıllıqla məlumat veriləcəkdir.

Culfa rayonunun Xanəgah kəndinin şərq tərəfində yerləşən Xanəgah kompleksində XX yüzilliyin 70-ci illərində aparılan bərpa-abadlıq işləri zamanı torpağın altından üç ədəd sənduqə tipli qəbirüstü xatirə abidəsi aşkar edilmişdir. Bu abidələr mühafizə olunmaq üçün Naxçıvan Dövlət Tarix Muzeyinə təhvil verilmiş və orada mühafizə və nümayiş etdirilmişdir. "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi yaradılarkən həmin abidələrdən ikisi buraya gətirilmiş və nümayiş etdirilmək üçün ekspozisiyaya qoyulmuşdur.

1. Mərmərin xüsusi növü oniksdən hazırlanmış, səthi gözəl nəbati və həndəsi ornamentlərlə bəzədilmiş sənduqə tipli qəbirüstü xatirə abidəsi (110x29x19 sm). Ortadan sınaraq iki yerə bölünmüş bu abidənin səthinin kənarlarında lentvari haşiyə şəklində Quran ayəsi (Ayət əl-Kürsü) həkk edilmişdir: *Qurani-Kərim II-255*.

Abidənin səthinin baş tərəfində düzəldilmiş çərçivə içərisində isə belə bir kitabə həkk

edilmişdir:

"*Bu bağça əmir Ərəbşahın qızı, mərhumə Qureyş Şahba[nu]nundur. 848-də*" (4, s. 58).

*848 h.i. = 20.4.1444 – 8.4.1445-ci il.*

Mərhumə Qureyş Şahbanunun şəxsiyyəti haqqında hələlik sanballı elmi fikir söyləmək mümkün olmasa da, daşıdığı titul göstərir ki, onun atası Ərəbşah orta əsrlərdə heç də hamıya nəsib olmayan "Əmir" tituluna layiq görülən görkəmli hərbçi olmuşdur.



*Şəkil 1*

2. Əlincəçay sahilindəki xanəgahda aşkar olunmuş əvvəlki sənduqə ilə müqayisədə nisbətən kiçik ölçüdə (73x23x23 sm) hazırlanmış, ancaq bədii tərtibat cəhətdən ondan heç də geri qalmayan xatirə abidəsi (şəkil 1). Abidənin baş tərəfindəki düzbucaqlıda iki sətirdə, ərəb dilində belə bir kitabə həkk olunmuşdur:

"*Bu bağça əmir Xəlifənin oğlu, mərhum əmir Şahmənsurundur*" (4, s. 57-58).

Göründüyü kimi kitabə XV yüzillikdə yaşamış orta əsrlər zamanı yüksək hərbi titul sayılan "Əmir" rütbəsinədək yüksəlmiş iki nəfər şəxsiyyətin adını bizə təqdim edir.

Sənduqənin səthinin kənarları boyunca lentvari haşiyə şəklində dini xarakterli epiqrafik motiv həkk edilmişdir. Dua xarakterli bu dini mətnin ardınca isə mərhum əmir Şahmənsurun vəfat tarixi qeyd edilmişdir:

"*Səkkiz yüz doxsan səkkizinci ilin mübarək ramazan ayında fani dünyadan əbədi dünyaya köçdü*" (4, s. 57-58).

*Hicri-qəməri təqvimi ilə 898-ci ilin ramazan ayı 16.06-15.07.1493-cü ilə müvafiqdir.*

3. Baş tərəfi sınıb itmiş başdaşı parçası vaxtilə Ordubad şəhərinin qərb tərəfində yerləşən "Qoç" qəbristanlığından gətirilərək Ordubad rayon Tarix-diyarşünaslıq muzeyində nümayiş etdirilmiş, sonralar Naxçıvan Dövlət Tarix Muzeyinə təhvil verilmişdir. Hazırda "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində nümayiş etdirilir. Üzərindəki kitabə qalıqlarından məlum olur ki, başdaşının səthinin yanlarında sol tərəfdə aşağıdan başlayaraq lentvari haşiyə şəklində Qurani-Kərimdən II surənin 255-ci ayəsi (Ayət əl-Kürsü) həkk edilmişdir (şəkil 2). Başdaşının səthinin mərkəz hissəsində qalan 3 sətirlik kitabənin mətninin tərcüməsi belədir:



*Şəkil 2*

"*Mərhum Şəmsəddin Məhəmmədin oğlu Nəsrullah-torpağı yumşaq olsun. İyirmi rəbiəl-əvvəl, doqquz yüz otuz ikinci il tarixdə*".

*20 rəbiəl-əvvəl 932 h.i. = 06.01.1526-cı il.*

4. Ağ rəngli mərmərdən hazırlanmış başdaşı tipli qəbirüstü xatirə abidəsinin bir parçası. Başdaşının ancaq axırıncı sətri yazılan aşağı hissəsi qalmışdır. İki parçadan ibarətdir. Mərmər lövhənin sol tərəfi də sındığı və bizədək qalmadığı üçün kitabənin mətni tam deyildir. Mətnin qalan hissəsinin tərcüməsi belədir:

"*... altmış dördüncü ildə*".

*XVI əsr.*



5. Mərmərdən hazırlanmış sənduqə tipli qəbirüstü xatirə abidəsinin bir parçası. Abidə keçən yüzilliyin 70-ci illərində Əlincəçay xanəgahından Naxçıvan Dövlət Tarix Muzeyinə gətirilmişdir. Sənduqənin yan tərəflərində qalan kitabə motivlərindən aydın olur ki, mətn *Qurani-Kərimin "İxlas" (CXII) surəsinin mətnindən ibarət olmuşdur.* Kitabə keçən əsrin 80-ci illərində tam halda tərəfimizdən tədqiq olunmuş və həmin vaxt sənduqə iki yerə bölünsə də hər bir parçası qaldığından bütöv olan kitabənin mətninə əsasən müəyyən edilmişdi ki, abidə (şəkil 3) *10 cəmadi əs-səni 1000-ci ildə (24.3.1592-ci il) vəfat etmiş Əmirzadə Qəzənfərin* xatirəsinə hazırlanmışdır (5, s. 48-49).

6. Kiçik kitabə parçası üzərində qalan yeganə sözlərə əsasən mətnin Qurani-Kərimdən götürülmüş ayədən ibarət olduğu aydın olur: *II – 255.*

*XVI əsr.*

7. XX yüzilliyin 60-cı illərində Ordubad şəhər Came məscidinin ətrafında bərpa işləri aparılarkən torpağın altından tapılmış və Naxçıvan şəhərindəki Dövlət Tarix Muzeyinə təhvil verilmiş başdaşı tipli xatirə abidəsi. Sarımtıl rəngli mərmərdən hazırlanmış, yuxarıdan yarım dairə şəklində tamamlanan başdaşı (72x38x8 sm) üzərində ərəb dilində süls xətti ilə altı sətirdə həkk edilmiş kitabənin (şəkil 4) mətni belədir:

*Şəkil 3*

"*Quran LV-26. Mərhum, bağışlanmış Mirzə İnayət ən-Nəsiri ət-Tusinin qızı, mərhumə, günahları bağışlanmış İzzi Şərəf xanımın vəfat tarixi: rəcəbəl-mürəccəb ayının əvvəli, çərşənbə günündə. 1169*" *(5, s. 65-66).*

*Rəcəb ayının əvvəli, çərşənbə günü, 1169 h.i. = 07.04.1756-cı il.*



Görkəmli ensiklopedist alim Nəsirəddin Tusi nəslinə aid iki şəxsiyyətin adını (Mirzə İnayət və qızı İzzi Şərəf xanım) təqdim edən kitabə Nəsirəddin Tusi nəslinin qədim zamanlardan Ordubad şəhərində və ətraf kəndlərdə yaşamasını təsdiq edən çox mühüm epiqrafik sənəddir.

8. Ağ rəngli mərmərdən hazırlanmış başdaşı tipli qəbirüstü xatirə abidəsi üzərində həkk edilmiş kitabə (şəkil 5). Mətnin tərcüməsi belədir:

*Şəkil 4*

*"Quran LV-26. Kərbəlayi Hüseynin arvadı Sona xanım. İyirmi səfər 1238-ci ildə" (5, s. 79).*

*20 səfər 1238 h.i. = 6.11.1822-ci il.*



9. Boz rəngli daşdan hazırlanmış başdaşı (96x19x16 sm). Başdaşının baş tərəfində həkk edilən kitabənin mətni belədir:

*"Fəthullah. 1238".*

*1238 h.i. = 18.9. 1822 – 6.9.1823-cü il.*

10. Bir müddət Naxçıvan Dövlət Tarix Muzeyində mühafizə olunan, hazırda Naxçıvanqala Tarix-Memarlıq Muzey Kompleksinin ekspozisiyasında nümayiş etdirilən başdaşı üzərində kitabə. Sarımtıl rəngli mərmərdən hazırlanmış başdaşı tipli xatirə abidəsinin üzərində Nəstəliq xətti ilə həkk edilmiş kitabənin mətninin tərcüməsi belədir:

*Şəkil 4*

*"O əbədidir! Hər bir kəs [hər bir canlı] ölümü dadacaqdır (Qurani – Kərim, XXIX-57)* (1, s. 402). *Həqiqətən dünya fanidir. Dünya əbədi ev deyil. Həqiqətən dünya hörümçək toru dəyərində deyil. Cəfərqulu bəy Kəngərlinin oğlu Vəliqulu bəyin vəfat tarixi: 1260-cı il, aylardan şəban əl-müəzzəm ayının yeddisində"* (5, s. 80-81).

*7 şəban 1260 h.i. = 22.08.1844-cü il.*

Naxçıvan xanları ailəsinə mənsub adamların adətən şəhərin cənub tərəfində yerləşən İmamzadə kompleksinə daxil olan ikinci türbədə və ətrafında dəfn olunmalarına əsasən Naxçıvan Dövlət Tarix Muzeyinə oradan gətirilməsi ehtimal olunan kitabə Naxçıvanın qədim sakinlərindən

olan Kəngərli tayfasına mənsub iki nəfər şəxsiyyətin, Cəfərqulu bəyin və oğlu Vəliqulu bəyin adını qoruyub saxlamış və bizə çatdırmışdır.

11. Qırmızımtıl rəngli daş üzərində həkk edilmiş kitabə. 7 sətirdə cızma üsulu ilə qismən ərəb, fars, əsasən Azərbaycan dilində həkk edilmiş kitabənin mətni belədir:

*"Bu məzar Kərbəlayi Əli Qoçəlizadə Naxçıvaninin oğlu mərhum, şəhid Məşədi Hüseynindir. 21-ci il. Ey Hüseyn, ey millətin və şüarın hamisi. Səbəbsiz qətlə yetişdin, olmadın bir kamkar (arzusuna yetişmiş, xoşbəxt). Daima oldun vətən fikrində, qıldın səylər. Mənaye əfkarını bir görmədin ey namdar".*

Kitabənin ikinci sətrinin sonunda "21-ci il" tarixi həkk edilmişdir. Fikrimizcə, bu tarixi mərhum Məşədi Hüseynin vəfat tarixi kimi qəbul etmək olar. Ancaq kitabənin yazıldığı xəttin paleoqrafiya xüsusiyyətləri və digər tarixi faktlar, xüsusi ilə həmin vaxt Azərbaycanın islamlaşmaması faktı kitabəni hicrətin 21-ci (miladi 643-cü il) ilinə aid etməyə imkan vermir. Ona görə də müsəlman epiqrafikası abidələrində tarixləri yazarkən az da olsa təsadüf edilən minliyi ifadə edən rəqəmin yazılmaması faktına istinad edərək, bu kitabədə də tarix həkk edilərkən minliyin ifadə olunmamasını düşünür və tarixi hicri – qəməri təqvimi ilə 1021-ci il kimi qəbul edirik.

1021 h.i. = 4.3.1612-20.2.1613-cü il.

Kitabənin yazıldığı 1612-ci il Səfəvilər dövlətində fars etnik qrupunun təsirinin və nüfuzunun artması dövrünə təsadüf etsə də həmin vaxt yenə də Azərbaycan dili dövlət aparatında və sarayda, xüsusi ilə dövlətin tərkib hissəsi olan Azərbaycanda əhalinin əsas danışıq vasitəsi kimi işlənirdi. Ona görə də kitabənin az bir hissəsi ərəb, fars, çox hissəsi Azərbaycan dilində həkk edilmişdir.

**ƏDƏBİYYAT**


1. Quran-i Kərim Məali. Azərbaycan dilinə tərcümə edənlər: Ziya Bünyadov və Vasim Məmmədəliyev. Bakı, İpək yolu, 2007, 604 s.
2. Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan, Əcəmi, 2014, 104 s.
3. "Şərq qapısı" qəzeti 6 iyun, 2013-cü il
4. Сафаров Ф.Я. Эпиграфические памятники из Ханикаха на Алинджачай Нахичеванской АССР. Археологические и этнографические изыскания в Азербайджане (1976). Баку, Элм, 1979, с. 57-59
5. Сафаров Ф.Я. Арабо-персоязычные надписи Нахичеванской АССР (XVI- XIX вв) как историко-культурные памятники. Баку,1987, 179 с., Azərb. ЕА ТИЕА. Инв. № 8383.



**ABSTRACT**

**Fakhraddin Safarli**

**"Nakhchivangala" history – epigraphic monuments of architecture on display in the musuem complex**

The article "Nakhchivangala" History - epigraphic monuments of architecture on display in the Museum Complex - inscriptions deal with. The article Quraysh Sahbanu, Amir Sahmansur, Izzi Sharaf Khanum and other persons the tomb inscriptions belonging to the information inscriptions texts were translated into Azerbaijan.

**РЕЗЮМЕ**

**Фахреддин Сафарли**

**Эпиграфические памятники, демонстрированные в комплексе историко – архитектурном музее «Нахчыванкала»**

Статья посвящена эпиграфическим памятникам - надписей, демонстрированные в Комплексе Историко–Архитектурном Музее «Нахчыванкала». Здесь обсуждено о надписях, принадлежащим Гурейш Шахбану, Амир Шахмансур, Иззи Шараф ханым и др. выдающимся личностям и представлены переводы надписей на Азербайджанском языке.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

**VİDADİ MURADOV**
*AMEA Naxçıvan Bölməsi*
*vidadimuradov@gmail.com*

***UOT: 94 (479.242)***

# XVIII-XX əsrin əvvəllərində Ordubad şəhərinin iqtisadi həyatına dair

***Açar sözlər:*** *Ordubad şəhəri, ticarət, dövriyyə, satış bazarı, karvansara, dükan, sənətkarlıq, emalatxana, istehsal, tənəzzül, meyvə*

***Keywords:*** *Ordubad city, trade, circulation, sales market, caravanserai, shops,craftsmanship, workshop, production, decline, fruit*

***Ключевые слова:*** *город Ордубад, торговля, оборот, базар, каравансарай, ремесло, мастерской, производство упадок, фрукты*

Azərbaycanın orta əsr və yeni dövr şəhərlərinin əksəriyyəti kimi, Ordubad şəhərinin də iqtisadi həyatının əsasını ticarət, sənətkarlıq və əkinçilik, ilk növbədə isə bağçılıq və üzümçülük təşkil edirdi. Şəhərin iqtisadi həyatında ticarət xüsusilə mühüm rol oynayırdı. Bunu hələ 1727-ci ildə tərtib edilmiş "Naxçıvan sancağının müfəssəl dəfətəri"ndə verilən məlumatlar da təsdiq edir. Həmin məlumatlardan aydın olur ki, bu dövrdə Ordubadda ticarət əməliyyatları şəhərdə fəaliyyət göstərən 6 karvansara və 210 dükan vasitəsilə həyata keçirilirdi [4, s.125-14]. Doğrudur, sonrakı 100 il ərzində baş vermiş müharibələr və çəkişmələr şəhərdə ticarətin inkişafına ağır zərbə vurmuşdu. Rus müstəmləkə dövrünün başlanğıcında şəhərdə əvvəllər fəaliyyət göstərmiş 6 karvansaradan yalnız ikisi salamat qalmışdı. Ticarət və sənətkar dükanlarının sayı isə XVIII əsrin əvvəlləri ilə müqayisədə 3 dəfədən də çox azalaraq 80-ə enmişdi [8, s.194]. Bu dükanlardan 30-da ipək və pambıq parçalar, mahud, çay, qənd, qəhvə, metal məmulatları, 20-də isə yeyinti məhsulları satılırdı [4, s.201-202].

Naxçıvan diyarının Rusiya imperiyasının tərkibinə qatılması ilə bölgədə yaranmış siyasi sabitlik Ordubad şəhərində də ticarətin inkişafına müsbət təsir göstərdi. XIX əsrin 60-cı illərində şəhərdə ancaq ticarət dükanlarının sayı 93-ə çatmışdı. Bu dükanlardan 32-ni illik ticarət dövriyyəsi 25 min rubl təşkil edən bəzzaz dükanları, 29-nu ancaq Asiya ölkələrində istehsal edilən məhsulların satışı ilə məşğul olan və ümumillik ticarət dövriyyəsi 15 min təşkil edən xırdavat dükanları, 28-ni isə meyvə və digər kənd təsərrüfatı məhsullarının satışı ilə məşğul olan və ümumi illik dövriyyəsi 9 min rubla bərabər olan baqqal dükanları təşkil edirdi [12, s.52].

Ordubad şəhəri həm onu əhatə edən kəndlərlə, bir çox iri şəhərlərlə sıx ticarət əlaqələri saxlayırdı. Mənbələrin verdikləri məlumatdan aydın olur ki, ordubadlı tacirlər Rusiya ilə İran arasında gedən tranzit ticarətdə mühüm rol oynayırdılar. Onlar Rusiyanın Moskva, Həştərxan və digər şəhərlərindən rus mallarını alaraq İranda satırdılar [8, s.201]. Ordubadlı tacirlər Təbriz şəhəri ilə daha sıx əlaqə saxlayırdılar. Onlardan 10 nəfəri Təbrizdən gətirilən malların ancaq topdansatış ticarəti ilə məşğul olurdu [8, s. 201]. XX əsrin əvvəllərində Ordubad şəhəri Naxçıvan, Bakı, Nuxa, Şuşa, Tiflis, İrəvan kimi şəhərlərlə də sıx ticarət əlaqələri saxlayırdı [10, s. 24; 14, s.93].

Ordubadın daxili və xarici ticarət əlaqələrində yerli istehsalın məhsulları, ilk növbədə sənətkarlıq və bağçılıq məhsulları əsas yerlərdən birini tuturdu. Yerli sənətkarların istehsal etdikləri müxtəlif növ misgərlik məmulatları, ayaqqabı, xam ipək, dabbağ məmulatları yerli tələbatı ödəməklə yanaşı, qonşu ölkələrə və kəndlərə də göndərilirdi. Onların bir qisminin əsas satış bazarı Naxçıvan və İrəvan şəhərləri idi. Üzümçülük və bağçılığın yüksək dərəcədə inkişaf etməsi müxtəlif növ bağçılıq məhsulları ilə ticarətin inkişafı üçün əlverişli şərait yaradırdı. Təkcə o faktı göstərmək kifayətdir ki, 1857-ci ildə Ordubad şəhərində ümumi dəyəri gümüş pulla 36 min rubl olan meyvə istehsal edilmişdi. İstehsal edilmiş bu meyvənin əsas satış bazarını Naxçıvan, İrəvan, Tiflis,

Aleksandropol və digər şəhərlər təşkil edirdi. Hər il Ordubaddan Naxçıvan şəhərinə ümumi dəyəri 12 min rubl təşkil edən 20 min pud üzüm, ərik, şaftalı, alma və s. meyvələr göndərilirdi [12, s.52].

Ordubad meyvələrinin əsas satış bazarlarından birini də İrəvan şəhəri təşkil edirdi. XIX əsrin sonlarına aid olan məlumata görə, hər il Ordubaddan İrəvan şəhərinə 15 min pud ancaq qurudulmuş ərik göndərilirdi [11, s.158]. Ümumiyyətlə götürdükdə, XIX əsrin 60-cı illərində Ordubaddan ixrac edilən məhsulların ümumi dəyəri gümüş pulla 60-70 min rubl təşkil edirdi [12, s.52] ki, bunun da əsas hissəsi bağçılıq məhsullarının payına düşürdü. Ordubad şəhərinin apardığı ticarət əlaqələrinin həcmi hətta əhalisi daha çox olan Naxçıvan şəhərini üstələyirdi. Mənbələrdən birində bunun başlıca səbəbi kimi Ordubadda taxılçılığın zəif inkişaf etməsinin ticarət və sənətkarlığın inkişafına güclü təkan verməsi göstərilir [12, s.52]. Əlbəttə, Ordubad şəhərinin istər daxili, istərsə də xarici ticarət əalqələrinin inkişafına digər faktorlar da ciddi təsir göstərirdi.

Əhalinin sayı baxımından Ordubad şəhəri Naxçıvan şəhərindən geri qalsa da, sənətkarlıq və sənaye məhsulları istehsalına görə onu xeyli üstələyirdi. Mənbələrdə istehsalın bu sahələrinin də inkişafı Ordubadda taxılçılıq məhsullarının istehsalı üçün zəruri olan münbit torpaqların azlığı ilə izah olunur [12, s. 52]. Çox təəsüf ki, mənbələrdə Ordubadda sənətkarlığın vəziyyəti haqqında məlumatlar tədqiq etdiyimiz XVIII-XX əsrin əvvəllərini tamamilə əhatə etmir. Xüsusilə XVIII əsrdə bu sahənin vəziyyətini özündə əks etdirən məlumatlar, demək olar ki, yox dərəcəsindədir. Hətta “Naxçıvan sancağının müfəssəl dəftəri” kimi mötəbər mənbədə də Ordubad şəhərinin sənətkarlıq həyatı haqqında heç bir məlumata rast gəlmək mümkün deyil.

Ordubad şəhərində sənətkarlığın vəziyyəti haqqında sistemli və daha müfəssəl məlumatlara yalnız XIX əsrin 30-cu illərindən, daha doğrusu, Naxçıvan diyarının Rusiya tərəfindən işğalından sonra rast gəlmək mümkündür. Ordubad şəhərinin bu dövrdə rus məmurları tərəfindən tərtib edilmiş kameral təsvirində, eləcə də V.Qriqoryevin və İ.Şopenin əsərlərində şəhərdə sənət istehsalının vəziyyətini özündə əks etdirən xeyli faktiki materiala rast gəlmək mümkündür. Bu məlumatlardan aydın olur ki, bütün XIX əsrdə və XX əsrin əvvəllərində Ordubad şəhərində sənət istehsalının demək olar ki, bütün sahələrində sənətkarlar fəaliyyət göstərirdi. Bununla belə, tam inamla söyləmək olar ki, şəhərdə ilk növbədə yerli xammala əsaslanan sənət sahələri daha çox inkişaf etmişdi. Buna misal olaraq misgərlik sənətini göstərmək olar. Ordubadın ətrafında zəngin mis yataqlarının olması şəhərdə misgərlik sənətinin inkişafına güclü təkan vermişdi.

XIX əsrin 30-cu illərinə aid məlumatlar əsasında Ordubad şəhərində daha çox inkişaf etmiş və geniş yayılmış sənət sahələrini müəyyənləşdirmək olar. Şəhər sənətkarları arasında saylarının çoxluğuna görə toxucular öndə gedirdilər. Ümumi sayı 177 nəfər olan toxucular [1, v.14-16], əslində həmin dövrdə şəhərdə fəaliyyət göstərən bütün sənətkarların, az qala yarısını təşkil edirdilər. Sonrakı yerlərdə çəkməçilər (44 nəfər), müsgərlər (32 nəfər), həllaclar (29 nəfər), boyaqçılar (19 nəfər) və digərləri dayanırdı [1, v.14-16; 9, cəd.5; 16, s.343-346]. Onu da göstərmək lazımdır ki, bu sənətkarların böyük hissəsi, daha doğrusu 225 nəfəri bazarda və karvansaralarda yerləşən emalatxanalarda işləyirdilər [1, v.14-16].

Ordubadda sənət istehsalının daha bir fərqli cəhəti onun satış bazarının daha geniş olması idi. XIX əsrin 60-cı illərinə aid mənbələrdən birində göstərilir ki, Ordubadda “Sənətkarlıq sənayesi Naxçıvanla müqayisədə çox inkişaf etmişdi və yalnız yerli bazarla məhdudlaşmır; məsələn, dəmirçilik və misgərlik məmulatları satış üçün Naxçıvan qəzasına və qismən İrana göndərilir”. Oxşar vəziyyət ayaqqabı, ipək, qaytan və lent (şərid) istehsalı sahəsində də müşahidə edilirdi [12, s.53].

**Cədvəl 1**

**Ordubad şəhərində mövcud olan sənət sahələri və sənətkarların sayı [1, v.14-16; 5, s. 104, 124; 6, s. 53; 7, s.180-181; 9, cəd. 5; 15, s. 58]**

| Sənətkarlar | İllər | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 1832 | 1853 | 1854 | 1859 | 1864 | 1865 | 1867 | 1869 | 1886 |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| Başmaqçı və çəkməçilər | 54 | 33 | - | 16 | 41 | 45 | 48 | 77 | 32 |
| Keçəçilər | 2 | - | 2 | 1 | 9 | - | - | 5 | - |
| Dulusçular | 12 | 12 | - | - | 4 | 4 | - | 4 | 1 |
| Bənnalar | 10 | 10 | 10 | 14 | 17 | 17 | 18 | 17 | - |
| Zərgərlər | - | - | 3 | - | - | - | - | - | - |
| Gümüşbəndlər | 5 | 5 | - | 8 | 8 | 8 | 11 | 8 | 5 |
| Kərpickəsənlər | - | - | 1 | - | 14 | 15 | 4 | 12 | - |
| Dabbaqlar | 23 | 23 | 21 | 24 | 28 | 30 | 27 | 30 | 28 |
| Boyaqçılar | 19 | 11 | 21 | 17 | 10 | 9 | 4 | 10 | 8 |
| Dəmirçilər | 4 | 4 | 28 | 28 | 22 | 28 | 30 | 28 | 48 |
| Misgərlər | 32 | - | 2 | - | 42 | 42 | 47 | 40 | 22 |
| Qalayçılar | 4 | 4 | 3 | 6 | 4 | 4 | 10 | 8 | 4 |
| Nalbəndlər | - | - | - | - | 6 | 6 | 13 | 6 | - |
| Silahsazlar | 3 | 3 | 5 | 4 | - | - | - | 2 | 4 |
| Çilingərlər | 10 | 10 | - | - | 2 | - | - | 8 | 5 |
| Tokarlar | 2 | 2 | - | - | - | - | - | 11 | - |
| Toxucular | 177 | 181 | 112 | 84 | 14 | 16 | 18 | 11 | - |
| Həllaclar | 29 | 29 | - | - | 8 | 8 | - | 8 | - |
| Baftaçılar | 1 | 1 | - | - | - | 2 | - | - | - |
| Dərzilər | 10 | 10 | 5 | 5 | 2 | 6 | 8 | 6 | 3 |
| Papaqçılar | 24 | 27 | 20 | 12 | 12 | 12 | 19 | 12 | 8 |
| Dəyirmançılar | 7 | - | 2 | 1 | 9 | 8 | - | 2 | - |
| Sərrac və yəhər ustaları | 1 | 2 | 3 | - | 3 | - | - | - | 5 |
| Dülgərlər | - | - | 2 | 14 | 20 | 20 | 27 | 28 | - |
| Xarratlar | 17 | 20 | 6 | 1 | 7 | 7 | - | - | - |
| Ocaqçılar | - | - | - | - | - | - | 9 | - | - |
| Sabun ustaları | - | - | - | - | - | - | - | 2 | 3 |
| Pinəçilər | - | - | - | - | - | - | - | - | 5 |
| Qəssablar | - | 18 | - | - | - | - | 18 | 5 | 20 |
| Çörəkçilər | - | 11 | - | 2 | - | 15 | 17 | 15 | - |
| Bərbərlər | - | 19 | - | - | - | - | 2 | 3 | 5 |
| Tuluqçular | - | 3 | - | - | - | - | - | - | 4 |
| İpəksarıyanlar | - | - | - | - | - | - | - | - | 360 |
| Yekun | 446 | 455 | 236 | 217 | 282 | 294 | 333 | 358 | 577 |

Cədvəldə verilmiş statistik materiallar XIX əsrin 30-cu illərindən 80-ci illərinə qədərki

dövrdə Ordubad şəhərində sənət istehsalının vəziyyəti haqqında müəyyən təsəvvür yaradır. Bu materiallar əsasında başmaqçılıq, çəkməçilik, tikinti, dabbaqlıq, boyaqçılıq, dəmirçilik, misgərlik, toxuculuq, həllaclıq, papaqçılıq, dülgərlik və xarratlıq sənətlərinin daha çox inkişaf etməsi və geniş yayılması fikrini irəli sürmək olar. Bu sahələrdə çalışan sənətkarlar 1832-ci ildə şəhərdə fəaliyyət göstərən 446 sənətkardan 389-nu, 1869-cu ildə isə 358 nəfər sənətkarın 251 nəfərini təşkil edirdi.

Cədvəldə verilmiş statistik məlumatlar həm də Ordubad şəhərində mövcud olan sənət sahələrinin inkişaf və tənəzzül dinamikasını izləmək baxımından da əhəmiyyətlidir. Məhz bu materiallar əsasında Ordubadda XIX əsrin 30-cu illərindən 80-ci illərinə qədərki dövr ərzində toxuculuq sənətinin dərin tənəzzülə uğradığını birmənalı şəkildə bildirmək olar. Belə ki, 1832-ci ildə şəhərdə 177 nəfər toxucu fəaliyyət göstərirdisə, 1869-cu ildə onların sayı cəmi 11 nəfər təşkil etmişdi.1886-cı ildə isə şəhərdə bir nəfər də olsun toxucu qeydə alınmamışdı. Tənəzzül tendensiyası özünü dulusçuluq, həllaclıq, papaqçılıq, xarratlıq kimi sənət sahələrində də aydın şəkildə göstərirdi. Əlbəttə, bu sənət sahələrinin tənəzzülə uğramasını şərtləndirən bir sıra obyektiv səbəblər mövcud idi. Bu səbəblər sırasına şəhərin özündə kapitalist istehsal üsuluna əsaslanan manufaktura və fabrik tipli müəssisələrin meydana gəlməsini, Rusiyanın müxtəlif şəhərlərində istehsal edilmiş manufaktura məhsullarının idxalının artmasını və nəhayət, bu və ya digər sənət sahəsi ilə məşğul olan sənətkarların əldə etdikləri gəlirin kəskin şəkildə azalması nəticəsində qazanc dalınca digər şəhərlərə üz tutmalarını göstərmək olar. Təkcə o faktı göstəmək kifayətdir ki, 1859-cu ildə Ordubadda faəliyyət göstərən sənətkarların sayı 1832-ci illə müqayisədə 2 dəfədən də çox azalaraq 217 nəfərə enmişdi.

Fikrimizcə, Ordubad şəhərində sənət istehsalının tənəzzülünü şərtləndirən əsas səbəb kapitalist istehsalının sürətlə inkişaf etməsi olmuşdur. Arxiv sənədlərinin verdiyi məlumata görə, burada fabrik tipli ilk kapitalist müəssisələri hələ XIX əsrin 50-ci illərindən meydana gəlməyə başlamışdı. Əsasən ipək parça, xalça, palaz və s. istehsal edən bu müəssisələrin illik istehsal gücü əsrin 50-60-cı illərində 15-16 min rubl təşkil edirdi [2, s.357, 365; 3, s. 956, 983]. Şəhərdə və onun ətrafında yerləşən yaşayış məntəqlərində ipəksarıma müəssisələri daha sürətlə inkişaf edirdi. 1886-cı ilə aid mənbələrdən birində göstərilirdi ki, Ordubad dairəsində fəaliyyət göstərən 26 ipəksarıma zavodundan 17-si Ordubad şəhərində, yerdə qalnaları isə Nüsnüs, Yuxarı Əylis və Varakert kəndlərində yerləşirdi. Bütün bu müəssisələrdə işləyən işçilərin ümumi sayı 477 nəfərə çatırdı [13, s. 234]. Heç şübhəsiz ki, bu müəssisələrdə çalışanların əksəriyyətini vaxtilə şəhərdə sənət istehsalının müxtəlif sahələri ilə məşğul olmuş sənətkarlar təşkil edirdi.

XIX əsrin sonu-XX əsrin əvvəllərində Ordubadda fəaliyyət göstərən kapitalist müəssisələrinin istər sayında, istərsə də istehsal gücündə daha böyük irəliləyiş müşahidə edilirdi. Onu da göstərmək lazımdır ki, belə müəssisələr yalnız ipəkçilikdə deyil, həm də pambıqtəmizləmədə, gön-dəri və tikinti materialları istehsalı sahəsində də fəaliyyət göstərirdi. Bununla belə, kapitalist müəssisəsləri ipəkçilikdə daha çox inkişaf etmişdi. Təkcə o faktı göstərmək kifayətdir ki, XX əsrin əvvəllərində Ordubadda fəaliyyət göstərən 5 iri ipəksarıma müəssisənin illik ümumi gəliri 60 min rubl təşkil edirdi [14, s. 93]. Şübhəsiz ki, bütün bunlar şəhərdə həm sənətkarlıq istehsalının, həm də sənətkarların sayının kəskin şəkildə azalmasına səbəb olmuşdu.

## ƏDƏBİYYAT


1. Azərbaycan DTA, f.24, siy.1, iş 372
2. Azərbaycan MEA Tarix İnstitutunun Elmi arxivi, iş 2065
3. Azərbaycan MEA Tarix İnstitutunun Elmi arxiv, iş 2082
4. Naxçıvan sancağının müfəssəl dəftəri. Ön söz, qeyd və şərhlərin müəllifi H.Məmmədov, Bakı, 2001
5. Mustafayev C.M. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı, 2002
6. Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı, 2008
7. Ваидова Х. История города Ордубада. Баку, 2007
8. Григорьев В. Статистическое описание Нахичеванской провинции. СПб, 1833
9. Егиазаров С.А. Исследования по истории учреждений в Закавказье. ч.2. Городские цехи. Казань, 1891
10. Памятная книжка Эриванской губернии за 1908 г. Эриван, 1908

11. Сборник сведений по плодоводству в Закавказском крае, вып. II, Тифлис,1899
12. Сборник статистических сведений о Кавказе. т. I, Тифлис, 1869
13. Сборник сведений о Кавказе. т. VII, Тифлис, 1886
14. Сеферова Х.Р. Из истории экономической, социальной и духовной жизни Ордубада конца XIX-начала XX вв.// Социфека.2012, №2
15.Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. Баку, 1964
16. Шопен И. Исторический памятник Армянской области в эпоху ее присоединения к Российской империи. СПб., 1852

**ABSTRACT**

**Vidadi Muradov**

**On the economic life of Ordubad in the 18$^{th}$- early XX$^{th}$ century**

Trades and craftsmanship made up the basis of economic life of Ordubad city in the 18$^{th}$ and early 20$^{th}$ centuries. In addition to the local handicraft products, gardening products also held an important place in the internal trade. The merchants of Ordubad took an active part in the transit trade between Russia and South Azerbaijan and Iran, also. They sold more of their goods they purchased from different cities of Russia and Leipzig Fair in Tabriz city. The fields of craftsmanship production like textile, dyeing, footwear, production, coppersmith, leather dressing and hat making developed widely. Since the second half of the nineteenth century, however, a significant decline was observed in some of the areas of these arts. The emergence of manufacturing and factory-type businesses in the city, the mass import of manufactured products produced in the large industrial centers of Russia led to failure of different art fields eventually.

**РЕЗЮМЕ**

**Видади Мурадов**

**Об экономической жизни города Ордубад в XVIII - начале XX вв.**

В XVIII - начале XX вв. основу экономической жизни города Ордубад составляли торговля и ремесла. Во внутренней торговле, наряду с местными ремесленными изделиями, занимали важное место и фрукты. Ордубадские купцы принимали активное участие в транзитной торговле между Россией и Южным Азербайджаном. Они продавали в городе Тебриз товары, приобретенные ими в разных городах России и на Лейпцигской ярмарке. Развивались такие отрасли, как ткачество, красильное дело, производство обуви, медничество, кожевенное дело. Однако начиная с второй половины XIX века в некоторых отраслях стал наблюдаться серезный упадок. Создание в городе мануфактур и предприятий мануфактурного типа, массовый импорт продуктов, производимых в крупных промышленных центрах России, способствали исчезновению некоторых отраслей ремесла.

NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

**ŞAMXAL MƏMMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*

***UOT:327.2;94***

# XVIII ƏSRƏ QƏDƏRKİ DÖVRDƏ RUSİYA-ERMƏNİ ƏLAQƏLƏRİ

***Açar sözlər:*** *Almaz taxt, Nor-Cuğa, Kiyev rusu, Erməni koloniyası, ipək alveri, Anqexokot*
***Key words:*** *Diamond throne, Nor-Jugha, Kiev Russian, the Armenian colony, the silk trade, Angehokot*
***Ключевые слова:*** *Алмазный трон, Нор-Джуга, Киевская Русь, армянская колония, торговля шелком, Ангехокот*

Artıq bir neçə əsrdir ki, erməni ideoloqları, Cənubi Qafqazda xəyanətkar "beşinci dəstəsi" və forpostu olduğu, himayəsinə sığındığı Rusiya dövləti ilə əlaqələrinin minillik tarixi barədə uydurmalar, hekayətlər quraşdırmaqdadırlar. Lakin saxtakar erməni tarixçilərinin və yazarlarının bu əlaqələrin tarixinin erkən orta əsrlərdən, yəni təqribən V-VI əsrlərdən başlanması barədəki iddiaları heç bir elmi əsaslara və tarixi faktlara söykənmədiyindən, ermənilərin özlərindən və dəmtutanlarından başqa heç kim tərəfindən ciddi elmi araşdırmalar kimi qarşılanmır.

"Yalan" və "uydurma"nı özlərinə tarixi mənbə seçən erməni "alimləri" iddia edirlər ki, güya Kiyev Rusunun əsasını ermənilər qoyub. Onların yazdığına görə, "Bizim eranın V əsrində Dneprin yuxarı axarlarında erməni əhalisi tərəfindən Arta dövləti yaradılıb, erməni knyazı Smbat Baqratuni Dnepr çayının sahilində Smbatas qalasını salıb. Sonralar həmin qala şərqdən gələn əfsanəvi Kiy, Şek və Xoriv qardaşlarından böyüyünün şərəfinə Kiyev adlandırılmışdı. Arta dövləti Kiyev-Kursk-Bryansk üçbucağında yerləşirdi və Moskva həmin ərazinin şimal nöqtəsində yerləşirdi"(8). Məntiqlə düşünəndə, dövlət yarada biləcək sayda bir əhali niyə tarixən məskunlaşdığı əraziləri tərk edib indiki Ukraynanın şimalına köçsün. İkinci bir tərəfdən nə üçün dövlət öz adını və artıq mövcud olan qalasının adını üç gəlmə qardaşın şərəfinə dəyişsin? Axı hər gəlməyə görə ad dəyişmirlər.

Erməni ideoloqlarının iddialarına rəğmən, Rusiya tarixinin təməl kitabı olan "Povest vremennıx let" əsərində göstərilir ki, Kiyevin əsasını qoyan həmin qardaşlar və onların bacısı Lebed Moraviyadan gələrək Dnepr çayını keçmişlər və Xəzər xaqanından icazə alıb şəhər salmışlar. Əvəzində isə xəzərlərə vergi ödəyirmişlər.

Bu deyilənlər kimi, rusların slavyan mənşəli deyil, erməni mənşəli olması, Mərkəzi Rusiyada və Polşada yüz minlərlə erməni əhalisinin yaşaması, Rusiya tarixinin mühüm məqamlarında ermənilərin həlledici rol oynaması barədəki "ermənisayağı nağıllar" da sadəcə olaraq uydurmadır.

Başa bəla erməni tarixçiləri rus-erməni strateji müttəfiqliyinin köklərini də erkən orta əsrlərdə axtarır. Bunu qeyd etmək yerinə düşərdi ki, əvvəla strateji müttəfiqlik bərabər hüquqlu suveren dövlətlər arasında mümkündür. Erməni dövləti isə özünün bütün varlığı ərzində süzerenin kimliyindən asılı olmayaraq, vassal və satrap olmaqdan o yana keçməmişdir. İkincisi isə göstərilən dövrlərdə dünya xəritəsində nə Rusiya, nə də Ermənistan adlı dövlətlər yox idi. Bizans imperiyasının əsarəti altında olan və erməni müəlliflərinin "Qərbi Ermənistan" dediyi ərazilər və qüdrətli Xəzər xaqanlığına vergi verən, tabe olan kiçik rus knyazlıqları vardı.

Obyektiv elmi araşdırmalar göstərir ki, erməni saxtakarlarının iddialarına rəğmən, ruslarla ermənilərin ilk tanışlıqları heç də erkən orta əsrlərə aid deyildir. Bizim eranın VI-VIII əsrlərində hələ də ibtidai-icma quruluşunda yaşayan, dövlətçilik atributlarını yenicə yaratmağa başlayan şərq slavyanları, daimi başqısı altında olduqları türk-xəzərlərdən və normanlardan (varyaqlardan) özgə bir xalq tanımırdılar. Erkən slavyan dövlət qurumları da həmin xalqların nümunəsində və onların birbaşa təsiri altında formalaşmağa başlamışdı. Sonralar yazılmış və həmin dövrləri təsvir edən rus mənbələrində də uydurma Arta dövləti, Smbatas qalası və rusların "strateji müttəfiqi olan

ermənilər" barədə heç nə deyilmir.

Erkən rus tarixi mənbələrindən aydın olur ki, yalnız X əsrin əvvəllərində Kiyev knyazı Oleq və onun varisləri olan İqor, Olqa və başqalarının zamanında Bizans imperiyasının paytaxtı Konstantinopol üzərinə hərbi yürüşlər intensivləşəndə ermənilər slavyanlar barədə nə isə eşidə bilərdilər. Belə ki, Bizans imperiyasının ticarət və sənət dairələrində bəlli bir mövqeləri olan ermənilərin Kiyev tacirləri, slavyan döyüş drujinaları barədə məlumatları və onlarla əlaqələri mümkün idi.

Rusiyada ermənilər haqqında ilk məlumatlara yalnız XIII əsrdən etibarən rast gəlinir. Belə ki, məşhur rus tarixçisi S.M.Solovyov özünün "Qədim Rusiya tarixi" əsərində yazırdı ki, "Həmin yüzillikdə Qaliç və Volın knyazı Danil Romanoviç erməniləri öz mülklərinə dəvət etdi. O zamanlar Qərbi Ukraynada ilk erməni məskənləri meydana gəldi" (6, s. 8).

Xaç yürüşləri, ardınca Rusiya torpaqlarına monqolların viranedici yürüşləri zamanı erməni "başbilənləri" daha çox xaçlı rəhbərləri, Roma Papası və ali monqol xanları ilə münasibətlər yaratmağa üstünlük verirdilər. Doğrudur, ara-sıra erməni tacirləri Qızıl Orda bazarlarında və Qızıl Orda xanlarının asılılığında olan Rusiya şəhərlərində rus tacirləri ilə ticarət əlaqələrinə girirdilər.

Rusiya monqol zülmünə son qoyub, müstəqil dövlətə çevrildikdən sonra XVI əsrdə Moskvada ilk erməni koloniyasının əsası qoyulmuş, ticarət əlaqələrinin artmış, XVII əsrdə daha da möhkəmlənmişdi. İstər bu koloniyada, istərsə də tarixi Azərbaycan ərazisində yaşayan ermənilər Moskva ilə Səfəvi dovləti arasında ticarət vasitəçilərinə cevrilmişdilər. "Ticarət sahəsində kifayət qədər cevik olan ermənilər Rusiya dovlətinin arzusunda olduğu şərq əlaqələrinin formalaşmasında kifayət qədər fəallıq göstərirdilər. Rusiya əyanlarının ələ alınmasında da onlar oz fəallıqlarını gostərirdilər. Bu işdə onlar daha cox sınanmış vasitələrə-qiymətli hədiyyələrə, pula, ruşvətə əl atırdılar" (3, s.174).

Tarixdən məlum olduğu kimi, Səfəvi hökmdarı I Şah Abbas dövlətin hərbi-siyasi maraqlarını və iqtisadi çıxarlarını əldə əsas tutaraq, özünün "böyük sürgün" siyasətini həyata keçirərkən, xeyli sayda erməni ailələrini İsfahan yaxınlığında saldırdığı "Yeni Culfa" şəhərinə köçürmüş və burada onlar üçün əlverişli şərait yaratmışdı. "XVII əsrin əvvəllərində Səfəvi dövləti kəndlilərə və şəhər yoxsullarına qarşı daha kəskin mövqe tutduğu vaxt kələntər Xoca Xacik başda olmaqla Culfa ermənilərinə xususi qayğı gostərirdi. I Şah Abbas onlar ucun Yeni Culfada evlər, karvansaralar tikdirmişdi. Ermənilərin yerləşdikləri ərazilərdə də şah tərəfindən onlara eyni güzəştlər, özünüidarəetmə üstünlükləri, ən başlıcası isə ipək ticarətində monopoliya verilmişdi" (4, s. 39-40).

XIX əsr erməni tarixçisi Q.A.Ezov da bunu təsdiq edərək yazırdı: "Şah Abbas başa düşürdü ki, dövlətin qüdrəti ölkənin sərvətinə əsaslanır, ticarətin inkişafına diqqət yetirir, bu səbəbdən də Culfa ermənilərinə xüsusi himayə gös-tərir, ermənilər tərəfindən salınmış bu koloniyaya fikir verirdi. İpək istehsalı və ticarətini öz monopoliyasına alan Şah, onu müəyyən məbləğə erməni tacirlərinə vermişdi. Culfalılar bu ticarətdən özlərinə böyük fayda əldə edirdilər" (7, s.VI).

Mənbələr xəbər verir ki, XVII əsrin 20-ci illərində Culfada 30 min sakin yaşayır, 20 kilsə fəaliyyət göstərirdi. "Şah Abbas köçürdüyü erməniləri yeni vətənlərinə bağlamaq üçün Culfada müqəddəs Eçmiədzin adına kilsə tikdirmişdi. Şahın əmrilə tikintinin bünövrəsinə Eçmiədzin məbədindən xüsusi olaraq gətirilmiş daş qoyulmuşdu" (7, s.XII).

Əlbəttə, demək lazımdır ki, Şah Abbas ermənilərin yeni köçürülən əraziyə bağlanmasını, buranın abadlaşmasını və tərəqqisini istəyirdi, çünki bu dövlətin iqtisadi çıxarlarına cavab verirdi. Lakin burada belə bir kilsənin tikilməsi, hətta onun bünövrəsinə qoyulmaq üçün xeyli uzaq məsafədən müqəddəs daş gətirilməsi yəqin ki, ermənilərin öz təşəbbüsü və vəsaiti hesabına başa gəlmişdi. Şah isə sadəcə olaraq ermənilərin xahişini yerinə yetirmişdi. I Şah Abbas zamanı xeyli tərəqqi edən Yeni Culfa, İran ermənilərinin mühüm iqtisadi və dini-mədəni mərkəzinə çevrilmişdi. Belə ki, həmin dövrün Eçmiədzin katalikosu Akop, məşhur tacirbaşı Xoca Zaxar (Şarhadyan) da Yeni Culfa (Nor-Cuğa) şəhərindən çıxmışdılar.

Səfəvi dövlətinin lap mərkəzində, İsfahan yaxınlığında I Şah Abbasın qayğısı altında erməni tacirlərinin koloniyası yaranmışdı. Xəzər dənizi ilə həyata kecirilən ticarət əlaqələrinin əsas hissəsi də onların payına düşürdü. Erməni tacirləri həm də Şahın tapşırıqları əsasında Səfəvi dövlətinin xarici ölkələrlə məktublaşmasını həyata keçirir, məlumatlar toplayıb gətirirdilər. Onlar Avropanın dövlət başçıları və hakim dairələri ilə Şahın dövləti maraqlarını uzlaşdırarkən ermənilərin

mənafelərini də unutmurdular. Maraqlıdır ki, hətta "şah İranın xarici siyasət məsələləri ilə məşğul olmaq və Avropa ölkələri ilə diplomatik danışıqlar aparmaq səlahiyyətini özünün müşaviri Xoca Səfər adında erməniyə etibar etmişdi" (7, s.20). Erməni ticarət-sənətkar dairələrinə özünün zəngin vergi qaynağı kimi baxan hökmdarlarla, onların bir qayda olaraq pula ehtiyacını yaxşı başa düşən erməni varlıları həmişə çox asan dil tapa bilirdilər.Vaxtilə böyük fateh Əmir Teymur da, Ağqoyunlu hökmdarı Cahanşah da, Osmanlı sultanları da erməni tacirlərini himayə etmişdilər.

Səfəvi şahlarının erməni tacirlərinə xususi qayğı gostərməsini onlar özləri də etiraf edirdilər. Rusiyaya səfərləri zamanı erməni tacirləri Səfəvi dovlətinin onlara gostərdiyi qayğını belə xarakterizə edirdilər: "Şah bizə yardımcıdır. Biz gömrüksüz ticarət edirik. Ancaq şahın məzhəbi müsəlmandır, bizimki isə xristian. Ona görə də, böyük padşah (rus carı nəzərdə tutulur) üçün işləmək daha xoşdur" (3, s. 174).

Rəsmi dövlət strukturlarından gördükləri qayğı sayəsində erməni tacirləri və erməni kilsəsi varlandıqca ermənilərdə separatçılıq meylləri də artır, erməni dövləti yaratmaq uğrunda səyləri də çoxalırdı. Lakin həmin tarixi dövrdə erməni başbilənlərinin Roma Papası və bir sıra Qərb dövlətlərinə bağladığı ümidlər özünü doğrultmadı.

Bir tərəfdən I Şah Abbasın ölümü və ermənilərə əvvəlki qayğının azalması, digər tərəfdən XVII əsrin II yarısına doğru Səfəvilər dövlətinin artıq başlanmaqda olan tənəzzülü şəraitində iranlı tacirlərin şəxsində erməni ideoloqları yenidən öz ağalarını dəyişmək yolunu tutdular. Onların nəzərləri tədricən çar Aleksey Mixayloviç Romanovun hakimiyyəti illərində (1645-1676) artıq möhkəmlənmiş və inkişaf etmiş Rusiyaya çevrilməyə başlandı.

Ermənilər hələ o zamanlardan Şərq hökmdarları kimi, Rusiya çarlarını və saray elitasını da pulla və hədiyyələrlə ələ almaq sahəsində "qiymətli təcrübə" toplamışdılar. "1660-cı il avqustun 28-də Rusiyada İran ipəyi alveri ilə məşğul olan İsfahanlı Xoca Zaxar Sarhadov (Sarhadyan) çar Aleksey Mixayloviçə bir çox hədiyyələr vermişdi. Bu hədiyyələrdən biri hazırda Moskvada Kremlin silahlar palatasında saxlanan "Almaz taxt"dır" (2, s. 21). Xoca Zaxarın rus çarına gətirdiyi "qızıl, gümüş və fil sümüyündən Şərq üslubunda düzəldilən bu taxtın 22 599 manat (o dövr üçün bu çox böyük məbləg idi) olmaqla 987 almaz, 1298 yaqut, 18 mindən çox firuzə ilə bəzədilmişdi" (1,s.60). "Bundan əlavə Sarhadov rəssam Boqdan Saltanyanın Leonardo da Vinçinin "Sirli gecə" rəsminin surətini həkk etdiyi mis lövhəni də çara hədiyyə gətirmişdi" (2, s.2).

"1669-cu il dekabrın 3-də İsfahandakı erməni icmasından Stepan Misseqov və Boqdan Salbanov Rusiya hökmdarının adına Moskvaya hədiyyələr gətirmişdilər. Bir neçə il sonra İsfahandan erməni Sardarov öz ticarət xidmətçisi Stepan Romadamski vasitəsilə Rusiya çarına 9062 rubl dəyərində bəzəkli mallar göndərmişdi" (2, s. 21).

Erməni ideoloqlarının özləri də siyasi məqsədlər naminə Rusiyanın görkəmli dövlət xadimlərini pulla ələ aldıqlarını inkar etmirlər: "Nor-Cuğadan olan iri erməni taciri Xoca Zaxarın 1660-cı ildə çar Aleksey Mixayloviçə gətirdiyi almazlarla bəzədilmiş taxt indiyə qədər Moskvada, Kremlin silah palatasında saxlanılır" (5, s.164).

Erməni mənbələrinin ötəri olaraq qeyd etdiyi bu "taxt verilməsi" ilə başlanan rüşvət və ələ alma siyasəti sonrakı zamanlarda da davam etmiş, bu gün də erməni siyasətinin əsas vasitələrindən biri olmaqdadır.

"Azərbaycan torpağının istehsalı olan ipək alverindən əldə edilən qazancın böyük bir hissəsi rus əyanlarına muxtəlif hədiyyələr şəklində bağışlanır və bununla da rus əyanlarının ermənilərə bağlılığını artırırdılar. Sözsüz ki, Rusiyanın Şərq siyasətində öz məqsədləri var idi. Bununla belə, ermənilərin rus əyanlarını ələ alması ermənilərin xeyrinə olan siyasətin formalaşmasını daha da sürətləndirirdi" (3, s. 177).

Bütün bunlar bir məqsədə-Rusiyanın himayəsi altında Ermənistan dövləti yaratmaq ideyalarına xitmət edirdi. Bu intensiv hədiyyələr və bəxşişlər verilməsi, çarın və əyanlarının ələ alınması, habelə xoş olmayan Rusiya-Türkiyə, Türkiyə-İran münasibətləri zəminində erməni tacirləri daha da irəli getdilər. "1666-cı ildə Rusiya çarı Aleksey Mixayloviçin adına gondərilmiş müraciətdə goslərilirdi ki, indiyə qədər erməni tacirləri Avropa dövlətləri ilə olan ticarət əlaqələrini Türkiyə vasitəsiylə həyata kecirirdilər. Belə tranzit ermənilərə baha başa gəlirdi. Sonra ermənilər bildirirdilər ki, tranzitdən əldə edilən qazancın Turkiyədə deyil, Rusiyada qalmasını arzulayırdılar.

Onlar Xəzər-Volqa su yolu ilə tranzitin qurulması nəlicəsində Rusiya xəzinəsinə də qazanc gətirə biləcəklərini vurğulayırdılar. Rusiya dövləti üçün belə bir təklif son dərəcə əlverişli və siyasi baxımdan da maraqlı təklif idi. Onun reallaşdırılması Rusiyanı Avropa ilə Şərq arasında əlverişli məkana cevirə, Rusiya xəzinəsinə qazanc gətirməklə ona düşmən olan Osmanlı xəzinəsini real gəlirlərdən məhrum edə bilərdi. Belə bir müqavilənin bağlanmasının təşəbbüskarları isə erməni tacirləri Qriqori Luşikov və Stepan Moiseyev Romadamski idi" (3, s.179).

Çar Aleksey Mixayloviç qaldırılan təşəbbüsü bəyəndi və 1667-ci ildə erməni kompaniyasının Rusiyaya ipək və xammal gətirməsi haqqında 8 bəndlik fərman imzaladı. Həmin fərman əsasında "1667-ci ildə Rusiya dövləti ilə Nor-Cuğa tacirləri arasında ticarət müqaviləsi imzalanmışdı. Müqavilə nəinki Rusiya ilə ticarətdə erməni tacirlərinə verilən müəyyən imtiyazları, habelə Rusiya vasitəsilə qərbi Avropa ilə tranzit ticarəti nəzərdə tuturdu" (5, s.164). Həmin zamanlardan da ermənilərin bu ölkəyə yeni axını başlandı. Rusiyanın bir sıra mərkəzi şəhərlərində kiçik erməni məhəllələri meydana çıxdı, Aleksey Mixayloviçin sarayında erməni xidmət adamları görünməyə başlandı.

Lakin erməni ticarət və sənət adamlarının Rusiyanın Moskva, Tver, Nijni-Novqorod kimi iri şəhərlərində məskən salmaları da erməni-rus münasibətləri demək deyildi. Çünki ermənilərin təmsil etdikləri erməni dövləti yox idi. Osmanlı, İran, Avropa dövlətlərinin təbəələri olan erməni iş adamları və Rusiya şəhərlərindəki azsaylı, kiçik erməni icmaları isə bu münasibətlərin tərəfi ola bilməzdi. Rusiya dövləti ilə münasibətlər yaratmaqdan ötəri tərəf olmalı idi. Tezliklə bu tərəf rolunda həmişə olduğu kimi erməni kilsəsi çıxış etdi və XVII əsrin 70-ci illərində rus-erməni münasibətləri nisbətən intensivləşdi. Bu dövrdə Eçmiədzin katalikosu Akop Cuğalı çar Aleksey Mixayloviçə müraciət edərək, "erməniləri himayə etmək üçün mərhəmət göstərməyi" xahiş etmişdi. Oxşar xahişlə Qandzasar katalikosu Petros da Aleksey Mixayloviçə müraciət etmişdi.

70-ci illərin əvvəllərində Volqa-Xəzər bölgəsində kəndli-kazak hərəkatının artması, habelə Səfəvilər dövlətinin tənəzzülü zəminində ticarət yollarının pis qorunması ermənilərin Rusiya ilə ticarətinə mənfi təsir etməyə başladı. Ticarətin zəifləməsi ermənilərin sərvət toplamasına təsir etdiyi kimi, onların Rusiyanın himayədarlığına güvənmək xəyallarını da puça çıxara bilərdi. Bu təhlükənin və narahatcılığın aradan qaldırılması üçün 1673-cü ildə ticarət müqaviləsinin təşəbbüskarı olmuş erməni Qriqor Lusikov yenidən Moskvaya yollandı və rus əyanı Artoman Sergeyeviç Morozovla danışıqlar apardı. Həmin danışıqlar zamanı erməni taciri tranzit yolu üzərindəki təhlükənin aradan qaldırılması ilə bağlı rahatzılıqlarını ona çatdırdı. "Həmin danışıqların nəticəsi kimi qərara alındı ki, erməni tacirləri ilə Rusiya arasında yeni bir ticarət müqaviləsi imzalansın və ticarət yollarının təhlükəsizliyinin təmin edilməsi məsələsi bu müqavilədə öz əksini tapsın. Elə həmin ildə də belə bir müqavilə imzalandı. Yeni müqavilə erməni ticarətinin fəallaşması üçün yeni bir təkan oldu. Ticarət yollarının təhlukəsizliyi isə ermənilərin fəallaşmasına və Rusiyaya axışmasına əlverişli zəmin yaratdı" (3, s.179). Lusikov Moskvada ticarətlə yanaşı siyasi məsələlər barədə də danışıqlar aparmışdı. Lakin bütün bunlar danışıq olmaqdan o yana keçmədi və erməni "işbaz"larının istədikləri nəticəni vermədi. Belə ki, 1676-cı ildə çar Aleksey Mixayloviçin qəflətən ölümü və bundan sonra Rusiyanın dövlət idarəçiliyində, habelə daxili və xarici siyasətindəki qeyri-sabitlik, orduda vaxtaşırı baş verən qiyamlar erməni başbilənlərinin planlarını alt-üst etdi. Başları hakimiyyət uğrunda çəkişmələrə, saraydaxili intriqalara və streles qiyamlarına qarışan rus hakim dairələri daha erməni tacirlərinə əvvəlki diqqəti göstərə bilmirdilər. Ona görə də erməni tacirləri diplomatik mübarizə meydanını erməni avantüristləri və kilsə xadimlərinə verdilər.

1677-ci ildə Eçmiədzində katalikos Akop Cuğalının başçılığı, on iki dini və dünyəvi xadimin iştirakı ilə çağrılan müşavirədə qərara alındı ki, Səfəvi şahına qarşı üsyan qaldırmış Kartli çarı XI Georgi və Kaxetiya çarı Arcillə əlaqə yaradılsın və onlarla birlikdə Moskvaya və Qərbi Avropanın şərq siyasətində maraqları olan Roma papasına müraciət edilsin. Tezliklə belə bir əlaqə yaradıldı və erməniləri yadelli zülmdən qurtarmaq üçün hərbi yardım xahiş etmək məqsədilə Qərbi Avropaya nümayəndə heyəti göndərmək qərara alındı. "Eçmiədzin müşavirəsində seçilən nümayəndə heyəti Akop Cuğalının başçılığı altında Gürcüstana, sonra isə İstanbula gəldilər ki, buradan da Qərbi Avropaya hərəkət etsinlər. Lakin iş uğursuzluqla qurtardı. 1680-cı ildə Akop Cuğalı öldü və nümayəndə heyəti geri qayıtmalı oldu. Yalnız öz atasını müşayiət edən Sünik məliyi İsraelin oğlu İsrael Ori geri qayıtmadı" (4, s.164-165).

Qeyd etmək lazımdır ki, erməni ideoloqlarının Səfəvilər dövlətində, bir qədər sonra isə Osmanlıda baş qaldıran erməni separatizmini, bütün normal şərtlər altında yaşadığı ölkəyə qarşı xəyanətkarlığı, “milli-azadlıq” hərəkatı, İsrael Orini isə görkəmli vətənpərvər və diplomat kimi qələmə vermək obyektivlikdən çox uzaqdır. Ori, bəzi erməni tarixçilərinin özlərinin də etiraf etdikləri kimi Sünik məliyinin oğlu olmayıb, kübar nəslindən deyildi və erməniləri dəfələrlə aldatmışdı. Böyük fırıldaqçı, “erməni milli-azadlıq hərəkatı”ndan və erməni kilsəsindən daha çox özünün şəxsi maraqlarının təmsilçisi olan İsrael Ori italyan və fransız zadəganlarını da, Pfalts kurfiristi İohan-Vilhelmi və Eçmiədzin katalikosunu da aldadırdı. Avropada keçirdiyi 20 ilə yaxın bir dövrdə o, rəsmən nə erməniləri, nə də erməni kilsəsini təmsil etmirdi. Ermənilərin öz məzhəblərini dəyişib katolikliyi qəbul etmələri müqabilində onlara hərbi-iqtisadi yardım edəcəyi barədə Pfalts kurfiristinin vədi isə Eçmiədzin və Qandzasar katalikoslarını qəzəbləndirmiş və onlar Orini sadəcə olaraq öz yanlarından qovmuşdular. Beləliklə erməni ruhaniləri tərəfindən rədd edilən Ori Qarabağın Anqexakot deyilən qəsəbəsində 1699-cu ildə erməni məlikliklərinin yığıncağını keçirməyə müvəffəq oldu. Yığıncaq Oriyə Qərbi Avropada, habelə rus çarı ilə danışıqlar aparmaq üçün lazım gələn etibarnaməni verdi. Məliklər habelə Orinin kifayət qədər savadlı olmadığını və rus dilini bilmədiyini də nəzərə alıb, “Vardapet (alim monarx) Minası Oriyə köməkçi verdilər” (5, s.165).

Lakin, Minasın müşayiət etdiyi Orinin 1699-1701-ci illərdə Qərbi Avropaya etdiyi bu ikinci səfər də ermənilərə gözlədikləri nəticəni vermədi. Pfalts kurfiristi kimi, Avstriya imperatoru da erməni xalqının təmsilçisi olması barədə Orinin etibarnaməsinə maraq göstərmədi. 1701-ci ildə Ori və köməkçisi Rusiyaya üz tutdu.

Məhz bu zamandan etibarən erməni separatçıları və onların ideoloqları özlərinə himayədar olaraq Rusiyanı seçdilər və könüllü olaraq Rusiyanın boyunduruğu altına aparan yolun başlanğıcına çıxdılar. Moskvaya gələn Ori Qarabağ məliklərinin müraciətnaməsini çar I Pyotra təqdim etdi. Müraciətnamədə məliklər xahiş edirdilər ki, çar erməni xalqının iztirablarını dərindən anlasın və onu Türkiyə-İran zülmündən azad etsin: “Bizim özgə ümidimiz yoxdur. Biz yalnız Allaha və sənin ölkənə ümid bəsləyirik” (5, s.166). I Pyotr ermənilərin xahişinə razılıqla yanaşdı və cavab verdiki, erməni xalqına İsveçlə apardığı müharibədən sonra yardım edəcəkdir.

Ori və vardapet Minas bu şad xəbəri ermənilərə çatdırmaq üçün İrana adam göndərdilər. Onlar sevinirdilər ki, ermənilərin çirkin məqsədlərinə çatması yolunda nəhayət özlərinə himayədar tapa bilmişdilər. Rusiya tərəfi də Orinin səfərindən məmnun qalmışdı. Çarizmin Qafqaza dair işğalçılıq planlarının həyata keçirilməsi yolunda “etibarlı” müttəfiq tapılmışdı. Tarix boyu dəfələrlə milli ləyaqətləri kimi, vətənlərini də satan, onlara çörək verən ölkəyə xəyanət etməyə həmişə hazır olan, işğalçılara bələdçilik edən nökər özü rusların qapısına qədər gəlmişdi.

## ƏDƏBİYYAT


1. Cəfərli E. Naxçıvanda erməni-Azərbaycan münaqişəsi. Bakı, Nurlan, 2008, 280 s.
2. Kərimova S. Çarizmin Azərbaycanın işğalında və müstəmləkəçilik siyasətində erməni işbazlarının rolu. Bakı, Azərbaycan. 1995
3. Süleymanov M. Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən. Bakı, «Hərbi Nəşriyyat», 2008, 398 s.
4. Алиев Ф. Азербайджанско-русские отношение. Баку, 1985
5. История армянского народа: С дрвнейших времен до наших дней / Г.Х.Саркисян, Т.Х.Акопян, А.Г.Абрамян и др. Ереван, Изд-во Ереван ун-та, 1980, 460 с.
6. Марджанлы М. Армянство. Россия. Кавказ. М,: Флинта, 2011, 96 с.
7. Эзов Г.А. Сношения Петра Великого с армянским народом.СПб.1898,512 с.
8. http://anspress.com/index.php?a=2&lng=az&cid=9&nid=291020

## ABSTRACT

**Shamkhal Mammadov**

## Russia-armenian relations in the period till the XVIII century

Contrary to the false assertions of the Armenian historians of the millennial Russia-Armenian relations, the facts show that the history of these relations do not go beyond the XIII century and only at the level of merchant circulations. Only to the second half of the seventeenth century, the Armenian politicians frustrated from Western Europe created relations with Russian government circles and got the attention of the Russian tsar Alexei Mikhailovich. The goal was to create semi Armenian state under the patronage of Russia. For this purpose, the Armenians gave a large sum of money and valuables to tsar and leading Russian nobles under the pretext of "gifts". But till the end of the seventeenth century Armenian's zeal in this field did not give the expected results inside the that period conditions.



## РЕЗЮМЕ

**Шамхал Мамедов**

## Русско-армянских отношений в период до XVIII века

Вопреки ложным утверждениям армянских историков о тысячелетних российско-армянских отношениях, факты свидетелствуют, что история этих отношений не выходят за рамки XIII века, причем только на уровне купеческих хождений. Только ко второй половине семнадцатого века армянские политики, разочаровавшимся в Западной Европе армянским политиканам удалось таки налаживать связи с определенными русскими властными кругами и привлечь внимание российского царя Алексея Михайловича. Цель состояла в том, чтобы создать какое-нибудь армянское государство под российской патронажей. С этой целью армяне под предлогом подарков царью и ведущим русским дворянам давали большую сумму денег и ценностей. Тем не менее, до конца семнадцатого века армянские усердия не дали ожидаемых результатов в силу тогдашних обстоятельств.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *AMEA-nın həqiqi üzvü İ. Hacıyev*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2016, № 5(79)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2016, № 5 (79)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2016, № 5 (79)**

**MƏMMƏD ƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*
*E-mail: mamed@mail.ru*

***UOT: 94 (479.242)***

# NAXÇIVANDA MUZEY QURUCULUĞUNUN SÜRƏTLİ İNKİŞAFI

***Açar sözlər:*** *Muzey, fond, ekspozisiya, eksponat, kolleksiya, sərvət*
***Key words:*** *Muuseum, Fund, Exposition, Exhibits, Collection, wcalth*
***Ключевые слова:*** *Музей, фонды, экспозиции, зкспанаты, каллекции, богатства*

Naxçıvanda muzeylərin yaranması və inkişafı məzmun forma, təşkilati-metodiki əlamətlərinə görə tarixən əsas dörd mərhələyə ayrılır.

Birinci mərhələ 1896-1968, ikinci mərhələ 1969-1991, üçüncü mərhələ 1992-2003, dördüncü mərhələ 2003-2016-cı illəri əhatə edir. Naxçıvan muzeyşünaslığının nəzəri və təcrübi məsələlərinin tədqiqi baxımından həmin mərhələlərin hər birinin özünəməxsus rolu və əhəmiyyəti vardır.

"XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda, qədim tarixiliyin mövcudluğu, geniş mədəni-marifçilik təcrübəsinin mövcudluğu, tarixi-mədəniyyət nümunələrinin zənginliyi, maddi və mənəvi mədəniyyət nümunələrinin əhali kütləsi arasında geniş maraq oyatması, onların xaricə daşınmasının qarşısının alınmasının vacibliyi kimi amillər nəticəsində muxtar respublikada muzeylər yaradılmağa başladı" (5, s.7).

Xarakterik haldır ki, tarixən yurdumuzda muzeyçilik və onun sələfi olan kolleksiyaçılıq ənənələrinin Naxçıvan torpağında qədim kökləri vardır.

Vaxtilə Azərbaycan Atabəylərinin paytaxtı olmuş qədim Naxçıvan şəhərində dövrün elm və mədəniyyət mərkəzləri-mədrəsələr, kitabxanalar, məktəblər fəaliyyət göstərirdi. Böyük dövlət xadimi Məhəmməd Cahan Pəhləvan (ölümü 1186) öz sarayında çeşidli kitab və əlyazmalara, nəfis rəsm və işləmələrə malik olmuş, elm və sənət adamlarına qayğı göstərmiş onlara hamilik etmişdir. Bütün bunlar Naxçıvan torpağında muzeyçilik ənənələrinin tarixi qaynaqları kimi səciyyələndirilə bilər.

Əlbəttə, zəngin varidatı və qiymətli sənət incilərini kolleksiyaçılıq ənənələrini müasir muzey anlayışı ilə tam şəkildə identifikasiya etmək olmaz. Çünki müasir elmi təsnifat muzeyləri həm də ictimai funksiya baxımından səciyyələndirilir. "Muzeylər üçün nümayiş olunma xarakterikdir ki, bu da onların ictimai məzmununu müəyyən edir" (1, s.22).

Lakin tarixən mövcud olmuş kolleksiyaçılıq ənənələrimizin, elm mədəniyyət və maarif ocaqlarımızın, saray kitabxanalarımızın muzeyçiliyin təşəkkül tapmasında rolu danılmazdır.

Yeni dövrdə ölkəmizdə muzeyçilik ənənələrinin bərpa edilməsi təşəbbüsləri də qədim Naxçıvan diyarının adı ilə bağlıdır. "Görkəmli yazıçı və publisist Cəlil Məmmədquluzadə (1866-1932) hələ XIX əsrin sonlarında Naxçıvandakı Nehrəm kəndində diyarşünaslıq muzeyi yaratmaq qərarına gəlmişdi. Çar üsul-idarəsi şəraitində dövlət orqanlarından heç bir əməli yardım ala bilməyən ədib kəndlilərin, təəssübkeş Naxçıvan ziyalılarının, müəllimlərin və şagirdlərin köməyi ilə həmin ilk muzeyi özü təşkil etmişdi" (2, s. 4).

Hazırda bu ilk qeyri-rəsmi muzeyimizin bir növ davamçısı olan C.Məmmədquluzadənin xatirə muzeyi Babək rayonu Nehrəm kəndində fəaliyyət göstərir. Muzey 1989-cu ildə yaradılmışdır. Burada C.Məmmədquluzadənin Nehrəmdəki müəllimlik fəaliyyəti, onun ilk muzeyimizi qurmaq sahəsindəki cəhdləri maraqlı eksponatlar vasitəsilə əyani surətdə canlandırılır.

Naxçıvanda yeni dövrdə ən erkən muzeyçilik təcrübəsi tarixini işıqlandıran Sübhi Kəngərlinin araşdırmaları ciddi maraq doğurur. Tədqiqatçı "Muzey elm və mədəniyyət toplusudur" adlı məqaləsində yazır; "Qeyd etmək lazımdır ki, Naxçıvanda muzeyşünaslıq işinin tarixi XIX əsrin ortalarına qədər gəlib çatır. Qocaman Ədəbiyyatşünas-alim filologiya elmiləri namizədi Lətif Hüseyinzadənin Naxçıvanda muzey təşkili və işi haqqındakı fikirləri çox maraqlıdır. Onun dediyinə görə Naxçıvanda ilk

muzey-ölkəşünaslıq muzeyi böyük yazıçımız Mirzə Cəlil tərəfindən Nehrəm kəndində təşkil edilmişdir. Həmçinin o qeyd edir ki, Naxçıvan şəhərində yaşamış Balabəy adlı şəxs öz evində, xüsusi otaqlarda bədii sənətkarlıq nümunələri toplamışdı. Dövrün görkəmli ziyalısı olan Balabəy ilk dəfə olaraq şəxsi ev muzeyi (evdə yaradılmış muzey mənasında) təşkil etmişdi" (4, s.102).

Əlimizdə olan materiallar ilk rəsm sərgilərinin-şəkil qalereyalarının da yurdumuzda ən əvvəl məhz Naxçıvan torpağında qurulduğunu təsdiq etməyə bizə əsas verir. Bu ilk sərgiləri Bəhruz Kəngərli (1892-1922) öz ata evində-vəkil Şirəlibəyin mülkində düzəltmişdi (indi burada B.Kəngərlinin ev muzeyi yerləşir).

Naxçıvan Dövlət Tarix Muzeyinin yaradılması ilə Naxçıvanda rəsmi qaydada muzeyşünaslığın ənənəsi qoyuldu. Muzey 1924-cü ildə tarix-etnoqrafiya muzeyi kimi təşkil edilmişdir. İlk vaxtlar muzeyin maddi bazası əsasən qədim və orta əsrlərə aid məişət əşyalarından, toxuculuq məmulatlarından, silahlardan, saxsı qablardan (bardaq, kuzə) və digər əşyalardan ibarət idi. 1932-ci ildə Naxçıvan Tarix və Ölkəşünaslıq Muzeyinə çevrilmiş və yenidən qurulmuşdur. 1968-ci ilin dekabrında indiki adını daşıyır. Muzeyin təşkilində Naxçıvan şəhər sakinləri Balabəy Əlibəyov, Mirbağır Mirheydərov və başqalarının böyük əməyi olmuşdur. 9 şöbəsi, fondunda və ekspozisiyasında 40 minə yaxın eksponat saxlanır (2001). Muzeydə Naxçıvan Muxtar Respubilikası ərazisində aparılmış arxeoloji qazıntılar zamanı aşkara çıxarılmış maddi mədəniyyət, tətbiqi sənət nümunələri, qədim numizmatika materialları, həmçinin milli geyimlər, bədii tikmə nümunələri və xalça məmulatları, qiymətli materiallardan hazırlanmış zinət, məişət əşyaları, rəssamlıq əsərləri və sairə nümayiş etdirilir. Muzeydə elmi-tədqiqat işləri aparılır. Xüsusi sərgilər, görüşlər xatirə gecələri və sairə tədbirlər keçirilir.

"Naxçıvan Muxtar Respubilikasında muzeylərin yaranması və inkişafı məzmun, forma, təşkilatı-metodiki əlamətlərinə görə tarixən əsas dörd mərhələyə ayrılır." (3.s-12)

Naxçıvanda muzey quruculuğunun sürətli inkişafı aşağıdakı ardıcıllıqla yaradılmışdır.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Ədəbiyyat Muzeyi - Azərbaycan SSR Nazirlər Sovetinin 1966-cı il tarixli qərarına müvafiq olaraq, 1967-ci il iyunun 12-də Naxçıvan şəhərində açılmışdır.

1969-cu ildən 2003-cü ilə qədərki dövr ərzində Ümumilli Liderimiz Heydər Əliyevin istər hakimiyyətinin birinci dövründə istərsədə ikinci dövründə muzeylərə dövlət qayğısı artmış, muzeylərin sayı 2-dən 19-a çatmışdır. Bu dövürdə Naxçıvan Muxtar Respublikasında nəinki muzeylərin sayı artmış, eyni zamanda bütövlükdə muzey fəaliyyətində elmi-metodiki, təşkilatı baxımdan da tərəqqi prosesi baş vermişdir.

Ulu öndərimizin Azərbaycanda hakimiyyətdə olduğu illərdə Naxçıvan Muxtar Respublikasında aşağıdakı muzeylər fəaliyyətə başlamışdır.

- 1972-ci il 16 iyul tarixində Məmməd Səid Ordubadinin 100 illik yubileyi münasibəti ilə Heydər Əliyevin təşəbbüsü ilə Ev muzeyi
- 1975-ci ildə Akademik Yusif Məmmədəliyevin ev muzeyi Heydər Əliyevin təşəbbüsü ilə
- Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyi 1980-cı il 4 yanvar tarixli qərarı ilə
- Culfa Rayon Tarix-Diyarşünaslıq Muzeyi 1980-cı il 4 yanvar tarixli qərarı ilə
- Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyi 1980-cı il tarixli qərarı ilə
- Naxçıvan Dövlət Rəsm Qalereyası 1981-ci il 10 dekabr tarixli 621 nömrəli qərarı ilə
- Babək Rayon Tarix-Diyarşünaslıq Muzeyi 1981-ci il 18 dekabr tarixində Heydər Əliyevin təşəbbüsü ilə
- Şahbuz Rayon Tarix-Diyarşünaslıq 1981-ci ildə Hökümətin qərarı ilə
- Hüseyn Cavidin Ev Muzeyi və Xatirə kompleksi 1981-ci il 21 iyul tarixli qərarı ilə
- Cəmşid Naxçıvanskinin Ev Muzeyi 1981-ci il 15 dekabr tarixli 632 nömrəli qərar ilə
- Cəlil Məmmədquluzadənin Nehrəm kəndində Xatirə Muzeyi 1989-cu il tarixli qərarı ilə
- Cəlil Məmmədquluzadənin Ev Muzeyi 1998-ci il 19 iyun tarixli Sərancamı ilə.

Ümummilli Liderimizin siyasi varisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hakimiyyətə gəlişi bütün sahələrdə olduğu kimi mədəniyyətin ayrılmaz sahəsi olan muzeyşünaslığa diqqət və qayğının yeni mərhələyə qədəm qoyulmasına, muzeylərin maddi texniki bazasının yaxşılaşdırılmasına, yeni müasir tipli muzeylərin yaranmasına və yaranan muzeylərin beynəlxalq standartlara cavab verməsinə gətirib çıxardı.

Bu gün Naxçıvan Muxtar Respublika Ali məclisinin sədri Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Vasif Talıbovun Naxçıvan Muxtar Respublikasına rəhbərliyi sayəsində Naxçıvan özünün ən yüksək inkişaf mərhələsinə çatıbdır. Bütün sahələrdə olduğu kimi Naxçıvan Muxtar Respublikasında Muzeyşünaslıq inkişafının zirvəsindədir. Hazırda Naxçıvan Muxtar Respublikasında Muzeylərin sayı 30-u keçibdir. Onlar muzeyşünaslığın bütün normalarını özündə təcəssüm etdirir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Vasif Talıbovun böyük zəhməti, diqqəti və qayğısı sayəsində adları aşağıda çəkilən muzeylər fəaliyyətə başlayaraq xalqımızın mənəvi tarixini nümayiş və təbliğ edir:

- “Heydər Əliyev Muzeyi” Naxçıvan MR Ali Məclisi Sədrinin 1999-cu il 18 fevral tarixli 21-01\S nömrəli Sərəncamı.
- “Naxçıvan XalçaMuzeyi”  Naxçıvan MR Nazirlər kabinetinin 1998-ci il 15 yanvar tarixli 5 nömrəli qərarı
- “Naxçıvan Muxtar Respublika Sədərək Rayonunda Tarix-Diyarşünaslıq muzeyi” Naxçıvan MR Nazirlər kabinetinin 2000-ci il 8 aprel tarixli 69 nömrəli qərarı
- “Xatirə” Muzeyinin yaradılması haqqında Naxçıvan MR Nazirlər kabinetinin 2000-ci il 3 may tarixli 93 nömrəli qərarı
- “Bəhruz Kəngərlinin Muzeyinin yaradılması haqqında” Naxçıvan MR Ali Məclisi Sədrinin 2001-ci il 22 may tarixli Sərəncamı
- “Gəmiqaya” Muzeyi 5 may 2006-cı il Nazirlər kabinetinin Sərəncamı
- “Kəngərli Rayon Tarix-Diyarşünaslıq Muzeyi” Naxçıvan MR Ali Məclisinin Sədrinin 2006-cı il 17 iyun tarixli Sərəncamı
- “Şahtaxtinskilər Muzeyinin yaradılması haqqında” Naxçıvan MR Ali Məclisinin sədrinin 2010-cu il 09 fevral tarixli 216-03\S nömrəli Sərəncamı
- “Xan Sarayı” Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında” Naxçıvan MR Ali Məclisi Sədrinin 2010-cu il 23 oktyabr tarixli 249-03\S nömrəli Sərəncamı
- “Cəlil Məmmədquluzadənin Cəlilkənd Kəndində Xatirə Muzeyinin yaradılması haqqında” Naxçıvan MR Nazirlər Kabinetinin 2013-cü il 15 fevral tarixli 26 nömrəli qərarı
- “Xalq şairi Məmməd Arazın Ev Muzeyinin yaradılması haqqında” Naxçıvan MR Ali Məclis Sədrinin 2013-cü il 04 iyul tarixli 69 nömrəli Sərəncamı
- “Naxçıvanqala” Tarix-Memarlıq Muzey kompleksinin yaradılması haqqında” Naxçıvan MR Ali Məclisinin Sədrinin 2013-cü il 05 iyun tarixli 135-04\S nömrəli sərəncamı
- “Culfa rayonundakı “Əlincəqala” tarixi abidəsinin bərpa edilməsi haqqında” Naxçıvan MR Ali Məclisinin Sədrinin 2014-cü il 11 fevral tarixli 189-04\S nömrəli Sərəncamı
- “Naxçıvan şəhərində Dövlət Bayrağı Meydan və Muzeyinin yaradılması haqqında” Naxçıvan MR Ali Məclisi Sədrinin 2014-cü il 22 avqust tarixli Sərəncamı
- “Gülüstan Tarixi Mədəniyyət Abidəsinin bərpası haqqında” Naxçıvan MR Ali Məclisi Sədrinin 7 oktyabr 2015-ci il tarixli Sərəncamı

Hazırda Naxçıvan Muxtar Respublikasında muzey quruculuğunda gedən sürətli inkişaf prosesi respublikamızda muzeylər şəbəkəsinin artmasına və muzeyşünaslığın inkişaf mərhələsində mühüm amilə çevrilməkdədir.

## ƏDƏBİYYAT


1. Ramiz Ağayev, Sabir Əmirxanov, Abdin Əlizadə. Muzeyşünaslıq. Dərslik, Bakı, 2002, s. 439
2. Nizami Rəhimov. "Naxçıvan Muxtar Respublikası Dövlət Tarix Muzeyi", Əcəmi, Naxçıvan 2002. s.54
3. Sübhi Kəngərli; Xanım İsmayılova "Muzeydə Naxçıvan Teatrının Fondu". Naxçıvan, 2009, s.85
4. Elfira Qurbanova, Apdin Əlizadə. "Muzeylərdə Elmi-Tədqiqat işinin təşkili və metodikası". Bakı, Təknur, 2011, s.271
5. Sabir Əmirxanov. Bakı Biznes Universiteti, Muzeyşünaslıq, Bakı, 2012, s.112

## ABSTRACT

**Mammad Aliyev**

**Rapid Development of Museum Establishment in Nakhchivan**

Establishment and development of the museums in Nakhchivan is historically devided into four stages according to the contents, form and organization-methodical signs. Historically tradition of Museum Studies and its predecessor gathering of collections have ancient roots in the Nakhchivan land.

The rapid development of the museum development in Nakhchivan is connected with the name of our national leader Heydar Aliyev. During his leadership, the number of the museums in the Nakhchivan Autonomous Republic reached to 19.

The political successor of our National Leader, the president of the Azerbaijan Republic Ilham Aliyev's coming to power was the cause of new stage of attention and care, and has led the museums to meet the international standards.

Today thanks to the worthy successor of Heydar Aliyev political course, Chairman of the NAR Ali Mejlis Vassif Talibov's leadership, the Museum Studies is on the peak of development in the Nakhchivan AR. At present the number of museums in the Nakhchivan AR is over 30.



## РЕЗЮМЕ

**Маммед Алийев**

**Быстрое развитие музейного строительство в Нахчыване**

В статье отмечается, что саздание и развитие музеев в Нахчыване по содержанию, форме и организацинно- методическаму значению состоит из четырех этапов.

Характерно, что музееведение и коллекционерство имеют глубокие исторические корни в нашей стране.

Быстрое развитие музейного строительство в Нахчыване связано с именем общенационального лидера нашего народа Гейдара Алиева. В перид его руководства количество музеев в Нахчыване достигло 19.

С приходом в руководство республики политического последователя, Президента Азербайджанской Республики Ильхама Алиева внимание и забота о музейном деле в стране вступило в новый этап, привело к тому, что наши музеи стали отвечать всем международным стандартам.

Сегодня благодаря умелому руководству достойного последоваталья политического курса Г.Алиева Председателя Али Меджлиса Нахчыванской Автономной Республики Васифа Талыбова, развитие музееведения в автономной республике находится на своей вершине. Об этомярко свидетелствуем то, что количество музеев в настоящее время превышает 30.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *AMEA-nın müxbir üzvü Z.Şahverdiyev*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2016, № 5(79)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2016, № 5 (79)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2016, № 5 (79)**

**EMİN ŞIXƏLİYEV**
*AMEA Naxçıvan Bölməsi*
*E-mail: emin.amea@yahoo.com*

*UOT : 327*

# BÖYÜK BRİTANİYANIN ARXİV MATERİALLARI ƏSASINDA İNGİLTƏRƏNİN "ERMƏNİ" SİYASƏTİ VƏ NAXÇIVANA TƏSİRİ (1917-1920-ci illər)

***Açar sözlər:*** *Böyük Britaniya, ermənilər, Azərbaycan, Naxçıvan, soyqırımı*
***Key words:*** *The Great Britain, the Armenians, Azerbaijan, Nakhchivan, genocide*
***Ключевые слова:*** *Великая Британия, Армяне, Азербайджан, Нахчыван, геноцид*

Məlum olduğu kimi, ermənilər XX əsrin əvvəllərində özlərinin soyqırımına məruz qaldıqlarını önə sürərək, bütün dünyada bu iddianın təbliğatını aparırlar. Halbuki tarixi sənədlər bu iddianın tam əksini sübut etməkdə və ermənilərin Azərbaycan, eyni zamanda Şərqi Anadoluda soyqırımı gerçəkləşdirdiklərini ortaya qoymaqdadır. Bu araşdırma başlıca olaraq Böyük Britaniyanın Milli Arxivlərində (The National Archives of United Kingdom) yer alan sənədlər əsasında hazırlanmışdır. İngiltərə arxivləri ermənilərin törətdikləri cinayətlərlə bağlı reallıqların aşkara çıxarılmasında əsas rol oynayan qiymətli materiallara sahibdir. Bu sənədlərdə erməni faktorunun Böyük Britaniya üçün əhəmiyyətini ifadə edən ingilis dövlət adamlarının öz aralarındakı yazışmaları və yüksək səviyyəli rəsmi şəxslər tərəfindən imzalanmış çox gizli raportlar mövcuddur.

Böyük Britaniya arxivlərində yer alan sənədlər tarixi reallıqların ortaya çıxarılması və araşdırılan problemin daha obyektiv kriteriyalar içərisində dəyərləndirilməsi baxımından olduqca vacibdir. Bu materiallar Panturanizm ideologiyasının ortadan qaldırılmasında ermənilərdən baryer olaraq istifadə edildiyini, Türkiyə ilə Azərbaycan, dolayısı ilə Türk Dünyası arasındakı əlaqələrin kəsilməsi hesaba qatılaraq Ermənistan dövlətinin yaradılmasının Antanta dövlətlərinin birbaşa maraqları daxilində olduğunu, bu məqsədlə maliyyələşdirilən və hərbi baxımdan silahlandırılan erməni dəstələrinin 1917-1920-ci illər arasında Cənubi Qafqazda, xüsusilə də Azərbaycanda yerli əhaliyə qarşı sistemli soyqırımı siyasəti yeritdiklərini sübut edir. Düşünürük ki, erməni iddialarına tutarlı şəkildə cavab verməninin, əsas olaraq da dünya ictimaiyyətinə həqiqətləri çatdırmağın yolu digər materiallarla birlikdə, Böyük Britaniyadakı arxiv sənədlərinə də müraciət etməkdən keçir.

Məlum olduğu kimi, "Erməni məsələsi" beynəlxalq rəqabətdə maraqları toqquşan iki böyük dövlətin – Rusiya ilə İngiltərənin təhrikləri nəticəsində ortaya çıxmışdır. Xüsusilə Rusiyanın erməni siyasəti İngiltərənin erməni məsələsinə yönəlik baxışına təsir edən amillərin başında gəlir. Rusiya tarixi məqsədlərinə çatmaq üçün Osmanlı ərazisində yaşayan ünsürlərin, xüsusilə ermənilərin problemlərini faydalı potensial amil kimi dəyərləndirdilər. Ermənilər Rusiyanın cənuba enmək üçün Anadolunun şərqində yaşayan xalqın bir hissəsini təşkil edirdilər. Eyni zamanda kilsənin də təhriki və təşvikiylə radikal millətçilik duyğusuna sahib idilər. Bu səbəbdən Rusiyanın Osmanlı torpaqlarına göstərdiyi marağın özəyində ermənilər və onların problemləri yer almışdı (22, s. 129). Rusiyanın Yaxın Şərqdə güclənmək və isti dənizlərə çıxmaq strategiyasını özündə ehtiva edən bu siyasəti İngiltərənin ənənəvi siyasətinə tərs düşmüş, nəticədə erməni məsələsi beynəlxalq problemə çevrilmişdir.

İngiltərənin Şərq siyasətində ermənilərə geniş şəkildə yer verilməsi XIX əsrin sonlarına təsadüf edir. Çoxluq təşkil etməsələr də ermənilərin Osmanlı dövləti ərazisində yaşadıqları torpaqların strateji dəyəri ingilis maraqları baxımından olduqca əhəmiyyətli idi. Osmanlı üzərində təzyiq qurmaq istəyən Rusiya kimi İngiltərə də erməni amilini bir vasitə kimi ortaya atdı. Halbuki Rusiyanın isti dənizlərə enməsinin və Yaxın Şərqdə güclənməsinin qarşısnı almaq üçün XVIII əsrin sonlarından başlayaraq Osmanlı dövlətinin ərazi bütövlüyünü qorumaq siyasətini yeritməkdəydi, lakin XIX əsrin sonlarına doğru bu dövləti parçalamaq siyasətini mənimsəməyə başladı. Bunun da

əsas səbəbi İngiltərənin siyasi dairələrinin əvvəllər Hindistan yolunun Osmanlı dövlətinin torpaq bütövlyü ilə təminat altına alınması düşüncəsindən qaynaqlanırdı (19, s. 22; 20, 98; 16, s. 14). Qeyd etmək lazımdır ki, bu dövrdə getdikcə gücünü itirən Osmanlı dövləti digər müstəmləkəçilərin də diqqətini cəlb etməkdəydi. Əsas imperialist dövlətlər olan İngiltərə və Rusiya ilə yanaşı, Fransa və sonradan Almaniya ilə İtaliya üçün də ən başlıca məsələ Osmanlı torpaqlarında öz nüfuz dairəsini genişləndirmək, burada yaşayan qeyri-müsəlman əhalidən öz maraqları üçün faydalanmaq olmuşdur. Osmanlı torpaqlarında yaşayan xristianların himayə edilməsiylə ortaya atılan bəhanələr Avropanın böyük gücləri arasındakı qızğın rəqabəti başlatdı. 1895-ci ildən sonra getdikcə artan Almaniya qorxusu Rusiya ilə İngiltərəni bir-birinə yaxınlaşdıran ən önəmli amil oldu. Hər iki dövlət Yaxın Şərq, Orta Asiya və Uzaq Şərqdəki ixtilaflarını uzlaşdıraraq 1907-ci ildə imzaladıqları anlaşmalarla yeni münasibətlər içərisinə girdilər (bu barədə ətraflı bax: 11, s. 443-450; 13, s. 128-136).

Böyük güclər arasındakı bu rəqabət öz növbəsində erməni məsələsini də beynəlxalq arenaya çıxardı. Ermənilər yaranmış vəziyyətdən cəsarətlənərək hərəkətə keçmiş, ölkə daxilində və xaricində partiyalar və dərnəklər qurmuşlar. Türk düşmənçiliyi üzərində qurulan bu hərəkətlər böyük güclərin geosiyasi məqsədli psixoloji fəaliyyətlərinin nəticəsi idi. Böyük Güclərin hər birinin erməni terror təşkilatları üzərində böyük təsiri var idi (bu barədə ətraflı bax: 11, s. 571-580; 13, s. 184-188; 21, s. CXLVI-CXLIX). Məhz həmin təsirlərin nəticəsi idi ki, çox sayda türk-müsəlman əhali XIX əsrin sonlarından etibarən qurulmağa başlayan erməni terror təşkilatlarının qurbanına çevrildi. Bu terror təşkilatlarının silahlandırılması ilə Anadoluda və Qafqazda qanlı cinayətlərə imza atıldı. Bir məsələni də xüsusilə qeyd etmək lazımdır ki, bu terror təşkilatlarından öz mənafeləri üçün yararlanmaq istəyən dövlətlər, xüsusilə Rusiya ilə İngiltərə aralarındakı geosiyasi rəqabətə baxmayaraq, 1895-ci ildən sonra getdikcə güclənən Almaniya qarşısında bir-birilərinə yaxınlaşmağa başladılar. Daha doğrusu, Almaniya qorxusu hər iki dövləti bir-birinə yaxınlaşdıran ən önəmli faktor oldu. Aralarındakı ixtilaflı məsələləri uzlaşma yolu həll etməyi qarşılarına qoyan Rusiya və İngiltərə münasibətlərini 1907-ci ildə imzaladıqları bir müqavilə ilə yenidən qurdular və Antanta çərçivəsində birlikdə hərəkət etməyə başladılar. Hər iki dövləti maraqlandıran məsələ Almaniyanı “Şərq” məsələsindən uzaqlaşdıraraq, Osmanlı dövlətinin zəngin strateji torpaqlarına sahib olmaq idi (bax: 11, s. 443-450; 13, s. 128-136). Lakin Birinci Dünya müharibəsinin sonlarına doğru dünyanın siyasi mənzərəsində önəmli dəyişikliklər baş verdi. 1917-ci ildə oktyabr çevrilişinin baş verməsi ilə Antantanın əsas üzvlərindən biri olan Rusiya müharibədən çəkilmək məcburiyyətində qaldı. Antanta ittifaqında Rusiya ilə boşalan yeri ABŞ əvəz etdi. Beləliklə, erməni təşkilatları üzərində tam nəzarət belə demək mümkündürsə, İngiltərəyə keçdi. İngilislər Birinci Dünya müharibəsi illərində də erməni təşkilatlarına dəstək verərək, onları etnik-milli münaqişələrə və qırğınlara təşviq etmiş, öz siyasətinə uyğun olaraq ermənilərin siyasi gələcəyinə dair öhdəliklər götürmüş, “Müstəqil Ermənistan” üçün ciddi vədlər vermiş, sadəcə Şərqi Anadoluda deyil, Cənubi Qafqazda da onlardan yararlanmış, “erməni məsələsi”ni Azərbaycanda və onun ayrılmaz parçası olan Naxçıvanda gündəmdə tutmuşdur. Bu təşviq hərəkətlərinin pərdə arxası nə idi? Ermənilərin vəziyyəti ingilisləri bu qədər yaxından maraqlandırırdısa, nəyə görə Osmanlı torpaqları üzərində özündən asılı milli dövlətlər yaratma siyasətinə uyğun olaraq Şərqi Anadoluda bir erməni dövlətini qurmadı? Nəhəng Osmanlı İmperiyasını parçalayaraq onun torpaqları üzərində mandatlıq rejimi ilə özündən asılı çox sayda dövlətlər *(ərəb dövlətləri – E.Ş.)* yaradan İngiltərə baxımından bu ərazidə “erməni dövləti”nin yaradılması çətin idimi? “Erməni dövləti”nin yaradılması planının Cənubi Qafqaza ixrac edilməsinin əsas səbəbləri nə idi? Bu suallara cavab verə bilmək üçün o dövrün siyasi proseslərini diqqətlə təhlil etmək lazım gəlir.

Geostrateji baxımdan Cənubi Qafqaz İngiltərə üçün böyük əhəmiyyətə malik idi. Xüsusilə Azərbaycan, onun iri sənaye-maliyyə mərkəzi olan Bakı üzərində nəzarətin ələ keçirilməsi və Xəzər limanının zəbt olunması cəhdləri ingilis siyasətinin ənənəvi və prioritet istiqamətlərindən idi, eyni zamanda onun ümumilikdə Avrasiya ilə bağlı əsas geosiyasi konsepsiyasına uyğun gəlirdi. Xəzər dənizinə sahib olmaq təkcə Qafqaza deyil, eyni zamanda Mərkəzi Asiyada nəzarət qazanmaq, Hindistana gedən yolu qorumaq demək idi (7, s. 208). Lakin 1917-ci ildə Rusiyada baş verən hadisələr nəticəsində Qafqaz Osmanlı dövləti üçün açıq dəhlizə çevrildi. Meydana gələn proseslər türklərə Qafqaz vasitəsilə İrana və Orta Asiyaya girmək üçün əlverişli imkan yaratmış, Hindistan təhlükə altına düşmüşdü. Çar Rusiyasında ortaya çıxan qarışıqlıqlar türklərə öz planlarını tətbiq etmək üçün bir fürsət yaratmışdı. Bununla yanaşı,

Pantürkist (və ya Turançılıq) arzuların reallaşması üçün də bir yol açılmışdı.

Osmanlı dövlətinin son dövrlərində üç siyasi cərəyan – Türkçülük, İslamçılıq və Osmanlıçılıq – ortaya çıxmışdı. Hər üç cərəyanın tərəfdarları Osmanlı dövlətinin süqutunu önləməyə çalışsalar da, Balkan hərbi ilə Osmanlıçılığın, bunun ardından Birinci Dünya müharibəsində ərəblərin qaldırdığı üsyanlara görə İslamçılığın reallaşmasının mümkünsüzlüyünü görən rəhbərlik dövlətin rəsmi ideologiyası olaraq Türküçülük, daha doğrusu Turançılıq xəttini qəbul etdilər (8, s. 58; 6, s. 35).

1917-ci ildə Rusiyada meydana gələn qarışıqlıqlar türklərə öz planlarını və Pantürkist ideyalarını tətbiq etmək üçün bir fürsət yaratmış, beləliklə, Qafqaza və Xəzər ətrafına, oradan da Orta Asiyaya doğru irəliləmə ehtimalı daha da güclənmişdi. Şərqdəki ingilis maraqları baxımından ciddi təhlükə kəsb edən bu proseslər, Türkiyə, Azərbaycan, İran, Əfqanıstan və Orta Asiya türklərinin birliyi əsasında dünyanın siyasi sistemində çox güclü bir Türk-İslam ittifaqının meydana gəlməsi ehtimalı İngiltərəni müəyyən tədbirlər almaq məcburiyyəti qarşısında qoydu. Çünki belə bir ehtimalın reallaşması İngiltərənin maraqlarına həm Orta Asiyada, daha sonra isə Cənubi Asiyada zərbə vura bilərdi (20, s. 320). Panturanizm təhlükəsi ilə qarşılaşan İngiltərə Qafqazı strateji baxımdan İran, Əfqanıstan və daha da önəmlisi Hindistandakı iqtidarı üçün həyati dərəcədə əhəmiyyətli hesab edirdi. Yaxın gələcəkdə türk hegemonluğunun qurulması ehtimalı nəzərə alınaraq, İngiltərənin Asiyadakı mövqeyi baxımından real təhlükə mənbəyinin aradan qaldırılması üçün mütləq şəkildə Türkiyə ilə Türk Dünyası arasında bir sədd yaradılmalıydı. Digər tərəfdən, Qafqazın türklər tərəfindən ələ keçirilməsi İngiltərənin yalnız regional deyil, ümumi maraqları baxımından da mənfi nəticələr doğura bilərdi. Azərbaycandakı neft rezervləri ilə Gürcüstandakı mədən və kömür yataqlarının da türk və alman güclərinin əlinə keçməsi İngiltərənin bütün planlarını alt-üst edə bilərdi (14, s. 246). Məhz bu baxımdan baş verən proseslər qarşısında lazımi tədbirlər alınmalıydı.

İngiltərənin prioritet məqsədi Qafqazdakı müxtəlif etnik və dini qruplar içərisində hansı millətin türklərə qarşı ciddi müqavimət göstərə biləcəyini müəyyənləşdirmək idi. Türksoylu olması baxımından Osmanlıya rəğbət göstərən Azərbaycan türklərinə etimad göstərilməyəcəyi bəlli idi. Öz növbəsində Azərbaycan türkləri də İngiltərənin ermənilərə göstərdiyi yardımlardan dolayı olduqca narahat idilər. Hətta bu yardım ermənilər tərəfindən azərbaycanlılara qarşı qıcıqlandırma metodu kimi də istifadə olunurdu. Ermənilərin bu davranışları xalqda ingilis hökumətinin açıq şəkildə antiislam siyasət yeritməsi yönündə fikirlər formalaşdırırdı (36). İngiltərənin Tehrandakı səfiri cənab Marlin Xarici İşlər Nazirliyinə göndərdiyi məlumatda Azərbaycanda yaşayan tatarların *(türklərin – E.Ş.)* getdikcə Türkiyə türklərinə daha çox meyil etdiklərini bildirirdi (35). Xristian gürcülərin isə almanlarla XIX əsrdən bəri müəyyən əlaqələri vardı (ətraflı bax: 15, s. 184, 195, 283). Vəziyyəti nəzərə alaraq İngiltərənin Ali Baş Qərargah rəhbərliyi tərəfindən verilən memorandumda sadəcə ermənilərə etimad göstərilə biləcəyi bildirilirdi (34). Nəticə etibarilə ingilis dəstəyinin ən etibarlı namizədi xristian ermənilər idi. Ermənilərin əksəriyyətinin çar ordusunda vuruşmuş olduqları və əgər müharibə Antanta dövlətlərinin xeyrinə bitərsə, onlara müstəqillik vəd edildiyindən əzmli şəkildə mübarizə aparacaqlarını da isbat etmələri də erməniləri layiqli namizədə çevirən amillərin başında gəlirdi. Əslində ermənilərin başqa yolu da yox idi, çünki onlar Antanta dövlətlərinə öz sadiqliyini nümayiş etdirərək türklərə qarşı xəyanətkarlığın sıxıntısı içərisində idilər. Rus ordusu Ərzurum cəbhəsindən çəkilərkən ermənilər onların boşaltdıqları mövqelərə yerləşmişdilər. Bununla yanaşı, erməni hərbi dəstələrinin Qafqaza gətirilməsi üçün də bəzi fəaliyyətlər aparılırdı. Türklər qələbə qazandığı təqdirdə ermənilər çox şey itirəcəkdilər, lakin müttəfiqlərin zəfəri onlara çox şey qazandıra bilərdi. İngilislərin planları tamamilə fərqli idi. Onların əsas narahatlığı bölgəni türk və almanlara qarşı müdafiə tədbirləri ilə bağlı idi və bu tədbirlər içərisində ermənilərə xüsusi olaraq böyük ehtiyac hiss olunurdu. Bu baxımdan onlar maddi və mənəvi baxımdan dəstəklənirdilər (17, s. 323-324).

İngiltərə hökuməti Türkiyə ilə Türk Dünyası arasındakı yeganə baryerin ermənilər olduğunu anlamışdı. Bu səbəbdən Qafqazı türk ordularına qarşı müdafiə etmək üçün tərcih edilən millət ermənilər oldu. Məşhur ingilis tarixçisi, Birinci Dünya müharibəsi dövründə Hərbi Nazirliyin nəzdində fəaliyyət göstərən Təbliğat Bürosunun tanınmış nümayəndələrindən olan Arnold Tonbi İngiltərənin Xarici İşlər Nazirliyinin nüfuzlu əməkdaşlarından cənab Kidstona yazırdı ki, *“bizim siyasətimiz erməniləri türk boyunduruğundan xilas etməkdir. Bu baxımdan mənafelərimizdən biri fəal şəkildə Turan hərəkatına mane olmaqdır”* (38).

Erməni ordusunun İngiltərə tərəfindən hərbi və maliyyə dəstəyi ilə təmin olunduğu bu dövrdə “erməni məsələsi”nə yönəlik siyasi açılımlar da özünü göstərdi. Ermənilər türklərə qarşı müharibə qarşılığında Ermənistanın gələcəyi ilə bağlı öhdəliklər tələb etdilər. Bu tələblər qarşısında London İngilis-Erməni Komitəsinin sədri və İngiltərə Parlamentinin üzvü Anerin Uilyams 4 dekabr 1917-ci ildə İngiltərənin məşhur diplomatlarından olan Xarici İşlər nazirinin müavini, eyni zamanda Millətlər Cəmiyyətinin qurucusu Lord Robert Sesilə göndərdiyi məktubda ermənilərə yardım göstərilməsinin zəruri olduğunu bildirirdi. Anerin Uilyams hətta ermənilərin silahlandırılmasını və Andranik kimi silahlı dəstə liderlərindən istifadə edilməsini də son dərəcə gərəkli hesab edirdi (33). Məktubda ingilis, fransız və amerikan hökumətlərinin də erməni ordusuna maddi dəstək vermələrinin vacib olduğu bildirilmiş, sərhədlərdən kənarda yaşayan ermənilərin pul yardımı ilə Şərqi Anadoluya və Qafqaza gətirilmələrinin qaçılmaz olduğu yazılmışdı (33).

İngiltərənin Xarici İşlər Nazirliyi erməni könüllü dəstələrinin Qafqaza fərqli yollardan gəlməsinə də köməklik göstərəcəkdi (31). Bununla yanaşı, İngiltərənin Hərbi Kəşfiyyat fondlarından da ermənilərə pay ayrılmışdı (39, p. 101). İngiltərə tərəfindən ermənilərin dəstəklənməsi üçün ayrılan yardım təxminən 20 milyon sterlinq idi (22, s. 293). Bununla yanaşı, 1917-ci ilin sonları və 1918-ci ilin əvvəllərində ingilislər tərəfindən Tehrandan Bakıya, oradan da ermənilərə verilməsi üçün Tiflisə külli miqdarda qızıl və pul göndərildi (17, s. 329). Bu işlərlə birbaşa İngiltərənin Xarici İşlər Nazirliyinin qərarına əsasən xüsusi missiya ilə vəzifələndirilən mayor Mak Donel (MacDonell) məşğul olurdu. Qatarların içərisində aparılan bu qızıllar və pullar aynaların arxasında, ventilyatorların içərisində və digər yerlərdə gizlədilirdi. Mac Donel bunların Azərbaycan türkləri tərəfindən bilinməsini istəmirdi. Çünki bu qızılların və pulların ermənilərə göndərildiyi ortaya çıxsaydı, Azərbaycan türkləri tərəfindən tələyə düşürülərək ələ keçirilə bilərdi (17, s. 330-331). Göründüyü kimi, işlər son dərəcə gizli şəkildə aparılırdı.

Qeyd etmək lazımdır ki, pul, qızıl, müxtəlif silah və sursatlar ermənilərə Panturanizm təhlükəsinə qarşı baryer təşkil etmək üçün verilirdi (32). Panturanizm təhdidinə qarşı ermənilərdən istifadə siyasəti Versaldakı Antanta Ali Hərbi Şurası ingilis hərbi mütəxəssislərinin 1917-ci ilin dekabr ayındakı memorandumunda açıq şəkildə göstərilməkdədir: *“Ermənilərə hər vəziyyətdə işğal etdikləri bölgələrdə pul, silah və sursat tədarükü ingilis siyasətinin maraqları daxilindədir. Bu təcrübənin uğurlu olması nəticəsində erməni qüvvələrindən gələcəkdə türklərin diz çökdürülməsi üçün faydalanmaq olar”* (40).

İngilislərin bu dəstəyi sayəsində hərəkət qabiliyyətlərini artıran, külli miqdarda silah və sursat təmin edən ermənilər Azərbaycanın bir çox bölgələrində ciddi etnik təmizlik siyasəti gerçəkləşdirdilər. Xüsusilə Naxçıvanda, Zəngəzurda, Qarabağda və s. bölgələrdə törədilən qırğınlar erməni silahlı dəstələrinin rəhbəri kimi, adı sonraları erməni milli qəhrəmanı kimi özdəşləşən Andranik Ozanyan və onun kimi radikal türk düşmənçiliyi ilə tanınan Nijde, Dro, Doluxanyan və s. rəhbərliyi altındakı erməni gücləri tərəfindən həyata keçirilmişdi. Bu komitəcilər Anadolu və Qafqazdakı qanlı hadisələrin əsas cavabdehləri kimi ilk sırada dayanırdılar. İngiltərənin arxiv materialları törədilən cinayətlərlə bağlı Andranikin silahların və hərbi sursatların ingilislərdən aldığını təsdiq edir. İngiltərənin Qafqazdakı Ali komissarı Oliver Uordrop İngiltərənin Xarici İşlər Nazirliyinə göndərdiyi bir raportda Andranikin Böyük Britaniya ordusunun mayoru Qibbondan aldığı bütün silahları erməni dəstələrinə payladığını bildirirdi (30).

Arxiv materiallarında yuxarıda adları çəkilən erməni komitəçilərinin, xüsusilə də Andranik Ozanyanın silahlı dəstələrinin İrəvan əyalətində 200-dən çox, Naxçıvan, Şərur-Dərələyəz və Ordubad nahiyələrində də 50-dən çox müsəlman kəndlərinə silahlı hücumlar təşkil etdiklərinə, kənd əhalisinin böyük əksəriyyətinin də qətlə yetirildiyinə dair önəmli məlumatlar yer almaqdadır (28, vv. 103-105). Türkiyənin arxiv materiallarında ingilislərin bölgədə ermənilərin törətdikləri qətliamlara məhəl qoymadığı, hətta bu cinayətləri görməzdən gəldiklərinə dair çox sayda sənədlər mövcuddur (29, s. 150-154).

Törətdiyi cinayətlərin miqyası o qədər böyük idi ki, Andranik bu hərəkətləri ilə Naxçıvanı öz idarəsinə tabe etdiyini düşünürdü. Onun məqsədi ələ keçirdiyi hər bir türk bölgəsində etnik, milli təmizlik siyasəti yeritmək, Qarabağ, Zəngəzur və Naxçıvanı Ermənistana birləşdirmək idi. Mənbələrdən əldə edilən məlumatlara görə, 1918-1921-ci illər arasında Naxçıvanda 73.727 nəfər

ermənilər tərəfindən qətlə yetirilmişdir (2, s. 29; 4, s. 147). 1915-1921-ci illər arasında Cənubi Azərbaycanda isə ingilislərin və rusların təşviqi ilə təşkilatlanan və silahlanan erməni ordusunun qətlə yetirdiyi insanların sayı 90.000 nəfərin üzərində idi (12, s. 248).

Bu acı gerçəklər ermənilərdə türklərə qarşı nifrət psixologiyasının, türkü öldürməkdən mənəvi zövq alma düşüncəsinin bariz nümunəsi və əlaməti olmaqla yanaşı, törədilən bu cinayətlərin arxasında böyük dövlətlərin dəstəyi olduğu, eləcə də İngiltərə tərəfindən verilən qızıl və sterlinqlərin, eyni zamanda silah və sursatların təsiri də xüsusilə qeyd edilməlidir. Məhz bunun nəticəsidir ki, müsəlman türk əhalisinin çəkdiyi əziyyətlər və törədilən soyqırımı cinayətləri İngiltərənin siyasi dairələrində heç bir səs gətirməmiş, əksinə bu cinayətlərin üstü xüsusi etina ilə örtülməyə çalışılmşdır.

Dördlər qruplaşmasının Birinci Dünya müharibəsində məğlubiyyəti ilə türklərin Pantürkist ideyalarının reallaşması ehtimalı ortadan qalxınca, böyük bir çıxmazdan qurtulan İngiltərə 1918-ci ilin noyabr ayında Azərbaycana daxil oldu. Lakin ingilis qoşunları Bakıya daxil olduqdan üç ay sonra, 1919-cu ilin fevralında Lloyd Corc hökuməti ordunu Transqafqazdan mümkün qədər tez çıxarmağı qərara aldı (5, s. 248). İngilislərin Qafqazdan çıxmaq qərarı bu günə qədər dəqiqləşdirilməmiş ciddi problemlərdən biri olaraq qalır.

Mənbələrdə Birinci Dünya müharibəsinin sonunda İngiltərənin Qafqazı, xüsusilə neft bölgəsi olan Azərbaycanı öz müstəmləkə imperiyasına qatmaq, Xəzər dənizinə sahib olmaq niyyətində olduğuna dair məlumatlar keçir. Tarix üzrə elmlər doktoru, professor Pərvin Darabadi qeyd edir ki, ingilislərin Qahirədən Kəlküttəyə qədər Böyük Britaniyanın nəzarəti altında birləşməsi yolu ilə bütöv ərazinin yaradılması ideyası mövcud idi. Bu ideya İngiltərənin Orta Şərqdəki siyasətinin yeni məzmununu – Xəzərə və Qafqazətrafı ərazilər, xüsusilə neft Bakısı üzərində nəzarətin yaradılmasını stimullaşdırırdı (3, s. 26). Bu geosiyasi plan eyni zamanda Hindistanın şimal sərhədlərindən Aralıq dənizinə doğru uzanmış bir neçə bufer dövlətdən ibarət zəncirin yaradılmasını da nəzərdə tuturdu. Bu zəncir Hindistana hücumlar zamanı qalxan, Böyük Britaniya, Avstraliya və Yeni Zelandiya arasında əsas əlaqələndirici vasitə rolunu oynamalı idi. Qafqaz-Xəzər regionu əsas əlaqələndirici halqəyə çevrilirdi ki, bu halqə İngiltərənin hərbi-siyasi planlarında həmin dövr üçün xüsusi yer tuturdu (3, s. 26).

İngiltərənin məşhur dövlət xadimlərindən Lord Kerzon qeyd edirdi ki, Böyük Britaniyanın gələcəyi Avropada deyil, bizim immiqrantlarımızın gəldiyi, sonralar isə gələcək nəsillərin artıq istilaçı kimi geri qayıtdığı qitədə həll olunacaqdır. Türkistan, Əfqanıstan, Xəzər, Persiya dünya hökmranlığı uğrunda oyun gedən şahmat lövhəsinin bir hissəsidir (3, s. 25).

İngiltərənin Azərbaycanı öz müstəmləkə imperiyasına qatmaq, Xəzər dənizinə sahib olmaq niyyətində olduğuna dair məlumatlar N.K.Buzınina və K.V.Vinoqradovun (23, s. 119), F.Volkovun (24, s. 50), Cəmil Həsənlinin (5, s. 249) və s. tanınmış tədqiqatçıların əsərlərində də mövcuddur, eyni zamanda bu tədqiqatların hər birində ingilis planlarına dair məsələlərlə bağlı haqlılıq payı da olduqca yüksəkdir. Lakin ingilislərin qısa bir müddət içərisində Qafqazı tərk etmələrinin səbəbi qaranlıq olaraq qalır. Əvvələ, ingilislər niyə gəlmişdilər və heç bir kənar müdaxilə olmadan bölgəni hansı səbəbdən tərk etdilər?

İngiltərənin Hindistan işləri üzrə naziri A.Monteqyunun Qafqaza münasibətdə düşüncələrini bu cür açıqlayır: *"Hindistanın müdafiəsi məsələləri ilə bağlı mən fikirləşirəm ki, Qafqaz haqqında düşünmək bizim üçün mühüm deyildir. Mən hesab edirəm ki, bu bölgə tamamilə bizim maraqlarımızdan kənardadır"* (26, s. 74).

Bu ifadələr olduqca müəmmalı və çox qarışıqdır. Əgər Qafqaz İngiltərənin maraqları xaricində idisə, bölgəyə niyə gəlmişdilər? Qənaətimizcə, İngiltərə öz müstəmləkələrinin ərazilərini genişləndirməkdən daha çox, müharibə dövründə ələ keçirdiyi müstəmləkələri *(xüsusilə neft bölgəsi olan Yaxın Şərqi – E.Ş.)* qoruyub saxlamaq üzərində düşünürdü. Xüsusilə İngiltərə baxımından daha çox əhəmiyyət kəsb edən bölgə Yaxın Şərq idi. Enerji resurslarının əsas hissəsinin Osmanlı sərhədləri içərisində yer alması Yaxın Şərqi İngiltərə üçün tam mənası ilə vaz keçilməz bir bölgəyə çevirmişdi. Sənaye inqilabını tamamlamış olan İngiltərə üçün Yaxın Şərq neftinə sahib olmaq ölkənin rifah və zənginliyi baxımından olduqca zəruri idi. Ancaq bütün bunlar o demək deyildi ki, zəngin təbii sərvətlərə malik olan Bakı neftinin İngiltərənin iqtisadi maraqlarında yeri yox idi. İngiltərə qədər neftin əhəmiyyətini dərindən idrak edən ikinci bir dövlət göstərmək mümkün deyil. Bunun üçün ingilislər hər şeylərini ortaya qoyaraq bu yağlı maddənin mütləq hakimi olmaq istəyirdilər (18, s. 160). Məlum olduğu kimi, XX əsrin ən güclü təbii qaynağı və dünyanı idarə edən əsas qüdrəti neft idi. Neft neçə-neçə

dövlətləri oyuncağa və alətə çevirmiş, böyük, kiçik bir çox yeni yaranan dövlətlərə azadlıq verdiyi kimi, qocaman imperiyaları da tarix səhnəsindən silmişdir. Bu maye üçün insan deyilən varlığın zərrə qədər də olsun dəyəri yoxdur. Məşhur siyasətçi Uinston Çörçilin 1936-cı ildə İcmalar Palatasında neftin əhəmiyyəti barədə dediyi sözlər olduqca düşündürücüdür: *"Bir damla neft bir damla qandan daha qiymətlidir"* (18, s. 13-14). Bu baxımdan ingilislərin Azərbaycana gəlişinin, daha doğrusu bölgədə işğal siyasəti yeritməsinin səbəbi bilavasitə iqtisadi maraqlarla – neftlə xarakterizə oluna bilər. Məşhur türk tədqiqatçısı Raif Karadağ *"Petrol fırtınası"* adlı əsərində "Times" qəzetinin tanınmış əməkdaşlarından Artur Murun (Arthur Moore) 1 iyul 1922-ci il tarixli məqaləsinə istinadən, ingilislərin Bakı neftinə sahib olmaq üçün Qafqaza gəldiklərini, lakin bolşevik rus hökuməti ilə müharibəyə başlamağa hazır olmadıqlarından bölgəni tərk etmək məcburiyyətində qaldıqlarını qeyd edir (18, s. 162). Bu fikirlər doğru olsa da, ortada yenə bəzi müəyyən qaranlıq məqamlar mövcuddur. Hər şeydən əvvəl ona görə ki, dünyanın ən güclü ordusuna sahib olan İngiltərə üçün Rusiyada hakimiyyəti ələ keçirən və daxili çəkişmələrlə məşğul olan yeni rejimin rəqib olması imkansız idi. İngilislər gələcəkdə rus təhlükəsi ilə qarşılaşmaq istəməyə bilərdi. Təbii ki, bu da mövcud ehtimallar içərisində sayılmalıdır. Lakin qənaətimizcə, İngiltərənin bəhs olunan dövrdə zəngin təbii sərvətlərə sahib olan Yaxın Şərqə, xüsusilə Mosul neftinə daha çox fikir verməsi ehtimalı burada daha çox üstünlük təşkil edir. Bu ehtimalları sadalamaqla birlikdə, bu real faktı da gözdən qaçırmamaq lazımdır ki, İngiltərə Panturanizm amilini mütləq şəkildə nəzərə almaq məcburiyyətindəydi. Çünki Türkiyənin tamamilə yalnızlığa məhkum edilməsi hesaba qatılaraq, bu dövlət ilə Türk Dünyası arasındakı əlaqələrin qoparılması və Turancı ideyaların önünün kəsilməsi İngiltərə baxımından mühüm əhəmiyyət kəsb edirdi. Bu planın gerçəkləşməsi üçün ən uyğun vasitə isə ermənilər idi. Tanınmış siyasi xadim Lord Kerzonun ifadələri olduqca düşündürücüdür: *"Türkiyə ilə Türk xalqları arasında tampon bir dövlətin yaradılması qaçılmazdır. Problemin ortadan qalxması üçün yeni "Erməni Dövləti" təzahüründə xristian bir topluluğun meydana gətirilməsi vacibdir"* (25, s. 427).

Lakin "Erməni dövləti" təzahüründə bu topluluq hansı bölgələrdə yaradılacaqdı? Bu dövlətin Şərqi Anadoluda qurulması mümkün deyildi, İngiltərə özü buna qətiyyən razı deyildi. Halbuki İngiltərə Şərqi Anadolu və Qafqazda türk təhdidinə qarşı baryer olaraq yararlanması müqabilində ermənilərə təminat vermiş, "Müstəqil Ermənistan"ın qurulması yönündə ciddi öhdəliklər götürmüş və vədlər vermişdi. Erməni dövlətinin Türkiyə ilə Azərbaycan arasında Naxçıvanı da əhatə edən bir bölgədə qurulması və sərhədlərinin müəyyənləşdirilməsi məsələsi İngiltərənin planları çərçivəsində idi. İngilislər Türkiyəyə meylli olan Azərbaycana inanmadıqlarından məhz Ermənistana etimad edir və Türkiyənin Transqafqaza olan qapısını əbədilik bağlamaq üçün Naxçıvanı ermənilərə verməyə çalışırdılar (bu barədə ətraflı bax: 1, s. 13-14; 10, s. 74).

Naxçıvan 1919-cu ilin yanvarında ingilislər tərəfindən işğal edildi. Naxçıvan və Şərurun Ermənistan hökumətinin tabeliyinə verilməsini bildirən ingilislər ermənilərin öz işğalçılıq siyasətini həyata keçirmələrinə şərait yaratdılar. Daşnaklar ingilis zabitlərinin bilavasitə köməyi və iştirakı ilə 1919-cu ilin iyununda Naxçıvanın bir hissəsini tutsalar da, Naxçıvan Milli Komitəsinin hərbi hissələri daşnakların nizami qoşununu əzərək onları Naxçıvan ərazisindən kənara atdılar. Yerlərdə hakimiyyət Milli Şuranın əlində idi. İyulun əvvəllərində ingilis qüvvələri Naxçıvanı tərk etdilər (1, s. 14).

Bütün bunları ümumiləşdirərək belə bir nəticəyə gəlmək mümkündür ki, İngiltərə özünün ekspansionist siyasətini həyata keçirərkən Londonda tərtib olunmuş ssenari üzrə hərəkət edən daşnaklardan istifadə etmiş (9, s. 256), hər vəchlə Ermənistanın Antantaya öz ərazisini, habelə hərbi və iqtisadi potensialını verməyə hazır olan daşnak rəhbərlərini dəstəkləmiş (3, s. 33), faktiki olaraq Ermənistanı Naxçıvan və Zəngəzurla bağlı təcavüzkar hərəkətlərə təşviq etmişdir. Nəticədə İngiltərənin siyasi planları çərçivəsində dəstəklənən ermənilər tərəfindən Şərqi Anadoluda olduğu kimi, Azərbaycanda və onun ayrılmaz parçası olan Naxçıvanda soyqırımı siyasəti gerçəkləşdirilmişdir.

Beləliklə, İngiltərə qarşılıqlı istifadə və faydalanma münasibətləri çərçivəsində vəd etdiyi "Böyük Ermənistan" dövlətini yaratmasa da, Türkiyə ilə Türk Dünyası arasında tampon dövlət olaraq müstəqil daşnak Ermənistan dövlətinin qurulmasında bilavasitə yaxından iştirak etmiş, ümumtürk birliyi arasına baryer kimi erməniləri yerləşdirərək öz milli və geosiyasi maraqlarına uyğun olaraq Panturanizmin qarşısına sədd çəkmiş, beləliklə, öz vəzifəsini tamamlamışdır. Digər bir ifadəylə, Ermənistan dövlətinin qurulması İngiltərənin, ümumilikdə Antantanın məqsədləri içərisində olub, Panturanizm təhlükəsinə

qarşı baryer kimi "əsas maneə" rolunu oynamış və bu yolda milyonlarla sterlinqlər xərclənmişdir. 1918-ci ilin oktyabr ayında İngiltərənin Xarici İşlər naziri Artur Balfur tərəfindən erməni milli nümayəndəsinin rəhbəri Poqos Nubar paşaya ünvanlanan yazıda qeyd olunurdu ki, Ermənistan dövlətinin yaradılması Antantanın, xüsusilə İngiltərənin müharibə məqsədlərindən biridir (37). Bu yazı açıq bir etirafdır.

Məsələnin mahiyyətinə endikcə aydın olur ki, Antantanın, xüsusilə də İngiltərənin iradəsi olmasaydı, erməni dövlətinin qurulmasından və mövcudiyyətindən söhbət gedə bilməzdi. Bu barədə fransız tədqiqatçısı Jorj de Malevil də *"1915-ci il erməni tragediyası"* adlı əsərində göstərir: *"İngiltərənin iradəsi ilə çar imperiyasının xarabalıqları üzərində qurulub qısa bir ömür (1918-1920) sürən erməni respublikası, bütün tarixi boyu mövcudiyyəti qeydə alınan yeganə müstəqil erməni dövləti idi"* (27, s. 15).

Göründüyü kimi, müstəqil daşnak Ermənistan dövləti məhz İngiltərənin geosiyasi maraqlarına uyğun olaraq onun iradəsi ilə yaradılmışdır. Lakin bir məsələni də qeyd etmək lazımdır ki, "Böyük Ermənistan" ideyası ilə yaşayan radikal erməni millətçilərinin düşüncəsinin əksinə olaraq, müstəqil Ermənistan dövləti Osmanlı İmperiyasının ərazilərində deyil, Cənubi Qafqazda qurulmuşdur. Bunun da müəyyən səbəbləri var idi. Əgər "Böyük Ermənistan" dövləti Şərqi Anadoluda yaradılsaydı, bu dövlət İngiltərənin deyil, Rusiyanın nəzarəti altına keçə bilərdi. Rusiyanın 1828-ci ildə "Erməni vilayəti"nin əsasını qoymaqla gələcəkdə ondan hücum mərkəzi olaraq düşünməsini, "erməni kartı"ndan yararlanaraq gələcəkdə Osmanlı dövlətini parçalamaq, Şərqi Anadoluda yaşayan erməniləri müstəqillik və "Böyük Ermənistan" vədləri ilə qızışdıraraq, onları öz himayəsi altında bir araya gətirərək Osmanlı ərazilərinə yiyələnmək arzusunda olması faktlarını xatırlatmaq kifayətdir. Bu ehtimalı nəzərə alan İngiltərə Osmanlı torpaqlarını öz nəzarətində saxlaya bilmək üçün Erməni dövlətinin qurulması məsələsini Cənubi Qafqaza ixrac etmişdir. Heç şübhəsiz ki, geosiyasi maraqların toqquşmasının nəticəsi olaraq Ermənistan dövlətinin yaradılması o tarixdən günümüzə qədər Azərbaycan üzərində ağır dərin izlər buraxmışdır.

## ƏDƏBİYYAT

**Azərbaycan dilində:**

1. Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan. (Tərtib edəni və ön sözün müəllifi İsmayıl Hacıyev). Naxçıvan, Əcəmi, 2010, 384 s.
2. Fəxrəddin Cəfərov. Naxçıvan polisi: fəaliyyətinin əsas istiqamətləri və mərhələləri. Bakı, Nurlan, 2011, 388 s.
3. Pərvin Darabadi. XX əsrin əvvəllərində Güney Qafqaz beynəlxalq geosiyasi münasibətlər sistemində / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam ordusu. Bakı, Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu nəşriyyatı, 2008, s. 23-38
4. İsmayıl Hacıyev. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan, Əcəmi, 2012, 192 s.
5. Cəmil Həsənov. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər). Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 362 s.
6. Qafarov Vasif. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı, Azərnəşr, 2011, 474 s.
7. Musa Qasımlı. Antanta ölkələrinin Güney Qafqaz siyasəti (1917-ci il noyabr – 1918-ci il noyabr) / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam ordusu. Bakı, Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu nəşriyyatı, 2008, s. 191-224.
8. Reha Yılmaz. Birinci Dünya müharibəsinin başlanğıcında Osmanlı dövlətinin Qafqaz siyasəti / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu nəşriyyatı, 2008, s. 57-74
9. Sevinc Yusifzadə. Ermənistan-Azərbaycan münaqişəsi və İngiltərənin mövqeyi (1918-1920-ci illər) // Dirçəliş – XXI əsr, 2004, №76-77, s. 252-261
10. Elçin Zamanov. Cənubi Qafqazda ictimai-siyasi vəziyyət və Azərbaycanın xarici siyasəti (1918-1920-ci illər). Bakı, Elm və təhsil, 2011, 176 s.

**Türk dilində:**

11. Fahir Armaoğlu. 19. yüzyıl siyasi tarihi (1789-1914). Ankara, Türk Tarih Kurumu, 1997, 821 s.
12. Aygün Attar. Ermeni ulusalcılığının siyasal oluşumu / Ermeni Araştırmaları 2. Türkiye Kongresi Bildirileri. Ankara: Avrasya Stratejik Araştırmalar Merkezi, Ermeni Araştırmaları Enstitüsü yayınları, 2007, I cilt, s. 231-252
13. Halil ErsiAvcı n. İngiliz-ermeni ittifakı. İstanbul, Paraf yayınları, 2010, 448 s.
14. Tolga Başak. İngiltere'nin ermeni politikası (1830-1923). İstanbul, IQ Kültür Sanat yayıncılık, 2008, 672 s.
15. Mustafa Çolak. Alman imparatorluğu'nun Doğu siyaseti çerçevesinde Kafkasya politikası (1914-1918). Ankara: Türk Tarih Kurumu yayınları, 2006, 324 s.
16. Yusuf Halaçoğlu. Ermeni tehciri ve gerçekler. Ankara, Türk Tarih Kurumu yayınları, 2001, 106 s.
17. Peter Hopkirk. İstanbul'un doğusunda bitmeyen oyun. İstanbul, Yeni Yüzyıl – Sabah yayınları, 1995, 516 s.
18. Raif Karadağ. Petrol fırtınası. İstanbul, Truva yayınları, 2014, 328 s.
19. Nurşen Mazıcı. Belgelerle uluslararası rekabette ermeni sorunu'nun kökeni (1878-1918). İstanbul, Gümüş basımevi, 1987, 292 s.
20. Öke Mim Kemal. Siyonizm'den uygarlıklar çatışmasına Filistin sorunu. İzmir, Ufuk kitapları, 2002, 507 s.
21. Esat Uras. Tarihte ermeniler ve ermeni meselesi. İstanbul, Belge yayınları, 1987, 798 s.
22. Yerasimos Stefanos. Milliyetler ve sınırlar. Balkanlar, Kafkasya ve Orta Doğu. İstanbul, İletişim yayıncılık, 2000, 504 s.

**Rus dilində:**

23. Бузынина Н.К., Виноградов К.В., Лорд Керзон (1859-1925. Докум. очерк) // Новая и Новейшая История, 1973, №6, с. 116-127
24. Волков Ф.Д. Тайны Уайтхолла и Даунинг-стрит. Москва, Мысль, 1980, 462 с.
25. Джордж Ллойд. Правда о мирных договорах. В 2-х томах: Перевод с английского. Т. 2 / Д.; Под ред.: Волков Ф.Д., Никонов А.Д., Москва, Иностр. Литературы, 1957, 556 с.
26. Лавров С.В. Борьба в политических кругах Великобритании вокруг англо-советских переговоров 1920-1921 годов // Вопросы Истории, 1977, №6, с. 59-80
27. Малевил Жорж де. Армянская трагедия 1915 года. Баку, Элм, 1990, 128 с.

**Arxiv materialları və rəsmi sənədlər:**

**Azərbaycan:**

28. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA): f. 314, siy. 5, iş 71.

**Türkiyə:**

29. Osmanlı belgelerinde ermeni-ingiliz ilişkileri (1896-1922). T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü. Osmanlı Arşivi Daire Başkanlığı, yayın nu: 76, Ankara, 2006, 4 ciltte, cilt:4, belge №76, 460 s.

**İngiltərə:**

30. Oriental and India Office Collections (British Library): India Office Records IOR/L/P&S/11/166, Decypher. Mr. Wardrop (Tiflis), No: 209, 17th December 1919
31. The National Archives of United Kingdom: Public Record Office Foreign Office Documents (PRO. FO): 371/3016/237541, J.A.Malcolm to Ronald Graham (Foreign Office), December 14th, 1917
32. PRO. FO. 371/3018/245628, Foreign Office to Sir G.Buchanan, December 30th, 1917
33. PRO. FO. 371/3062/231202, Aneurin Williams to Lord Robert Cecil (Foreign Office),

December 4$^{th}$, 1917.
34. PRO. FO. 371/3284/75611, "Memorandum Regarding the Support Afforded to the Armenians", Department of Military Intelligence to Foreign Office, April 29$^{th}$, 1918
35. PRO. FO. 371/3300/19679, Sir C.Marling (Tehran) to Foreign Office, no: 76, January 30$^{th}$, 1918
36. PRO. FO. 371/3301/131359, C-in-C. India to War Office, no: 56896, July 20$^{th}$, 1918
37. PRO. FO. 371/3404/162745, Arthur James Balfour to Boghos Nubar Pasha, (12, Avenue du Trocadero, Paris), October 12$^{nd}$, 1918
38. PRO. FO. 371/3448/178219, A.J.Toynbee to Mr. Kidston, October 26$^{th}$, 1918
39. PRO CAB (Cabinet Papers). 23/4, War Cabinet, 294, Minutes of a Meeting of the War Cabinet held at 10, Downing Street on Friday, December 7$^{th}$, 1917, at 5:30 PM
40. PRO. CAB. 25/120, S.W.C. 1, Secret, "Note on the Military Situation in Armenia" by Supreme War Council, British Section, Versailles, December 3$^{th}$, 1917.

## ABSTRACT

**Emin Shikhaliyev**

**The armenian policy of England and its impact on Nakhchivan on the basis of archival materials of the Great Britain**
**(1918-1920 years)**

In this article was researched the place of the Armenian Question in the political plans of Britain and was analysed the result of this politics on Azerbaijan and its component part Nakhchivan on the basis of archival materials. It has noticed that, after collapse of Tsar Russia in the 1917, South Caucasia was under surveillance of Britain and in accordance with traditional English policy the Armenians were supported with money and military supplies. As a result of this support it was realized genocide in Azerbaijan and its component part Nakhchivan in 1918-1920 years.

## РЕЗЮМЕ

**Эмин Шихалиев**

**Воздействие «армянская» политика Англии и его влияние на Нахчыван на основе архивных материалов Великобритании (1918-1920 гг.)**

В статье исследовано место «Армянского Вопроса» в политических планах Великобритании и на основе архивних материалов были проанализированы тяжелые последствия этой политики для Азербайджана, в частности для его неотъемлемой части Нахчыванского края. В ней отмечается, что в 1917 году в результате падения Российского царства Южный Кавказ попал под влияние Англии и в соответствии с их политикой армяне были обеспечены деньгами и оружиями. В результате 1918-1929 годах в Азербайджане, в том числе в Нахчыване произошел геноцид местного населения - азербайджанцев.

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir –
**Qrant №EİF/MQM-3-Shusha-2014-7(22)-05/01/5**

NDU-nun Elmi Şurasının 31oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 01).
Məqaləni çapa təqdim etdi: *AMEA-nın həqiqi üzvü* İ.Hacıyev

**İSMAYIL ZEYNALOV**
*Naxçıvan Dövlət Universiteti*

***UOT: 94 (479.242)***

# XIX-ƏSRİN SONU XX-ƏSRİN BİRİNCİ YARISINDA AZƏRBAYCANIN NAXÇIVAN BÖLGƏSİNDƏ ƏKİNÇİLİK TƏSƏRRÜFATI (TAXILÇILIQ)

***Açar sözlər:*** *tarixi etnoqrafiya, kənd təsərrüfatı, əkinçilik, taxılçılıq, "Qafqaz" qəzeti, aqrar islahat, əkinçilik mədəniyyəti*

***Key words:*** *historical ethnography, agryculture, plantation, wheet growing, "Qafqaz" newspaper, agrarian reform, culture of plantation*

***Ключевые слова:*** *историческая етнография, сельское хозяйство, земледелие, зерноводство, газета «Кавказ», аграрная реформа, земледельческая культура*

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsinin tarixi etnoqrafiyasının ayrı-ayrı sahələrinin öyrənilməsi ilə yanaşı onun XIX-əsrin sonu XX-əsrin birinci yarısında əkinçilik təsərrüfatı ilə bağlı taxılçılıq sahəsinin də etnoqrafik baxımdan araşdırılıb tədqiq olunmasını təqdirə layiq hesab etmək olar. Çünki Azərbaycan xalqının tarixində özünəməxsus mövqeyi olan hər bir bölgənin istər inzibati-ərazi, istər əhalinin məşğuliyyəti, istərsə də təsərrüfat həyatını öyrənmək və üzə çıxarmaq vacib məsələlərdən biri sayılır. Həm də Azərbaycan etnoqrafiyasındakı bölgələr üzrə çatışmayan məlumatlar əldə edilmiş olur.

Məlumdur ki, Naxçıvan Azərbaycanın ayrıca bir tarixi etnoqrafik vilayətidir. Bölgənin ərazisi əsasən düzənlik, dağətəyi və dağlıq sahələrə ayrılır. Bu vilayətin Ermənistanla sərhəddə olan nöqtələri Qapıçıq dağı (hündürlüyü 3904 metr) və Küküdağ (hündürlüyü 3120 metr) zirvələridir. Zəngəzur və Dərələyəz dağ silsiləsinin qovşağında yerləşən Biçənək aşırımı (Batabat ərazisi) dəniz səviyyəsindən 2346 metr hündürlükdədir. Bölgənin çayları Arpaçay, Əlincəçay, Naxçıvançay, Ordubadçay, Gilançay və başqaları öz başlanğıcını Qafqaz dağlarının Zəngəzur və Dərələyəz silsiləsindən götürür və Araz çayına tökülürlər.

Qeyd etmək lazımdır ki, XIX-əsin əvvəllərində (1828-ci il Türkmənçay sülh müqaviləsi ilə) Azərbaycan Çar Rusiyasının tərkibinə birləşdirildikdən sonra Azərbaycanın tarixi etnoqrafiyasının yazılması və öyrənilməsinə biganə yanaşılmışdır. Məhz bu baxımdan da deyə bilərik ki, istər XIX-əsrdə, istərsə də sonrakı illərdə Azərbaycanın tarixi etnoqrafiayası haqqında həcm etibarı ilə böyük olmayan məcmuələri, qəzet materiallarını nəzərə almasaq elə bir sanballı əsər yazılmamışdır. Eyni zamanda nəşr olunmuş məqalələr müəyyən bir mövzunu əhatə etməyib, müxtəlif sahələri özündə əks etdirən, o cümlədən tarixi, iqtisadi, maliyyə, hərbi xarakterli məlumatlar olmuşdur.

Ancaq bütün bunlara baxmayaraq XIX-əsrin sonunda Azərbaycan etnoqrafiyasının inkişafında, onun tədqiq olunmasında ciddi dönüş yaranmış və Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsində də bu sahədə mühüm addımlar atılmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan etnoqrafiyasının bəzi məsələlərinin araşdırılmasında, o cümlədən onun Naxçıvan bölgəsində etnoqrafik məsələlərə dair elmi-tədqiqat işlərinin aparılmasında Xristian Xristianoviç Stevanın (1781-1861), İvan İvanoviç Şopenin (1798-1847) və başqalarının əsərlərindəki məlumatların xüsusi xidmətləri olmuşdur. Bununla yanaşı Azərbaycan etnoqrafiyasının inkişafında 1846-cı ildə Tiflisdə dərc olunan "Qafqaz" qəzetinin də böyük rolu olmuşdur. Eyni zamanda adlarını çəkdiyimiz etnoqrafların və "Qafqaz" qəzetinin köməyi ilə Azərbaycanın tərkib hissəsi olan Naxçıvanın XIX-əsrin sonu XX-əsrin birinci yarısında bölgə əhalisinin təsərrüfat həyatını əks etdirən dəyərli məlumatlara da rast gəlmiş oluruq. Ona görə də bu etnoqrafların və mətbuat səhifələrinin məlumatlarına, həmçinin 2014-2015-ci illərdə Naxçıvan bölgəsində apardığımız şəxsi etnoqrafik tədqiqatlarımıza söykənərək, Naxçıvan əhalisinin maddi-

mədəniyyəti ilə bağlı olan əkinçilik təsərrüfatının bir sahəsi olan taxılçılığın inkişaf yoluna aydınlıq gətirmək mümkün olmuşdur.

Məlum olduğu kimi ölkənin iqtisadi bazasının yaranması, xalqın həyat səviyyəsinin yüksəldilməsi və onun gündən-günə artan tələbatının ödənilməsi kənd təsərrüfatının müvəffəqiyyətindən xeyli dərəcədə asılıdır. Çünki kənd təsərrüfatı inkişaf etmədən, cəmiyyətin iqtisadi həyatını normal şəkildə təmin etmək mümkün deyil. Ona görə də cəmiyyətin inkişafında əkinçilik mədəniyyəti mühüm əhəmiyyət kəsb edir.

Məhz bu mənada ölkəmiz müstəqillik əldə edəndən sonra ulu öndər Heydər Əliyev tərəfindən 1996-1998-ci illər ərzində aqrar sahədə islahatların həyata keçirilməsi təsadüfi deyildi. Çünki müstəqilliyi qoruyub saxlamaq üçün ölkənin iqtisadi qüdrətini gücləndirmək əsas şərtdir.

Heydər Əliyevdən sonra da onun siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev və eləcə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov tərəfindən kənd təsərrüfatını bütün digər sahələri kimi taxılçılıq sahəsinin də inkişaf etdirilməsi istiqamətində çoxşaxəli işlər görülmüş və uğurlar qazanılmışdır.

Əkinçilik mədəniyyəti Azərbaycan xalqının lap qədim zamanlardan bəri məşğul olduğu təsərrüfat sahələrindən biridir.

Əkinçilik mədəniyyətinin inkişaf tarixinə aydınlıq gətirilməsində respublikamızın ərazisində aparılan arxeoloji qazıntılar və etnoqrafik tədqiqatlar geniş məlumat verir. Naxçıvanın 12 kilometrliyində yerləşən Kültəpə kəndində 1956-cı ildə Osman Həbibullayev tərəfindən aparılan arxeoloji tədqiqatlar nəticəsində Azərbaycanda əkinçiliyin qədim tarixi haqqında geniş məlumat əldə edilmişdir. Burada neolitin sonuna aid bir qəbirdən meyitin başı altından dəm daşı, çanaq hissəsi yaxınlığında isə həvəngdəstə tapılmışdır.

Eyni zamanda Kültəpənin mədəni təbəqələrindən dən daşları, daş toxalar və əkinçiliyə aid maddi mədəniyyət nümunələri də tapılmışdır.

Arxeoloji tədqiqat zamanı Kültəpədə yanmış taxıl qalıqları da aşkar edilmişdir. Tarixi ədəbiyyatlardan və aşkar edilmiş arxeoloji materiallardan aydın olur ki, Naxçıvanda kənd təsərrüfatının mühüm sahələrindən biri sayılan əkinçilik təsərrüfatı zaman-zaman inkişaf etmişdir. Xalqın təsərrüfat fəaliyyətinin ənənəvi sahələrindən olan əkinçilik əvvəllərdə olduğu kimi, XIX-əsrin sonu XX-əsrin birinci yarısında da Naxçıvanda yenə öz əvvəlki əhəmiyyətini saxlamışdır. Qeyd etmək lazımdır ki, Naxçıvanda olan əlverişli iqlim şəraiti, münbüt torpaq örtüyünün olması, yüksək inkişaf səviyyəsinə çıxmış süni suvarma sistemi və nəhayət, əsrlər boyu təşəkkül tapmış zəngin istehsal vərdişləri ölkə əhalisinin böyük əksəriyyətinin əkinçiliyin müxtəlif sahələrindən biri olan taxılçılıqla da məşğul olmasına şərait yaratdığından, dənli bitkilərin əkin sahəsi xeyli genişləndirilmiş və bununla da taxıl məhsulunun ümumi yığımı xeyli dərəcədə artmışdır. Taxılçılıq təsərrüfatında dənli bitkilərdən buğda və arpa əkilməsi əsas yer tuturdu. Naxçıvanda qədim dövrlərdən əkilib becərilən darı, tez yetişməsinə və məhsuldarlığına görə başqa dənli bitkilərdən fərqlənsə də özünün keyfiyyət tutumuna görə bir o qədər də əlverişli olmadığı üçün onun əkilib becərilməsi sərfəli sayılmırdı. Darıdan fərqli olaraq taxıl bitkilərindən hesab olunan çovdarın becərilməsinə daha çox üstünlük verilirdi.

Təqribi hesablamalara görə XIX-əsrin sonunda Ordubad dairəsi istisna olmaqla, Naxçıvan bölgəsində 20 min desyatin becərilən torpaq sahəsi var idi. Naxçıvan şəhəri də daxil olmaqla burada 5500 ailə yaşayırdı. Becərilən torpaq sahələrini ailələrin ümumi sayına bölsək, hər ailəyə orta hesabla 3,6 desyatin torpaq sahəsi düşdüyünün şahidi olarıq.

Naxçıvan bölgəsi üzrə əkilib becərilən 34096 xalvar (1 xalvar 28 put 4 funda bərabərdir) torpaq sahəsinin böyük bir hissəsi (52,6 %) Dərələyəz mahalının payına düşürdü. İkinci yerdə Naxçıvan şəhəri daxil olmaqla, Naxçıvan mahalı durur ki, bu da 34,4% təşkil edirdi. Bu mahalda əkilən torpaqların 600 xalvarı Naxçıvan şəhəri və onun ətrafında olmuşdur. Naxçıvan mahalı üzrə əkilən torpaqların 5,1%-i Naxçıvan şəhərinin payına düşürdü.

Əkinçiliyin inkişaf etdiyi Ordubad bölgəsində isə hər ailəyə düşən becərilən torpaqlar Naxçıvan mahalına nisbətən az idi. Cəmisi 5 kəndi əhatə edən Çinanap (Çənnəb) mahalında yaşayan 128 ailənin istifadəsində 125 xalvar becərilən torpaq sahəsi var idi.

Göründüyü kimi mahalda yaşayan hər ailəyə 1 xalvardan da az becərilən torpaq sahəsi düşürdü. Ordubadın Belev (Biləv) mahalının bir sıra kəndlərində də təxminən belə vəziyyət hökm sürürdü.

Qeyd etmək lazımdır ki, Naxçıvan bölgəsi üzrə XIX-əsrin sonu XX-əsrin birinci yarısında əkilən torpaqların əksəriyyəti dənli bitkilərdən ibarəd idi. Naxçıvan mahalının Şıxmahmud kəndində 300 xalvar əkilən torpaq sahəsindən 100 xalvarı buğda, Cəhri kəndində isə 400 xalvarı buğda üçün istifadə olunurdu. Digər kəndlərdə də demək olar ki, vəziyyət belə idi.

Naxçıvan bölgəsində əkilən torpaqlarının oxşar cəhətləri ilə yanaşı fərqli tərəfləri də var idi. Belə ki, Naxçıvan bölgəsinin torpaqları münbüt və bərəkətli olmaqla bərabər, öz xüsusiyyətlərinə görə əkinçiliyin bütün sahələri üçün deyil, ayrı-ayrı sahələri üçün yararlı olmuşdur. Bu fikrin təsdiqini inforvator Culfa rayonunun Xanağa kənd sakini 1937-ci il təvəllüdlü Məmməd kişinin verdiyi məlumatlardan da görə bilərik ki, əsasən Naxçıvan bölgəsinin Əlincə mahalının torpağı əsas etibarilə kəndli torpaqları olmuş və bura yalnız buğda və arpa üçün yararlı olmuşdur. Xök mahalının torpaqlarında isə informator mərhum İbrahim Hüseynovun dediyinə görə buğda və arpa ilə bərabər pambıq əkmək üçün də yararlı idi. Ordubad bölgəsinə gəldikdə isə informator 1933-cü il təvəllüdlü mərhum Oruc Əkbərovun məlumatına görə isə Ordubad torpaqları bağçılıq üçün daha çox sərfəli idi. Ona görə də Ordubadda torpaqlar xüsusiyyətinə görə üç yerə bölünürdü:

1) Şimalda gili çox olan qara torpaqlar
2) Mərkəzdə gilli və qumlu torpaqlar
3) Cənubda Araz çayı boyunca sarı və qırmızı gilli torpaqlar.

Məhz torpaqların bu xüsusiyyətlərinə görə də Naxçıvan bölgəsində kəndlilər taxılçılıq, bağçılıq, üzümçülük və pambıqçılıq bitkilərinin yetişdirilməsi ilə məşğul olurdular.

Buğdanı Naxçıvan bölgəsində ildə bir dəfə, o cümlədən yazda mart ayının sonunda (yazlıq), payızda isə sentyabr ayının sonunda və ya oktyabr ayının 20-sinə kimi (payızlıq) əkirdilər. Bu cür səpin indi də həyata keçirilir. Onu da qeyd etmək lazımdır ki, əhalinin tələbatı ilə əlaqədar olaraq Naxçıvanın bütün ərazilərində taxılçılıq əsas yer tuturdu ki, bu da deyildiyi kimi zərurətdən irəli gəlirdi. Ona görə də XIX əsrin 80-ci illərində Naxçıvan bölgəsi öz bol taxılı ilə fərqlənməyə başlayır, və kənd təsərrüfatında taxılçılıq aparıcı rol oynayır.

Ümumiyyətlə, XIX əsrin sonunda Naxçıvanda istehsal olunan taxıl məhsulları yerli əhalinin çörəyə olan ehtiyacını tam ödəyirdi. İnformatorların məlumatlarına görə həmin illərdə Naxşıvana hər hansı bir yerdən taxıl gətirirlmirdi. Amma qeyd etmək lazımdır ki, Naxçıvanda taxıl məhsulunun ümumi artımı olmuşdursa da, bu artım əkin sahələrinin məhsuldarlığına görə deyil, onun ildən-ilə genişləndirirlməsi hesabına idi.

Şübhəsiz ki, bunun bir neçə səbəbləri var idi ki, bunlarda biri də taxılçılıqla işlədilən əmək alətlərinin sadəliyi, digər səbəbi isə kəndlilərin çoxunun qoşqu heyvanları və əmək alətlərinin olmamasından ibarət idi.

XIX əsrin sonu və XX əsrin birinci yarısına qədər Naxçıvanda taxılçılıq təsərrüfatında torpağın şumlanmasında daha təkmil hesab edilən kənd təsərrüfatı alətlərindən dəmirçilər tərərfindən düzəldilən və ya Rusiyanın istehsalı olan dəmir kotanlardan, xışdan, o cümlədən xışın müxtəlif növlərindən olan çalqa xış, çiləli xış ulamalı xış və digər növvlərindən, eləcə də XVIII əsrdə Fransız səyahətçisi tərəfindən qeydə alınmış dirçək kotandan, qara kotandan istifadə olunurdu.

İnformator 75 yaşlı Babək rayonunun Sirab kənd sakini Hacı Ataxan müəllimin məlumatına görə kotandan fərqli olaraq kəndlilər daha çox xışdan istifadə edirdilər çünki, onu bacarıqlı kənlilərin özləri də asnalıqla qayıra bilirdilər.

Naxçıvanda kəndlilər əkinçilikdə əsasən özlərinin ənənəvi əmək alətləri olan bellərdən də istifadə edirdilər. Bellərin müxtəlif adları da mövcud olmuşdur ki, onlardan Naxçıvan beli, Şərur beli kimi bellərin adların çəkmək olar.

Babək rayonunun Sirab kənd sakini 1927-ci il təvəllüdlü informator Əli Fərzəliyevin verdiyi məlumatdan aydın olur ki, xış və ya cüt ən qadim şum aləti idi və onları kəndlilərin özləri də təbii ağacdan düzəldə bilirdilər. Ən qədim şum aləti kimi istifadə edilən xış torpağı cızmaq üçün istifadə olunurdu. Onu əsasən yerli ustalar da düzəldirdi. Bunun üçün ağac kəsilir, yonulur, quraşdırılaraq istənilən formaya salınırdı.

Belə xışlar qollarının formasına görə (əyri və ya düz olmasına) habelə ayrı-ayrı hissələrinin birləşmə qaydalarına görə bir-birindən fərqlənirdilər.

Azərbaycanın ayrı-ayrı bölgələrində olduğu kimi Naxçıvan bölgəsində də istər bütöv, istərsə də geydirmə kötüklü xışlar əsasən bir cüt qoşqu heyvanı ilə işlədilmişdir.

Xışın qolunda xüsusi deşiklər (gözlək) olurdu ki, buraya da "güc ağacı" adlanan ağac keçirilirdi. Torpağı dərin və dayaz şumlanması xışın qolunda olan deşiklərə keçirilən güc ağacı ilə və yaxud "ulama" ilə tənzimlənirdi. Yuxarıda qeyd olunduğu kimi Naxçıvanda işlədilən daha təkmil xış ulama və qollu xışlar olmuşdur.

Naxçıvanda şum alətlərindən daha geniş yayılmış uc hissəsinə dəmir pərçim edilən kotanlardan istifadə edilmişdir. Bu cür kotanlar informator Zeynəddin kənd sakini 1931-ci il təvəllüdlü Əsgər müəllimin məlumatına görə xalq arasında qara kotan, ağır kotan, kəl kotanı adı ilə məhşur idi.

Qara kotan VIII-IX əsrlərdə məlum olmaqla əkinçiliyin inkişafı baxımından ən təkmilləşmiş şum aləti olmaqla, XIX- əsrin sonu XX- əsrin birinci yarısında Naxçıvanda geniş yayılmışdır. Taxılçılıqda məhsuldarlığı artırmaq üçün onun şumlanmasına ciddi fikir verilirdi. Ona görədə yuxarıda adlarını çəkdiyimiz şum alətlərindən səmərəli istifadə edilməsinə daha çox diqqət yetirilirdi.

Taxılçılıq təsərrüfatında mühüm əmək proseslərində biri də toxumun seçilməsi və səpini idi. Naxçıvanda toxumseçmədə ən çox istifadə edilən üsul zəmilərdən sünbülün seçilməsi olmuşdur. Ona görə də təcrübəli əkinçi zəmilərdəki iri, sağlam və dolu sünbülləri qıraraq, keyfiyyətli toxum hazırlayrdı.

XIX əsr və XX əsrin birinci yarısına qədər Naxçıvanın bütün mahallarında toxum ancaq əllə səpilirdi. Nehrəm kənd sakini 80 yaşlı Gülsüm və onun qardaşı arvadı 65 yaşlı Atikə xanımın toxum səpini haqqında dedikləri də bu fikiri tamamlayır.

Toxum adətən daha təcrübəli mömin və əli bərəktli kimi tanınan əkinçilər tərəfindən səpilərdi. Səpin üçün isə məhsuldar toxum növü ayrılırdı. Səpin zamanı çiyinə salınan heybədən və ya qurşağa bağlanan döşlükdən istifadə edilirdi. Toxum heybəyə və ya dğşlüyə tökülərdi, toxumu səpən heybədən və ya döşlükdən toxum götürüb nizamlı qaydada şumlanmış sahəyə səpərdi.

Əl ilə səpin demek olar ki, qədimdən xalqlar üçün eynilik təşkil etmişdir.

İnformatorlardan Babək rayonunun Qahab kənd sakini, 75 yaşlı fermer Məhəmmədin verdiyi məlumata görə səpin ancaq kişilər tərəfindən həyata keçirilirdi. Səpin elə aparılmalı idi ki, toxum hər tərəfə eyni miqdarda düşsün, boş yer, yəni toxum düşməyən yer qalmasın. Çünki toxumu seyrək və ya qalın səpmək məhsuldarlığa zərər verirdi. Əsasən hər bir qarış yerə 5-7 dənə toxum düşməsi normal hesab olunurdu. Hər hektara, yəni min metrə 140-150 kiloqram toxum səpilərdi.

V.N.Qriqorevin fikrincə Naxşıvanda, xüsusən onun kəndlərində, o cümlədən Təzəkənd, Nehrəm, Şıxmahmud, Didivar, Nəzərəbad və Cəhri kəndlərində taxıl əkini üstünlük təşkil edirdi. Bu kəndlərdə xalq arasında keçmişdə əkinçilər tərəfindən deyilən zərbi məsələlər, hal-hazırda da o cümlədən "nə əkərsən onu biçərsən", "bir buğda səpməsən, min buğda biçməzsən" deyilməkdədir.

Əkinçilər toxumu səpən kimi şumda dərhal malalama işi aparırdılar. Bununla onlar toxumun normal cücərməsi və inkişafı üçün şərait yaradırdılar. Həm də malalama torpağın əzilməsində və toxumun torpaqla qarışmasında xüsusi rol oynayır. Malalar əsasən ağac mala, dımrıq mala, ağac dişili mala adları ilə geniş yayılmışdır.

Bəzi yerlərdə malaya tapan da deyirlər. İndi də Naxçıvanın əksəriyyət kəndlərində bu termin işlədilməkdədir. Taxta malalar isə XX əsrin birinci yarısında daha geniş istifadə olunmağa başlanılmışdır. Taxta malaların uzunluğu 2,5 və ya 3 metrə yaxın olurdu və onun hər iki tərəfində deşik açılıb, kəndir salınırdı, onu qoşqu öküzlərə və ya ata-ulağa qoşub şumu tapanlayırdılar. Taxılçılıqda əkilən sahələrin suvarılma qaydası, yığımı, döyümü də xüsusi məharət tələb edirdi.

XIX əsrin sonu və XX əsrin birinci yarısında taxıl biçimində əsasən oraqdan, mərəndidən istifadə olunurdu. Həmin alətlər ayrı-ayrı kəndlərdə dəmirçi ustalar tərəfindən düzəldilirdi. Əkin seyrək və tikanlı olanda biçin zamanı dəryazdan da (Naxçıvanda buna çox yerdə kərənti də deyirlər) istifadə olunurdu.

İnformatorlardan Babək rayonunun Sirab kənd sakini 87 yaşlı Qasımova Sona qeyd edir ki,

biçinçiliklə əsasən qadınlar məşğul olurdular. Onlar səhər tezdən əkin sahəsinə girərək qoluna dolaq taxar, belinə isə döşlük bağlayaraq taxılı biçməyə başlayardılar. Kişilər isə dərz bağlamaq üçün bəndəm hazırlayardılar. Adətən bəndəm taxıldan hazırlanırdı. Bəndəm arpa və ya buğdanın kökündən çıxarılmış gövdəsindən eşilib düzəldilirdi. Bəzən bəndəm quru təhər olanda onun üzərinə su da səpilirdi, sonra biçilmiş bafaları bəndəmə qoyub bağlayırdılar. Biçinçinin bir əl tutumu sünbül gövdəsi isə bafa adlanırdı. On bafadan bir dərz bağlanırdı. Usta biçinçi bir gündə 80, 100 dərz biçirdi.

Taxıl biçini əsasən iyun ayında başlayırdı iyulun sonunda qurtarırdı. Adətən hər bir təsərrüfat sahibi öz qüvvəsi ilə öz əkin sahəsini biçərdi. Lakin iri təsərrüfat sahibləri biçin zamanı muzdlu biçinçi fəhlə də tutardılar. Bəzən isə qohumlar 4-5 nəfərlik dəstə ilə birləşib biçini başa çatdırırdılar. İnformator Babək rayonu Sirab kənd sakini 1927-vi il təvəllüdlü Əli müəllim qeyd edirdi ki, muzdla işləyən biçinçiyə biçdiyi hər 20 dərzdən ikisi, məhsul bol olduqda isə 3-ü muzd haqqı verilirdi. Məhsul az və seyrək olduqda isə günə muzd əməkhaqqı verilirdi. Bu qayda demək olar ki, Naxçıvanın əksər kəndlərində, o cümlədən Şıxmahmud, Sirab, Qahab, Cəhri, Tırkeş və sairə kimi yerlərdə mövcud olmuşdur. Muzdlu biçinçi bir mövsümdə 100-150-yə qədər dərz qazana bilirdi. əgər bir dərz 4-5 kiloqram məhsul verirdisə, onda biçinçi mövsüm ərzində 400 kiloqramdan çox taxıl qazanmış olurdu.

Biçinçi çalışırdı ki, məhsul itkisi olmaması üçün biçini tez bir zamanda həyata keçirib başa çatdırsın. Ona görə Naxçıvan bölgəsində Şərur-Dərələyəz, Culfa, Şahbuz, Ordubad və başqa yerlərdə biçin işi çox mütəşəkkil həyata keçirilirdi.

Dərzlər döyüm üçün əkin sahəsindən kənd arabaları vasitəsi ilə xırmana gətirilirdi. Xırman taxıl döyülən yerə deyilir. Xırman adətən açıq və külək tutan yerdə bir neçə qohum və yaxud ailənin şərikliyi ilə düzəldilirdi. Arabası olmayanlar və xüsusən araba işləməyən dağətəyi yerlərdə isə dərzləri sahələrdən at, dəvə və ulaq vasitəsilə daşıyırdılar.

Xırman şərikləri öz dərzlərini növbə ilə döyərdilər. Hər bir şərikin dərzləri isə ayrı tayalanırdı. Qədim dövrdən fərqli olaraq, XX əsrdə döymə üsulu bir qədər təkmilləşmişdir, yəni əl ilə ovxalamaq, ağaclarla döymək üsulları aradan çıxmışdı. Taxılı qoşqu aləti olan öküzlərə qoşulan vəl ilə (Naxçıvanın çox yerində vələ gəm də deyirlər) döyürdülər.

Taxılı döymək üçün dərzlər dairəvi şəkildə xırmanda yerə dağıdılırdı. Onun döyülməsində bir-birinə çatılmış öküzləri vələ (el arasında buna gəm də deyilir) qoşub üstünə çıxarıb gəzdirərək döymə üsulunu başa çatdırmaqla sünbüldən dəni ayırmağa nail olandan sonra, külək vasitəsi ilə sovurub saman və ya küləşdən ayırıb işi başa çatdırmış olurlar. Digər bir qayda isə xırmanda sərilmiş dərzin ortasında bir dirək basdırıb, atı onun ətrafında fırladaraq taxılın döyülməsi yerinə yetirilirdi. Atın və heyvanların hərəkəti taxılın dırnaqla döyülməsinə səbəb olurdu. XX-əsrdə taxılın döyülməsində ən geniş yayılan ağac vəllər olmuşdur. Azərbaycanda bu döymə aləti eradan evvəl II minilliyin sonuna aid olsa da Naxçıvanda XIX-əsrin sonu XX-əsrin birinci yarısında da döymə aləti olmuşdur.

Bu alətə hazırda Babək rayonunun Sirab kəndində, XX-əsrin 45-50-ci iilərində kalxoz briqadiri işləmiş mərhum Babayev Əşrəf Cəbaryıl oğlunun həyatində də rast gəlmək olar. Mərhumdan 1994-cü ildə alınan məlumata görə vəl daha davamlı olan ağac materialında hazırlanırdı və iki növü olurdu. 1) tay vəl, 2) qoşa vəl. Tay vəl qoşa vələ nisbətən sadə, ağır və iri olurdu. Vəlin uzunluğu 1,5 və ya 1,8 metrə qədər idi. Onun eni 60-70, qalınlığı 4-6 santimetrə bərabər olurdu. Ağac vəlin döyüm prosesini sürətləndirmək üçün onun altı hissəsində işlək hissəsindəki gözlərə xırda daş parçalar və dəmir pərçimlənirdi.

Vəlin qabaq hissəsi bir qədər yuxarı olurdu ki, burun hissə dərzə ilişib komalanmasın. Vəlin qabaq hissəsində xüsusi göz açılırdı və həmin gözdən ip və ya zəncir salınaraq boyunduruğa bağlanır və boyunduruğa öküz qoşulurdu. Vəlin üstünə 14-18 yaşlı uşaq minib dərzin üstündə döyümü həyata keçirirdilər. Qoşa vəllər isə daha çox istifadə edilirdi və döyümü tez başa çatdırırdı.

Taxılın döyülməsində istifadə edilən alətlərdən biri də carcardır. Bu alətin Azərbaycanda nə vaxtdan istifadə edilməsi məlum deyil. Ona Naxçıvanda rus carcarı da deyilirdi. İnformator Sirab kənd sakini 1931-ci il təvəllüdlü Ağayev Nəsrullah məlumat verir ki, ağac carcar daha mürəkkəb olmuşdur. O, davamlı ağacdan hazırlanaraq 3 hissədən ibarət idi. 1) çərçivə, 2) ox, 3) oturacaqdan ibarət olmuşdur. Onun qalınlığı 10-12 santimetr, uzunluğu 2 metrdən artıq olurdu. Onların

gövdəsinə 15-20 ədəd kərkiyə oxşar metal bərkidirdi. Çərçivənin ortasına taxtadan düzəldilən oturacaq düzəldilirdi. Carcar 1 və ya 2 qoşqu öküzü vasitəsiylə həyata keçirilirdi.

Taxıl döyüm zamanı ağac yaba, kürək, süpürgə, xəlbir, şadara və başqa əmək alətləri və əşyalardan istifadə edilirdi.

Döyülmüş küləşin çevrilməsində yaba və şanadan, sovurmada isə kürəkdən istifadə edilirdi. Sovuruq çətin olduğundan xüsusi ustalıq tələb etdiyindən bu işi daha bacarıqlı xırmançı həyata keçirirdi. Qadınlar və yeniyetmələr isə xırmanın kənarını süpürüb, öküz sürür, su gətirir, taxıl təmizləyir və yardımçı işlər görürdülər.

Taxıl təmizləndikdən sonra onu çuvallara və ya təlislərə doldurub xırmandan aparılırdı. Sonra qış üçün çörək tədarükü məqsədi ilə taxılın bir qismi su dəyirmanlarında üyüdülürdü. Xalq arasında buna qışlıq deyilirdi. Artıq qalan taxılın saxlanılmasına isə küplərdən, taxtadan qayırılmış dənlik qutulardan, (onlar un üçün də istifadə edilərək unnuq adlanırdı) istifadə edilirdi. Onlara böyük kiçikliyinə görə tay və qoşa gözlü qapılar qoyulurdu. Bu taxta qutuların 4-5 santimetrə qədər ayaqları, ucalığı isə 1 və ya 1,5 metr olurdu. Bundan əlavə taxılın saxlanılmasında keçi qəzili və yundan hazırlanmış çuvallardan, kisələrdən, xurcunlardan da daha geniş istifadə edilirdi.

## ƏDƏBİYYAT


1. Azərbaycan etnoqrafiyası, I cild, Bakı, 2007-ci il
2. Bünyadov T.Ə. Azərbaycanda əkinçiliyin tarixinə dair. Bakı, 1964
3. Emilya Əliyeva. XIII-əsrin ikinci yarısı XX-əsrin əvvəllərində Naxçıvan xanlığında əkinçilik. Tarix və onun problemləri, 1-2 Bakı,2009
4. Sahibə Budaqova. Naxçıvan diyarının tarixi coğrafiyası
5. Григорев В.Н. Статистическол описанил Нахичеванской провинчии СПБ, 1833
6. Путещественники об Азербайджане. Баку, 1961
7. Akif Məmmədli. Balakən-Zaqatala bölgəsi tarixi etnoqrafiyası. Adiloğlu, Bakı, 2001
8. ASE. Bakı, 1986, I cild
9. Müəllif tərəfində 2014-2015-ci illərdə toplanmış etnoqrafik çöl tədqiqat işləri
10. Ədalət Qasımov. "Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı" (XX-əsrin 70-80-ci illəri) Elmi əsərlər, Tarix və ictimai elmlər seriyası N 1 (29), Naxçıvan, NDU, Qeyrət, 2010


## ABSTRACT


**Ismayil Zeynalov**


### The husbandary farming in the Nakhchivan region of Azerbaijan in the late XIX century and in the first half of the XX century


The article deals with the corn-growing which is one of the main fields in the husbandary farming in the Nakhchivan region of Azerbaijan in the late XIX century and in the first half of the XX century. The author shows that in the XIX century, that's since 1828 though Azerbaijan was under subordination of Russia and there were some obstacles in the development of separate fields of economy. But thanks to the rich production skills that have been gained and developed through centuries, and also the difference of relief and climate condition in the region and involvement of common land fields in the farming, great efforts have been made for the development of corn-growing which is an important field of husbandary farming and positive results have been obtained in the Nakhchivan region, the integral part of Azerbaijan.

The article also highlights the customs and traditions related to the corn growing which is a part of husbandary farming, the realized events and rules, as well as, the work tools used in the corn-growing, grain harvesting and its stocking up and main results in the region in the shown period.

## РЕЗЮМЕ

**Исмайыл Зейналов**

**Земледельческое (зерноводческое) хозяйство в Нахчыванском регионе Азербайджанской Республики в конце XIX – первой половины XX века**

В статье говорится о зерноводстве, являющемся важной отраслью земледельчества в Нахчыванском регионе в конце XIX – первой половине XX века.

Авторы обосновывают мысль, что несмотря на то, что Азербайджан в начале XIX столетия, а именно с 1928 года, находился в подчинении России и на то, что создавались препятствия развитию отдельных отраслей экономики, в Нахчыванском регионе, являющемся неотъемлемой частью Азербайджана, на ряду с включением в посевной оборот в условиях здешнего рельефа и климатического условия земельных участков, развивались производственные навыки, а также зерноводсто, как важная отрасль земледельчества, и добились высоким результатам.

В статье отражены обычаи и традиции, связанные с зерноводством, в том числе основные результаты по осуществлению мероприятий, правила, используемые орудия труда, сбору урожая.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *AMEA-nın müxbir üzvü Z.Şahverdiyev*

**ABDULLA MUSTAFAYEV**
*Naxçıvan Dövlət Universiteti*
**İLQAR KƏNGƏRLİ**
*Naxçıvan Dövlət Universiteti*

***UOT:94.5***

# OSMANLI DÖVLƏTİ ƏRAZİSİNDƏ ERMƏNİ XƏYANƏTKARLIĞI

***Açar sözlər:*** *Osmanlı imperiyası, Avropa dövlətləri, Böyük Ermənistan, Soyqırım, Hürriyyət, Xəyanətkarlıq, Birinci Dünya müharibəsi*

***Key words****: The Ottoman Empire, The Great Armenia, freedom, treachery, genocide, European states, World War I*

***Ключевые слова****: Османская империя, Европейские страны, Великая Армения, Геноцид, Хуррият, Предательство, Первая Мировая Война*

Tarix boyu ermənilər türklərdən başqa hansı dövlətin hakimiyyəti altında yaşamışlarsa hər zaman zülm və işgəncə görmüşlər. Türklər isə hakimiyyətləri altındakı ermənilərə hər zaman son dərəcə yaxşı münasibət göstərmiş, dillərinə, dini inanclarına, adət-ənənələrinə toxunmamış, əksinə onlara heç bir dövlətin vermədiyi imtiyazlar vermişlər. Osmanlı imperiyasının tarixinə nəzər saldıqda görürük ki, əgər Osmanlılar imperiya daxilində yaşayan xalqlara bir çox əsrlər ərzində şəxsiyyət, din, dil və adət-ənənə azadlığı verməsəydi, onda XIX əsrdəki üsyanlar tamamilə baş verməyə bilərdi. Məhz buna görə də demək olar ki, Osmanlı İmperiyası özü müəyyən mənada başqalarına qarşı öz dini hörmətinin və dözümlülüyünün qurbanına çevrilmişdir.

Ermənilər din və mədəniyyətlərini günümüzə qədər yalnız Osmanlı dövlətinin sayəsində qoruyub saxlaya bilmişlər. Bu barədə Əhməd Cavad çox haqlı olaraq yazırdı ki, "Əgər türklər hakimiyyətləri altına aldıqları millətlərə, xristianların elədiyi kimi, məcburən İslam dinini qəbul etdirmiş olsaydı...bu gün nə "erməni məsələsi", nə də "Şərq məsələsi" olmazdı. Türklər bunu etmədilər". (8, səh. 22). XVIII əsrin sonlarında Polşa səyyahı Mikoşa yazmışdır: "Əgər türklər istəsəydilər möhtəşəm imperatorluğun içərisində yaşayan macarları, serbləri, valaxları, Balkan və Makedoniya xalqlarını və s. dil, din və sosial baxımdan türkləşdirər və bu gün onların heç birindən ən kiçik bir iz belə qalmazdı..." (1, səh. 80). Erməni müəllifi V.A.Boryanın yazdığına əsasən erməni patriarxı Nerses 1876-cı ildə Vətəndaşlıq Məclisi Şurasına təqdim etdiyi məktubunda yazırdı ki, "Əgər günümüzə qədər erməni milləti millət olaraq mühafizə edilmişsə və inancını, kilsəsini, dilini, tarixini və mədəni dəyərlərini mühafizə edirsə, bütün bunlar Türk hökumətinin erməni millətinə göstərdiyi himayə, yardım və xeyriyyəçilik sayəsindədir. Tale erməniləri türklərə bağlamışdır. Ona görə də ermənilər dövlətin müharibə və ağır imtahan günlərində buna laqeyd ola bilməz. Əksinə, hər zaman olduğu kimi ona kömək etməyə məcburdur" (11, səh.146). Bir erməni lideri olan Mıqırtıç Dadyan da 1867-ci ildə qələmə aldığı bir tədqiqat əsərində Osmanlı rejiminə təşəkkür etmişdi. XIX əsrin ilk yarısındakı erməni cəmiyyətini anladan bu yazısında Mıqırtıç Dadyan, Osmanlı ermənilərinin tam bir hürriyyət içərisində sosial inkişafları türklər tərəfindən əngəllənmədən dini təşkilatlarını necə inkişaf etdirdiklərini şübhəyə yer buraxmayan bir şəkildə göstərməkdədir (4, səh.36).Göründüyü kimi, erməni patriarxı da ermənilərin Osmanlı dövlətində sahib olduqları haqlar sayəsində milli mənliklərini qoruyub saxladıqlarını etiraf etmişdi. Osmanlı dövlətində ermənilər iqtisadi və mədəni tərəqqiyə nail olmuşlar, maarif və mədəniyyətləri xeyli inkişaf etmişdir. Osmanlı imperatorluğunun dini və ya etnik mənşə fərqi qoymadan, türklərdən belə əsirgədiyi haqları digər millətlərə, o cümlədən ermənilərə verməsi onların iqtisadi cəhətdən inkişaf edərək güclənməsinə şərait yaratmışdı. İmperatorluğun bütün müsəlman olmayan xalqlara, o cümlədən ermənilərə verdiyi haqları Avropanın əksər müəllifləri əsərlərində qeyd etmişlər. Məsələn, fransız tədqiqatçısı François Georqeon " Kamalizm və İslam dünyası" əsərində yazır ki, " Əlcəzairdəki Türk dönəmi əlcəzairlilərin qızıl çağıdır,

fransız müstəmləkəçiliyi bu qızıl çağın daha yaxşı görülməsini göstərmişdir" (7, səh. 215). XVI əsr fransız səyahətçisi Belon de Mans yazmışdır ki, " Lumni Türk idarəçiliyinə qədər heç bir zaman bu qədər zəngin, iqtisadi baxımdan bu qədər tərəqqi etməmişdir" (Lumni Egey dənizində bir adadır-A.M.). Müəllif daha sonra qeyd edir ki, "Daha əvvəllər daimi taciz edilərək əziyyət görən bu insanlara yaşadıqları tərəqqini təmin edən gücün, uzun sürən sülh və təhlükəsizliyi təmin edənin Osmanlı imperatorluğunun idarəçiliyinin olduğunu demək lazımdır" (7, səh. 215).

Fateh Sultan Mehmet Bizansı məğlub edərək İstanbulu fəth etdikdən sonra digər xristian azlıqlara verdiyi hüquqları xristian ermənilərə də vermişdir. Ermənilər Osmanlı hakimiyyətinə girənə qədər heç bir hüquqa malik olmamış, daim təzyiq altında yaşamışdılar. Lakin Sultan Fateh Mehmet ermənilərə nəinki dini inanclarında sərbəstlik vermiş, eyni zamanda erməni rahibi Hovakimi İstanbula gətirərək erməni patriarxlığını yaradaraq ona "Bütün Türkiyə ermənilərinin patriarxı" adını vermişdir. Rahib Y. G. Çark 1953-cü ildə nəşr etdirdiyi "Türk hizmetinde ermeniler" adlı əsərində yazmışdır ki, "Fateh Sultan II Mehmet xanın İstanbulu fəth etməsi ilə ermənilərin gələcəyi üçün yeni bir ulduz parlamağa başlamışdı... Əgər türklər İstanbula gəlməmiş və ya gecikmiş olsaydı, ermənilərin İstanbula yerləşmələri və inkişafları çox şübhəli olacaq, hətta bəlkə də izləri belə tapılmayacaqdı" (1, səh. 59).

XVII əsrdə ermənilər beynəlxalq ticarəti ələ keçirmişdilər. Osmanlı imperatorluğunun bütün xarici ticarəti İzmirdə, Hələbdə və ya İstanbulda ermənilərin vasitəsilə aparılırdı. Osmanlı təbəəsi olmadan əvvəl yalnız əkinçilik və heyvandarlıqla məşğul olan ermənilər qısa müddətdə Qərbi Asiyanın Avropa ilə etdiyi ticarətin tamamını əlində toplayan vasitəçilər halına gəlmiş və böyük bir sərvətin sahibi olmuşdular. Ermənilərin ticarət və sənaye ilə məşğul olmaları üçün yaradılan yüksək şərait nəticəsində onların sərvət sahibi olmaları sənədlərdə əksini tapmışdır. Rusiyanın Van və Ərzurumdakı Baş kosulu Mayevskinin Rusiyaya göndərdiyi məlumatda deyilir ki, "Türkiyədə ermənilərin məzlum vəziyyətlərindən şikayətləri həmişə azadlıqdan, təhlükəsizlikdən və əmin-amanlıqdan kifayət qədər istifadə edən şəhər ermənilərinə qətiyyən aid edilməməlidir. Onların ictimai vəziyyəti hər cəhətdən kifayət qədər yaxşı idi. Kəndli ermənilər bir qədər başqa şəraitdə yaşayırlar. Artıq deyildiyi kimi, onlar, əsasən, əkinçiliklə məşğul idilər. Sahələrin suvarılma sistemi, rəncbərliklə məşğul olmaq burda yaxşı gəlir gətirir və tamamilə qorxusuz yaşayışı təmin edirdi. Cəsarətlə demək olar ki, Türkiyənin erməni kəndliləri həmişə kifayət qədər ərzaq vəsaiti ilə təmin olunurdular və onların maddi rifah halı heç olmasa, Rusiyanın orta zonalarında yaşayan rus kəndlilərinin maddi rifah halından yüksək idi" (10, səh. 4).

Rusiya öz erməni vətəndaşlarına Osmanlı fəthlərindən sonra Türkiyə ermənilərinin əldə etdikləri hürriyyətin onda birini belə verməmişdir. XVIII əsrin sonlarına doğru polşalı səyyah Mikoşa Osmanlı imperatorluğunda yaşayan ermənilərin vəziyyətlərini belə təsvir edirdi: "Ermənilərə tüklər tərəfindən hər hansı bir millətdən daha çox hörmət göstərilməkdədir. Onlar rumlardan daha geniş bir hürriyyətə malikdirlər" (4, səh. 37). Erməni müəllifi M. Vartanyan da "Erməni hərəkatının tarixi" əsərində "Türkiyə ermənisi rus ermənisinə görə mədəniyyətində, dilində, tarixində, ədəbiyyatında çox güclü və azaddır" deyə yazmışdır (1, səh. 62).

Dövlətin iqtisadiyyat və ticarət sahələrindəki aparıcı mövqelərə yüksələn ermənilər siyasi məqamlara da yiyələnərək dövlət idarələrində mühüm vəzifələr tutmuşlar. Ermənilər zərgərlik və sələmçilik sahəsindəki məharətləri ilə diqqət çəkmişlər. Ona görə də zərbxana, barıtxana və s. kimi dövlətin ən mühüm müəssisələri ermənilərə tapşırılmışdır. Onlar Osmanlı dövlətinin müxtəlif ölkələrdə səfiri, konsulu, müşaviri və tərcüməçisi vəzifələrində çalışmışlar. Zərbxana nazirləri, saray zərgərləri, saray həkimləri ermənilər olmuşdu. Müəssislər Məclisində onlarla erməni deputatı var idi. Türkiyədə Yeddiqülə erməni xəstəxanasının baş həkimi Karapet Arman "Tərcüman" qəzetində nəşr etdirdiyi məqaləsində yazırdı: "Osmanlı imperatorluğu dövründə türk-erməni münasibətləri ən gözəl dövrünü yaşamışdır. Osmanlı tarixinin hər səhifəsində bir erməni paşasının, bir erməni səfirinin, bir erməni ümummüdirinin isminə rast gəlmək mümkündür" (6, səh.82). Hətta II Muradın hakimiyyəti dövründən başlayan, Fateh Qanunnaməsi ilə rəsmiləşdirilən qanunlara əsasən türklər öz ölkələrində xristian və ya yəhudi azlıqlar qədər belə haqqı olmayan, ikinci sinif bir millət halına gəlmişdilər. Belə ki, Fateh Qanunnaməsindən sonrakı 70 il ərzində dövlətdə sədrazam olan 48 nəfərdən yalnız 5-i türk əsilli olmuşdur. Digər 43 nəfər sədrazamın 12-i slavyan, 11-i alban,

7-i yunan, 5-i erməni, 4-ü çərkəz, 3-ü gürcü, 1-i italyan olmuşdur (7, səh.165).Osmanlı tarixində ermənilərdən 29 general, 22 nazir, 33 millət vəkili, 7 səfir, 11 baş konsul, 41 yüksək rütbəli dövlət məmuru yetişmişdir (8, səh.31). Dövlətin ən mühüm strukturlarından olan Xarici İşlər Nazirliyi, Maliyyə Nazirliyi, Ticarət və Poçt Nazirliyi erməni mənşəli adamların əlində idi.

Lakin bütün bunların müqabilində ermənilər türklərə daim arxadan zərbə vurmuşlar. Rusiya tarixçisi V.L.Veliçko ermənilər haqqında "Əgər", "Yalan", "Uydurma" sözlərindən başqa erməni tarixinin səhifələrində inandırıcı faktları dəqiq səciyyələndirən söz yazmaq lazım olsaydı, onda "xəyanət" sözündən qaçmaq olmazdı. Sərhədləri daim dəyişən bir ölkə olan Ermənistanın şübhə doğuran hökmdarları həmişə güclü qonşu padşahlardan asılı olur və həmişə ermənilər müntəzəm olaraq onları satırlar. Adlı-sanlı adamlar (naxararlar) padşahlara, xalq isə həm naxararlara, həm də padşahlara dönük çıxır, xəyanət edir" deyərək onların tarix, siyasi və milli şəxsiyyətdən məhrum bir toplum olduqlarını göstərmişdi (12, səh. 55).

Ermənilər öz məqsədlərinə çatmaq üçün bütün dövrlərdə böyük dövlətlərə sığınmış, böyük dövlətlər də onlardan bir alət kimi istifadə etmişlər. Bu dövlətlərin başında isə, XVI-XVII əsrlərdən sonra dünya siyasətinə çıxan Rusiya, İngiltərə, Fransa gəlirdi. Tarix boyunca Avropa dövlətlərinin sərhədləri daxilində yaşayan qeyri-millətləri daim təzyiq altında saxladıqlarının və assimlə etdiklərinin şahidi olmuşuq. Lakin Osmanlı dövləti qeyri-müsəlman, o cümlədən erməni əhaliyə hətta yerli türk əhalidən daha çox imtiyazlar vermiş və bu həqiqətləri arxivlərdə qorunub saxlanılan sənədlər, əksər Avropa müəlliflərinin etirafları bir daha sübut edir. Fransanın İstanbuldakı səfiri olan M. Sebastian 1908-ci ildə hazırladığı məlumatda Osmanlı təbəəsi olan ermənilər haqqında yazır ki, "Bu xalqın hamısı hallarından məmnundurlar. İstanbuldakı ermənilər arasında bir sıra varlı adamlar da var... Onu da bildirim ki, bir hissəsi katolik, bir hissəsi də Rafizi olan (Rafizi sözünün ərəb dilindən tərcüməsi "kənarlaşmış, uzaqlaşmış, tərk edib getmiş" mənasını verir-A.M.) bu ermənilər dövlətə son dərəcə itaətlidirlər və türklərə böyük bir məhəbbət bəsləyirlər... Aralarında Fransaya hüsn-rəğbət bəsləyənlər də var. Lakin bu hüsn-rəğbət özlərinə "Osmanlı" olduqlarını unutduracaq dərəcədə deyildir"(1,səh78). Romalı Prof. Yurqa XVIII əsrin sonlarında polşalı səyyah Mickoschanın: "Türklər tərəfindən ermənilərə başqa millətlərə göstərilməyən hörmət və izzət göstərilməkdədir. Ermənilər türklər tərəfindən verilmiş məzhəb hürriyyətinə rumlardan artıq sahibdirlər"- dediyini yazmışdır (4, səh.40).

1863-cü il mart ayının 29-da Osmanlı imperiyasında ermənilərin vəziyyətini daha da gücləndirən, onlara əlavə imtiyazlar verilməsini nəzərdə tutan və özlərini idarə etmək mənasında muxtariyyət verən "Erməni Millətinin Nizamnaməsi" qüvvəyə mindi. Bu Nizamnamə ermənilərin daha əvvəllər sahib olduqları hüquqlara əlavə olaraq yeni haqların verilməsini nəzərdə tuturdu. Bütün haqq və imtiyazlardan istifadə edən ermənilər bu Nizamnamə ilə bir növ Konstitusiya hüququna sahib olmuşdular. Erməni yazıçısı K.Ozanyan 1919-cu ildə "Ermənilərin tarixi vəzifələri" adlı əsərində bu nizamnamənin ermənilərə təmin etdiyi faydaları belə sıralamışdır: 1. Qərb mədəniyyəti və təhsilinə doğru bir addım olmuşdur. 2. Bütün şəhərlərdə bir çox mədəni təşkilatlar açılmışdır. 3. Erməni dili və mədəniyyətinin inkişafında böyük rol oynamışdır. 4. Daha çox qəzet və jurnal yayınlanmışdır. 5. Ermənilər seçki üsul və mücadələlərinə alışdırılmışdır. 6. Kilsə mənsublarının hüququ məhdudlaşdırılmışdır. 7. Ermənilərə cəm halında şikayət etmək və uyqulamağa keçmək haqqı vermişdir. 8. Katolik protestant Lusavorçağan ermənilərin böhranlı günlərdə birləşmələrini təmin etmişdir. 9. Ermənilərdə ixtilal ruhu oyandırılmış, millı erməni məsələsi masaya yatırılmışdır. 10. Ermənilərə çox geniş haqlar tanıyan, adətən dövlət içərisində bir dövlət deyilə biləcək qədər bir vəziyyət yaradan bu nizamnamə 6 bənd, 95 maddədən ibarət idi (4, səh.37-38). 19 mart 1863-cü ildə Osmanlı hökuməti tərəfindən təsdiq edilən bu nizamnamə erməni vətəndaşların siyasi və sosial varlıqları üzərində böyük faydalar təmin etmişdir. Rusiyanın İstanbul səfirinin baş tərcüməçisi Mandelştan bu nizamnamə haqqında yazırdı ki, "Erməni milləti 1863-cü ildə həqiqi bir qanuni əsasa, Konstitusiyaya sahib oldu. Bu Konstitusiyaya görə, ermənilər İstanbul patriarxxanasında toplanmaq üzrə bir ümumi məclisə sahib olmuş kimidirlər" (4, səh.39).

1870-ci ildən başlayaraq erməni millətçiləri Anadoludakı erməniləri türk idarəçiliyinə qarşı çıxışlara təhrik etməyə başladılar. Bu dövrdə baş verən prosesləri Böyük Britaniyanın Osmanlı imperiyasındakı səfiri Layard öz məlumatlarında qeyd etmişdir. Belə ki, Layard ilə söhbətində

erməni dini rəhbəri ermənilərin türk idarəçiliyini devirərək Şərqi Anadolu torpaqları ilə birlikdə Rusiyaya birləşməyə hazırlaşdıqlarını demişdi (2, səh. 56). Rusiya öz torpaqlarında ermənilərə ən ağır təzyiqləri edərkən ermənisiz Ermənistan siyasəti yürüdür, erməni yazıçıları Türkiyə əleyhindəki yazılara təşviq edirdi. Odisnom Çarlz Eliotun 1900-cü ildə yazdığı “Türkiyə Avropada” kitabında göstərilirdi ki, “…hətta 1877-1878-ci illər rus-turk müharibəsindən sonrakı illərdə türklər və ermənilər əla dostluq şəraitində yaşayırdılar... Ruslar erməni kilsələrini, məktəblərini və dinini sıxışdırırdılar, türklər isə tamamilə əksinə, bütün işlərdə daha səbrli və daha çox sərbəstlik verən idilər... Onlar türklərin arasında yaşamaqlarından razı idilər... Sərvət tərəzisi də artıq burada (Türkiyədə) tamamilə xristianların xeyrinə idi. Türklər onlara səmimi-qəlbdən inanırdılar” (5, səh. 22). Rusiya Eçmiədzin katolikosunun Türkiyə əleyhindəki çalışmalarını əlindən gəldiyi qədər qızışdırmaqla yanaşı ermənilərin Türkiyədə başlatdıqları üsyanları da müdafiə etməkdən çəkinmirdi. Belə ki, İngiltərənin İstanbul səfiri Eliot öz hökumətinə verdiyi raportda: "...Onunla görüşən və hökumət işləri ilə heç bir əlaqəsi olmayan yüksək məqam sahibi bir ermənininin "Bütün bu hadisələrin rusun təşviqi nəticəsində baş verdiyini" söylədiyini və bu xəbərin digər mənbələrin verdikləri xəbərlərə uyduğunu" yazmışdır. İngiltərənin İstanbul səfiri Eliot öz hökumətinə yazdığı başqa bir raportda belə yazır: "Məni ziyarət edən erməni patriarxı: "Əgər avropalıların bu hadisələrə qarışmaları və ya onların diqqətlərini bu işə cəlb etmək üçün bir ixtilal və ya bir üsyan çıxarmaq lazımdırsa, bunu etməyin heç də çətin olmadığını "- dedi (4, səh. 41-42).

24 aprel 1877-ci ildə Rusiya Osmanlı dövlətinə müharibə elan edir. Əslində bu müharibə təkcə Rusiya ilə deyildi. Rusiyaya Qafqaz cəbhəsində ermənilər kömək edirdilər. 1877-ci il aprelin 24-də başlayan Osmanlı-Rusiya müharibəsində Rusiya Şərqi Anadoluda yaşayan ermənilərdən istifadə edir. Ruslar bu müharibədə ermənilərə müxtəlif vədlər verməklə qızışdıraraq onlardan bir alət kimi istifadə edirdi. Osmanlı imperiyasının bu müharibədə ağır itki verməsindən istifadə edən erməni icmaları və kilsəsi daha da fəallaşırlar. Bu müharibə əslində türklərin soyqırımına çevrilmişdir. Ermənilər əhalini qəddarcasına öldürürdülər. 1877-ci il iyulun 9-da Əhməd Fəhmi paşanın Daxili İşlər nazirliyinə göndərdiyi teleqrafda deyilirdi ki, "İndiyə qədər heç bir müharibədə görülməmiş bir vəhşilik yaşanır, kəndlilər bombardman edilir, intihar edə bilməyən qadınlar qaçırılır, təslim olanlar balta ilə parçalanır" (9, səh.163).

Ermənilər ruslara etdikləri köməyin müqabilində isə müharibənin sonunda xidmətlərinin qarşılığını dərhal almaq məqsədilə patriarx Nerses və İzmirliyanın başçılığı ilə toplanan erməni məclisi çar II Aleksandra bir memorandum göndərirlər. Memorandumda ermənilərin Rusiya çarından istədikləri aşağıdakılar idi: 1. Firata qədər olan bölgənin türklərə geri verilməməsi və bu ərazilərin Ararat (Ağrı) ilə birləşdirilərək Rusiyaya bağl bir Ermənistanın qurulması; 2. Ərazi ilhaqı olmayacağı halında Bolqarıstana və bolqar millətinə veriləcək imtiyazların erməni millətinə də verilməsi; 3. İşğal edilən torpaqlar boşaldılacaqsa, hökumətdən islahat üçün maddi təminat alınması və islahatın həyata keçirilməsinə qədər rus əsgərlərinin işğal etdikləri torpaqları boşaltmamaları (3, səh. 199). Qeyd etmək lazımdır ki, məhz 1877-1878-ci illər Osmanlı-Rusiya müharibəsindən sonra ermənilər Osmanlı imperiyasından ayrılmaq istədiklərini ortaya qoymuşdular. Bu məsələdə isə Rusiyaya böyük ümidlər bəsləyirdilər. 19 fevral 1878-ci ildə imzalanan sülh müqaviləsinin 16-cı maddəsinə görə ermənilərin yaşadıqları Şərqi Anadolu vilayətlərində islahat keçirilməsi və buradakı xristianların qorunması nəzərdə tutulurdu. Halbuki bu vilayətlərin heç birində erməni əhalisi yüzdə 20-ni təşkil etmirdi. Fransa Xarici İşlər Nazirliyinin 1897-ci ildə nəşr edilmiş sənədlərində yazılmışdır: "Müxtəlif tayfa bölgülərinin dərindən öyrənilməsi Türk imperiyasının heç bir vilayətində ermənilərin əhalinin əksəriyyətini təşkil etmədiyini təsdiqləməyə imkan verir. Bunu yerlərdə baş qərargahın Qafqaz zabitləri-general Zelyonının və polkovnik Kartsevin əldə etdikləri statistik məlumatlar da əyani surətdə təsdiq edir" (12, səh.77).

Rusiyanın San-Stefano müqaviləsi ilə Şərqi Anadolu və Balkanlarda hakim olması ənənəvi ingilis siyasətinə zidd idi. Çünki, rus təsirinin yayılması İngiltərənin Hindistanla olan əlaqəsini təhdid etməklə bərabər, onun gücünü də zəiflədirdi. İngiltərə yaxşı başa düşürdü ki, Rusiya bu müharibədəki qələbəsindən istifadə edərək öz təsirini bir tərəfdən İsgəndərun və Mesopotomiya vasitəsilə Bəsrə körfəzinə yayacaq, digər tərəfdən də bütün Anadolu və İstanbulu təhdid altında saxlayacaq. Müharibədə Rusiyanın qələbəsi onun Balkanlarda nüfuzunun və mövqeyinin

möhkəmlənməsinə səbəb olmuşdur ki, bu da İngiltərənin, o cümlədən də Avstriyanın mənafeyinə uyğun deyildi. Ona görə də bu dövlətlər əgər müharibəyə qədər gözləmə mövqeyi tuturdularsa, müharibədən sonra dərhal məsələyə müdaxilə etməyə başladılar. Bu baxımdan İngiltərə də dərhal məsələyə qarışdı. Ona görə də İngiltərə Balkanlarda və Ağ dənizdəki müvazinətin pozulduğunu irəli sürərək San-Stefano sülh müqaviləsi yerinə digər Avropa dövlətlərinin də qatılması ilə yeni bir müqavilənin bağlanması istəyini Rusiyaya qəbul etdirdi.

Patriarx Hrimyan Berlin konqresinə gedərkən yurddaşları "Burada hansı dildə danışacaqsan, Hayrik? Ermənicədən başqa hər hansı bir dil bilmirsən" deyə soruşduqda Hrimyan "Gözyaşı dili ilə danışacağam" deyə cavab vermişdi (11, səh.148). Göründüyü kimi ermənilər öz məqsədlərinə çatmaqdan ötrü bütün vasitələrdən istifadə edirdilər ki, böyük dövlətlərin diqqətini erməni məsələsinə çəksinlər. Ona görə də, San-Stefano müqaviləsində ermənilərlə bağlı olan 16-cı maddədə müəyyən dəyişiklik edilərək Berlin müqaviləsində 61-ci maddədə əksini tapdı. Bu maddəyə görə hökumət Şərqi Anadoluda islahat aparmalı, asayişi qorumalı və bu barədə həyata keçirdiyi tədbirlər barədə maraqlı dövlətlərə məlumat verməli idi.

Lakin ermənilər Berlin konfransından gözlədikləri nəticəni ala bilmədilər. Onların böyük fəaliyyətlərinə baxmayaraq, konfransda "Ermənistan"ın müstəqilliyini tanıyacaq maddənin əvəzinə Şərqi Anadoluda islahatların keçirilməsi ilə bağlı maddə salındı. 1898-ci ildə Doğu Anadolunu gəzən Amerikalı qəzetçi George H. Hepwort, ermənilərin bu sözlərini eşidib qələmə almışdı: "Ah!... Biz öncələrdə çox xoşbəxtbir xalq idik. Vergilərimizi ödər, işimizlə, gücümüzlə ilgilənir, huzur və rifah içərisində yaşardıq... Fəqət Berlin Andlaşması, İngiltərənin işi qarışdırması bizi pis günlərə qoydu, əgər Avropa bizi öz halımıza buraxsaydı, yaxşı bir gələcəyə sahib ola bilirdik. Fəqət xalq olaraq pis günə düşdüyümüz görünür, zavallı ermənilər... Avropalılar bizi türklərə qarşı pis rəftara təhrik etdilər!... Yazıqlar olsun, məmləkətimiz xarab oldu" (5, səh.19).

Osmanlı dövlətinin heç bir bölgəsində sayca üstünlüyə malik olmayan ermənilər sosial, dini, siyasi, idarəçilik və mədəni azadlıqlara sahib idilər. Hökumət tərəfindən heç bir təzyiq görməyən ermənilərin baş qaldırmalarına əsasları yox idi. V.L.Veliçko məlum əsərində yazırdı ki, "Berlin müqaviləsindən sonra ermənilər muxtariyyət haqqında artıq müəyyən siyasi xülyalara qapılmağa başlamışdılar. Amma qeyri-tüfeyli az-çox möhkəm muxtariyyət üçün müəyyən dərəcədə bütöv ərazi tələb olunur. Fransa Xarici İşlər Nazirliyinin 1897-ci ildə nəşr edilmiş sənədlərindən göründüyü kimi, Türkiyədə belə muxtariyyət üçün əsas yoxdur və heç vaxt da olmamışdır" (12, səh.77). 1895-ci ildə Rusiyanın Xarici İşlər naziri olan Lobanov Rostovski yazırdı ki, "Ermənilər dağınıq haldadırlar, ermənilərə veriləcək və tətbiq edilə biləcək xüsusi idarəetmə üçün ayrıca bir ərazi yoxdur. Türkiyədəki ermənilər Qafqaz ermənilərinin təhriki ilə ayağa qalxmağa təşəbbüs edirlər. Lakin müstəqil bir «Ermənistan»ın yaranması və ya muxtariyyət verilməsinin əleyhinəyəm. Avropa dövlətlərinin səfirləri Anadolunun yarısını ermənilərə vermək istəyirlər. Mən və çar bu mövzuda Osmanlı padşahına heç bir təzyiq göstərmək istəmirik və başqa dövlətlərin də padşaha təzyiq göstərmələrinə xoş baxmırıq. Biz ermənisiz Ermənistan istəyirik" (8, səh. 26).

Rus konsulu Mayevski "Bitlis və Van Vilayətləri Statistikada" adını daşıyan hesabatında, erməni daşnak və hnçak dəstələrinin regionda müsəlman türklərə etdikləri qırğınları belə ifadə edir: "Ermənilər tərəfindən türklərə qarşı keçirilən qətliamların səbəbkarı, əvvəl erməni inqilabçıları-daşnaklar, sonra bunları qoruyan və təşviq edən bəzi xarici dövlətlərdir. Türkiyədə komitəçilərin daxil olmadığı yerlərdə yaşayan ermənilərin türklərlə bir problemi yox idi. Türk zülmü bir gerçək olmayıb, istəyərək uydurulmuş siyasi bir əfsanədir. Həqiqəti olduğu kimi demək tələb edirsə, şərqdə qətliam törədənlər müsəlmanlar deyil, ermənilərdir. Sonra törətdikləri bu zülmü, hiylə ilə türklərin adına yazdılar" (5, səh.8-9).

Ermənilər 1895-ci ildə xüsusilə də, Hnçak partiyasının qızışdırıcılıq fəaliyyəti nəticəsində İstanbul, Trabzon, Egin, Dəvəli, Ağhisar, Ərzincan, Malatya, Harput, Sivas, Urfa, Gümüşxanə, Bitlis, Merzifon, Maraş Muş, Kayseri, Yozqat və Zeytunda qarışıqlıqlar yaratdılar (3, səh.149-161). Ermənilərin bu üsyan və qırğınları törətməkdə nə məqsəd güddüklərini İstanbulda Robert kollecinin rəisi olan missioner Hamlin belə şərh etmişdi: "Ağıllı bir erməninin mənə dediyinə görə, Hnçak müsəlmanları qətl edəcək, müsəlmanlar buna qarşılıq verəcək, Rusiya insanlıq naminə erməniləri

qurtarmağa gələcək" (9, səh.170). Hamlin haqlı olaraq yazır ki, "Hnçak İnqilabi Partiyası"nın kökləri Rusiyadadır və rus qızılı və ağlı ilə idarə edilir" (1, səh. 119).

I Dünya müharibəsi başlayan zaman erməni xəyanətkarlığı bir daha özünü göstərdi. Müharibənin ilk günündən başlayaraq müttəfiq dövlətlər tərəfindən hər cür yardım alan ermənilər Osmanlı ordusunun arxasında geniş fəaliyyətə başladılar. Ermənilər yalnız onlara xas olan xəyanətkarlıqla öz dövlətlərinə arxadan zərbə endirərək Rusiyaya və digər Avropa dövlətlərinə köməklik etməyə başladılar. Onlar belə hesab edirdilər ki, rusların döyüş cəbhələrində müvəffəqiyyət qazanmalarında böyük köməklik etdiklərinə görə Rusiya mükafat olaraq Şərqi Anadoluda bir "Ermənistan" dövləti yaradacaq. Rusiya Anadolunu işğal etdikdə erməni xəyanətkarlığı daha qabarıq şəkildə özünü büruzə verdi. Ermənilər rus ordusunun 1 noyabr 1914-cü ildə Şərqi Anadolu üzərinə hücuma keçdiyi zaman Şərqi Anadolunun bir sıra yerlərində-Bitlisdə, Zeytunda, Ərzurumda, Vanda, Sivasda və s. bölgələrdə üsyanlar qaldıraraq türk əhalisinə qarşı soyqırımlar törətdilər. Beləliklə, Rusiyanın 1914-cü ilin oktyabr ayında Osmanlı dövlətinə rəsmən müharibə elan etməsindən və ordularına türk sərhədlərini keçmə əmrini verməsindən sonra ermənilər bütün imkan və gücləri ilə Rusiya və müttəfiq dövlətlərin əmrinə girməyə və türklərə qarşı qanlı soyqırımlar həyata keçirməyə başladılar. Öz növbəsində Rusiya da Anadoludan qaçan erməniləri silahlandıraraq könüllü birliklər yaratmaqla yanaşı, həm də Daşnaksütyun partiyasının vasitəsilə onlara pul yardımı da edirdi. Ermənilər rusların irəliləməsinə kömək edir, yerli xalqı kütləvi şəkildə öldürərək toplu məzarlara basdırırdılar.

1914-cü ilin avqust ayından başlayaraq İstanbula vali və komandanlardan saysız-hesabsız teleqraflar göndərilirdi. Bu teleqrafların hamısında ermənilərin silahlanmasından, zülmündən, yol kəsmələrindən, kəndlərə necə hücum etmələrindən, əsgərlərə atəş açmalarından, günlərlə davam edən atışmalardan bəhs edilirdi. Erməni dəstələri ruslarla əlbir olaraq daha da saldırğan olmuşdular. Teleqraflarda bildirilirdi ki, "əgər durun deyən olmasa bu dəstələr Anadoluda tək bir türk, tək bir kürd buraxmayacaq" (9, səh.200). Göründüyü kimi, ermənilər yalnız türkləri deyil, ümumiyyətlə bölgədə yaşayan bütün millətləri, o cümlədən də kürdləri soyqırıma məruz qoymuşdular. Çar Rusiyasının Ərzurum Rus İkinci Topçu Alayın Komandiri podpolkovnik Tverdo-Xlebov xatirəsində yazır: "Ermənilər mənə 27 fevral gecəsi 3000 türkü öldürdüklərini fəxrlə bəyan etdikləri zaman, müdafiəsiz, günahsız insanların öldürülməsinin bir vəhşilik olduğunu dedim, bizə:- siz russunuz, erməni millətinin idealını anlayamazsınız-cavabını verdilər...” (5, səh.8).

Beləliklə, Osmanlı hökuməti baş verən qiyamların və türklərin qırğınlarının qarşısını almaq məqsədilə 1915-ci il aprelin 24-də erməni komitə və cəmiyyətlərinin qadağan edilərək rəhbərlərinin həbs edilməsi barədə fərman imzaladı ki, bu da "Təhcir qanunu" (Təhcir-ərəbcə köçürmə) adlanır. Bu fərmanla qiyam edən ermənilər cəbhə bölgələrindən ölkənin içərilərinə köçürülməyə başlandı. Bu fərman əsasında erməni komitə və cəmiyyətlərinin rəhbərlərindən 235 nəfər həbs edilmişdir.

Türkiyə Tarix Qurumunun məlumatına əsasən erməni dəstələri 24 apreldən əvvəl 120 min müsəlmanı öldürmüşlər. 24 apreldən sonra yenə ermənilərin öldürdükləri müsəlmanların sayı 410 min nəfər olmuşdur. Hətta Vanda on minlərlə müsəlmanı öldürən ermənilərə Rusiya çarı "Van ermənilərinə təşəkkür edirəm" deməkdən belə çəkinməmişdi. Həqiqətdə türklərin yox, ermənilərin türklərə qarşı sözün əsl mənasında soyqırımı törətdiyini Türkiyənin müxtəlif bölgələrindən qazıntılar zamanı aşkar edilən türklərə aid toplum məzarlıqlar sübut edir. Amerikalı professor Castin Makkartni həmin dövrün statistikasını hərtərəfli araşdıraraq belə nəticəyə gəlmişdir ki, 1912-22-ci illərdə ölən ermənilərin sayı heç də onların iddia etdikləri kimi 1,5 və ya 2 milyon deyil, qat-qat azdır. Makkarti yazırdı ki, "Ermənilərin arasında ölənlərin sayı dəhşətli artıb. Amma həlak olan ermənilərin sayını nəzərdən keçirərkən, ölən müsəlmanların sayını da nəzərə almaq lazımdır. Statistika göstərir ki, ermənilərlə yanaşı 2,5 milyon Anadolu müsəlmanı, əsasən də türk həlak oldu (2, səh.58).

1915-ci ilin 21 dekabr tarixində Berlində çap etdirilən “Erməni məsələsi" adlı kitabda deyilirdi: "Ermənilərin çox rahat yaşadıqları ölkə Türkiyə olmuşdur. Buna baxmayaraq, onlar nankorluq edərək ruslarla əməkdaşlıq etməyə başladılar. Heç bir zaman erməni soyqırımı olmamışdır. Türklər çox ciddi tədbirlər görmüşdülər. Köçkünlər arasında əzilmiş insanlar tapmaq olar, lakin bunun üçün Osmanlı hökumətini heç kim günahlandıra bilməz. Çünki dövlətin mənafeyi hər şeydən üstündür. Hökumət təkcə erməni qiyamçılarını deyil, Ərəbistanda qiyama hazırlaşan

müsəlman əhalisini də cəzalandırdı. Burada məsuliyyət bütünlüklə ingilis, rus və ermənilərin üzərinə düşür".

1921-ci ildə Almaniyada nəşr edilən "Deutsche Allegemeıne Zeitung" qəzeti yazırdı: "Ermənilərdən çox danışılır. Lakin şaxtalı qışda çoxlu sayda ölən türklərdən heç bəhs edilmir. Ermənilərin türklərə qarşı törətdikləri zülmlərdən və soyqırımından çox az danışılır. Məsələn, bir çox türk kəndləri əhalisinin gözləri ermənilər tərəfindən çıxarılmışdır. Bu cür düşmənə qarşı türklərin münasibəti necə olmalıydı?» (8, səh.87).

Qiyamçı ermənilərin ölkənin içərilərinə köçürülməsi zamanı, təbii ki, ölüm halları baş vermişdir. Lakin bu ölüm halları soyqırım nəticəsində deyil, müxtəlif xəstəliklər, iqlim şəraitinin uyğun olmaması və s. nəticəsində olmuşdur. Unutmaq lazım deyil ki, 1948-1953-cü illərdə keçmiş Sovetlər İttifaqı səviyyəsində 150 min nəfərdən artıq azərbaycanlı əhalinin öz tarixi-etnik torpaqlarından zorla deportasiya edilməsi nəticəsində kütləvi şəkildə ölüm halları olmuşdur və bu məsələyə nə keçmiş İttifaq səviyyəsində, nə də ki, dünyanın "demokratik" dövlətləri səviyyəsində heç bir münasibət bildirilməmişdir. Onu da qeyd etmək lazımdır ki, azərbaycanlı əhalinin köçürülməsi onların qiyam etdiklərinə görə baş verməmişdir. Bu sadəcə "Türksüz Ermənistan" istiqamətində həyata keçirilən planın tərkib hissəsi kimi həyata keçirilmişdir.

## ƏDƏBİYYAT


1. Cemal Anadol. Tarihin işığında ermeni dosyası". İstanbul, 2001, cəmi 496 səh.
2. Erməni soyqırımı: Mif və gerçəklik. Adiloğlu nəşr. Bakı, 2012, Tərtibatçı və nəşr edən Türk-Amerika Assosiasiyası Assambleyası, cəmi 368 səh.
3. Esat Uras. Tarihte ermeniler ve ermeni meselesi. İstanbul 1976, 634 səh.
4. Fazil Qaraoğlu, Ermənilər və həqiqətlər (Rəsmi sənədlərlə),Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərəzi, 2007, cəmi 400 səh.
5. Hacı Nərimanoğlu, Türk, ya erməni soyqırımı? (Gerçək tarix rus, ingilis, fransız, amerikan, yəhudi, gürcü...erməni şahidlərin gözü, sözü ilə şərhsiz) Bakı, 1015, cəmi 74 səh.
6. İsmayıl Musayev. "Erməni genosidi", yoxsa türk-müsəlman soyqırımı. Bakı, 2001, cəmi 207 s.
7. Metin Aydoğan. Türk uyqarlığı. İstanbul, 2006, cəmi 338 səh.
8. Nazim Qəhrəmanov. I dünya müharibəsində Qafqaz cəbhəsində erməni amili. Bakı, "E.L." Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, 2008, cəmi 296 səh.
9. Recep Şükrü Apuhan. Türklerin tarihi. Göktürklerden Türkiye Cumhuriyetine 2500 yıllık savaş. İstanbul, 2008, cəmi 288 səh.
10. Rusiyanın Van və Ərzurumdakı Baç Konsulu Mayevskinin qeydləri."Azərbaycan" nəşriyyatı, Bakı,1995, cəmi 13 səh.
11. Türk-ermeni ilişkileri. 21. yüzyıla girerken tarihe dostça bakış. Ankara, 2000, cəmi 315 səh.
12. Veliçko V.L. Qafqaz. Rus işi və tayfalararası məsələlər. Bakı, 1995, cəmi 192 səh.


## ABSTRACT


**Mustafayev Abdulla,**
**Kangarli İlqar**


### Armenian treachery in the Ottoman Empire


The scientific article deals with the extremely good attitude towards the Armenians and other nations living under the rule of the Turks, as well as the attitude towards their languages, religions, customs and traditions. There is shown that the exception of the Ottoman Empire, the Armenians under which state authorities were, always met cruelty and torture. Thanks the Turks the Armenians could keep their religion and culture.

Based on the Turkish, European and Armenian authors' works there has been proved in the article that, the Armenians live in complete freedom. Before becoming the citizens under the

Ottoman rule the Armenians were engaged only in agriculture and animal breeding. On the contrary, when they became under the rule of the Ottomans they got the leading position in the management, economics, trade and other fields. There is a detailed description of it in the article.

But in return for all of these, the Armenians always blow the Turks behind. The Armenians in order to establish their state in the territory of Turkey, they became a tool in the hands of the great states. Whether during the wars between Russia and the Ottoman Empire, as well as during the World War I the Armenian treachery revealed, the Armenians committed genocide against the peaceful Turkish population.


**РЕЗЮМЕ**

**Мустафаев Абдулла,**
**Кангарли Илгар**

**Армянское предательство на территории Османской империи**

В научной статье широко говорится о нациях, которые находились под управлением турок, в том числе об армянах, а также говорится не только о хороших отношениях к их языку, вере обычаям наравне с этим и о больших привилечеях, которые были предоставлены им.

В статье показано, что армяне находясь под управлением какого-либо государства вечно терпели гнет и избиение. Только находясь под управлением Османской империи армяне смогли сохранить свой язык и культуру до современного времени благодаря туркам.

До Османской тематики армяне которые занимались только скотоводством и земледелием, после Османского управления, наоборот поднялись в лидирующие позиции в сфере управления, экономики, рынка и т.п. сферах. Но, несмотря на все это, армяне всегда наносили удар по спине турков. Армяне, для того чтобы создать государство на территории Турции, опирались на другие государства и становились орудием в их руках. Во время войны между Россией и Османской империей, или же во время первой мировой войны армянская измена со всей наготой выходила на свет. Армяне во все времена совершали геноцид над мирным населением Турции.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *AMEA-nın müxbir üzvü Z.Şahverdiyev*

**XƏZƏR HÜSEYNOV**
*Naxçıvan Dövlət Universiteti*
*xezerhuseynov@gmail.com*

***UOT: 94 (479.242)***

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA TAXILÇILIĞIN İNKİŞAF ETDİRİLMƏSİ TARİXİNDƏN (1991-2015-Cİ İLLƏR)

***Açar sözlər:*** *Naxçıvan, taxılçılq, taxılın növləri, dənli bitki, kənd təsərrüfatı, aqrar sahə*
***Key words:*** *Nakhchivan, the grain, the type of grain, crops, agriculture, agrar fields*
***Ключевые слова:*** *Нахичевань, полеводство, сорта полеводства, зерновые растения, сельское хозяйство, аграрная область*

Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi, tarixi proseslərdə öz müqəddəratını həll etmiş, özünün əbədi yolunu davam etdirərək iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında nailiyyətlər qazanmışdır.

Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinin keçirilməsi haqqında ümumilli liderimiz Heydər Əliyevin 5 fevral 1999-cu il tarixli fərmanında deyildiyi kimi: "Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhfələr vermişdir.

Naxçıvanlıların öz fədakarlığı, işgüzarlığı hesabına Naxçıvan yaşayır, inkişaf edir, Naxçıvanda quruculuq prosesləri gedir" (3, s.6).

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 6 aprel 1992-ci il tarixi sessiyasında qəbul edilmiş, "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşməsi barədə təkliflər haqqında" tarixi qərarlardan başlayan islahatlar yolu kənd təsərrüfatının dinamik inkişafının bünövrəsini qoymuşdur.

Muxtar respublikada kənd təsərrüfatını inkişaf etdirmək üçün görkəmli dövlət xadimi Heydər Əliyevin bilavasitə rəhbərliyi və iştirakı ilə hazırlanan geniş və hərtərəfli müzakirə edilən, "Aqrar islahatın əsasları haqqında" və "Sovxoz və kolxozların islahatı haqqında" (1995-ci il), "Torpaq islahatı haqqında" (1996-cı il), "Lizinq xidməti haqqında", "Torpaq icraiyyəsi haqqında", "Torpaq bazası haqqında" və şair qanunların çox böyük əhəmiyyəti olmuşdur.

Muxtar respublikada olan 139 təsərrüfatın 119-da və ya 86%-də, 208 kəndin 158-də və ya 76%-də torpaq islahatı aparılmışdır. İslahat nəticəsində 43,3 min ailə torpaq payı almış, 12,4 min ailəyə dövlət torpaq aktları paylanmışdır (14, s.63).

Aqrar islahatların aparılması ulu öndər Heydər Əliyevin həyata keçirdiyi təşkilatı, siyasi və digər tədbirlər tezliklə öz bəhrəsini verdi, aqrar sahədə dönüş yarandı.

Ümumiyyətlə, aparılan torpaq-islahatları nəticəsində son illər aqrar sektor xeyli güclənmiş və nəinki muxtar respublikanın daxili ehtiyyatlarını tam ödəmək, hətta bir sıra kənd təsərrüfatı məhsulları ixrac etmək qabiliyyəti əldə etmişdir.

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı çoxşahəlidir. Buranın təbii-iqtisadi, iqlim və məhsuldar torpaqları kənd təsərrüfatının mühüm sahələrindən: -taxılçılıq, kartofçuluq, tərəvəzçilik, meyvəçilik, heyvandarlıq, arıçılıq və s. inkişafı üçün çox yararlı və əlverişlidir.

Azərbaycanın ən qədim guşələrindən biri olan Naxşıvan tarixən taxılçılıq diyarı kimi məşhurdur.

Müstəqillik dövründə kənd təsərrüfatının yüksəlişinə dair Azərbaycan dövlətinin qarşıya

qoyduğu vəzifələrin yerinə yetirilməsi bütün kənd təsərrüfat istehsalının əsası olan taxıl təsərrüfatının daha da inkişaf etdirilməsini tələb edir.

Kənd təsərrüfatının bütün başqa sahələrinin yüksəlişi, əhalinin və bütün xalq təsərrüfatının getdikcə artan tələbatının təmin edilməsi taxıl təsərrüfatının müvəffəqiyyətlə inkişaf etdirilməsindən asılıdır.

Muxtar respublika rəhbərliyinin taxılçılığa mühüm əhəmiyyətli sahə kimi yanaşması nəticəsində bu sahədə yüksək artıma nail olunmuşdur. Tədqiqat nəticəsində aydın olmuşdur ki, 1991-ci ildə 26,6 min ton, 1993-cü ildə 20,0 min ton, 1995-ci ildə 23,6 min ton taxıl yığılmışdır (13, s.41).

Özəlləşmə nəticəsində taxılçılıqda mühüm uğurlar əldə edilmişdir. Taxılçılıq sahəsində muxtar respublikada 1995-ci ildən dönüş yaranmışdır. 1997-ci ildə 1996-cı illə müqayisədə taxıl istehsalı 91,6 faiz artıq olmuşdur (11, s.17).

Muxtar respublikada 1996-cı ildən başlayaraq kənd təsərrüfatı məhsulları istehsalında 1991-ci ildən davam edən tənəzzüllə son qoyulmuş və ildən-ilə artım əldə edilmişdir.

Aparılan islahatların həyata keçirilməsi nəticəsində muxtar respublikada 1990-cı ilə nisbətən 1998-ci ildə taxıl istehsalı 72% olmuşdur. Eyni zamanda taxılçılıq təsərrüfatında ümumi məhsul istehsalı və məhsuldarlıq yüksəlmişdir. 1993-cü ilə nisbətən taxıl istehsalı 2,76 dəfə artmışdır (6, s.63).

Həyata keçirilən aqrar islahatlar nəticəsində muxtar respublikada 1995-ci ildə kənd təsərrüfatı məhsulları istehsalının həcmi 117 mlrd. manat olduğu halda, 2000-ci ildə kənd təsərrüfatı məhsulları istehsalının həcmi 269 mlrd. manat olmuşdur. 2000-ci ildə Naxçıvan MR-də bütöv təsərrüfat kateqoriyaları üzrə 54428 min ton (1999-cu ildəkindən 13 ton, yaxud 26,5% çox) taxıl istehsal edilmişdir (12, s.121-122).

Müstəqillik illərində muxtar respublikanın taxılçılq təsərrrüfatında və istehsalında da dəyişikliklər olmuşdur. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi "Son illər taxıl istehsalında da əsaslı dəyişikliklər baş vermişdir. Dənli bitkilərin sort tərkibi tamamilə təzələnmiş respublikanın şəraiti üçün yararlı olan yeni, daha məhsuldar sortlar əkilməyə başlamış, əkin sahələrinin strukturu, dənli bitkilərin əkilib becərilməsi texnologiyası yaxşılaşdırılmışdır" (2, s.42-43).

Muxtar respublikada islahatların uğurla həyata keçirilməsi nəticəsində taxılçılıq təsərrüfatına ciddi fikir verilmiş, aqrotexniki tədbirlərə əsaslanan intensiv metodlarla onun əkin sahəsi və məhsuldarlığı ildən ilə artırılmışdır. Belə ki, 2000-ci ilə nisbətən 2005-ci ildə taxıl əkin sahəsi 59,3 faiz, məhsul istehsalı 71,3 faiz artmışdır. Ümumiyyətlə, muxtar respublikada 1995-ci ildə 23,6 min ton, 2000-ci ildə 54,4 min ton, 2005-ci ildə 93,2 min ton, 2009-cu ildə 94,7 min ton taxıl yığılmışdır. 2010-cu ildə isə taxıl zəmilərindən 96 min ton məhsul toplanmışdır ki, bu da 2009-cu illə müqayisədə 1,4 faiz çoxdur. 1988-ci illə müqayisədə taxıl istehsalının həcmi 2010-cu ildə 67 min ton artmışdır (4, s.120).

Muxtar respublikada məhsul istehsalını artırmaq, əhalini keyfiyyətli və təhlükəsiz ərzaqla təmin etmək məqsədilə 2008-ci il sentyabrın 17-də qəbul olunmuş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" muxtar respublikada kənd təsərrüfatı məhsulları istehsalının artırılması sahəsində yeni istiqamətlər müəyyənləşdirilmişdir.

Kənd təsərrüfatının inkişafında taxıl anbarlarının, elevatorların inşası da mühüm yer tutur. Bu zərurət nəzərə alınaraq. 2009-cu ildə 18 min ton taxıl uzun müddətə, 20 min ton taxıl isə qısa müddət saxlamaq gücünə malik Naxçıvan Muxtar Respublikası Taxıl Ehtiyyatı Anbarı yaradılmışdır. Anbar kompleksi bir tərəfdən məhsul istehsalçılarının taxıl tədarükü zamanı rastlaşdıqları problemləri aradan qaldırırsa, digər tərəfdən muxtar respublikada taxıl ehtiyatlarının yaradılmasında müstəsna rol oynayır.

Ümumiyyətlə, Naxçıvan MR taxıl təsərrüfatlarında bütün mövcud ehtiyyat mənbələrindən hərtərəfli istifadə edilməsi, muxtar respublikada taxıl istehsalının artırılması sahəsində Naxçıvan Muxtar Respublikası Ali məclisinin və Naxçıvan hökumətinin qarşıya qoyduğu vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsini təmin edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvan MR-in 85 illiyinə həsr edilmiş təntənəli mərasimdə demişdir: "Əgər ümummilli liderimizin ötən əsrin 70-ci illərində geridə qalmış aqrar Azərbaycan Respublikasını müttəfiq respublikalar içərisində lider respublikaya çevirdisə, bu gün bu siyasi kursun davamçısı hörmətli İlham Əliyev Azərbaycanı lider dövlətə çevirdi. Göstərilən

diqqət və qayğının nəticəsidir ki, ötən beş il ərzində muxtar respublikada ümumi daxili məhsul (ÜDM) istehsalının həcmi 3,5 dəfədən çox artaraq 232 milyon manatdan 796 milyon manata çatmışdır” (1, 15 avqust 2009).

Təhlil və araşdırmalardan məlum olur ki, muxtar respublikada aqrar sahədə əldə olunan dinamik inkişaf ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində mümkün olmuşdur. Əlverişli iqlim şəraitinin, bərəkətli münbüt torpaqların olması, üstəlik də taxılçılıq sahəsinin inkişafına hərtərəfli dövlət qayğısının göstərilməsi kənd təsərrüfatının inkişafına, muxtar respublikanın torpaq potensialından səmərəli istifadəyə imkan yaratmışdır.

Görülən tədbirlər nəticəsində muxtar respublikada kənd təsərrüfatının ümumi məhsulunun strukturunda ciddi dəyişikliklər baş vermişdir. Aparılan islahatlar kənd təsərrüfatı istehsalı sahəsində potensialın səmərəli şəkildə reallaşdırılmasına imkan yaratmışdır. Hər bir rayonun spesifik xüsusiyyətlərinə uyğun kənd təsərrüfatı strukturunun formalaşdırılmasına başlanmışdır. Bu, özünü sonrakı illərdə kənd təsərrüfatı məhsulları istehsalı strukturunda da göstərmişdir.

Əvvəlki illərdə olduğu kimi, 2011-ci ildə də taxılçılıq əsas əkinçilik sahəsi kimi muxtar respublika rəhbərliyinin diqqət mərkəzində saxlanılmışdır. Məhsuldarlığın artırılmasında üzvü və mineral gübrələrdən səmərəli istifadənin də rolu böyük olmuşdur. 2011-ci ildə güzəştli şərtlərlə buğda istehsalçılarına 3721 ton azot və 108 ton fosfor gübrəsi verilmişdir (16, s.76).

Muxtar respublikada hər il olduğu kimi, 2011-ci ildə də strateji əhəmiyyəti nəzərə alınaraq taxılçılıq üstün mövqeyə çıxarılmış, 2010-cu illə müqayisədə 797 hektar çox, yəni 34 min 751 hektar sahədə taxıl əkini aparılmışdır ki, bunun da 25 min 856 hektarı buğda, 8 min 895 hektarı isə arpa olmuşdur. 2011-ci ildə muxtar respublikanın taxıl zəmilərindən 101 min ton məhsul toplanmışdır (7, s.7).

Muxtar respublikada taxılçılıq təsərrüfatına mühüm əhəmiyyətli sahə kimi yanaşılması nəticəsində bu sahədə yüksək artım meyillərinə nail olunmuşdur. Ən əsası 2012-ci ildə 34 min 965 hektar sahədən 101 min 848 ton taxıl götürülmüşdür (8, s.7).

Taxılçılıqda yüksək məhsul götürülməsinin ən əsası odur ki, təbii ehtiyat sayılan torpaqların məhdud olması nəzərə alınaraq əkinçilik müasir aqrokimyəvi və aqrotexniki tədbirlərə əsaslanan intensiv metodlarla, yəni məhsuldarlığın yüksəldilməsi yolu ilə inkişaf etdirilir. Bunun nəticəsində 1996-cı ilə nisbətən 2012-ci ildə taxıl istehsalı 4,6 dəfə artmışdır.

Qeyd etmək olar ki, 2012-ci ilin məhsulu üçün muxtar respublikada 60 min 118 hektar sahədə əkin aparılmışdır. Bu da 1996-cı ilin məhsulu üçün əkilmiş sahədən 2,3 dəfə çoxdur (15, s.10).

Muxtar respublikanın kənd təsərrüfatında taxılçılıq 2013-cü ildə də üstünlük mövqeyi ilə seçilmişdir. 35 min 324 hektar sahədə taxıl əkilmişdir ki, bunun da 25 min 869 hektarını buğda təşkil etmişdir. Əvvəlki dövrə nisbətən taxıl əkin sahəsinin həcmi 359 hektar artırılmışdır. Taxıl zəmilərindən 102 min 960 ton məhsul toplanılmışdır ki, bu da 2012-ci illə müqayisədə 1112 ton çoxdur. Taxıl istehsalının artımı ilə yanaşı, taxıl ehtiyatlarının yaradılması imkanları da yaxşılaşdırılmış, ümumi tutumu 9 min ton olan üç yeni bunker istifadəyə verilmişdir. Bununla da, Naxçıvan Muxtar Respublikasında taxılı uzun müddətə saxlamağa imkan verən anbarın həcmi 18 min tondan 27 min tona çatdırılmışdır (9, s.8).

2013-cü ildə muxtar respublika son 3 il ərzində istehsal olunan buğdanın hər kiloqramını orta hesabla 33 qəpikdən mərkəzləşdirilmiş qaydada satın alınması məhsul istehsalçılarının taxıl istehsalına və onun vaxtında itkisiz yığılmasına marağını daha da artirmişdir.

2014-cü ilin məhsulu üçün muxtar respublikada 60 min 829 hektar sahədə əkin aparılmışdır ki, bu da 2013-cü ilin məhsulu üçün əkilmiş sahədən 702 hektar çoxdur. Cəmi əkin sahələri, hektarla Muxtar respublikada məhsuldar və keyfiyyətli toxum növləri istehsalının stimullaşdırılması məqsədilə toxumçuluq təsərrüfatlarının maddi-texniki bazası möhkəmləndirilmiş, Naxçıvan şəhərində toxumçuluq təsərrüfatı üçün yeni kompleksin inşası davam etdirilmişdir. Muxtar respublikanın əsas toxumçuluq bazası olacaq bu kompleksdə taxılla yanaşı, digər bitki toxumlarının satışının da həyata keçirilməsi nəzərdə tutulmuşdur. Hazırda muxtar respublikada 6 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir.

2014-cü ildə taxılçılıq əsas əkinçilik sahəsi kimi diqqət mərkəzində saxlanılmışdır. 2014-cü ilin məhsulu üçün 35749,7 hektar sahədə taxıl əkilmişdir ki, bunun da 26274,1 hektarını buğda,

9475,6 hektarını isə arpa təşkil etmişdir. Bir il öncəyə nisbətdə taxıl əkini sahələrinin həcmi 10425,7 hektar artmışdır. Taxıl zəmilərindən 103 min 70 ton məhsul toplanmışdır ki, bu da 2013-cü illə müqayisədə 110 ton çoxdur (10, s.8].

Muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsalının artırılması aşağıdakı amillərdən çox asılıdır:

1. Əsas istehsal amili kimi əkinə yararlı torpaq sahələrinin keyfiyyətinin yaxşılaşdırılması.
2. Suvarma əkin sahələrinin artırılması və suvarma sisteminin yaxşılaşdırılması.
3. Kənd təsərrüfatı istehsalına texniki xidmətin keyfiyyətinin və təşkilinin yaxşılaşdırılması.
4. Kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılması üçün ən mühüm məhsuldar toxum növlərinin seçilməsi.
5. Maddi maraq prinsipindən istifadə edilməsinin formasını qaydaya salıb istifadəsini təşkil etmək və s.

Beləliklə, yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olar ki, muxtar respublikasında taxılçılığa göstərilən qayğı nəticəsində, taxılçılıq sahəsində məhsuldarlıq xeyli artmışdır. Fikrimizcə, bunu son dövrlərdə kənd təsərrüfatının inkişasfında olan nailiyyətlər, statistik rəqəmlər uğurlar tamamlayır.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş kənd təsərrüfatının strateji planına uyğun olaraq XX əsrin 90-cı illərində olduğu kimi, XXI əsrin əvvəllərində də Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatında böyük uğurlar əldə olmuşdur.

Muxtar respublika kənd təsərrüfatı tarixində olan bu uğurlar, nailiyyətlər xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi inkişaf yolunun alternativsizliyini bir daha sübut edir.

Dahi öndərin "İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin" sözləri bu gün də quruculuq işlərinin əsas qayəsi olmaqla yanaşı, muxtar respublikamızı yeni-yeni uğurlara doğru aparır. İqtisadiyyatın, xüsusilə kənd təsərrüfatının inkişafında yeni nailiyyətlər əldə edilir.

Ulu öndər tərəfindən müəyyənləşdirilmiş aqrar siyasət Naxçıvan MR-də digər sahələrlə yanaşı, kənd təsərrüfatının da inkişafına etibarlı zəmin yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "Naxçıvanın uğurlu inkişafı Azərbaycanın uğurlu inkişafı deməkdir. Bizim müstəqilliyimizin möhkəmləndirilməsi deməkdir. Burada gedən işlər məni çox sevindirir. Mən əminəm ki, bu ğözəl ənənələr gələcək illərdə də davam etdiriləcək və Naxçıvan Muxtar Respublikası həm iqtisadi inkişaf sürətinə görə, həm də infrastruktur layihələrinin səviyyəsinə görə nəinki bu reğionda, hətta dünya miqyasında qabaqcıl yerlərdə olacaqdır" (5, s.3).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkə iqtisadiyyatının inkişafında kənd təsərrüfatının əhəmiyyətini qeyd edərək demişdir: "Kənd təsərrüfatının inkişafına maksimum dərəcədə diqqət göstərməliyik. Bu həm təhlükəsizlik, həm iqtisadi, həm də sosial məsələdir. Çünki Azərbaycan əhalisinin yarısı kənd təsərrüfatı bölgəsində yaşayır" (17, 30 yanvar 2013).

Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyinin qeyd olunduğu 2014-cü ildə də muxtar respublika iqtisadiyyatının bütün sahələrində dinamik inkişaf templəri qeydə alınmışdır. 2014-cü ilin ən mühüm hadisələrindən biri ölkə başçısı cənab İlham Əliyevin muxtar respublikaya səfəri olmuşdur (10, s.3).

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafın Dövlət Proqramı"nda müəyyən olunmuş tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 aprel tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 5 milyon manat vəsait ayrılmışdır.

Əldə olunmuş sosial-iqtisadi inkişaf səviyyəsini qorumaq və daha da möhkəmləndirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir (10, s.5).

2014-cü il dekabr ayının 27-də keçirilən dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali

Məclisinin onuncu sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bütün bunları nəzərə alaraq deyib: "Biz bu gün 2014-cü ilə yekun vurduq. 2015-ci ildə muxtar respublikada tarixən formalaşmış təsərrüfatçılıq ənənələri inkişaf etdirilməli, əhalinin ərzaq məhsulları ilə təminatı davamlı xarakter almalı, emal müəssisələri xammalla fasiləsiz təchiz edilməlidir. Muxtar respublikanın ərzaq təhlükəsizliyi və meyvə-tərəvəzçiliyin inkişafı ilə bağlı qəbul olunmuş dövlət proqramlarının icrası da kənd təsərrüfatına xüsusi diqqət yetirilməsini tələb edir. Qeyd olunanlar nəzərə alınaraq, 2015-ci il Naxçıvan Muxtar Respublikasında "Kənd təsərrüfatı ili" elan edilir". Bu isə o deməkdir ki, aqrar sahəyə qayğı, onun inkişafını diqqətdə saxlamaq davamlı xarakter alıb və bu, naxçıvanlıların genefondu məhz qədim diyara məxsus olan qiymətli kənd təsərrüfatı məhsullarından istifadəsinə istiqamətlənmiş növbəti addımdır... (17, 7 yanvar 2015).

Bütün illərdə olduğu kimi, kənd təsərrüfatı ilində də muxtar respublikada taxılçılıq üstün istiqamət kimi saxlanılmış və 2015-ci ilin məhsulu üçün 36237 hektar sahədə taxıl əkilmişdir ki, bunun da 30166 hektarı payızlıq, 6071 hektarı isə yazlıq taxıldır. Bir il öncəyə nisbətdə taxıl əkini sahələrinin həcmi 487,3 hektar artmışdır. Taxıl zəmilərinin 26746 hektarında buğda, 9491 hektarında isə arpa əkilmişdir. Cari ildə taxıl zəmilərindən 106 min 282 ton məhsul toplanmışdır ki, bu da 2014-cü illə müqayisədə 3,1 faiz çoxdur. Azərbaycanın və onun ayrılmaz tərkib hissəi olan Naxçıvan MR kənd təsərrüfatının yüksək inkişafı bu gün Heydər Əliyev siyasi kursunun davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tərəfindən uğurla davam etdirilir.

## ƏDƏBİYYAT


1. "Azərbaycan" qəzeti.
2. Əliyev H. Azərbaycan SSR kənd təsərrüfatının və bütün iqtisadiyyatının daha dinamik inkişafını təmin etməli. Bakı, Azərnəşr, 1979, 154 s.
3. Əhmədov N. Naxçıvan iqtisadiyyatı inkişaf yollarında, Bakı, Elm, 2005, 312 s.
4. Hacıyev İ. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan, Əcəmi, NPB, 2011, 272 s.
5. Həbibbəyli İ., Hacıyev İ., İsmayılov B. İntibahın 15 ili. Naxçıvan, Əcəmi, NPB, 2010, 279 s.
6. 2010-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan, Əcəmi, 2011, 96 s.
7. 2011-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan, Əcəmi, 2012, 87 s.
8. 2012-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan, Əcəmi, 2013, 88 s.
9. 2013-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan, Əcəmi, 2014, 96 s.
10. 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan, Əcəmi, 2015, 71 s.
11. 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı haqqında. Naxçıvan, Əcəmi, 1998, 32 s.
12. Naxçıvan Muxtar Respublikası (Akademik C.Quliyevin redaktorluğu ilə) Bakı, Elm, 2001, 222 s.
13. Naxçıvan Muxtar Respublikası. 1991-2001-ci illər ərzində. Naxçıvan, Əcəmi, 2001, 97 s.
14. Nadirov A., Nuriyev Ə., Muradov Ş. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı, Elm, 2000, 104 s.
15. Rüstəmov A., Quliyev Ə., Qasımov D., Aqrar sahənin inkişafının regional problemləri (Dərs vəsaiti). Bakı, Avropa, 2013, 173 s.
16. Şahverdiyev Z., Zeynalov İ. Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi və mədəni inkişaf (2001-2012-ci illər). Naxçıvan, Əcəmi, 2014, 248 s.
17. "Şərq qapısı" qəzeti.

## ABSTRACT

**Khazar Huseynov**

**From the developmental history of the manufacture of the grain in the Nakhchivan Autonomous Republic (1991-2015 s)**

Like other fields, the topic of developmental history of the manufacture of a grain in the Nakhchivan Autonomous Republic also arouses scientific interest. The article studies development of the manufacture of a grain in the Nakhchivan Autonomous Republic.

As at all times, in the 1991-2015 years the development of agriculture in the Nakhchivan Autonomous Republic is differed by its own characteristics. At the above mentioned years agriculture which playing an own role in the economic development of the country based on the laws of economic development.

In the investigated years, strengthening and mechanization of the material-technical base of agriculture, important works on in the field of land reclamation in the Nakhchivan Autonomous Republic specially thanks happened to Heydar Aliyev's care.

It includes the achievements in the development of the manufacture of a grain in the Nakhchivan Autonomous Republic from archive materials, statistic series, published works by different authors, articles and periodical press.



## РЕЗЮМЕ

**Хазар Гусейнов**

**Из истории развития полеводства в Нахчыванской Автономной Республике (1991-2015 годы)**

Как эти и другие статьи, так и тема развития полеводства в Нахчыванской Автономной Республике создаёт научный интерес. В статье исследуется развитие полеводства в Нахчыванской Автономной Республике.

Как во все времена, в 1991-2015 годы развитие сельского хозяйства в Нахчыванской Автономной Республике отличается своим характеристикам. В упомянутой выше лет сельском хозяйстве, которое играет свою роль в экономическом развитии страны на основе законов экономического развития.

В исследованных лет, укрепление и механизация материально-технической базы сельского хозяйства, важных работ по в области мелиорации земель в Нахчыванской Автономной Республике, специально благодаря случилось ухода Гейдара Алиева.

В ней были включены в научный оборот достигнутые успехи в развитии полеводства в Нахичеванской Автономной Республике на основе архивных материалов, статистических сборников, исползованы из опубликованных произведений этих и других авторов и современного пресса.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *AMEA-nın müxbir üzvü Z.Şahverdiyev*

**İSA ARSLAN**
*Bakı Dövlət Universiteti*
*isabaku10@gmail.com*

***UOT: 94.5***

# ŞAH I ABBASIN HAKİMİYYƏTİ DÖVRÜNDƏ AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİ İLƏ OSMANLI DÖVLƏTİ ARASINDA SİYASİ MÜNASİBƏTLƏR

***Açar sözlər:*** *Azərbaycan Səfəvi dövləti, Osmanlı dövləti, Şah I Abbas, siyasi münasibətlər diplomatik əlaqələr*

***Keywords:*** *Safavid state, the Ottoman Empire, Shah Abbas I, diplomatic relations, political relations*

***Ключевые слова:*** *Сефевидское государство, Османская империя, Шах Аббас I, дипломатические отношения, политические отношения*

XV əsrin sonlarında başlayan "Böyük coğrafi kəşflər" beynəlxalq münasibətlər sistemində ciddi dəyişikliyə səbəb oldu. Bu dövrdə Kiçik Asiya və Balkanların işğalı nəticəsində Aralıq dənizində hegemonluğu ələ alan Osmanl imperiyası, Avropanın şərq ticarəti üçün ciddi təhlükə yaradırdı. Cünki Osmanlı hakimiyyətinin yeritdiyi ağır "kömrük siyasəti" Şərq-Qərb ticarətinə böyük zərbə vururdu. Digər tərəfdən bu dövrdə iqtisadi və siyasi böhran dövrünü yaşayan Məmlük dövləti, ölkəni böhrandan çıxarmaq üçün Misir və Suriya üzərindən Avropaya daşınan Hind malları üzərində kömrük vergisini artırdı. Hind mallaranı Avropaya daşıyan Portuqaliyalı tacirlər bu ağır vergilərdən qurtarmaq üçün yeni ticarət yolları axtarmağa başladılar. Nəticədə, Atlantik okeanı vasitəsilə Hindistana gedən dəniz yolu kəşf olundu. Portuqaliyalı dənizçi Vasqo da Qamanın ərəb coğrafiyaşünası və dəniz bələdçisi Əhməd ibn Məcidin köməyi ilə Hindistana çatması (may/1498), Avropa dövlətlərinin Şərqdə müstəmləkəçilik siyasətinin əsasını qoydu (2, 94).

Şərqlə Qərb arasında yeni "okean ticarət yolu"nun kəşf olunması, bölgədə iqtisadi-ticarət maraqları üst-üstə düşən dövlətlərin siyasi mübarizəsinə ciddi surətdə təkan verdi. Portuqalların Hind okeanı üzərində ticarət yolunu ələ keçirmək istiqamətindəki addımları, Şərq-Qərb dəniz ticarətinin aparıcı dövlətlərindən olan Misir Məmlük dövləti və Venesiya Respublikasının ciddi müqavimətinə səbəb oldu.

Bu dövrdə Azərbaycanda da ciddi siyasi hadisələr baş verirdi. Ağqoyunlu hakimiyyəti özünün siyasi tənəzzül dövrünü yaşayırdı. Sultan Yaqubun (1478-1490) hakimiyyəti dövründə yaranmış siyasi sabitlik, onun ölümündən sonra pozuldu. Uzun Həsənin varisləri arasında başlayan hakimiyyət uğrunda mübarizə dövlətin siyasi təsisatlarına və xarici siyasi əlaqələrinə ciddi zərbə vurdu. Belə bir siyasi şəraitdə, siyasi və dini mərkəzi Ərdəbil şəhərində yerləşən Səfəvilər sülaləsinin nümayəndəsi İsmayıl, Azərbaycanda siyasi hakimiyyət uğrunda mübarizəyə başladı.

1501-ci ildə İsmayıl, Şərur düzündə baş verən döyüşdə Ağqoyunlu hökmdarı Əlvənd Mirzəni məğlub edərək, paytaxt Təbrizə daxil oldu və ana babası Həsən padşahın hüquqi varisi kimi şahlıq taxt-tacına əyləşdi. Şiə məzhəbini rəsmi dövlət dini elan edən I Şah İsmayıl "On iki İmam" adına xütbə oxutdu və öz adına sikkə kəsdirdi. [6, 45]. Beləliklə, I Şah İsmayıl Ağqoyunlu sülaləsinin hüquqi varisi kimi Azərbaycanda hakimiyyətə gələrək, Səfəvilər sülaləsinin rəsmi hakimiyyətini elan etdi.

Azərbaycanda səfəvilərin siyasi hakimiyyətinin möhkəmlənməsi ilə dövlətin xarici siyasi əlaqələrində yenidən canlanma müşahidə olunmağa və qonşu dövlətlərlə siyasi və diplomatik münasibətlər inkişaf etməyə başladı. Bu dövrdə dövlətin sərhədlərinin genişləndirilməsi, qonşu dövlətlərlə iqtisadi-ticarət və diplomatik əlaqələrin inkişafı Səfəvi hakimiyyətinin xarici siyasətinin əsasını təşkil edirdi (2, 95).

Səfəvilərin hakimiyyəti dövründə Azərbaycanın xarici siyasətində Osmanlı imperiyası ilə

siyasi münasibətlər mühüm yerlərdən birini tuturdu. Çünki, hələ XV əsrin ortalarından başlayaraq, osmanlıların Azərbaycan dövlətlərinin qanuni torpaqları sayılan Şərqi Anadolunu ələ keçirmək uğrunda apardıqları mübarizə davam edirdi. Həmçinin "Böyük coğrafi kəşflər"dən sonra Hindistana gedən ticarət yolunun nəzarətdən çıxması, osmanlıları səfəvilərin nəzarətində olan Hind okeanı ilə birbaşa əlaqəsi olan Bəsrə (İran) körfəzini ələ keçirməyə sövq edirdi. Eyni zamanda Səfəvi sülaləsinin hakimiyyətə gəlişindən sonra şiəliyin rəsmi olaraq dövlət dini elan edilməsi, sünni osmanlıların dini-ideoloji maraqlarına cavab vermirdi. Çünki İmam Əli nəslindən olduqlarını iddia edərək hakimiyyət məsələsində "vilayət (Peyğəmbər nəslinin hökmranlıq sürməsi) prinsipini sərt şəkildə ortaya qoyan səfəvilər özlərindən savayı İslam Şərqindəki digər müsəlman sülalələrinin hakimiyyətini qeyri-qanuni sayırdılar. Bu da İslam dünyasının xilaskarı və təhlükəsizliyinin təminatçısı rolunda çıxış edən Osmanlı dövlətinin ideoloyi təbliğatına çox ciddi alternativ idi. Bu səbəblər Səfəvi-Osmanlı siyasi münasibətlərinin daima mürəkkəb xarakter daşımasına və uzunmüddətli hərbi-siyasi münaqişələrə yol açmışdı (2, 96).

XVI əsrdə olduğu kimi XVII əsrin əvvəllərində də Azərbaycan Səfəvi dövləti ilə Osmanlı dövləti arasında siyasi münasibətlər davam edirdi. XVI-XVII yüzilliklərdə Səfəvilər dövləti ilə Osmanlı dövləti arasında hərbi-siyasi münasibətlərlə yanaşı, diplomatik münasibətlər də mövcud olmuşdur. Bu dövlətlər arasında mövcud olan hərbi qarşıdurmaların nizamlanmasında diplomatik nümayəndələrin və elçilərin böyük rolu olmuşdur.

XVI əsrin II yarısında Osmanlı dövlətinin Azərbaycan Səfəvi dövlətinin bir hissəsini işğal etməsi səfəvi-osmanlı münasibətlərinin inkişafına ciddi zərbə vurdu. Şah I Abbas hakimiyyətinin ilk dövrlərində ölkə ərazilərini işğaldan azad etmək üçün atdığı hərbi-siyasi addımlar lazimi nəticə vermədi. Çünki dövlətin hərbi-siyasi qüdrətinin zəiflədiyi bir vaxtda iki cəbhədə, osmanlılara və özbəklərə qarşı eyni vaxtda mübarizə aparmaq olduqca çətin idi. Bu baxımdan Səfəvi dövlətinin hərbi qüdrətini bərpa etmək üçün osmanlılarla sülh müqaviləsi bağlamaq olduqca vacib idi.

Sülh müqaviləsi bağlamaq üçün 1589-ci ilin sentyabr ayında Səfəvi hakimiyyəti Ərdəbil hakimi Mehdiqulu Xan Ustaclunun rəhbərliyi ilə İstanbula bir elçi heyəti göndərdi. Osmanlı hakimiyyətinin tələbi ilə elçi heyəti ilə birlikdə Həmzə Mirzənin 9 yaşlı oğlu Heydər Mirzə də girov kimi İstanbula göndərildi [19, s. 39-40; 4, s. 260-261; 10, s. 375].

Şah I Abbas elçi heyəti ilə Fərhat Paşaya Qızılbaş türkcəsində yazılmış bir məktub da göndərmişdir. Məktubda deyilirdi:*" ....Bizim razılıq və fərmanımıza əsasən, vəkilimiz Mürşüd Qulu Xanı fitnəni aradan qaldırmaq üçün sizin hüzurunuza ezam etmiş və qərara gəlmişik ki, aliməqamlı şahzadənin sözü və əhalinin tələbinə əsasən İslam Padişahının (Osmanlı Sultanı) hüzuruna yetişsin... və bu Xan, şahzadənin (Heydər Mirzə) göndərilməsi haqqında bəzi məsələləri hüzurunuzda bəyan edəcəkdir. Öz məmləkətinə və Padişahına xidmət etdiyin və fədakarlıq göstərdiyin kimi bizə də dostluq edib iki məmləkət arasında ədalətin möhkəmlənməsi üçün səy göstərməlisən ki, etdiyin bu iş dünya durduqca əbədi qalsın....İnşaallah –Təala*" [15, s. 52-55].

Səfəvi elçi heyəti Fərhat Paşanın yanına çatdıqdan sonar onunla birlikdə 1590-cı il yanvar ayında İstanbula gəldilər .Yanvar ayının 24-də Divan-i Humayunda sülh təklifləri müzakirə olundu [10, s. 379]. Nəhayət, İstanbulda aparılan danışıqlar nəticəsində, 1590-cı il mart ayının 21-də tərəflər arasında, 12-illik Osmanlı-Səfəvi müharibəsinə (1578-1590) son qoyan sülh müqaviləsi bağlandı. 4 bənddən ibarət olan bu müqavilənin 2-ci bəndində, Osmanlı imperiyasına qatılan Səfəvi dövlətinin əraziləri əks olunmuşdu. Bu bənddə deyilirdi: *" H. 998 Nevruzi-firuzi (21 mart 1590) tarixinədək, Qızılbaşların əlindən alınaraq Osmanlı dövlətinin tabeliyinə keçən bu ərazilər Osmanlı mülkiyyəti sayılmalıdır: Təbriz, Qaracadağ və ətrafı, Gəncə, Qarabağ və ətrafı, Şirvan, Gürcüstan, Nihavənd, Luristan..."* [12, s. 195-197; 10, s. 379-381; 6, s. 179]. Göründüyü kimi bu müqavilənin şərtlərinə görə, Səfəvi dövlətinin böyük bir hissəsi Osmanlı imperiyasının tərkibinə daxil edildi.

Səfəvi dövləti ilə Osmanlı dövləti arasında bağlanan İstanbul sülh müqaviləsi Səfəvi hakimiyyətinin məcburiyyətdən bağladığı bir müqavilə idi. Çünki Səfəvi hökmdarı Şah I Abbas üçün dövlətin hərbi və iqtisadi gücünü və mərkəzi hakimiyyəti möhkəmləndirmək məqsədilə bu müqavilə olduqca vacib idi.

Osmanlı hökmdarı III. Mehmet (1595-1603) zamanında da Səfəvi dövləti ilə Osmanlı imperiyası arasında elçilik mübadiləsi və diplomatik yazışmalar davam etməkdə idi. Sultan III

Mehmetin taxta çıxdığı ərəfədə Səfəvi elçisi Kərəm Xan Osmanlı sarayına göndərilmişdir. Elçinin məqsədi hər iki dövlət arasında diplomatik münasibətləri inkişaf etdirmək və şahzadə Heydər Mirzənin vəziyyəti ilə maraqlanmaq olmuşdur. Eyni zamanda elçi İraqda Şiələr üçün müqəddəs hesab olunan yerlərdə kasıblara nəzarət olunması üçün bu yerlərə iki nəfər Şəfəvi nümayəndəsiinin təyin olunmasını istəmişdir. [12, s. 216].

XVII əsrin əvvəllərində (1603-1612) Səfəvi-Osmanlı müharibələrinin yeni mərhələsinin başlanması siyasi və diplomatik münasibətləri arxa plana keçirdi. 1603-1612 illərdə Osmanlılara qarşı Səfəvilərin həyata keçrdiyi hərbi əməliyyatlar nəticəsində Osmanlıların ələ keçirdiyi əksər Səfəvi torpaqları azad edildi. Səfəvi dövlətinin bu qələbələrindən sonra Osmanlı hakimiyyəti yenidən sülh danışıqlarına başladı.

Bu dövrdə sülh danışıqlar aparmaq üçün Azərbaycan Səfəvi dövlətindən osmanlı sarayına bir neçə elçilik heyəti göndərilmişdir. Bu elçilik heyətlərindən biri 1612-ci ilin sentyabr ayında qazıəskər Qazı Xanın rəhbərliyi ilə İstanbula gələn elçi heyəti olmuşdur. Bu elçilik heyətinə İsfahan və Qəzvin qazıları Müizzi İsfahani və Hüseyin Yezdi də daxil idi. Bu elçilik heyətinin apardığı uğurlu sülh danışıqları nəticəsində tərəflər arasında II İstanbul sülh müqaviləsi (20 noyabr\1612) bağlandı [11, s. 166-167].

II İstanbul sülh müqaviləsi üç il qüvvədə qalsa da 1615-ci ildə yeni Səfəvi-Osmanlı müharibəsi başlamışdır. 1618-ci ildə osmanlı taxtına çıxmış II Osman (1618-1622) Şah I Abbasa elçisi Çavuş Həsən Ağa vasitəsilə bir dostluq məktubu göndərmişdir. 1618-ci ilin may ayında Qəzvində Şah I Abbasın hüzuruna gələn osmanlı elçisi çox soyuq qarşılanmış və Səfəvi hökmdarı tərəfindən bu cavabı almışdır: *"Məktubun heç bir faydası yoxdur. Əgər Osmanlı dövlət adamları adilanə şərtlərlə və xoş niyyətli sülhə hazır olsalar mən də dostluq əlimi uzadaram. Əgər siz türklər savaşıb qan tökərək biçarə və günahsız insanları öldürmək niyyətində olsanız, günah sizin boynunuzda qalacaq və mən bu vəziyyətdə səfəvi ordusunu döyüş meydanına göndərəcəyəm"* [1, s. 145]. Səfəvi hökmdarı osmanlı elçisi ilə birlikdə Mirzə Məhəmməd Hüseyn Əbhəri adlı elçisini Diyarbəkrdə olan sərdar Xəlil Paşanın yanına göndərmiş və Nasuh Paşa (II İstanbul müqaviləsi) müqaviləsinə uyğun bir razılaşmanın bağlanmasını istəmiş, əks halda savaşa hazır olduğunu bildirmişdir.

Hərbi əməliyyatların mənasız olduğunu görən osmanlı tərəfi yenidən danışıqlara başlamışdır. 1618-ci il avqust ayının 31-də Xəlil Paşanın elçisi Dəftərdar Həkim Osman Ərdəbilə gələrək osmanlıların sülh təkliflərini Səfəvi hökmdarına çatdırdı. Osmanlıların sülh təklifi şərtlərindən biri də Səfəvi hökmdarının oğullarından birinin İstanbula göndərilməsi idi. Bu şərtə cavab olaraq Şah I Abbas əlindəki qılıncı hüzurunda olan osmanlı elçisinə göstərərək bunları demişdir: *"Mənim oğlum budur və bunun xaricində sizin üçün bir şeyim yoxdur. Gücünüz yetirsə bunu əlimdən alın. Türk əsgəri hara qədər gəlmək istəyirsə mən sağlam bir şəkildə onları gözləyəcəyəm"*. Şahın bu sözlərinə Osmanlı elçisi, günahsız insanların qanı töküləcəyini və bunun günahının Şahın boynuna düşəcəyini söyləmişdi. Səfəvi Şahı elçinin bu sözlərinə verdiyi cavabda belə demişdiri: *"Mən öz evimdə oturmuşam və Osmanlılar hər il gəlib evimə hücum edirlər. Qan tökür və pislik gətirirlər. Mən və xalqım ölkəmizi qorumayaqmı?"* [11, s. 147].

Tərəflər arasında aparılan ardıcıl danışıqlardan sonra 1618-ci ildə Sərab sülh müqaviləsi bağlandı. Yadigar Əli Sultanın rəhbərlik etdiyi səfəvi elçi heyəti Sərab sülh müqaviləsini təsdiq etmək üçün 1619-cu il sentyabr ayının 29-da İstanbula gəldi və bu müqavilə təsdiq edildi [11, s. 172-173].

1636-cı ildə İrəvan osmanlılardan geri alınandan sonra Şah Səfi (1629-1642) Maqsud xanı İstanbula göndərərək sülh istəmişdir. Lakin bu elçi həbs edilərək sülh təklifi rədd edilmişdir. Yalnız 1638-ci ildə Bağdad şəhəri səfəvilər tərəfindən geri alındıqdan sonra bu elçi azad edilmiş və osmanlı hakimiyyətinin yazdığı bir "təhdidnamə" ilə geri göndərilmişdir [11, 189-190].

XVII əsrin birinci yarısında da davam edən səfəvi-osmanlı müharibəsi nəhayət Qəsri-Şirin sülhmüqaviləsi ilə başa çatdı. Bu sülh danışıqlarının aparılmasında səfəvi elçiləri Saru Xan və Məhəmməd Qulu Xan iştirak etmişdir. Bu səfəvi elçilərinin apardığı sülh danışıqları nəticəsində 1639-cu il may ayının17-də Azərbaycan Səfəvi dövləti ilə Osmanlı imperiyası arasında sülh müqaviləsi bağlandı. Bu müqavilə ilə uzun müddət davam edən səfəvi-osmanlı siyasi

ziddiyyətlərinə son qoyuldu.

Ümumiyyətlə, XVI əsrin sonu – XVII əsrin əvvəllərində Azərbaycan Səfəvi dövləti ilə Osmanlı dövləti arasında Bəsrə körfəzindən Gürcüstana qədər olan əraziləri ələ keçirmək uğrunda fasilələrlə müharibə baş vermişdir. Şah I Abbasın hakimiyyəti dövründə (1587-1629) Səfəvi-Osmanlı müharibələri əsasən Güney Azərbaycan Şərqi Anadolu və İraq-i Əcəmə nəzarət etmək uğrunda olmuşdur. Bu dövrdə Səfəvi dövlətinin Osmanlı imperiyası ilə siyasi münasibətləri Yaxın Şərq bölgəsində siyasi və strateji maraqlar üstündə baş verən və bölgəyə hakim olmaq uğrunda mübarizəyə əsaslanan hərbi-siyasi qarşıdurma şəklində təzahür edirdi. Eyni zamanda tərəflər arasında mövcud olan məzhəb qarşıdurmaları və Səfəvi hakimiyyətinin Osmanlı dövlətinin hərbi müdaxiləsinin qarşısını almaq üçün Avropa dövlətləri ilə mütəmadi olaraq danışıqlar aparması ziddiyyətləri daha da artırırdı.

Şah I Abbasın hakimiyyəti dövründə Səfəvi-Osmanlı münasibətlərini dörd mərhələyə bölmək olar: 1. 1577-1589-cu illəri əhatə edən və İstanbul sülh müqviləsi (1590) ilə başa çatan dövr; 2. 1603-1612-ci illəri əhatə edən və Nasuh Paşa (II İstanbul) sülh müqaviləsinin imzalandığı dövr; 3. 1615-1618-ci illəri əhatə edir və tərəflər arasında Sərab sülh müqviləsinin bağlanması ilə başa çatır; 4. 1622- 1639-cu illəri əhatə edən və Qəsri Şirin sülh müqaviləsi ilə başa çatan bir dövrdür. Qeyd olunan bu dövrləri Səfəvi dövləti ilə Osmanlı imperiyası arasında müharibələr dövrü kimi də xarakterizə etmək olar. Həmçinin bu dövrlərdə tərəflər arasında diplomatik yazışmalar olmuş və bunun nəticəsi olaraq bir neçə dəfə sülh müqaviləsi bağlanmışdır.

## ƏDƏBİYYAT


1. Aydoğmuşoğlu C. Şah Abbas ve zamanı. Doktora tezi. Ankara, 2011, 353 s.
2. Ağalarov M. XV-XVI əsrlərdə Azərbaycan beynəlxalq münasibətlər sistemində. Dissertasiya, Bakı, 2013.
3. Bayani X. Tarix-e nezami-ye İran dər doure-ye Səfəviyye. Tehran, 1353 h., 592 s.
4. Бидлиси Шараф-хан ибн Шамсаддин. Шараф-Наме (Перевод, предисловие, примечания и приложения Е. И. Васильевой. Т. 2. М., Наука, 1976, 350 с.
5. Cabbari H. Qəndəhar və nəqş-e an dər rəvabet-e por feraz və nəşib miyan-e İran və Hendustan / Homayeş-e Sefeviyy-e dər qostare-ye tarix-e İran-zamin (Məcmuə-ye məqalat). Təbriz: Daneşqah-e Təbriz, 1383 h., s. 219-228.
6. Əfəndiyev O. Ə. Azərbaycan Səfəvilər dövləti. Bakı, Azərnəşr, 1993, 300 s.
7. Фарзалиев А., Мамедова Р. Сефевиды и Великие Моголы в мусульманской дипломатии. Санкт-Петербург: Филологический факультет СПбГУ, 2004, 227 с.
8. Fəlsəfi N. Zendeqan-i Şah Abbas-i Əvvəl. Cild-e əvvəl, müqəddəmat-e səltənət-e u əz vəladət ta padişahi. Çap-i devvom, Tehran, Çap-i Kihan, 1334 h., 247 s.
9. Islam R. Indo Persian relations: A study of the political and diplomatic relations between the Mughul empire and Iran. Tehran: Iranian Culture Foundation, 1970, 254 p.
10. Kırzıoğlu. F. M. Osmanlılar'ın Kafkas-elleri'ni fethi (1451-1590). Ankara: Türk tarih kurumu basımevi, 1993, 550 s.
11. Kılıç. R. XVI. ve XVII. Yüzyıllarda Osmanlı-Safevi antlaşmaları. İstanbul, Tez Yayınları, 2001. 236.
12. Kütükoğlu B. Osmanlı-İran siyasi münasebetleri (1578-1612). İstanbul: Özal Matbaası, 1993, 340 s.
13. Münşi İsgəndər bəy Türkman. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye - Abbasi). Fars dilindən çevirən Şahin Fərzəliyev. II hissə, Bakı, Şərq-Qərb, 2014.
14. Nəcəfli.T. / Şah Abbas dövründə Səfəvi-Moğol münasibətləri Türkiyə tarixşünaslığında. Journal of Qafqaz University, N 32, Bakı, 2011, s.1-15
15. Nəvai A. Şah Abbas: Mecmua-i Esnad ve Mekatibat-ı Tarixi Hemrah ba Yâddaşthâ-yı Tafsilî, İntişârât-ı Bünyâd-ı Ferheng-i İran,1352.
16. Sabeatiyan Z. Əsnad və nameha-yi tarixi dourey-i Səfəviyye. Tehran: Enteşarat-e Daneşqah-e Tehran, 1343 h., 394 s.
17. Savory R. M. Iran under the Safawids. Cambridg: Cambridge University Press, 1980, 277 p.

18. Selaniki Mustafa Əfəndi. Tarix-i Selaniki 1563-1600 (Azərbaycan və qonşu ölkələrin tarixinə dair iqtibaslar). Osmanlı türk dilindən tərcümə edəni akad. Z. M. Bünyadov. Bakı, Elm, 1992.
19. The Tūzuk-i-Jahangīrī or Memoirs of Jahāngīr. Alexander Rogers and Henry Beveridge London, Royal Asiatic Societ, Vol 1. 1909–1914.
20. Uzunçarşılı İ.H. Osmanlı Tarihi, C. 3, Kısım 1. TTK, Ankara, 1983.

## ABSTARCT

**Isa Arslan**

**Political relations between the Safavid state and the Ottoman Empire during the reign of Shah Abbas I**

At the beginning of XVII century the political and economic changes occurring in the world, were observed with significant political events in the Near and the Middle East. During this period, the Ottoman Empire, which was trying to expand its political geography, Azerbaijani Safavid state, that has joined Azerbaijan, eastern Anatolia, Iraq Arabi, Iraq Adjemi, Fars and Khorasan provinces to its borders, Shaybanids who ruled in Transoxiana, as well as Mongol Empire in India had an important role in the political events in the region.

The role of the Safavid state, that took an active part in political events in the region, was important in the international system. At the beginning of the XVI century (1501) Safavid state, which was formed with the Safavid dynasty’s coming to power in Azerbaijan, in a short time became one of the states that has a leading position in the Southwest Asia. During the reign of Azerbaijani Shah Abbas I (1587-1629) foreign political relations of Azerbaijan have further expanded, diplomatic relations with neighboring countries have developed. At that time, between the Ottoman Empire and the Safavid state had political and diplomatic relations, between these two countries continued diplomatic relations, along with the military and political conflicts.

## РЕЗЮМЕ

**Иса Арслан**

**Политические отношения между Сефевидским государством и Османской империей в годы правления шаха Аббаса I**

В начале XVII века политические и экономические изменения, происходящие в мире, наблюдались значительными политическими событиями на Ближнем и Среднем Востоке. В этот период, Османская империя, которая старалась расширить свою политическую географию, Сефевидское государство Азербайджана, соединяющее Азербайджана, Восточную Анатолию, Арабского Ирака, Аджемского Ирака, провинций Фарса и Хорасана в свои границы, Шейбаниды, которые правили в Мавараннахре, а также Могольская империя в Индии имели важную роль в политических событиях, происходящих в регионе.

Роль Сефевидского государства,  принимающего активное участие в политических событиях, происходящих в регионе, была важна в международной системе. В начале XVI века (1501) Сефевидское государство, образовывающее с приходом династии Сефевидов к власти в Азербайджане, в короткое время стало одним из государств, которое имеет лидирующую позицию в Передней Азии. В годы правления Азербайджанского правителя шаха Аббаса I (1587-1629) внешнеполитические отношения Азербайджана более расширились, дипломатические отношения с соседними странами развивались. В то время, между Османской империей и Сефевидским государством были политические и дипломатические отношения, между двумя странами продолжались дипломатические отношения наряду с военно-политическими конфликтами.

NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *AMEA-nın müxbir üzvü Z.Şahverdiyev*

**İBRAHİM KAZIMBƏYLİ**
*Naxçıvan Dövlət Universiteti*
*e-mail: ibrahimkazimbeyli@gmail.com*

***UOT: 94 (479.24)***

# RUSİYA İŞĞALINDAN SONRA İRƏVAN BÖLGƏSİNİN İDARƏÇİLİYİ

***Açar sözlər:*** *İrəvan xanlığı, İrəvan bölgəsi, Müvəqqəti idarə, "Erməni vilayəti", Erməni kilsəsi.*

***Key words:*** *Iravan Khanate, Iravan province, temporary administratioin, "the Armenian province", Armenian churces.*

***Ключевые слова:*** *Эриванское ханство, Эриванская провинциея, Временное управление, Армянская область, Армянская церковь.*

İrəvanın işğal edilməsindən bir neçə gün sonra, 1827-ci il oktyabrın 6-da Qafqazdakı rus qoşunlarının komandanı general İ.Paskeviçinin əmri ilə İrəvanda "Müvəqqəti idarə" yaradıldı. Yerli qoşunların komandanı general Krasovski idarənin rəisi, İrəvan qalasının komendantı podpolkovnik Borodin və erməni arxiyepiskopu Nerses Aştarakesi idarənin üzvləri təyin edildilər. İrəvan xanlığı ərazisində azərbaycanlı əhalinin mütləq çoxluğa malik olmasına baxmayaraq Müvəqqəti idarədə azərbaycanlılar təmsil olunmadı.

1827-ci il oktyabrın 6-da general İ.Paskeviç tərəfindən Müvəqqəti idarənin qarşısında dayanan vəzifələr haqqında Ümumi Qaydalar təsdiq edildi. Bu Qaydalara görə Müvəqqəti idarənin qarşısında 19 vəzifə qoyulmuşdu ki, bunlar aşağıdakılar idi:

1. Yerli qoşunların komandanı general Krasovskinin rəhbərlik etdiyi və erməni arxiyepiskopu Nerses Aştarakesi və İrəvan qalasının komendantı podpolkovnik Borodinin üzv olduğu Müvəqqəti idarə İrəvan xanlığı ərazisində bütün mülki işləri idarə etməli;
2. Müvəqqəti idarə ilk əvvəl bölgədə asayişin bərpa edilməsi və daxili sakitliyin yaradılması və bölgəni düşmən hücumlarından qorunması üçün tədbirlər görməli;
3. Xidməti əmlakı qeydiyyata almalı, əvvəlki hakimiyyətin qəlirlərini müəyyənləşdirməli və onlardan Rusiya hökumətinin xeyrinə istifadə etməli;
4. Qoşunların ərzaqla təmin edilməsi üçün başlıca olaraq yerli ehtiyatlardan istifadə etməli, xanlıq ərazisinə yenicə köçməkdə olan əhalinin talanmasına yol verməməli, yerli əhaliyə münasibətdə də əvvəlki hakimiyyətin topladığı vergidən artıq tələb etməməli və əhalinin var-yoxdan çıxmasına imkan verməməli idi;
5. Əhaliyə ədalət daxilində şərait yaradılmalı və düşmən müdaxiləsi olduğu halda isə silah gücü ilə qayğı göstərilməli idi;
6. Rusiya hakimiyyətini, himayədarlığını və onun tərəfindən fəth edilməsini istəyən Arazın cənubunda yaşayan əhaliyə qayğı göstərilməli;
7. Belələrinin gələcəkdə qəbul edilməsi və Ayırımlı Məhəmməd Cəfər xana müəyyən edilmiş şərtlərin onlara da şamil edilməsi;
8. Bölgənin mühafizəsi üçün daha çox yerli əhalidən, xüsusilə də ermənilərdən ibarət silahlı dəstələrin təşkil edilməsi;
9. Əhalinin və onların ağalarının hüquqlarının təmin edilməsi;
10. Rusiyaya sədəqətinə görə ziyan görmüş şəxslərə qayğı göstərmək;
11. Rusiya sərhədlərinin və yeni əldə edilmiş vilayətlərin sərhədlərinin Türkiyənin sərhəd vilayətlərində yayılmış taun xəstəliyindən qorunması üçün tədbirlərin görülməsi;
12. İrəvan və Sərdarabad qalalarının qarnizonlarını və əhalisini zəruri əşyalarla təmin etmək;
13. Türkiyə paşalıqları daxilində qoşunların bütün hərəkətləri və onların silahları haqqında, mümkün olarsa, Türkiyə hökumətinin niyyətləri haqqında doğru məlumatlar toplamaq;

14. Sənətkarlığı və xüsusilə də Gürcüstanla ticarət əlaqələrini bərpa etmək;

15. Dağlarda yaşayan tatar (azərbaycanlı) əhalinin hərəkətlərini daim nəzarətdə saxlamaq, düşmən niyyətlərə və çıxışlara meyl edən belə əhalini dərhal hərbi güclə sakitləşdirmək;

16. Abaran və Dilican dərəsi vasitəsilə Gürcüstanla əlaqəni təmin etmək;

17. İrəvan və Sərdarabadda ələ keçirilmiş pambıq parça ehtiyatlarının satışını təşkil etmək, bu istehsal sahəsini və onun ticarətini gələcəkdə də dəstəkləmək və yerli əhalidən toplanan vergilərin bir hissəsini parça ilə almaq;

18. Duz istehsalını təşviq etmək, əhalinin istehsal etdiyi duzun bir hissəsini hökumətin hesabına qəbul etmək və Gürcüstanla duz ticarətini təşkil etmək;

19. Abbasabad qalası Şuşadan hündür dağlarla ayrıldığı üçün bu qalanın təminatını İrəvan ərazisindən aparmaq [6, sənəd 432, s. 480-481].

Göründüyü kimi, İrəvan bölgəsində hakimiyyəti tam ələ almaq, idarəetmə işlərini həyata keçirmək, qayda-qanun yaratmaq, bölgədəki rus qoşunlarının təminat və təchizat məsələlərini həll etmək kimi məsələlər Müvəqqəti idarənin qarşısına əsas vəzifə kimi qoyulmuş, eyni zamanda İrəvan xanlığı ərazisində təhlükəsizliyin təmin edilməsi və bölgədə qaravul xidmətinin təşkil edilməsi üçün erməni əhalidən piyada və süvari drujinaların təşkil edilməsi də bu idarəyə tapşırılmışdı [6, sənəd 432, s. 480-481]. İrəvan xanlığı ərazisində azərbaycanlı əhalinin mütləq çoxluğa malik olmasına baxmayaraq Müvəqqəti idarədə azərbaycanlıların təmsil olunmaması, təhlükəsizlik və qaravul xidməti üçün də məhz erməni əhalidən silahlı birləşmələrin yaradılması İrəvan bölgəsinin erməniləşdirilməsinin əsasını qoydu.

Rusiya-İran müharibəsi dövründə bütün vasitələrlə ruslara xidmət göstərən və bu xidmətlərinə görə 1828-ci ilin yanvarında çar I Nikolay tərəfindən “Aleksandr Nevski” ordeni ilə təltif edilən erməni arxiyepiskopu Nerses Aştarakesi İrəvanın işğalından sonra yaradılan Müvəqqəti idarənin rəisi general Krasovski ilə birləşərək bu bölgədə Rusiyanın himayəsi altında erməni dövlət qurumu təşkilinin əsaslarını yaratmağa çalışırdı. O, İrəvan xanlığı ərazisində erməni dövlət qurumunun yaradılmasına və bu quruma rəhbərliyi öz əlinə almasına böyük ümid edirdi. Nerses eyni zamanda, planlaşdırdığı gələcək erməni dövləti üçün yalnız İrəvan və Naxçıvan xanlıqlarının ərazisi ilə kifayətlənmirdi. O, bütün vasitələrlə rus generallarına, xüsusilə də İ.Paskeviçə təsir göstərirdi ki, Arazın cənubunda olan Maku xanlığı da Rusiya hüdudlarına daxil edilsin, Naxçıvandan sonra sərhəd xətti qərbə doğru düz xətt boyunca aparılsın və bununla da Maku xanlığı ərazisi burada olan Tatevos monastr kilsəsi ilə birlikdə Rusiya tərkibinə qatılsın. Nerses, 1827-ci il oktyabrın 6-da general İ.Paskeviçə göndərdiyi məktubunda açıq-aydın şəkildə iddia edirdi ki, əgər yeni Rusiya sərhəd xətti Araz boyunca uzanıb getsə, bu zaman gələcək erməni dövləti üçün nəzərdə tutulmuş torpaqların bir hissəsi İranda qalar. Maku dərəsi, çətin keçidli dağ yolları, bütöv Ararat, hətta duz mədənləri ilə zəngin olan Koxp da gələcək erməni dövləti hüdudları daxilində qalmalıdır [12, s. 160].

Ümumiyyətlə, erməni arxiyepiskopu Nerses Aştarakesi bu zaman çox fəallıq göstərir, İrəvan bölgəsi və ətraf ərazilərdə Rusiyanın himayəsi altında erməni dövlətinin yaradılması, qonşu ölkələrdə olan erməni əhalisinin bu bölgədə məskunlaşdırılması ilə bağlı Rusiya hərbi və mülki hakimiyyət orqanları qarşısında məsələ qaldırır, layihə və təkliflər irəli sürürdü. O, hətta 1829-cu il yanvarın 21-də general İ.Paskeviçə yazdığı məktubunda ərazi iddiaları qaldırmaqla yanaşı, Rusiyanın yeni sərhədlərinin müəyyən edilməsində Paskeviçin çox ciddi səhvlərə yol verdiyini də sərt şəkildə tənqid edirdi. Nerses Maku ərazisinin də mütləq İrəvan bölgəsinə qatılmasını və nəzarətdə saxlanılmasını gələcəkdə yaradılacaq erməni dövləti üçün həyati əhəmiyyətli məsələ hesab edir və bunu təkidlə tələb edirdi [18, s. 745-746]. Lakin Paskeviç arxiyepiskopun Maku ilə bağlı iddiasını onun bu ərazidə olan kilsəni öz nəzarətinə keçirmək cəhdi kimi qiymətləndirdi və eyni zamanda bu iddianı Rusiya üçün lazımsız hesab edərək rədd etdi.

1827-ci il oktyabrın 6-da yaradılan Müvəqqəti idarənin mövcudluğu dövründə İrəvan xanlığının inzibati-ərazi quruluşu dəyişdirilmədi və bu inzibati quruluş 1833-cü ilə qədər davam etdi. Xanlıq dövründə olduğu kimi, bu dövrdə də bölgə mahallara, mahallar isə kəndlərə bölünürdü. Mahalları rus hakim dairələrinə yaxın olan yerli bəylər, xanlar və məliklər idarə edirdilər.

Müvəqqəti idarənin adından da göründüyü kimi, bu idarə forması müvəqqəti bir xarakter daşıyırdı. İrəvanın işğalından az sonra Rusiya imperatorunun fərmanı ilə Peterburqda bir komitə

yaradıldı. Bu komitəyə Rusiya maliyyə, daxili və xarici işlər nazirləri və baş qərargah rəisi daxil edildi. Bu komitəyə tapşırıldı ki, İrəvan və Naxçıvan xanlıqları ərazisində Rusiya işğalının nəticələrini və dövlət maraqlarını özündə əks etdirən quruluşun layihəsini hazırlasın. Nəticədə qısa müddət ərazində İrəvan əyalətinin və ətraf ərazilərin idarəçiliyi üçün əsas götürüləcək Qaydalar layihəsi hazırlandı və bu layihə 1827-ci ilin dekabrında Rusiya imperatoruna təqdim edildi [6, sənəd 435, s. 482-484]. 18 maddədən ibarət olan bu Qaydalara görə İrəvan və Naxçıvan xanlıqlarının, habelə son müharibə dövründə işğal edilmiş Şuragöl və Pəmbək mahallarının idarə edilməsi üçün İrəvan Müvəqqəti idarəsi ləğv edilməli və onun yerində Xüsusi idarəetmə yaradılmalı idi. Bu idarəçilik Cənubi Qafqazın digər bölgələrində mövcud olan idarəçiliyə oxşar şəkildə qurulmalı və istər İrəvan bölgəsinin mərkəzi idarəçiliyində, istərsə də yerlərdəki idarəçiliyində xristian əhalinin müsəlmanlardan asılı vəziyyətdə qalmasına imkan verilməməli, müsəlman əhalinin idarə olunması isə müsəlmanlar arasından müəyyənləşdirilən nümayəndələrə həvalə edilməli idi. Bu idarəçilik general-adyutant İ.Paskeviçin rəhbərliyi altında həyata keçirilməli idi. Xüsusi idarəetmə qurumunun tərkibinə bölgədəki qoşunların komandanı, biri polis, digəri isə maliyyə işləri üzrə olmaqla iki nəfər Rusiya məmuru və məşvərətçi səslə bir erməni və bir müsəlman nümayəndə daxil edilməli idi. Maliyyə məsələləri üzrə məmur Maliyyə Nazirliyi tərəfindən göndərilməli, digər məmur və işçilər isə Paskeviç tərəfindən təyin edilməli idi [6, sənəd 435, s. 482-483].

Qaydalara görə, İrəvan bölgəsində yerli idarəçiliyin isə aşağıdakı formada qurulması təklif edilirdi: a) şəhərlərdə erməni toplumunun idarə olunması onların böyüklərinə və başçılarına tapşırılmalı idi; b) müsəlman naiblər tərəfindən idarə olunan kəndlərdə ermənilər də yaşayırdılarsa, onda həmin kəndlərdə ermənilərin idarə edilməsi onların arasından çıxmış bəylərə və yaxud nüfuzlu adamlara həvalə olunmalı idi. Əgər bu kəndlərdə müsəlmanlar da varsa, onda onlar əvvəlki kimi müsəlman naiblər tərəfindən idarə edilməli idilər; c) müsəlman kəndlərini idarə edən naiblərin hökumətə qarşı yarıtmaz əməlləri müşahidə edilməmişdisə, onlar yerində saxlanmalı idilər; ç) müsəlman xanların, bəylərin və məmurların daimi və ya müvəqqəti mülklərində yaşayan ermənilər özlərinin daxili idarəçiliyi üçün aralarından bir nəfəri başçı seçməli idilər. Bu başçı həm də ermənilərin öz sahibləri qarşısında olan mükəlləfiyyətlərini necə yerinə yetirməsini müşahidə altında saxlamalı idi; d) sahibləri tərəfindən tərk edilən mülkiyyət varsa, bu mülkiyyətlər müvəqqəti olaraq etibarlı adamların idarəsinə verilməli idi; e) köçəri əhali öz ağalarının idarəçiliyində qalmalı, ağaları tərəfindən tərk edilmiş köçəri əhali isə həmin ağaların Rusiyaya itaət edən qohumlarından birinə müvəqqəti olaraq tapşırılmalı idi. Müharibə qurtardıqdan və sülh bağlandıqdan sonra İrəvan xanlığından getmiş xristianların geri qaytarılması üçün 5 il, müsəlmanların geri qayıtması üçün isə 2 il vaxt verilməli idi. Verilən müddət ərzində geri qayıdan xristianlar öz mülklərini geri ala bilərdilər. Verilən müddət ərzində geri qayıdan müsəlmanlar isə əvvəlcə Rusiyaya sədaqət andı içməli və bundan sonra onların əvvəlki mülklərinin geri qaytarılması məsələsinə baxılmalı idi. Geri qayıdan müsəlmanlara əyalətin idarəçiliyinə təsir göstərə biləcək hər hansı bir hüquq verilməməli idi. İrəvan xanlığı ərazisini tərk etmiş xan və bəylər verilmiş müddət ərzində geri qayıtmadıqları təqdirdə onların mülkləri dövlətə keçməli idi [6, sənəd 435, s. 482-483].

Bundan başqa Qaydalarda İrəvan əyaləti daxilində dini əlamətlər üzrə yeni məhkəmələrin yaradılması nəzərdə tutulurdu. Müsəlman və xristianlar arasındakı mübahisələrə isə şəhər məhkəmələrində baxılması nəzərdə tutulurdu. Bu qaydalara görə, yaradılacaq Xüsusi idarə İrəvan xanlığı ərazisində yerli hakimiyyət orqanı funksiyasını yerinə yetirməli, bölgədə asayişi və sakitliyi təmin etməli və xanlıq ərazisində Rusiya üçün şübhə yaradan şəxsləri müşahidə altında saxlamalı və lazımi olduqda zərərləşdirməli, eyni zamanda Rusiya qoşunlarının baş komandanının göstərişi əsasında qoşunların ərzaqla təmin edilməsi üçün kömək göstərməli, qalaları zəruri ərzaq və əşyalarla təmin etməli, vergiləri toplamalı, ticarət və sənətkarlığın bərpasına, pambıq parça istehsalının genişləndirilməsinə çalışmalı idi.

Onu da qeyd etmək lazımdır ki, bu Qaydalarda İrəvan bölgəsi üçün nəzərdə tutulan Xüsusi idarəçilik formasında müsəlmanlarla müqayisədə ermənilərə üstünlük verilsə də, bu üstünlük Müvəqqəti idarədə olduğundan az idi və xüsusi idarəçilik əvvəlki kimi sırf erməni maraqlarına deyil, daha çox Rusiyanın bölgədəki dövlət maraqlarına uyğunlaşdırılmışdı.

Bu zaman erməni ideoloqları (X.Lazarev, A.Xudabaşyan, K.Arqutinski-Dolqoruki və b.) da

İrəvan bölgəsində yaradılmaqda olan yeni idarəçilik formasını özlərinin etnik istəklərinə uyğunlaşdırmaq üçün müxtəlif layihələr hazırlayaraq Rusiya hökumətinə təqdim etdilər.

Erməni arxiyepiskopu Nerses və onun baş məsləhətçisi Hovsep Arqutyanın iştirakı ilə hazırlanan və çar hökumətinə təqdim edilən layihəyə görə İrəvan xanlığı ərazisində erməni dövləti yaradılmalı və ona Rusiyanın himayəsi altında muxtariyyət verilməli idi. Rusiya imperatoru I Nikolay "qədim erməni çarlığının" bütün torpaqlarını özündə birləşdirən yeni erməni dövlətinin çarı elan edilməli idi [12, s. 163]. Ermənilərə görə yaradılacaq erməni dövlətinin təhlükəsizliyini ermənilər özləri təmin etməli idilər. Bunun üçün ermənilər arasından könüllülük əsasında qvardiya və eskadron təşkil edilməli və bu hərbi qurumlara cəlb edilən erməni əsgər və zabitləri güzəştlərə malik olmalı və istismara məruz qalmamalı idilər. Layihədə göstərilirdi ki, hərbçilər arasında zülm və istismar nə qədər az olsa, xidmət o dərəcədə yaxşı olar. Hərbçilərə əlavə güzəştlərin verilməsi daha çox ermənilərin bu sahəyə cəlb edilməsinə maraq yarada bilərdi. Erməni muxtar hakimiyyətinin qurulması üçün zəruri olan kadrların isə Moskvadakı Lazarev institutundan və Tiflisdəki "Nersisyan" məktəbindən alınması məqsədəuyğun hesab edilirdi [12, s. 163; 13, s. 360-361].

Rusiya sarayına yaxınlığı ilə seçilən erməni ideoloqu Xaçatur Lazarev 1827-ci ilin dekabrında Rusiya qoşunları Baş Qərargahının rəisi general Dibiçə və general Benkendorfa "Asiya xalqları haqqında məlumatların icmalı" adlı təkliflər-məlumatlar toplusunu təqdim etdi. Erməni ideoloqu bu icmalda II Yekaterinanın da erməni çarlığını bərpa etmək niyyətinə toxunur və bu ideyaya arxalanmaqla İrəvan xanlığı ərazisində Rusiyanın tərkibində olan Şimali Ermənistan knyazlığının və ya Erməni çarlığının təşkili təklifini irəli sürürdü. Bu icmalda İranda, Türkiyədə və başqa yerlərdə yaşayan ermənilərin təşkil olunacaq erməni qurumu ərazisinə köçürülməsinə də xüsusi yer ayrılırdı [1, v. 21; 19, s. 57; 14, s. 631].

İrəvan bölgəsinin idarəsi ilə bağlı layihələrdən biri də general Krasovski tərəfindən hazırlanmışdı. Erməni arxiyepiskopu Nerses Aştarakesinin də yaxından iştirakı ilə hazırlanan bu layihə də mahiyyət etibarilə erməni ideoloqlarının hazırladıqları layihələrdən fərqli deyildi və bölgənin erməniləşdirilməsini nəzərdə tuturdu. "Ehtimallar", "Baxış" və "Layihə" adlı üç hissədən ibarət olan Krasovski layihəsinə görə İrəvan və Naxçıvan xanlıqları və Maku ərazisi bir inzibati vahiddə birləşdirilməli idi. Bundan başqa Şuragöl və Pəmbək mahalı da bu inzibati vahidə daxil edilməli idi. İrəvan, Naxçıvan, Maku, Şuragöl və Pəmbək qəzalarından ibarət olacaq İrəvan vilayətinin rəhbəri hərbi-qubernator və ya əyalət rəisi olmalı idi. Vilayətin hakimi kimi qubernator bütün hərbi və mülki işlərə rəhbərlik etməli və onun katib, ober-auditor, 2 nəfər tərcüməçi və 4 nəfər mirzədən ibarət dəftərxanası yaradılması nəzərdə tutulurdu. Bundan başqa qubernator yanında vilayət şurası da yaradılmalı və bu şuraya aşağıdakılar daxil edilməli idi: general-mayor və ya polkovnik rütbəli sədr, biri hərbçi, digəri mülki şəxs olmaqla iki müşavir, prokuror, katib və biri xristian, digəri isə müsəlman olmaqla 2 nəfər də ruhani. Vilayətin qorunması üçün hər biri üç tabordan ibarət olan üç piyada alayı həmçinin 1500 piyada və 500 atlıdan ibarət erməni legionu yaradılmalı idi [4, v. 14-24].

Krasovski, planlaşdırdığı şəkildə təşkil ediləcək İrəvan vilayətinin ərazisini 9 mahala bölünməsini təklif edirdi: 1. Maku-Pəmbək; 2. Şərur; 3. Gərnibasar-Vedibasar; 4. Zəngibasar (Qırxbulaq); 5. Gərnibasar-Aparan, Baş Aparan və Talın; 6. Şuragöl-Pəmbək; 7. Sürməli-Parçi-Dərəkənd; 8. Dərəçiçək; 9. Göyçə-Kolandar. Naxçıvan xanlığı ərazisində isə əvvəllər mövcud olan mahal bölgüsü saxlanılmalı idi. Mahalları hərbçilərdən təyin edilmiş mahal hakimləri idarə etməli və onların yanında biri müsəlman, digəri isə erməni olmaqla 2 nəfər kovxa və tərcüməçi olmalı idi [19, s. 64-65].

Krasovski, layihəsində erməni arxiyepiskopu Nerses Aştarakesini də unutmurdu. Layihəyə görə, Nerses hərbi qubernatorun və ya vilayət hakiminin müavini postunu tutmalı idi.

Bu layihə general Krasovski tərəfindən 1828-ci il yanvarın 25-də Rusiya qoşunlarının Baş Qərargah rəisi general Dibiçə göndərildi. Lakin bu zaman artıq Peterburqda İrəvan xanlığının idarəsi ilə bağlı layihə hazırlanmış və bu layihə baxılması üçün general İ.Paskeviçə göndərilmişdi. Paskeviç isə Krasovskinin fəaliyyətindən qəti razı deyildi. Krasovskinin İrəvan müvəqqəti idarəsinə rəhbərlik etdiyi qısa müddət ərzində Nerses ilə birləşib erməni arxiyepiskopunun iradəsini yerinə yetirməsi İrəvan bölgəsində müsəlman əhalinin ciddi narazılığı ilə qarşılanmış və Krasovski-Nerses cütlüyünün həyata keçirdiyi irqi, milli, dini ayrıseçkilik siyasəti nəticəsində müsəlmanların kütləvi şəkildə Arazın o tayına köçməsi Paskeviçdə də ciddi narahatlıq yaratmışdı. Paskeviç bu

narahatlığını Baş Qərargah rəisi Dibiçə göndərdiyi 17 mart və 2 aprel tarixli raportlarında geniş şərh edir və Krasovski-Nerses cütlüyünün İrəvan bölgəsinin idarəçiliyindəki fəaliyyətini Rusiyanın bölgədəki maraqlarına zidd qiymətləndirərək onların bu vəzifədən uzaqlaşdırılmasını vacib hesab edirdi [2, v. 8-9; 5, v. 64]. O, baş qərargah rəisinə göndərdiyi 2 aprel 1828-ci il tarixli məktubunda yazırdı: "Mən təsəvvür etməzdim ki, Krasovski yalnız Nersesin iradəsi ilə hərəkət edəcək, mənim ona verdiyim təlimata məhəl qoymayıb, yenicə ələ keçirilmiş əyalətin idarə edilməsi qayğısına qalmayacaq, bütün əhalinin dörddə üçünü təşkil edən müsəlmanlara himayədarlıq etməyəcək və onlara lazımi vəsait ayırmayacaq" [5, v. 64].

Krasovski İrəvan bölgəsinin idarəçiliyi ilə bağlı öz layihəsini general Dibiçə göndərdikdən bir neçə gün sonra səhhəti ilə bağlı müalicə üçün Tiflisə getməsini Paskeviçdən xahiş etdi. O, özünün İrəvanda olmadığı müddətdə İrəvan Müvəqqəti idarəsinə rəhbərliyin general-mayor Pankratova və ya general-mayor Antrapova tapşırılmasını təklif edərək, bu generalların arxiyepiskop Nerses ilə birlikdə bölgənin idarəsini uğurla həyata keçirə biləcəyini bildirirdi [5, v. 13].

Paskeviç 1828-ci il fevralın 3-də Krasovskiyə Tiflisə getməyə icazə versə də, İrəvan Müvəqqəti idarəsinə rəhbərliklə bağlı onun təklifini qəbul etmədi. Paskeviçin əmri ilə İrəvan Müvəqqəti idarəsinin rəisi vəzifəsinə general-mayor Aleksandr Çavçavadze təyin edildi. A.Çavçavadzenin İrəvana gəlməsindən sonra, fevralın 22-də Krasovski vəzifəsini ona təhvil verib Tiflisə yollandı [3, v. 2].

General A.Çavçavadzenin İrəvan Müvəqqəti idarəsinə rəhbərliyə başlaması ilə bu idarənin tərkibində dəyişiklik edildi. Polkovnik Borodinin yerinə Şirvan piyada alayının komandanlığını öz üzərinə götürmüş polkovnik Xamutov təyin edildi. Müsəlman və erməni əhalisinin nümayəndələri kimi Məhəmməd xan və Məlik Saak da məşvərətçi səslə idarəyə üzv təyin edildilər [9, sənəd 252, s. 460].

Türkmənçay müqaviləsinin imzalanması ilə İranla müharibəni başa çatdıran general İ.Paskeviç Krasovski-Nerses cütlüyünün İrəvan Müvəqqəti idarəsindəki fəaliyyətini yerində araşdırmaq üçün 1828-ci il martın 16-da İrəvana gəldi. O, bu vaxta qədər, hələ Təbrizdə olarkən, martın 3-də Nerseslə birləşən Krasovskinin İrəvan Müvəqqəti idarəsindəki yarırmaz fəaliyyəti ilə bağlı Baş Qərargah rəisi general Dibiçə geniş məktub göndərmişdi [6, sənəd 436, s. 484-487]. Paskeviç İrəvana gəldikdən bir gün sonra, 1828-ci il martın 17-də general Dibiçə göndərdiyi raportunda Krasovski-Nerses cütlüyünün fəaliyyətini ciddi tənqid edərək bildirirdi ki, Krasovski İrəvanda heç bir iş görməyib, bütün işləri Nersesin ixtiyarına verib, sonuncunun qəbuluna isə ancaq ermənilər düşə bilib və bu vəziyyət müsəlmanlar arasında hökumətin etimadının itməsinə gətirib çıxarmışdır. Erməni arxiyepiskopu Nersesin İrəvan vilayətinin idarəsinə buraxmağı özünün böyük səhvi adlandıran Paskeviç yazırdı ki, "mən təsəvvür edə bilmirəm ki, genaral Krasovski bu dərəcədə siyasəti unudub əhalinin dörddə üçünü müsəlmanlar və yalnız dörddə birini ermənilər təşkil edən bir vilayətdə arxiyepiskopun birtərəfli baxışlarının adi bir icraçısına çevrilə bilər" [2, v. 8].

Krasovski-Nerses cütlüyünün İrəvan Müvəqqəti idarəsindəki yarıtmaz fəaliyyəti ilə bağlı general Paskeviç aprelin 2-də Baş Qərargah rəisinə əvvəlkindən daha geniş və ətraflı olan yeni bir raport da göndərdi [5, v. 64]. Bu və əvvəlki raportları ilə Qafqazdakı rus qoşunlarının baş komandanı baş qərargah rəisini inandıra bildi ki, Krasovski-Nerses cütlüyünün İrəvan Müvəqqəti idarəsindəki yarıtmaz fəaliyyəti vilayətin böyük əksəriyyətini təşkil edən müsəlman əhalisi arasında hökumətin etimadını heçə endirir, bu əhalinin kütləvi İran tərəfinə köçü baş verir və bütün bunlar Rusiyanın bu bölgədəki maraqlarına böyük zərbə vurur. Paskeviçin raportu imperator I Nikolaya məruzə olundu və nəticədə, 1828-ci il aprelin 10-da general Krasovskinin hərbi xidmətdən tərxis edilməsi haqqında Rusiya imperatorunun sərəncamı verildi [3, v. 10]. Bundan üç gün sonra, aprelin 13-də arxiyepiskop Nerses haqqında da onun İrəvan vilayətindən uzaqlaşdırılması haqqında qərar qəbul edildi və o, Bessarabiya yaparxiyasının dünyasını dəyişmiş arxiyepiskopunun yerinə təyin edilərək Bessarabiyaya göndərildi [6, sənəd 206, s. 252-253].

General İ.Paskeviç 1828-ci il mart ayının 19-da İrəvan Müvəqqəti idarəsinin tərkibində dəyişiklik etdi. İdarənin rəisi general A.Çavçavadze öz vəzifəsində qaldı. İrəvan qalasının yeni komendantı pod-polkovnik N.Koşkarev və mayor V.Medoks general A.Çavçavadzeyə müşavir təyin edildilər. Müsəlman və erməni əhalisinin nümayəndələri kimi Məhəmməd xan və Məlik Saak da məşvərətçi səslə idarəyə daxil edildilər. Müvəqqəti idarənin hakimiyyəti İrəvan bölgəsindən başqa Naxçıvan və Ordubad dairəsinə də yayıldı. 1827-ci il oktyabrın 6-da general İ.Paskeviç tərəfindən təsdiq edilən "Qaydalar"dakı vəzifələrin

yerinə yetirilməsi və müsəlman əhalisi ilə erməni əhalisinə münasibətdə bərabər yanaşma nümayiş etdirmək İrəvan Müvəqqəti idarəsinin ikinci tərkibinin qarşısına əsas vəzifə kimi qoyuldu [19, s. 79-80].

1828-ci il martın 21-də Rusiya imperatoru I Nikolay İranla müharibənin başa çatması və Rusiya ilə İran arasında sülh imzalanması haqqında manifest verdi [7, s. 271-272]. Bu manifestdə yeni işğal olunmuş İrəvan və Naxçıvan xanlıqlarının ərazisi "qədim Ermənistanın bir hissəsi" elan olundu [7, s. 272]. Bununla da, I Pyotr dövründən başlayaraq Azərbaycan torpaqlarının işğalı üçün onun etnik mənsubiyyətinin zorla dəyişdirilməsinə dair dövlət siyasəti və strateji məqsədin yerinə yetirilməsi burada təsbit edildi.

Elə həmin gün - 1828 ci il martın 21-də Rusiya imperatoru I Nikolay İrəvan və Naxçıvan xanlıqlarının Erməni vilayəti adlandırılması haqqında senata fərman verdi [7, s. 272-273; 10, s. 278-279]. Fərmanda deyilirdi: "İranla bağlanmış müqaviləyə əsasən İrandan Rusiyaya birləşdirilən İrəvan və Naxçıvan xanlıqlarını bundan sonra Erməni vilayəti adlandırmağı hökm edir və öz titulumuza daxil edirik. Həmin vilayətin quruluşu və onun idarə edilməsi qaydaları haqqında Senat lazımi göstərişləri vaxtında alacaqdır" [7, s. 273]. Bununla da, 1827-ci il oktyabrın 6-da general İ.Paskeviçin əmri ilə İrəvan bölgəsini idarə etmək üçün yaradılmış Müvəqqəti idarə ləğv edildi və İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti" adlı müvəqqəti inzibati-idarə yaradıldı.

Ermənilər bunu sevinclə qarşıladılar. Bu zaman erməni ideoloqlarından olan K.Arqutinski X.Lazarevə yazırdı: "İranla bağlanmış sülh bir çox cəhətdən mənə gözəl dəqiqələr bəxş etdi ki, Naxçıvan və İrəvan əyalətlərinin Erməni vilayəti adlandırılması heç də onlardan sonuncu deyildi... Yeni vilayətlərin sakinləri, bizim həmsoylarımız Erməni vilayəti adında bəzi özünəməxsus halları mükafat alır. Gözəl və olduqca faydalı fikirdir" [16, s. 79-80].

"Erməni vilayəti"nin rəisi vəzifəsinə yerli qoşunların komandanı, Müvəqqəti idarənin rəisi, general-mayor A.Çavçavadze təyin edildi. "Erməni vilayəti"nə keçmiş İrəvan və Naxçıvan xanlıqları və Ordubad dairəsi daxil idi. Yaradılan yeni inzibati vahidin mərkəzi İrəvan şəhəri oldu. Naxçıvan və İrəvan xanlıqları ərazilərində "Erməni vilayəti"nin yaradılması ilə Azərbaycan torpaqlarında erməni dövləti yaradılması üçün mühüm addım atıldı.

Erməni vilayətinin idarə edilməsi üçün qaydalar layihəsi də hazırlanmışdı. Həmin layihə erməni əhaliyə qarşı müəyyən liberallığın tətbiq edilməsini nəzərdə tuturdu. Layihə, ümumilikdə Rusiyanın vilayətdəki hakimiyyətinin möhkəmləndirilməsinə xidmət etsə də, bu bölgənin erməniləşdirilməsinə də zəmin yaratmalı idi [13, s. 366].

1828-1829-cu illər Rusiya-Osmanlı müharibəsindən qalib ayrılan Rusiya 1829-cu il sentyabrın 14-də Osmanlı dövləti ilə Ədirnə müqaviləsini imzaladı. Bu müqaviləyə görə Balkanlardakı bir sıra ərazilərlə yanaşı Cənubi Qafqazda da Axalsıx vilayəti Axalsıx və Axalkalaki şəhərləri ilə birgə Rusiyaya keçdi [17, s. 155-157; 21, s. 149-150].

İ.Paskeviçin mövqeyinə görə, Kars paşalığı da Rusiyaya ilhaq edilməli və bu ərazi də köçürüləcək ermənilər hesabına xristianlaşdırılmalı idi. O, bu məqsədlə 1829-cu ilin iyun ayında xarici işlər naziri K.V.Neselrodeyə də müraciət etmişdi. Lakin Rusiya hökuməti, Qafqaz cəbhəsində daha çox Osmanlı ərazilərinin içərilərinə doğru genişlənməni sülh üçün təhlükəli hesab etdi və Axalsıx və Axalkələk paşalıqlarını alıb sərhədin bu paşalıqların sərhədləri boyunca çəkilməsini uyğun bildi [20, s. 296-297].

1830-cu ildə "Erməni vilayəti"nin rəisi general-mayor V.Bebutov təyin edildi. Onun bu vəzifəyə təyin edilməsi ilə azərbaycanlı xanlara, bəylərə, ağalara qarşı güclü bir təqib kampaniyası başladı, idarəetmə metodunda dəyişiklik edildi. V.Bebutovun təkbaşına rəisliyi gücləndirildi, əvvəllər mövcud olan məşvərətçi orqanlar ləğv edildi.

Ermənilərin təkidi ilə vilayətin yeni statusunun möhkəmləndirilməsi naminə onun gerbi də qəbul olundu. Heç şübhəsiz, ermənilərin təkidi ilə qəbul olunmuş bu gerbdə həmin ərazilərin türklərə bağlılığını andıran bir əlamət yox idi. Gerbin aşağı hissəsində Ararat dağının şəkli çəkilmişdi. Onun fonunda tac və Eçmiədzin monastırı, gerbin yuxarı hissəsində isə Rusiya taxt-tacının emblemi olan ikibaşlı qartal təsvir edilmişdi. Bu gerb imperator I Nikolay tərəfindən 1833-cü il fevral ayının 27-də təsdiq olundu [13, s. 367].

İrəvan bölgəsində "Erməni vilayəti" yaradıldıqdan sonra da hələ bir müddət mahal və kəndlərin idarə strukturu xanlıq dövründə olduğu kimi saxlanıldı. Rusiya hakimiyyət orqanlarına sədaqətli olan yerli bəylər və məliklər mahalları, kənd ağsaqqalları isə kəndləri idarə edirdilər. Yalnız vergi sistemində

dəyişiklik edildi. Vergilərin yığılması, xəzinə mülklərinin qeydiyyata alınması üçün bir qərargah-zabitindən və iki yerli məmurdan ibarət xüsusi komissiya yaradıldı [11, s. 281].

1833-cü il iyunun 23-də Rusiya Dövlət Şurasının qəbul etdiyi qanuna görə "Erməni vilayəti"ndə yeni inzibati-ərazi dəyişikliyi həyata keçirildi [8, s. 374]. Qanuna görə, "Erməni vilayəti"nin adı olduğu kimi saxlanıldı, lakin onun kollegial idarə sistemi ləğv edilərək vilayət rəisinə böyük səlahiyyətlər verildi. İrəvan bölgəsi dörd dairəyə - İrəvan, Şərur, Sürməli və Sərdarabad dairələrinə bölündü. Dairələr rus hərbçiləri tərəfindən idarə olunurdu. Hər bir dairə rəisliyində biri azərbaycanlı, digəri isə erməni olmaqla iki köməkçi var idi. Bundan başqa dairələrdə vergi işlərinə baxan komissarlar və onları müşaiyət edən mirzələr də var idi. Yeni qanuna əsasən mahallar olduğu kimi qalırdı. Hər bir dairəyə bir neçə mahal düşürdü. İrəvan dairəsi Göyçə, Dərəçiçək və Qırxbulaq mahallarını; Şərur dairəsi Şərur, Vedibasar, Gərnibasar və Zəngibasar mahallarını; Sürməli dairəsi Sürməli mahalını, Dərəkənd-Parçenis dərəsini və Araz çayının sağ tərəfində yerləşən Gərnibasar və Vedibasar mahallarının qalan hissəsini; Sərdarabad mahalı isə Saatlı, Talın, Seyidli-Ağsaqqallı, Abaran, Gərni və Sərdarabad mahallarını əhatə edirdi.

Bu dövrdə İrəvan bölgəsində cəmi 10 mahal qalmışdı. Rusiya hakim dairələrinin səyi nəticəsində bəzi mahallar birləşdirilmiş, onların sayı azaldılmışdı. Saxlanılmış mahallar bunlar idi: Qırxbulaq, Dərəçiçək, Göyçə, Şərur, Dərəkənd-Parçenis, Sərdarabad (Talın mahalının bir hissəsi ona birləşdirilmişdi), Sürməli, Zəngibasar, Vadibasar (Gərnibasar mahalı ona birləşdirilmişdi), Abaran (Körpübazar mahalı ona birləşdirilmişdi) [11, s. 313-314].

1833-cü il 23 iyun qanununa görə "Erməni vilayəti"nin idarəçiliyi icraedici və məhkəmə olmaqla iki hissəyə bölündü. Vilayətin başında əvvəllər olduğu kimi yenə də hərbi general dururdu. Onun yanında üç nəfərdən ibarət şura yaradılırdı.

Yeni qanuna görə "Erməni vilayəti"nin məhkəmə sistemində də dəyişiklik edildi. Şəhər məhkəmələri yerinə yeni əyalət məhkəməsi yaradıldı. Məhkəmələr hərbi, mülki və şəriət olmaqla üç hissəyə bölündü. Mülki işlərə İrəvan şəhərində yaradılmış əyalət məhkəməsində baxılırdı. Məhkəmədə sədr, bir rus və iki yerli məmurdan ibarət iclasçılar iştirak edirdi. Məhkəmə üç mərhələdən keçirdi. Birinci mərhələdə iddia əyalət rəisinin 500 rubldan yuxarı olmayan cəriməsi ilə əvəzlənirdi. Üçüncü apellyasiya məhkəməsində Qafqazdakı rus qoşunlarının baş komandanına müraciət edilirdi. Hərbi məhkəmə (və yaxud səhra məhkəməsi) isə İrəvan komendantının sədrliyi ilə keçirilirdi.

Yerli əhalinin adət-ənənələrinə qarşı çıxaraq yeni narazılıq dalğası yaratmaq istəməyən Rusiya hakimiyyət orqanları şəriət məhkəmələrini saxlamaq məcburiyyətində qaldılar. Bu məhkəmələr əsasən dairə və kəndlərdə fəaliyyət göstərir, məhkəmə hakimi hesab edilən qazılar mübahisəli məsələləri hər iki tərəfin razılığı ilə həll edirdilər. Şəriət məhkəmələrinin üzvlərinə hökumət maaş da verirdi. Əyalətlərdə onların məvacibi 704 gümüş rubl, məhsulla 72 xalvar buğda, 5 xalvar çəltik və 4 xalvar arpa təşkil edirdi [11, s. 282].

Şəhər idarəsi də yenidən quruldu. İrəvan şəhərində ayrıca polis idarəsi yaradıldı. Onun tərkibi polis rəisi, xüsusi pristav, şəhər məhəllələrini idarə edən 4 yüzbaşı və 10 nəfər onbaşı, 1 katib, Azərbaycan dilində yazan 1 mirzə və 1 tərcüməçidən ibarət idi [11, s. 282-283].

1833-cü il 23 iyun qanunu ilə həyata keçirilən inzibati-ərazi və məhkəmə islahatının nəticələri 1840-cı il islahatına qədər qüvvədə qaldı. 1833-cü il 23 iyun islahatı İrəvan bölgəsində xanlıq dövrünün qayda-qanunlarına zərbə vursa da, onları tamamilə sıxışdırıb aradan çıxara bilmədi. Rusiya hakim dairələri isə İrəvan bölgəsində imperiyanın strateji xəttini tam həyata keçirmək üçün yeni islahat layihələri üzərində çalışır və türk-müsəlman amilini İrəvan bölgəsindən sıxışdırıb çıxarmaq və imperiyanın İran və Osmanlı dövlətləri ilə sərhəd zolağında yerləşən bu strateji bölgəni erməniləşdirməklə Azərbaycanın şimalı ilə cənubu, eyni zamanda onunla Osmanlı dövləti arasında imperiyaya sadiq xristian əhalidən ibarət bufer zonası yaratmaq bu layihələrin hamısının ana xəttini təşkil edirdi. Yerli əhalinin kəskin müqaviməti ilə qarşılaşmamaq üçün bütün bu planlar mərhələ-mərhələ, tədricən həyata keçirilirdi. İrəvan bölgəsində möhkəmlənən Rusiya imperiyası XIX əsrin 30-cu illərində bu bölgədə kilsə hakimiyyəti ilə yanaşı, dünyəvi hakimiyyəti də öz əlinə almağa çalışan erməni kilsəsinin fəaliyyətini də tam öz nəzarəti altına almağa çalışırdı. Rusiya hökumətinin erməni kilsəsinin fəaliyyətinə müdaxiləsi 1799-cu ildə Qukasın (1780-1799) ölümündən sonra Eçmiədzin patriarxı vəzifəsinə öz namizədini irəli sürməsi ilə başlamışdı. Bu başlanğıc da çox mürəkkəb və ziddiyyətli olmuşdu. İosif Arqutinski-Dolqorukov (Xovsep Arlutean, 118-ci katolikos, 1800-1801) yalnız I Pavel

tərəfindən təsdiq edilmişdi. Ondan sonra Eçmiədzin taxtı üstündə V David (119-cu katolikos, 1801-1807) və Danil (120-ci katolikos, 1807-1808) üstündə ziddiyyət yaranmışdı. Əsas siyasi hadisələrin dövründə cərəyan etdiyi Yefremi (121-ci katolikos, 1809-1830) isə Osmanlı dövləti katolikos kimi tanımaqdan imtina etmiş, onun legitimliyini İran tərəfindən Abbas Mirzə tanımışdı [15].

1826-1828-ci illər rus-İran müharibəsində, xüsusilə İrəvanın alınmasında ermənilər və Eçmiədzin ruslara böyük köməklik göstərdi. 1827-ci ilin oktyabrında İrəvanın işğalı ilə Eçmiədzin Rusiyanın ərazisinə qatıldı. 1828-1829-cu il Rus-Türk müharibəsində qələbə və Ədirnə müqaviləsinin bağlanması da Rusiyanın mövqeyini gücləndirdi. Rusiya hökuməti İran erməniləri ilə yanaşı Osmanlı ermənilərinin də yeni işğal edilmiş torpaqlara köçürülməsi ilə birgə, gələcəkdə Osmanlı ermənilərindən də siyasi məqsədləri üçün istifadə planını gündəliyə gətirdi. Belə bir şəraitdə erməni-qriqorian kilsəsinin imperiyadakı yerinin müəyyənləşdirilməsi istiqamətində addımlar atılmağa və Əsasnamə hazırlanması üçün tədbirlər görülməyə başlandı.

1836-cı il martın 11-də çar tərəfindən təsdiq edilən "Rusiyanın erməni kilsəsinin idarə edilməsi haqqında" 10 fəsil və 141 maddədən ibarət olan Əsasnamə ilə erməni ruhanilərinin siyasi hüquqları konkret çərçivəyə salındı və onlara birbaşa dövlət işlərinə qarışmaq qadağan edildi. Əsasnaməyə görə Eçmiədzin katolikosluğunun fəaliyyəti hökumətin nəzarəti altına alındı və zərurət yarandığı halda hökumət onun fəaliyyətinə müdaxilə edə bilərdi. Rusiya ərazisində yaşayan ermənilər yeparxiyada birləşməli idilər. Əsasnamədə Rusiya hüdudlarında erməni-qriqorian kilsəsinin altı yeparxiyasının yerləşdiyi bildirilirdi: 1) Naxçıvan (Novorossiyada yerləşirdi) və Bessarabiya, 2) Həştərxan, 3) İrəvan, 4) Gürcüstan, 5) Qarabağ və 6) Şirvan. Əsasnaməyə görə, Qarabağ yeparxiyası Qarabağın özündəki (Tatev mitropoliyasını öz dindarları ilə istisna etməklə. Qeyd edək ki, bu mitropoliya Qarabağdan ayrılaraq patrarxın özünün rəisi olduğu İrəvan yeparxiyasına verilmişdi), Şəki və Talış əyalətlərindəki erməni-qriqorian kilsələrini əhatə edirdi. Bu yeparxiyada onun rəisi üçün Şəkidə vikari müəyyən edilirdi. Şirvan, Quba, Bakı və Dərbənd əyalətlərindəki erməni-qriqorian kilsələri Şirvan yeparxiyasının tərkibinə daxil edilirdi [15].

Hələ XIX əsrin əvvəllərində Cənubi Qafqazın işğalı prosesində Rusiya imperatoru I Aleksandrın 1809-cu il fərmanı ilə yeni işğal edilmiş ərazilərdəki alban kilsələri erməni katolikosluğuna tabe edilmiş, 1815-ci ildə isə Alban patriarxlığı mitropolitliyə endirilmişdi. 1836-cı il 11 mart Əsasnaməsi ilə isə Qanzasar Alban kilsəsi və tarixi Albaniyanın ərazisində yerləşən digər kilsələr əsasında Eçmiədzin katolikosluğunun Qarabağ və Şamaxı yeparxiyaları yaradıldı. Göründüyü kimi, 1836-cı il 11 mart tarixli Əsasnamə ilə erməni kilsəsinin hüquqları bir qədər məhdudlaşdırılsa da, bu Əsasnamə ilə Alban kilsəsinin müstəqilliyinə də son zərbə vuruldu və Alban kilsəsinə bir rəqib kimi baxan Eçmiədzin erməni katolikosluğu Rusiyanın əli ilə onun ləğvinə nail oldu. Erməni katolikosluğu Alban kilsəsinin ləğvindən sonra onun mülklərinə yiyələndi, tarixi irsini ələ keçirdi. Lakin məsələ bununla da bitmədi, erməni katolikosluğu nail olduğu irsi Azərbaycandan qoparmaq və ona olan hüququnu təsdiq etmək üçün ölkəyə qarşı dini-ideoloji və siyasi mübarizəni genişləndirdi. Çar Rusiyası ilə birgə hərəkət edən Erməni katolikosluğu bu dövrdən başlayaraq əsas diqqətini Azərbaycan xalqına qarşı ərazi iddialarına və etnik təmizləməyə yönəltdi.

Beləliklə, Rusiya Şimali Azərbaycanın işğalı zamanı ermənilərin çar ordusuna göstərdikləri xidmət müqabilində işğal olunmuş Azərbaycan torpaqlarında – İrəvan və Naxçıvan xanlıqlarının ərazilərində "Erməni vilayəti" adlandırılan ərazi yaratdı və bu ərazini ermənilərə pay verdi. Bununla da ermənilər çar Rusiyasının himayəsi və köməyi ilə Cənubi Qafqazda özlərinə ərazi bazası yaratmış oldular. Bundan sonrakı mərhələdə Rusiya imperiyası tərəfindən İrəvan bölgəsində həyata keçirilən köçürmə siyasəti və inzibati, iqtisadi və siyasi islahatlar bu bölgədə ermənilərin sayının artmasına, onların burada güclənməsinə və bölgənin tamamilə erməniləşdirilməsinə xidmət etmişdir.

## ƏDƏBİYYAT


1. Российский Государственный Военно-Исторический Архив (РГВИА), ф. ВУА, д. 4377, л. 21
2. РГВИА, ф. 1, оп. 1, ч. 2 а, д. 3742
3. РГВИА, ф. 1, оп. 1, ч. 2 а, д. 3744
4. РГВИА, ф. 35, оп. 5, д. 2488
5. РГВИА, ф. 35, оп. 5, д. 2488 В.

6. Акты, собранные Кавказской Археографической комиссией. Т. VII, Тифлис, 1878
7. Полное собрание законов Российской империи. Собр. Второе. Т. III, 1828. СПб., 1830
8. Полное собрание законов Российской империи. Собр. Второе. Т. VIII. Отделение первое. СПб., 1834
9. Присоединение Восточьный Армении к России. (Сб. док.). Под. ред. Ц.П.Агаяна. Том 2. Ереван, Издательство Академии Наук Армянской ССР, 1978
10. Собрание актов, относящихся к обозрению истории Армянского народа. Часть I, Москва, 1933
11. Qarayev E. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVI yüzilliyin sonu-XIX yüzilliyin ortalarında). Bakı, Mütərcim, 2016
12. Məmmədov İ. Erməni kilsəsi və Türk-Azərbaycan torpaqlarını dolaşmaqda olan "Böyük Ermənistan" kabusu (Etnik təmizləmə, fiziki və mənəvi soyqırımı. Dünənin tarixi, bu günün gerçəyi). Bakı, Nurlan, 2010
13. Süleymanov M. Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən. Bakı, Hərbi nəşriyyat, 2008
14. Süleymanov M. Türkmənçay müqaviləsi. Bakı, Elm və təhsil, 2015
15. Şükürov K. Alban (Qafqaz) kilsəsinin ləğvi - 1836: Bu necə olmuşdu? / http://apa.az/xeber-az/sosial_xeberler/azerbaycanda-alban-kilsesinin-legvinden-180-il-otur-meqale.html
16. Şükürov K.K. Türkmənçay – 1828. Tarixi xronika. Bakı, Çaşıoğlu, 2006
17. Последняя война с Турцией заключаюшая в себе компанию 1828 и 1829 гг. в Европейской и Азиатской Турций и на Кавказе. Ч. II, СПб., 1850.
18. Потто В.А. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях. Т. III. СПб., 1886
19. Тунян В.Г. "Защитник Отецества" – каталикос всех армян Нерсес Аштаракеци. 1826-1857 гг. Ереван, Св. Эцмиадзин, 2007
20. Ушаков Н.И. История военных действии а Азиатской Турции в 1828 и 1829 годах. В двух частях. Част 2. СПб., Тип. Э. Прача и К, 1836
21. Шеремет В.И. Турция и Адрианопольский мир 1829 г. Москва, Из-во «Наука», 1975.

**ABSTRACT**

The matter of administration of this province is searched in the article that deals with the post occupatoin period of the Iravan Khanate said to be the ancient homeland of Azerbajan. Temporary administration (october 6.1827- march 21,1828) and "the ptovince of Armenia" (march 21, 1828-april 10, 1840) to have been established to administrate the province of Iravan, as well as the characteristic features of administration also its essence, armenization of this region with conscious purpose and other evident issues are analysed based on true facts respectively. Much more attentions are kept in consideration that during those complicated years the adminis trative power of Russia did everything together with Armenian churches grounded on mutual cooperation. The place and role of the Armenian churces in this process and their murky activity are spotlight by means of the initial archive materials and above all references inclusively.

**РЕЗЮМЕ**

В статье исследуется вопрос об управлении этой провинцией, которая является исконно Азербайджанской землей, после его захвата Россией. Раскрывается характерные особенности и основная сущность созданных для управлении Эриванской провинцией Временное Управлении (6 октябр 1827 – 21 марта 1828 годы) и Армянской областью (21 марта 1828 – 10 апрелья 1840 годы). Анализируються цели этих форм управления, которые были созданы для служение процесса «арменизации» этого региона. Уделено внимание на совместную деятельность Российских органов управления с армянской церковью в деле управлении и «арменизации» региона. Все эти вопросы освещены на основе первичных архивных документов и исторической литературы.

NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *AMEA-nın müxbir üzvü Z.Şahverdiyev*

**ZENFİRA SEYİDOVA**

***UOT: 94***

# EL SƏNƏTİ – NÜMUNƏLƏRİMİZİN TƏBLİĞ OLUNDUGU MUZEY

***Açar sözlər**: Xalça, ekspozisiya, muzey, fond, sərvət, eksponat, kolleksiya*

***Key words**: Carpets, exposition, museum, wcalth, fund, exhibits, collection*

***Ключевые слова**: Ковров, экспозиции, музеум, фонды, богатства, зкспанаты, коллекции*

Zəngin fantaziyaya, minilliklər ərzində aşılanmış incə zövqə malik, orjinal sənətkarlığı ilə incəsənət tarixində xüsusi yer tutan Azərbaycan xalqı əsrlər boyu bir çox qiymətli nümunələr yaratmışdır. Hələ qədim zamanlardan xalqımız müxtəlif ağac növləri, daş və gildən düzəldilən sənət nümunələrinin, xalça və zərif naxışlı parçaların hazırlanma sirrini, işləmə üsullarının nəsildən-nəsilə yaşadaraq bu günümüzə qədər qoruyub saxlaya bilmişdir.

Bir çox ev əşyalarında, parça və xalçalarda, quramalarda, döymə mis qablarda, zərgərlik nümunələrində və s. şeylərdə Azərbaycanın el ustalarının parlaq sənətkarlığı yaşayır. Xalqın əsrlər boyu yaratdığı bu nümunələr itib getmir, dəbdən düşmür, əksinə illər keçdikcə daha da təkmilləşib yeni-yeni formalar alır. Saysız-hesabsız el sənəti örnəkləri xalqın həmişə istək və arzularını, ustalığını özündə cəmləşdirmiş, el-obanın neçə oğul və qızlarının sənətkarlığını sonrakı nəsillərə çatdıra bilmişdir. Dünyanın və ölkəmizin şöhrətli muzeylərində nümayiş etdirilən Azərbaycan dekorativ sənəti örnəkləri vasitəsilə sözün əsl mənasında xalqın tarixini izləmək, adət-ənənəsi ilə yaxından tanış olmaq mümkündür. Bir-birindən baxımlı xalça və palazlarda, təkəlduz tikmə nümunələrində , toxuma və basma parçalarda, zərgərlik şeylərində, metaldan, dəridən və daşdan hazırlanmış əşyalardakı bənzərsiz naxışlar, heyrətamiz rəng duyumu, kompozisiya zənginliyi dünənimizdən, bugünümüzdən sanki söz açıb danışır, milli mədəniyyətimizin ululuğunu göstərir. Tamaşaçını görmədiyi və eşitmədiyi nağıla bənzər sənət aləminə aparır. Xalqımızın adət-ənənələrindən, qədim və müasir el sənəti örnəklərindən söhbət açan Naxçıvan Dövlət Xalça Muzeyində təşkil edilmiş ekspozisiyalar muzeyə gələn tamaşaçıların həmişə diqqət mərkəzindədir. Söhbətimiz də həmin muzey barəsindədir.

Azərbaycan xalçalarını təbliğ etmək, onların tarixinə bir daha nəzər salmaq, qaranlıq məqamları araşdırmaq, milli mədəniyyətimiz olan xalça nümunələrini toplamaq, qorumaq, nümayiş etdirmək məqsədilə 1998-ci ildə Naxçıvan Dövlət Xalça Muzeyi yaradılmışdır.

Xalçaların öyrənilməsi, mühafizəsi və sərgilənməsi məqsədilə yaradılmış bu muzey Naxçıvan xalçaçılığının növlərini, texnikasını, materialını nümayiş etdirən ən əhəmiyyətli bir muzeydir.

“Azərbaycan xalça sənətinin yaranması və inkişafı milli mədəniyyətimizin ayrılmaz tərkib hissəsidir. Azərbaycan xalça sənəti tunc dövründən başlayaraq inkişaf etmiş, daha da zənginləşərək bu günümüzə gəlib çatmışdır. Ehtimal ki, bu sənətin yaşı elə xalqımızın yaşına bərabərdir.”(1,s-28) Doğma torpağımızın rəngarəng boyaqların hazırlanmasına imkan verən zəngin bitki örtüyü və zərif yunu xalça sənətinin yaranmasına və inkişafına şərait yaratmışdır.

Naxçıvan Dövlət Xalça muzeyində saxlanan çoxsaylı xovlu və xovsuz xalçalar, xalça məmulatı, bədii tikmə, bədii metal, saxsı və şüşə məmulatından ibarət 3 minə yaxın muzey eksponatları böyük bədii əhəmiyyət kəsb edir.

Xalça sənəti Azərbaycan xalqının milli möhürüdür, onun sənət rəmzidir. Naxçıvan Dövlət Xalça muzeyində qorunub saxlanılan xalçalar da öz gözəl rəngləri ilə, rəmzi məna daşıyan naxışları ilə, real təsvirləri ilə diqqəti cəlb edir.

Muzeyin ekspozisiyasında xalçaçılığın inkişaf yolu, xronoloji formada öz əksini tapmışdır. Daha doğrusu keçəcilik, həsirçilik, palazçılıq növləri və digər xovlu və xovsuz xalçalar ardıcıllıqla burada əks olunur.

Keçə - Kəngərli rayon Qıvraq qəsəbəsindən gətirilib. Qədimdən keçələrdən alaçıq və dəyələrin örtülməsində, eyni zamanda kişi və qadın geyimlərində istifadə edirdilər. Keçəni su vasitəsilə döyərək

əmələ gətirirdilər. Keçələrdən daha çox istilik yaratmaq məqsədilə istifadə edirdilər. Keçələr yayda sərinlik, qışda isə istilik yaratmaq məqsədilə istifadə olunurdu.

“Naxçıvan xalçaçılıq məktəbində toxunan “Palaz”, “Kilim”, “Zili” xovsuz xalçalarını bəzəyən dolanbac, düz xətt, romb, qarmaqlı və başqa həndəsi formalı elementlər “kilimgülü”, ağac, əfsanəvi quş və heyvan motivləri fərdi təsvir üslubları ilə seçilirlər. Bu naxışlar bütövlükdə əbədiyyatla bağlı hisslər, duyğular dünyasının xalılar üzərində bədii inikasıdır”(4,s-38).

“Ekspozisiyada nümayiş etdirilən “Dəvələr” adlı Şəddə də çox maraqlıdır. Üzərində dəvə karvanı, qabaqda isə sarvan təsvir olunubdur. Dəvə bolluq, bərəkət rəmzi sayılırdı.”(1,s-72) Dəvə karvanı isə əbədi dövr edən həyatın göstəricisi idi. Bundan əlavə dəvə karvanları Naxçıvanın qədimdən böyük ipək yolu üzərində yerləşdiyini və qədim ticarət şəhəri olduğunun göstəricisi idi. Beləki, qədimdən burdan alınan xalçalar hal-hazırda Avropanın bir çox muzeyini bəzəyir.

“Muzeyin ekspozisiyası bir çox xalça məmulatları ilə də zənginləşib. Məlumdur ki, Azərbaycan xalçaçılıq tarixinin kökləri lap qədimlərə gedib çıxır. Əldə edilən xalçalar içərisində Naxçıvan zonasına məxsus olan XIX əsr məfrəci xüsusi maraq doğurur. Xalçaçılığın bu növü yataq ləvazimatları yığmaq üçün istifadə olunur”(3,s-48). Bu toxumanın bütün perimetri boyunca üç enli haşiyə gedir. Haşiyələr bir-birindən müxtəlif xarakterli kiçik həndəsi ornamentlər salınmış dörd ensiz zolaqla ayrılır. Məfrəcin üzərində müxtəlif rəngdə kiçik romblar təsvirlənib. Mərkəzi hissədə enli bir haşiyə keçir. Haşiyədə təsvirləri bərabər olmayan altıbucaqlar toxunub. Bu altıbucaqlar hər bucağın ortasından zolaqla bir-birinə birləşdirilib, aralarında isə pilləli yarımromblar salınıb. Ümumiyyətlə çox gözəl tapılmış bu elementlər, habelə bütün kompozisiya əsl xalq sənətkarı-rəssam, xalça ustası tərəfindən yüksək zövqlə düşünülüb icra olunmuşdur.

Əldə edilən nümunələr içərisində namaz vaxtı istifadə olunan kiçik xalça “Canamaz” da diqqəti cəlb edir. XX əsrdə hazırlanmış, pambıqdan toxunmuş bu parça basma üsulu ilə bəzədilmişdir. Xalçadakı stilizə olunmuş güllər, yarpaqlar və saplaqlar çox gözəl tərzdə bir-birini tamamlayıb vahid ritm yaradır.

Bu ornamentlər “Canamaz”ı təkcə bəzəmir, həm də kompozisiya baxımından onun formasını tamamlayır.

“Naxışsız xalçanı təsvir etmək mümkün deyil. Xalçalardakı hər bir naxışlar bir məzmunu, bir fikri tamamlayır. Azərbaycan xalçaçılıq sənətinin rəng və naxışları müxtəlif olduğu kimi, mövzular da zəngin və çoxmənalıdır. Xalçalar Azərbaycan xalqının tarixinin, mədəniyyətinin öyrənilməsi sahəsində əvəzolunmaz mənbədir” (2, s.58).

XVIII əsrə aid Şərur rayon Aşağı Aralıq kəndində toxunmuş “Ələmli” xalçasındakı naxışlar öz gözəlliyi ilə diqqəti cəlb edir. Xalçanın sağında və solunda Dünya ağacı verilmiş, yuxarı hissəsində isə şiəliyi bildirən qara ələmlər toxunmuşdur.

Xalçadakı Dünya ağacı türkdilli xalqlarda mifoloji inamlar sistemində verilmişdir. Yəni Dünya ağacı ilkin hakimiyyətin, sonralar dövlətin özünü hiss etdirməsi, eninə, uzununa böyüməsi və inkişafı ilə bağlıdır. Deməli, türkdilli xalqlar göyə, yüksəkliyə, kainata tapınmış, eninə ətraf mühitə, təbiətə inam oğuzlarda başlıca rol oynamışdı.

Xalçalarda insan portretini yaratmaq, onu incə naxışlarla işləmək, xalçaçı qadınlarımızın məharətindən xəbər verir. Bu baxımdan “Abbas Mirzə” adlı sujetli xalça muzeyin ən dəyərli xalçalarındandır. XVIII-XIX əsrlərə aid olan bu xalçanın Naxçıvanın tarixi üçün çox böyük önəmi vardır. Belə ki, bu portret-xalça vaxtı ilə Naxçıvanda möhtəşəm bir qala olan “Abbasabad” qalasının (XVIII-XIX əsrlərə aid) mühafizəçisi, vəliəhd Abbas Mirzənin şərəfinə toxunmuşdur. Xalça öz orjinallığına görə demək olar ki, təkrarsızdır. Miniatür janr formasında işlənmiş bu xalça çox maraqlı bir texnoloji qaydada toxunmuşdur. Abbas Mirzə İran şahı Fətəli şahın oğlu, Abbasabad qalasının mühafizi Azərbaycanın vəliəhdi olmuşdur. Xalçanın fonunda atın üstündə oturmuş vəliəhd Abbas Mirzənin portreti ustalıqla toxunmuş və xalçanın yuxarı hissəsində bu şer parçası verilmişdir.

Şükür olsun Allaha
Ölmüş olan canlar
Təkrar cana gəldi
Əbədi müddət vəliəhd
Azərbaycana gəldi

Burada sujet xalçanın toxunulmaz yelan hissəsini yarmış və çərçivədən kənara çıxmışdır.

Xalçalarımız ta qədim zamanlardan başlamış bu günə qədər həyat və məişətimizdə sırf əməli əhəmiyyət kəsb etməklə yanaşı böyük bədii ideyaya da malik olmuşdur. Xalçalarımızın bədii xüsusiyyətləri və məzmunu, əsasən onda tətbiq olunan ornament və rəng vasitəsilə öz əksini tapmışdır.

Mifologiyamızda elə inamlar, obrazlar vardır ki, onların öyrənilməsi, xalqa çatdırılması daha vacibdir. Oda, qurda, qoça, quşa inamlar xalçalarda əsas yer tutur. Belə xalçalardan biri də bizim mifologiyamızla bağlı "Boz qurd" xalçasıdır. 1800-cü ilə aid olan Şahbuz rayon Kükü kəndində toxunmuş xalçanın üzərində qurd təsvirləri toxunmuşdur. Xalçanın sağında və solunda qurd, ortasında isə insan təsviri verilib. Qurd burada mərdlik, igidlik, əyilməzlik rəmzi olmaqla yanaşı, həmçinin insanların qoruyucusu və yol göstəricisi kimi də təsvir edilmişdir.

Ovçuluq ayinlərinin simvolikasını əks etdirən, ov səhnələri ilə zəngin olan xovlu və xovsuz xalçalar, xalça məmulatları Azərbaycan dekorativ sənətində müxtəlif üslub istiqamətlərindən keçərək, özünün ənənəvi xüsusiyyətlərini günümüzə qədər qoruyub saxlamış ən davamlı mövzulardan biridir.

İnsanların ilkin məşğuliyyəti ovçuluq, heyvandarlıq, əkinçilik və eləcə də başqa peşələr olmuşdur. XVIII əsrə aid olan Şahbuz rayonunun Keçili kəndində toxunmuş "Ovçuluq" xalçası-ovçuluq sujetinə həsr olunub, Azərbaycanın flora və faunasının, ovçuluq ənənələrinin təkamülünü, insanların onlara münasibətini əks etdirir. Xalçada oğlanın əlində ovçuluq alətinin olması, keçi şəkillərinin verilməsi incə naxışlarla təsvir olunmuşdur.

Naxçıvan Dövlət Xalça muzeyində qorunub saxlanan hər bir xalça Azərbaycanın mədəni-irsinin, milli ənənələrinin, bütövlükdə ümumbəşəri mənəvi dəyərlərimizin davamı kimi çox əhəmiyyətlidir. Bu xalçalar Azərbaycanımızı dünyada tanıdan elçilər, milli-mədəniyyətimizi təbliğ edən daşıyıcılardır.

Xalçaların yüksək keyfiyyəti, incə ilmələri, zəngin Azərbaycan çeşniləri əsasında toxunan xalçalar Azərbaycanın hüdudlarından kənarda da tanınır. Respublikaya gələn mötəbər qonaqlar muzeyin qonaqları olublar. Qonaqlara xalqımızın qədim milli-sənəti olan xalçaçılıq haqqında ətraflı məlumat verilib və bildirilib ki, Azərbaycan xalçaları indi də dünyanın bir çox muzeylərinin ən nadir eksponatları sırasındadır.

Qonaqlar muzeydə olarkən xalçanın inkişaf yollarını izləyib, ekspozisiyada nümayiş olunan qədim xalçalarımızın çeşniləri, naxışları və s. tanış olurlar. Qonaqlar öz təəssüratlarını rəy kitabında belə yazıblar.

"Mən fəxr edirəm ki, Naxçıvanda belə gözəl xalça muzeyi var. Toplanmış xalçalar Azərbaycan xalçaçılıq sənətinin tarixindən danışır. Sağ olsun əcdadlarımız ki, bizə xalçaçılıq sənətini bəxş ediblər

Sağ olsunlar bu gözəl kolleksiyanı yaradanlar".

*19.11.2011*
*Tahir Salahov*
*Azərbaycan Xalq Rəssamı*

Bu gün ölkədə ictimai-siyasi sabitliyin bərqərar olduğu, bütün sahələrdə tərəqqi və yüksəlişin yeni mərhələyə qədəm qoyduğu bir zamanda dövlətimiz tərəfindən mədəniyyətə, xalq sənətinə göstərilən qayğı millətin gələcəyinə qayğı kimi qiymətləndirilir. Bu istiqamətdə Naxçıvan Dövlət Xalça muzeyinin həyata keçirdiyi fəaliyyəti hüdudsuzdur.

Muzeydə təkcə xalçaları qoruyub, nümayiş etdirmək deyil, eyni zamanda xalçalarımızın təbliği məqsədilə el şənliklərində, müxtəlif tədbirlərdə xalçaların sərgisinin təşkili, bukletlərin buraxılması və s. tədbirlər həyata keçirilir.

Muzey həm də minilliklərin yadigar qoyduğu xalça sənəti ilə bağlı varislik ənənələrimizi davam etdirən və müasir gəncləri bu sənətə yiyələnməyə yönəldən körpüdür. Bu ocağın istisində öz həsas dövrünü yaşayan yeni nəsillər formalaşacaqdır.

Muzeydə azyaşlı ziyarətçilərə, uşaqlara xüsusu münasibət, sevgi vardır. Burda onlara milli dəyərlərimiz, xalçaçılıqda istifadə edilən təbii boyalar, rəng duyumunun özəllikləri, naxışların təsviri və mənası, toxunma üsulları haqqında bilgilər vermək bir ənənəyə çevrilmişdir. Toxuculuqla davamlı maraqlanan, asudə vaxtlarını burada səmərəli keçirməyə can atan gənclər isə artıq çoxdan muzeyin dostlarına çevrilmişlər. Burda uşaqlar özlərini möcüzələr aləmində hiss edir, öz yaradıcılıq qabiliyyətlərini aşkar edirlər.

Muzey istedadlı uşaqların, böyüməkdə olan gənc nəslin yaradıcılıq potensialının inkişaf etdirilməsində, onların gələcəkdə səmərəli fəaliyyət sahələri seçmələrində böyük iş aparır. Bu

məqsədlə muzeydə toxuculuq sənətini öyrənmək və xalçaçılığın müəyyən növlərinin toxunuşu ilə əyani surətdə tanış olmaq üçün muzeydə ayrıca xalça toxunuşu sexi də fəaliyyət göstərir.

Naxçıvan Dövlət Xalça muzeyində Azərbaycan xalça sənəti ənənələrinin təbliğində, ümumbəşəri dəyər kimi əbədi yaşamasında və daha da inkişaf etdirilməsində öz xidmətlərini əsirgəmir.

## ƏDƏBİYYAT


1. Muradov V. Azərbaycan xalçaları Naxçıvan qrupu. Bakı, 2012
2. Əfəndiyev R. Azərbaycan xalq sənəti. Bakı, 1971
3. Dünyamalıyeva S. Ornament (tarixi, nəzəriyyəsi, qurulması) Bakı, 2014
4. Kərimov L. Azərbaycan xalçası, I cild, Bakı, 1961


## ABSTRACT


**Zanfira Sayidova**

**Museum, which promotes national art**

A big number of fleecy and flat carpets, carpeting equipment, embroidery, art metal, about 3000 museum exhibits consisting of pottery and glass that are preserved in Nakhchivan State Carpet Museum are of a great art significance.

Art of carpentry is a kind of national seal and art symbol of Azerbaijan nation. Carpets preserved in Nakhchivan State Carpet Museum are also attractive with their meaningful ornaments and real descriptions.

In the exposition of museum the development phase of carpentry has been reflected in a chronological sequence. Actually, felting, matting, rug types and other fleecy and flat carpets are reflected consequently here. To promote Azerbaijan carpets, to look through its history, to analyze dark moments, to collect, preserve, exhibit carpets which are a part of our culture Nakhchivan State Carpet Museum was established in 1998.

The museum that was established in purpose of research, preserve and exhibit carpets is a museum which reflects carpentry types, techniques and materials in Nakhchivan.


## РЕЗЮМЕ


**Зенфира Сейидова**

**Музей, пропогандирующий народные искусства**

Около трех тысяч экспонатов сохраняющиеся в Нахчыванском Государственном Музее Ковров, многочисленные ковры с ворсинками и без ворсинок, ковровые изделия, натуральные шитья, натуральные металлы, керамические и стеклянные изделия имеют большое художественное значение. Искусство ковроткачества национальная печать, символ искусства азербайджанского народа. Сохранившиеся в Нахчыванском Государственном Музее Ковров ковры привлекают внимание своими раскрасками, носящее символическое значение узорами, реальными изображениями.

В экспозициях музея в хронологической форме нашли отражение пути развития ковроткачества. Точнее здесь выявились виды разминания, циновства, паласов и некоторые последовательности видов ковров с ворсинками и без ворсинок. С целью агитации азербайджанских ковров, изучения его истории, анализа некоторых непонятных сторон, а также с целью охраны, демонстрации образца ковров как национальной культуры в 1998 году был создан Нахчыванский Государственный Музей Ковров. Созданный этот музей с целью изучения, защиты, демонстрации ковров очень значимый, ценный Музей в демонстрации видов, техники, материалов Нахчыванского ковроткачества.

Создание и развитие азербайджанского искусства ковроткачества неотъемлемая часть национальной культуры.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *AMEA-nın müxbir üzvü Z.Şahverdiyev*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2016, № 5(79)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2016, № 5 (79)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2016, № 5 (79)**

**ELNUR KƏLBİZADƏ**
*AMEA Naxçıvan Bölməsi*
*caspianman@mail.ru*

***UOT: 94 (479.242)***

# NAXÇIVANIN ƏRAZİSİ VƏ SƏRHƏDLƏRİ (XVIII ƏSRİN BİRİNCİ YARISINDA)

***Açar sözlər:*** *tarixi coğrafiya, inzibati ərazi quruluşu, Naxçıvan, Səfəvilər, Osmanlı, Əfşarlar*
***Keywords:*** *historical geography, administrative and territorial structure, Nakhchivan, Safavid, Ottoman, Afshar*
***Ключевые слова:*** *историческая география, административно-территориальня структура, Нахчыван, Сефевиды, Османская империя, правительство Афшаридов*

XVIII əsrdə Azərbaycan ərazisi uğrunda mübarizənin güclənməsi, Azərbaycanın tarixi coğrafiyasında ciddi dəyişikliklərlə nəticələnmişdir. Əsrin birinci yarısında Naxçıvanın idarəçiliyi 4 dəfə dəyişilmişdir. Əvvəlcə Səfəvilər, sonra Osmanlı idarəçiliyi, daha sonra Nadir şah imperiyası tərkibinə daxil olan Naxçıvanda əsrin birinci yarısının sonlarına yaxın müstəqil regional idarəçilik ənənələrinin davamı olan Naxçıvan xanlığı yaranmışdır.

XVIII əsrin ilk iki dekadasında Naxçıvan Səfəvilər dövlətinin tərkibində olmuşdur. Bu dövrdə hakimiyyətdə olmuş Şah Sultan Hüseyn Səfəvinin hakimiyyəti dövrü (1694-1722) Qızılbaş dövləti üçün tənəzzül dövrü kimi xarakterizə edilə bilər.

Bəzi müəlliflərin verdiyi məlumatlar ehtimal etməyimizə imkan verir ki, artıq bu dövrdə Azərbaycan ərazisindəki 4 bəylərbəylik mərkəzi Təbriz olan vahid Azərbaycan bəylərbəyliyində birləşdirilmişdi. Məsələn, polyak səyyahı J.T.Kruşinski Səfəvilərin 12 vilayəti olduğunu yazmış və 12-ci vilayət kimi "ərazisinə İrəvan, Şirvan və Gürcüstan da daxil olan Azərbaycan" vilayətinin adını çəkmişdir [1, s.19]. Dövrün digər bir müəllifi Jozef Tiflisi də "Vaqiati-Mir Veys və Şah Hüseyn" əsərində bu dövrdə Təbriz mərkəz olmaqla bəylərbəyliyin yaradılmasından bəhs etmişdir [2, s. 18]. Ehtimal etmək olar ki, bəylərbəyliklərin vahid Azərbaycan vilayətində birləşdirilməsi prosesi XVIII əsrin 20-ci illərinin ortalarından başlamışdır. Çünki, 1717-ci ilə aid sənədlərdə Naxçıvan ölkəsi ərazisindəki mülkiyyət məsələləri ilə bağlı sakinlərin Çuxursəd bəylərbəyliyinin ali müvəkkilliyinə müraciət etdiyi göstərilmişdir [3, s.23]. Aydın olur ki, XVIII əsrin ilk iki dekadası ərzində Naxçıvan Səfəvilər dövlətinin Çuxursəd bəylərbəyliyinin tərkibində olmuş, ikinci dekadanın sonlarına yaxın vahid Azərbaycan vilayətinin tərkibinə qatılmışdır.

Mənbələrdə Naxçıvan ərazisində Naxçıvan, Azadciran, Dərələyəz [3, s. 24], Məvaziyi-Xatın, Mülki-Arslan, Qarabağ, Dərəşam, Şahbuz, Şərur, Əlincə, Sisyan nahiyələrinin adı çəkilir. Kartoqrafik hesablamalarımız göstərir ki, bu dövrdə Naxçıvan ölkəsinin ərazisi təqribən 7240 $km^2$-ə bərabər olmuşdur**.**

Naxçıvan şəhəri bölgənin mərkəzi və ən böyük şəhəri idi. Bu dövrdə bölgədəki şəhərlərdən yalnız Ordubad Naxçıvan şəhəri ilə birlikdə şəhər kimi varlığını qoruyub saxlaya bilmişdir. Böyük bir tarixi dövr ərzində Naxçıvan ölkəsinin əsas şəhərlərindən olmuş Kiran tamamilə tənəzzül edərək yalnız kənd kimi varlığını qoruyub saxlamışdı. 1717-ci ilə aid bir Kəngərli arxeoqrafik sənədində məhz Azadciran mahalının Ciran kəndinin adı çəkilir [3, s.23].

Əylis bu dövrdə müvəqqəti də olsa tənəzzül dövrünü yaşamaqda idi. Şah Sultan Hüseynin dövründə Əylis şəhəri o qədər tənəzzül etmişdi ki, burada olmuş Jozef Tiflisli Əylisdən "Əklis adlı kənd" kimi bəhs etmişdir [2, s.56].

1724-cü ildən Naxçıvanın ərazisində II Osmanlı idarəçiliyi dövrü başlamışdır. Osmanlılar bölgənin inzibati idarəçiliyini yenidən Osmanlı imperiyasının inzibati ərazi quruluşuna

uyğunlaşdırmağa çalışmışlar. Bu dövrdə Azərbaycanın əraziləri vilayətlərə və əyalətlərə, yaxud bəylərbəylik və sancaqlıqlara bölünmüşdü [4, s. 23].

1727-ci ilə aid "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Naxçıvan sancağına aid olan nahiyələr sırasında 14 nahiyənin - Naxçıvan, Əlincə, Sair-Məvazi, Dərəşahbuz, Mülki-Arslan, Məvaziyi-Xatın, Qarabağ, Qışlağat, Dərəşam, Azadciran, Şorlut, Dərənürgüt, Sisyan, Dərələyəz nahiyyələrininin adı çəkilmişdir. 1728-ci ilə aid "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə də Naxçıvan sancağının tərkibində məhz bu nahiyələrin adı qeyd edilmişdir [5, s.9].

I Osmanlı idarəçiliyi dövrü ilə (1587-1603) müqayisə etdiyimiz zaman görürük ki, XVIII əsrdə Naxçıvan sancağının tərkibində Ağcaqala, Bazarçayı, Şərur, Zar, Zəbil, Culfa adlı nahiyyələr olmamışdır. Əvəzində isə bu dövrdə sancaqlığın inzibati ərazi bölgüsündə Sair-Məvazi, Qışlağat və Dərələyəz nahiyələrinin adına rast gəlirik. Apardığımız müqayisələr göstərir ki, II Osmanlı idarəçiliyinin ilk dövründə Naxçıvan sancağı ilə yanaşı Ordubad sancağı da yaradılmış və bu sancaqlıq yalnız iki il – 1724-1726-cı illərdə mövcud olmuşdur.

Bu dövrdə Zar, Zəbil, Şərur nahiyələri Naxçıvan sancaqlığının tərkibindən çıxarılaraq İrəvan sancağına verilmişdir. Eyni zamanda Culfa, Bazarçayı və Ağcaqala nahiyələri ləğv edilmiş, Sair-Məvazi, Qışlağat və Dərələyəz adlı yeni nahiyələr yaradılmışdır [4, s.11]. Apardığımız kartoqrafik hesablamalara əsasən deyə bilərik ki, II Osmanlı idarəçiliyi dövründə Naxçıvan sancağının ərazisi 8077 $km^2$-dən artıq idi. Dövrün mənbələrində Naxçıvan şəhər kimi, Ordubad qəsəbə kimi, Culfa, Əylis, Kırna, Qarabağlar və Astabad kənd kimi xatırlanmışdır. XIV əsrdə alman səyyahı İ.Şiltberqerin şəhər və ya qəsəbə kimi xatırladığı Kırnanın adı "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Kirnə kəndi kimi qeyd edilmişdir [4, s. 95]. Qarabağlar bu dövrün Osmanlı mənbələrində Qarabağ kəndi kimi qeydə alınmışdır.

XIV əsrdə bölgənin əsas şəhərlərindən olmuş Astabad şəhəri haqqında 1727-ci ilə aid "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Yəzdabad kəndi kimi bəhs edilir. Buranın keçmişdə şəhər olduğunu sübut edən amil 1727-ci ilə aid olan "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə bu kəndin əhalisinin şəhərlərdə olduğu kimi məhəllələr üzrə təsvirinin verilməsidir [4, s. 157-159]. Burada şəhərlərə aid digər bir xüsusiyyət isə müxtəlif sexlərin (dəyirman, bəzirxana, boyaqxana və şamxana) fəaliyyət göstərməsi idi.

1727-ci ilə aid olan "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Ordubad qəsəbə kimi xatırlanmışdır. XVII əsr coğrafiyaşünası və təzkirəçisi Məhəmməd Mufid Yəzdi də Ordubadı qəsəbə kimi xatırlamışdır [6, s.19].

Məlumdur ki, 1736-cı ildə Nadir şah hakimiyyətə gəldikdən sonra dövlətin inzibati quruluşunda ciddi dəyişikliklər edilmiş və son Səfəvilər dövründə həyata keçirilməsi planlaşdırılan bir sıra inzibati islahatlar reallaşdırılmışdır. Əvvəllər, Naxçıvanın tabeliyində olduğu Çuxursəd bəylərbəyliyi də daxil olmaqla, Azərbaycan ərazisindəki 4 bəylərbəyliyin ləğv edilərək vahid Azərbaycan bəylərbəyliyinin tərkibində birləşdirilməsi prosesi məhz Nadir şahın hakimiyyəti dövründə başa çatdırılmışdır.

Bəylərbəyliklərin birləşdirilməsindən bəhs edən əksər müəlliflər, Nadir şahın bəylərbəylikləri ləğv etdikdən sonra bütün bəylərbəylikləri Azərbaycan bəylərbəyliyi tərkibində birləşdirdiyini yazırlar. Bu barədə müəlliflər Nadir şahın tacqoyma mərasimində iştirak etmiş katalikos Abram Kreatsidən iqtibas gətirirlər: "Nadir şah öz qardaşını rəis və sərdar, yəni Azərbaycan sərəskəri təyin etdi. Naxçıvanı, Şirvanı, bütün Ararat vilayətini, Gürcüstanın idarəsini qardaşına tapşırmaqla onu bəylərbəyi kimi bütün digər xanların başçısı təyin etdi" [7, s.27]. Apardığımız müqayisəli təhlillər isə sübut edir ki, birləşdirmə prosesi mərhələli şəkildə həyata keçirilmişdir. Birinci mərhələdə Gəncə, Tiflis, Qarabağ, İrəvan, Naxçıvan və Şirvan əraziləri mərkəzi Gəncə olan vahid vilayətdə birləşdirilmiş, ikinci mərhələdə isə tam mərkəzləşdirmə prosesi başa çatdırılmış və mərkəzi Təbriz olan Azərbaycan vilayəti yaradılmışdır. XIX əsr tarixçisi Mir Mehdi Xəzaninin "Kitabi-tarixi-Qarabağ" əsərindən gətirdiyimiz aşağıdakı sitat da bunu sübut edir: "Bəd öz an ki, Nadir şah Gəncə və Tiflis və Qarabağ və İrəvan və Naxçıvan və Şirvanatı Rum əhlinin qanunlarını təsəllüblərindən çıxarıb öz təsərrüfünə götürdü. Bir qəlil müddətdə bu vilayətlər Gəncə hakiminə baxdılar. Amma sonra Azərbaycan bəylərbəyisinə tabe oldular" [48 s.118].

Əfşar idarəçiliyi dövründə Naxçıvan mənbələrdə iki cür "ölkə" və "tümən" kimi qeyd edilmişdir [3, s. 6]. M.Xəzaninin əsərində verdiyi məlumatlar sübut edir ki, Azərbaycan bəylərbəyliyi yaradılarkən

Naxçıvan ölkəsi Çuxursədə tabe olan bir ərazi kimi deyil, müstəqil bir hakimlik kimi bu vahidə daxil edilmişdir. Təsadüfi deyil ki¸ dövrün salnaməçilərindən biri A.Kreatsi də Nadir şah Əfşarın dövründə İrəvan əyalətinin mahallarından bəhs edərkən yalnız 9 mahalın – İrəvan, Körpü, Qırxbulaq, Şuragel, İğdır, Gərni, Abaran, Şirakavan və Göyçənin adını çəkmişdir [9, s. 204]. Deməli, bəhs olunan dövrdə Naxçıvan ayrıca bir hakimlik olmuşdur. Əfşarların idarəçiliyi dövründə Naxçıvan, Ordubad və Qafan mahalları ilə yanaşı daha iki mahal Sisyan və Tatef də Naxçıvan ölkəsinin tabeliyində olmuşdur. Mirzə Yusif Qarabağinin “Tarixi-safi” əsərində verdiyi məlumatlardan aydın olur ki, bu mahallar yalnız XVIII əsrin 50-ci illərində Qarabağ xanlığına qatılmışdır [8, s. 19].

Beləliklə, apardığımız təhlil və ümumiləşdirmələrə əsasən söyləyə bilərik ki, Əfşarların idarəçiliyi dövründə Naxçıvan ölkəsinin tərkibinə 11 mahal daxil olmuşdur. Bunlar Naxçıvan, Ordubad, Mehri, Qapan, Sisyan, Tatef, Şərur, Dərələyəz, Xok (Qarabağ), Əlincə, Sədərək mahalları idi. Bu sərhədlər çərçivəsində götürdükdə, Naxçıvan ölkəsinin ərazisi qeyd olunan dövrdə 12 min 389 $km^2$-ə yaxın olmuşdur.

Mənbələrdə Əfşar idarəçiliyi dövründə Naxçıvan ölkəsinin ərazisində üç əsas şəhərin – Naxçıvan, Ordubad və Əylisin adı xatırlanır. Lakin təəssüf ki, Nadir şah bəzən ən qəddar və dağıdıcı tədbirlər həyata keçirməyə məcbur olmuşdur. Şəksiz ki, bu baxımdan Əfşarlar dövrünü Naxçıvan şəhərinin tarixində ən böyük tənəzzül dövrlərindən biri kimi xarakterizə edə bilərik. Rusiya Dövlət Qədim Sənədlər (Aktlar) Arxivində 1406 saylı fondda saxlanılan A.P.Yermolovun qeydlərindən bu fikirləri oxuyuruq: “Tayfadaxili müharibələr və Nadir şahın ordusunun yürüşləri bu zavallı torpaqları viranəyə çevirib, bu qəsbkarın hər bir addımı xalqına fəlakət gətirib. ...“Nəqşicahan” artıq öz qədim möhtəşəmliyini xatırlatmır, zira burada xarabalıqlardan və gözəl bağlardan savayı heç nə görünmür” [10, s. 255, 258].

Bəhs etdiyimiz dövrdə bölgənin əsas şəhərlərindən biri Ordubad şəhəri idi. AMEA-nın müxbir üzvü F.Səfərlinin fikrincə Ordubad şəhərində qeydə alınan və Nadir şahın Hindistana yürüşü xatırlanan bir epiqrafik sənəd – kitabə Naxçıvan bölgəsinin Əfşarlar dövlətinin tərkibində olmasını təsdiq edən çox mühüm qaynaqdır [11, s. 318].

Bu dövrdə bölgənin əsas şəhərlərindən biri də Əylis şəhəri olmuşdur. Şopen, Sısoyev və digər müəlliflərin verdiyi məlumatlardan aydın olur ki, XVIII əsrin 40-50-ci illərində Əylisdə 2000 ailə yaşamışdır [12, s. 159]. Tarixçi M.Quliyev apardığı tədqiqatların nəticəsi olaraq göstərmişdir ki, hətta xanlığın yarandığı dövrə qədər Naxçıvan və Ordubadla yanaşı Əylis də şəhər kimi varlığını qorumuş, yalnız 1752-ci ildə Azad xan Əfqanlının hücumu nəticəsində dağıdılmışdır [13, s.3]. Tarixçi S.Budaqova da Əylisin XVIII əsrin ortalarına qədər şəhər kimi varlığını qoruyub saxladığını, 1751-1752-ci illərdə Azərbaycanın cənub vilayətlərində hakimiyyət uğrunda mübarizə aparan Azad xanın Kartli-Kaxetiya çarlığına hücum edərkən yolüstü Əylis şəhərini mühasirəyə alaraq yerlə yeksan etdiyini yazmışdır [14, s.59] Azərbaycan Respublikası Dövlət Tarix Arxivində (indiki - Azərbaycan Milli Arxivi) saxlanılan Ordubad dairəsinin Əylis mahalının 1831-ci ilə aid kameral siyahısında da 1752-ci ildə Əylisin Azad xan tərəfindən dağıdılması faktı öz əksini tapmışdır. Quberniya katibi Vladimr Zalotniki tərəfindən tərtib edilmiş sənəddə Yuxarı Əylisin tarixi ilə bağlı ilk cümlə belədir: “Hələ keçən əsrdə Yuxarı Əylis tanınmış bir şəhər idi” [15, v.6]. Sənəddən həmçinin o da aydın olur ki, Azad xana qarşı əylislilərin müqaviməti onunla nəticələnmişdi ki, xan şəhəri ələ keçirdikdən sonra əhalinin əksəriyyətini qırmışdır.

Naxçıvan xanlığının yarandığı ilk dövrlərdə bölgənin tarixi-coğrafiyası da xüsusi tədqiqatlar tələb edən məsələlərdəndir. Naxçıvan xanlığı yarandığı dövrdə şimaldan və şimal-qərbdən İrəvan, şimal-şərqdən Qarabağ, cənub-şərqdən Qaradağ, cənubdan və cənub-qərbdən Təbriz, Xoy və Maku xanlıqları ilə həmsərhəd olmuşdur [16, s.22]. Rus müəllifi S.D.Burnaşev Naxçıvan xanlığının sərhədlərini təsvir edərkən yazırdı: “O, şimaldan İrəvan xanlığı ilə, şərqdən Qarabağla, cənub-şərqdən Təbriz və Xoy xanlıqları ilə həmsərhəd idi” [17, s.112]. Tədqiqatçı E.Qarayevin də qeyd etdiyi kimi, S.D.Burnaşev sərhədləri göstərərkən qeyri-dəqiqliyə yol vermişdir. Əslində Naxçıvan xanlığı qərbdən Maku xanlığı, cənub-şərqdən isə Qaradağ xanlığı ilə həmsərhəd olmuşdur [17, s.112].

Bir məsələni də qeyd etmək lazımdır ki, xanlıqlar dövrünün tədqiqi ilə məşğul olmuş bir çox tarixçilər Naxçıvan xanlığının İrəvan xanlığı ilə qərb sərhədinin bugünkü Kəngərli rayonunun Qıvraq qəsəbəsinin qərbindən keçdiyini yazırlar. Lakin Gürcüstan Milli Arxivində saxlanılan bir sənəd xanlığın yarandığı dövrdə Şərur nahiyyəsinin Parçı kəndi və ətraf ərazilərin məhz Naxçıvan xanlığının tabeliyində olduğunu göstərir. Belə ki, 1 aprel 1847-ci ildə I Kalbalı xanın oğlu Mehdi ağanın Qafqaz canişinliyinə

yazdığı məktubundan da görünür ki, onun atası I Kalbalı xanın dövründə Şərur nahiyəsinin Parçı kəndi və ətraf ərazilər məhz Naxçıvan xanlığına tabe olmuş və I Kalbalı xan tərəfindən Hüseynəli Xan İrəvanskiyə icarəyə verilmişdir [18, s.112-113]. Məktubda yazılır: "İrəvan qəzasının kəndləri olan Parçı, Əncər-Səfi kəndləri və onlara bitişik olan digər kəndlər rəhmətlik atam Kalbalı xan tərəfindən mənə bağışlanıbdır. Hansı ki, həmin kəndləri o öz sağlığında Hüseyn xan İrəvanskiyə icarəyə vermişdi" [19]. Bu fakt bir daha sübut edir ki, 2007-ci ildə nəşr olunmuş "Naxçıvan xanlığının xəritəsi"ndə doğru olaraq Naxçıvan xanlığının 1747-1797-ci illərdə ərazisinin 1797-1828-ci illərdəkinə nisbətən daha geniş olduğu göstərilmişdir. Belə ki, xəritədə də təsvir olunduğu kimi 1747-1797-ci illərdə Naxçıvan xanlığının ərazisi 942 min 870 hektar, başqa sözlə desək 9428,7 $km^2$ olmuşdur [20, s. 173; 21, s. 50]. 1797-1828-ci illərdə isə xanlığın ərazisi 464 min 282,9 hektar və yaxud təqribən 4642,83 $km^2$ olmuşdur [22].

Naxçıvan xanlığının yarandığı ilk dövrlərdə onun inzibati quruluşu da maraq doğurur. Tədqiqatçıların fikrincə Naxçıvan xanlığının inzibati-ərazi bölgüsündə əvvəlki dövrə nisbətən dəyişikliklər əsasən XVIII əsrin sonunda (1797-ci ildən sonra) baş vermişdir. Tarixçi Sahibə Budaqova yazır ki, İran hakimiyyəti dövründə Naxçıvan xanlığı inzibati baxımdan iki tümənə bölünmüşdür ki, bunlardan biri Naxçıvan, digəri isə Ordubad tüməni olmuşdur [14, s.26]. "Naxçıvan tarixi" çoxcildliyinin ikinci cildində isə göstərilir ki, 1747-1797-ci illərdə Naxçıvan xanlığı Naxçıvan, Ordubad, Mehri və Qafan dairələrindən ibarət olmuşdur [16, s. 26]. V.Qriqoryevin qeydlərindən aydın olur ki, XIX əsrdə isə Naxçıvan xanlığı artıq iki dairədən (tüməndən) – Naxçıvan və Ordubad tümənlərindən ibarət olmuşdur [23, s. 64)]. Fikrimizcə, XIX əsrdəkindən fərqli olaraq, yarandığı ilk dövrlərdə Naxçıvan dairəsi (tüməni) 4 deyil 5 mahaldan ibarət olmuşdur. V.Qriqoryevin qeyd etdiyi, Naxçıvan, Əlincə, Xok, Dərələyəz mahallarından [23, s. 64, 195] əlavə, 1752-ci ilə qədər Sisyan mahalı da bu dairənin tərkibinə daxil olmuşdur. Sisyanın Naxçıvan dairəsinin (tüməninin) bir mahalı olmasını Mirzə Yusif Qarabağinin "Tarixi-safi" əsərində verdiyi məlumatlar da sübut edir. Bu müəllif göstərir ki, XVIII əsrin 50-ci illərində Sisyan və Tatef mahalları Naxçıvan xanlığından alınaraq Qarabağ xanlığına qatılmışdır [8, s. 19-20].

XVIII əsrin 50-ci illərində Naxçıvan xanlığının Ordubad dairəsi ehtimal ki, XIX əsrdəki kimi 5 mahaldan - Ordubad, Əylis, Dəstə, Çalanaq və Biləv mahallarından ibarət idi.

Beləliklə apardığımız tədqiqatlar göstərir ki¸ XVIII əsrin I yarısı çox qısa bir zaman kəsiyi olsa da ərazilərin dəyişkənliyi ilə seçilmiş, bu dövrdə tarixi proseslərin təsiri altında Naxçıvan bölgəsinin tarixi-coğrafiyasında ciddi dəyişikliklər baş vermişdir.

## ƏDƏBİYYAT


1. Kruşinski J. Xristian səyyahın tarixi. Bakı, Azərnəşr, 1993, 105 s., s. 19
2. Tiflisi J. Vaqiati-Mir Veys və Şah Hüseyn. Osmanlıcadan tərcümə edəni Ş.Fazil, Bakı, 1992, 58 s., s. 18
3. Seyidbəyli E. Naxçıvan torpaq mülkiyyətinə aid XVII-XVIII əsr Kəngərli arxeoqrafik sənədləri. Bakı, Elm, 2000, 229 s., s. 23
4. Naxçıvan sancağının müfəssəl dəftəri (9 məhərrəm 114). Tərcümə, Bünaydov Z. və Qaramanlı H. Bakı, Elm, 2001, 376 s., s. 23
5. İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Bünyadov Z.və Məmmədov H. Bakı, Elm, 1996, 184 s., s. 9
6. Səfərli F. Ordubad şəhərinin müsəlman epiqrafikası abidələri. Bakı, MBM, 2009, 191 s.
7. Baxşəliyev V., Seyidov A., Qədirzadə Q., İbrahimli B. Qədim Ordubad. Naxçıvan, Əcəmi, 2014, 312 s., s. 27
8. Qarabağnamələr. II kitab. Bakı, Şərq-Qərb, 2006, 288 s.
9. Qarayev E. İrəvan xanlığı (1747-1828). Bakı, Avropa, 2010, 342 s.
10. İvanov R. Kalbalı xan Naxçıvanski dövrü və irsi. Bakı, Azərnəşr, 2012, 718 s.
11. Naxçıvan tarixi. Üç cilddə I cild. Naxçıvan, Əcəmi, 2013, 452 s.
12. Сысоев В. Нахчеван на Араксе и древности Нах. АССР. Баку, Известия Азкомстариса. 1929, Выпуск 4, 316 с.
13. Quliyev M. Naxçıvan xanlığının bayrağı haqqında bir neçə söz // "Şərq qapısı" qəzeti, 24 sentyabr 2014-cü il. s. 3.
14. Budaqova S. Naxçıvan diyarının tarixi-coğrafiyası (XVIII əsrin ikinci yarısı – XIX əsrin

birinci qərinəsi). Bakı, Elm, 1995, 96 s.
15. Azərbaycan Respublikasının Dövlət Tarix Arxivi, f. 24, siy. I, iş 358
16. Naxçıvan tarixi. Üç cilddə II cild. Naxçıvan, Əcəmi, 2014, 528 s.
17. Qarayev E. Azərbaycan XVIII əsr rus və Qərbi Avropa səyyahlarının təsvirində. Bakı, 2006, 160 s.
18. Naxçıvan xanlığı (tərtibçi Ə.Həsənov). Naxçıvan, Əcəmi, 2009, 117 s.
19. Националный Архив Грузии: Ф. 4, оп. 2, д. 79.
20. Quliyev M. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri. Naxçıvan, Əcəmi, 2013, 184 s.
21. Seferli H. Nahçivan bölgesinin tarihi coğrafyası hakkında notlar // Miras dergisi, № 4, Ankara, 2013, 46-53 s.
22. Naxçıvan xanlığının xəritəsi (1747-1828-ci illər). (Xəritəni tərtib edənlər: akad. İ.Hacıyev, t.e.n F.Cəfərli, t.e.n. M.Quliyev), Naxçıvan, Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, 2007
23. Григорев В. Статистическое Описание Нахичеванской провинции. Санкт-Петербургъ: Типографий Департамента Внешней Торговли, 1833, 263 с.

## ABSTRACT

**Elnur Kelbizade**

### Nakhchivan territory and borders of Nakhchivan (first half of XVIII century)

Being one of central provinces of states (states such as Eldanizlar, Aghgoyunlu, Garagoyunlu and Safavi) created in the territory of Azerbaijan in the Middle Ages, Nakhchivan had strategic importance at all time. From this point of view, in the period of the Middle Ages, historical-geographical position, development, investigation of ethnic and religious composition of population of cities of Nakhchivan territory are included in problems of vital importance for Homeland history.

The historical geography of Nakhchivan land in the first half of XVIII century was researched for the first time in this article; changes in its territory and administrative territorial partition were followed within chronologicallimit, area of administrative-territorial units where Nakhchivan included in different periods, was calculated by cartographic and satellite imaging.

However, the period covers very short time period – 40-50th years of XVIII century, important changes happened in Nakhchivan.

## РЕЗЮМЕ

**Елнур Келбизаде**

### Территория и границы Нахчывана (в I половине XVII века)

Нахчывань, которая является одним из центральных областей государств, возникших на территории Азербайджана в средние века (таких как Эльданизы, Ак-коюнлу, Кара-коюнлу, Сефевиды) всегда носила стратегическое значение. В связи с этим, исследование историко-географического положения городов Нахчывана, их развития, этнического и религиозного состава населения в средневековый период является значимым вопросом для истории Родины. В статые комплексно изучалась историческая география Нахчывана в I половине XVII века, изменения в территории и административно-территориальном делении в рамках хронологии была вычислена площадь административно-территориальных единиц Нахчывана с помощью картографии и спутниковых снимков в разные периоды.

Несмотря на то, что период, охватывает короткий отрезок времени - 40-50-е гг. XVIII века, но все же в данный период на территории Нахчывана происходили серьезные изменения.

NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *AMEA-nın müxbir üzvü Z.Şahverdiyev*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2016, № 5(79)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2016, № 5 (79)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2016, № 5 (79)**

**ZEYNƏB QULİYEVA**
*AMEA Naxçıvan Bölməsi*
*zeyneb_guliyeva@yahoo.com.tr*

***UOT: 94 (479.242)***

# I KÜLTƏPƏDƏN AŞKAR EDİLMİŞ OBSİDİAN ALƏTLƏR (2014-2016)

***Açar sözlər:*** *Naxçıvan, neolit, I Kültəpə, obsidian, əmək aləti*
***Keywords:*** *Nakhchivan, neolithic, Kultepe I, obsidian, artifacts*
***Ключевые слова:*** *Нахчыван, неолит, Кюльтепе 1, обсидиан, орудия труда*

Təbiətin nadir məhsullarından olan vulkan mənşəli obsidianlar parlaq, gözoxşayan xüsusiyyəti ilə hələ uzaq daş dövründən insanların diqqətini cəlb etmişdir. İlk vaxtlar təbii şəkildə istifadə edilən bu materialın sonralar geniş emalına başlanmışdır ki, bu da sənətkarlığın meydana gəlməsi ilə eyni dövrə təsadüf edir. Sənətkarlığın prioritet sahələri olan silahqayırma, bəzək əşyaları və əmək alətlərinin hazırlanmasında onlardan xammal kimi geniş istifadə olunmuşdur. Neolit dövrünün bir çox abidələrində, o cümlədən Kortik təpə yaşayış yerindən aşkar edilən obsidianların əksəriyyətinin təbii, emal olunmamış formada üzə çıxarılması epipaleolit dövründən başlayaraq təbii xammal olaraq onlardan daş qabların biçimləndirilməsi və naxışlanmasında istifadə edildiyini göstərir. Digər tərəfdən böyük coğrafiyalarda mübadilələrin həyata keçirilməsində də obsidian və çaxmaqdaşının əsas xammal kimi dəyəri böyük olmuşdur [12, 95].

Lakin obsidianların haradan və hansı yolla əldə edilməsi məsələsi hələlik konkret həllini tapmamışdır. Bu problemin aydınlaşdırılmasında abidələrin geocoğrafi mövqeyi mühüm əhəmiyyət daşıyır. Cənubi Qafqazı Mesopotamiya və Şərqi Anadolu ilə birləşdirən yolun üzərində yerləşən Naxçıvan ərazisindəki I Kültəpə yaşayış yerindən üzə çıxarılan obsidian növlərinin təhlili bu baxımdan xüsusi əhəmiyyət kəsb edir.

Naxçıvançayın Araza yaxınlaşdığı yerdə salınmış I Kültəpə abidəsi ilk dəfə ötən əsrin 50-ci illərində tədqiqata cəlb edilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının O.Həbibullayevin başçılığı altında Naxçıvana göndərdiyi arxeoloji ekspedisiya tərəfindən təqribən 13 illik qazıntı prosesi nəticəsində I Kültəpənin çoxtəbəqəli bir abidə olduğunu ortaya çıxarmışdır. Neolitin sonu, eneolit, tunc və erkən dəmir dövrlərinə aid təbəqələrin qeydə alındığı I Kültəpə tapıntıları içərisində eneolit materialları üstünlük təşkil etməsi nəzərə alınaraq, abidənin tədqiqinə həsr edilmiş əsərlərdə də əsas təhlillər məhz bu dövrün materialları üzərində aparıldığından [10, 8; 1, 24] neolit dövrünün tədqiqi arxa planda qalmışdır. Buna baxmayaraq I Kültəpənin adı elmi ədəbiyyatlarda uzun müddət Naxçıvanda neolit dövrünün yeganə abidəsi kimi keçmişdir [16, 133; 15, 32]. 2013-2016-cı illərdə I Kültəpə və ətrafında aparılmış araşdırmalar[1] Naxçıvanda neolit mədəniyyətinin sistemli şəkildə öyrənilməsinə stimul verəcək qiymətli materiallar üzə çıxardı. Arxitektura qalıqları, keramika, əmək alətləri, insan skeletləri və müxtəlif heyvan sümüklərindən ibarət olan bu tapıntılar içərisində obsidian məmulatı xüsusi diqqətə layiqdir. Məlum olduğu kimi, onlara əvvəlki illərin qazıntıları zamanı da rast gəlinmiş [10, 35] və müxtəlif ədəbiyyatlarda bu barədə məlumat verilmişdir [1, Tab. XIII, 1-28], lakinobsidianların rəng çalarları üzrə növləri, funksional xüsusiyyətləri ayrıca tədqiqat obyekti olmamışdır.

I Kültəpədən aşkar olunan obsidianların timsalında son neolit dövründə Naxçıvanda mövcud olmuş sənətkarlığın inkişaf dinamikasını izləmək mümkündür (Şəkil 1, 1-4).

---

[1] I Kültəpə və ətrafında aparılmış araşdırmalar AMEA Naxçıvan Bölməsinin bir qrup əməkdaşı, o cümlədən məqalənin müəllifinin də daxil olduğu arxeoloji ekspedisiya və Fransa Milli Araşdırmalar Mərkəzinin birgə layihəsi ilə AMEA-nın müxbir üzvü V.Baxşəliyevin rəhbərliyi ilə həyata keçirilmişdir.



**Şəkil 1. 2014-2015-ci illərdə I Kültəpədən aşkar edilmiş obsidian alətlər**

Alətlərin müxtəlif çeşidli olması və obsidianların böyük bir qisminin emal prosesinin yarımçıq olması iki mühüm nüansa diqqət çəkilməsini tələb edir: yerli tayfaların obsidian emalında xüsusi təcrübəyə malik olması və obsidian ticarətinin həyata keçirilməsində mühüm rol oynamaları. Birinci fikir öz təsdiqini 2016-cı ildə yaşayış yerinin E sahəsinin təqribən 2 m dərinliyində qeydə alınan obsidian emalatxanasında, həmçinin D, F, j sahələrindən üzə çıxarılan obsidian qalıqlarının timsalında tapmaqdadır. İkinci məsələ ilə bağlı fikirlərə isə buradan aşkar edilən müxtəlif obsidian növləri və onların obsidian yataqlarından uzaqda yerləşən abidələrdən aşkar edilmiş analoqlarının müqayisəli təhlilinin köməyi ilə aydınlıq gətirilə bilər. Bu baxımdan I Kültəpədə 2013-2016-cı illərdə qeydə alınan obsidian növləri xüsusi əhəmiyyət kəsb edir. Onlar əsasən 4 rənglə təmsil olunur: qəhvəyi, qara, boz hisli, şəffaf. Qeyd etmək lazımdır ki, müxtəlif bucaq altında müxtəlif rənglər verən bu məmulatlar içərisində irizasiyalı tünd rəngli növləri daha qiymətli hesab edilir [13, 73].

I Kültəpənin obsidian məmulatı içərisində yayılma dərəcəsinə görə qəhvəyi rənglilər üstünlük təşkil edir (Şəkil 2, 4-5, 9, 11). Onların özü də iki çeşidlə təmsil olunur. Birinci çeşidə aid olanlar qırmızı-qəhvəyi rəngli olub üfüqi formada qara enli xətlərlə müşaiyət olunur. Onlardan biri bıçaq formasında olub hər iki tərəfdən retuşlanmışdır (Şəkil 1,1). Yuvarlaq formada olan uc hissədə əzilmə izləri var. Görünür ondan təkcə kəsmək üçün deyil, həmçinin əzmək, pardaxlamaq məqsədi ilə də istifadə edilmişdir. Alətin uzunluğu 9, eni 2,5, qalınlığı 0,5 sm-dir (KT-15, E-87). İkinci çeşid solğun-qəhvəyi rəngli olub boz rənglə qarışıqdır (Şəkil 1,2). Alətin uzunluğu 9,2, eni 2,1, qalınlığı 0,5 sm-dir. Hər iki tərəfində xəfif retuşlanma izlənilir (KT-16, J-070).

İkinci qrupa aid olan qara rəngli obsidianlar da iki tiplə təmsil olunur. Birinci tipə aid olanlar parlaqlığı ilə diqqət çəkirlər (Şəkil 2, 1, 10, 12). Hər iki tərəfi iti olan bu tip alətlərdən birinin tədricən nazikləşən uc hissəsi sınmışdır. Bu da onun ikili funksiyasından xəbər verir. Alətin uzunluğu 6,2, eni 3-3,4, qalınlığı isə 0,4 sm-dir (KT-16, J-050). İkinci tipə aid olanlar qara parlaq olmayan obsidianlardır (Şəkil 2,2). Uzunluğu 6, eni 2,5, qalınlığı 0,5 sm olan bu alətlərdən biri yarıdan sınsa da, kənarlarındakı retuşlama izlərindən onun işləkliyi hiss olunur (KT-16, J-074). Qara rəngli obsidianlardan biri trapes-yuvarlaq forması ilə diqqət çəkir (Şəkil 2, 6).



**Şəkil 2. I Kültəpədən aşkar olunan obsidian növləri (2014-2016).**

Uzunluğu 6, eni 5,5 sm olan bu fraqmentin kənarlarında retuşlanma əlaməti izlənilir. Bu xüsusiyyət onun sadəcə bir qəlpə olmadığını göstərir. Ehtimal ki, ondan digər materialların istehsalında alət kimi istifadə edilmişdir. Iordan çayı sahilində yerləşən Jeriho VII minilliyə aid neolit düşərgəsində qara rəngli obsidian geniş istifadə edilmişdir [11, 47]. Qara rəngli obsidian lövhələrə Tell as Savvan [5, PI. XVIII, 1-3], həmçinin Tell Nader kimi neolit düşərgələrində [14, Fig.15] də xeyli miqdarda rast gəlinmişdir.

Üçüncü yerdə hislənmiş şəffaf yaxud boz rəngli obsidianlar gəlir (Şəkil 2, 7-8). Onlar şüşə kimi şəffaf olub yalnız içərisindən üfüqi, bəzən də şaquli formada keçən hisli xətlərlə fərqlənirlər (KT-16, J-070). Belə nümunələrdən biri trapes formalı fraqmenlə təmsil olunur (Şəkil 2, 3). Hər iki tərəfində retuşlanma izləri olan alətin bir hissəsi sınmış, salamat qalan hissəsinin uzunluğu 4, eni 2,5, qalınlığı 0,3 sm-dir (KT-16, J-070).Boz rəngli hisli obsidianlar vaxtı ilə Kəlbəcərin Keçəldağ yatağından da çıxarılaraq emal edilmişdir [2, 23; 13, 73]. I Kültəpədən aşkar edilən obsidianların hələlik petroqrafik analizləri aparılmasa da, rəng koloriti baxımından müşahidə olunan oxşarlıq burada Kəlbəcər obsidianlarından da istifadə edilməsi fikrinə stimul verir.

Dördüncü tipə aid nümunə tamamilə rəngsiz və cizgisiz olması ilə diqqət çəkir. Uzunluğu 4,5, eni 2-3,5 sm arasında dəyişən alətin bir tərəfində xəfif retuşlama izlərinə rast gəlinsə də digər tərəfi sadəcə incə formada iti olması ilə fərqlənir (Şəkil 1,3). Görünür ondan bıçaq kimi istifadə edilmişdir. Qeyd etmək lazımdır ki bu rəng hələlik cəmi bir nümunə ilə təmsil olunur (KT-16, J-048).

Obsidianların funksional təhlili onlardan bıçaq, sıyırğac, kəsici, pardaxlayıcı alət kimi geniş istifadə edildiyini göstərir. Bıçaq tipli lövhələr üstünlük təşkil edir. Hələlik 12nümunə ilə təmsil olunan bu alətlərin uzunluqları 3-9, eni 2-3,7, qalınlığı 0,3-0,6 sm arasında dəyişir. Onlardan 7-si qəhvəyi-qırmızı, 4-ü boz hislənmiş, biri isə rəngsiz şəffaf obsidiandan hazırlanmışdır (Cədvəl 1).

| | Alətin kodu | Funksiyası | Rəngi | Ölçüləri | Əsas parametrləri |
|---|---|---|---|---|---|
| | KT-14, D-106 | Qaşov | Qırmızı-qəhvəyi | Uzunluğu 5 sm, eni 3 sm | Qabarıq prizmatik olan alətin yarısı sınıb |
| | KT-14, D-52 | Bıçaq | Boz-şəffaf | Uzunluğu 6 sm, eni 2-3 sm | Bir tərəfi enli digər tərəfə doğru ensizləşir |
| | KT-14, D-20,1 | Bıçaq | Qırmızı-boz | Uzunluğu 9 sm, eni 3-2 sm | Prizmatik, iki tərəfdən retuşlanıb, uc hissəsi yuvarlaqlaşdırılıb |
| | KT-14, D-20,2 | Bıçaq | Boz şəffaf | Uzunluğu 7 sm, eni 3, 7 sm | Alət hər iki üzdən dişəklənmişdir |
| | KT-14, D-20,3 | Bıçaq | Qəhvəyi-boz | Uzunluğu 5 sm, eni 2,5 | Alətin nazilən hisəsindən 0,5 sm enində batıq xətt keçir |
| | KT-14, D-74 | Deşici alət | Qara | Uzunu 3-0,7 sm, 3-1 sm | Qeyri şəffaf alət üçkünc formalıdır |
| | KT-14, D-74,2 | Kəsici alət | Qəhvəyi | Uzunluğu 5,5 sm, eni 2,5 sm | Qeyri-şəffaf alətin bir tərəfi itilənmiş, digər tərəfi dişəklənmişdir, qurtaracaqda ayrıca ensiz (0,5 sm) çıxıntısı var |
| | KT-14, D-95 | Kəsici alət | Qəhvəyi-sarı | Uzunluğu 3 sm, eni 2,7 sm | Parlaq və şəffaf olmayan fraqment formaca balıqqulağını xatırladır. İşlək tərəfi iti və nazik, digər 2 tərəf isə nisbətən qalın (0,5-0,8 sm), |
| | KT-14, D-106,1 | Bıçaq | Tünd qəhvəyi, qara xətli | Uzunluğu 4,5 sm, eni 2 sm | Bir tərəfi hamar və yatımlı, digər tərəfi xəfif prizmatik quruluşa malik olan üzərində maili qaraxətt və ləkələr var |
| 0 | KT-14, D-106,1 | Kəsici alətin fraqment | Qırmızı-qəhvəyi | Eni 2,5 sm, salamat qalmış hissəsinin uzunluğu 2 sm | Parlaq və şəffaf olan fraqmentin hər iki tərəfi itilənmişdir |
| 1 | KT-14, D-106,2 | Qaşov | Boz-qara | Uzunu 6, eni 5, qalınlığı 1 sm | Girdələşdirilmiş trapes şəkilli alətin 3 tərəfi retuşlanıb |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2 | KT-14, D-77 | Bıçaq | Tünd qəhvəyi | Uzunluğu: 7 sm (dəstək hissə 3 sm, işlək hissədə 4 sm), eni 1-2,5 | Kiçik ölçülü alətin birtərəfi hamar və yatımlı, digər tərəfi xəfif prizmatik olub, uc hissəyə doğru dəyirmiləşdirilmişdir |
| 3 | KT-15, E-132,1 | Bıçaq | Tünd qəhvəyi | Uzunluğu 7,5 sm, eni 3,5-2,5 sm | Dəstək hissəsi qabarıq və yuvar–laq olan alətin tədricən ensizləşən işlək hissəsinin yarısı sınmışdır. Hər iki tərəfində retuşlanma izləri var |
| 4 | KT-15, E-132,2 | Bıçaq | Ağ şəffaf, hislənmiş | Uzunluğu 6 sm, eni 2 sm | Hər iki tərəfi retuşlanmış alət parlaq, şəffaf olub, tərkibində horizontal istiqamətli hislənmə var |
| 5 | KT-15, E-103, 1 | Ox ucluğu | Qara | Uzunluğu 4,9 sm, eni 0,5-1,5 sm | Qeyri şəffaf materialdan olan əşyanın nazikləşən uc hissəsi hər iki tərəfdən retuşlanmışdır |
| 6 | KT-15, E-103,2 | Oraq dişi | Qırmızı-qəhvəyi | Uzunluğu 4,5 sm, eni 1 sm | Uzunsov üçkünc quruluşa malik olan alətin bir tərəfi hamar, digər tərəfi konus şəkillidir. Qeyri şəffaf, parlaq materialın tünd qırmızı fonunda qara müxtəlif ölçülü ləkələr izlənilir |
| 7 | KT-15, E-103,3 | Kəsici alətin fraqmenti | Hislənmiş ağ, şəffaf qarışıqsız | Salamat qalan hissəsinin uzunluğu 2,5 sm, eni 1,5 sm, qalınlığı 0,4- 0,7 | İçərisində heç bir rəng qarışığı olmayan şəffaf hisli əşyanın bir tərə–fində retuşlanma izləri var və yarısı sınmışdır |
| 8 | KT-15, E-75,1 | Sıyırğac | Boz-qəhvəyi | Uzunluğu 4,5 sm, eni 1,5 sm | Şəffaf hislənmiş fon içərisində açıq qəhvəyi rəng tonu olan əşya prizmatik quruluşa malik olub, bir tərəfi retuşlanmışdır |
| 9 | KT-15, E-75, 2 | Ox ucluğu | Hislənmiş ağ rəngli, bozcizgili | Ölçüsü 1,5-1 sm arasında dəyişir | Şəffaf alət kiçik ölçülü və ürək formasında olan quruluğu ilə fərqlənir |
| 0 | KT-15, E-160 | Sıyırğac | Şəffaf boz rəngli | Uzunluğu 6,5 sm, eni 4,8 sm | Bir tərəfi hamar, digər tərəfi prizmatik olan alətin bir tərəfi retuşlanıb, tərkibində başqa rəng izlənilmir |
| 1 | KT-15, E-160,2 | Bıçaqfraq menti | Açıq qəhvəyi-sarı | Salamaq qalmış hissənin uzunluğu 3, eni 2,5-3 sm | Parlaq və qeyri şəffaf alətin sarı-qəhvəyi rəngi fonunda qara ləkələr müxtəlif formalarda səpələnmiş halda izlənilir. Uc hissəsi dəyirmiləşdirilmiş, işlək tərəfi retuşlanmışdır |
| 2 | KT-15, E-86 | Oraq dişi | Boz-qara | Uzunluğu 3,8 sm, eni 2, 5 sm | Bir tərəfi yatımlı və hamar, digər tərəfi prizmatik olan alətin hər iki tərəfində retuşlanma izləri var |
| 3 | KT-16, J-70 | Bıçaq | Şəffaf | Uzunu 4, eni 2,5, qalınlığı 0,3 sm | Hər iki tərəfi retuşlanmış alətin yarısı sınmışdır |
| 4 | KT-16, J-075,2 | Nukleus | Qəhvəyi | Uzunu 4,5, eni 1-2,2 sm | Üçbucaq şəkilli olub, zərbə meydan–çasında qopmalar var |
| 5 | KT-16, J-075,1 | Bıçaq | Boz-qara | Uzunu 5,5, eni 3 sm | Bir üzü prizmatik, digər üzü hamar olub, hər iki tərəfdən retuşlanmışdır. |

**Cədvəl 1. I Kültəpədən aşkar olunan obsidian alətlərin təsnifatı (2014-2016).**

Qırmızı-qəhvəyi rəngli alətlərdən biri orijinallığı ilə diqqət çəkir. 9x3 sm-lik ölçüyə malik olan bu alətin materialında üfüqi formada qırmızı və qara enli xətlər bir-birini əvəz edir (Şəkil 2, 13). Hamar və parlaq olan qara rəngli hissələrdən fərqli olaraq, qırmızı hissədə nahamarlıq hiss olunur (KT-14, D-20,1). Qeyd etmək lazımdır ki, qara-qəhvəyi rəng koloritinə malik olan digər alətlərdə bu cür xüsusiyyətə rast gəlinmir. Tamamilə şəffaf və rəngsiz olan digər nümunənin prizmatik olan üzündə insanın barmaq cizgilərini xatırladan xəfif cizgilər hiss olunur. 3x4,8 sm ölçüyə sahib olan bu alətin bir tərəfi iti, digər tərəfi isə retuşlanmışdır (KT-16, J-048).Qara rəngli obsidian bıçaqlara, nukleus [8, Fig. 17] və lövhələrə Anadoludakı Yeşilova höyük abidəsinin neolit dövrünə aid olan III təbəqəsində də xeyli miqdarda rast gəlinir [8, Fig. 16].

Oraq dişi kimi istifadə edilən alətlərdən biri qırmızı-qəhvəyi rəngli olub, uzunsov, üçkünc formaya malikdir. Onun bir tərəfi hamar, digər tərəfi qabarıqdır. Qeyri şəffaf, parlaq materialın tünd

qırmızı fonunda qara müxtəlif ölçülü ləkələr izlənilir (KT-15, E-103,2). İkinci nümunə boz-qara rəngli obsidiandan hazırlanıb. Uzunluğu 3,8 sm, eni 2, 5 sm olan alətin bir tərəfi yatımlı və hamar, digər tərəfi prizmatikdir. Onun hər iki tərəfində retuşlanma izləri var (KT-15, E-86).

Ox ucluqlarından biri hislənmiş ağ rəngli, boz cizgili materialdan hazırlanıb. Ölçüsü 1,5-1 sm arasında dəyişir. Şəffaf alət kiçik ölçülü və ürək formasında olan quruluğu ilə fərqlənir (KT-15, E-75, 2). Qara rəngli, qeyri-şəffaf obsidiandan hazırlanmış digər nümunənin hər iki tərəfində retuşlanma izləri var. Onun uzunluğu 4,9 sm, eni 0,5-1,5 sm (KT-15, E-103, 1).

Sıyırğaclardan biri boz rəngli qeyri-şəffaf materialdan hazırlanaraq xəfif aypara formalıdır. İnteryer hissəsində işlənmə izləri var. Onun uzunluğu 6,5 sm, eni 4,8 sm-dir (KT-15, E-160). İkinci nümunə qəhvəyi-boz rəngli, şəffaf obsidiandan hazırlanaraq kiçik çəkməni xatırladır. Onun qabarıq formada olan hissəsində qəlpələnmənin yaratdığı təbii itilik hiss olunsa da, aypara şəkilli interyer hissəsində xüsusi diqqətlə edilmiş retuşlanma izləri müşahidə olunur. Alətin uzunluğu 5,5, eni 1,5-2 sm-dir (KT-15, E-75,1). Bu tip alətlər öz paralellərini Qafqazın neolit abidələrindən aşkar edilən materiallar arasında tapır [7, Plate 2, 10; 17, Рис. 7,1–3]

Obsidian alətlərin az bir qismi böyük olmayan girdələnmiş, yaxud trapes formalı lövhələrdən ibarətdir (Şəkil 2,6). Boz-qara rəngli nümunələrdən biri 6x5 sm ölçüsündə olub, qalınlığı 1 sm-ə çatır. Onun 3 tərəfində də incə retuşlanma izlərinə rast gəlinir (KT-14, D-106,2). İkinci alət nukleusdan qopan təbii qəlpəni xatırladır. Qəhvəyi-boz rəngli olan bu alət iki tərəfi iti, digər tərəfində isə əzilmə izləri var. Uzunu 6, eni 3 sm-dir (KT-14, D-106). Qaşov tipli alətlər əvvəlki dövrlərin arxeoloji qazıntılarında da I Kültəpədən aşkar edilmişdir [10, 37].

I Kültəpənin obsidian məmulatı arasında az miqdarda nukleuslara da rast gəlinir. 2016-cı ildə yaşayış yerinin J sahəsindən üzə çıxarılan nukleus qəhvəyi-qara rəngli olub, 2x4 sm-lik ölçüyə malikdir (Şəkil 1, 4). Onun maili-üfüqi formalı zərbə meydançasında əzilmə izləri var. Uc hissəyə doğru konusşəkilli nazilən bu alət ovalşəkilli evin içərisində keramika və obsidian qalıqları ilə birlikdə qeydə alınmışdır (KT-16, J-075,2). Bu cür nukleuslar vaxtı ilə O. Həbibullayev tərəfindən I Kültəpənin 1a və 1b təbəqələrində də qeydə alınmışdır [10, 1-ci tablo, 1-3], lakin onlar boz-qara rəngli olmaları və nisbətən böyük ölçüləri ilə fərqlənirlər. Obsidian nukleuslara Hacı Firuz yaşayış yerində [11, 73], Türküstanın neolit dövrünə aid Ceytun mədəniyyətinə aid materiallar arasında [11, Fig. 44] kifayət qədər rast gəlinmişdir ki, bu da onların neolit dövrünün əsas xammalı kimi nə qədər dəyərli olduğunu nümayiş etdirir.

Obsidian məmulatının böyük bir hissəsini istehsal prosesi yarımçıq qalanlar təşkil edir (KT-14,D-007,D-008,D-14,D-15, D-45,D-46, D-95: D-106, KT-15,E-005, E-008 (qara),E-20, E-52 (boz), E-49-(qara-şəffaf) E-56(qara), E-57(boz, qəhvəyi-şəffaf), E-58 (tünd qəhvəyi, şəffaf qəhvəyi). Bu isə onların yerli istehsalın məhsulu olduğunu göstərir. Görünür yerli tayfalar obsidian yataqlarını yaxşı bilirmişlər ki, onun xammal kimi əldə edilməsinə üstünlük verirdilər. Buraya ən yaxın obsidian yataqları Göyəm dağları, Göyhisar və Sünikdə yerləşmişdir. Məlum olduğu kimi, boz rəngli hislənmiş, yaxud qara şəffaf olmayan obsidianlar Kəlbəcər dağlarında da olmuşdur [2, 23].Bu ərazidə yerləşən Keçəldağ obsidian yatağı əsasən zolaqlı, boz-gümüşü rəngli birtonlu, həmçinin müxtəlif bucaq altında bir çox irizasiya rənglərinə-bənövşəyi, göy, yaşıl və s. çalan şəffaf materialı ilə məşhurdur. Onlar qızdırıldıqda həcmi genişləndiyindən və elastikləşdiyindən ona istənilən ölçünü vermək olur. Krater tipli irizasiyalı xüsusiyyəti ilə yüksək keyfiyyətə malik olan Kəlbəcər obsidianın tünd boz, qara qismən zolaqlı, boz pambıqvari hisli və boz eynitonlu növləri geniş yayılmışdır [13, 73]. I Kültəpənin obsidian məmulatı içərisində məhz bu xüsusiyyətə malik olan xeyli miqdarda nümunəyə rast gəlinir ki, bu da Naxçıvanın neolit tayfalarının Göyhisar, Süniklə yanaşı Kəlbəcər obsidianından da istifadə etdiyi anlamına gəlir. Tədqiqatçılar I Kültəpədə aşkar edilmiş obsidianların 50%-nin Göyhasar, 28% -nin isə Sünikdən gətirildiyini qeyd edirlər [4, 20; 6, 257]. Urmiya gölü hövzəsində də oxşar obsidianlardan istifadə edilmişdir. Bu faktor Sünik obsidianının İrana məhz Naxçıvan vasitəsi ilə aparılması haqqındakı fikirləri [9, 1957] təsdiq edir. I Kültəpə yaşayış yerində həm obsidian alətlərin rəng koloritinə görə və funksional cəhətdən müxtəlifliyi, həmçinin xeyli miqdarda istehsal prosesi başa çatdırılmamış qalıqların aşkar olunması alətlərin yaşayış yerində emal edilərək hazırlandığını təsdiq edir. Digər tərəfdən Naxçıvanda, İranda obsidian yataqlarının olmamasına baxmayaraq Kültəpədən aşakar edilən materialların Urmiya

hövzəsi materialları ilə oxşar olaması Naxçıvanın yerli tayfalarının uzaq ərazilərlə iqtisadi əlaqələrin həyata keçirilməsində obsidiandan əsas xammal kimi istifadə etdiyinin göstəricilərindən sayıla bilər. Bu sahədə Göyçə hövzəsində yerləşən Göyhasar və Qutansarda yerləşən [6, 257] obsidian yataqlarından əsas xammal bazası olmuşdur. Tədqiqatlar göstərir ki, Kültəpə obsidianının əsas hissəsini Göyhasar və Sünik (28%) materialları təşkil etmiş, hətta birincinin çəki əmsalı 50%-dən yüksək olmuşdur. Lakin boz hisli obsidianların timsalında Kəlbəcər və digər yataqların obsidianlarından da istifadə edilməsi faktoru istisna edilmir. Azərbaycanın cənubunda yerləşən Mərənd yaxınlığındakı Kültəpə abidəsindən [9, p. 1964], həmçinin şimal-şərqində yerləşən Əliköməktəpəsi obsidianının böyük bir qisminin (85%) Sünikdən gətirilməsi düşünməyə əsas verir ki, hər iki əraziyə təxminən eyni məsafədə yerləşən Naxçıvanın strateji cəhətdən əlverişli mövqedə olması digər yaşayış yerlərini də obsidianla təmin etməyə imkan vermişdir [8, c. 259]. 2013-2014-cü illərdə I Kültəpə ətrafında xeyli miqdarda eneolit abidəsinin Cənubi Qafqazın xammal mənbələrinə, xüsusilə obsidian yataqlarına gedən yol üzərində qeydə alınması [3, 115] bu regionun obsidian ticarətində mühüm əhəmiyyət daşıdığını göstərməkdədir.

Beləliklə, son illərdə (2013-2016) I Kültəpə yaşayış yerindən aşkar edilən obsidian alətlərin təhlili Naxçıvanın neolit dövrü insanları arasında sənətkarlıq, ovçuluq-maldarlıq və ticarətin inkişaf səviyyəsini göstərmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Buradan üzə çıxarılan obsidian alətlərin çoxluğu, həmçinin emalatxana tipli iş yerləri yerli sakinlərin daşişləmə sənətkarlığına, xüsusilə obsidian emalına yaxşı bələd olduğundan xəbər verir. Obsidian növlərinin müxtəlifliyi bir neçə yataqdan istifadə edildiyini göstərir. Bu isə qədim ovçu-maldar tayfaların keçdiyi köç yollarının istiqamətlərini müəyyənləşdirməyə imkan verir. Digər tərəfdən yerli sakinlərin obsidian ticarətində də müəyyən təcrübəyə malik olduğunu nümayiş etdirir.

## ƏDƏBİYYAT


1. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, Элм, 1982. 316 с.
2. Аразова Р. Предварительные результаты изучения каменных изделий поселения Полутепе // Azərbaycan arxeologiyası, Bakı, 2016, Cild 19, №1
3. Baxşəliyev V., Quliyeva Z., Marro C., Berthon R. Kültəpə yaşayış yerində 2015-ci il-də aparılan arxeoloji araşdırmalar. // Azərbay-can MEA-nın Xəbərləri. İctimai elmlər seriyası, 2016, №1, Elm, 2016, s. 193-211
4. Bakhshaliyev V. New Neolithic and Chalcolithic Sites in Nakhchivan. Internasional Conference Problems of Early metal Archaeology of Caucasus and Anatolia. November 19-23, 2014, Georgia, 2014 Tbilisi s. 17-25
5. Behman Abu Alsoof. 30 years of archaeological studies. (Behman Book 30 years.pdf-Adobe Reader), 407 s. history-world.org›archeology.htm.
6. Бадалян Р.С., Кикодзе З.К., Коль Ф.Л. Кавказский обсидиан: источники и модели утилизации и снабжения (результаты анализов нейтронной активации) // Исто рико-филологический журнал. 1996. № 1–2. С. 245– 264
7. Connor S., Sagona A. Environment and society in the late prehistory of southern Georgia, Caucasus // Les Cultures du Caucase (VI-III millenaires avant notre ere): Leurs Rela-tions avec le Proche-Orient / Sus la direction Bertille Lyonnet. P.: CNRS Edutions, 2007. P. 21–36
8. Derin Z. Yeşilova Höyük // Özdoğan M., Başgelen N., Kunihoim P. The Neolothic in Turkey, Vol. 4, Archaelogy and Art Publications, İstanbul, 2012, pp. 177-195/
9. Farhang Khademi et al.Provenanceof prehistoric obsidian artifacts from Kul Tepe,north western Iranusing X-rayfluorescence (XRF) analysis // Journal of Archaeological Science, 2013, 40. p.1956-1965
10. Həbibullayev O.H. Kültəpədə arxeoloji qazıntılar. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1959. 134 s.
11. Mellart J. Earliest Civilizations of the Near East. London: Mcgraw-Hill, 1965. 145 p.
12. Özkaya V. Körtik Tepe / Özdoğan M., Başgelen N., Kunihoim P. The Neolithic in Turkey, Vol. 1. Archaeology and Art Publications, Istanbul 2011, pp.89-127

13. Təhməzov M. Kəlbəcər-ensiklopedik məlumatlar. Baskı, Elm, 2013, 504 s.
14. The Tell Nader and Tell Baqrta Project in the Kurdistan Region of Iraq: Preliminary Report of the 2011 Season
15. Кушнарева К.Х. Ранние комплексные общества Кавказа. / Древние общества Кавказа в эпоху Палеометалла (ранние комплексные общества и вопросы культурной трансформации) Санкт-Петербург, 1997, с.11-44
16. Нариманов И.Г. Культура древней-шего земледельческо- скотоводческого насе-ления Азербайджана. Баку: Элм, 1987. 260 с.
17. Черлёнок *Е.А.*Археология Кавказа (мезолит, неолит,энеолит): учебно-методическое пособие. СПб.: Санкт-Петербургский ГУ, 2013. 54 с.

## ABSTRACT

**Zeyneb Guliyeva**

**Obsidian tools found from the settlement Kultepe I**

The article analysed the types of obsidian found in the settlement Kultepe I. It is noted that, as a result of archaeological excavations 2013-2016. here are 4 kinds of obsidian were found: brown, black, gray-sooty and transparent. The majority of obsidian are presented by colores brown and black.

They were presented with knives, scrapers, cores, and others. They obsidians of the settlement Kultepe I has something in common with similar materials of the sites from the Shomutepe, Hatunarh, Haji Firuz, Tell Nader, Tell al Sawwan, Kortuk Tepe, etc... This factor proves that the period Neolithic obsidian was used not only for cooking tools, weapons, and as a raw for sale. In this case, Nakhchivanregion played an important role in the transport. Apparently, a border position of Kultepe I allowed supplying with obsidian the other of the Old World too. It is possible to assume that the neolithic-chalcolithic settlements located along Kultepe I spesify one of the ways of the ancient tribes movemrnt to the natural resorces of obsidian.

## РЕЗЮМЕ

**Зейнеб Кулиева**

**Обсидиановые орудие, обнаруженных из поселения Кюльтепе I**

В статье исследуется типы обсидианов, обнаруженные в последние годы в поселении Кюльтепе I. Отмечается что, в результате археологических раскопоки 2013-2016 гг. здесь были обнаружены 4 вида обсидиана: коричневый, черный, серый-закопченной и прозрачны. Коричневые и серые обсидианы являются доминирующими.

Они были представлены с ножьями, скребками, нуклеусами и др. Подобные материалы были известны из памятниках Южного Кавказа (Шомутепе, Хатунарх), Южного Азербайджана (Гаджи Фируз, Кюльтепе), Месопотамии (Телл Надер, Телл ас Савван) и Анатолию (Кортик тепе..). Этот фактор доказывает, что в период неолите обсидиан был использован не только для изготовления орудия труда, оружия, и в качестве сырца для торговли. В этом деле сыграл важную роль территория Нахчывани.

NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *AMEA-nın müxbir üzvü Z.Şahverdiyev*

**SARA HACIYEVA**
*AMEA Naxçıvan Bölməsi*
*E-mail: hacyevasara@ yahoo.com*
**İLHAMİ ƏLİYEV**
*AMEA Naxçıvan Bölməsi*
*E-mail: ilhamialiyev@ yahoo.com.tr*

***UOT: 94 (479.242)***

# ORTA ƏSRLƏR DÖVRÜ NAXÇIVANDA İPƏKÇİLİYİN İNKİŞAFI

***Açar sözlər****: ipək, barama, sənət, iqtisadiyyat, ticarət*
***Key words****: silk, cocoon, art, economy, trade*
***Ключевые слова:*** *шелк, кокон, искусство, экономика, торговля*

Hələ qədim dövrlərdən barama, ipək Azərbaycan torpağının sərvəti, şöhrəti olub. Məlumdur ki, Böyük İpək yolu vasitəsilə iki min il bundan əvvəl barama qurdu Çin ölkəsindən Mərkəzi Asiyaya, oradan İrana, sonra da Azərbaycana gətirilib. Ərəblər şərqdə Hindistan, Çin, qərbdə İspaniya olmaqla geniş əraziyə hakimlik etdikləri dövrdə ipəkçilik təsərrüfatının sürətlə yayılmasında böyük rol oynamışlar. Bəzi ədəbiyyatlarda Cənubi Qafqazda, o cümlədən də Azərbaycanda ipəkçiliyin yayılması tarixi VI-VII əsrlər göstərilir. Lakin mənbələrin məlumatına görə, artıq eramızın III-IV əsrlərində Azərbaycanda ipəkçiliklə məşğul olmuşlar. Erkən orta əsrlərdən başlayaraq ipəkçiliyin inkişafını irəliyə aparmaq üçün istehsal texnikası təkmilləşmiş, ipək istehsalında ayaqla hərəkətə gətirilən təkərli mancanaqlar (baramaaçan dəzgahlar) ipək karxanalarında mütəhərrik toxucu dəzgahları tətbiq olunmuşdur. Alban tarixçisi M.Kalankaytuklu özünün "Alban tarixi" kitabında Kür çayı sahillərində çoxlu tut ağacının bitdiyini, ondan, əsasən ipək parçalar və rəngarəng xalçalar hazırlanması haqqında maraqlı məlumatlar vermişdir (11, s. 136**)**.

Sonrakı dövrlərdə ipəkçilik bir təsərrüfat sahəsi kimi tədricən əksər bölgələrimizdə inkişaf etdirilib. Ölkəmizdə ipəkçiliyin inkişaf etməsinə baxmayaraq, Böyük İpək yolunun bu ərazidən keçməsi ilə əlaqədar olaraq ticarət məqsədi ilə buraya ayrı-ayrı ölkələrdən də, o cümlədən Çindən yüksək keyfiyyətli ipək parçalar gətirilmişdir. Azərbaycan ipəkçiliyin məskəninə çevrilmiş və Şərqin ən böyük ipəkçilik ölkəsi kimi tanınmışdır.

X-XIII əsrlərin coğrafiyaşünasları və tarixçiləri toxuculuq sənayesinə nəzər yetirərkən Azərbaycanda şəhərlərin inkişafından bəhs etmiş, burada istehsal olunan müxtəlif növ ipək parçaları və qiymətli sapları qeyd etmişlər (17, s. 49). Müxtəlif vaxtlarda bu yerlərdə olmuş tacirlər, səyyahlar, diplomatlar və s. Azərbaycanda ipəkçiliyin inkişafı haqqında söz açmışlar. Hələ XIII əsrin ikinçi yarısında Azərbaycanda olmuş venetsiyalı səyyah Marko Polo Şamaxıda və Bərdədə yerli ipək məmulatlarının gözəlliyini qeyd etmişdir. Azərbaycanda səyyahın diqqətini daha çox cəlb edən gerçəklik ipəyin və ipək məmulatlarının bolluğu olmuşdur. Onun Azərbaycanda ipəkçiliyin inkişafına dair qiymətli məlumatları ölkəmizin ipəkçiliyin mərkəzlərindən biri olduğunu sübut edir (21, s. 19). Bunu sübut edən faktlardan biri də bir sıra Azərbaycan şəhərlərinin ipək istehsalında ixtisaslaşması idi. Təbiidir ki, həmin şəhərlərdə ipəkçilik qədim, ənənəvi sənət sahəsi olmasaydı, orta əsrlərdə bu sahədə nəzərəçarpacaq yüksəliş olmazdı. Orta əsrlər boyunca Avropa səyyahlarının və diplomatlarının Azərbaycanda ipəkçilik haqqında maraqlı qeydlərini izlədikcə, xam ipəyin və ipək parçaların Avropa dövlətlərinin daimi diqqət mərkəzində olduğunu görürük. Belə bir münasibət qiymətli Azərbaycan ipəyini ələ keçirmək arzusundan irəli gəlirdi. Azərbaycanın bir çox şəhərlərində istehsal olunan “şərbafi”, “xalvari”, “lejim” adlanan ipək növləri Avropa ölkələrində şöhrət qazanmışdı (14, s. 102–104).

Pambıq, yun, ipək və digər yerli məhsullar dünyanın əksər ölkələrində başlıca tələbata

çevrilmişdi. Bu məhsulların içərisində isə ipək XIII yüzillikdən XVIII yüzilliyə qədər Avropada dövlətlərarası dəyişikliklərin və zənginliklərin başlıca qaynağı olmuşdur. Xam ipək və ipək parçalar beynəlxalq ticarətdə ən nüfuzlu bir mövqe tuturdu (7, s. 60).

Ölkəmizin digər bölgələri ilə yanaşı ipəkçilik Naxçıvanın kənd təsərrüfatında da vacib sahələrdən biri idi. O, tut bağları, baramaçılıq və barama, yaxud ipəkəyirmə kimi sahələri əhatə edirdi. Birinci iki sahə kənd təsərrüfatına, üçüncü isə sənaye istehsalına aid edilir. Naxçıvan bölgəsində ipəkçiliyin əsas mərkəzi Ordubad idi. İpəkçiliyin inkişafı davam etdirilərək əhalinin təsərrüfat məşğuliyyəti olmaqla yanaşı, həm də həyat və güzəranı üçün gəlirli sahəyə çevrilmişdi. XVI əsrdən etibarən Azərbaycan Yaxın Şərqin böyük ipəkçilik zonası, Ordubad əyaləti isə Azərbaycanın əsas ipəkçilik bölgələrindən biri idi. Ordubad ipəyi hələ XVI əsrin ikinci yarısında Avropaya ixrac olunmuşdur. Ordubad Şərq ölkələrini Avropa ilə birləşdirən Böyük İpək yolunun üstündə yerləşdiyindən burada ticarətin və sənətkarlığın, xüsusən də ipəkçiliyin inkişafı üçün əlverişli şərait yaranmışdır. Ordubad həm ipək qurdunun yetişdirilməsi, həm də ipək parçanın istehsal edilməsi üzrə əsas mərkəzlərdən biri idi. Azərbaycan ipəyi İraq, Kiçik Asiya, Suriya və Avropanın bir sıra ölkəsinə ixrac olunurdu. Təsadüfi deyil ki, ordubadlı mərhum iqtisadçı alim Əliqulu Fərəcov Ordubadı Azərbaycanın ipəkçilik beşiyi adlandırmışdır (23). Ordubad bölgəsində əhalinin bir qismi ipəkçiliklə məşğul olur, əldə etdiyi məhsulu həm məişətdə işlədir, həm də bazara çıxarırdı. Əldə edilən ipək keyfiyyət etibarilə müxtəlif olduğu kimi, onun bazar qiyməti də müxtəlif idi. Məsələn, birinci növ ipəyin qiyməti Ordubad bazarında 12 tümənə, ikinci növünün qiyməti isə 7 tümənə bərabər idi. Həmçinin, ipəkçilik kənd təsərrüfatının o qədər gəlirli sahəsi idi ki, hər tut ağacından ildə 1 manat 20 qəpik vergi alınırdı. Bütün Ordubad bölgəsində 100 min tut ağacı var idi ki, bunun da 10%-i, yəni 10 min ədədi Ordubad şəhərində yerləşirdi. XIX əsrin 20-ci illərində Ordubad şəhərində 200 pud ipək istehsal olunurdu. Ordubadda Naxçıvandan fərqli olaraq qadınlar ev şəraitində ipək parça toxuyur və ipək saplar hazırlayırdılar. Toxuculuq sənətində Ordubadın xalçaçıları və bez parça hazırlayanları ustalıq baxımından heç də Naxçıvan sənətkarlarından geridə qalmırdılar. Burada çoxlu su tələb edən iki ipəksarıma emalatxanası da fəaliyyət göstərirdi (2, s. 23). Burada basmanaxışlı parçalar daha çox istehsal edilirdi. İpəkçilik və ipək parça toxuma peşəsi (xüsusilə basma naxışlı parçalar) əhalinin məişətində əsrlər boyu mövcud olmuşdur. Basmanaxışlı parçalar adətən 2-3 zolaqdan ibarət olurdu. Ornamentlərlə bəzədilmiş bu zolaqlar al-əlvan və qırmızı xətlərdə bir-birbirindən ayrılırdı.

N.Əhmədov yazır ki, ipəkçilik Ordubad ərazisində uzun əsrlər boyu inkişaf etdirilmiş və tarixin sonrakı dövrlərində bu məhsula olan tələbat daha da artmışdır. Ordubad təbii sərvətləri, gur kəhrizləri, çeşmələri, gözəl təbiəti ilə yanaşı keyfiyyətli ipəyi ilə də tanınmışdır (5, s. 86-89). Bu baxımdan da bu bölgənin ticarət dövriyyəsində ipəkçilik özünəməxsus yer tutmuşdur. Tarixin müxtəlif dövrlərində Naxçıvana, o cümlədən də Ordubada hucum edən işğalçılar müxtəlif sənətkarları, o cümlədən də ipəkçiliklə məşğul olan ustaları özləri ilə aparırdılarsa da, şəhər yenə də öz işini bərpa edirdi (12, s. 8). Hələ XVI əsrin ikinci yarısından başlayaraq Azərbaycandan Venesiya, Marsel, Amsterdam, Moskva, Lodz, Milan, Marsel, Lion və s. Avropa şəhərlərinə xam ipək ixrac olunurdu. Həmçinin, Moskvadakı, Nijni Novqoroddakı yarmarkalarda Naxçıvan və Ordubadda istehsal edilmiş ipək parçalara və müxtəlif rənglərə boyanmış ipək saplara təsadüf olunurdu. Buranın mülayim iqlim şəraiti ipəkqurdunun yetişdirilməsi üçün əlverişli olmuşdur. Digər tərəfdən bağçılığın geniş yayılması (22, s. 201) burada ipəkçiliyin inkişafına təkan vermişdir. Belə ki, barama qurdlarının bəslənməsi üçün lazım olan tut bağları Ordubadda daha geniş yayılmışdır. XVII-XVIII əsrlərdə Əylis Şərqin ən qabaqcıl şəhərləri sırasına daxil edilmiş, burada ipəkçilik xüsusi inkişaf mərhələsinə qədəm qoymuşdu (13, s.14).

Vaxtilə Naxçıvana səyahət etmiş səyyahların yazılarından məlum olur ki, o dövrdə Naxçıvanda yerli əhali həm daxili, həm də xarici bazarlar üçün külli miqdarda yuksək keyfiyyətli ipəkdən müxtəlif parçalar, xalça, cecim və s. sənət numunələri toxuyurdular. Xüsusilə, Naxçıvan şəhərində və Ordubadda ipək parçalar istehsalı geniş yayılmışdır. Qadın üst paltarları, keyfiyyətli, zərif naxışlı baş örtükləri-kəlağayılar toxuculuq sənətinin ən gözəl numunələri kimi haliyədə Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılır. Bəhs olunan dövrdə ipək və atlas parçalardan tikilmiş paltarlar, geyimlər Naxçıvan əhalisi üçün xarakterik idi. Zamanəmizə qədər gəlib çatmış parça

tikələri göstərir ki, onların toxunma üsulu və bədii tərtibatı öz dövrünə görə çox yüksək səviyyədə olmuşdur (8, s. 17). İpəkdən hazırlanmış qadın baş örtükləri içərisində kəlağayı, müxtəlif örpəklər- "naz-naz" və "qaz-qaz" adı ilə tanınan örtüklər xüsusilə geniş yayılmışdı. Qədimdən ipəkçiliyin vətəni olan Ordubad mahalı və Ordubad şəhəri Naxçıvan xanlığının tərkibində olarkən əhali yenə də bu ənənəvi sənət sahəsi ilə məşğul olur, çoxlu xam ipək istehsal edirdilər. Burada ipəkdən nəfis parçalar hazırlanırdı. Bu parçalar Rusiya və Avropa bazarlarında yüksək qiymətləndirilirdi. İpəkçilik şəhər əhalisinin əsas məşğuliyyət sahələrindən biri və başlıca qazanc mənbəyi idi. Şəhərdə yaşayan bütün ailələr demək olar ki, ipəkçiliklə məşğul olurdular(15, s. 46).

Qədim tarixə malik Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Böyük İpək yolu üzərində yerləşməklə, baramaçılıq və ipəkçilik ölkə iqtisadiyyatında bütün dövrlərdə böyük rol oynamışdır. Bölgə ərazisində Ordubadla yanaşı Culfa və Əylis də ipək ixracatında əsas mərkəzlərdən sayılırdı (19, s. 60; 6, s. 79). Ümumiyyətlə, Naxçıvan bölgəsi xam ipəyin – xamnanın istehsalına görə Azərbaycanın bir sıra qabaqcıl bölgələri ilə eyni sırada dururdu. Təbriz, Marağa, Gəncə və s. bölgələrlə yanaşı, Naxçıvan iqtisadiyyatında da xamnanın geniş istehsalı böyük əhəmiyyət kəsb edirdi (78, s. 48). Böyük İpək Yolunun ilk şaxəsi cənubi Azərbaycan ərazisindən keçdiyindən, bu ərazi ilə geniş əlaqəsi olan Dərbənddə, Şirvanda, Şəkidə, Beyləqanda, Gəncədə, Qəbələdə, Təbrizdə, Naxçıvanda ipəkçiliyin inkişafına güclü təkan verilmiş, onların hər birinin ipəkçilik ticarət mərkəzinə çevrilməsinə şərait yaradılmışdır. XVI-XVII yüzilliklərdə Azərbaycanda olmuş xarici ölkə səyyahlarından A.Cenkinson, T.Olkok, C.Ren, R.Çini ipək, qızıl-gümüş saplarla bəzədilmiş nəhəng çadırlar haqqında məlumatlar vermişlər (4, s. 66). Bərdə və Ərəş mahallarından başlayan İpək yolunun mühüm bir istiqaməti Araz boyunca Naxçıvana və Culfaya qədər uzanırdı, oradan isə Təbrizə və yenə də Qərbə yönəlirdi. Bütün bu geniş şaxəli İpək yollarının köməyi və həmçinin əlverişli təbii şəraiti nəticəsində Azərbaycan uzun illər dünyanın iri ipək istehsalçısı və ticarəti mərkəzi rolunu oynamışdır. Ticarət karvanlarına xidmət etmək üçün Culfada iri ipək anbarları yaradılmışdı və buraya Azərbaycanın hər yerindən, o cümlədən Ordubaddan, Əylisdən, Vənənddən xam ipək gətirilirdi (10, s. 93).

XVI əsrin II yarısında ipək ticarətində beynəlxalq əhəmiyyətli birja rolunu Culfa şəhəri oynayırdı. Bu şəhərin tacirləri Avropanın mühüm mərkəzləri, o cümlədən Venesiya, Marsel, Amsterdam şəhərləri ilə ticarət edirdilər. Culfa tacirləri Səfəvi şahı I Təhmasibdən xarici ölkələrə ipək ticarəti aparmaq üçün inhisar hüququnu əldə etmişdilər. Yalnız Suriyanın Hələb şəhərinə Culfadan hər il 500 xərvar (eşşək yükü) Şirvan və Gilan ipəyi aparırdılar. Həmin yükü orada 18 min Osmanlı və Avropa sap dolağına dəyişir, satmaq üçün Təbrizə gətirirdilər. Culfa tacirləri Səfəvi şahları ilə sıx əlaqədə idilər. Avropa ölkələri ilə münasibətlərdə onlar tez-tez şahın xüsusi nümayəndəsi kimi çıxış edirdilər (20, s. 269;, 7, s. 8**)**. XVI-XVII yüzilliklərdə ölkənin ayrı-ayrı bölgələri arasında iqtisadi əlaqələrin güclənməsi, ictimai əmək bölgüsünün dərinləşməsi, əmtəə istehsalının artması və əmtəə təsərrüfatının təkamülü kimi mühüm iqtisadi amillərdən asılı olaraq Azərbaycan Səfəvi dövlətində daxili bazarın təşəkkülü prosesi gedirdi. İqtisadiyyatın bir sıra mühüm sahələrinin (sənətkarlıq, ipəkçilik və s.) inkişafı, əmtəə təsərrüfatının təkamülü, daxili və beynəlxalq ticarət əlaqələrinin güclənməsi bir çox şəhərlərin yüksəlişinə, bəzi qəsəbə və kəndlərin tədricən iqtisadi mərkəzlərə çevrilməsinə şərait yaratmışdı (16, s. 11-17).

Qeyd etmək lazımdır ki, orta əsrlər dövründə ipəyi qızıla bərabər tutmuşlar. Məsələn, monqolların Azərbaycana gəlişi dövründə tərəzinin bir gözünə ipək, digərinə isə qızıl qoyulurmuş. Hətta, tarixin yaddaşında belə bir fakt qalır ki, monqollar ilk dəfə Azərbaycana gələndə gəncəlilər onları başlarından etmək üçün onlara çoxlu daş-qaş versələr də, əl çəkməyiblər, yalnız xeyli ipək alandan sonra çıxıb gediblər. Monqol hücumları ipəkçiliyə ciddi ziyan vurdu, lakin onlar Azərbaycanda hakimiyyətdə möhkəmləndikdən sonra bu sahə sürətlə inkişaf etməyə başladı. X-XIII əsrlərin coğrafiyaşünasları və tarixçiləri toxuculuq sənayesinə nəzər yetirərkən Azərbaycanda şəhərlərin inkişafından bəhs etmiş, burada istehsal olunan müxtəlif növ ipək parçaları və qiymətli sapları qeyd etmişlər (7, s. 26). Azərbaycanda, o cümlədən də Naxçıvanda ipəkçiliyin inkişafı milli geyim mədəniyyətinin formalaşmasında da mühüm rol oynamışdır. Azərbaycanda ən geniş yayılmış ipək məmulatlarından qanovuz, atlaz, tafta, darayı, kəlağayı öz bədiiliyi və yüksək keyfiyyətliliyinə görə şöhrət qazanmışdı (8, s. 141-153). Ölkənin ayrı-ayrı şəhərlərində yüksək keyfiyyətli ipək parçalar hazırlanır, xarici ölkələrə də

göndərilirdi. Geyim materialları içərisində yun və ipək parçalar əsas yer tuturdu. Naxçıvan-Ordubad zonasında qadınlar tuman geyirdilər ki, həmin tumanlar müxtəlif ölçülərdə (5-12 taxta) naxışlı ipək və ya yun parçalardan tikilirdi. Həmçinin, o dövrdə bəzi şəhərlərdə qadınlar küçəyə çıxarkən çaxcur geyir və çarşaba bürünürdülər. Çaxcur və çarşablar əsasən müxtəlif çeşidli ipək parçalardan hazırlanırdı. Kişilər ən çox çərkəzi çuxa geyirdilər ki, şiş və ya dairəvi uclu əlcəkli qondarma qolunun astarı ipək parçadan tikilirdi. O dövrdə tirmə və ipək parçalardan hazırlanan üzəri əksər hallarda güləbətin tikməli araqçınlar çox geniş yayılmışdı. Həmçinin, corablar ipək və yun saplardan toxunurdu. Sənətkarlar yurdunun zərif kəlağayısı, qanovuz parçası dünya şöhrəti qazanmış, xarici bazarlarda özünəməxsus yer tutmuşdur. Naxçıvanda yerli ipəklə bərabər, yüksək keyfiyyətinə görə dünya şöhrəti qazanmış Təbriz, Ərdəbil, Ərəş ipəyindən də istifadə edilirdi. Müxtəlif parçalardan küləcə, don, çuxa, arxalıq və canamaz tikilirdi. Bununla belə, məşhur türk səyyahı Evliya Çələbinin Naxçıvan kişilərinin qələmkar parçadan köynək geyindikləri haqda məlumatı vardır (3, s. 567;, 12, s. 100). İstifadə olunan parçaların bir qismi yerli xarakter daşısa da, bir hissəsi Hindistan, İran, Türkiyə və Avropa ölkələrindən gətirilirdi.

İpəkçilik sənətindən bəhs edildikdə bədii tikmə sənətində istifadə olunan ipək sapların da xüsusi yeri olduğunu qeyd etmək lazımdır. Tikmə sənəti ilə məşğul olan ustalar yerli təbii boyalarla rənglənmiş ipək saplardan haşiyə bəzəklərində, pərdələrin, ayna örtüklərinin, yelpiklərin hazırlanmasında, saya tikmədə pastel çalarlarında, nəhəng çadırların bəzədilməsində istifadə etmişlər. “Doldurma”, “qıvırcıq”, “iynə arxası” adı ilə tanınan bədii tikmə nümunələrində rəngli ipək saplardan istifadə olunmuşdur. Bu saplar neylon və kətan qarışığından hazırlanan parçalar üzərinə işlənirdi. İpək və ipək məmulatından təkcə parça kimi deyil, eləcə də rabitədə, tibbdə, musiqi alətlərinin və digər bir çox sənətkarlıq məhsullarının hazırlanmasında geniş istifadə olunmuşdur. Məsələn, sazın pərdələri qoyun bağırsağından çəkilir və zərif ipək saplardan düzəldilirdi. Həmçinin, musiqi aləti olan rübabın, bərbətin, cəngin, rudun, qanunun, udun telləri ipək sapdan düzəldilmişdir.

Azərbaycanda ipəyin meydana çıxması və əhalinin təsərrüfat məişətində möhkəm yer tutması ölkənin orta əsr toxuculuğunda ciddi irəliləyişə səbəb olmuşdur. Ənənəvi parça istehsalının ən qiymətli xammal növü ipək olmuşdur. İpək parça istehsalı uzun texnoloji proses olmaqla baramanın açılmasından başlayır, sonra əyirilir, qaynadılıb təmizlənir, rənglənir və nəhayət ipək sap alınması ilə başa çatırdı.

Beləliklə, bir zamanlar Azərbaycanı uzaq ölkələrlə birləşdirən tarixi Böyük İpək yolu sonradan inkişafın, tərəqqinin bir simvolu kimi işlənməyə başlamışdı. Böyük İpək yolunun Azərbaycandan keçməsinə səbəb olmuş, uzun əsrlər boyu xalqımızın rifahının və şan-şöhrətinin artmasına xidmət etmiş ipəkçilik faydalı məşğuliyyət sahəsi olmaqla yanaşı, həm də qədim tariximizin və mədəni irsimizin maddi daşıyıcılarından biridir. Həmçinin, orta əsrlərdə Naxçıvanda bir çox sənətkarlıq sahələrinin inkişafı əhalinin müxtəlif məhsullara olan tələbatını yüksək səviyyədə təmin etməklə yanaşı, ticarət əlaqələrinin inkişafında da mühüm rol oynamışdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan etnoqrafiyası. 3 cilddə: I c., Bakı, Şərq-Qərb, 2007, 544 s.
2. Budaqova S. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin ikinci yarısı-XIX əsrin I qərinəsi). Bakı, Elm, 1995, 96 s.
3. Evliya Ç. Seyahatnamesi. Sadeleştiren, tevsiktemel kuran Necati Aktaş, baskıya hazırlayan Mümin Çevik: 10 cildde, I-II c., İstanbul, Üçdal Neşriyat, 1985, 767 s.
4. Əfəndiyev R. Azərbaycan xalq sənəti. Bakı, İşıq, 1984, 203 s.
5. Əhmədov N. Ordubad ipəkçiliyinin inkişafı tarixindən // NDU-nin Elmi Əsərləri. Hümanitar seriya, 1999, № 5, s. 86-89
6. Əliyev İ. Naxçıvan bölgəsi Səfəvilər dövründə. Bakı, Elm və Təhsil, 2014, 224 s.
7. Əzimli D. Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələri və Türkiyə (XV əsrin II yarısı - XVII əsrin I yarısı). Bakı, Təhsil, 2012, 282 s.
8. Hacıyev İ., Rəhimov N. Naxçıvan Muxtar Respublikası Dövlət Tarix Muzeyi (Məlumat-Bələdçi) Naxçıvan, Əcəmi, http://nakhchivan.preslib.

9. Həvilov H. Azərbaycan etnoqrafiyası. Bakı, 1991, Bakı, 2003, 94 s.
10. İsayev E. Böyük İpək yolu və Naxçıvan. Bakı, Elm və Təhsil, 2012, 214 s.
11. Kalankaytuklu M. Albaniya tarixi. Bakı, Elm, 1993, 272 s.
12. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki, Bakı, Elm, 1977, 158 s.
13. Muradoğlu N. Baba ocağı. Bakı, Elm və Təhsil, 2014, 248 s.
14. Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı, Elm, 1982, 278 s.
15. Səfərli H.Y. Ordubad şəhərinin müsəlman epiqrafikası abidələri. Bakı, MBM, 2009, 192 s.
16. Süleymanov N. Səfəvi dövlətində ölkədaxili iqtisadi əlaqələrin qurulmasinda şəhərlərin rolu // Tarix və onun problemləri, Bakı, 2013, № 3, s. 11-17
17. Ализаде А. Социально-экономическая и политическая история Азербайджана XIII–XIV.вв. Баку, Издательство Акад. Наук Аз. ССР, 1956, 420 с.
18. Гейдаров М.Х. Ремесленное производство в городах Азербайджана в XVII в. Баку, Изд-во АН Азерб. ССР, 1967, 200 с.
19. Папазян А.Д. Аграрные отношения в Восточной Армении в XVI – XVII вв. Ереван, Изд-во АН Арм ССР, 1972, 303 с.
20. Петрушевский И.П. Азербайджан в XVI-XVII веках. Сборник статей по истории Азербайджана. Выпуск I. Баку: Издательство АН Азербайджанской ССР, 1949, с. 225-297
21. Поло М. "Книга Марко Поло". Перевод со старофранцузского текста И.П.Минаева. Москва, Географгиз, 1956, 376 с.
22. Статистическое описание Закавказского края. Составил Оресть Евецкий. Санкт-петербургь: Печатано в Типографии Штаба Отдельного Корпуса Внутренней Стражи, 1835, 308 с.

## ABSTRACT

**Sara Hajiyeva, Ilhami Aliyev**

**Development of the silkworm breeding in Nakhchivan in the Middle Age**

In the article it is dealt with the development history of the of the silkworm breeding and produced silk harvests in the Nakhchivan region in the Middle Ages. It has been marked that Azerbaijan and its integral part Nakhchivan according to be locating on The Silk Way silkworm breeding farm and silkworm breeding had played the great part in the country economy in all times. Development of the silkworm breeding and being in high-level of the produced silk harvests had played the important part in expanding of the domestic trade and adjoining the connections of the foreign trade. As a result of this Azerbaijan had become the center of silkworm breeding and had known as the biggest silkworm breeding country of the East.

## РЕЗЮМЕ

**Сара Гаджыева, Ильхами Алиев**

**Щелкопроизводств в Нахчыване в эпоху среднивековья**

В статье говорится о развитии шёлководство в Нахчыванском регионе в средние века, а также сообщается о шёлковых изделиях. Отмечается, что ввиду того, что Азербайджан и его неотделимая частица Нахчыван находился на Большом шёлковом пути, а коконоводчество и шёлководство которые были развиты здесь, играл большую роль в экономике страны в все периоды его развития. Развитие шёлководства, а также производство из щелка высоко качественных товаров способствовало расширению внутренних и внешних торговых связей. Вследствие этого Азербайджан превратился в один из центров шёлководства. Азербайджан стал известен на Востоке как один из крупных шёлководческих стран.

NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *AMEA-nın müxbir üzvü Z.Şahverdiyev*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2016, № 5(79)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2016, № 5 (79)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2016, № 5 (79)**

**EMİN MƏMMƏDOV**
*Naxçıvan Muxtar Respublikası Ali*
*Məclisinin Naxçıvanşünaslıq Mərkəzi*
*emammadov87@hotmail.com*

***UOT: 94 (479.242)***

# QƏDİM ŞƏRUR BÖLGƏSİNİN ERKƏN TUNC DÖVRÜ KERAMİKASI TARİXİNDƏN (1991-2015 ci illər)

***Açar sözlər:*** *Naxçıvan, Şərur, Erkən Tunc dövrü, Kür-Araz mədəniyyəti, keramika, arxeoloji tədqiqat*

***Key words:*** *Nakhchivan, Sharur, Early Bronze Age, Kuro-Araxes culture, ceramics, archaelogical research*

***Ключевые слова:*** *Нахичеван, Шарур, Ранний Бронзовый период, Куро-Аракская культура, керамика, археологическое исследование*

Saxsı qabların hazırlanması cəmiyyətin ibtidai məşğuliyyətlərindən biri olmuş və bu proses Azərbaycanda qədim tarixə malikdir. Ümumiyyətlə arxeoloji qazıntılar zamanı əldə edilən ən mühüm maddi mədəniyyət nümunələri içərisində keramikalar olduqca böyük əhəmiyyətə malikdir. Məhz bu keramika parçalarının tədqiqi ilə abidələrin dövrləşdirilməsi və digər məsələlər barədə fikir irəli sürmək mümkün olur. Qədim Naxçıvan diyarında təşkil olunmuş arxeoloji ekspedisiyaların nəticəsində demək olar ki, tarixin bir çox dövrlərinə aid keramika məmulatları aşkar edilib öyrənilmişdir.

Naxçıvanın arxeoloji abidələrlə zəngin bölgələrindən biri qədim Şərurdur. Bu rayon ərazisində yerləşən abidələrdə aparılmış geniş tədqiqat işləri zamanı bir çox qədim dövr və mədəniyyətlərə məxsus keramika nümunələri aşkar olunmuşdur [9, s.60]. Uzun illərdir müxtəlif dövrləri əhatə edən abidələrdə həm azərbaycanlı arxeoloqlar, həm də bir sıra xarici ölkələrin arxeoloqları tərəfindən araşdırmalar aparılmış və aydın olmuşdur ki, bu ərazidə tarixin bir çox dövrlərində arasıkəsilməz yaşayış olmuşdur. Bu ərazidə tədqiq olunan abidələr içərisində Tunc dövrü, xüsusilədə onun ilk mərhələsi olan Erkən Tunc dövrü abidələrinin öyrənilməsi mühüm əhəmiyyət kəsb etmişdir. Belə ki, Erkən Tunc dövrünün daha dərindən və müasir dövrün texnologiyaları ilə tədqiqi KürAraz mədəniyyətinin və bütövlükdə Azərbaycan arxeologiya elmi üçün bir sıra vacib məsələlərin öyrənilməsinə şərait yaratmışdır.

Müxtəlif vaxtlarda qədim Şərur bölgəsində Azərbaycanın tanınmış arxeoloqlarından V.Əliyev, V.Baxşəliyev, A.Seyidov, S.Aşurov və başqaları tərəfindən Erkən Tunc dövrünə aid Ovçulartəpəsi, I və II Maxta, Ərəbyengicə, Aşağı Daşarx, Xələc, Şortəpə abidələrində arxeoloji tədqiqatlar aparılmış və bu dövrlə bağlı xeyli miqdarda keramika məmulatı aşkar edilib öyrənilmişdir.

Tədqiqatlar nəticəsində Erkən Tunc dövrü keramikasının bir sıra özünə məxsus əlamətlərə malik olması müəyyən olunmuşdur. Məlum olmuşdur ki, bu əlamətlər hətta Kür-Araz mədəniyyətini müəyyənləşdirən əsas amil rolunu oynayır. Erkən Tunc dövrü keramikası özündən əvvəlki Eneolit dövrünün saxsı məmulatından keyfiyyətinə, texniki işlənməsinə və formaların müxtəlifliyinə görə fərqlənir. Kür-Araz mədəniyyətinin saxsı qabları bir qayda olaraq, əksər halda, qum qatışıqlı yaxşı yoğrulmuş gildən hazırlanırdı.

Erkən Tunc dövrünə mənsub abidələrdən aşkar edilmiş saxsı məmulatları formalarına, naxışlanma üsullarına, hazırlanma texnologiyasına və keyfiyyətinə görə xüsusi maraq doğurur. Burada qabarıq, basma və cızma üsulu ilə verilmiş cüt spirallara, konsentrik dairələrə, rombvari, üçbucaqvari və s. naxışlara təsadüf olunur. Naxçıvan ərazisində eneolit dövründə olduğu kimi ilk tunc dövründə də dulusçular müəyyən müddət saman qatışıqlı gildən istifadə etmişlər. Bu

Ovçulartəpəsi abidəsində eneolit dövründən ilk tunc dövrünə keçid mərhələsinin ən bariz əlamətlərindən biridir.

Naxçıvanın ilk tunc dövrü abidələrindən tapılan saxsı qab nümunələri əsasən, qara, qonur, əksəriyyəti isə qara cilalıdırlar. Daha doğrusu xaricdən qara, daxildən qonur boyalıdırlar. 2001-2002-ci ildə Ovçulartəpəsində aparılan arxeoloji qazıntılar zamanı qara boyalı, cilalı badya tipli qab aşkar edilmişdir. Bu qab yaxşı bişirilmiş, boğazının yuxarı hissəsinin daxili qırmızı boyanıb və cilalanıbdır. Ovçulartəpəsi ilk tunc dövrü keramikası içərisində qara boyadan istifadə hallarına kütləvi halda rast gəlinir.

Erkən Tunc dövrünün başlanğıcında boz rəngli, üzərləri zəif sığallanmış, bəzən gillərinin tərkibində saman qatışıqları olan qablar üstünlük təşkil edir. Bu tip keramikaya II Kültəpə, Ərəbyengicə, Ovçulartəpəsi materialları içərisində rast gəlmək mümkündür. İlk tunc dövrünün bəzi qablarının tərkibində isə parçalanmış daş qatışıqlarına rast gəlinir. Bu hal yalnızca Ovçulartəpəsi üçün xarakterik deyildir. I Maxta abidəsinin ilk tunc dövrünün nisbətən sonrakı mərhələlərinə məxsus təbəqələrindən də bu tip keramika nümunələri əldə edilmişdir [1, s. 23].

Şərur abidələrində Erkən Tunc dövrü keramika məmulatlarına nəzər saldıqda aydın olur ki, bu dövrün keramikası öz simmetrikliyi ilə eneolit dövrü keramikasından fərqlənir. Eneolit dövründə qablar kobud hazırlandığı halda ilk tunc dövründə bu hazırlanma daha da təkmilləşdirilmişdir.

Erkən Tunc dövrü qablarının bişirilməsi də müxtəlifdir. Elə qablar vardır ki, pis bişirilmişdir. Pis bişirilən qablara toxunulan zaman onlar tez ovulur. Həbibullayev göstərir ki, əvvəllər xüsusi dulus kürələri olmamışdır və qablar kiçik xəndəklərdə, ocaqda və ya bu məqsədlərlə hazırlanmamış peçlərdə bişirilmişdir.

Naxçıvanın Erkən Tunc dövrü keramikası üzərində aparılan müşahidələr göstərir ki, dulusçular müxtəlif gil yataqlarından istifadə etmişlər. Məhz bu gil yataqlarının tərkibləri hazırlanmış qabların keyfiyyət xüsusiyyətlərinə və rənglərinə təsir etmişdir. Abidələrin keramika məmulatlarında fərqli rənglərə rast gəlinməsinə baxmayaraq onların formalarında, hazırlanma xüsusiyyətlərində heç bir fərq hiss olunmur. Bu bir daha təsdiq edir ki, tədqiq olunan dövrdə yaşayış məskənləri arasında güclü sənətkar əlaqələri də mövcud olmuşdur.

Arxeoloji mədəniyyətlərin müəyyənedici xarakterik xüsusiyyətlərindən biri də qabların naxışlanmasıdır. Arxeoloji ədəbiyyatlarda Erkən Tunc dövründə qabların naxışlanmasında yapma, basma, cızma, və qismən çərtmə üsullarından istifadə olunduğu qeyd edilir [1, s. 23].

Şərur bölgəsinin ilk tunc dövrü saxsı məmulatını forma müxtəlifliklərinə görə 3 böyük qrupa ayırmaq olar: Məişət və təsərrüfat keramikası, gil zoomorf fiqurlar, ocaq qurğuları. Məişət və təsərrüfat keramikasını isə öz növbəsində aşağıdakı yarımqruplara ayırmışdır. İri həcmli təsərrüfat küpləri, müxtəlif həcmli küpələr, çölməklər, nehrələr, silindrik qablar, qazanlar, kasalar, badyalar, xeyrələr, qapaqlar, yağdanlar, dairəvi gil əşyalar və asmalar, təkər modelləri, qab altlıqları [1, s. 43-44].

Tunc dövründə ən geniş yayılmış saxsı qablardan biri də küpələrdir. Ovçulartəpəsinin istər eneolit və istərsədə erkən tunc dövrünə aid təbəqələrindən aşkar olunan keramika nümunələri içərsində də məhz üstünlük təşkil edən küpələrdir. Ovçulartəpəsinin erkən tunc dövrü küpələri əsasən qara cilalıdırlar. Onlar hündür boğazlı, şar gövdəlidirlər. Oturacaqları yastı və bəzən az dabanlıdırlar. Erkən tunc dövrünün əvvəllərində hazırlanan küpələrin əksəriyyətinin gillərinin tərkibində parçalanmış daş qatışıqları vardır. Bu tip küpələrin tam yarımşar formalı qulpları olur (Şəkil 1).

Erkən Tunc dövrünə aid abidələrdə silindrik formalı saxsı qablara xeyli miqdar rast gəlinmişdir. Eneolit və ilk tunc dövrlərinə aid olan belə qablar qonur, boz və qismən qara rənglərdə olub, gilinin tərkibi bitki və xırda çınqıl qarışıqlıdır. Qulplar əsasən ilk tunc dövr üçün xarakterik olan yarımşar formada hazırlanmışdır. Bu tip qabların üzərində müxtəlif naxışlar salınmışdır. Naxçıvanın ilk tunc dövrünə aid silindrik qablarının analogiyasına Azərbaycanın və Cənubi Qafqazın həmdövr abidələrində aparılan arxeoloji qazıntı işləri zamanı rast gəlinmişdir [12, s.77].

Əsasən Arpaçay vadisində yerləşən Erkən Tunc dövrü keramikası ilə zəngin abidələrdə müxtəlif vaxtlarda qazıntı işləri aparılmışdır. Amma müstəqillik illərində burada təşkil olunan ekspedisiyalar vadinin, ümumilikdə Şərur bölgəsinin qədim dövr abidələrinin aşkar edilməsinə, tarixinin daha dərindən tədqiqinə yol açmışdır. Son illərin ardıcıl və sistemli qazıntıları nəticəsində

əldə olunan keramika və digər maddi mədəniyyət nümunələri əsasında həmin dövr insanlarının məişəti, məşğuliyyəti, təsərrüfat həyatı, insanların dünyagörüşü, inanclar sistemi və s. haqqında elmi nəticələrə nail olunmuşdur.



**Şəkil 1.** Ovçulartəpəsinin Erkən Tunc dövrü küpələri.

Naxçıvan ərazisindəki Erkən Tunc dövrü abidələrindən aşkar edilmiş zəngin keramika məmulatı Qafqazda, Cənubi Azərbaycanda və Ön Asiyada yayılmış Kür-Araz mədəniyyətinin tarixi problemlərini tədqiq etmək üçün əvəzedilməz mənbədir.

## ƏDƏBİYYAT


1. Aşurov S.H. Naxçıvanın İlk Tunc dövrü keramikası. Bakı, Nafta-Press, 2002, 158 s.
2. Baxşəliyev.V.B. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti. Bакı, Elm, 2004, 320 s.
3. Baxşəliyev V.B. Azərbaycan arxeologiyası. Bakı, Elm, 2007, 238 s.
4. Baxşəliyev V.B. Naxçıvanın arxeoloji abidələri. Bakı, Elm, 2008, 301 s.
5. Baxşəliyev V., Marro C., Aşurov S. Ovçulartəpəsi. Bakı, Elm, 2010, 154 s.
6. Baxşəliyev V.B. Naxçıvanın arxeoloji abidələri. Bakı, Elm, 2008, 304 s.
7. Zeynəb Q.K. Arpaçay vadisinin Tunc dövrü arxeoloji abidələri. Bakı, Elm və təhsil, 2014, 192 s.
8. Marro C., Bakhshaliyev V., Ashurov S. Excavation at Ovçulartepesi (Nakhchivan, Azerbaijan). Second Preliminary Report: The 2009-2010 Seasons // Anatolia Antiqua, XIX, 2011, s. 53-100
9. Seyidov A., Baxşəliyev V., Məmmədov S., Aşurov S. Qədim Şərur. Bakı, Elm, 2012
10. Seyidov A.Q., Naxçıvan e.ə. VII-II vinillikdə. Bakı, Elm, 2003
11. Seyidov A., Baxşəliyev V. Ərəbyengicə, Bakı, Nurlan, 2009, 160 s.
12. Seyidov A., Baxşəliyev V. Xələc. Bakı, Elm, 2010, 220 s.

## ABSTRACT

**Emin Mammadov**

**Early Bronze Age ceramics of ancient Sharur region**

The preparation of ceramics is ona of the primitive activities of society and this process has an ancient history in Azerbaijan. Samples of ceramics belonging to all historical ages exist in ancient Nakhchivan territory. During the excavations done in Sharur monuments lots of samples of ceramics belonging to various ancient ages and cultures have been revaled. Among these cultures the special attention is deserved the Kuro-araxes culture. The most ancient monuments of this culture such as Makhta Kultepesi, Arabyengija, Ovchulartepesi, Halaj and Shortepe are located on the Arpachay valley. Archeological excavations of these settlements revealed numerous materials and cultural remains which are important for studing the material, and also spiritual culture of the tribes occuping in Nakhchivan's territory. From this view point the study of the Early Bronze age ceramics and the lighten of Kuro-Araxes culture is the main aim of the article.



## РЕЗЮМЕ

**Эмин Мамедов**

**Керамика Раннего Бронзового периода древнего Шарурского региона**

Являясь одним из древних занятий, процесс изготовления гончарных посуд имет древнюю историю. Можно сказать, что информация о керамических изделиях пронизывает все периоды истории древнего края Нахичевани. Во время широких исследовательских работ, проведённых на памятниках Шарура, были также обнаружены образцы керамики, относящиеся ко всевозможным культурам дренего периода. Среди этих культур особое внимание заслуживает куро-аракская культура. Самые древние памятники этой культуры такие как Махта Кюльтепеси, Арабенгиджа, Овчулартепеси, Халадж и Шортепе расположены на Арпачайской долине. Археологическими раскопками этих поселений выявлены многочисленные материально-культурные остатки которые имеют важное значение для изучения материальной, а также духовной культуры племен, населявщих на территории Нахчывана. Основной целью статьи является изучение керамики Раннего Бронзового периода и освещение на его примере культуры Куро-Аракской культуры.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *AMEA-nın müxbir üzvü Z.Şahverdiyev*

**TOĞRUL XƏLİLOV**
*AMEA Naxçıvan Bölməsi*
*Email: x.toqrul@gmail.com*

***UOT: 94 (479.242)***

# NAXÇIVANIN ERKƏN TUNC DÖVRÜ DULUSÇULUQ MƏHSULLARI

***Açar sozlər:*** *dulusçuluq, erkən tunc dövrü, Naxçıvan*
***Ключевые слова:*** *гончарство, эпохо ранней бронзы, Нахчыван*
***Key words:*** *pottery, early bronze age, Nakhchivan*

İlk Tunc dövrü arxeoloji ədəbiyyatda “Kür-Araz mədəniyyəti” adı ilə tanınınır. Bu mədəniyyətə aid arxeoloji abidələr Azərbaycanın bütün bölgələrində olduğu kimi Naxçıvanda da vardır. I Kültəpə, II Kültəpə, Ovçulartəpəsi, Maxta Kültəpəsi, Xələc, Ərəbyengicə, Şortəpə və b. belə abidələrdəndir. Bu abidələrdən tapılan arxeoloji materialların kompleks şəkildə öyrənilməsi nəticəsində Ekən Tunc dövrü insanlarının həyat tərzi, məşğuliyyət və sənətkarlıq sahələri, tayfalararsı qarşılıqlı iqtisadi-mədəni əlaqələri və digər məsələləri öyrənmək mümkündür. Digər aktual məsələlər kimi Naxçıvanın Erkən Tunc dövrü dulusçuluq sənətini öyrənmək də Azərbaycan arxeologiyasında mühüm elmi əhəmiyyət daşıyır.

Dulusçuluq-gilin xüsusi formaya salınması nəticəsində ondan müxtəlif əşyaların düzəldilməsi ilə bağlı olan sənətkarlıq sahəsidir. Dulus sözünün mənşəyi qədim yunan dilində "yanıq və yanmış maddə" mənasını verən keramikostan gəlir (13, s. 3). Azərbaycanın bütün bölgələrində olduğu kimi Naxçıvanda insanlar ilk dəfə Neolit dövründə dulusçuluq sənəti ilə məşğul olaraq gildən müxtəlif məhsullar düzəltmişlər. Erkən Tunc dövründə digər sənətkarlıq sahələri kimi dulusçuluq da dövrün tələbləri səviyyəsinə uyğun olaraq inkişaf etmişdir. Onlar Neolit və Eneolit dövrlərinin dulusçu məhsullarından formasına, tipinə, ornamentlərinə və hazırlanma texnologiyasına, keyfiyyətinə və digər əlamətlərinə görə seçilmişdir. Erkən Tunc dövründə bu sənətkarlıq sahəsi ev sənəti çərçivəsindən kənara çıxaraq, tədricən ixtisaslaşmış istehsal sahəsinə çevrilmişdir. Dulusçuluğun inkişafı ilə əlaqədar olaraq keramika məmulatlarının hazırlanmasında, bişirilməsində dəyişiklər baş vermişdir. Dulusçular tərəfindən məhsulların hazırlanmasında ilk olaraq keyfiyyətli, istehsal üçün yararlı qum seçilmişdir. Çünki, yüksək keyfiyyətli gildən hazırlanmış qablar daha çox yararlı, daha çox uzun ömürlü olur. Dulusçunun istəyinə uyğun olaraq gildən yoğrulmuş qabları, hər hansı bir məhsulu müəyyən formaya salarkən onların simmetiriyasına, formasına xüsusi fikir vermişdir. Onların istifadə etdiyi palçıq növləri rənginə görə qırmızı, çəhrayı, boz və ağ rəngli olmuşdur. Yoğrulmuş palçıqları müəyyən formaya saldıqdan sonra bişirilmə prosesi zamanı onları çatlamaqdan qorumaq üçün xüsusi üsullardan istifadə etmişlər. İlk olaraq onları bir neçə gün kölgə yerdə, sonra isə günəş altında qurutmuşlar. Sonra hazırlanmış məhsulun bişirilməsi prosesini həyata keçirmişlər. Bu zaman bəzən gil qabların üzərini çatlamaqdan qorumaq üçün şüyürləmişlər. Bişirilmə prosesi zamanı dulusçu məhsullarının müxtəlif rənglərdə olmasında onların hazırlandığı gilin tərkibindəki kimyəvi birləşmələr mühüm yer tutmuşdur. Bişirilmə prosesi zamanı yoğrulmuş palçığın tərkibində olan kimyəvi birləşmələr oksidləşdirici alovun təsirindən müxtəlif rənglərə çevrilərək qabların boz, çəhrayı, qara və s. rəngli olmasına səbəb olmuşdur. Bişirilmə prosesində hər bir sənətkarın diqqət yetirdiyi bir sıra məsələlər vardır. İlk olaraq bişirilmə zamanı uyğun temperaturanın olmasına diqqət yetirilməli, bişirilən məmulatın xüsusiyyətinə uyğun alov təmin edilibdir. Bunun üçün istiliyin düzgün paylanması və dəyişmə surəti nəzarətdə saxlanılıbdır. Bişirilmə prosesi başa çatdıqdan sonra hər hansı bir dulusçu məhsulunun düzgün soyudulmasına diqqət yetirilibdir. Çünki, məhsulun keyfiyyətli olması üçün bişirilmə prosesində və bişirilmədən sonrakı dövrdə bir sıra qaydalara əməl edilməlidir. Düzgün bişirilməyən və ya düzgün

soyudulmayan məhsul deformasiyaya uğrayaraq keyfiyyətsiz olubdur. Bişirilmə prosesində ani olaraq istiliyin yüksəlməsi, soyuma zamanı istiliyin kəskin şəkildə aşağı düşməsi çatların yaranmasının əsas səbəbidir. Bişirilmə prosesindən sonra bəzi keramikaların üzərində hava qabarcıqlarının qalması bişmiş gilin tərkibində düzgün reaksiyanın getmədiyini göstərir. Dulus məhsullarının hazırlanmasında əsas yeri dulus kürələri (sobaları) tutur. Aparılan araşdırma zamanı məlum olur ki, ibtidai dulus kürələri birdən-birə yaranmamış, bunun üçün müəyyən vaxt və zaman tələb olunmuşdur. İbtidai dulus kürələri düzəldənə qədər insanlar dulusçu məhsullarını bişirmək üçün ən primitiv metodlardan istifadə etmişlər. Dulus kürələri sonradan düzəldilmişdir. Ən qədim, primitiv bişirilmə metodları dulusçu məhsullarının açıq yerdə və ya çuxurda bişirməsi olmuşdur. Hər iki metoddan dünyada geniş istifadə edilmişdir. Bu metodların tətbiqi zamanı lazım olan əsas material çoxlu miqdarda kol və çırpıdan ibarət olmuşdur. Açıq yerdə bişirmə metodu zamanı havanın küləkli olmaması əsas şərtdir. Bu metodda bişiriləcək məhsulların arasında isti havanın rahatca hərəkət etməsi üçün aralıq olaraq quru odunlar yığılaraq boşluqlar yaradılmışdır. Sonra kiçik odunlarla onun ətrafının örtülməsi tamamlanmışdır. Odunların dağılmaması üçün oçağın ətrafı daş və ya kərpiclə əhatə olunmuşdur. Odunlar alovlandıqdan sonra odun köz halına gəlməsinə qədər ona nəzarət edilmişdir. Ocağı söndürərkən közün yavaş-yavaş sönməsi üçün onun üzərinə çimən döşənmişdir. Çuxurda bişirmə metodu zamanı ilk olaraq bişəçək məhsullar torpaqda qazılmış dərin quyunun içinə qoyulmuşdur. Sonra onların üstü çoxlu sayda odunla örtülmüşdür. Odunlar yandıqca köz və isti küllər çuxurun içərisinə düşərək dulusçu məhsullarını bişirmişdir. Bu zaman çuxurda qoyulmuş hər hansı bir dulusçu məhsulunun üzərinin isti küllə tam örtülü olmasına fikir verilmişdir. Bunun üçün daha çox odun yandırılmışdır. Cəmiyyət daxilində baş verən sosial-iqtisadi dəyişiklər bütün sahələr kimi dulusçuluğun da inkişafına təsir göstərmişdir. Açıq yerdə və çuxurda bişirilmənin davamı olaraq yeni bişirilmə metodları yaranmış, müxtəlif formalı və müxtəlif adlı qədim dulusçu kürələri düzəldilmişdir. Dünyada mövcud olan "Ağ dəniz", "Sueki", "Tamba", "Əjdaha", "Yaruk Bambu", "Novoriqama" tipli dulusçu kürələrini bunu nümunə göstərmək olar (19; 6, s. 38-42). "Sueki", "Tamba", "Novoriqama" Yaponiyada, "Əjdaha" Çində, "Yaruk Bambu" Koreyada düzəldilmiş qədim dulusçu kürələrindəndir (18). Dulus kürələrinin düzəldilməsi zamanı iki əsas məsələyə diqqət yetirilmişdir. Birinci məsələ bişiriləcək məhsullar üçün örtülü kameranın yaradılmasından ibarət olmuşdur. İkinci məsələni odun yandığı manqallın dulusçu məhsullarının yığıldığı kameradan ayırmaq təşkil etmişdir. İbtidai dulus sobasını düzəldərkən insanlar ilk olaraq odun qalandığı yerin ətrafını silindrik formalı divarla künbəz şəklində hörmüşlər. Hörgü işləri tamamlandıqdan sonar künbəz şəklində olan dulusçü kürəsinin kamerasının üst hissəsində bir və ya bir neçə deşiklər açılmışdır. Kürənin üzərində deşiklərin qoyulması sobada odun yaxşı yanması üçün əlverişli şərait yaratmışdır. Bişirilmə prosesi zamanı hava yanacaq atılan deşiklərdən girərək, sobanın üst hissəsinə yığılan dulusçu məhsullarının arasından keçərək, təpədəki deşiklərdən çölə çıxmışdır. Havanın bu cür çölə çıxması kürənin içində homogen istiliyin qarşısını alaraq dulusçu məhsullarının keyfiyyətlə bişirilməsinə köməklik etmişdir. Naxçıvanda I Kültəpə abidəsinin Erkən Tunc dövrü təbəqəsindən ibtidai dulus kürələri aşkar edilmişdir. Onlar dairəvi və dördkünc planda tikilmişdir. Abidənin Erkən Tunc dövrünə aid VII (yeddinci), XI (on birinci) tikinti qatlarından aşkar edilmiş dülus kürəsinin hamısının alt hissəsi yaxşı qalmışdır. Bütün sobaların qab yığılan hissəsi tamamilə dağılmışdır (15, s. 120). I Kültəpə abidəsinin VII (yeddinci) tikinti qalıqlarından tapılmış unikal formalı dulus sobasının qalıqlarına hələlik Cənubi Qafqazdakı arxeoloji abidələrdə aşkar edilməmişdir. II Kültəpənin XI tikinti qatında aşkar olunan duzbucaqlı planlı dulus kürəsinin qalıqları bu dövrdə gil məmulatların birkameralı sobalarda bişirildiyi, kürənin yuxarı hissəsinə temperaturu tənzimləmək məqsədiylə çay daşlarının düzüldüyü haqqında tədqiqatçılar tərəfindən fikirlər söylənilmişdir (5, s. 106). Erkən Tunc dövründə Naxçıvanın dulusçuluq sənətində hansı alətlərdən istifadə olunduğu haqqında mənbələrdə bitkin fikir yoxdur. Lakin arxeoloji abidələrdən əldə olunmuş müxtəlif formalı əmək alətlərinin müqayisəli şəkildə öyrənilməsinə əsasən ehtimal etmək olar ki, bu dövrdə dulusçuluqda istifadə olunan alətlər daşdan, ağacdan, sümükdən, tuncdan olmuşdur. Bu dövrdə dulus çarxından istifadə olunması dulusçuluğa mühüm təsir göstərmiş, onun yeni inkişaf mərhələsinə qədəm qoymasına səbəb olmuşdur. Qalın divarlı qablarla yanaşı, nazik divarlı, yaxşı cilalanmış qablar da düzəltmişlər. İlk dulus çarxı əl ilə hərəkətə gətirilmişdir. O qısa

ox üzərində qurulmuşdur. Dulusçu əli ilə çarxı hərəkət etdirdikdən sonra onun fırlanmasından dayanmasına qədər olan müddət ərzində iki əli ilə qabı müəyyən formaya salmışdır. Babilistan, Misir və Hindistanda da e.ə. IV-III minilliklərdə əl ilə hərəkətə gətirilən bu tip dulus çarxından istifadə olunmuşdur (7, s. 61). Naxçıvanın Erkən Tunc dövrü dulusçuluq məhsulları gildən düzəldilmiş ocaqlardan, manqallardan, heyvan, təkər fiqurlarından, qab altılıqlarından, qablardan ibarətdir (16, s. 67, 72, 75). Onların hər biri maddi və mənəvi mədəniyyətimizin öyrənilməsində mühüm yer tutur. Gil ocaqlar nalşəkilli və düzbucaqlı formada düzəldilmişdir. Heyvan fiqurları öküz, at, it fiqurlarından ibarətdir. I Kültəpə abidəsinin Erkən Tunc dövrü təbəqəsindən, Maxta Kültəpəsindən, Ovçulartəpəsindən bu tip arxeoloji materiallar tapılmışdır. I Kültəpə abidəsindən 21 ədəd (1, s. 141), Maxtadan 4 (3, s. 65) ədəd heyvan fiquru tapılmışdır. Naxçıvanın Erkən Tunc dövrü arxeoloji abidələrindən (I Kültəpə, II Kültəpə, Ovculartəpəsi, Maxta, Ərəbyengicə, Şortəpə və s.) əldə olunmuş dulusçuluq məhsulları içərisində gil qablar çoxluq təşkil edir. Onlar boz, qara və çəhrayı rəngli, cilalı və cilasız düzəldilmişdir. Qabların hazırlandığı gilin tərkibinə iri və kiçik qum dənələr qatılmışdır. Bu qablar süfrə və təsərrüfat qabları olmaqla iki qrupa bölünürlər. Süfrə qablarının gilinin tərkibinə narın, təsəttüfat qablarının tərkibinə iri qum dənələri qatılmışdır. Gil qabların xarakterik xüsusiyyətləri bu dövrə aid qabların çoxunun ağız kənarının düzbucaqlı şəkildə xaricə çıxması, onların ağızlarının iki tərəfdən bir qədər içəri yığılması və simmetrik olmasıdı. Bəzi qabların ağzının kənarı isə bir qədər qalın, relsşəkilli formada düzəldilmişdir. II Kültəpə arxeoloji abidəsindən əldə olunmuş bu cür qabların bir qrupunun bənzərləri Göytəpədə abidəsinin Erkən Tunc dövrü təbəqəsindən tapılmışdır (Aşurov, 2002: 108). Ağzının kənarı qalın, relsşəklində düzəldilmiş qablar Şərqi Anadoluda geniş yayılmışdır. Qara rəngli keramikalar içərisində şar gövdəli, düz oturacaqlı, silindirik boğazlı üzərində qabın ağzı ilə gövdəsini birləşdirən yarımşar şəkilli və ya oküz burnu formalı qulp olan qablar çoxluq təşkil edir. Bu tip qulplar Erkən Tunc dövrünün xarekterik xüsusiyyətlərindəndir. Naxçıvanın Erkən Tunc dövrü arxeoloji abidələrinin bir qrupundan, o cümlədən Plovdağdan aşkar olunan keramika məmulatları içərisində elmi ədəbiyyatlarda "camış dərisi rəngli" keramika adı ilə tanınan qəhvəyi gilli qabların bənzərlərinin Giyan, Mussiana və Suzda geniş yayıldığı qeyd olunmuşdur (10, s. 167). Erkən Tunc dövrünə aid qabların naxışlanmasında oval və ya dairəvi batıqlardan, ziqzaq, svastika, S, M və s. formalı işarələrdən, buynuz, spiral formalı ornamentlərdən, müxtəlif həndəsi, daraqvari formalı naxışlardan, qabarıq, məməcikşəkilli çıxıntılardan, sxematik quş, müxtəlif heyvan, antropomorf rəsimlərdən istifadə edilmişdir. Qabların üzərinə naxışlar çızma, çərtmə, basma, qabartma texniki üsulları ilə vurulmuşdur. Bu naxışlardan hər biri dulusçuların sənətkarlıq vərdişləri ilə yanaşı dini-ideoloji görüşləri ilə bağlılıq təşkil edir. Naxışlar sadə və mürəkkəb süjetlidir. Onlar həm yerli xüsusiyyət daşıyır, həm də digər mədəniyyətlərlə bənzərlik təşkil edir (şəkil 1). Fikrimizi əsaslandırmaq üçün arxeoloji mənbələrə nəzər salsaq görərik ki, üzəri oval və ya dairəvi ornamentlərlə bəzədilmiş gil qablar dünyanın bir çox bölgələrindəki Erkən Tunc dövrü abidələri kimi Naxçıvandan da kifayyət qədər aşkar edilmişdir. Naxçıvanda bu tip qablar I Kültəpə, II Kültəpə, I Maxta arxeoloji abidələrindən, Cənubi Azərbaycanda isə Göytəpə abidəsindən tapılmışdır (4, s. 50; 8, s. 33-36). I Maxta yaşayış yerindən əldə olunmuş qabların bir çoxunun üzəri Naxçıvanın digər Erkən Tunc dövrü abidələrindən tapılan keramikalar kimi çızma naxışlarla bəzədilmişdir (17, s. şəkil 27). I Kültəpə abidəsindən tapılmış üzərində qabartma üsulu ilə çəkilmiş M formalı naxışlı gil qablar (1, s. 133). Yanıqtəpə abidəsindən əldə edilmiş bir qrup qablarla bənzərlik təşkil edir (11, s. 89). Azərbaycanda Babadərviş, Şərqi Gürcüstanda Amiranisqora, Anakliya abidələrindən bu tip ornamentli keramikalar əldə olunmuşdur (20, s. 26, 68). I Kültəpə (1, s. 127), II Kültəpə (2, s. 123) yaşayış yerlərindən əldə olunmuş üzəri zıqzaq ornamentlərlə naxışlanmış gil qablar Cənubi Qafqazın (19, s. 166), Ön Asyanın (14, s. 852) həmdövr arxeoloji abidələrdən tapılmış bir qrup qablarla bənzərlik təşkil edir. S ornamentli keramikaların bənzərləri Yanıqtəpə, Amiranisqora abidələrindən tapılmışdır (20, s. 28). Spiral, svastika, buynuz ornamentlərinin bənzərləri də dünyanın müxtəlif bölgələrindən tapılan qayaüstü təsvirlərdə, keramika məmulatlarının üzərində aşkar edilmişdir .

Aparılan araşdırma nəticəsində sonda onu qeyd etmək olar ki, Naxçıvanın Erkən Tunc dövrü sənətkarlıq sahələri içərisində dulusçuluq özünəməxsus yer tutur. Həmin dövrdən başlayaraq

dulusçuluğun ev sənəti çərçivəsindən kənara çıxaraq tədricən ixtisaslaşmış istehsal sahəsinə çevrilməsi nəticəsində bu sənətkarlıq sahəsi inkişaf etməyə başlamışdır. Onun inkişaf etməsi nəticəsində əvvəlki dövrlədən fərqli olaraq dulusçu məhsullarının həm çeşidləri çoxalmış, həm də keyfiyyətli olmuşdur. Onların forma və xüsusiyyətlərinə görə müxtəlif olması dulusçu məhsullarının hamısının eyni sənətkarlar tərəfindən düzədilmədiyini, müxtəlif sənətkar emalatxanalarının məhsulu olduğunu sübut edir.

## ƏDƏBİYYAT


1. Абибуллаев О. Энеолит и бронза на территории Нахичеванской АССР, Баку, Элм, 1982, 314 с.
2. Алиев В. Культура эпохи средней бронзы Азербайджана, Баку, Элм, 1991, 256 с.
3. Aşurov S. Naxçıvanın İlk Tunc dövrü keramikası. Bakı, Elm, 2002, 158 s.
4. Baxşəliyev V. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti. Bakı, Elm, 2004, 320 s.
5. Baxşəliyev V. Azərbaycan arxeologiyası. Bakı, Elm, 2007, 236 s.
6. Daniel Rhodes Kilns: Design, Construction and Operation Hardcover, Hardcover, 2008, 291 s.
7. Əhmədov Q. (1989) Bu günə necə gəlib çıxmışıq. Bakı, Az. SSR EA, 1989, 118 s.
8. Əliyev V., Aşurov S. Maxta Tunç dövrü abidələri //Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları. Bakı, Elm, 1992, s. 33-36
9. Əliyev V., Məmmədov A. II Kültəpədə yeni tədqiqatlar (2010-cu il) // Azərbaycanda arxeoloji tədqiqatlar-2010, Bakı, 2011, 126-135
10. İbrahimli B., Qədirzadə H., Xəlilov T., Qədirzadə T. Plovdağ yaşayış yerində aparılmış arxeoloji qazıntı işləri // Azərbaycanda arxeoloji tədqiqatlar- 2010, Bakı, 2011, s. 161-169
11. Кушнарева К., Чубиншвили Т. Древние кутьтуры Южного Кавказа. Ленинград, 1970, 191 с.
12. Кушнарева К., Марковин В. Эпоха бронзы Кавказа и Средней Азии. Ранняя и Средняя бронза Кавказа (Очередной том многотомного фундаментального издания по археологии), Москва, Наука, 1994, 384 с.
13. MEGEP (Mesleki eğitim ve öğretim sisteminin güçlendirilmesi projesi) Seramik ve cam şekillendirme antik form şekillendirme, Ankara, 2008, 56 s.
14. Sevin V., Özfırat A., Kavaklı E. Van-Karagündüz Höyüğü Kazıları (1997 Yılı Çalışmaları), Belleten LKIII/238, 2000, s. 847-882
15. Сейдов А. Памятники кура-аракской культуры Нахичевани. Баку, Билик, 1993, 164 с.
16. Сейдов А. Раннебронзовая культура Нахчывана. Воронеж, ВГТУ, 2002, 193 с.
17. Seyidov A. Naxçıvan e.ə. VII-II minilliklərdə. Bakı, Elm, 2003, 339 s.
18. https://www.academia.edu/6231124/seramikte_odunlu_pişirim_geleneği_uzakdoğunun_yüksek_derece_firinlari (Sevim Çizer)
19. www.academia.edu/6234207/çanakkale_örneğinde_bati_anadolu_sermikçiliğinin_ege_adalarindaki_uzantiları (Sevim Çizer).


## ABSTRACT


**Togrul Khalilov**


**Early bronze age pottery products of Nakhchivan**


Kneading clay, clay mixed correction of a variety of products, made in connection with the cooking area of the craft. As in all regions of the world in Azerbaijan, Nakhchivan, this is an integral part of the history of ancient pottery. Pottery Neolithic period in Azerbaijan, as well as in all regions of the Nakhchivan people in a variety of products made from clay for the first time. The Early Bronze Age pottery and other crafts, such as the level in accordance with the requirements developed. It goes beyond mastery of the art of area home gradually become specialized in the field of manufacturing. In connection with the preparation of the development of pottery, ceramics,

cooking changes have occurred. Neolithic and Chalcolithic periods potters form of products, type, ornaments and the technology, quality and other attributes were selected. In addition to mixed potters clay vessels of various products (hearths, braziers, animal, wheel figures, toxins etc.) with cook the special methods. Early Bronze Age archaeological monuments of Nakhchivan ( Kultepe I, Kultepe II, Ovchulartepe, Makhta, Arabyenjica, Shortapa etc.) of pottery from the pottery are in the majority. They are gray, black and pink, made of polished and polishing. The containers are divided into two groups of kitchen and household utensils. Plates over the oval or circular patterns, zigzag, "S", "M" shaped signs, horn, spiral, geometric, comb shaped ornaments decorated. It is distributed in various regions of the world like some ornaments. Both of these characters, as well as the mark have been used in front of the Turkish culture.

**РЕЗЮМЕ**

**Тогрул Халилов**

**Гончарные продукты в Нахчыване эпохи ранней бронзы**

Замес из глины, глины, смешанной коррекции различных продуктов, сделанные в связи с кухонной зоной ремесла. Как и во всех регионах мира в Азербайджане, Нахчыване, это является неотъемлемой частью истории Древней керамики. Керамика неолита в Азербайджане, а также во всех регионах Нахчыванской людей в различных изделий из глины для с в первый раз. В начале бронзового века керамика и другие ремесла, такие как уровень в соответствии с требованиями, разработанными. Она выходит за рамки овладения искусством домашней зоны постепенно становятся специализированными в области производства. В связи с подготовкой развитии керамики, керамики, изменения произошли пищи. Были выбраны неолитической и енолитической периоды гончары форма изделий, типа, украшения и технологии, качество и другие атрибуты. В дополнение к смешанных гончаров глиняных сосудов различных продуктов (очагов, мангалы, животного, колесные фигур, токсинов и т.д.) с готовить специальные методы. Ранней бронзы археологические памятники Нахчывана (Кюльтепе I, II Кюльтепе, Овчулартапа, Макта и.т.д.) керамики из керамики являются в большинстве. Они серый, черный и розовый, сделаны из полированной и полировки. Продукты делятся на две группы кухни и домашней утвари. Плиты более овала или круговой модели, зигзаг, "S", "M" образные знаки, рог, спирали, геометрические, расческа в форме украшения оформлены. Он распространяется в различных регионах мира, как некоторые украшения. Оба этих символов, а также метки были использованы в передней части турецкой культуры.

NDU-nun Elmi Şurasının 31oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *AMEA-nın müxbir üzvü Z.Şahverdiyev*



*1-I Maxta (Seyidov, 2003), 3, 4, 11, 12 II Kültəpə (Сеидов, 2002), 21-II Kültəpə (Сеидов, 1993) 2, 10, 13, 24- I Kültəpə (Абибуллаев, 1982) 5, 8, 17-Plur, Karaz (Şərqi Anadolu) (Кушнарева, Марковин, 1994); 6, 9,14, 25-Babadərviş (Кушнарева, Марковин, 1994); 15, 16-Yanıqtəpə (Кушнарева, Чубинишвили, 19760); 7, 20, 26- Amiranisqora, Anakliya (Şərqi Gürcüstan) (Кушнарева, Марковин, 1994); 18-İran yaylası; 21-Gəmiqaya; 22-Qobustan; 23-Saymalı taş (Qırğızıstan); 27-Türküstan; 28-Şəmkir rayonu.*

**Şəkil I. Naxçıvanın Erkən Tunc dövrü keramikaları üzərindəki ornamentlərin yaxın paralelləri**

# SOSİAL ELMLƏR VƏ HÜQUQ

**MƏMMƏD RZAYEV**
*Naxçıvan Dövlət Universiteti*
*mamedrazi@mail.ru*

***UOT:008.39***

## SİVİLİZASİYALARARASI DİALOQDA ŞƏXSİYYƏT AMİLİ

***Açar sözlər:*** *Şəxsiyyət, mədəniyyət, cəmiyyət, sivilizasiya, dialoq*
***Ключевые слова:****Идентичность, культура, общество, цивилизация, диалог*
***Key words:*** *İdentity, culture, society, civilization, dialogue*

Tarixin bütün mərhələlərində olduğu kimi müasir dövrdə də şəxsiyyət ilə mədəniyyət bir-birindən ayrılmazdır. Mədəniyyət, onun inkişaf səviyyəsi və mövcud mədəni mühit şəxsiyyətin formalaşmasında müstəsna dərəcədə böyük rol oynayır. Həmin amillər şəxsiyyətin davranışı, nail olmağa çalışdığı məqsədlərə və bütövlükdə fəaliyyətinə güclü təsir göstərir.

Hər bir cəmiyyətdə şəxsiyyətin varlıq üsulu mədəni-tarixi xarakter daşıyır. Məhz mədəni-tarixi prosesin tərəqqisi gedişində şəxsiyyət də inkişaf edir, onun mənəvi dünyası daha da zənginləşir. Onun yaratdığı nailiyyətlər şəxsiyyətin mənəvi sərvətlərinə çevrilir. Şəxsiyyət sözügedən prosesdə yaradılan dəyərləri sadəcə əxz etmir, onlara dəyişdirici münasibət bəsləyir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: «Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir və onların mədəniyyəti bu yolla inkişaf edir» (1, 54).

Bu günün reallıqları mədəniyyət ilə şəxsiyyətin münasibətlərinin prinsipcə yeni şəkildə qavranılmasına doğru dönüş yaradır. Məsələ bundadır ki, insanı əhatə edən bütün həyat dünyası mədəniyyətyaradıcı əhəmiyyət kəsb edir. Mədəniyyət insanın mövcudluğunun bütün rəngarəng təzahür formalarında getdikcə daha çox məna alır. İnsan, onun xüsusi anlaşılan mədəni inkişaf səviyyəsinin necə olmasından asılı olmayaraq «mədəniyyət insanı» kimi çıxış edir. İnsanın mədəniyyətdəki varlığı heç də həmişə sözün əsl mənasında şüurlu səviyyədə qavranılmır, lakin o həmişə insanın mədəni dünyaya təbii mənsubiyyətinin yaşanması, hiss olunması deməkdir. Buna görə də fərdin mədəniyyətə münasibəti mədəni ənənələrin, dilin, adət ənənələrin–bütövlükdə mədəni mühiti təşkil edən amillərin qorunub saxlanılması və möhkəmləndirilməsi vəzifəsini ifadə edir. Sözügedən baxımdan yanaşdıqda şəxsiyyətin mədəniyyət aləmində varlığı, onun real həyat prosesi kimi çıxış edir (2, s. 42).

Müasir cəmiyyətin ümummədəni mühitinin transformasiyası prosesində şəxsiyyətin başqa subyektlərə münasibəti də böyük əhəmiyyət kəsb edir. Belə ki, cəmiyyətin ümumi vəziyyətini və inkişaf perspektivini əks etdirən yeni mədəniyyət nümunələri məhz subyektlərarası qarşılıqlı təsir sferasında yaranır.

Müasir şəxsiyyət tipini mədəniyyət mövqeyindən araşdırarkən aşağıdakı məqam mütləq nəzərə alınmalıdır. Söhbət bu problemə dinamik vəziyyətdə yanaşmağın, onu real proseslərlə bağlı şəkildə götürməyin zəruriliyindən gedir. Məsələnin mahiyyəti bundadır ki, indi ictimai həyatın bütün sferalarında və tərəflərində baş verən əsaslı dəyişikliklər özünün müvafiq əksini bu dövrün şəxsiyyətində və onun mədəniyyətində də tapır. Həm də onların qarşılıqlı əlaqələri dinamik xarakter kəsb edir. O, öz məzmununa görə zəngin olub aşağıdakı üç istiqamətdə özünü göstərir: 1) insanın şəxsiyyəti və mədəniyyəti arasında kortəbii və stixiyalı, təbii qarşılıqlı təsir; 2) onlar arasında ictimai şüur formaları (elm, incəsənət, əxlaq, fəlsəfə), kütləvi şüur və ictimai psixologiya tərəfindən formalaşdırılan mədəniyyət simvollarının sabit sistemi vasitəsilə yaranan spesifik

qarşılıqlı təsir, 3) insanın şüuru, onun psixikası, aktiv, yaradıcı təbiəti ilə şərtlənən dəyişdirici mənəvi və maddi fəaliyyətdə ifadə olunan qarşılıqlı təsir (3, s. 227).

Müasir şəxsiyyət rəngarəng mədəni keyfiyyətlərə malik olmasına baxmayaraq əsasən iki sivilizasiya mərkəzinin (Şərq və Qərb) orbitində fəaliyyət göstərir. Şərq və Qərb bütün tarix boyu bir-birilə qarşılıqlı təsirdə inkişaf edərək yüksəlmiş, eyni zamanda aralarındakı münasibətlərdə müxtəlif çətinliklər və ziddiyyətlər də özünü göstərmişdir. Bu baxımdan əsrlərdən bəri davam edən Şərq və Qərb sivilizasiyalarının münasibətləri məsələsi müasir dövrdə daha tez-tez müzakirə olunur. Hər iki regionun gələcəyi, onların nailiyyətləri və üstünlüklərini üzvi əlaqələndirmək yolu ilə vahid dünya birliyinin yaradılıb yaradılmayacağına dair mübahisələr bu gün də səngimək bilmir. Təbii ki, bu halda söhbət həm də şəxsiyyətin Şərqin və Qərbin əldə etmiş olduğu mədəni və mənəvi nailiyyətlərə münasibətini də gündəmə çıxarır.

Müasir şəxsiyyət tipinin formalaşmasında mədəniyyətin böyük rolu həm də bunda ifadə olunur ki, baş verən əsaslı dəyişikliklər nəticəsində insanın mənəvi aləmində müxtəlif və çox vaxt da ziddiyyətli xarakter daşıyan məqamlar özünü göstərir. Belə şəraitdə insanın öz varlığının mənasını dərk etməyə yönələn axtarışları sürətlənir. Sonuncuların yolu isə əsas etibarilə mənəvi dəyərlərin yenidən mənalandırılması və mədəniyyət ənənələrinə müraciət etməkdən keçir. Sözügedən prosesdə şəxsiyyət müasir Şərqin və Qərbin mədəni dəyərlərini bir-birilə müqayisə edir, onlardan üstün hesab etdiyinə bəraət qazandırır, onlara meyl edərək, öz həyat fəaliyyətində yerinə yetirməyə çalışır. Sonuncu hal onu sübut edir ki, indi şəxsiyyət özünün düçar olduğu mənəvi böhrandan çıxış yolunu həm də mütərəqqi hesab etdiyi mədəniyyətdə, sivilizasiyada görür.

Son zamanlar elmi ədəbiyyatda Şərq mədəniyyəti və Qərb mədəniyyəti onlar arasında qarşılıqlı təsir problemləri ətraflı təhlil edilməyə başlanmışdır. Bu təsadüfi olmayıb onunla izah edilir ki, bu iki böyük regionun mədəniyyət sahəsində və mənəvi dəyərləndirici istiqamətdə tarixi və siyasi statuslarında diqqəti çəkən və bu günkü baxımdan cəlbedici görünən cəhətlər yetərincədir. Həm də nəzərdə tutulmalıdır ki, bu göstəricilər üzrə onlar arasında ümumi, spesifik və fərqləndirici cəhətlər kifayət qədərdir (4, s. 82).

Ümumilikdə götürdükdə Şərqin mədəni potensialı daha çox dinin güclü olması, cəmiyyətin ənənəvi təşkili, şəxsiyyətin sosial-etik səpkisinin güclülüyü ilə seçilir. Qərb isə daha çox cəmiyyətin industriallaşması, dövlət quruculuğunun demokratizmi, yüksək, texnoloji inkişaf və ictimai həyata onun güclü təsiri ilə səciyyələnir. Sonuncu amillərin güclü olması Qərbdə çox vaxt şəxsiyyətdə texnofobiya adlı vəziyyəti (texniki inkişafdan qorxuya düşmək və buna görə ondan üz döndərmək cəhdi) yaradır. Texnofobiya elə bir şəraiti ifadə edir ki, burada texniki priyomlar və obyektlər insan tərəfindən onun varlığı üçün təhlükə kimi qəbul olunur. Bu fikir kütləvi şüur səviyyəsində də geniş yayılmağa başlayır (5, s. 298-299).

Qeyd etmək lazımdır ki, sovet hakimiyyəti dövründə ideoloji həyatda hökmranlıq edən marksist fəlsəfənin siyasi kollektivizmə yüksək yer verməsi və fərdiliyi ümumi içərisində əridib itirməsi, avrasiyaçıların müvafiq baxışlarının geniş yayılmasına əlverişli qida vermişdi. Avropa sivilizasiyası isə şəxsiyyətin hüquq və azadlıqlarının qorunmasına daha çox təminat verir. Lakin bu məqamı həddən artıq şişirtmək doğru olmazdı. Belə ki, industril cəmiyyətin fonunda şəxsiyyətin individuallığı məsələsi yalnız mənəvi və mədəni sferalara aid edilir. Həmin məqama diqqət yetirərək məşhur amerikan politoloqu C.Qelbreyt göstərirdi ki, indistrual sistemdə şəxsiyyətin müəyyən bir problemi yaranır ki, bu istehsalda və istehlak sferasında fərdiyyətçiliyin məhv edilməsini tələb edir. Sonra o, sözünə davam edərək həyəcanla bildirir ki, «biz hamımız insan şəxsiyyətinin suverenliyi və toxunulmazlığı ideyasına tərəfdar çıxırıq, lakin insan şəxsiyyətini necə xilas etmək olar və ümumilikdə onu xilas etmək mümkündürmü?» (6, s. 379).

Şərqin və Qərbin daxili həyat və təfəkkür formalarını dərindən araşdırdıqda məlum olur ki, Şərq təfəkkürünün və həyat formalarının müəyyən elementləri Qərbdə yayılmışdır. Eynilə də Qərbin sözügedən sahələrdəki elementləri Şərqdə özünə yer tapmışdır (7, s. 83-84).

Ümumiyyətlə Şərq və Qərb sivilizasiyalarının qarşılıqlı münasibətləri haqqında son dərəcə müxtəlif fikirlər söylənilməkdədir. Tədqiqatçıların bir qrupu göstərirlər ki, Şərq Qərb ilə eynidir, onlar arasında o qədər də dərin fərqlər yoxdur. Digərləri ayrı-ayrılıqda onlaran hər

birinə məxsus olan spesifikliyi vurğulasa da, aralarında ümumi və oxşar cəhətlərin olduğunu qəbul edir. Bəziləri isə qeyd edirlər ki, Şərq ilə Qərb bir-birindən o qədər fərqlənir ki, onlar arasında hər hansı ciddi təmas əlaqələri ola bilməz.

Əlbəttə, Şərq ilə Qərb sivilizasiyalarının mədəniyyətində, insanların həyat və təfəkkür tərzində müəyyən özünəməxsusluqlar da vardır ki, onları nəzərdə tutmaq vacibdir. Məsələn, Şərqdə belə bir fikir əsas yer tuturdu ki, mövcud olan hər şey yarandığı gündən mükəmməl xarakter daşıyır, buna görə də bütün cəhdlər həmin mükəmməlliyi qoruyub saxlamağa yönəlməlidir. Odur ki, burada insanın yaradıcılığı demək olar ki, qəbul olunmur və qadağan edilirdi. Sonra, Şərqdə ekoloji problem də Qərbdəkindən fərqlənir. Şərq ictimai fikrində təbiətə münasibətdə belə bir mövqe hakim idi ki, təbiət də mükəmməl varlıq kimi yaranıb, buna görə də onu olduğu kimi qoruyub saxlamaq, ona müdaxilə etməmək, onu korlamamaq lazımdır. Qərb ictimai şüurunda isə uzun müddət təbiətdən mərhəmət gözləməmək, onu özümüzə tabe etmək «şüarı» hakim yer tutmuşdur.

Müasir şəraitdə bütövlükdə bəşəriyyətin və eləcə də hər bir insan şəxsiyyətinin əsas mənafeləri Şərq və Qərb arasında dialoqu genişləndirməyi zəruri edir. Bu tələbat indi həmişəkindən daha güclüdür. Hazırda hansı regionda yaşamasından asılı olmayaraq, bütün insanlar sanki bir gəmidə üzürlər. Buna görə də həm Şərqin, həm də Qərbin tarixi və milli-mədəni ənənələrində onları ayıran və fərqləndirən cəhətlərdən daha çox, bu sivilizasiya növlərinə xas olan ümumi və oxşar cəhətləri axtarıb tapmaq və geniş təbliğ etmək (onlar isə kifayət qədərdir), qarşılıqlı anlaşmaya və razılığa aparan yollarla getmək vacibdir. Bu münasibətdə XX əsrin görkəmli filosofu A.Şveytserin aşağıdakı sözləri prinsip kimi qəbul oluna bilər. «Təsəvvür edək ki, Avropa və hind fəlsəfəsi arasında disput keçirilir: onlardan hər birinin özünün müstəsna dərəcədə doğru olduğunu iddia etmək hüququ vardır. Çünki hər ikisi hədsiz dərəcədə qiymətli ideyalar xəzinəsinin mənbəyidir. Odur ki, Qərb və Şərq üçün, onlar arasında keçmişdə olmuş bütün tarixi fərqlərin fövqünə yüksələrək, bəşəriyyət üçün vahid fikir tərzi işləyib hazırlamaq zəruridir (7, s. 56).

Beləliklə, mənəvi mədəniyyət və onun şəxsiyyətə təsiri baxımından Şərq-Qərb münasibətləri problemi olduqca mürəkkəb olub, özündə çoxlu istiqamətləri və tərəfləri əhatə edir. Bununla bağlı məsələləri nəzərdən keçirərkən şəxsiyyətin individual keyfiyyətlərinin formalaşmasında mühüm rol oynayan mənəvi dəyərlərin və mədəni sərvətlərin spesifikliyi ilə bağlı cəhətləri, digər tərəfdən isə onların universal xarakter daşıyan keyfiyyətləri ayrılmaz vəhdətdə götürülməlidir. XX əsrin tarixi, dünya ölkələri arasında münasibətlərin inkişafı, onların əməkdaşlığı və birliyinin artması, eyni zamanda dövrün qlobal problemlərinin və ümumi taleyüklü məsələlərin həllində tarixi məsuliyyətin dərk olunması ilə əlamətdardır.

Müasir dünyada gedən siyasi və mədəni proseslər güman etməyə əsas verir ki, bəşəriyyətin sağlam düşüncəsi Şərq və Qərb sivilizasiyalarının qarşıdurmasını aradan qaldıracaq, onların qarşılıqlı əlaqələrini daha da möhkəmləndirəcəkdir. Bu sivilizasiyalar arasında geniş miqyaslı dialoqu möhkəmləndirmək, həmin mədəniyyətlərin ayrı-ayrılıqda hər birinə xas olan müsbət cəhətləri əlaqələndirmək və onlardan şəxsiyyətin formalaşması və inkişafı naminə istifadə etmək müasir Azərbaycan cəmiyyəti üçün daha çox spesifikliyə malikdir. Belə ki, ölkəmiz coğrafi məkan baxımından hər iki sivilizasiyanın qovuşma sərhəddində yerləşdiyi üçün bir tərəfdən burada (hər iki mədəniyyətə xas olan mütərəqqi cəhətləri əlaqələndirmək üçün) daha əlverişli şərait yaranır. Digər tərəfdən Azərbaycan həm Şərq, həm də Qərb mədəni dəyərlərinin özünəməxsus şəkildə toqquşma meydanı kimi çıxış edir. Belə vəziyyətdə cəmiyyətimizin hər bir üzvü qarşısında mənəvi dəyərlər labirintində düzgün seçim edə bilmək zərurəti mühüm əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT


1. Heydər Əliyev. Müstəqillik yolu. Bakı, 1997
2. Быстрицкий Е.К. Личность в мире культуры (философско-онтологический аспект) Автореф. дис. док. философ наук. Киев, 1992

3. Социология на пороге XXЫ века. М, 1998
4. Məmmədova S. Şərq-Qərb problemi: tarix və müasirlik. Fəlsəfə. Ekologiya. Mədəniyyət. 18-ci buraxılış, Bakı, 1993
5. Современная западная философия. Словарь. М, 1991
6. Арсеньев А.С. Философские основания понимания личности. М, 2001
7. Восток-Запад. Исследования. Переводы. Публикаций. М.,1988

## ABSTRACT

**Mammad Rzayev**

**On personality factor in dialogue betwen civilizations**

Modern personality acts mainly in the orbit of two civilization centers despite that he has colourful cultural feattures. The analysis of the problem shows up the relation of the personality towards cultural and moral achievements of East and West.

In the article the impact of cultures in formation and development of personality factor in between civilizations are attracted to the analysis.

## РЕЗЮМЕ

**Мамед Рзаев**

**Фактор личности в системе диалога цивилизаций**

В статье рассматриваются вопросы влияния культуры на формирование и развитие личности, анализируется специфика этого влияния в орбите двух центров культурных ценностей в современный период развития всеобщей мировой цивилизации, что является актуальным для азербайджанского общества, синтезирующего в себе прогрессивные стороны западных и восточных ценностей.

NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

**ƏMİR ƏLİYEV**
**PƏRVİNƏ İSMAYILOVA**
*Bakı Dövlət Universiteti*

***UOT:342.7***

# BEYNƏLXALQ VƏ MİLLİ HÜQUQDA MƏDƏNİ HÜQUQLARIN TƏSNİFATI

***Açar sözlər:*** *mədəni hüquqlar, insan hüquqları, beynəlxalq sənədlər, konstitusiya, mədəniyyət, idarəetmə, qanunvericilik, dövlət siyasəti, universal hüquqlar, hüquq və azadlıqlar.*

***Key words:*** *Cultural rights, international law, international documents, constitution, culture, management legislation, state policy, universal rights, rights and freedom*

***Ключевые слова:*** *культурные права, права человека, международные документы, конституция, культура, управление, законодательство, государственная политика, универисальные права, права и свободы*

İnsanın mədəni hüquq və azadlıqları konstitusiya və qanunlarla təmin olunan xüsusi kompleks insan hüquq və azadlıqlarıdır ki, onlar insanın mədəni və elmi sahədə özünü realizə etməsinə imkan yaradır. Elmi ədəbiyyatda mədəni hüquq və azadlıqlar kateqoriyasına nəyin aid edilməsi haqqında vahid fikir yoxdur. Nəzərə almaq lazımdır ki, insan və vətəndaşın hüquq və azadlıqlarının məzmun və siyahısı daimi dinamikadadır və cəmiyyətin inkişafı ilə şərtlənmişdir. Azərbaycanda mədəni hüquqların məzmun və növlərinə respublikamız beynəlxalq konvensiyalara qoşulması əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

Həm Avropa, həm Rusiya, həm də yerli müəlliflər mədəni hüquq və azadlıqları iqtisadi və sosial hüquqlar qrupunda nəzərdən keçirirlər.

Meyjes Greq qeyd edir ki, mədəniyyət və incəsənətlə bağlı olan mədəni hüquqların məqsədi insanların mədəniyyətə çıxışının və seçdikləri mədəni həyatda iştirakının təmin edilməsidir. İnsan hüquqlarının bir hissəsi olan mədəni hüquqlar bərabərlik, insan ləyaqəti və ayrı-seçkilik etməmək şəraitində mədəniyyət və onun komponenetlərinin təmin edilməsinə yönəlmişdir [14, 381-438].

İ.Merali, Valerie Oosterveld və digər müəlliflər insan hüquqlarının reinteqrasiyası ilə bağlı tədqiqatlarında da mədəni hüquqları ayrıca deyil, iqtisadi, sosial və mədəni hüquqlar kompleksində araşdırırlar [11]. Rusiyalı müəlliflərdən N.S.Bondar, A.V.Malko mədəni hüquqları iqtisadi və sosial hüquqlar qrupuna aid edirlər [5, 240]. M.V.Baqlay təhsil hüququ, yaradıcılıq azadlığı, mədəni həyatda iştirak kimi hüquq və azadlıqları sosial-iqtisadi hüquqlar kompleksinə daxil edir [4, 215-246]. Hüquq ədəbiyyatlarında digər müəlliflər (V.N.Butılin) də iqtisadi, sosial və mədəni hüquqları bir qrupda birləşdirərək mədəni hüquqlara – təhsil hüququ, yaradıcılıq azadlığı, mədəni həyatda iştirak hüquqlarını aid edir [6, 39-43].

Əcnəbi müəlliflərlə yanaşı, yerli müəlliflər də mədəni hüquqlar və onların təsnifatı ilə bağlı mühüm fikirlər irəli sürmüşlər. Ə.İ.Əliyev qeyd edir ki, mədəni hüquqlar insanın mənəvi inkişafını təmin edir, hər bir fərdə siyasi, mənəvi, sosial və mədəni tərəqqinin layiqli iştirakçısı olmağa kömək edir. Bunlara aşağıdakılar daxildir: təhsil, mədəni sərvətlərdən istifadə imkanı, cəmiyyətin ictimai həyatında sərbəst iştirak, yaradıcılıq, elmi tərəqqinin nəticələrindən istifadə etmək və onların praktiki tətbiqi [1, 168].

Mədəni hüquqların təsnifatı və növləri ilə bağlı məsələlər sadəcə hüquq ədəbiyyatları səhifələrində deyil, beynəlxalq səviyyədə qəbul edilmiş sənədlərdə də öz təsbitini tapmışdır.

Ümumdünya İnsan hüquqları Bəyannaməsinin qəbul olunmasından sonra, mədəni hüquqlar universal, regional və milli səviyyələrdə bəyan edilməklə ümumdünya xarakteri aldı. Bəyannamənin 27-ci maddəsində qeyd edilir ki, hər bir insan, cəmiyyətin mədəni həyatında iştirak etmək, incəsənətdən həzz almaq, elmi tərəqqidə iştirak etmək və onun nemətlərindən istifadə etmək hüququna malikdir. Hər

bir insan, müəllifi olduğu elmi, ədəbi və bədii əsərlərin nəticəsi olan mənəvi və maddi mənafelərinin müdafiə olunması hüququna malikdir [13, 9].

Bəyannamənin 26-cı maddəsi təhsil hüququnu bəyan edir. Həmin maddədə qeyd edilir ki, hər bir insan təhsil almaq hüququna malikdir. Təhsil ən azı ibtidai və ümumi səviyyələrdə pulsuz olmalıdır. İbtidai təhsil məcburi olmalıdır. Hamının texniki və peşə təhsili almaq imkanı olmalıdır və hər bir insanın qabiliyyəti əsasında hamının eyni dərəcədə ali təhsil almaq imkanı olmalıdır. Təhsil insan şəxsiyyətinin tam inkişafına və insan hüquqlarına və əsas azadlıqlara hörmətin artırılmasına yönəldilməlidir. Təhsil bütün xalqlar, irqi və dini qruplar arasında qarşılıqlı anlaşmaya, dözümlülüyə və dostluğa yardımçı olmalı və BMT-nin sülhün qorunub saxlanması ilə bağlı fəaliyyətinə köməklik göstərməlidir.

Göründüyü kimi, 1948-ci il Bəyannaməsində mədəni hüquqların aşağıdakı təsnifatı aparılır: təhsil hüququ; cəmiyyətin mədəni həyatında iştirak etmək; incəsənətdən həzz almaq; elmi tərəqqidə iştirak etmək; elmi tərəqqinin nemətlərindən istifadə etmək; mənəvi və maddi mənafelərinin müdafiəsi hüququ.

Ümumdünya İnsan hüquqları Bəyannaməsi mədəni hüquqların təsnifatını aparmaqla yanaşı, onların realizəsi imkanını da müəyyən etmişdir. Belə ki, Bəyannamənin 28-ci maddəsində qeyd edilir ki, hər bir insan, hazırkı Bəyannamədə ifadə edilən hüquq və azadlıqların tam şəkildə həyata keçirilməsinə şərait yaradan sosial və beynəlxalq idarə üsulu hüququna malikdir.

1948-ci il Bəyannaməsinin müddəalarını inkişaf etdirərək 16 dekabr 1966-cı il tarixli iqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt təhsil və mədəni hüquqları təsbit etməklə, ümumilikdə mədəni hüquqların aşağıdakı təsnifatını verir: təhsil hüququ; mədəni həyatda iştirak etmək; elmi tərəqqinin nəticələrindən və onların praktiki tətbiqindən istifadə etmək; müəllifi olduğu hər hansı elmi, ədəbi, yaxud incəsənət əsərlərinin nəticəsində meydana çıxan maddi və mənəvi maraqların müdafiəsindən istifadə etmək.

Paktin 15-ci maddəsinə əsasən bu Paktda iştirak edən dövlətlərin bu hüququ tam şəkildə həyata keçirmək üçün görəcəyi tədbirlər sırasına elmi və mədəni nailiyyətlərin mühafizəsi, inkişafı və yayılması üçün vacib olanlar da daxildir. Bu Paktda iştirak edən dövlətlər elmi tədqiqatlar və yaradıcılıq fəaliyyəti üçün qeyri-şərtsiz olaraq lazım olan azadlığa hörmət etməyi öhdələrinə götürürlər. Bu Paktda iştirak edən dövlətlər elmi və mədəni sahələrdə beynəlxalq əlaqə və əməkdaşlığın həvəsləndirilməsi və inkişafından irəli gələn faydanı təsdiq edirlər [10].

Bəzən beynəlxalq hüquq normaları mədəniyyət sferasında insan hüquq və azadlıqlarının daha geniş spektrini müəyyən edir. Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında 2005-ci il oktyabrın 20-də YUNESKO-nun 33-cü sessiyasında qəbul edilmiş Konvensiya İnsan hüquqları və əsas azadlıqlarına hörmət prinsipini təsbit edir.

Konvensiyada qeyd edilən prinsipin izahı belə açıqlanır ki, Mədəni müxtəlifliyin qorunması və təşviqi ancaq ifadə, informasiya və kommunikasiya, fərdlərin mədəni özünüifadə formasını seçmək imkanı kimi insan hüquq və azadlıqlarının təmin olunduğu təqdirdə mümkündür. Heç bir kəs İnsan hüquqlarının Ümumi Bəyannaməsində nəzərdə tutulmuş və beynəlxalq hüquq ilə təminat verilmiş insan hüquq və azadlıqlarına qəsd etmək və ya onları məhdudlaşdırmaq məqsədilə bu Konvensiyanın müddəalarından istifadə edə bilməz.

Regional səviyyədə mədəni hüquqların təsnifatı ilə bağlı müddəalar insan hüquqlarına dair ayrı-ayrı regional beynəlxalq hüquqi aktlarda müəyyən edilmişdir. İnsan hüquqları və vəzifələri haqqında Amerika Bəyannaməsi (12 və 13-cü maddələr) mədəni hüquqların aşağıdakı təsnifatını aparmışdır: təhsil hüququ; cəmiyyətin mədəni həyatında iştirak etmək; incəsənətdən faydalanmaq; əqli inkişafın nəticələrindən yararlanmaq; müəllifi olduğu elmi və bədii yaradıcılıq əsərlərinə münasibətdə maddi və mənəvi maraqlarının müdafiəsi [9].

İnsan hüquqları haqqında Amerika Konvensiyasına 1988-ci il tarixli İqtisadi, sosial və mədəni hüquqlar sahəsində Əlavə Protokolun 13 və 14-cü maddələrində aşağıdakı mədəni hüquqlar müəyyən edilmişdir: təhsil hüququ; cəmiyyətin mədəni və incəsənət həyatında iştirak etmək; elmi və texnoloji tərəqqinin faydasından yararlanmaq; müəllifi olduğu elmi və bədii yaradıcılıq əsərlərinə münasibətdə maddi və mənəvi maraqlarının müdafiəsi [8].

İnsan və xalqların hüquqları haqqında Afrika Xartiyasının 17-ci maddəsi mədəni hüquqları təsbit etməklə aşağıdakıları müəyyən edir: təhsil hüququ; cəmiyyətin mədəni həyatında iştirak

etmək [12]. Afrika Xartiyası digər universal və regional beynəlxalq hüquqi aktlardan fərqli olaraq təhsil hüququnu digər mədəni hüquqlarla bir yerdə (yəni vahid maddədə) təsbit edir.

Mədəni hüquqların təsnifatı beynəlxalq hüquqi aktlarla yanaşı, dövlətlərin milli qanunvericiliklərində də öz təsbitini tapmışdır.

AR Konstitusiyası və qanunlarına əsasən aşağıdakı mədəni hüquq və azadlıqlar müəyyən edilmişdir: təhsil hüququ; əqli mülkiyyət hüququ; mədəniyyət hüququ; ana dilindən istifadə hüququ; vicdan (etiqad) azadlığı; yaradıcılıq azadlığı.

Mədəni hüquqlar arasında təhsil hüququ özünəməxsus yer tutur, belə ki, təhsil hüququ həm beynəlxalq, həm də milli qanunvericilik aktlarında ayrıca təsbit olunur. 1948-ci il Ümumdünya İnsan hüquqları Bəyannaməsinin 26-cı maddəsi təhsil hüququnu bəyan edir. Həmin maddədə qeyd edilir ki, hər bir insan təhsil almaq hüququna malikdir. Təhsil ən azı ibtidai və ümumi səviyyələrdə pulsuz olmalıdır. İbtidai təhsil məcburi olmalıdır.

Hamının texniki və peşə təhsili almaq imkanı olmalıdır və hər bir insanın qabiliyyəti əsasında hamının eyni dərəcədə ali təhsil almaq imkanı olmalıdır. Təhsil insan şəxsiyyətinin tam inkişafına və insan hüquqlarına və əsas azadlıqlara hörmətin artırılmasına yönəldilməlidir. Təhsil bütün xalqlar, irqi və dini qruplar arasında qarşılıqlı anlaşmaya, dözümlülüyə və dostluğa yardımçı olmalı və Birləşmiş Millətlər Təşkilatının sülhün qorunub saxlanması ilə bağlı fəaliyyətinə köməklik göstərməlidir.

1966-cı il İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 15-ci maddəsi də təhsil hüququnu bəyan edir. Bu maddəyə əsasən Bu Paktda iştirak edən dövlətlər hər bir şəxsin təhsil hüququnu tanıyırlar. Onlar razılaşırlar ki, təhsil insan şəxsiyyətinin tam inkişafına və ləyaqətinin dərk olunmasına yönəldilməli, insan hüquqlarına və əsas azadlıqlara hörməti möhkəmləndirməlidir. Onlar daha sonra razılaşırlar ki, təhsil hamıya azad cəmiyyətin faydalı iştirakçısı olmaq imkanı verməlidir, bütün millətlər, irqi, dini və etnik qruplar arasında qarşılıqlı anlaşmaya, dözümlülüyə və BMT-nin sülhü qoruma sahəsində fəaliyyətinə yardım etməlidir.

1966-cı il Patkı təhsil hüququnun realizəsi ilə bağlı müddəalar da bəyan etmişdir. Bu Paktda iştirak edən dövlətlər etiraf edirlər ki, bu hüququn tam şəkildə həyata keçirilməsi üçün:

a) ibtidai təhsil hamı üçün icbari və pulsuz olmalıdır. b) Orta təhsil və onun müxtəlif formaları, orta texniki-peşə təhsili də daxil olmaqla, bütün tədbirlər görmək, xüsusilə və tədricən pulsuz təhsilə keçmək yolu ilə açıq və hamıya müəssər olmalıdır. c) Ali təhsil bütün lazımi tədbirlərin, xüsusilə də tədricən pulsuz tədrisin tətbiq edilməsi yolu ilə hər kəsə qabiliyyətinə görə eyni dərəcədə müəssər olmalıdır. d) İbtidai təhsil alma, ibtidai təhsil almamış və ya onu tam bitirməmiş şəxslər üçün imkan dairəsində həvəsləndirilməli və intensivləşdirilməlidir. e) Məktəblər şəbəkəsinin fəal inkişafı həyata keçirilməli, qənaətbəxş təqaüd sistemi təyin olunmalı və müəllim heyətinin maddi vəziyyəti daim yaxşılaşdırılmalıdır.

AR Konstitusiyasının 42-ci maddəsi təhsil hüququnu bəyan edir. Qeyd edilir ki, hər bir vətəndaşın təhsil almaq hüququ vardır. Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir. Maddi vəziyyətdən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir. Dövlət minimum təhsil standartlarını müəyyən edir.

Konstitusiyanın qeyd edilən maddəsindəki ümumi müddəalar Təhsil haqqında 19 iyun 2009-cu il tarixli Qanunda konkretləşdirilmişdir. Bu Qanun vətəndaşların Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş təhsil hüququnun təmin edilməsi sahəsində dövlət siyasətinin əsas prinsiplərini və təhsil fəaliyyətinin tənzimlənməsinin ümumi şərtlərini müəyyən edir, təhsilin ayrı-ayrı pillələri üzrə müvafiq qanunların və digər normativ hüquqi aktların qəbul edilməsində baza rolunu oynayır. Azərbaycan Respublikasında təhsil dünyəvi və fasiləsiz xarakter daşımaqla, vətəndaşın, cəmiyyətin və dövlətin maraqlarını əks etdirən strateji əhəmiyyətli prioritet fəaliyyət sahəsidir. Azərbaycan Respublikasında təhsil insan hüquqları haqqında beynəlxalq konvensiyalara və Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrə əsaslanır, təhsil sahəsində milli-mənəvi və ümumbəşəri dəyərlərin prioritetliyi əsasında dünya təhsil sisteminə inteqrasiya olunaraq inkişaf edir.

Əqli mülkiyyət hüququ Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Sənaye nümunələrinin beynəlxalq təsnifatının təsisi haqqında Lokarno Sazişi, Beynəlxalq patent təsnifatı haqqında

Strasburq Sazişi, Patent proseduru məqsədləri üçün mikroorqanizmlərin depozitləşdirilməsinin beynəlxalq tanınması haqqında Budapeşt Müqaviləsi kimi beynəlxalq sənədlərdə öz təsbitini tapmışdır. Respublikamız qeyd edilən beynəlxalq sənədlərə tərəfdar çımışdır.

Əqli mülkiyyət hüququ AR Konstitusiyası ilə tanınmışdır. Konstitusiyanın 30-cu maddəsinə əsasən hər kəsin əqli mülkiyyət hüququ vardır. Müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun başqa növləri qanunla qorunur.

Əqli mülkiyyət və onun müdafiəsi sferasında əsas qanunvericilik aktı 22 may 2012-ci il tarixli Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında AR Qanunudur. Bu Qanun Azərbaycan Respublikası əqli mülkiyyət hüquqlarının müdafiəsinin təmin edilməsi, əqli mülkiyyət hüquqları sahiblərinin maraqlarının qorunması və bu sahədə hüquqpozmaların, o cümlədən müvafiq əqli mülkiyyət obyektlərinin nüsxələrinin qeyri-qanuni istehsalı və yayılmasının qarşısının alınması ilə bağlı yaranan münasibətləri tənzimləyir.

Qanuna əsasən əqli mülkiyyət hüquqları müəlliflik hüququnun obyekti olan əsərlərə, ifalara, fonoqramlara, yayım təşkilatlarının verilişlərinə, inteqral sxem topologiyalarına, məlumat toplularına, folklor nümunələrinə (ənənəvi mədəni nümunələrə), ixtiralara, faydalı modellərə, sənaye nümunələrinə, əmtəə nişanlarına, coğrafi göstəricilərə hüquqlardır [2].

Əqli mülkiyyət hüquqları sahəsində bu Qanunda nəzərdə tutulmayan məsələlər Azərbaycan Respublikasının Konstitusiyası, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Patent haqqında", "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında", "Məlumat toplularının hüquqi qorunması haqqında", "İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında", "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikasının qanunları, digər normativ hüquqi aktlar və Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənir.

Mədəniyyət hüququ da konstitusion hüquqlar sırasındadır. Konstitusiyanın 40-cı maddəsində qeyd edilir ki, Hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır. Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır.

Mədəniyyət hüququ sahəsində konkret qanunvericilik aktı Mədəniyyət haqqında 21 dekabr 2012-ci il tarixli Qanundur. Bu Qanun Azərbaycan Respublikasında dövlət mədəniyyət siyasətinin məqsəd və prinsiplərini, mədəniyyət fəaliyyəti subyektlərinin hüquq və vəzifələrini, mədəniyyət sahəsində hüquqi, təşkilati, iqtisadi və sosial təminatları müəyyən edir, mədəni sərvətlərin yaradılması, toplanması, tədqiqi, təbliği və qorunması sahəsində yaranan münasibətləri tənzimləyir.

Qanunda mədəniyyət terminine anlayış verilərək qeyd edilir ki, mədəniyyət – ədəbiyyat və incəsənət daxil olmaqla, cəmiyyətin və ya sosial qrupların maddi, mənəvi, intellektual və emosional xüsusiyyətlərini müəyyənləşdirən, insanların həyat tərzini, birgə yaşayış qaydalarını, mənəvi dəyərlər sistemini əhatə edən xüsusiyyətlərin məcmusudur.

Qanunda mədəniyyət sahəsində aşağıdakı hüquq və azadlıqlar bəyan edilir: mədəni həyatda iştirak etmək hüququ; mədəni özünəməxsusluq hüququ; yaradıcılıq azadlığı; xaricdə mədəniyyət fəaliyyəti hüququ; mədəniyyət sahəsində mülkiyyət hüququ; mədəni sərvətlərlə xarici ticarət; mədəniyyət sahəsində sahibkarlıq hüququ; mədəniyyət müəssisələrindən və mədəni sərvətlərdən istifadə etmək hüququ; mədəniyyət sahəsində təhsil hüququ; mədəniyyət sahəsində məlumat azadlığı [3].

Yuxarıda qeyd edilən hüquq və azadlıqlar arasında Mədəni həyatda iştirak etmək hüququ, Mədəni özünəməxsusluq hüququ, Mədəniyyət müəssisələrindən və mədəni sərvətlərdən istifadə etmək hüququ həm beynəlxalq sənədlərdə, həm də müxtəlif ölkələrin konstitusiya və qanunlarında demək olar ki, eynidir.

Azərbaycan Respublikasında mədəni həyatda iştirak etmək hüququ dövlət tərəfindən təmin edilir. Hər kəs öz mədəniyyət kimliyini və ona uyğun həyat tərzini müəyyən etməkdə, yaradıcılıq fəaliyyətini seçməkdə, mədəni sərvətlərin yaradılmasında, mədəni nemətlərdən bərabər istifadə etməkdə tam sərbəstdir.

Mədəni özünəməxsusluq hüququ ilə bağlı qeyd edək ki, hər kəsin öz milli mədəni özünəməxsusluğunu qoruyub saxlamaq, mədəniyyət kimliyini müəyyən etmək, mənəvi, estetik və digər dəyərlərini sərbəst seçmək hüququ vardır. Mədəniyyət cəmiyyətləri öz mədəni özünəməxsusluğunu təbliğ etmək və inkişaf etdirmək və öz tarixi mədəniyyət məkanlarını bərpa etmək hüququna malikdir. Dövlət

istənilən mədəniyyət cəmiyyətinin özünəməxsusluğunun qorunmasına və inkişafına dəstək göstərir.

Ana dilində istifadə hüququ əsasən çoxmillətli dövlətlər üçün xüsusi önəm kəsb edir. Bu onunla bağlıdır ki, müxtəlif adət və ənənələrin özünü ifadəsində dil ilkin və əsaslı rol oynayır. Ana dilində istifadə hüququ növbəti komponentləri özündə əks etdirir: a) milli (ana) dilindən istifadə; b) ünsiyyət, təhsil, yaradıcılıq üçün sərbəst dil seçimi; c) ana dilinin qorunması və inkişafı hüququ; ç) ana dilinin dövlət müdafiəsi hüququ.

Ana dilində istifadə hüququ fikir, söz azadlığı, hərəkət etmək azadlığı, toplaşmaq azadlığı, ədalətli məhkəmə araşdırması hüququ ilə əlaqəlidir.

Respublikamızda bu hüququn normativ bazasını AR Konstitusiyasının 45-ci maddəsi təşkil edir. Həmin maddədə qeyd edilir ki, hər kəsin ana dilindən istifadə etmək hüququ vardır. Hər kəsin istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ vardır. Heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz.

Vicdan (etiqad) azadlığı növbəti meyarları özündə cəmləşdirir: a) fərdi və kollektiv şəkildə istənilən dinə etiqad etmək; b) sərbəst şəkildə din seçmək; c) öz dini mülahizələrinə uyğun hərəkət etmək; ç) hər kəsin istənilən ideoloji nəzarətdən azad olması; d) dini dəyərlərin seçimində sərbəstlik.

AR Konstitusiyası vicdan azadlığını təsbit edir. Konstitusiyaya əsasən hər kəsin vicdan azadlığı vardır. Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır. Dini mərasimlərin yerinə yetirilməsi, ictimai qaydanı pozmursa və ya ictimai əxlaqa zidd deyildirsə, sərbəstdir.

Dini etiqad və əqidə hüquq pozuntusuna bəraət qazandırmır. Heç kəs öz dini etiqadını və əqidəsini ifadə etməyə (nümayiş etdirməyə), dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur edilə bilməz.

Yaradıcılıq azadlığının nüvəsini hər kəsin sərbəst şəkildə öz seçiminə uyğun yaradıcılıqla məşğul ola bilməsi imkanı dayanır. Yaradıcılıq azadlığı həvəskar və peşəkar yaradıcılığı nəzərdə tutur [7, 70]. AR Konstitusiyasına müvafiq olaraq, Hər kəsin yaradıcılıq azadlığı vardır. Dövlət ədəbi-bədii, elmi-texniki və başqa yaradıcılıq növlərinin azad həyata keçirilməsinə təminat verir.

## ƏDƏBİYYAT


1. Əliyev Ə. İnsan hüquqları. Dərslik. Hüquq Ədəbiyyatı Nəşriyyatı, Bakı, 2013, s. 168
2. Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanunu. Bakı şəhəri, 22 may 2012-ci il. 365-IVQ
3. Mədəniyyət haqqında Azərbaycan Respublikası Qanunu. Bakı, şəhəri, 21 dekabr 2012-ci il № 506-IVQ
4. Баглай М.В. Конституционное право Российской Федерации. с. 215-246.
5. Бондарь Н.С. Права человека и местное самоуправление: Дисс. ... д-ра юрид. наук: 12.00.02. - Ростов н/Д, 1997, с.240
6. Бутылин В.Н. Государственно-правовой механизм охраны конституцион¬ных прав и свобод граждан. М., 2001., с. 39-43
7. Мишин Ю.Д. Конституционно-правовой режим авторского права в Российской Федерации: дисс. канд. юрид. наук. М., 2002., с. 70
8. Additional Protocol to the American Convention on Human Rights in the Area of Economic, Social and Cultural Rights "Protocol of San Salvador" Adopted in San Salvador on November 17, 1988
9. American Declaration of Human Rights and Duties of Man. (Adopted by the Ninth International Conference of American States, Bogotá, Colombia, 1948
10. International Covenant on Economic, Social and Cultural Rights. Adopted and opened for signature, ratification and accession by General Assembly resolution 2200A (XXI) of 16 December 1966.entry into force 3 January 1976, in accordance with article 27
11. Isfahan Merali and Valerie Oosterveld. Giving Meaning to Economic, Social, and Cultural Rights. Pennsylvania Studies in Human Rights. Philadelphia, 2001
12. Malcolm Evans, Rachel Murray. The African Charter on Human and Peoples' Rights. The

System in Practice 1986–2006 Second edition.Cambridge University Press. 2008
13. Martin J.Paul. Twenty-four Human Rights Documants. Center for the Study of Human Rights. Columbia University. 1992, p. 9
14. Meyjes, Gregory Paul P. (2012). "Multi-Ethnic Conflicts in U.S. Military Theatres Overseas: Intercultural Imperatives". In Franke, Volker; Dorff, Robert H. Conflict Management: A Tool for U.S. National Security Strategy (PDF). Carlisle, PA: Strategic Studies Institute, U.S. Army War College. pp. 381–438.

## ABSTRACT

**Amir Aliyev,**
**Parvina İsmayilova**

**The doctor of the " International Special law and European law"department**

**Cultural rights on international and national law**

The article deals with the classification of the cultural rights on international law norms and intergovernmental legislation. The difference wiew points of the law literature was noted in this direction .The explanation of the cultural law was given in our Constitution. There is no single opinion about what to include to the category of cultural law and freedom. It must be take into consideration that the content and list of the citizen, people's rights and freedom is always changing and conditioned with the development of society. The joining of our Republic to international copnventions play an important role in the content and types of the cultural law.

The problems dealing with the classification and types of the cultural law was also reflected not only in law literatures but also in the documents which was adopted as international level. After the accepting the Universal decalaration of human rights cultural rights became universal, regional and national.

## РЕЗЮМЕ

**Амир Алиев,**
**Парвина Исмаилова**

В стаье проведена классификация культурных прав, отраженных в международных правовых норм и внутригосударственных законодательствах. В этом направлении рассмотрены разногласия мнений, имеющихся в литературе по праву, даны разъяснения культурных прав, зафиксированных в конституции. Обосновано, что культурные права и свободы человека являются специальными комплексными правами и свбодами, регулируемыми конституцией и законодательством, что позволяет человеку реализовать себя в культурной и научной сферах. Автор подчеркивает, что в научной литературе нет единой мысли о том, что относится к категории культурным правам и свободе человека. Поэтому следует учесть, что содержание и список права и свободы человека и гражданина вечно находятся в динамическом развитии и обусловлены развитием общества. И в Азербайджане на содержание и виды культурных прав оказало значительное влияние присоединение нашей республики к международным конвенциям. Классификация и виды культурных прав нашла свое отражение не только на страницах литературы по праву, но и в документах, принятых на международном уровне. Так, после принятия Всемирной Декларации по правам человека культурные права стали носить международный характер на универисальном, региональном и национальном уровнях.

NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

**ELMAN CƏFƏRLİ**
*Naxçıvan Dövlət Universiteti*
*E-mail: ecaferli@mail.ru*

***UOT:342***

# KEÇMİŞ SSRİ KONSTİTUSİYALARINDA MUXTAR RESPUBLİKALARLA BAĞLI HÜQUQİ NORMALAR VƏ NAXÇIVAN MUXTARİYYƏTİ

***Açar sözlər:*** *SSRİ, konstitusiya, muxtar respublika, Naxçıvan muxtariyyəti, Ali Sovet, seçkilər*
***Keywords:*** *USSR, constitution, autonomous republic, Nakhchivan autonomy, Supreme Council, elections*
***Ключевые слова:****СССР, конституция, автономная республика, Нахчыванская автономия, Верховный Совет, выборы*

1924-cü il yanvarın 31-də SSRİ ikinci Sovetlər qurultayının qərarı ilə 2 bölmə, 11 fəsil, 72 maddədən ibarət SSRİ Konstitusiyası (Əsas Qanunu) təsdiq edildi [17]. Konstitusiyanın ilk bölməsinə "Sovet Sosialist Respublikaları İttifaqının yaradılması haqqında Bəyannamə" daxil edilmişdi. "Müqavilə" adlanan ikinci bölmə 9 milli respublikanın; RSFSR, Ukrayna, Belorus, ZSFSR (Azərbaycan, Gürcüstan və Ermənistan sosialist sovet respublikalarından ibarət tərkibdə), Türkmənistan, Özbəkistan və Tacikistan sosialist sovet respublikalarının Sovet Sosialist Respublikaları İttifaqında birləşdiyini bildirən cümlə ilə başlayır və Konstitusiyanın ikinci bölməsinin bütün qalan mətnini əhatə edirdi. Konstitusiyanın 4-cü maddəsində hər bir müttəfiq respublikanın ittifaqdan azad şəkildə çıxmaq hüququnu özündə saxladığını qeyd edilirdi. Başqa sözlə, SSRİ hüquqi cəhətdən formal olaraq federasiya kimi təşkil olunmuşdu [3, s 190].

1924-cü il SSRİ Konstitusiyasında muxtariyyətlərlə bağlı hüquqi müddəalar geniş əks olunmamışdı. Yalnız 9-cu maddədə SSRİ-nin ali hakimiyyət orqanı olan Sovetlər qurultayının şəhərlərdə 25 min nəfər seçiciyə 1, kəndlərdə isə 125 min nəfər əhaliyə 1 deputat seçilməklə təşkil edildiyi bildirilirdi. Burada muxtar respublika və muxtar vilayətlərin sovetlər qurultayında SSRİ Sovetlər qurultayına nümayəndələrin seçilməsi məsələsi öz əksini tapsa da (maddə 10), Naxçıvan muxtariyyətinin həmin dövrdə SSRİ Sovetlər qurultayında təmsilçilik hüququnun olmadığını söyləmək mümkündür. Çünki 1925-ci il yanvarın 1-nə olan məlumata görə, Naxçıvan SSR əhalisinin sayı 91079 nəfər (15054 nəfər şəhər, 76.025 nəfər kənd əhalisi olmaqla) idi [6, v. 16].

Bununla belə, ikipalatalı SSRİ Mərkəzi İcraiyyə Komitəsinin Millətlər Şurasının (digər palata İttifaq Şurası adlanırdı – E.C.) müttəfiq respublikaların və muxtar respublikaların hər birindən 5 nəfər, muxtar vilayətlərin isə 1 nəfər nümayəndə ilə təmsilçiliyi prinsipi üzrə təşkil olunması nəzərdə tutulmuşdu (maddə 15). Bu norma Naxçıvan MSSR-ə də SSRİ Mərkəzi İcraiyyə Komitəsinin Millətlər Şurası palatasında özünün 5 nəfər nümayəndəsi ilə iştirakına imkan verirdi. Çünki bu zaman Konstitusiyada Millətlər Şurasının təşkili üçün hər hansı seçici və ya əhali kvotası deyil, birbaşa təmsilçilik norması müəyyənləşdirilmişdi. SSRİ Mərkəzi İcraiyyə Komitəsinin İttifaq Şurasını isə SSRİ Sovetlər qurultayı özünün müttəfiq respublikaların əhalisinin sayına proporsional olaraq müəyyən etdiyi nümayəndəlik norması üzrə seçirdi.

Konstitusiya SSRİ Mərkəzi İcraiyyə Komitəsinə SSRİ Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin, müttəfiq respublikaların Sovetlər qurultaylarının, mərkəzi icraiyyə komitələrinin və SSRİ ərazisindəki başqa hakimiyyət orqanlarının dekretlərini, qərar və təlimatlarını ləğv etmək hüququnu tanıyırdı (maddə 20). Bundan əlavə, SSRİ Xalq Komissarları Soveti yanında Sovet Nəzarəti Komissiyası mərkəzdə öz aparatı, respublika, diyar və vilayətlərdə isə nümayəndələri vasitəsi ilə hökumət qərarlarının icrasına sistematik nəzarəti həyata keçirirdi (maddə 39). Hər iki konstitusion müddəa onu deməyə əsas verir ki, artıq 1924-cü il ilk SSRİ Konstitusiyası müttəfiq

respublikaların, o cümlədən də muxtariyyətlərin hakimiyyət orqanlarının qəbul etdiyi hər hansı bir qərarı asanlıqla ləğv edə, mərkəzi hakimiyyətin istənilən qərarının məcburi icrasını təmin edə bilərdi [3, s. 190-191].

1936-cı il dekabrın 5-də SSRİ Fövqəladə səkkizinci Sovetlər qurultayı SSRİ-nin 13 fəsil, 146 maddədən ibarət ikinci Konstitusiyasını [18] qəbul etdi. Əgər əvvəlki Əsas Qanunda SSRİ-yə daxil olan müttəfiq respublikaların sayı doqquz (RSFSR, Ukrayna, Belorusiya, Azərbaycan, Gürcüstan, Ermənistan (ZSFSR), Özbəkistan, Tacikistan və Türkmənistan) idisə, yeni Konstitusiyanın 13-cü maddəsində SSRİ-nin on bir "bərabərhüquqlu respublikanın könüllülük prinsipi əsasında yaranan ittifaq dövləti" olduğu qeyd edilirdi. Qazaxıstan və Qırğızıstan ittifaqa yeni daxil edilən respublikalar idi.

Konstitusiyanın "Dövlət quruluşu" adlanan II fəslinin 14-cü maddəsində "yeni diyar və vilayətlərin, həmçinin ittifaq respublikasının tərkibində yeni muxtar respublikanın yaradılması" ali hakimiyyət və dövlət idarə orqanlarının simasında SSRİ-nin səlahiyyətinə aid edilirdi. Hər bir sovet respublikasının dövlət hakimiyyətini müstəqil həyata keçirdiyi qeyd olunub (maddə 15), SSRİ-dən sərbəst çıxmaq hüququ saxlanılsa da (maddə 17), bunun hüquqi cəhətdən yenə də formal xarakter daşıdığı şübhə doğurmur.

Azərbaycan SSR-in tərkibində Naxçıvan MSSR-in və Dağlıq Qarabağ Muxtar Vilayətinin olduğu göstərilirdi (maddə 24). İttifaq Konstitusiyasının 35-ci maddəsində ikipalatalı SSRİ Ali Sovetinin Millətlər Şurasında hər müttəfiq respublikanın 25, hər muxtar respublikanın 11, muxtar vilayətlərin 5, muxtar mahalların isə 1 deputat kvotası ilə təmsilçilik norması müəyyən edilirdi. Azərbaycanın ərazisində bir muxtar respublika və bir muxtar vilayətin olmasını nəzərə alaraq, Azərbaycan SSR-in Millətlər Şurasında 37 deputatla təmsil olunduğunu söyləmək olar [3, s. 191]. SSRİ Ali Sovetinin İttifaq Soveti isə hər 300 min seçiciyə bir deputat olmaqla bütün SSRİ üzrə yaradılan seçki dairələrində seçilirdi. Konstitusiya müttəfiq respublikalara öz tərkibindəki muxtar respublikaların konstitusiyalarını təsdiq etmək, onun ərazisinin sərhədlərini müəyyənləşdirmək (maddə 60), respublikaların xalq komissarları sovetlərinə muxtar respublikaların xalq komissarları sovetlərinin qərar və sərəncamlarının qüvvəsini dayandırmaq, onları ləğv etmək hüququ verirdi (maddə 82).

1936-cı il SSRİ Konstitusiyasının VII fəsli (89-93-cü maddələr) "Muxtar Sovet Sosialist Respublikalarında dövlət hakimiyyətinin yüksək orqanları" adlanırdı. Muxtar respublikada dövlət hakimiyyətinin yuxarı orqanı MSSR-in Ali Soveti idi. Muxtar respublikanın Ali Soveti respublikanın vətəndaşları tərəfindən muxtar respublikanın konstitusiyası ilə müəyyənləşdirilən təmsilçilik normasına görə 4 il müddətinə seçilirdi. Muxtar respublikanın Ali Soveti MSSR-in yeganə qanunverici orqanı idi. Hər bir muxtar respublika özünün xüsusiyyətlərini nəzərə alan və SSRİ Konstitusiyasına uyğun olaraq qəbul edilmiş Konstitusiyasına malik idi. MSSR-in Ali Soveti öz konstitusiyasına uyğun olaraq muxtar respublika Ali Sovetinin Rəyasət Heyətini seçir və Xalq Komissarları Sovetini təşkil edirdi.

SSRİ-də ədalət mühakiməsini SSRİ Ali Sovetinin qərarı əsasında yaradılan SSRİ Ali Məhkəməsi, ittifaq respublikasının ali məhkəməsi, diyar, vilayət, muxtar respublika və muxtar vilayət, dairə məhkəmələri, SSRİ-nin xüsusi məhkəmələri, həmçinin xalq məhkəmələri həyata keçirirdi (maddə 102). Qeyd edək ki, Naxçıvan MSSR-in 1937-ci il Konstitusiyasının 73-cü maddəsində Naxçıvan MSSR-də ədalət mühakiməsinin həyata keçirilməsində xalq məhkəmələri və Naxçıvan MSSR-in Ali Məhkəməsi ilə yanaşı, SSRİ Ali Sovetinin qərarı ilə yaradılan xüsusi məhkəmələrin də iştirakı təsbit edilmişdi [2, s. 18]. Muxtar respublikaların ali məhkəmələri muxtar respublikaların Ali Sovetləri tərəfindən 5 il müddətinə seçilirdi (maddə 107). Məhkəmə işləri ittifaq respublikasının və ya muxtar respublikanın dilində aparılırdı, bu dili bilməyənlərin tərcüməçi vasitəsi ilə materiallarla tam tanış olması, həmçinin məhkəmədə öz ana dilində danışması təmin edilirdi (maddə 110).

Respublika, diyar, vilayət prokurorları, həmçinin muxtar respublika və muxtar vilayətlərin prokurorları SSRİ Prokuroru tərəfindən 5 il müddətinə təyin edilirdi. Dairə, rayon və şəhər prokurorları SSRİ Prokurorunun təsdiqi ilə ittifaq respublikalarının prokurorları tərəfindən təyin olunurdu. Prokuratura orqanları öz funksiyalarını hər hansı yerli orqanlardan asılı olmadan, müstəqil həyata keçiridilər və yalnız SSRİ Prokuroruna tabe idilər (maddə 115-117).

Bütün zəhmətkeş deputatları sovetlərinə: SSRİ Ali Sovetinə, ittifaq respublikalarının Ali Sovetlərinə, diyar və vilayət zəhmətkeşlərinin deputatlar sovetinə, muxtar respublikaların Ali Sovetlərinə, muxtar vilayətlərin, dairə, rayon, şəhər və kənd zəhmətkeş deputatları sovetlərinə deputatlar seçicilər

tərəfindən ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli səsvermə ilə seçilirdi (maddə 134).

Beləliklə, 1936-cı il SSRİ Konstitusiyasının muxtar respublikalara dair hüquqi normalarından da görünür ki, həmin normalar muxtar respublikaların, o cümlədən Naxçıvan MSSR-in 1937-ci il Konstitusiyasında əks olunmuş müddəalarda tamamilə gözlənilmişdi.

XX əsrin 60-cı illərin sonunda kommunizm cəmiyyətinə sürətli keçid ideyası tədricən iflasa uğramış, 1970-ci illərin əvvəllərində "inkişaf etmiş sosializm" cəmiyyəti üçün yeni Əsas Qanunun işlənib hazırlanması zərurəti ortaya çıxmışdı [20, s. 58]. Sovet dövlətinin üçüncü, həm də sonuncu Konstitusiyası 1977-ci il oktyabrın 7-də SSRİ Ali Sovetinin doqquzuncu çağırışının növbədənkənar yeddinci sessiyasında qəbul edildi. 9 bölmə, 21 fəsil, 174 maddədən ibarət olan Konstitusiyada [15; 19] muxtar respublika, muxtar vilayət və mahallara dair çoxlu müddəalar yer almış, bundan başqa, "SSRİ-nin milli-dövlət quruluşu adlanan" III bölmənin X fəsli "Muxtar Sovet Sosialist Respublikası"na (82-85-ci maddələr), XI fəsli isə "Muxtar vilayət və muxtar mahal"a (86-88-ci maddələr), "Müttəfiq respublikalarda dövlət hakimiyyəti və idarəçilik orqanlarının qurulmasının əsasları" adlanan VI bölmənin XVIII fəsli "Muxtar respublikanın ali dövlət hakimiyyəti və idarəçilik orqanları"na birbaşa həsr olunmuş hüquqi müddəalardan ibarət idi.

SSRİ-nin 1977-ci il Konstitusiyası xalq deputatları sovetlərinin SSRİ-nin əsasını təşkil etdiyini və hakimiyyətin mənbəyi olan xalqın öz hakimiyyətini bu sovetlər vasitəsilə həyata keçirdiyini bəyan edirdi. Bütün qalan dövlət hakimiyyəti orqanları xalq deputatları sovetinin nəzarətində olub, ona hesabat verirdi. 71-ci maddədə SSRİ-ni təşkil edən 15 respublikanın əlifba sırası ilə siyahısı verilmişdi.

SSRİ tərkibinə yeni respublikaların qəbul edilməsi, ittifaq respublikalarının tərkibində yeni muxtar respublikaların və muxtar vilayətlərin yaradılmasının təsdiqi yenə də özünün dövlət hakimiyyətinin yuxarı orqanlarının simasında SSR İttifaqının səlahiyyətində olan məsələ idi (maddə 73.1). 79-cu maddədə göstərilirdi ki, ittifaq respublikası özünün diyar, vilayət, dairə, rayon bölgüsünü müəyyən edir və inzibati-ərazi quruluşu ilə bağlı digər məsələləri həll edir. İttifaq respublikasının ərazisi onun razılığı olmadan dəyişdirilə bilməzdi. İttifaq respublikaları arasında sərhədlər müvafiq respublikaların qarşılıqlı razılığı və SSRİ-nin təsdiqi ilə dəyişdirilə bilərdi. Lakin 1988-ci ildə ermənilərin Azərbaycan torpaqlarına qarşı əsassız ərazi iddiaları başlayanda SSRİ rəhbərliyi bütün bu konstitusion normaları unudub birtərəfli şəkildə erməniləri müdafiə etdi [3, s. 192-193].

Maraqlıdır ki, əvvəlki iki Əsas Qanundan fərqli olaraq bu dəfə ittifaq respublikasının xarici dövlətlərlə münasibətlər qurmaq, onlarla müqavilələr bağlamaq və diplomatik və konsul təmsilçiləri ilə mübadilə etmək, beynəlxalq təşkilatların fəaliyyətində iştirak etmək hüququ konstitusion norma kimi təsbit olunmuşdu (maddə 80). Lakin şübhəsiz ki, bu hüquq mərkəzin sərt nəzarəti altında həyata keçirilə bilərdi və əslində, reallıqda formal xarakter daşıyırdı.

Konstitusiya muxtar respublikaların müttəfiq respublikanın tərkibində olduğunu təsbit edirdi. Muxtar respublikalara SSRİ və ittifaq respublikasının hüquqlarından kənarda öz səlahiyyətinə aid olan məsələlərin həllində müstəqillik tanınırdı. Muxtar respublikanın SSRİ-nin və tərkibində olduğu müttəfiq respublikanın konstitusiyalarına uyğun olan, muxtar respublikanın özünəməxsus xüsusiyyətlərini nəzərə alan öz Konstitusiyasına malik olmaq hüququ var idi. Muxtar respublika SSRİ-nin və müttəfiq respublikaların səlahiyyətinə aid edilən məsələlərin həllində onların yüksək dövlət hakimiyyəti və idarəçilik orqanlarına müvafiq olan öz orqanları vasitəsi ilə iştirak edir, öz ərazisində SSRİ və ittifaq respublikasının səlahiyyətlərinin həyata keçirilməsinə vasitəçilik etməklə, onların qərarlarını həyata keçirir, öz ərazisinin kompleks iqtisadi və sosial inkişafını təmin edirdi. Muxtar respublika öz səlahiyyətinə aid olan məsələlərdə ittifaq və respublika tabeli müəssisələrin, idarə və təşkilatların fəaliyyətini əlaqələndirir və ona nəzarət edirdi (maddə 81-83) [15, s. 20-21].

Konstitusiyanın 84-cü maddəsində qeyd edilirdi ki, muxtar respublikanın ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz. Təbii ki, formal federasiya olan sovet dövlətinin siyasi rejiminin sərt mərkəzləşdirilmiş avtoritar-totalitar xarakterini nəzərə alsaq, bu maddənin yalnız kağız üstündə tamamilə formal xarakter daşıdığını qeyd etməliyik. Çünki mərkəzi hakimiyyət nəinki muxtar respublikanın, hətta müttəfiq respublikanın da ərazisini istədiyi vaxt bu və ya digər şəkildə dəyişə bilərdi. Sadəcə bu dövrdə Azərbaycana Heydər Əliyev kimi güclü bir siyasi liderin və milli mənafeləri hər şeydən üstün tutan dövlət xadiminin rəhbərlik etməsi ermənilərə və onların

iddialarına həmişə loyal yanaşan rəsmi Moskvaya ərazi məsələsində hər hansı bir manipulyasiya etməyə imkan verməzdi.

Konstitusiyada RSFSR, Özbəkistan, Gürcüstan və Azərbaycanın tərkibinə daxil olan muxtar respublikalar göstərilmiş, Naxçıvan MSSR-in Azərbaycan SSR-in tərkibində olması öz əksini tapmışdı (maddə 85). Yeni muxtar respublikaların və muxtar vilayətlərin yaradılması SSRİ-də ən yüksək dövlət hakimiyyəti orqanı olan SSRİ Ali Sovetinin səlahiyyətinə daxil edilirdi (maddə 108).

Xalq deputatları sovetləri – SSRİ Ali Soveti, ittifaq respublikalarının ali sovetləri, muxtar respublikaların ali sovetləri, diyar, vilayət xalq deputatları sovetləri, muxtar vilayət və muxtar dairələrin, rayon, şəhər, şəhər rayonlarının, qəsəbə və kəndlərin xalq deputatları sovetləri – dövlət hakimiyyəti orqanlarının vahid sistemini təşkil edirdi. SSRİ Ali Sovetinin, ittifaq respublikalarının və muxtar respublikaların ali sovetlərinin səlahiyyət müddəti 5 il, yerli xalq deputatları sovetlərinin səlahiyyət müddəti isə 2,5 il müəyyən edilirdi. Xalq deputatları sovetlərinə seçkilərin keçirilməsi qaydası SSRİ-nin, ittifaq respublikalarının və muxtar respublikaların qanunları ilə müəyyən olunurdu. Həmçinin deputatların toxunulmazlığı, eləcə də deputat fəaliyyətinin digər təminatları da SSRİ-nin, ittifaq respublikasının və muxtar respublikanın deputatlarının statusu haqqında qanunla və digər qanunvericilik aktları ilə müəyyənləşdirilirdi.

SSRİ Ali Soveti bərabərhüquqlu iki palatadan ibarət qanunvericilik orqanı idi. İttifaq Şurası ölkə üzrə bərabər əhali sayı olan seçki dairələri üzrə seçilirdi. Millətlər Şurası isə hər ittifaq respublikasından 32 deputat, hər muxtar respublikadan 11 deputat, hər muxtar vilayətdən 5 deputat olmaqla seçilirdi (maddə 110). 1936-cı il Konstitusiyası ilə müqayisədə 1977-ci il SSRİ Əsas Qanununa görə Azərbaycan Millətlər Şurasında 37 deyil, 48 deputatla təmsil olunmaq hüququ qazanmışdı. Lakin muxtar respublikalar üzrə nümayəndəlik kvotası sabit saxlanılmış (11 deputat), respublika üzrə 25-dən 32-yə, muxtar vilayət üzrə isə 1-dən 5-ə qaldırılmışdı [3, s. 194].

Qeyd edək ki, bütövlükdə sovet hakimiyyəti illərində cəmiyyətin həyatında ən böyük siyasi hadisə bütün səviyyələr (ittifaq, respublika, muxtar respublika) üzrə Ali Sovetə, eləcə də yerli xalq deputatları sovetlərinə seçkilər idi. Seçkilər bir çox hallarda formal xarakter daşıyır, alternativ seçkiyə əsaslanmadığına görə, hər seçki dairəsindən yalnız bir namizəd irəli sürülür, yəni deputat seçilməsi nəzərdə tutulan namizədlərin kimliyi əvvəlcədən bəlli olur, adətən, seçkidən sonra təsdiq edilən hesabatlarda seçici fəallığının 99,98-100 faiz intervalında olduğu və bütün seçicilərin müəyyən edilən namizədlərə səs verdiyi göstərilirdi. Məsələn, Naxçıvanda 1985-ci ildə keçirilmiş seçkilərə dair hesabatda göstərilirdi ki, səhər saat 8.00-da seçicilərin 61,1 %-i, gündüz saat 12.00-da isə 96,2 %-i səsvermədə artıq iştirak etmiş, axşam saat 19.00-da isə səsvermə başa çatmışdı (səsvermə səhər saat 6.00-da başlayır, axşam saat 22.00-da yekunlaşırdı – E.C.) [5, v. 10]. Azərbaycan SSR və Naxçıvan MSSR Ali Sovetlərinə seçkilər, adətən, eyni günə təyin olunur və 3 ay əvvəlcədən müəyyən edilən vaxtda keçirilirdi. SSRİ Ali Sovetinə seçkilər respublika və muxtar respublika Ali Sovetlərinə seçkilərlə eyni vaxta düşmürdü. Yerli xalq deputatları sovetlərinin səlahiyyət müddəti Konstitusiya ilə 2 il müəyyən edildiyindən, yerli sovetlərə seçkilərin keçirilmə vaxtı Ali Sovetə seçkilərlə hər iki seçkidən bir üst-üstə düşürdü.

Naxçıvan MSSR Ali Sovetinə 19 mart 1967-ci ildə keçirilən seçkilər nəticəsində Ali Sovetin VII çağırışı 80 deputatdan ibarət tərkibdə fəaliyyətə başlamışdı [13, s. 16]. Ümumiyyətlə, Naxçıvan MSSR Ali Sovetinə 70-80-ci illərdə 4 dəfə seçkilər keçirimişdi. Naxçıvan MSSR-in 1937-ci il Konstitusiyasında Naxçıvan MSSR Ali Soveti deputatlarının sayı konkret göstərilməmişdi, səlahiyyət müddəti isə 4 il olmaqla hər 2 min nəfər əhaliyə bir deputat seçmə norması müəyyənləşdirilmişdi. Lakin Naxçıvan MSSR Ali Soveti 24 iyul 1970-ci il tarixli qərarı ilə 1950-ci il dekabrın 13-də təsdiq edilmiş "Naxçıvan MSSR Ali Sovetinə seçkilər haqqında Əsasnamə"nin 25-ci maddəsinə düzəliş edərək Ali Sovetə nümayəndəlik normasını hər 2500 nəfər əhaliyə bir deputat şəklində təsbit etmişdi [4, v. 37; 7, iş 1073, v. 13].

"Azərbaycan SSR Ali Sovetinə, Naxçıvan MSSR Ali Sovetinə və Azərbaycan SSR-in yerli zəhmətkeş deputatları Sovetlərinə seçkilər haqqında" Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 26 fevral 1971-ci il tarixli qərarı ilə 1971-ci il iyunun 13-də keçirilən seçkilərdə muxtar respublikadan Azərbaycan SSR Ali Sovetinə 16 deputat, səkkizinci çağırış Naxçıvan MSSR Ali Sovetinə isə 80 deputat seçilmişdi [14, s. 38]. 1975-ci ildə keçirilən seçkilərdə doqquzuncu çağırış Azərbaycan SSR Ali Sovetinə muxtar respublikadan seçilən deputatların sayı (16 nəfər) sabit

qalmış, Naxçıvan MSSR Ali Sovetinə isə 100 deputat seçilmişdi.

Naxçıvan MSSR-in 1978-ci il Konstitusiyası ilə seçkilərlə bağlı bəzi dəyişikliklər qüvvəyə minmişdi. Naxçıvan MSSR Ali Soveti deputatlarının sayı 110 nəfər, səlahiyyət müddəti artırılaraq 5 il müəyyənləşdirilmişdi. Buna müvafiq olaraq onuncu çağırış Naxçıvan MSSR Ali Sovetinə 1980-ci il fevralın 24-də keçirilmiş seçkilərdə seçilən deputatların sayı 110 nəfər təşkil etmişdi [14, s. 38]. Həmin vaxt paralel olaraq keçirilən seçkilərdə Azərbaycan SSR Ali Sovetinə muxtar respublikadan seçilən deputatların da sayı 2 nəfər artaraq 18 deputata çatmışdı. On birinci çağırış Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan MSSR Ali Sovetinə seçkilər 1985-ci il fevralın 24-də keçirilmiş, yenə respublika Ali Sovetinə 18, muxtar respublikanın Ali Sovetinə 110 deputat seçilmişdi [5, v. 10]. Son iki çağırışda Naxçıvan MSSR Ali Sovetinin 10 daimi (mandat; qanunvericilik təşəbbüsləri; plan-büdcə; sənaye, tikinti, nəqliyyat və energetika; kənd təsərrüfatı və meliorasiya; ticarət, ictimai iaşə və əhaliyə məişət xidməti; səhiyyə və sosial təminat; elm, maarif, mədəniyyət; qadın əməyi və məişəti, analıq və uşaqların mühafizəsi məsələləri; gənclərin işləri üzrə) komissiyası yaradılmış, Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyətinə 9 üzv seçilmişdi [7, iş 1347, v. 138].

Qeyd edildiyi kimi, muxtar respublikalar SSRİ Ali Sovetinin Millətlər Sovetində 11 deputatla təmsil olunmaq hüququna malik idi. Naxçıvan MSSR 1970-80-ci illərdə keçirilən bütün seçkilərin nəticələrinə əsasən SSRİ Ali Sovetinin Millətlər Sovetində 12, İttifaq Sovetində 1 deputatla təmsil olunmuşdu. Belə ki, muxtar respublika üçün ayrılmış konstitusion normadan əlavə Azərbaycan SSR üçün Millətlər Sovetində nəzərdə tutulmuş təmsilçilərdən 1-i muxtar respublikada yaradılmış seçki dairəsində seçilirdi. Bundan başqa, Naxçıvan MSSR-dən daha 1 deputat İttifaq Sovetinə seçilirdi. Belə ki, İttifaq Soveti ölkə üzrə əhalinin bərabər sayına əsaslanan seçki dairələrindən seçilən təmsilçilər əsasında formalaşırdı. Həm Azərbaycanda, həm də muxtar respublikada SSRİ Ali Sovetinə keçirilən seçkilərdə, adətən, mərkəzdən göndərilmiş və rus millətinə mənsub şəxslər seçilirdi. Həmin şəxslərin namizədliyi bir qayda olaraq onların yalnız adından və tutduqları vəzifədən başqa barəsində heç bir təsəvvürü olmayan muxtar respublikanın ayrı-ayrı əmək kollektivləri tərəfindən "irəli sürülürdü". Bu, mərkəzin onsuz da ciddi nəzarətində olan SSRİ Ali Sovetinin hər iki palatasında rusların çoxluğunu və palatalara çevik nəzarəti təmin etmək baxımından yürüdülən müstəmləkəçi siyasətin daha bir təzahürü idi.

Muxtar respublikadan SSRİ Ali Sovetinin Millətlər Sovetinə seçilən deputatlar Naxçıvan şəhəri üzrə 2, Şərur rayonu üzrə 3, Naxçıvan rayonu üzrə 2, Ordubad rayonu üzrə 2, Culfa rayonu üzrə 1, Şahbuz rayonu üzrə 1 deputat olmaqla seçilirdi [1, v. 232-233]. Azərbaycana Millətlər Sovetində təmsilçilik üçün ayrılan nümayəndəlik normasından Naxçıvana ayrılan yer üçün yalnız bir və İttifaq Soveti üzrə seçkilərdə muxtar respublika üzrə yalnız bir vahid seçki dairəsi yaradılmışdı [7, iş 1194, v. 115-117; 8, v. 29-31]. Həmin dairələrdən, adətən Millətlər Sovetinə Bakıdan məsləhət bilinən şəxs, İttifaq Sovetinə isə Moskvadan göndərilən və qeyri-azərbaycanlı olan şəxs seçilirdi.

1977-ci ildə qəbul edilmiş SSRİ Konstitutusiyası ilə xalq deputatları Sovetlərinin səlahiyyət müddəti 4 ildən 5 ilə qaldırılmışdı [15, s. 22]. 1979-cu və 1984-cü ildə keçirilən çağırış seçkilərdə də muxtar respublika SSRİ Ali Sovetində 13 deputatla təmsil olunurdu [16, s. 24]. 1988-ci il dekabrın 1-də "SSRİ xalq deputatlarının seçkiləri haqqında" SSRİ-nin Qanunu (qanun SSRİ Xalq deputatları Qurultayını ölkədə ali dövlət hakimiyyəti orqanı elan edirdi) qəbul edildikdən sonra SSRİ-nin 1977-ci il Konstitusiyasına da dəyişikliklər edildi. Bərabər sayda (hər birinin 750 deputatı) üzvləri olan İttifaq Soveti və Millətlər Sovetindən ibarət ikipalatalı SSRİ Ali Soveti daimi fəaliyyət göstərən qanunverici, sərəncamverici və nəzarət orqanı idi. SSRİ Ali Sovetinin deputatları əvvəlkitək bütün ölkə üzrə keçirilən seçkilərdə deyil, 1989-cu il martın 26-dan mayın 21-dək keçirilən 2249 deputatı olan SSRİ Xalq deputatları Qurultayının iclaslarında seçildi. Bu seçkilərdə Naxçıvan MR-dən olan təmsilçilik norması əvvəlki kimi saxlanılmışdı.

SSRİ Konstitusiyası ittifaq respublikasının nazirlər sovetinə muxtar respublikaların nazirlər sovetlərinin qərar və sərəncamlarının icrasını dayandırmaq hüququ verirdi (maddə 141).

Konstitusiyaya görə, muxtar respublikada dövlət hakimiyyətinin ən yüksək orqanı muxtar respublikanın Ali Soveti idi. Muxtar respublikanın konstitusiyasını qəbul və ona dəyişikliklər etmək, iqtisadi və sosial inkişaf üzrə dövlət planlarını, eləcə də muxtar respublikanın dövlət büdcəsini təsdiq etmək, özü qarşısında hesabat verən orqanları yaratmaq kimi səlahiyyətlər müstəsna olaraq muxtar

respublikanın ali sovetinə məxsus idi. Muxtar respublika Ali Soveti muxtar respublikanın bütün qanunlarını qəbul edir, özünün Rəyasət Heyətini seçir və muxtariyyətin Nazirlər Sovetini – muxtar respublikanın hökumətini təşkil edirdi (18-ci fəsil; maddə 143-144) [15, s. 41-42].

Konstitusiyaya görə, SSRİ-də ədalət mühakiməsini yalnız məhkəmələr həyata keçirirdi. Ölkədə SSRİ Ali Məhkəməsi, ittifaq respublikalarının ali məhkəmələri, muxtar respublikaların ali məhkəmələri, diyar, vilayət, şəhər məhkəmələri, muxtar vilayətlərin, muxtar dairələrin məhkəmələri, rayon (şəhər) xalq məhkəmələri, həmçinin Silahlı Qüvvələrdə hərbi tribunallar fəaliyyət göstərirdi (maddə 151). Məhkəmə işləri ittifaq və ya muxtar respublikanın, muxtar vilayətin, muxtar dairənin dilində və ya həmin yerin çoxluq təşkil edən əhalisinin dilində aparılırdı. İşdə iştirak edən, lakin məhkəmə işinin aparıldığı dili bilməyən şəxslərin işin materialları ilə tam tanış olmaq, məhkəmə hərəkətlərində iştirak etmək və məhkəmədə ana dilində çıxış etmək hüququ tərcüməçi vasitəsilə təmin olunurdu (maddə 159). Bu müddəa Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasının 171-ci maddəsində və Naxçıvan MSSR-in 1978-ci il Konstitusiyasının 150-ci maddəsində də əks olunmuşdu [9, s. 42; 20, s. 82].

İttifaq respublikalarının, muxtar respublikaların, diyarların, vilayətlərin və muxtar vilayətlərin prokurorları SSRİ Baş prokuroru tərəfindən təyin edilirdi. Muxtar dairələrin, rayonların və şəhərlərin prokurorları ittifaq respublikalarının prokurorları tərəfindən təyin olunur, SSRİ Baş prokuroru tərəfindən təsdiq edilirdi. SSRİ Baş prokurorunun və bütün aşağı prokurorların səlahiyyət müddəti 5 il idi (maddə 166-167).

## ƏDƏBİYYAT

1. ARPİİSSA. F. 1, siy. 61, iş 17
2. Naxçıvan Avtonom Sovet Sosialist Respublikasinin Konstitusiyası (Əsas Qanunu). Naxçıvan ASSR Baş Soveti tərəfindən 1938-ci il iyulun 25-də və 1939-cu il iyulun 28-də qəbul edilmiş dəyişiklik və əlavələrlə. Bakı, Azərnəşr, 1941, 27 s.
3. Naxçıvan Muxtar Respublikası konstitusiyalarda. Kitabın tərtibçisi, oçerk və mətnlərin müəllifi tarix üzrə fəlsəfə doktoru, dosent E.Y.Cəfərli. Bakı, Elm və təhsil, 2014, 208 s.
4. NMRDA, f. 1, siy. 1, iş 1156
5. NMRDA, f. 1, siy. 28, iş 43
6. NMRDA, f. 314, siyahı 5a, iş 66, v. 1-229
7. NMRDA, f. 613, siy. 1, iş 1073, 1347, 1194
8. NMRDA, f. 613, siy. 8, iş 213
9. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasinin Konstitusiyası (Əsas Qanunu). Bakı, Azərnəşr, 1978, 47 s.
10. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasinin Konstitusiyası (Əsas Qanunu). Bakı, Azərnəşr, 1982, 45 s.
11. Naxçıvan tarixi. Üç clldə. II cild. Naxçıvan, Əcəmi, 2014, 520 s.
12. Naxçıvan tarixi. Üç cilddə. III cild. Naxçıvan, Əcəmi, 2015, 560 s.
13. Итоги выборов и состав депутатов Верховных Советов Азербайджанской ССР, Нахичеванской АССР и местных Советов депутатов трудящихся Азербайджанской ССР, избранных в июне 1971 года. Статистический сборник. Баку: Азернешр, 1972, 103 с.
14. Итоги выборов и состав депутатов Верховного Совета Азербайджанской ССР, Верховного Совета Нахичеванской АССР одиннадцатого созыва местных советов народных депутатов Азербайджанской ССР, избранных в феврале 1985 г. Статистический сборник. Баку, Азернешр, 1986, 146 с.
15. Конституция (Основной Закон) Союза Советских Социалистических Республик. Москва: Юридическая литература, 1989, 48 с.
16. Нахичеванская Автономная Советская Социалистическая Республика Азербайджанской ССР за 60 лет. Юбилейный статистический ежегодник. Баку, Азербайджанское Государственное Издательство, 1984, 180 с.

17. http://constitution.garant.ru/history/ussr-rsfsr/1924/
18. http://constitution.garant.ru/history/ussr-rsfsr/1936/red_1936/3958676/
19. http://constitution.garant.ru/history/ussr-rsfsr/1977/red_1977/5478732/
20. http://files.preslib.az/projects/remz/pdf/atr_kons.pdf

**ABSTRACT**

**Elman Jafarli**

**The law on autonomous republics in the constitution of the former ussr and the Nakhchivan autonomy**

The article examines the legal provisions of the autonomous republics, expressed in the constitutions of the former Soviet Union. The 1924 Constitution of the USSR on the legal provisions about the autonomy law was not designed well, but in the Constitutions of 1936 and 1977 over a wide range of regulatory autonomy have been developed.Settling these provisions to examine the legal situation of the Nakhchivan autonomy, representation in representative bodies (Supreme Council) Union and Azerbaijan, the separation of powers with the union and republic. Analyzes the elections in Nakhchivan and the basis for the formation of the Supreme Council of Nakhchivan. Nakhchivan in the early years cvoey Authority was not entitled to representation in the parliament of the USSR (due to lack of people to do so) in 1970-80. in both chambers of the Supreme Soviet of the Nakhichevan autonomy had 13 deputies and 18 deputies of the Supreme Council of Azerbaijan. The Supreme Council of Nakhchivan Autonomous Republic consists of 110 deputies.

**РЕЗЮМЕ**

**Эльман Джафарли**

**Правовые нормы об автономных республиках в конституциях бывшего СССР и Нахчыванская Автономия**

В статье исследуется правовые положения об автономных республик, выражанные в конституциях бывшего СССР. В Конституции 1924 года СССР не была правовые нормы про автономий так широко разработана, но в Конституциях 1936-го и 1977-го годов были разработаны более широкий круг правового регулирования автономии. Обосновываясь этим положениям изучается правовая ситуация Нахчыванской автономии, ее представительство в представительных органах (Верховных Советов) союза и Азербайджана, разделение властей автономии с союзом и республикой. Анализируется выборы в Нахчыване и основы формирования Верховного Совета Нахчывана. Нахчыван в первые годы своей автономии не имела права (из-за отсутствия определенной нормы населения для этого) представления в парламенте СССР в 1970-80 гг. в обеих палатах Верховного Совета СССР Нахичеванская автономия имела 13 депутатов, а в Верховном Совете Азербайджана 18 депутатов. Верховный Совет Нахчыванской Автономной Республики состоил из 110 депутатов.

NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2016, № 5(79)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2016, № 5 (79)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2016, № 5 (79)**

**SEVİNC ABBASOVA**
*Naxçıvan Dövlət Universiteti*

***UOT :008.39***

# AZƏRBAYCAN RESPUBLİKASINDA QADIN QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARI YENİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ (2007-2013-CÜ İLLƏR)

***Açar sözlər**: hüquqi dövlət, vətəndaş cəmiyyəti, Üçüncü sektor, Azərbaycanda qadın qeyri-hökumət təşkilatları, qadınların ictimai-siyasi fəallığı*

***Key words**: a legal state, civil society, the third sector, non-governmental women's organizations in Azerbaijan, socio-political activity of women*

***Ключевые слова**: правовое государство, гражданское общество, Третий сектор, неправительственные женские организации в Азербайджане, общественно-политическая активность женщин*

Son illərdə ölkəmizdə hüquqi dövlət quruculuğu və onunla əlaqədar vətəndaş cəmiyyətinin inkişafı keyfiyyətcə yeni mərhələyə qədəm basmışdır. Təməl prinsipləri Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş hüquqi dövlət modeli ictimai-siyasi həyatın müxtəlif sferalarında ardıcıl, dönməz islahatların həyata keçirilməsini, funksional idarəetmə strukturlarının yaradılmasını, müxtəlif dövlət orqanlarının işinin ən müasir standartlara uyğun olaraq qurulmasını nəzərdə tutur. Bununla yanaşı, bu proses vətəndaş cəmiyyəti institutlarının daha da inkişaf etdirilməsini, vətəndaşların müxtəlif kateqoriyalarının, o cümlədən qadınların sosial və siyasi fəallığının artırılmasını güman edir. Belə bir vəziyyət son illərdə daha da vüsət almış qadın QHT sektorunun inkişaf xüsusiyyətlərini ətraflı təhlil etmək zərurəti doğurur.

QHT sektorunun inkişaf tarixində 2007-ci ilin sonlarından başlayan ən yeni mərhələni Azərbaycan QHT sektorunun həyatında və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi tarixində keyfiyyət dəyişikliyi dövrü də adlandırmaq olar [1, 17]. QHT fəaliyyətinə aid başlıca məsələlər – dövlət orqanları ilə vətəndaş cəmiyyəti institutları arasında tərəfdaşlıq münasibətlərinin sabit və effektiv sisteminin yaradılması, QHT layihələrinin dövlət büdcəsindən maliyyələşdirilməsi, ictimai sektorun dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən problemlərin həllinə cəlb olunması və bu yöndə digər vacib məsələlər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 iyul 2007-ci il tarixli Sərəncamı təsdiq olunmuş "Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyasında" öz əksini tapdı. Konsepsiya Azərbaycanda QHT inkişafının yeni mərhələsinin başlanğıcını qoydu [3, 6-8]. Bu sənədə uyğun olaraq, 2007-ci ilin dekabrında Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası yaradıldı. Bununla da milli donor institutunun əsası qoyulmuş oldu. Şuranın fəaliyyətə başlaması nəticəsində ölkədə ictimai fəallıq xeyli artdı. Nəticədə son illərdə ölkədə üçüncü sektorun coşqun inkişafını görürük: 2009-cu ilin sonlarında 2612 QHT rəsmi qeydiyyatdan keçmişdisə, 2013-cü ilin fevralına dair statistikaya görə, onların sayı 3800-ü ötmüşdü [4, 29].

Şuranın maliyyələşdirdiyi prioritet istiqamətlər sırasına gender məsələləri də daxildir. Həqiqətən də, Şura 2009-cu ildə təkcə ailə, qadın və uşaq problemlərinin həllinə dəstək məqsədi güdən 21 layihənin gerçəkləşməsinə 151960 manat, 2010-cu ildə 47500 (14 layihə), 2013-cü ilin ilk 4 ayında 147700 manat (24 layihə) vəsait ayırmışdı [3, 35-37].

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması, üçüncü sektora dövlət maliyyə dəstəyinin güclənməsi qadın QHT-lərinin kəmiyyət artımına təkan verdi. AQUPDK sədri H. Hüseynovanın qadınların IV qurultayında çıxışında qeyd etdiyi kimi, "əgər 2008-ci ildə ölkədə 90-a yaxın qeyri-hökumət qadın təşkilatı fəaliyyət göstərirdisə, hazırda (2013-cü ildə – S.A.) bu rəqəm 200-ə çatır. Bu da onu göstərir ki, qadınlar artıq iqtisadi, sahibkarlıq, ictimai-siyasi və vətəndaş

cəmiyyətinin möhkəmləndirilməsində öz hüquqlarını daha yaxşı bilir və təşkilatlanmış formada fəaliyyət göstərirlər” [5, 4]. Həmçinin ekoloji, sosial, mədəniyyət, yuvenal və s. problemlərlə məşğul bir çox başqa QHT-lərin də başında qadınlar durur.

1998-ci ildən fəaliyyətə başlayan “Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyi son illərdə öz fəaliyyət dairəsini daha genişləndirməyə müvəffəq olmuşdur. Təşkilat 2008-ci ilin 8 ayı ərzində 5 insan alveri qurbanının, 1 uşağın, 4 nəfər ailədaxili zorakılıq qurbanının, 1 nəfər vərəmli xəstənin, 1 nəfər AİDS xəstəsinin, 131 nəfər küçə uşağının sığınacaqda yerləşdirilməsinə nail olmuşdu. Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə 2008-ci ilin avqustundan gerçəkləşdirilən “İnsan alverini dayandıraq” adlı layihə vətəndaşlar maarifləndirilməsi, fondun yaradılması üçün xeyriyyə marafonunun keçirilməsi və s. tədbirləri ehtiva edirdi [6, 62]. Sözügedən Birlik 2009-cu ildə də layihəni davam etdirmiş, 10 noyabr 2009-cu ildə Asiya Universitetində tədbir təşkil edərək, orada tələbə qızlar insan alveri problemi ilə məlumatlandırılmışdır [7, 13]. Birlik QHT-lərə Dövlət Dəstəyi Şurasının dəstəyi ilə 2010-cu ildə Azərbaycanda ilk dəfə insan alveri mövzusunda gənc rəssamlar arasında rəsm müsabiqəsi keçirmiş və 20-dən yuxarı əsər sərgiyə çıxarılmışdır. İnsan alveri qurbanları üçün Qaynar xətt telefon xidməti ilə bağlı sosial reklam çarxları hazırlanmış, bu məqsədlə yaradılmış kömək fondunun təbliğatı aparılmışdır. İnsan alveri mövzusunda 20 dəqiqəlik film çəkilmiş və yerli və beynəlxalq səviyyədə müxtəlif tədbirlərdə, seminarlarda, görüşlərdə nümayiş etdirilmişdi. Habelə bu bəladan əziyyət çəkən qadınlara hüquqi və psixoloji yardımlar göstərilməsi davam etdirilmişdir [8, 9].

2012-ci ildə “Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyi və Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasından ibarət QHT Koalisiyası ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) maliyyələşdirdiyi və Kaunterpart İnterneşnl təşkilatı tərəfindən icra olunan Qadın İştirakçılığı Proqramı (QİP) çərçivəsində ““Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Konvensiyanın ictimai vəkillik mexanizmlərindən istifadə” layihəsini həyata keçirirdi. Gəmin layihə çərçivəsində 17 sentyabr 2012-ci il tarixində Biləsuvarda regional təlim keçirilmişdi. Orada üzrə BMT-nin CEDAW Komitəsinə dövlətlərin hesabatı, alternativ hesabatlar, onların hazırlanması və təqdim edilmə prosedurları, eləcə də “məişət zorakılığı” anlayışı, onun formaları, fəsadları və məişət zorakılığı qurbanları ilə işin təşkili barədə məlumat verilmiş, fikir mübadiləsi aparılmışdı [9].

2007-2011-ci illərdə həyata keçirilən “İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı” ölkəmizdə vətəndaş cəmiyyəti quruculuğunun hüquqi-normativ bazasını möhkəmləndirir, hökumət – üçüncü sektor qarşılıqlı münasibətlərini yeni keyfiyyət müstəvisinə çıxarırdı. “Qadın və İnkişaf” Mərkəzi də bu prosesin fəal iştirakçısı idi. 2008-ci ilin son aylarında bu təşkilat QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə yardımı və Ombudsman təsisatı ilə əməkdaşlıqda MFP-nin təbliği və monitorinqi üzrə layihə həyata keçirmişdi. Layihə müddətində Şəki, Mingəçevir, Quba, Cəlilabad və Sumqayıtda dinləmələr keçirilmiş, MFP-nin mahiyyəti, qarşıya qoyulmuş vəzifələri və bu vəzifələrin həyata keçirilməsi istiqamətində əməkdaşlıq perspektivlərini müzakirə olunmuş, habelə qadınların seçkilərdə fəal iştirak etməsi üçün onlarla görüşlər təşkil edilmişdi. Bu layihənin davamlı şəkildə həyata keçirilməsi hüquqi maarifləndirmə işinin aparılmasına, insanların seçki hüququndan istifadə etməsinə imkan yaratmışdı [10].

2011-ci ildə Mərkəz “İcma səviyyəsində reproduktiv sağlamlıq və ailə planlaşması sahəsində maarifləndirmə və səhiyyə xidmətlərinin təşkili” mövzusunda layihə gerçəkləşdirilmişdi. Onun əsas məqsədi əhali arasında reproduktiv sağlamlıq, sağlam analıq, ailə planlaşması, cinsi yolla yoluxan xəstəliklər və onlardan qorunma yolları, sağlam gənclik və s. mövzularda icma səviyyəsində maarifləndirmə işi aparmaqla reproduktiv yaş dövründə olan insanların bu sahədə müvafiq biliklərə yiyələnməsinə, abortların sayının azalmasına, körpələrin sağlam doğulmasına və nəticə etibarı ilə ana və körpə ölümünün sayının azalmasına, yoluxucu xəstəliklərin qarşısının alınmasına nail olmaq idi. Layihə çərçivəsində tədbirlər zamanı Lerik, Qusar və Şəmkir rayonları ərazisindəki tibb mərkəzlərinin rəhbərləri və tibbi işçiləri ilə görüşlər keçirilmiş, ərazidə olan mövcud vəziyyət öyrənilmiş və müzakirələr aparılmış, ailə planlanması ilə bağlı məlumatları özündə əks etdirən plakatlar və s. paylanmışdı [11].

Ölkəmizdə üçüncü sektorun yüksəliş yaşadığı son illərdə daha bir qocaman qeyri-hökumət təşkilatı – Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyəti həyata keçirdiyi layihələri ilə seçilir. 2008-ci ildə bu təşkilat “Peşəkar gənc hüquq müdafiəçilərinin hazırlanması və

onların bölgələrdə insan haqlarının durumunun monitorinqi, hüquq müdafiəsi işinə cəlb olunması” adlı mühüm bir layihə üzərində işləmişdi. Adından da göründüyü kimi, layihə bölgələrdə yetişməkdə olan gənc nəslin sağlam hüquqi biliklərə yiyələnməsi, öz hüquqlarını müdafiə edə bilmələri baxımından olduqca böyük əhəmiyyətə malik idi. Proqrama uyğun olaraq, Şamaxı və Göyçay rayonlarının hər birində 2 günlük seminar keçirilmiş, 6 nəfər hüquq müdafiəçisinə məhkəmədə hüquqi baxımdan çıxış etmək, vəsatət qaldırmaq kimi böyük önəm kəsb edən bilgilər öyrədilmişdi [13].

2009-cu ildə Cəmiyyət QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə “QHT idarəetməsinin təkmilləşdirilməsi, maliyyə mənbələrinin tapılması, QHT-lərə texniki dəstəyin verilməsi və onların dövlət qeydiyyatı” layihəsini reallaşdırmışdı. Əsas məqsədi regionlarda vətəndaş cəmiyyətinin inkişafına dəstək vermək olan layihə ölkəmizdə ictimai sektorun möhkəmlənməsinə öz töhfəsini vermişdir [14].

2013-cü ildə sözügedən cəmiyyət Rasional İnkişaf Uğrunda Qadınlar Cəmiyyəti (RİQC) ilə koalisiyada Kaunterpart İnterneşnl təşkilatının Qadın İştirakçılığı Proqramı çərçivəsində “CEDAW əməldə” layihəsini həyata keçirmişdi. Layihənin əsas hədəf qruplarından biri olan KİV nümayəndələri ilə xüsusi fəaliyyətlər nəzərdə tutulmuşdu ki, bunlar layihənin digər komponentləri ilə bərabər KİV və qadın təşkilatları arasında ünsiyyət və əməkdaşlılığı artıraraq, BMT-nin mühüm CEDAW sənədindən daha səmərəli istifadə etməyə imkan yaradır. Bu baxımdan “Gender və Media” adlı təlim kursu təşkil edilmişdi [15].

Müasir Azərbaycan qadın QHT-ləri sırasında ictimai fəallığı seçilən, bir çox önəmli sosial layihələri gerçəkləşdirən təşkilatlardan biri də Qaraçuxur bələdiyyəsinin üzvü Lyudmila Xəlilovanın rəhbərlik etdiyi “Qadınlar Bələdiyyələrin İnkişafı Uğrunda” İctimai Birliyidir (QBİU). Bu təşkilat ölkə üzrə bələdiyyə seçkilərində seçilmiş qadınların təşəbbüsü ilə yaradılmış və 19 aprel 2006-cı ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır. Təşkilat 5 may 2006-cı ildən Milli QHT Forumunun və 29 mart 2011-ci ildən Türk Dünyası Bələdiyyələr Birliyinin üzvüdür.

Birlik bələdiyyə seçkilərinə kompaniyalarda fəal iştirak edir. Təşkilatın lider xanımları (4 nəfər) beynəlxalq Əlaqələr üzrə Milli Demokratiya İnstitutunun (MDİ) Azərbaycan ofisi tərəfindən 2009-cu ilin fevral ayından başlayaraq keçirdiyi yeni “Təlimçilər üçün Təlim” (TÜT) proqramına qatılmışdılar. Bu proqram bələdiyyə seçkiləri üçün qadın təlimçilərin hazırlanmasını nəzərdə tuturdu. Birlik 18 aprel 2009-cu ildə Azərbaycan Dillər Universitetinin İnformasiya Resurs Kompleksində Bakı şəhərinin 11 rayonu və Abşeron regionu üzrə seçilmiş Bələdiyyə üzvü xanımların iştirakı ilə (35 nəfər) “Qadınlar Bələdiyyələrin İnkişafı Uğrunda” mövzusunda konfrans keçirmişdi. Birlik rəhbərliyi 26 aprel – 1 may 2009-cu ildə Türkiyənin İstanbul şəhərində keçirilən Mərmərə Regionu Bələdiyyələr Assosiasiyalarının baş assambleyasında iştirak etmişdi. Birliyin 2009-cu ildə ən böyük uğurlarından biri QHT-lərə Dövlət Dəstəyi Şurasına təqdim etdiyi “Əhalinin yerli demokratiyanın quruculuğunda rolu (məhəllə komitələrinin inkişafı)” mövzusunda layihəsinin Şura tərəfindən dəstəklənməsidir. Layihə çərçivəsində ekspert və mütəxəssislərin iştirakı ilə yerlərdə məhəllə komitələrinin inkişafı üzrə işlək modulun sxemi və məhəllə komitələrinin inkişafı üçün siyasi sənədlər paketi hazırlanmış, habelə əhalinin bələdiyyə idarəçiliyində rolu və məhəllə komitələrinin inkişafından bəhs edən maarifləndirici vəsait – “Vətəndaşların yerli demokratiya quruculuğunda rolu” adlı 300 səhifəlik kitab dərc olunmuşdu. Təşkilat tərəfindən 23 dekabr 2009-cu ildə keçirilən bələdiyyə seçkilərində ölkə ərazisi üzrə müşahidəçilik etmək üçün 11 nəfər təlimatlandırılmışdı. Birliyin həyata keçirdiyi tədbirlər, KİV-dəki çıxışları, təcrübə mübadilələri, təkliflər paketi, beynəlxalq təmsilçilik və həyata keçirdiyi layihələr qadınlarımızın inkişafı, onların cəmiyyətin bütün sahələrində aktiv rol oynaması baxımından öz müsbət təsirini göstərmişdi.

Bəhs etdiyimiz dövrdə ölkəmizin son dərəcə böyük geostrateji önəm daşıyan bölgəsində – Naxçıvanda da qadın təşkilatları fəaliyyətlərini genişləndirməkdədir. Dövlət, özəl və ictimai tərəfdaşlıq nəticəsində bir-birinin ardınca yaranan ictimai birliklər dövlət qurumları ilə birlikdə əməkdaşlığın səmərəli və dayanıqlı mexanizmini yaradaraq, regionun ictimai-siyasi fəaliyyətini canlandırır. Bu qəbil qeyri-hökumət təşkilatlarından dəyərli ziyalı qadın Fizzə Məmmədovanın rəhbərlik etdiyi “Təmiz Dünya” İctimai Birliyi öz fəaliyyətinin məzmunluluğu və əhatə dairəsinin genişliyi ilə muxtar respublika ictimaiyyətinin rəğbətini qazanmışdır. “Təmiz Dünya” İctimai Birliyi 2007-ci ildə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi tərəfindən qeydiyyatdan keçmişdir. Birliyin üzvləri muxtar respublikanın regional problemlərinin həllində seyrçi olmayaraq, muxtar

respublika həqiqətlərinin ölkədən kənarda yayılmasında, əhalinin maraq dairəsinin genişləndirilməsində, əhali arasında demokratiya və insan hüquqları üzrə mülki maarifləndirmə işlərində fəallıq göstərirlər. Təlimçilərdən Aytən Məmmədova, Gültəkin Süleymanova, İlahə Əkbərova öz fəallıqları ilə seçilirlər. Treninqlər prosesində interaktiv metodlardan istifadə edilir, kiçik qruplarda treninq mövzusu əsasında məşğələlər seçilir, interaktiv oyunlar nümayiş etdirilir.

“Təmiz Dünya” İctimai Birliyi qadınların ictimai-siyasi fəallığının artması üzrə geniş təbliğat aparır. 400-dən artıq qadın demokratiya və insan hüquqları üzrə treninqlər keçmiş, 200 qadın dəyirmi masa və görüşlərdə iştirak etmiş, 300-dən artıq qadın müxtəlif növ tədbirlərə qatılmışdır. Bunlardan Nehrəm kənd sakini Firuzə Əliyeva, Şərur rayon mərkəzindən Mehparə Abbasova, Ümbülbanu Əliyeva və başqaları keçirilən seminarlarda fəal iştirak etmiş. insan hüquqlarına və qadın hüquqlarına aid nəzəri təcrübi materiallar mənimsəmişlər. Bu tədbirlərin maliyyə yardımı 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən həyata keçirilmişdir. Belə ki, “Təmiz Dünya” İctimai Birliyi 2008-ci il iyun ayında Şuranın elan etdiyi müsabiqəyə qatılmış və qaliblər sırasına düşmüşdür. Birliyin “Naxçıvan MR-də demokratiya, insan hüquqları və seçkilərlə bağlı maarifləndirmə” layihəsi də qaliblərdən biri olmuşdur. Layihənin icra müddəti Prezident seçkiləri kimi çox əlamətdar bir dövrə təsadüf etdiyindən, görüş və seminarlar yüksək siyasi fəallıq şəraitində keçmişdir.

Layihə müddəti bitdikdən sonra onun strategiyasında zəruri dəyişiklər edilmiş, əldə edilən təcrübə regionun hüdudlarından kənarda yayılmış, layihə çərçivəsində əldə etdiyimiz əyani vəsait, buklet və bülletenlər dəyirmi masa və görüşlərdə paylanmışdır. Bu isə vətəndaşların ictimai dialoqlarda və ictimai-siyasi proseslərdə iştirakını təmin etməklə bərabər, onların prezident seçki hüququ və digər konstitusion dəyişikliklərlə bağlı referendumda fəal iştirakına stimul vermişdir [33].

ABŞ Dövlət Departamentinin təhsil və mədəniyyət şöbəsi tərəfindən maliyyələşdirilmiş “Naxçıvan MR-də qadın bərabərliyi və qadın hüquqlarının təbliği” layihəsi kiçik qrant almış və uğurla icra edilmişdir. Fizzə xanım Harmoni təşkilatının Azərbaycan Qadınlarının Liderlik Proqramında iştirak etmiş, qalib kimi ABŞ-da keçiriləcək mübadilədə iştirak etmək üçün Vermont ştatına getmək hüququ qazanmışdır. “Təmiz Dünya” İctimai Birliyi adından “Naxçıvan MR-də ekoloji təfəkkür və ekoloji maarifləndirmə” layihəsi onun tərəfindən tərtib edilmiş və Dünya Ekologiya Fondunun təşkil etdiyi müsabiqəyə göndərilmişdir [18].

2013-cü ilin iyul ayının 20-də Naxçıvan şəhərində “Təbriz” mehmanxanasında ATƏT-in Bakı ofisi Məişət zorakılığının qarşısının alınması haqqında” qanunla bağlı məlumatlandırma mövzusu üzrə təlim keçirmişdi. Təlimdə Təmiz Dünya” İctimai Birliyinin sədri, beynəlxalq təlimçi Fizzə Məmmədova qeyd etmişdi ki, 2013-cü ilin 6 ayı ərzində muxtar respublikada aparılan monitorinqin nəticələrinə görə ailədaxili münaqişələr zəminində heç bir cinayət hadisəsi qeydə alınmamışdır. O, həmçinin məişət zorakılığının qarşısının alınmasına yönələn maarifləndirmə tədbirlərinin keçirildiyini təlim iştirakçılarının nəzərinə çatdırmışdı. Təlimin sonunda müzakirə edilən mövzular üzrə təkliflər paketi hazırlanmış, ehtiyac olunan dəyişikliklər və tövsiyələr qeyd edilmişdi. İştirakçılar Naxçıvan Muxtar Respublikasında ATƏT-in aktual mövzular üzrə təlimlər və tədris layihələri keçirməsini bəyəndiklərini və dəstəklədiklərini bildirmişdilər [19].

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 iyul 2007-ci il tarixli Sərəncamı təsdiq olunmuş “Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası”, artıq vurğuladığımız kimi, Azərbaycanda QHT inkişafının yeni mərhələsinin başlanğıcını qoydu. Ölkəmizin qeyri-hökumət qurumları, o cümlədən qadın təşkilatları dövlət dəstəyi sayəsində öz fəaliyyətlərinin istər miqyas etibarı ilə, istərsə də müxtəlif sosial kateqoriyalardan olan qadınları əhatə etməsi baxımından genişləndirməyə və intensivləşdirməyə müvəffəq oldu. Artıq tam əminliklə söyləyə bilərik ki, Azərbaycan postsovet məkanında vətəndaş cəmiyyətinin özünəməxsus modelini yarada bilmişdir. Həmin modelin mahiyyət cəhəti kimi dövlət – QHT sektorunun sıx əməkdaşlığı, ümummilli məsələlərin, ölkəmizin modernləşməsi ilə əlaqədar vəzifələrin həllində hökumətin təşəbbüslərinin məhz vətəndaşların zəruri dəstək və səyləri ilə təmin olunması çıxış edir. Bu modelin inkişafı Azərbaycanın qadın QHT-lərinə xüsusən də regionlarda qadınların hüquqlarının daha effektiv müdafiə olunması, zərərli gender stereotiplərinin aradan qaldırılması, qadınların gender maarifləndirilməsinin genişləndirilməsi və dərinləşdirilməsi, onların ictimai və siyasi fəallığının

artırılması, müxtəlif xarakterli problemlərinin yoluna qoyulması istiqamətində son dərəcə əhəmiyyətli layihələr həyata keçirməyə imkan vermişdir.

## ƏDƏBİYYAT


1. Quliyev A. Azərbaycanda QHT sektorunun inkişaf mərhələləri / Azərbaycan QHT sektoru dövlət müstəqilliyinin 20 ilində (Məqalələr və müsahibələr toplusu). Bakı, "Avrasiya Press", 2011, s. 16-20
2. Həsənov Ə.M. Ön söz / Azərbaycan QHT sektoru dövlət müstəqilliyinin 20 ilində (Məqalələr və müsahibələr toplusu). Bakı, "Avrasiya Press", 2011, s. 5-8
3. Vətəndaş cəmiyyəti quruculuğunda, 5 il (2008 – 2013, aprel). Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası. Bakı, "QHT Nəşriyyatı", 2013, 107 s.
4. QHT Əməkdaşlıq Alyansının Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 5 illik fəaliyyətinə həsr edilmiş təhlil-açıqlaması // Vətəndaş cəmiyyəti, 2013, №10 (25), s. 28-31
5. Azərbaycan qadınlarının IV qurultayı // Qadın və Cəmiyyət, 2013, №3, s.4 (3-4)
6. Zeynalova M. Təmiz dünya uğrunda mübarizə davam edir // Vətəndaş cəmiyyəti, 2008, №1, s.61-62
7. Zeynalova M. Qadın alverinin qurbanlarına hər cür psixoloji və tibbi yardım göstəririk // Vətəndaş cəmiyyəti, 2009, №12 (15), s. 12-13
8. Zeynalova M. İnsan alveri mahiyyətcə quldarlığın yeni formasıdır // Vətəndaş cəmiyyəti, 2010, №7 (22), s. 8-9
9. Biləsuvarda qadınlara qarşı ayrı-seçkiliklə bağlı regional təlim keçirilib // Vətəndaş cəmiyyəti, 2012, №9 (48), s.16
10. Məmmədova P. Seçkilərdə iştirak etməyəcəklərini bildirən qadınları inandırmağı çalışdıq ki, seçki günü səs vermək çox vacibdir // Vətəndaş cəmiyyəti, 2008, №1, s.28
11. Məmmədova P. Qadınların reproduktiv tibbi xidmətlərdən istifadəsini təkmilləşdirmək vacibdir // Vətəndaş cəmiyyəti, 2011, №7 (34), s. 15
12. Məmmədova P. Ana südü uşağı yoluxucu xəstəliklərdən qoruyur // Vətəndaş cəmiyyəti, 2013, №2 (53), s. 24-25
13. Cəfəroğlu N. Bütün insanlar öz ləyaqəti və hüquqları etibarı ilə azad və bərabər doğulurlar // Vətəndaş cəmiyyəti, 2008, №2, s.36-37
14. Region QHT-lərin inkişafına yardım edilir // Vətəndaş cəmiyyəti, 2009, №9 (12), s.20
15. KİV və qadın təşkilatları arasında əməkdaşlıq artırılacaq // Vətəndaş cəmiyyəti, 2013, №7 (58), s.55
16. Xəlilova L. Bələdiyyələrdə qadınlar 20% yer qazandı // Vətəndaş cəmiyyəti, 2010, №1 (16), s.26-27
17. QHT sədrinin yubileyi qeyd edilib // Vətəndaş cəmiyyəti, 2013, №5 (56), s.24
18. Məmmədova F. Naxçıvan MR-də məişət zorakılığının qarşısının alınması haqqında qanunla bağlı məlumatlandırma // Vətəndaş cəmiyyəti, 2013, №7 (58), s.32-33


## ABSTRACT


**Abbasova S.**


### Women's NGOs of Azerbaijan in the new stage of development (2007-2013 years)


The article discusses some of the issues of the latest stage of development of women's NGOs in Azerbaijan. It is noted that the approved Order of the President Ilham Aliyev dated July 27, 2007 "Concept of State Support to NGOs of Azerbaijan Republic" was laid the beginning of a new stage of development of the third sector in Azerbaijan. With the establishment in December 2007, the Council of State Support to NGOs under the President of the Republic of Azerbaijan in fact by the

Institute of National donation. From that moment hundreds of NGOs in the country, deprived of the possibility of direct access to the external donors, could help with the Council of State Support to NGOs to implement their projects. In the article on the material of women's NGOs is an attempt to reveal the main trend in the development of such organizations in the Azerbaijan Republic. We concluded that women's NGOs due to state aid were able to expand and intensify its activities in both form and content.

We also noted in Azerbaijan virtually has developed an original model of civil society, the essential feature of which is the close cooperation of government agencies with non-governmental organizations in the name of the national objectives in the framework of modernization of the country. Development of such a model allows the Azerbaijan women's NGOs to deliver more effective the protection of the rights of women, to eliminate harmful gender stereotypes, broaden and deepen gender education of women, to achieve an increase in socio-political activity of.

## РЕЗЮМЕ

**Аббасова С.**

**Женские неправительственные организации Азербайджанской Республики в новом этапе развития (2007-2013 гг.)**

В статье рассмотрены некоторые вопросы новейшего этапа развития женских неправительственных организаций в Азербайджанской Республике. Отмечено, что утвержденной Распоряжением Президента страны Ильхама Алиева от 27 июля 2007 года «Концепцией государственной поддержки неправительственным организациям Азербайджанской Республики» было заложено начало нового этапа развития Третьего сектора в Азербайджане. С учреждением в декабре 2007 г. Совета Государственной Поддержки Неправительственным Организациям при Президенте Азербайджанской Республики фактически учреждался институт национального донорства. С этого момента сотни НПО страны, лишенные возможностей непосредственного выхода к внешним донорам, смогли с помощью Совета Государственной Поддержки НПО претворять в жизнь свои проекты. В статье на материалах деятельности женских НПО делается попытка раскрыть основные тенденция развития подобных организаций в Азербайджанской Республике. Нами сделан вывод, что женские неправительственные организации благодаря государственной помощи сумели расширить и интенсифицировать свою деятельность как по форме, так и по содержанию.

Нами также отмечено, в Азербайджан практически сложилась самобытная модель гражданского общества, сущностной особенностью которой выступает тесное сотрудничество государственных органов с неправительственными организациями во имя осуществления общенациональных задач в рамках модернизации страны. Развития подобной модели позволяет женским НПО Азербайджана эффективнее поставить дело защиты прав женщин, устранять вредные гендерные стереотипы, расширить и углубить гендерное просвещение женщин, добиться увеличение общественно-политической активности их.

NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2016, № 5(79)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2016, № 5 (79)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2016, № 5 (79)**

**MÜSLÜM NƏZƏROV**

***UOT:101***

# POSTİNDUSTRİAL CƏMİYYƏTDƏ PEŞƏ STRUKTURUNDA BAŞ VERƏN DƏYİŞİKLİKLƏR

***Açar sözlər:*** *industrial cəmiyyət, postindustrial cəmiyyət, bilik, informasiya, əmək, iş, iş yeri*

***Key words:*** *industrial society, postindustrial society, knowledge, information, work, job, workplace*

***Ключевые слова:*** *индустриальное общество, постиндустриальное общество, знание, информация, труд, работа, рабочее место*

Ötən əsrin ortalarında industrial sivilizasiyanın inkişaf imkanlarının tükəndiyi, industrial cəmiyyətin bir çox mühüm cəhətlərinin itirildiyi və cəmiyyətin yeni əlamətləri əldə etdiyi dərk olunmağa başladı. Kənd təsərrüfatı istehsalının texnoloji cəhətdən yenidən qurulması nəticəsində aqrar sektordan ayrılmağa məcbur olmuş milyonlarla insan iri sənaye mərkəzlərinin ətraflarında məskunlaşmış, bu da nəhəng meqa-polislərin yaranmasına səbəb olmuşdur. Bütün bunlar xidmət sferasının kəskin şəkildə genişlənməsinə, peşə və xidmətlərin tamamilə yeni, qeyri-ənənəvi növlərinin yaranmasına gətirib çıxardı. 1956-ci ildə ABŞ-da industrial sektorda çalışan işçilərin (fəhlələrin) 50%-dən çoxu bu sektorla əlaqəsini kəsərək, bu cür qeyri-ənənəvi fəaliyyət sahələrində işləməyə başladılar. Pərakəndə ticarətdə, idarəetmə sferasında, kommunikasiya sistemində, elm və təhsil sahəsində çalışanlar fabrik-zavod və ya əl əməyi işçilərini say etibarilə açıq-aşkar üstələməyə başladı. Beləliklə, cəmi bir neçə onillik ərzində qərb cəmiyyəti nəinki kənd təsərrüfatını, həmçinin, industrializmi arxa plana sıxışdıraraq xidmət sferaları iqtisadiyyatını yaratdı.

Yeni əlamətlər həm də qlobal problemlərin meydana gəlməsi faktında özünü biruzə verdi. “Roma klubunun” fəaliyyətindən başlayaraq bu günə qədər dünya ictimaiyyəti bəşəriyyətin mümkün inkişaf variantlarını əsaslandırmağa, texnogen sivilizasiyanın alternativini tapmağa cəhd edirlər. Xilasedici alternativlərin axtarışında olan filosoflar, kulturoloqlar, etnoqraflar texnogen sivilizasiyadan fərqlənən yeni bir sosiumun qərarlaşmasına diqqət yetirməyə başlamışdırlar. Bu baxımdan A.Toynbi, K.Levi-Stross, M.Eliade, P.Feyerabend, Y.Heyzinqa və s. kimi müasir mütəfəkkirlərin axtarışlarının mühüm əhəmiyyəti vardır. D.Bellin nəzəri işləmələri informasiya cəmiyyəti, biliklər cəmiyyəti və s. konsepsiyalarının meydana gəlməsinə səbəb oldu. Sosial əlaqələrin təşkilinin postindustrial tipinin səciyyəvi cəhətlərinə Bell aşağıdakıları aid edir: birincisi, insanın ətraf mühitə təsiri fasiləsiz xarakter alır, ikincisi, insan fəaliyyətinin müxtəlif sferalarının qarşılıqlı asılılığı və qarşılıqlı bağlılığı güclənir. Sosial əlaqələrdə bilik və informasiyanın rolu xüsusi aktuallıq kəsb edir. Məhz bu, cəmiyyətin mümkün inkişaf istiqamətlərini proqnozlaşdırılması prosesinə şərait yaradır. D.Bellin öz diqqətini ətraf gerçəkliyin sosial və elmi dərki sferasına elmi yanaşma məsələsində cəmləşdirməsi postindustrial cəmiyyətin stiyentist səciyyəsinə işarə edir.

D.Bellin mədəniyyəti (deməli, təhsili də) postindusrial cəmiyyətdə sosial dəyişikliklərin başlıca amili kimi şərh etməsi də maraq kəsb edir. Onun sözlərinə görə, “Mədəniyyət bu dəyişikliklərə səbəb olmaq təşəbbüsünü öz üzərinə götürür və müvafiq olaraq iqtisadiyyatda yeni dəyişikliklər daha tezliklə özünü biruzə verir” [3, s.11].

D.Bellin öz nəzəriyyəsində vurğuladığı bilik və informasiyanın misilsiz dərəcədə rolu barədə fikirləri sonrakı mütəfəkkirlər tərəfindən inkişaf etdirildi. Söhbət E.Tofflerin futuroloji əsərlərindən, M.Kastelsin şəbəkə cəmiyyəti nəzəriyyəsindən, F.Uebterin və D.Tapskottun informasiya cəmiyyəti problemlərinə həsr olunan əsərlərindən gedir [4; 5; 6].

Bu istiqamətdən olan bütün əsərlərdə belə bir başlıca ideya vurğulanır ki, informasiya, yeni biliklərin, deməli, texnologiyaların da istehsalı təkcə cəmiyyətdəki sosial əlaqələrin inkişaf amilinə çevrilməyib, cəmiyyətin sosial və siyasi strukturunun dəyişməsinə səbəb olmayıb, həm də bütövlükdə beynəlxalq və dövlətlərarası qarşılıqlı təsirlərin də transformasiya etməsini həvəsləndirmişdir.

Postindustrial cəmiyyətdə xidmət sferaları iqtisadiyyatının rolu durmadan artır. Yeni texnologiyaların tətbiqi nəticəsində istehsal prosesləri xeyli sürətlənir. İş daha rəngarəng, iş qrafiki isə daha çevik olur. Əmək şəraitini insan artıq özü tənzimləyə bilir. İş vaxtı artır, asudə vaxtla iş vaxtı arasında sərhədlər çəkmək artıq çətinləşir. Bir sözlə, "doqquzdan altıyadək" iş rejimi artıq standart hesab olunmur. Sosial bacarıq və kommunikasiya qabiliyyətlərinin də rolu artır. Beynəlmiləşmə də sürətlənir. Artıq müxtəlif mədəniyyətlər haqqında biliklər və bu mədəniyyətlər mühitində fəaliyyət göstərmək bacarıqları da tələb olunur.

Təbii ki əmək sferasında baş verən dəyişikliklər təşkilati dəyişikliklərə də səbəb olur. İndustrial cəmiyyət üçün bürokrat səciyyəsi idi [5]. Bürokratik sistemdə fərd əmək bölgüsü sistemində müəyyən yer tuturdu. "İş yeri" dedikdə, burada fərdlərin bürokratik iyerarxiya sistemində tutduğu stabil yer, "iş" dedikdə isə onların bu yerdə göstərdikləri davamlı fəaliyyət nəzərdə tutulurdu. İşçi şöbəsinin harada bitdiyini və qonşu şöbənin haradan başladığını dəqiq bilirdi. Bu və ya digər təşkilata qoşulan insan müəyyən mükafat əvəzinə öz üzərinə bir sıra öhdəliklər götürürdü. Bu öhdəliklər və mükafatlar uzun vaxt ərzində dəyişməz olaraq qalırdı. Piramida strukturuna malik bürokratiya stabil situasiyalarda səmərəli idi. Bir vaxtlar hər bir halda tətbiq edilə, bütün situasiyalarda yararlı ola bilən prinsiplərə malik olan bürokratik strukturlar zəruri komandaları verə və industrializmə uyğun tempə nail ola bilirdi.

Postindustrial cəmiyyətdə dəyişikliklərin tempi o dərəcədə yüksəldi ki, artıq bürokratiya bunun öhdəsindən gələ bilmir. Daha çevik təşkilatlara ehtiyac yarandı ki, onlar üçün də açar söz E.Tofflerin dediyi kimi "müvəqqəti" sözü oldu.

Bu gün müəyyən istehsal müəssisəsində konveyer şəklində fasiləsiz olaraq mexaniki əməliyyatları icra edən fəhlənin əməyinə ehtiyac qalmadığından postindustrial cəmiyyət üçün nəhəng müəssisələr və sexlər deyil, yuxarıdan təzyiqlərə daha az meylli olan və kiçik komponentlərdən ibarət olan yastı iyerarxiyalı təşkilatlar səciyyəvidir. Hər bir işçi kifayət qədər mürəkkəb, yüksək peşəkarlıq və yaradıcı yanaşma tələb edən çoxlu sayda iş görür. Belə təşkilatların işi günün vaxtından asılı deyil.

Yeni şəraitdə "layihə" və ya "operativ" menecment kimi müvəqqəti strukturlar meydana gəlir. İnsanlar qısamüddətli bir tapşırığı yerinə yetirmək üçün qısa bir vaxt ərzində (bir neçə gün, bəzən isə bir neçə il) fəaliyyət göstərən komanda yaradırlar. Hazırda «ad hoc» strukturlar adlandırılan bu müvəqqəti qruplar müxtəlif dövlət və digər bürokratik təşkilatların daxilində, elm müəssisələrində və s. yaradılır. İnsanlar bu komandalarda artıq birdəfəlik onlar üçün nəzərdə tutulmuş kiçik mexaniki əməliyyatları yerinə yetirmir və yüksək mobillik qazanırlar [1, s.284]. Qeyd edək ki, bu kimi təşkilatları ifadə etmək üçün E.Toffler müxtəlif terminlərdən, o cümlədən "matris", "ad-hoc" kimi terminlərdən istifadə edir. Ad hoc (latınca Ad hoc - "yer üzrə") "baxılan hal, situasiya, bu məqsəd üçün"mənasını verən latın frazasıdır. Bir qayda olaraq, bu termin konkret problemin və ya məsələnin həlli üçün təyin olunan və başqa hər hansı ümumiləşdirmə və ya başqa məqsədlər üçün nəzərdə tutulmayan qərarı ifadə etmək üçün işlədilir. "Ad hoc" əks mənada müvəqqəti həll, qeyri-adekvat planlaşdırma və ya improvizə olunmuş hadisənin ehtimalı kimi də başa düşülə bilər.

Z.Bauman yazır: "İş yerinə bu gün bir növ insanın bir neçə gecə dayandığı və vəd edilən komfort təqdim edilmədikdə... hər an tərk edə bildiyi kempinq kimi baxılır..." [2, s.48]. Bununla da formalaşmış "yaxşı işçi illərlə bir iş yerində işləmiş insandır" stereotipi dağıdılmış olur. Əhalinin əksəriyyəti tərəfindən işin itirilməsi şəxsi faciə kimi qiymətləndirilir, halbuki sosioloji tədqiqatlar göstərir ki, işini itirmiş, lakin aktiv surətdə iş axtaran insanların 95%-i bir müddət sonra daha maraqlı və yaxşı gəlirli iş tapa bilir.

Alman sosioloqu U.Bekin sözləri ilə desək, "hər yerdən daha çevik olmaq çağırışları səslənir". Əslində bu, onu nəzərdə tutur ki, işə götürən muzdlu işçiləri asanlıqla işdən çıxarmaq imkanı əldə edəcəkdir. Əvvəllər dövlət və iqtisadiyyatın öz üzərinə götürdüyü risklər indi ayrıca götürülmüş fərdlərin çiyninə düşür. İş yerlərinin "yeniləşməsi" dinamikası artır, yəni işin müddəti azalır, işdən çıxarılmaq ehtimalı artır. Nəhayət, belə bir "çeviklik" onu nəzərdə tutur ki, işçiyə "sənin biliklərin və vərdişlərin köhnəlir, lakin tələb olunmaq üçün sənə hansı dərəcənin lazım olduğunu heç kim əminliklə deyə bilməz". Bu, bir daha təsdiq edir ki, yeni şəraitdə gənclər elə bir baza təhsili almalıdırlar ki, o, onlara gələcəkdə yeni peşələrə daha asanlıqla yiyələnməyə imkan versin. Obrazlı desək, təhsil konvertasiya edilən olmalıdır.

Baş vermiş transformasiyalar işçilərlə müdiriyyət arasındakı münasibətlərə də mühüm yeniliklər gətirir. P.Drakerin qeyd etdiyi kimi, bu gün "heç kim, - nə işçilər, nə də sahibkarlar *nə asılı*, nə də *asılı olmayan* tərəfdirlər: onlar *qarşılıqlı asılı* tərəflərdir" [7, s.66]. Rəhbərlikdə olanlar getdikcə daha çox

ekspertlərin rəyləri əsasında qərarlar qəbul edirlər. Yuxarıdan gələn komandalar əsasında fəaliyyət göstərən sistem bu gün mütəxəssisi qane etmir: o verdiyi ekspert təkliflərinin yuxarı səviyyədə bəyənilməsini gözləyə bilməz.Mütəxəssislərin verdikləri təkliflərin iyerarxik sistem boyunca tələsmədən yuxarı-aşağı hərəkətini gözləməyə vaxtları olmadığına görə, artıq onlar özləri müstəqil qərarlar verirlər. Onlar getdikcə daha yaxşı başa düşürlər ki, qərar qəbuletmə məsuliyyətini öz üzərlərinə götürməlidirlər.

"İntellektuallar" sinfi və ya "bilik insanları sinfi" adlanan peşəkarlar yeni bir sinif kimi bu gün ABŞ,Yaponiya, bir sıra digər ölkələrdə artıq əhalinin yarısından çoxunu təşkil edir. Tabeçilikdə olan işçi olmaqla yanaşı, onlar eyni zamanda rəhbər işçi də ola bilirlər. Onlar həm asılı, həm də müstəqildirlər, çünki gözəl bilirlər ki, malik olduqları biliklər onlara sərbəst hərəkət etmək imkanını verir, onların xidmətlərinə praktiki olaraq bütün idarə və müəssisələrdə ehtiyac var. Buna görə də işə götürülərkən öz şərtlərini işə götürəndən çox, intellektual qulluqçu diktə edir. Mütəxəssis yaxşı başa düşür ki, texnoloji tərəqqinin yaratdığı yeni şəraitdə qarşıya çıxan qeyri-standart yeni problemləri həll etmək üçün onun biliyinə və peşəkarlığına böyük tələbat vardır. Buna görə də onun fəaliyyətinə stimul verən artıq bürokratik təşkilat çərçivəsində stabil yer tutmaq maraqları deyil, problemin özünə və həllinə göstərdiyi şəxsi maraqdır. O, özünü industrial cəmiyyətdə olduğu kimi bürokratik iyerarxiyada tutduğu mövqeyə və yerə görə deyil, öz peşəkarlığına və problemlərin öhdəsindən gəlmək bacarığına istinad edərək təsdiq etməyə çalışır. Buna görə də postindustrial cəmiyyətdə insanın işlədiyi təşkilata bağlılığını onun peşəsinə bağlılığı əvəz edir. Bu cür müvəqqəti qruplarda təmsil olunan peşəkarlar, çoxsaylı əlaqələrinə baxmayaraq, əslində heç bir təşkilatla davamlı əlaqələrə malik deyillər.

İndustrializm şəraitində "işsiz" dedikdə, əməyin təşkilinin iyerarxik sistemində stabil fəaliyyətlə məşğul olmayan fərd nəzərdə tutulurdu. "Ad hoc" qurumlar şəbəkəsinin bütün sosial-iqtisadi fəaliyyət sahələrini getdikcə daha sıx əhatə etdiyi müasir şəraitdə isə belə adamlara aydındır ki, artıq işsiz demək olmaz. İndi artıq ənənəvi iş yerləri yaratmaq potensialı sürətlə tükənməkdə olduğuna görə işsizlik probleminə və onun həllinə yanaşma tamamilə yeni məzmun alır. Ən nüfuzlu peşə nümayəndələri arasında da belə işsizlər var. Məsələ burasındadır ki, lazımi nəzəri və praktiki biliklər boğçasını yalnız yaxşı təhsil sayəsində əldə etmək mümkün olsa da, həmin "boğça" tez bir zamanda köhnəlir. Bu səbəbdən o, daima yeniləşməlidir. Məhz buna görə bütün dünyada tələbə və dinləyici statusunda olmaq normal hal hesab olunur. Yeni texnologiyaların tətbiq dairəsinin durmadan genişlənməsi nəticəsində elə yeni peşələr meydana gəlir ki, onlar əməyin təşkilinin ənənəvi bürokratik-iyerarxiya sistemini tamamilə mümkünsüz edir. Bu cür yeni və cəmiyyətdə xüsusi çəkisi sürətlə artmaqda olan peşə sahələrində fəaliyyət göstərənlərdən resursların bərpası üzrə mütəxəssisləri, istehsalın evdə təşkili və əlaqələndirilməsi üzrə mütəxəssisləri, proqramçıları və digər yeni peşə sahələrində çalışanları qeyd etmək olar.

Yeni texnologiyaların, biliklərin və sosial dəyişikliklə in təsiri altında ixtisaslar arasındakı sərhədlər də tədricən silinməyə başlayır. Aydındır ki, daha geniş təhsilə malik olan insan daha sərbəst hərəkət etmək imkanlarına malikdir. Dar ixtisas təhsili industrial dövrün tələbidir.

Bəlkə də kimlərsə deyilənlərin yalnız inkişaf etmiş Qərb ölkələrinə aid olduğunu düşünür və bizim "onlara hələ çatmağımıza çox var" deyir. Düzdür, Azərbaycanda təhsil və işçi qüvvəsinə olan tələb bir çox səbəblərdən tarazlaşdırılmamışdır. Bu səbəblərdən bu və ya digər təhsilin prioritetliyini təyin edən dəyərləri, əmək bazarında gedən sürətli dəyişiklikləri, orduya xidmətdən yayınmaq istəyi kimi halları göstərmək olar. Bu gün hansısa peşə ikinci dərəcəli peşədən tələb olunan peşə kateqoriyasına keçid edir və 5-10 il sonra məlum olur ki, müvafiq diplomlara tələbin çox olması üzündən mütəxəssis artıqlığı meydana gəlmişdir.

Müasir dövrdə gənc nəslin əmək karyerasının təmin edilməsində peşə təhsili sistemi müstəsna əhəmiyyətə malikdir. İnkişaf etmiş və müəyyən sənaye potensialına malik olan ölkələrin əksəriyyətində peşə təhsili sistemi özünəməxsus yer tutur. İnkişaf etmiş qabaqcıl dünya ölkələrində orta məktəb məzunlarının 40-60 %-i texniki peşə məktəblərində təhsillərini davam etdirərək ixtisas qazanır və öz əmək karyeralarının əsasını qoyurlar.

Ali təhsil sistemimizin bir nömrəli problemi ali təhsil müəssisələrinin məzunlarının işlə təmin olunmasıdır. Bu məsələni həll etmək üçün mütəxəssisləri işlə təmin edənlərin sifarişi əsasında hazırlamaq lazımdır, çünki ali təhsil sistemi və ya dövlətin özü bazar iqtisadiyyatı şəraitində sifarişçi rolunda çıxış edə bilməz. Lakin bu, çox mürəkkəb məsələdir. Onu həll etmək üçün iqtisadiyyatın 5-10 il sonra necə olacağını, hansı mütəxəsisslərə tələbin olacağını, hansılara tələbin

olmayacağını bilmək lazımdır. İşlə təmin edənlərin özləri də bunu bilmir. Lakin onlar milli əmək bazarının yaradılması istiqamətində səylərini cəmləşdirməyə hazırdılar. Buna görə də iqtisadi situasiyanın təhlili və proqnozlaşdırılması aktual məsələlərdəndir.

İxtisasi üzrə işləməyən mütəxəssisləri yetişdirmək istəməyən ali məktəblər də məsələnin həllindən kənarda qalmamalıdırlar. Ən azı biz dərk edirik ki, ölkəmizin ali təhsil məktəbləri həddindən artıq iqtisadçı və hüquqşünas yetişdirir və sürətlə inkişaf edən servis sahəsində mütəxəssis demək olar ki, hazırlamırlar. Kənd təsərrüfatı, texnika və texnologiya sahələrində də mütəxəssis hazırlığı zəifdir. Yalnız bu məsələləri həll etməklə tələb olunan postindustrial təhsil sistemini yaratmaq olar. Tam məsuliyyətlə deyə bilərik ki, Azərbaycan təkcə təbii ehtiyatlarına görə deyil, həm də industrial və intellektual potensialına görə dünyanın zəngin dövlətlərindən biridir və bu mənada bazar iqtisadiyyatında sürətlə inkişaf etmək iqtidarındadır.

## ƏDƏBİYYAT


1. İqtisadiyyat fəlsəfəsi. Dərslik/ prof. S.H.Hacıyevin ümumi rəhbərliyi ilə. B., 2009, 369 s.
2. Бауман, Зигмунт. Индивидуализированное обществоа. М., Логос, 2005, 390 с.
3. Иноземцев В.Л. Социология Даниела Белла и контуры современной постиндустриальной цивилизации /Вопросы философии. 2002, № 5
4. Кастельс М. Информационная эпоха: экономика, общество, культура. М., 2000
5. Тоффлер Э. Шок будущего! Пер. с англ. М., ООО «Издательство АСТ», 2003. 557 с.
6. Уэбстер Ф. Теории информационного общества. М., 2004
7. Drucker P.F. Post-Capitalist Society. N.Y., 1993


## ABSTARCT


**Muslim Nazarov**


**Changes in the occupational structure of postindustrial society**


The article identifies the characteristic features of postindustrial society compared to the industrial society, among which highlights the continuous nature of human impact on the environment and the growing interdependence and interrelatedness of different spheres of society, shows the growing role of information and knowledge in social relations, proves the idea about the new concepts of "work", "work", "workplace", "unemployment", and on this basis analyzes the transformation in the social and professional structure of society. Emphasizing that a narrow education is a requirement of industrialism, the author substantiates the idea that people with greater education have greater freedom of action, and experts should be prepared on the basis of the orders of the employers, in connection with which one of the urgent tasks is the analysis and forecasting of economic situation.


## РЕЗЮМЕ


**Муслим Назаров**


**Изменения в профессиональной структуре постиндустриального общества**


В статье выявляются характерные черты постиндустирального общества в сравнении с индустриальным обществом, среди которых особо отмечаются непрерывный характер воздействия человека на окружающую среду и рост взаимозависимости и взаимосвязанности различных сфер жизнедеятельности общества, показывается рост роли информации и знания в социальных связях, обосновывается мысль о новом содержании понятий «труд», «работа», «рабочее место», «безработица», и на этой основе анализируются трансформации в социальной и профессиональной структуре общества. Подчеркивая, что узкое образование – требование индустриализма, автор обосновывает мысль о том, что человек с более широким образованием имеет большую свободу действий, а специалистов необходимо готовить на основе заказов работодателей, в связи с чем одной из актуальных задач становится анализ и прогнозирование экономической ситуации.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev*

**MUSA HAQVERDİYEV**

***UOT : 327.7***

# TÜRKDİLLİ DÖVLƏTLƏR BİRLİYİ: GENEZİSİ VƏ İNKİŞAF YOLLARI

***Açar sözlər**: türkdilli dövlətlər və xalqlar, sivilizasiya, Azərbaycan, Mərkəzi Asiya, Heydər Əliyev, postsovet məkanı, müstəqillik, inteqrasiya, mədəniyyət, Türksoy, TİKA, qloballaşma, tolerantlıq, yubiley tədbirləri, geosiyasət, zirvə görüşləri, ortaq dəyərlər.*

***Key words**: Turkic states and people, civilization, Azerbaijan, Central Asia, Heydar Aliyev, post-Soviet space, independence, integration, culture, Turkish, TIKA, globalization, tolerance, anniversary events, geopolitics, summits, common values.*

***Ключевые слова**: тюркоязычные государства и народы, цивилизация, Азербайджан, Центральная Азия, Гейдар Алиев, постсоветское пространство, независимость, интеграция, культура, Тюрксой, TIKA, глобализация, толерантность, юбилейные мероприятия, геополитика, встречи на высшем уровне, общие ценности*

XX yüzilliyin 80-ci illərinin sonları dünyada qlobal məzmunlu və əsaslı dəyişikliklərlə yaddaşlara köçmüşdür. Yalta-Potsdam sisteminin çöküşü ölkələrarası münasibətlərdə yeni meylləri, siyasi-iqtisadi, elmi-texniki, mədəni və humanitar sahələrdə əməkdaşlığa yeni məna və məzmun dəyişiklikləri gətirməsi və beynəlxalq münasibətlərdə keyfiyyət dəyişikliklərinin baş verməsi ilə xarakterikdir. Məhz bunun nəticəsində Azərbaycan Respublikası dövlət müstəqilliyini elan edərək müasir beynəlxalq münasibətlər sisteminə inteqrasiya olunmuş, beynəlxalq imic qazanmış və suverenliyini qorumağa qadir olduğunu dünyaya göstərmişdi. Dövlət müstəqilliyinin ilk günlərindən Azərbaycanın xarici siyasət xəttində Türkiyə və türkdilli ölkələrilə əməkdaşlığın qurulması və inkişafı prioritet olmuş və olmaqdadır.

Müstəqilliyimizin tarixi boyu olduğu kimi, hazırda da türkdilli ölkələrin kütləvi informasiya vasitələrinin, xüsusilə mətbuatının apardığı araşdırmalar müasir dünya siyasətinin proqnozlaşdırılması kifayət qədər mürəkkəb olan hadisə və proseslərinə ümumi münasibətimizin, taktika və strategiyamızın müəyyənləşdirilməsində, dövlətçiliyimizin qorunması və möhkəmləndirilməsində, adət-ənənələrimiz və müştərək tariximiz haqqında bilgilərimizin genişləndirməsində və bunların formalaşmaqda olan nəsillərin yaddaşlarına köçürülməsində və həyat fəaliyyətinin vacib ünsürünə çevrilməsində, türk dünyası daxilində inteqrasiya yollarının axtarılıb tapılmasında, inkişaf etdirilməsində və qarşılıqlı fayda əsasında ticarət-iqtisadi əlaqələrin təkmilləşdirilməsində və dərinləşdirilməsində mühüm rol oynayır. Türk dünyasına inteqrasiyanı respublikamız və xalqımız üçün həyati əhəmiyyətli strateji kurs kimi müəyyənləşdirən ümummilli lider Heydər Əliyevin əsaslarını qoyduğu siyasi xətt isə onun layiqli varisi, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən dönmədən həyata keçirilməkdə və genişləndirilməkdədir.

Azərbaycan Respublikasının xarici siyasət xəttində müstəqilliyin ilk çağlarından etibarən türk dövlətləri, xüsusilə Türkiyə ilə əməkdaşlıq və tərəfdaşlığa xüsusi əhəmiyyət verilməsi dil, din və milli birlik əsas götürülməklə ümumi soy-kökdən qaynaqlanırdı. Azərbaycanın Türkiyə Cümhuriyyəti ilə əlaqələrinə xüsusi əhəmiyyət verən Ümummilli lider H.Əliyev məhz bununla əlaqədar aşağıdakı fikri dönə-dönə təkrarlayırdı: “Azərbaycan... dünyanın bütün ölkələri ilə əməkdaşlıq arzusundadır. Lakin onu Türkiyə ilə xüsusi münasibətlər bağlayır. Biz eyni kökdən boy atmışıq, ümumi cəhətlərimiz çoxdur. Biz iki ölkədə yaşayan bir xalqıq və öz birliyimizi möhkəmləndirməliyik”- həmişəyaşar fikrini səsləndirmişdi (10, 65).

Türk dünyasının birliyində Türkiyənin atdığı addımlar, təşkilatçılıq və təşviqatçılıq fəaliyyəti mühüm əhəmiyyətə malikdir. Təkcə onu demək kifayətdir ki, türk dövlətlərinin birliyi ideyası Türkiyə Prezidenti Turqut Özala məxsus idi. Bu gün tarixən oxşar talelər yaşamış xalqlarımızın birləş-

dirən ortaq dəyərlər, məqsəd və mənafelər elə faktorlardır ki, bunlar heç zaman öz aktuallığını itirməyəcəkdir. 1991-ci ilin oktyabrında Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbulundan sonra Azərbaycanın üz tutduğu ilk ölkə Türkiyə idi. Respublika Prezidenti İ.Əliyevin Dünya Azərbaycan və türk diaspor təşkilatlarının I forumundakı çıxışında diqqət məhz buna yönəldilmişdi: "Dünyada Azərbaycanla Türkiyə qədər həm milli-etnik baxımdan, həm də siyasi cəhətdən bir-biri ilə yaxın olan başqa dövlətlər yoxdur..."(2).

Türkdilli dövlətlər arasında ikitərəfli və çoxtərəfli münasibətlər, siyasi və iqtisadi işbirliyi sovet imperiyasının çöküşündən sonra başlamışdı. Belə ki, 1992-ci ilin iyul ayının 13-20-dək İstanbulda Türkdilli dövlətlərin mədəniyyət nazirlərinin ilk toplantısında niyyət protokolu imzalanmış, dekabrda isə Bakıda nazirlərin Daimi Şurasının ikinci iclasında TÜRKSOY-un fəaliyyət istiqamətləri, məqsəd və vəzifələri konkretləşdirilmişdir (5, 16). TÜRKSOY xətti ilə ilk beynəlxalq tədbir 1993-cü ilin yanvarında Türkiyədə görkəmli Azərbaycan bəstəkarı və dirijoru Niyazinin xatirə gecəsinin keçirilməsi olmuşdu.

Qeyd edək ki, 1993-cü ilin ortalarından etibarən- Ümummilli lider Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə qayıdışından sonra TÜRKSOY-un fəaliyyətinə diqqətin artması onun işində respublikamızın rolunu xeyli gücləndirdi. Azərbaycan nümayəndələrinin bu işdə fəal iştirakı, xüsusilə Mədəniyyət naziri P.Bülbüloğlunun təşkilatçılığı ona gətirib çıxardı ki, TÜRKSOY-un 1994-cü il mayın 28-dən iyunun 3-dək Bişkekdə keçirilən V toplantısında o təşkilatın Baş direktoru vəzifəsinə seçildi. TÜRKSOY-un fəaliyyətində onun yaradıldığı ilk illərdə əsas ağırlıq Türkiyənin üzərinə düşürdüsə, 1994-1995-ci illərdən başlayaraq vəziyyət dəyişdi, ağırlıq mərkəzi Azərbaycana keçdi. Halbuki, TÜRKSOY-un hələ 1992-ci il noyabrın 30-dan dekabrın 2-dək olmuş II toplantısı Bakıda keçirilmiş və təşkilatın fəaliyyətini gücləndirməyə yönəldilən mühüm qərarlar qəbul edilmişdir (20).

Türk dövlətlərinin ilk zirvə toplantısı isə Türkiyə Prezidenti T.Özalın təşəbbüsü və ev sahibliyi ilə 1992-ci il oktyabrın 30-da Ankarada keçirilmişdi. Zirvə görüşünə Azərbaycan Respublikasının Prezidenti Ə.Elçibəy, Qazaxıstan Respublikasının Prezidenti N.Nazarbayev, Qırğızıstan Respublikasının Prezidenti Ə.Akayev, Özbəkistan Respublikasının Prezidenti İ.Kərimov və Türkmənistan Respublikasının Prezidenti S.Niyazov qatılmışdılar. Tanışlıq xarakteri daşıyan bu toplantıda dövlət başçıları səviyyəsində keçiriləcək görüşlərin məqsəd və vəzifələri, əməkdaşlığın perspektivləri və konturları müəyyənləşdirilmişdi (16).

Ankara görüşünün mühüm nəticələrindən biri də toplantıda iştirak edən dövlətlərin sahə nazirlikləri arasında işbirliyinin qurulması ilə bağlı müzakirələrin aparılması olmuşdu ki, bu baxımdan mədəniyyət nazirlərinin TÜRKSOY-un - Türk Mədəniyyəti və İncəsənətinin inkişafı üzrə beynəlxalq təşkilatın yaradılması ilə bağlı qərarı olmuşdu. "TÜRKSOYun yaradılması və fəaliyyət prinsipləri haqqında" müqavilə altı dövlətin mədəniyyət nazirləri tərəfindən 1993-cü il iyulun 12-də Qazaxıstanın paytaxtı Almatı şəhərində imzalanmışdı (19). Nizamnaməyə əsasən TYRKSOY türkdilli dövlətlərin mədəniyyət nazirlərinin Daimi Şurasının qərarlarına əsasən fəaliyyət göstərir və başlıca məqsədi türk dünyasının görkəmli simalarının anılması, mədəniyyət və incəsənət sahələrində birgə tədbirlərin keçirilməsi, təcrübə mübadiləsinin aparılması, universal xarakterli ortaq milli-mədəni dəyərlərin formalaşdırılması və s.-dir.

Nizamnamədə TÜRKSOY-un qarşısında duran aşağıdakı məqsədlər öz əksini tapmışdı:

- mədəniyyət və incəsənət sahələrində əlaqələrin daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi üçün müxtəlif proqram və layihələrin həyata keçirilməsi;
- türkdilli ölkələrin ümumi mənəvi dəyərlərinin, tarixi irsinin, mədəniyyət və incəsənət əsərlərinin, xalq oyunlarının təbliğ edilməsi;
- televiziya və radio proqramlarının, sənədli və kinofilmlər hazırlamaqla türkdilli ölkələrin ən yaxşı mədəniyyət və incəsənət nəaliyyətlərinin populyarlaşdırılması;
- incəsənətin tiatr, musiqi, opera və balet növləri sahəsində birgə festivalların, müsabiqələrin və s. tədbirlərin həyata keçirilməsi;
- müxtəlif sərgilərin təşkili yolu ilə incəsənətin və heykəltəraşlığın inkişafına yönələn tədbirlərin həyata keçirilməsi;
- TÜRKSOY-un məqsəd və vəzifələrinin təbliği çərçivəsində beynəlxalq elmi konfrans, simpozium, diskusiyaların təşkili və s.(14, 4)

Məlum olduğu kimi, müasir dünyada 7 türk dövləti ilə yanaşı 30-dan çox türkdilli xalqlar mövcuddur ki, bunlar müxtəlif ölkələrin ərazilərində toplu şəkildə yaşayırlar. TÜRKSOY-un yaranması nəticəsində elə bir mərkəz meydana gəldi ki, hazırda onun ətrafında türk dövlətləri ilə yanaşı müşahidəçi ölkələr qismində Başqırdıstan və Tatarıstan respublikaları, Xakasiya, Tuva, Çuvaşiya və Qaqauz Yeri respublikalarında da birləşmişlər. Qurum bərabər hüquqlu türkdilli ölkələrin daxili və xarici siyasətindən, dövlət strukturlarının siyasi yönümündən asılı olmayaraq, onların mədəniyyət və incəsənət sahəsində regional birliyini həyata keçirir. Təşkilatın qərarları üzv ölkələrdə sıra ilə keçirilən mədəniyyət nazirlərinin daimi şurasının toplantısında təsdiq olunur, şuraya Baş direktor rəhbərlik edir, iqamətgahı Türkiyənin paytaxtı Ankara şəhərindədir, rəsmi dili isə türk dilidir.

Türkiyənin təşkilatçılığı ilə türk dövlətləri başçılarının keçirilməsi nəzərdə tutulan görüşləri Moskvanın ciddi müqaviməti ilə qarşılaşırdı. Məhz bunun nəticəsi idi ki, 1993-cü ilin otralarında Bakıda keçirilməsi planlaşdırılan zirvə görüşü, 1995-ci ildə İzmirdə keçirilməsi qərarlaşdırılan Türk Dünyası Qurultayı baş tutmadı. Yaranmış şəraitdə türk dövlətlərinin başçıları həm ayrı-ayrılıqda, həm də 1994-cü il noyabrın 18-də keçirilmiş İstanbul zirvə görüşündə keçirdikləri beynəlxalq tədbirlərin və TÜRKSOY-un heç bir dövlətə qarşı çevrilmədiyini, türk dövlətləri arasında inteqrasiyanın dərinləşməsinə xidmət etdiyini dönə-dönə bəyan etmək məcburiyyətində qalırdılar. Qeyd edək ki, 1996-cı ilin oktyabrına qədər “Türk zirvəsi” adlandırılan tədbirlər daha sonra “Türk Cümhuriyyətləri dövlət başçılarının zirvəsi”, 1998-ci ilin iyununda Astanada keçirilmiş 5-ci zirvə görüşündən sonra isə “Türkdilli dövlətlərin dövlət başçılarının zirvəsi” kimi adlandırılmağa başlamışdı (16). 1996-cı il noyabrın 6-da TÜRKSOY-un Bakıdakı toplantısı çərçivəsində keçirilən Türk dünyası yazıçılarının III qurultayında çıxış edən H.Əliyev qeyd etmişdi ki, “Xalqlarımızın böyük tarixini yenidən qiymətləndirmək, hər bir xalqın tarix boyu yaratdığı mənəvi dəyərləri, mədəniyyət abidələrini bütün xalqlar üçün doğma etmək bizim bu görüşlərin mərkəzində duran vəzifələrdir. Bizim köklərimiz bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə, çox dərindir və mənəvi dəyərlərimiz tarixin bütün mərhələlərində nə qədər çətinliklərlə rastlaşıbsa da, dayanmayıb, inkişaf edib. İndi isə türkdilli xalqların müstəqil dövlətləri olduğu üçün və bizim əlimizdə böyük imkanlar yarandığına görə bu prosesləri daha da gücləndirə, daha da mütəşəkkil edə bilərik. Bu, bizim borcumuzdur”(1).

Postsovet məkanı türk dövlətlərinin inteqtasiyasına və Türkiyə ilə əlaqələrinə Rusiyanın neqativ təsir göstərməsi, bu dövlətlərin siyasi inteqrasiyanın genişləndirilməsi, türk dövlətlərinin ortaq birliyinin yaradılması əvəzinə müxtəlif mədəni tədbirlərin keçirilməsinə vaxt itirir, çoxtərəfli əməkdaşlıq arxa plana keçirdi. Bunu zirvə görüşlərində qəbul edilən qərarların məzmunu da aydın şəkildə göstərirdi. Belə ki, 1995-ci il avqustun 8-də Bişkekdə keçirilən zirvə görüşünün Manas dastanının 1000 illiyinə həsr olunacağı qərara alınmışdı, amma bu “Manas” və “Kitabi Dədə Qorqud” kimi dastanların əhəmiyyətinin gözdən salınması demək deyildi. Görüşdə Türkmənistan istisna olmaqla türkdilli dövlətlərin rəhbərləri, o cümlədən də Ümummilli lider H.Əliyevin başçılıq etdiyi nümayəndə heyəti iştirak edirdi. Toplantıda çıxış edən H.Əliyev dastanın ümumtürk mədəniyyətində yerinə böyük əhəmiyyət verərək demişdi: “Çoxəsrlik tarixi boyu dünya sivilizasiyası xəzinəsinə sanballı tövhələr vermiş, coğrafi yaxınlığı ilə, tarixi tale, mədəniyyət, adət-ənənə, din və dil birliyi kimi sarsılmaz tellər ilə bir-birinə bağlı olan xalqlarımız və ölkələrimiz sıx və səmərəli əməkdaşlıq üçün çox geniş imkanlara malikdirlər. Manas müqəddəs bir əsər olmaqla köləliyə qarşı çıxır, xalqın azadlığını, müstəqilliyini hər şeydən uca tutur, ata yurdunu yadelli işğalçılardan qorumaq üçün xalqı mübarizəyə çağırırdı”(8, 186).

Türkdilli dövlətlərin nümayəndələrinin müxtəlif səviyyələrdə və tədbirlərdə baş tutan görüşləri, aparılmış diplomatik-siyasi danışıqlar və əldə olunmuş razılaşmalar tədricən ortaq dəyərlər əsasında ümumi srtategiya və taktikanın hazırlanmasına imkan verirdi. Qloballaşmaqda olan türk dünyasında inteqrasiya proseslərinin güclənməkdə olduğu dövrdə gündəmdə aşağıdakı təxirəsalınmaz vəzifələrin həyata keçirilməsi yollarının axtarışı dururdu:

- ümumi türkçülük ideologiyasının elmi-nəzəri əsaslarının yaradılması;
- türk dünyasının ümumi informasiya məkanının yaradılması;
- təşkilati məsələlərin gündəmdə saxlanması və daimi birlik və strukturların yaradılmasına nail olmaq;

- Böyük İpək yolunun yenidən canlandırılması;
- daimi fəaliyyət göstərən türk dövlətləri katibliyinin yaradılması;
- türk dünyasının ortaq əlifbasının yaradılması;
- türk ləhçələrinin qarşılıqlı lüğətinin hazırlanması;
- ortaq Türk tarixinin yazılması və antologiyasının yaradılması;
- ortaq Türk tarixi və mədəniyyəti institutunun formalaşdırılması;
- Təhsil Nazirlikləri və ali məktəblər arasında əməkdaşlığın yüksək səviyyəsinin təmin edilməsi;
- qarşiliqli tələbə və şagird mübadiləsini həyata keçirilməsi;
- türk dünyasını bir-birinə bağlayacaq enerji siyasəti;
- İstanbul-Almatı dəmir yolu xətti layihəsinin reallaşdırılması;
- türk dünyasının nəqliyyat zəncirinə Bişkekin də qoşulması;
- Bakı-Tiflis-Axalkalaki-Qars dəmir yolunun inşasına dəstək və s.(16)

Müasir dövrdə dünya xalqlarının hər birində, o cümlədən də türk xalqlarında öz soykökünə, ilkin maddi-mənəvi dəyərlərinə və adət-ənənələrinə qayıdış meyli kifayət qədər güclüdür. Ümumi mədəniyyət və mənəviyyata, ortaq dəyərlərə malik olan türk xalqlarının müxtəlif coğrafi məkanlarda yaşamasına və böyük zaman kəsiyində ayrı olmalarına baxmayaraq onların milli-mənəvi dəyərləri bölünməmiş, tarixi sınaqlardan üzü ağ çıxmışdır. Son iki yüz illik dövrdə ideoloji aşınmalara, siyasi rejimlərin basqısına məruz qalan türk xalqları mənən məğlub olmamış, dilini, dinini, adət-ənənələrini qoruyub saxlamışdır. Minilliklərin qovşağında türkdilli xalqların siyasi qurumları da daxil olmaqla bütün dünya dövlətləri və millətləri arasında iqtisadi, siyasi və mədəni əlaqələrin artması, inteqrasiyanın dərinləşməsi son nəticədə qloballaşma ilə xarakterizə olunan birliyə istiqamətlənmişdir. Bu baxımdan türkdilli xalqlar dünya sivilizasiyasına bütün sahələrdə nadir incilər, böyük şəxsiyyətlər və mədəniyyət nümunələri bəxş etmişlər ki, bunları tədqiq və təbliğ etmək türk kimliyimizi dünyaya tanıtmaq baxımından hamımızın borcudur.

Təsadüfi deyil ki, bu motivlər türk dövlətlərinin birləşdiyi bütün qurumların, o cümlədən də Türkdilli dövlət başçılarının zirvə görüşlərinin başlıca mövzuları sırasındadır. Belə ki, əgər 1995-ci ilin avqustunda Bişkekdə keçirilən zirvə görüşündə "Manas" dastanının 1000 illiyi qeyd edilmişdisə, 1996-cı ilin oktyabrı üçün Özbəkistan zirvə görüşünü türk dünyasının böyük dövlət xadimi və yenilməz sərkərdəsi Əmir Teymurun anadan olmasının 660 illik yubleyinə həsr etmişdi. 1996-cı il noyabrın 6-7-də Bakıda türk xalqlarının birliyi, ədəbi-mədəni əlaqələri ilə əlaqədar üç mühüm tədbirin – TÜRKSOY-un VIII toplantısının, türk dünyası yazıçılarının III qurultayının və Məhəmməd Füzulinin 500 illik yubileyinin yekun tədbirlərinin keçirilməsi göstərirdi ki, Azərbaycanın türk dünyasında imici yüksək, mövqeləri möhkəmdir.

Türkdilli Dövlətlərin Başçılarının 1996-cı ilin oktyabrında Daşkənddə keçirilən zirvə toplantısında yubiley tədbirləri ilə yanaşı bir sıra mühüm qərarlar da qəbul edilmişdi. Özbəkistan Prezidenti İ.Kərimov zirvə görüşlərindəki çıxışında türk dünyasında yaranmış beynəlxalq vəziyyətin səciyyəsini verməklə yanaşı Türkdilli Dövlətlər Birliyinin daimi fəaliyyət göstərən katibliyinin yaradılması təklifini də səsləndirmişdi. Təklifin digər dövlətlər tərəfindən dəstəklənməsi nəticəsində onun reallaşdırılması üçün müvafiq addımlar atıldı (11, 206). Görüşdə qəbul olunmuş Daşkənd Bəyannaməsində xüsusi olaraq qeyd edilirdi ki, yaxın vaxtlarda "Türk tarixi və mədəniyyətinin xatirə təqvimi", habelə "Böyük Türk Xaqanlığının 1450 illiyinin birgə qeyd edilməsi proqramı" hazırlanmalı və bunlara əsasən müvafiq işlərə başlanmalıdır (6, 81). Qeyd edək ki, həmin proqramın həyata keçirilməsində bütün təşkilati işlər uğurla başa çatdırılmışdı ki, bu prosesdə də Türkiyə Respublikasının maddi və mənəvi köməyinin böyük əhəmiyyəti olmuşdur.

Daşkənd Bəyannaməsindən irəli gələn vəzifələrin yerinə yetirilməsi çərçivəsində türk dövlətləri Mədəniyyət nazirlərinin hazırladıqları layihələrdən biri olan türk dünyasının mədəniyyət və tarixinə həsr olunmuş yaddaş təqviminin hazırlanması böyük əhəmiyyətə malk idi. Təqvimdə xronoloji ardıcıllıqla türk dünyasının çoxəsrlik tarixi, dili, ədəbiyyatı, mədəniyyəti və incəsənətinə aid olan hadisələr sistemli şəkildə öz əksini tapmışdı ki, buna əsasən türk dünyasının qüdrətini əks etdirən yüzlərlə müxtəlif dillərdə hazırlanmış nəşrlər işıq üzü gördü.

Böyük Türk Xaqanlığının 1450 illik yubileyinin keçirilməsi proqramının hazırlanması da Bəyannamədən irəli gələn vəzifələr sırasında idi. Proqramın əhəmiyyəti TÜRKSOY-un IX iclasının

protokolunda da öz əksini tapmışdır ki, orada deyilirdi: “dünya tarixinə ilk demokratik dövlət qurumu kimi daxil olan Böyük Türk Xaqanlığının müasir türk dünyasının tarixi köklərində və milli təfəkkürünün formalaşmasında rolu və əhəmiyyəti misilsizdir”(15, 60).

XX yüzilliyin sonları türk dünyası üçün çoxsaylı əlamətdar hadisələrlə tarixə köçmüşdü. Bunların içərisində 1998-ci ilin sentyabrında Böyük İpək yoluna həsr olunmuş beynəlxalq Bakı konfransı və 1998-ci ilin iyununda Qazaxıstanın paytaxtı Astanada keçirilmiş Türkdilli Dövlətlər Başçılarının V Zirvə Toplantısı mühüm yer tuturdu. Toplantıda qəbul olunan Astana bəyannaməsi beynəlxalq və regional xarakterli problemlərin çözülməsində işbirliyinə çağırırdı:

- türkdilli ölkələr arasında bərabərhüquqlu və qarşılıqlı surətdə faydalı əməkdaşlığın inkişafı və dərinləşməsi;
- türkdilli dövlətlər başçılarının görüşlərinin keçirilməsində katibliyinin yaradılması haqında xarici işlər nazirliklərinin hazırladıqları əsasnamənin təsdiqi və katibliyin fəaliyyətinə nəzarətin xarici siyasət idarələrinə həvalə olunması;
- “İpəl Yolu” proqramının dönmədən həyata keçirilməsi və bu əsasda onun gələcəkdə qarşılıqlı faydalı iqtisadi əməkdaşlığa körpü olmasına dəstək verilməsi;
- türkdilli ölkələrinin zəngin təbii sərvətlərinin, ilk növbədə təbii qazın və neftin işlənməsi, habelə hasilatına dair özəl və xarici şirkətlərlə işbirliyinəzərdə tutan layihələrin dəstəklənməsi və bu sahədə təxirəsalınmaz tədbirlərin görülməsi;
- regionda inteqrasiya proseslərinin fəallaşdırılması və genişləndirilməsi sahəsində Qazaxıstan, Qırğızıstan və Özbəkistanın səylərinin dəstəklənməsi (18).

Azərbaycan türkdilli qurumların yaradılmasında olduğu kimi, onların sonrakı fəaliyyətində də aparıcı dövlətlərdən biri olmuşdur. Azərbaycan rəhbərliyi bu qurumlarla işi prioritet istiqamət kimi qiymətləndirmiş, respublikada müvafiq inteqrasiya qurumları yaradılmış və bu yönümlü tədbirlər daim diqqətdə saxlanılmışdı. Azərbaycan Prezidenti H.Əliyev 1996-cı il noyabrın 6-da türk dünyası yazıçılarının Bakıda keçirilən III qurultayında türkdilli ölkələrlə əməkdaşlığın genişlənməsini milli diplomatiyamızın mühüm vəzifəsi kimi səciyyələndirmişdi: "Biz çalışmalıyıq ki, ölkələrimiz və xalqlarımız arasında olan əlaqələr bundan sonra bütün sahələrdə sürətlə inkişaf etsin. Dövlət nöqteyi nəzərindən, dövlət tərəfindən biz bunu edirik və türkdilli dövlətlərin başçılarının görüşləri də buna çox böyük imkan verir, dövlətlərimiz, ölkələrimiz arasında imzalanmış sazişlər və sürətlə inkişaf edən iqtisadi əlaqələr bunların hamısına imkan yaradır. Əmin ola bilərsiniz ki, Azərbaycan hökuməti bu sahədə əlindən gələni əsirgəməyəcəkdir"(9, 11-12).

Türk dövlətləri və xalqları arasında əlaqələrin qurulması və inkişafında 1992-ci ildə Türkiyə Xarici İşlər Nazirliyinin nəzdində xarici yardımların göstərilməsi məqsədilə yaradılmış Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) mühüm rol oynayır. 1999-cu il mayın 28-dən Türkiyə Nazirlər Kabinetinə tabe edilən agentliyə hazırda Sərdar Çam rəhbərlik edir. TİKA-nın dünyanın 48 ölkəsində 50 Əməkdaşlıq ofisi fəaliyyət göstərir, dünyanın 100-ə yaxın ölkəsində müxtəlif inkişaf mərkəzləri ilə aidiyyəti sahələr üzrə əməkdaşlıq edilir. Təşkilatın türk respublikalarında, o cümlədən də Azərbaycanda 1994-cü ildən etibarən Bakı Proqram Koordinasiya Ofisi fəaliyyət göstərir. Hazırda Mustafa Haşim Polatın rəhbərlik etdiyi ofisin həyata keçirdiyi layihələr birdəfəlik əsasda və kiçik həcmli yardımlar formasında reallaşdırılır. Azərbaycanın dövlət və qeyri-dövlət strukturları ilə əməkdaşlıq qurulmasına xüsusi əhəmiyyət verən ofis əsasən kənd təsərrüfatı, turizm, institusional infrastrukturun inkişaf etdirilməsi, iqtisadi, texniki, sosial, mədəni və səhiyyə sahələri üzrə fəaliyyət göstərir (17).

Agentliyin türk dünyasında adət-ənənələrin qorunmasında, ortaq mədəni dəyərlərin paylaşmasında rolu və əhəmiyyəti böyükdür. Bu baxımdan TİKA-nın təşəbbüsü ilə Türkiyədə ilk dəfə 1994-ci il martın 21-23-də geniş miqyasda keçirilən və sonradan hər ilin martında təkrarlanan Novruz bayramı şənlikləri xüsusi maraqla qarşılanmışdır. TİKA-nın da qatıldığı və YUNESKO-nun xətti ilə gerçəkləşən dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubleyi (BMT 1996-cı ili M.Füzuli ili elan etmişdi) TÜRKSOY-un təşəbbüsü ilə türk dünyasında təntənəli şəkildə qeyd olunmuş, şairin əsərləri müxtəlif dillərdə nəşr edilmişdi. 1996-cı ildə Azərbaycan Milli Bankı Füzulinin 500 illiyinə həsr olunmuş 100 manat nominalında qızıl, 50 manat nominalında isə gümüş xatirə sikkələri buraxmışdı (4).

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyinə həsr edilmiş tədbirdəki çıxışında ilk növbədə yubileyin konturları diqqətə çatdırılırdı:

“Məhəmməd Füzulinin 500 illik yubileyi üç ildir ki, Azərbaycanın hər bir guşəsini fəth edibdir və dünyanı dolaşır. Bu üç il müddətində Məhəmməd Füzulinin 500 illik yubileyi təkcə Azərbaycanda yox, dünyanın bir çox ölkələrində keçirilibdir. Türkiyədə - Ankarada, Rusiyada - Moskvada, İraqda - Bağdadda, Kərbəlada, Kərkükdə, İranda - Tehranda, Gürcüstanda, Qazaxıstanda, Özbəkistanda, Dağıstanda, Dərbənddə, Mahaçqalada, Parisdə, YUNESKO-nun baş qərargahında Məhəmməd Füzulinin 500 illik yubileyi ilə əlaqədar təntənəli mərasimlər keçirilib. Məhəmməd Füzulinin yaradıcılığı, onun irsi geniş təbliğ olunub və bütün dünyaya çatdırılıbdır”(3).

Türk xalqlarının mədəniyyət və ədəbiyyatının təbliğində mühüm rol oynayan TÜRKSOY beynəlxalq və regional təşkilatlarla yaxından əməkdaşlıq edir, türkdilli xalqların, o cümlədən Rusiya Federasiyasının ərazisində yaşayan türklərin mədəniyyət və incəsənət günlərinin keçirilməsi yolu ilə onların dünyada tanıdılmasına nail olur. Belə ki, 1996-cı ilin iyunun 7-də İstanbulda TÜRKSOY-la YUNESKO arasında qarşılıqlı əməkdaşlığa dair müqavilə imzalandıqdan sonra türk xalqlarının mədəni nailiyyətlərinin dünyaya yayılmasında yeni mərhələ başlayır. YUNESKO-nun baş direktoru F.Mayorun dəvəti ilə TÜRKSOY-un baş direktoru P.Bülbüloğlu qurumun Parisdə keçirilən XXIX sessiyasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsinə dair məruzə ilə çıxış etmişdi. Məhz belə əməkdaşlığın nəticəsi idi ki, YUNESKO tərəfindən Oş şəhərinin 3000 illiyi, “Dədə Qorqud” eposunun 1300 illiyi, Mahmud Qaşqarlının “Divanü lüğat-it türk” əsərinin 925 illiyi, Məhəmməd bəy Qaramanoğlu tərəfindən türk dilinin dövlət dili elan olunmasının 725 illiyi, Əhməd Yəsəvinin anadan olmasının 900 illiyi təntənəli şəkildə qeyd edilmişdi (21).

Elm, mədəniyyət, incəsənət və ədəbiyyat sahəsində dünya sivilizasiyasına nadir incilər bəxş etmiş türk xalqlarının minilliklər boyu əldə etdiyi nailiyyətlərin dünyada tanıdılmasında TÜRKSOY-la YUNESKO arasında əməkdaşlıq mühüm əhəmiyyətə malikdir, digər tərəfdən belə əməkdaşlığın gedişində türk xalqlarının özləri yaratdıqları nadir sənət nümunələri ilə tanışlığın gedişində daha da yaxınlaşırlar. Bu baxımdan TÜRKSOY-un təşəbbüsü ilə YUNESKO-nun proqramına türk dünyası üçün mədəniyyət və tarix baxımından əlamətdar olan aşağıdakı hadisələrin daxil olunması təklif edilmişdir:

- 1999-cu ildə “Dədə Qorqud” dastanlarının 1300 illik yubleyinin beynəlxalq miqyas-da keçirilməsi. Təklifbəyənilmiş və “Dədə Qorqud” ensiklopediyasının hazırlanması üçün YUNESKO tərəfindən qırx min ABŞ dolları çərçivəsində maddi yardım göstərilməsi bildirilmişdir.
- türk sivilizasiyasının tarixi mədəni mərkəzlərindən biri kimi Türküstan şəhərinin 1500 illiyinin qeyd olunması.
- Böyük Türk Xaqanlığının 1450 illiyinə həsr olunmuş təntənəli mərasimlərin hazırlanması və keçirilməsi (13, 42).

Yubiley təntənələrinin keçirilməsi məqsədi ilə əldə olunmuş razılaşmalarla əlaqədar fikir mübadiləsinin aparılması və konkret vəzifələrin müəyyənləşdirilməsi məqsədi ilə 1996-cı ilin noyabrında TÜRKSOY Nazirlər Şurası Bakıda özünün VIII iclasını keçirərək tədbirlər planını müzakirə etdi. Bu iclasda ilk dəfə olaraq Rusiya Federasiyasının Tuva və Xakasiya Respublikalarının nümayəndələri müşahidəçi statusu ilə TÜRKSOY-un sıralarına qatıldılar ki, nəticədə onun üzvlərinin sayı 11-ə çatdı (12).

Müasir beynəlxalq münasibətlər beynəlxalq xarakterli çoxsaylı hədələrin və fəsadların bir növ sınaq meydanına çevrilmişdir. Halbuki, TÜRKSOY-un 1999-cu ildə Ankara görüşündə dünyaya ünvanladığı “XXI əsra müraciəti” dünya xalqlarına və hökumətlərə dinc birgə yaşayış mühitinin formalaşdırılmasında əməkdaşlığın, mədəni mübadilənin gücləndirilməsinin zəruriliyini mesajını verir, dünya sivilizasiyasına böyük tövhələr vermiş türkdilli xalqların mədəniyyət və mənəviyyat sahəsində əldə etdiyi multikultural nailiyyətlərin əhəmiyyəti açılıb göstərilir, xalqlar və ölkələr arasında təzahür edən dözümsüzlük tendensiyasının yerini XXI əsrdə tolerantlıq və qarşılıqlı hörmət hissinin tutacağının vacibliyi bəyan edilirdi. Bu sahədə Azərbaycanın əldə etdiyi nailiyyətlər dünyaya örnək timsalındadır. Bakı Dövlət Universitetinin professoru Ə.Əliyevin yazdığı kimi, “ümumilikdə müxtəlif xalqların, millətlərin, dinlərin xüsusiyyətlərinə tolerant münasibətin azərbaycanlıların mentalitetinə xas bir dəyər olduğunu nəzərə alsaq, fərqli baxışlara, adətlərə, vərdişlərə dözümlülük mövqeyini özündə ehtiva edən multikultralizmin Azərbaycan üçün xüsusi əhəmiyyətini dərk etmək çətin deyildir... Multikultralizm bu gün fərqliliyi zənginliyə, müzakirələri inkişafa, iğtişaşları sülhə,

fərdiyyətçiliyi harmoniyaya aparan əsas amillərdən biri kimi çıxış edir"(7) - özü də Azərbaycanda.

## ƏDƏBİYYAT


1. Azərbaycan Prezidenti Heydər Əliyevin Türk dünyası yazıçılarının III qurultayında çıxışı // Azərbaycan, 1996, 6 noyabr
2. Azərbaycan Prezidenti İ.Əliyevin Dünya Azərbaycan və türk diaspor təşkilatlarının I forumundakı çıxışı // Azərbaycan, 2007, 9 mart
3. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyinə həsr edilmiş təntənəli gecədə nitqi // Azərbaycan, 1996, 8 noyabr
4. Azərbaycanın dahi şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyinə həsr edilmiş xatirə pul nişanları // Ayna, 1996, 19 iyun
5. Dirçəliş– XXI əsr, 60/2003, fevral
6. Dirçəliş - XXI əsr, 61/2003, mart
7. Əliyev Ə. Müasir qloballaşma şəraitində multikultralizm və insan hüquqlarının müdafiəsi // Azərbaycan, 2016, 3 aprel
8. Əliyev H. Müstəqilliyimiz əbədidir. B., 1996, II cild
9. Əliyev H. Müstəqilliyimiz əbədidir. B., 1998, VIII cild
10. Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. B., Azərbaycan nəşriyyatı, 1994
11. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. B., 2005
12. Məmmədli Ə. TÜRKSOY-un sıraları genişlənir // Ayna, 1996, 18 noyabr
13. Saray M.. Yeni Türk Cümhuriyyetleri tarihi, 2001
14. Türk Dövlət və Topluluqlarının 3-cü Dostluq, Qardaşlıq və İşbirliyi Qurultayı. Ankara, 1994
15. Türk Dövlət və Topluluqlarının 8-ci Dostluq, Qardaşlıq və İşbirliyi Qurultayı. İstanbul, 2000
16. Türk dövlətləri başçılarının zirvə toplantıları// http://www.shahidov.com/turk-dovl%C9% 99tl%-C9%99ri-bascilarinin-zirv%C9%99-toplantilari/
17. Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=1438:tika&catid=39&Itemid=263&lang=az // www.tika.gov.tr
18. Türkdilli Dövlət Başçılarının Astana bəyannaməsi // Azərbaycan, 1998, 12 iyun
19. TÜRKSOY – türk xalqlarının mədəniyyət və incəsənətinin inkişafı təşkilatıdır // Ayna, 1993, 17 iyul
20. TÜRKSOY-a azərbaycanlı nazir rəhbərlik edəcəkdir // Ayna, 1994, 2 iyun
21. Türklerin tarihi UNESKO-da anıldı // Zaman, 1996, 20 noyabr


## ABSTRACT


**Musa Haqverdiyev**


**Union of Turkic-speaking states: genesis and ways of development**


Turkic states and peoples take important place in political map of modern world. Global changes occurred at the beginning of 90s of XX centenary played important role in the history of Turkish republics located at the regions of Southern Caucasus – Central Asia where geopolitical competition is not stopped at the present. Five states of the post-Soviet space–Azerbaijan, Kazakhistan, Kazakhstan, Kyrgyzstan, Uzbekistan and Turkmenistan which won state independence in the result of destruction of USSR locates on the Great Silk Way and the world's largest energy storage. Strict opportunities created for close union among turkic states that are linked together by bonds of geographical proximity, culture-morality, habits and traditions, unity of religion and language in new international condition.

Summits of the representatives of these states, diplomatic-political negotiations held in different

levels and events and agreements obtained are analyzed in intensification of integration among Turkish states in the article, gradually issues of common strategy and preparation of tactics are submitted for agenda on the basis of common values, as well as the importance of integration processes in globalizing Turkic world is indicated, the essence of factors prevented this process is dealt.

The author based on intensification of the tend to return of the world people, also Turkic people to their roots, material and moral values and habits and traditions in modern period, gave scientific and political analysis of integration processes among Turkic states, also relations to be created with Turkic states of post-Soviet space among these states, also with Turkey which is the closest ally of Azerbaijan are dealt. The Turkic people who stood the test were not defeated morally, reserved their own language, religion, habits and traditions. Habits of Turkic people who endowed rare pearls, great personalities and samples of culture to the world civilization in all fields are symbol of religious, national and political endurance in modern period and it is our civi duty to introduce those to the world.

## РЕЗЮМЕ

**Муса Ахвердиев**

**Объединение тюркоязычных государств: генезис и пути развития**

Тюркоязычные государства и народы занимают значительное место на политической карте современного мира. Глобальные изменения, произошедшие в начале 90-х годов сыграли большую роль в исторической судьбе тюркских республик, расположенных в регионах Южный Кавказ – Центральная Азия с не стихающей в настоящее время геополитической конкуренцией. Пять государств постсоветского пространства, завоевавших независимость в результате распада СССР – Азербайджан, Казахстан, Киргизия, Узбекистан и Туркменистан, расположены на Большом Шелковом пути и на мощных энергетических запасах мира. В новых международных условиях создались серьезные возможности для тесных связей между тюркскими государствами, связанными друг с другом географической близостью, общностью культуры, обычаев и традиций, религии и языка.

В статье анализируется роль встреч на высшем уровне представителей этих государств, проведенных на различных уровнях и мероприятиях дипломатических и политических переговоров и достигнутых соглашений в углублении интеграции между тюркоязычными государствами, постепенно выносятся на повестку вопросы разработки общей стратегии и тактики на основе общих ценностей, а также раскрывается важность процессов интеграции в глобализующемся тюркском мире, рассказывается о сущности факторов, препятствующих данному процессу.

Автор, опираясь на усиление на современном этапе тенденции возвращения народов мира, в том числе тюркских народов к своим корням, культурным и духовным ценностям, обычаям и традициям, дает научно-политический анализ интеграционных процессов среди тюркоязычных государств, а также рассказывает об отношениях, формирующихся между тюркскими государствами постсоветского пространства, в том числе и Азербайджана с Турцией, как с самым близким союзником.

Тюркские народы, прошедшие испытание временем, морально не проиграли, сохранили свой язык, религию, обычаи и традиции. Обычаи тюркоязычных государств, подаривших мировой цивилизации уникальные сокровища, выдающихся личностей и образцы культуры во всех сферах, на современном этапе являются символом религиозной, национальной и политической толерантности и наш гражданский долг прославить их на весь мир.

NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev*

**NOVRUZƏLİ RƏHİMOV**
*Naxçıvan Dövlət Universiteti*
*Novruzrehimov62@mail.ru*

***UOT : 008.39***

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ DİNİ TOLERANTLIĞIN VƏ MULTİKULTURAL DƏYƏRLƏRİN QORUNMASI

***Açar sözlər:*** *qloballaşma, inteqrasiya, tolerantlıq, multikulturalizm*
***Key words:*** *globalization, integration, tolerance, multiculturalism*
***Ключевые слова:*** *Глобализация, интеграция, толерантность, мультикультурность*

İctimai həyatın müxtəlif sahələrindəki dəyişmə və inkişaf, xüsusən də texniki sahədəki sürətli inkişaf, yeni nəqliyyat və rabitə vasitələrinin kəşfi, dünya iqtisadi bazarının formalaşması, kütləvi miqrasiyalar, beynəlxalq əlaqələrin və mübadilənin intensivləşməsi ölkələrin və millətlərin bir-birinə daha da yaxınlaşması prosesini sürətləndirir. Dünyada iqtisadi əlaqələr çox sürətlə artır, beynəlxalq münasibətləri tənzimləyən dünya sistemləri yaradılır, qarşılıqlı mədəni təsirlər artır.

Qloballaşma mövzusu müasir tədqiqatların ən aktual məsələlərindən birinə çevrilmişdir. Qloballaşma haqqında bir sıra məqalələrin, kitabların, monoqrafiyaların yazılmasına baxmayaraq, bu fenomenin dəqiq anlamı hələ də qeyri-müəyyən qalmaqdadır. Bəzi tədqiqatçılar onu təbii-tarixi proses kimi, demokratiyanın dünyada inkişafı, yoxsulluğun və bərabərsizliyin aradan qaldırılması kimi qiymətləndirir, bəziləri isə qloballaşmanı qloballaşdırma kimi, milli-dövlətlərin mövcudluğuna təhlükə törədən, varlı və kasıb ölkələr arasında uçurumu dərinləşdirən proses kimi qiymətləndirirlər. Qloballaşma çoxşaxəli və cəmiyyət həyatının bütün sahələrini əhatə etdiyinə görə onun tədqiqinə də qlobal düşüncə ilə obyektiv yanaşmaq lazımdır. Fakt odur ki, bu proses biz istəsək də, istəməsək də inkişaf etməkdədir. Ona görə də qarşıda duran əsas məsələ odur ki, biz qloballaşma prosesinə qoşulmaqla yanaşı, necə öz milli mədəni-mənəvi dəyərlərimizi, iqtisadi maraqlarımızı qoruyub saxlaya və inkişaf etdirə bilərik. Yəni, qloballaşmanın mənfi təsirlərini necə minimuma endirib, bu prosesdən maksimum fayda götürə bilərik.

Əslində qloballaşma prosesinə ədalətlilik və bərabərlik prinsipindən yanaşılarsa, o, bəşəriyyətin tarixi inkişaf qanunauyğunluqları əsasında formalaşmış yeni obyektiv tarixi inkişaf mərhələsidir. Qloballaşma ən yeni informatika və telekommunikasiya vasitələri əsasında bəşəriyyətin böyük hissəsinin vahid iqtisadi-maliyyə, ictimai-siyasi və mədəni əlaqələr sisteminə cəlb olunması prosesi olaraq sivilizasiyalararası dialoq və qarşılıqlı əlaqələrin zərurəti qanunauyğunluğunu yaradan inkişafdır. Yaşayışın ümumi standartlarının əmələ gəlməsi və dünyagörüşün tipologiyasında planetar meyarların qüvvətlənməsidir, dünya proseslərinin qarşılıqlı asılılığını təmin edən inkişaf prosesidir.

İqtisadi sahədə qloballaşmanın əsasını təbii resurslar və bazarlar üzərində nəzarət uğrunda kəskin rəqabət, mübarizə təşkil edir. Onun əsas iştirakçıları transmilli şirkətlərdir. Bu şirkətlər XX əsrin əvvəllərindən, böyük sənaye kampaniyalarının iqtisadi və maliyyə maraqlarının milli sərhədləri aşmağa başladığı dövrdən formalaşmağa başlamışdır. XX əsrin ikinci yarısından regional transmilli şirkətlərin qlobal şirkətlərə çevrilməsi prosesi başlandı. Buna xeyli dərəcədə planetin müxtəlif hissələrini vahid informasiya və iqtisadi məkanda birləşdirən elektron rabitə vasitələri sahəsindəki inqilab təkan verdi.

Öz iqtisadi gücünə görə bir sıra transmilli şirkətlər ayrı-ayrı dövlətlərlə rəqabət aparmaq imkanına malikdirlər. Kapital investisiyası və yeni texnologiyalar üzərində nəzarət imkanları onlara hətta çox güclü dövlətlər üzərində xüsusi fəaliyyət imkanları verir.

Qloballaşmanın müxtəlif mərhələlərdən keçdiyini bildirən Robertson vurğulamışdır ki, bu prosesdə təzahür edən hər bir mərhələ özündən əvvəlkindən daha mürəkkəb və rəngarəng olmuşdur (2, s. 231).

Qloballaşma dedikdə, bütün dünyanın bir qlobal məkana çevrilməsi və həmin məkan daxilində xalqların qarşılıqlı asılılığının zaman keçdikcə daha da artması və bütün sərhədlərin və maneələrin aradan qaldırılması başa düşülür. Qloballaşma insanlar, kapital, mal və ideyaların tez və sərbəst axın etdiyi yeni bir dünyanın yaranması deməkdir. Sonrakı mərhələdə isə, dünyada insan hüquqlarının tam tətbiq edildiyi və qorunduğu bir cəmiyyətin formalaşması nəzərdə tutulur. Bəşəri dəyərlərə, humanizmə əsaslanan qloballaşma demokratik dəyərlərin, insan hüquqlarının və ədalətin dünyanın hər bir guşəsinə yayılmasını təmin etməklə dünyanın hər bir sakini üçün firavan həyat qurmağa nail olmuş olacaq.

Transmilli şirkətlərin xaricdən əldə etdikləri gəlirin təqribən yarısı onların yerləşdiyi ölkəyə gətirilir. Transmilli şirkətlərin çoxunun məhz ABŞ ərazisində cəmlənməsi müasir dünyada ABŞ-ın mütləq ticarət üstünlüyünün əsas səbəblərindən biridir.

Bir tərəfdən ABŞ transmilli monopoliyaları öz ərazisindən kənarda milli maraqlarını effektiv həyata keçirmək vasitəsi kimi istifadə edir. Digər tərəfdən, bu məqsədlərin özləri monopoliyaların güclü təsiri nəticəsində dövlətlər tərəfindən hasil edilir. Onlar ilk növbədə monopoliyaların maraqlarını ifadə edirlər. ABŞ-a rəqabət qabiliyyətliliyini artırmağa yönəlmiş korporasiyaların maraqları ilə eynilə həmin rəqabət qabiliyyətliyinin möhkəmləndirilməsində maraqlı olan cəmiyyətin məqsədlərinin üst-üstə düşməsinə nail olmaq müvəffəq oldu. İkinci dünya müharibəsindən sonra ABŞ-ın tarixi uğurunun ən əsas faktorlarından biri ondan ibarətdir ki, Amerika dövləti və cəmiyyəti milli monopoliyaların və cəmiyyətin maraqları arasındakı ziddiyyəti aradan qaldıra bildi. Onlar buna öz monopoliyalarının ekspansiyasını ölkənin daxilinə yox, xaricinə yönəltməklə, onları millətüstü strukturlara və beləliklə də milli rəqabətqabiliyyətliliyinin uzunmüddətli təminatı və möhkəmləndirilməsi vasitəsinə çevirməklə nail oldular (5, s.138-139)

Qloballaşma prosesi Azərbaycanın da iqtisadi, siyasi, mədəni həyatına, milli-mənəvi dəyərlərinə və mənəvi-əxlaqi meyarlarına təsir göstərir. Qloballaşma ayrı-ayrı mədəniyyətləri və milli ənənələri, ideyaları, milli-mənəvi dəyərləri ümumdünya sistemi daxilinə qataraq sivilizasiyaların dialoqu üçün də şərait yaradır. Belə dialoq zamanı qarşılıqlı anlaşma və ümumbəşəri əsaslar axtarışı konsensus, ayrı-ayrı mədəniyyətlərlə, ənənələrlə və dəyərlər sistemi ilə rastlaşarkən, onları inkar etmədən öz ənənələri və mədəniyyətinə, sadiq qalaraq başqa dəyərlərə hörmət etmək və anlaşmaq bacarığı tələb olunur.

Azərbaycan bu prosesdə ümumbəşəri dəyərlərdən bəhrələnsə də, özünün tarixi-mədəni keçmişindən gələn milli-mənəvi dəyərlər sistemini və ənənələrini də qorumağa çalışır. Müstəqillik və dünyaya inteqrasiya şəraitində respublikamız Qərb və Şərq dəyərlərinin sintezini özündə birləşdirir. Demokratikləşmə, hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyəti və vətəndaş mədəniyyətini formalaşdıran Azərbaycan tarixən qazandığı və yaratdığı milli-mənəvi ənənələri, spesifik xüsusiyyətləri yeniləşmə ilə sıx uzlaşdırır. Azərbaycanlıların milli-mənəvi özünəməxsusluğu və mənəviyyatı onları dünya xalqlarından ayırmır, əksinə, onlarla birləşməkdə, inkişaf etməkdə əsas amillərdən biri olur.

Millilik və qloballaşma arasında mübarizə gedir. Qloballaşma ümumbəşəri dəyərlərlə yanaşı, milli kimliyi müəyyən edən milli-mənəvi dəyərlərə sirayət etdikdə ənənəviçilik-mühafizəkarlıq və ya müasirlik problemi üzə çıxır. Millətin milli varlığını müəyyən edən, keçmişindən indiyə və gələcəyə, onun tərəqqisinə xidmət edən dəyərlər, meyarlar qorunub saxlanmalı, milli şüur prizmasından keçərək, müasirliklə uzlaşdırılmalıdır.

Qloballaşma şəraitində milli-mənəvi dəyərlərimizi qorumaq üçün və inkişaf etdirmək üçün milli ideologiya və milli sosial özünüqoruma instinktini formalaşdırmaq zərurəti ortaya çıxır. Belə bir vəziyyətdə milli və ümumbəşəri dəyərlərin vəhdətinə çalışmaq lazımdır.

Tarixin müəyyən mərhələlərində dini inancların coğrafiyasının genişlənməsi, hər hansı dövlət tərəfindən müxtəlif ərazilərin işğal edilməsi ilə dilin, dinin və mədəniyyətin ekspansiyası da qloballaşma kimi qəbul oluna bilər.

Qloballaşma müxtəlif tarixi dövrlərdə ən müxtəlif formalarda həyata keçirilmişdir. Lakin bütün hallarda qloballaşmanın mahiyyəti onun bu prosesi həyata keçirənin, təsirə məruz qalan tərəf üzərində, iqtisadi üstünlüyünü həyata keçirməkdən və möhkəmləndirməkdən ibarət olmuşdur. Qloballaşmanın uzunmüddətli strategiyası dünya üzərində maliyyə- iqtisadi hakimiyyətin

saxlanması və dərinləşməsinə yönəlmişdir. (3, s.18).

Dünyada getdikcə dərinləşən sivilizasiyalararası toqquşmalar və ziddiyyətlər hər bir xalqın milli mənəvi və dini dəyərlərinin qorunması zərurətini dövrün aktual məsələlərindən birinə çevirib. İlk baxışda təbii və mütərəqqi görünən bu meyillər bəzi hallarda sivil bəşər cəmiyyətinin minilliklər boyu formalaşdırdığı dinc, yanaşı yaşamaq kimi ali dəyərə zərbə vurur, onun etnik, irqi, dini və siyasi dözümsüzlük kimi səciyyələnən ksenofobiya ilə əvəzlənməsinə yönəldir. Milli özünəməxsusluğu qorumaq bəhanəsi ilə son nəticədə başqa mədəniyyətlərə, dinlərə, hətta millətlərə münasibətdə dözümsüzlük halları artır.

Qloballaşma prosesi nəticəsində müxtəlif istiqamətlərdə dövlətlərin yaxınlaşması baş verir və onunla əlaqədar meyarlar insan hüquqlarına birbaşa təsir göstərir.

Müasir dövrdə yaranmış gərgin beynəlxalq vəziyyət etnik-milli dözümlülüyün, habelə tolerantlıq və multikulturalizm kimi dəyərlərin bəşəriyyət üçün önəmini daha da artırır. Multikulturalizm bu gün fərqliliyi zənginliyə, iğtişaşları sülhə, fərdiyyətçiliyi harmoniyaya aparan əsas amillərdən biri kimi çıxış edir. O, ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyasına yönəldilmişdir. Humanist və demokratik nəzəriyyə, yaxud ideologiya olaraq multikulturalizm tolerantlığın təcəssümüdür. Multikultural cəmiyyət olmadan humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma, qarşılıqlı zənginləşmə, dostluq və əməkdaşlıq mümkün deyil. Multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri alətidir. Digər mədəniyyətlərin mahiyyətini, xüsusiyyətlərini, tarixini və nailiyyətlərini öyrənmədən onlara qarşı tolerant münasibət, onların nümayəndələrinə hörmət mümkün deyil, qarşılıqlı anlaşma, mədəniyyətlərin və sivilizasiyaların dialoqunu qurmaq qeyri-mümkündür. Multikulturalizmdən imtina etmək, əslində, anlaşılmazlığa, ksenofobiyaya, qarşıdurmaya, milli və dini münaqişələrə rəvac verən bir yoldur.

Fəlsəfi mahiyyətinə görə multikulturalizm müəyyən bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü və mədəni müxtəlifliklərin qorunmasına və inkişafına yönələn siyasətdir. O, fərqli mədəniyyətlərin yanaşı və ya birgə yaşayış tərzidir və azlıqlara öz etnik-mədəni dəyərlərini qorumaq üçün azadlıq verməklə yanaşı onların yaşadıqları cəmiyyətin bütün sahələrində fəal iştirak etmələri üçün hər cür şəraitin yaradılmasıdır.

Multikulturalizm bir ölkədə müxtəlif mədəniyyətlərin nümayəndələrinin maddi, hüquqi və mənəvi cəhətdən dəstəklənməsinə yönəlmiş demokratik dövlət strategiyasıdır, müxtəlif mədəniyyətlərə tolerant münasibətə əsaslanan dinc, yanaşı yaşama prinsipidir. Yaxud, multikulturalizm özündə mədəni müxtəlifliyin qorunub saxlanmasına və inkişafına yönəlmiş siyasəti, və bu siyasəti əsaslandıran ideologiyanı birləşdirir.

Multikultural dəyərləri müxtəlif mədəniyyətlərə, dinlərə, sivilizasiyalara tolerant münasibət şərtləndirir. Tolerant cəmiyyətdə multikulturalizm mədəniyyətlərin qarşılıqlı surətdə zənginləşməsinə, müxtəlif xalqları birləşdirən dəyərlər sisteminin formalaşmasına səbəb olur. Demokratiya multikultural cəmiyyətin formalaşmasında ən mühüm amillərdən biridir.

Sivilizasiyaların qovuşduğu bir məkanda yerləşən Azərbaycan tarixən müxtəlif dini və dünyəvi dəyərlərin uzlaşdığı, müxtəlif etnik, dini mənsubiyyətə malik olan insanların mehriban birgəyaşayışının, multikultural dəyərlərin, tolerantlığın mövcud olduğu bir məkandır.

Tarixi inkişafın bütün dövrlərində Azərbaycanda müxtəlif dini inancı, mədəniyyəti olan xalqlar dostluq, mehribanlıq şəraitində heç bir maneə ilə rastlaşmadan azad, sərbəst bir ailə kimi yaşamışlar və yaşamaqdadırlar.

Azərbaycanda qonaqpərvər, sülhsevər və humanist bir mühit mövcud olduğu üçün burada yaşayan digər xalqlar özlərini həmişə hərtərəfli ifadə edə bilmişlər. Azərbaycan elminin, mədəniyyətinin inkişafında, həmçinin ölkəmizin ərazi bütövlüyünün qorunmasında burada yaşayan digər xalqların nümayəndələri də nümunəvi qəhrəmanlıq və vətənpərvərlik nümayiş etdirmişlər.

XX əsrin sonlarında ölkəmiz öz müstəqilliyini yenidən bərpa etdikdən sonra Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində mədəniyyətlər və dinlərarası dialoq siyasəti davam etdirildi, keyfiyyətcə yeni mərhələyə qaldırıldı, tolerantlıq, multikulturalizm ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə hüquqi zəmin yaradıldı

və dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrildi.

Ulu öndər Heydər Əliyevin 1995-ci ildə bilavasitə təşəbbüsü ilə hazırlanan Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsinə əsasən, mənşəyindən, irqindən, dinindən və dilindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarına hörmət təmin olundu. Həmçinin, qəbul edilən bir cox qanunlarda Azərbaycan ərazisində yaşayan bütün digər xalqların azad, sərbəst yaşaması və inkişafı üçün təminat verildi. "Mədəniyyət haqqında" qanunun 11-ci maddəsi ilə dövlət Azərbaycan ərazisində yaşayan bütün digər xalqların milli inkişafına önəm verdiyini bir daha sübut etdi, "Təhsil haqqında" qanunda isə hər kəsin ana dilində təhsil alması və ayri-seçkiliyə yol verilməməsi məsələsi hüquqi cəhətdən təmin olundu. Bu məqsədlə milli azlıqların məskunlaşdığı Azərbaycanın bir sıra rayonlarında ali təhsil müəssisələri və kolleclərin filialları açıldı, ölkənin müxtəlif radio və televiziya kanallarında milli azlıqların doğma dillərində verilişlərin yayımlanması ənənəsi qoyuldu.

Azərbaycanın tolerantlıq və multikulturalizm siyasəti beynəlxalq qurumlar tərəfindən də həmişə müsbət qiymətləndirilir. Multikulturalizm siyasəti Azərbaycanda demokratik inkişafın mühüm tərkib hissəsidir, ölkədə demokratiyanın mühüm prinsipi kimi etnik-mədəni dəyərlərin qorunması insanların hüquq və azadlıqlarının təmin edilməsinin zəruriliyindən irəli gəlir. Ümummilli lider Heydər Əliyev ölkəmizdə olan tolerantlığı həmişə xüsusi vurğulayaraq, Azərbaycan reallığını dolğun şəkildə belə ifadə edirdi: “Bizim xalqımız həmişə dostluğu, qardaşlığı, mehribanlığı möhkəmləndirməyə cəhd göstərmiş, insanların dini mənsubiyyətindən asılı olmayaraq onların arasında sülh və əmin-amanlıq, mehribanlıq əlaqələrinin olmasına çalışmışdır”. O, "Biz Azərbaycan deyəndə onun sərvətini, onun gözəl təbiətini nəzərdə tuturuq. Lakin bütün bunlarla yanaşı, respublikanın ən başlıca sərvəti əsrlərdən bəri bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir"- deyərək, dövlət siyasətinin tərkib hissəsi kimi, bunu həyata keçirməklə multikulturalizmin Azərbaycan modelinin nəzəri əsasını qoymuşdur.

Qeyd etmək lazımdır ki, dövlət siyasətinin əsas komponentlərindən biri olan multikulturalizmin dəyərləndirilməsinin nəticəsi kimi, prezident İlham Əliyevin sərəncamı ilə 2014-cü il fevral ayının 28-də Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət Müşavirliyi təsis edildi. Eyni zamanda, multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli Fərmanı ilə "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi" yaradıldı. Əsas məqsədi tolerant həyat tərzinə malik məkan olan Azərbaycan gerçəkliyinin mədəni, sosial, siyasi mahiyyətini öyrənmək, etnik-mədəni, dini müxtəlifliyin tolerant əsaslarının elmi təhlilinin aparılması və qorunub saxlanması yollarını müəyyənləşdirmək, təhsil, mədəniyyət, elm və digər sosial sahələrdə özünü göstərən çatışmazlıqların sistemli şəkildə aradan qaldırılması istiqamətində layihələr həyata keçirmək olan Beynəlxalq Multikulturalizm Mərkəzinin məhz Bakı şəhərində yaradılması bu sahədə həyata keçirilən dövlət siyasətinin məntiqi davamıdır. Mərkəz qısa zamanda Azərbaycan multikulturalizminin elmi əsaslarla öyrənilməsi və dünyada təbliği ilə bağlı bir sıra mühüm işlər yerinə yetirdi. “Multikulturalizmə giriş” və “Azərbaycan multikulturalizmi” kimi yeni fənlər yaradıldı, onların həm Azərbaycan, həm də xarici ölkə universitetlərində tədrisinə başlandı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin IV Bakı Beynəlxalq Humanitar Forumunda dediyi kimi, "Multikulturalizmin müasir dünyada alternativi yoxdur. Çünki dünya ölkələrinin mütləq əksəriyyəti çoxmillətli ölkələrdir. Əgər multikulturalizm iflasa uğrayıbsa, onda bunun alternativi nə ola bilər? Bu da çox aydındır. Bu, ayrı-seçkilikdir, irqçilikdir, ksenofobiyadır, islamofobiyadır, antisemitizmdir".

Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanılması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etmişdir. Əsrlər boyu Azərbaycanda xalqlar arasındakı dostluq və həmrəylik multikulturalizmin və tolerantlığın parlaq nümunəsidir. Onlarla millətin və xalqların nümayəndələri Azərbaycanı öz vətənləri kimi qəbul etmiş və artıq uzun illərdir ki, bir ailə kimi mehriban yaşamaqdadırlar. Multikulturalizm Azərbaycanda artıq analoqu olmayan

həyat tərzinə çevrilmişdir.

Azərbaycanın tolerantlıq və multikulturalizm siyasəti dünyanın hər yerində baş verən terror hadisələri, siyasi, iqtisadi böhran, müharibələr fonunda humanistlik, barışa nail olmaq arzusu, təklifi kimi həm cəsarətli, həm də humanist bir addımdır. Multikultural dəyərləri müxtəlif mədəniyyətlərə, dinlərə, sivilizasiyalara tolerant münasibət şərtləndirir və tolerant cəmiyyətdə multikulturalizm mədəniyyətlərin qarşılıqlı surətdə zənginləşməsinə, müxtəlif xalqları birləşdirən dəyərlər sisteminin formalaşmasına səbəb olur.

Mövcud milli-mədəni müxtəliflik və tolerantlıq mühiti Azərbaycanı çoxmillətli, çoxkonfessiyalı diyar kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun əvəzolunmaz məkanı etmişdir. Bunun nəticəsidir ki, Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi özünü azad və firavan hiss edir. Ölkəmiz müxtəlif dinlərin azad yaşandığı bir məkandır. Azərbaycanda həmişə atəşgah, məscid, kilsə və sinaqoqlar yanaşı fəaliyyət göstərmişlər və indi də göstərməkdədirlər. Cənab İlham Əliyevin dediyi kimi "İctimai-siyasi quruluşdan asılı olmayaraq, heç vaxt Azərbaycanda milli, ya dini zəmində nəinki qarşıdurma, heç anlaşılmazlıq da olmamışdır".

Dünyada baş verən ciddi qarşıdurmalar, anlaşılmazlıqlar məhz mədəniyyətlərarası dialoqun azlığından, tolerant mühitin olmamasından irəli gələn problemlərdir. Nəzərə almaq lazımdır ki, bəşər mədəniyyətinin mövcud olması və yaşaması üçün multikultural dəyərlərin olması zəruridir. Çünki müəyyən sərhədlər daxilində təcrid olunmuş hər hansı bir mədəniyyətin tənəzzülü labüddür. Qloballaşma dövründə isə heç bir ölkə multikulturalizmin təsirindən özünü kənarda tuta bilməz, çünki o, mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri vasitəsidir. Ümumbəşəri və milli elm və mədəniyyət nailiyyətlərinə yiyələnmədən sivilizasiyalı cəmiyyətə keçmək mümkün deyil. (4, s.7)

Multikulturalizmin mükəmməl forması bütün insanlar arasında humanizmə əsaslanan, müxtəlifliklər arasında ahəngdarlıq yaradan tolerant birgəyaşayış modelinin müəyyənləşdirilməsi və tətbiqidir. Ölkədəki müxtəlif konfessiyalara siyasi münasibətin bərabər şəkildə yönəlməsi mexanizmini yaratmaq, ölkədə mövcud olan milli müxtəlifliyin qorunmasına istiqamətlənmiş dövlət qayğısı, orada yaşayan bütün xalqların və etnik qrupların mədəni dəyərlərinin qorunmasına dövlət və cəmiyyət tərəfindən dəstək verilməsi multikulturalizmin əsas prinsipləridir.

Multikulturalizm müəyyən bir ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonikləşməsinə, azsaylı xalqların, dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilmişdir.Multikulturalizmin inkişafı, mədəniyyətlərarası dialoqun uğurlu gələcəyi, müsbət meyllərin gücləndirilməsi humanizmə xidmət edən mövqeləri birləşdirir. Mədəni müxtəliflik ölkələr arasında, dövlətlərin daxili siyasətində çox önəmli məsələ kimi daim diqqətdə saxlanılmalıdır.

İndiki dövrdə dünyada gedən prosesləri nəzərə alaraq belə bir nəticəyə gəlmək olar ki, xüsusən də hazırda dünyanın müxtəlif, hətta inkişaf etmiş ölkələrində belə, baş verən münaqişələrin böyük əksəriyyəti milli, dini qarşıdurmalar zəminində baş verir. Ona görə də, multikulturalizmdən imtina etmək gələcəkdə hər bir ölkə üçün böyük problemlər yarada bilər. Bunun əsas səbəbi isə həmin ölkələrin multikulturalizmi lazımi səviyyədə qəbul etməmələri və ya başqa xalqlara məxsus dini, milli, mədəni dəyərlərə tolerant münasibətdə olmamasıdır. Azərbaycanda isə əksinə, multikultural dəyərlərin və tolerant mühitin qorunması və inkişafı istiqamətində aparılan dövlət siyasəti ölkədə yaşayan digər xalqların nümayəndələrinin, etnik qrupların harmonik inkişafını səciyyələndirən amillərdəndir. Belə mühit isə asanlıqla yaradılmayıb, multikulturalizm sahəsində əsrlərdən bəri toplanmış təcrübənin milli ənənələr üzərində inkişafını stimullaşdıran dövlət qayğısının və siyasətinin nəticəsində mümkün olub. İnsanlar arasında qarşılıqlı anlaşmaya, dostluq və əməkdaşlığa öz töhfəsini verən multikulturalizm Azərbaycanın zəngin mədəni və mənəvi irsinin göstəricisidir.

Sabitliyin və qarşılıqlı həmrəyliyin, əməkdaşlıq şəbəkəsinin gələcəyi humanitar inteqrasiyadan, dialoqdan, multikulturalizmin dünya səviyyəsində dəstəklənməsindən çox asılıdır. Ona görə də multikultural dəyərlərə böyük yer verilməsi müasir cəmiyyətdə getdikcə daha böyük əhəmiyyət daşımağa başlamışdır. İndiki dövrdə siyasətçilərlə yanaşı bütün vətəndaşlar dini və irqi qarşıdurmalara gətirib çıxaran bütün hallara qarşı ciddi mübarizə aparılmalıdır. "Dini tolerantlığın möhkəmləndirilməsi (Azərbaycan modeli, ATƏT regionu və onun hüdudlarından kənarda çağırışlar)" mövzusunda keçirilən

beynəlxalq konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Ölkəmizdə dövlət-din münasibətləri zəngin milli- tarixi ənənəyə əsaslanır və beynəlxalq hüquqi normalarla tənzimlənir. Biz bu təcrübəni həyata keçirdiyimiz din siyasətinin uğurlu təminatı kimi qəbul edir və mövcud ictimai-siyasi sabitliyin, vətəndaş həmrəyliyinin, nümunəvi dözümlülük mühitinin vacib amili kimi dəyərləndiririk". Odur ki, təhsil, mədəniyyət, idman, bütünlükdə sosial sferada tətbiq olunan yeniliklər bir məqsədə - xalqlar arasında birlik və əməkdaşlığın möhkəmlənməsinə yönəldilməlidir.

Tolerantlıq anlayışına müxtəliflik və fərqlərin qəbul edilməsi, onlara hörmət və rəğbət daxildir. Həmçinin tolerantlıq digərlərinin hüquqlarını tanımaq, fərqli düşüncə tərzinə malik olduğunu anlamaq əsasında münaqişə və ziddiyyətlərin həlli imkanlarının axtarılmasını təmin edən əxlaqi normalardır.

Tolerantlıq cəmiyyətdə və mədəniyyətlər arasında dialoq və sülhün yaranması mexanizmidir. Tolerantlıq mexanizmlərinin formalaşması və reallaşması mürəkkəb bir proses olub, nəinki bütün XXI əsr boyu, hətta əsrlərlə davam edəcəkdir. Bu sahədə müxtəlif ölkələrin təcrübəsi, tolerantlıq ənənələri əvəzi olmayan dəyər kimi öyrənilməlidir. Bu baxımdan ölkəmizdə mövcud olan azərbaycançılığın birləşdirdiyi tolerantlıq ənənəsi mükəmməl model axtarışları aspektində böyük əhəmiyyətə malikdir.

Tolerantlığın mənəvi qiymətləndirilməsi xeyir və ya şər mövqeyindən aparılırsa, onun siyasi qiymətləndirilməsi müəyyən sosial qrupların maraqlarına uyğun olub-olmaması baxımından həyata keçirilir. Humanist və demokratik nəzəriyyə, yaxud ideologiya olaraq multikulturalizm, tolerantlığın təcəssümüdür ki, onsuz humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma, qarşılıqlı zənginləşmə, dostluq və əməkdaşlıq mümkün deyildir.

Beləliklə, ümummilli lider Heydər Əliyevin tolerantlığı yüksək dəyərləndirərək dediyi kimi, "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətəndiririk və qoruyub saxlayacağıq".

Azərbaycanın tarixi inkişafının xüsusiyyətləri, coğrafi mövqeyi, əhalisinin etnik tərkibi burada müxtəlif dinlərin mövcudluğuna şərait yaratmışdır. Ayrı-ayrı dövrlərdə bütpərəstlik, zərdüştilik, yəhudilik, xristianlıq, İslam və bir çox başqa dini inanclar ölkədə bu və ya digər dərəcədə yayıla bilmiş, bir-birinə qarşılıqlı təsir göstərmişdir. Daha böyük mənəvi zənginlik baxımından İslam dini mühüm yer tutur. Həqiqətən də bu gün bütün Avropa dərk edir ki, İslam yeganə dindir ki, insan daxilindəki mənəvi boşluğu əxlaqi dəyərləri ilə zənginləşdirir (1, s. 141) Bundan əlavə, tolerantlıq, dini, milli-irqi dözümlülük milli mentalitetimizin ayrılmaz cəhətlərindəndir. Məhz bunun nəticəsidir ki, yüzilliklər boyunca və hazırda da Azərbaycanda xalqlar vahid və mehriban bir ailə kimi yaşamış, etnik və dini icmalar arasında dözümlülük əlaqələri formalaşmış, milli, irqi, dini ayrı-seçkiliyə yol verilməmiş, müxtəlif dinlərə mənsub insanlar sülh və əmin-amanlıq şəraitində fəaliyyət göstərmişlər. Azərbaycan Prezidenti İlham Əliyev IV Bakı Beynəlxalq Humanitar Forumundakı dərin məzmunlu nitqində demişdir: "Biz sivilizasiyalararası dialoqdan söhbət açırıq. Amma eyni zamanda, bəzi bəyanatlar bizi məyus edir ki, multikulturalizm iflasa uğradı, multikulturalizmin gələcəyi yoxdur. Bu, çox təhlükəli bəyanatlardır. Qeyd etməliyəm ki, multikulturalizmin müasir dünyada alternativi yoxdur. Çünki dünya ölkələrinin mütləq əksəriyyəti çoxmillətli ölkələrdir. Əgər multikulturalizm iflasa uğrayıbsa, onda bunun alternativi nə ola bilər? Bu, ayrı-seçkilikdir, irqçilikdir, ksenofobiyadır, islamofobiyadır, antisemitizmdir".

Multikultural dəyərlərin və tolerantlığın yeni modeli kimi tanınan Azərbaycan sivilizasiyalararası dialoqun, beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl olaraq zəruri təşəbbüs və çağırışlarla çıxış edir. Son illər ölkəmizdə beynəlxalq humanitar forumların, dünya dini liderlərinin sammitlərinin keçirilməsi, Beynəlxalq Tolerantlıq Gününün böyük məmnuniyyət hissi ilə ayrı-ayrı konfessiyaların nümayəndələrinin iştirakı ilə qeyd olunması, bəşəriyyəti narahat edən qlobal problemlər ətrafında birgə müzakirələrin aparılması buna parlaq nümunədir.

Qeyd etmək lazımdır ki, indi artıq Azərbaycan dünyada hətta ən inkişaf etmiş ölkələrə belə nümunə ola biləcək bir örnək modelinə və müasir dünyanın tolerantlıq simvollarından birinə çevrilmiş məkanıdır. Müxtəlif mədəniyyətlərin nümayəndələrinin bir ölkədə dinc, yanaşı yaşaması və qarşılıqlı zənginləşməsini həyat tərzi kimi qəbul etmək bəşəriyyətin nicat yoludur.

Ölkəmizdə müxtəlif dinlərin, millətlərin və mədəniyyətlərin nümayəndələrinin azad, bərabərhüquqlu yaşamaları üçün hər cür zəruri şərait yaradılmışdır. Müstəqilliyini qazandıqdan

sonra isə Azərbaycanda multikulturalizmin və tolerantlığın inkişafı məsələsi dövlət siyasətinin tərkib hissəsinə çevrilmişdir və bu siyasətin həyata keçirilməsi yüksək səviyyədə dövlət dəstəyi ilə əhatə olunmaqdadır.

**ƏDƏBİYYAT**


1. Əliyeva F.N. Qloballaşma və Azərbaycanın milli təhlükəsizlik fəlsəfəsi. Bakı, Təknur. 2008. 164 s.
2. Məmmədov H. B. Dünya siyasəti və beynəlxalq münasibətlər, Bakı, 2010, 568 səh.
3. Şükürov A.M. Qloballaşma: mahiyyəti və perspektivləri. Bakı, “Adilooğlu”, 2001, 171 səh.
4. Şükürov A.M. Fəlsəfə və qloballaşma. Bakı, “Adilooğlu”, 2001. 441 səh
5. Делягина М.Г. Практика глобализации: игры и правила новой эпохи. Москва, Инфра, 2000, 344 стр.


**ABSTRACT**


**Novruzali Rahimov**

**The propecting of religious tolerance and multicultural values in globalization**

İn scientific article the problems of protecting of religious tolerance and multicultural values were analyzed from philosophical aspect. The multicultural values and the aim of tolerance identified according to some philosophes` opinion and were given a new explanation.

In the scientific article it was shown that multiculturalizm was a policy, the cultural rights of the different nations living in a particular country under humanist outlook, cultural diversity, protecting policy in development.

It is a democratic policy, peaceful coexistence principle tha the nations aimed at supporting the financial, legal and moral of view based on different cultures and tolerance. Also in the scientific article the philosophical definition of tolerance was analyzed. It was identified in the article that tolerance is a tolerant approach to the other nations their cultures, conviction and believes.The tolerance and multiculturalizm policy of Azerbaijan is a peace suggestive call and humanizm to terrorizm that is happened everywhere in the world.


**РЕЗЮМЕ**


**Новрузали Рагимов**

**Защита религиозной толерантности и мультикультурных ценностей в условиях глобализации**

В научной статье были проанализированы проблемы защиты религиозной толерантности и мультикультурных ценностей в условиях глобализации в философском аспекте.

Сущность религиозной толерантности и мультикультурных ценностей были изучены в соответствии мыслях многих философов и были даны объяснения в новом содержании.

В научной статье указывается, что мультикультурализм- это политика гуманистического воззрения, признающая культурные права людей, живущих в той или иной стране и направленные на защиты и развития культурного разнообразия. Это государственная политика направленная на содействия развития демократического, толерантного отношения к различным культурам, материальных, правовых и моральных ценностей. Мультикультурализм- это принцип основанных на толерантное отношение к мирному сосуществованию различных культур.

Также в научной статье проанализированы философские сущности толерантности. В статье указано, что толерантность- это уважительное отношение к культурам, религиям и верованиям другим народам. Политика толерантности и мультикультурализма Азербайджанаэто вызов гуманизма к миру на фоне террористических актов, политических конфликтов, войны во всем мире.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2016, № 5(79)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2016, № 5 (79)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2016, № 5 (79)**

**BAĞIR BABAYEV**
*Naxçıvan Dövlət Universiteti*
*Bağırbabayev59@mail.ru*

***UOT:141***

# XX ƏSR AZƏRBAYCAN DEMOKRATİK FİKRİNDƏ MİLLİ BİRLİK PROBLEMİ

***Açar sözlər:*** *demokratik fikir, imperiya siyasəti, türk- müsəlman, milli ideya, milli birlik*
***Key words:*** *democratic opinion, empire policy, muslim- turk, national idea, national unity*
***Ключевые слова:*** *демократическая мысль, имперская политика, тюрки- мусульмане, национальная идея, национальное содружество*

Rusiya imperiyasının Azərbaycanı işğal etməsinin az qala ilk günlərindən başlayaraq, ölkənin ictimai-siyasi həyat səhnəsində mənfur imperiya siyasətinin gətirdiyi faciələr görünməyə başladı. İmperiyanın Azərbaycanın müsəlman-türklərinə qarşı digər xalqlardan, millətlərdən daha fərqli şəkildə çox qərəzli, şovinist siyasət yeritməsi açıq-aşkar özünü büruzə verdi. Zorakı xristianlaşdırma və assimilyasiya siyasəti yeridən Rusiya imperiyasının başlıca gizli siyasi məqsədi əsarətdə saxladığı çoxmilyonlu türk-müsəlman xalqlarının birliyinə istənilən vasitələrlə və yollarla mütləq maneələr törətmək, bu birliyi qəti şəkildə sarsıtmaq, yəni onları bir-birindən təcrid vəziyyətində saxlamaq idi. İmperiya sonradan isə nəsillərimizin varislik əlaqəsini qırmaq, onların dünyagörüşündən, mənəvi dünyasından irsi varisliyi tamamilə silib atmaq məqsədlərini güdürdü.

Əzəmətli, qüdrətli, nəhəng olduğu qədər də qorxunc görünən Rusiya imperiyası bütün türk-müsəlman xalqlarına, eləcə də bizlərə qarşı iyrənc siyasətini istənilən vasitələrlə həyata keçirirdi. Arazdan şimaldakı türk- müsəlman torpaqlarımızın işğalının həyata keçirilməsi ilə belə qorxunc siyasət və ideologiya birlikdə dönmədən, ardıcıl surətdə yerinə yetirilməyə başladı. Dövlət öz siyasətinin və ideologiyasının həyata keçirilməsi yolunda heç bir çıxarından qorxmurdu. Çünki o, imperiyanın slavyan xalqlarından sonra sayca ikinci sırada dayanan, xristian olmayan türk-müsəlmanların torpaqlarını özününküləşdirmək yönündə mütləq əsarətdə saxladığı bu xalqların beynini, düşüncəsini sıradan çıxarmalı idi. Bu mənada onun millətimizin mənəvi-daxili aləminə nüfuz etməsi üçün bütün qüvvələrini səfərbər edəcəyini tarix sübut edəcəkdi. İmperiya türk-müsəlman xalqlarının milli birliyinin sarsılmasına, mənəvi aləminin puçluğuna yönələn tədbirlərində diqqət mərkəzində saxladığı əsas məsələ onun qaranlıq mühitdən ayrıla biləcəyinə törətdiyi maneələr idi.

Bunun üçün başlıca əngəl kimi, onu qaranlıq mühitdə, cəhalətdə, mövhumatda saxlamaq və ondan qopub ayrılmağa yönələ biləcək hər şeyə mane olmaq idi. Bu imperiyanın düşünülmüş və əsrlərin sınaqlarından keçmiş çox hiyləgər bir siyasəti-məkrin yuvasının qurulması demək idi. Bununla millətin ruhu iflic, yaralanmış qəlbi parça-parça, dəlik-deşik edilirdi ki, o, imperiya üçün udulması çox rahat olan iştah açan bir tikəyə çevrilsin. Dövlət millətimizə kimliyini unutdurmağa səy etməklə düşünülmüş şəkildə onu imperiyaya dilsiz-ağızsız, eşitməyəcək, görə bilməyəcək bir "yem" etmək istəyirdi. Bunun üçün o, qərəzkar, fitnəkar ixtilaflar yaratmaqda ustalıq nümayiş etdirən özünün bürokratik təşkilatını bu işə yönləndirirdi. O, bunu heç cür nəzərdən qaçırmaq fikrində deyildi, çünki onun bu xalqa-millətə ehtiramı yox həddində idi, qərəzli siyasəti isə aşkar şəkildə görünür, hətta bir çox hallarda isə açıqca nümayiş etdirilirdi.

Millətimizin sıravi vətəndaşları kimi, din xadimlərimiz də qonşu xalqlardan, millətlərdən olan imperiya təbəələrindən çox aşağıda sayılırdı. Müasirliyin gözüylə baxıldıqda, müsəlman ruhaniləri sırf Rusiya imperiyasının siyasi maraqlarına tabe etdirilmək üçün dəstəklənirdi. Rusiya hökuməti müsəlman-türk xalqları arasında "parçala və hökm sür!" iyrənc, intriqalı siyasətinə xidmət edəcək müsəlman ruhanilərini özünə alət edə bilmişdi. Yenə Azərbaycan xalqının milli-mənəvi aləmində, dünyasında mühüm xidmətlər göstərə bilməkdən uzaq olan belə din xadimlərinin çox böyük əksəriyyəti bu millətə istismardan, yadelli əsarətdən qurtulmaq yolunda heç bir şey aşılaya bilməmişdi. Hətta imperiya ağaları qarşısında

doğma xalqımızın çoxəsrlik ən təmiz, pak, saf dininə də layiqincə qulluq göstərmək əqidəsindən çox kənarda dayanmış, onların əksəriyyəti millətimizin həyatında əhəmiyyətsiz olmuşlar.

Kənar qüvvələrin bəd niyyətlərinə xidmət edənlər zaman-zaman bu parçalanmanı, təfriqəni getdikcə daha da gücləndirdilər və dini birliyin pozulması ilə millətlərin milli birliyinin yaranmasına maneçilik törətməyə başladılar. "Məzhəbi-islamı anlaşılmaz, qarışıq, çarpaşıqlı, yüz parça və firqəyə böldülər" (I, s.147). Minillik tarix boyunca atılan bu addımlar XX əsrin əvvəllərində millətimizin milli birliyinə mane olan başlıca səbəblərdən birinə çevrilmiş oldu. Demokratik fikir səslənirdi ki, "Rizayi-Həqqi gözət, get rəhi- həqiqətlə" (2, II c, s.61). Əvəzində isə onlar öz cüzi mənfəətləri naminə ümummillli mənafelərə xəyanət etməkdən çəkinmədilər. Bunları nəzərdə tutan demokratik fikir göstərirdi ki, "o yerdə ki, bunlara bir mənfəət yoxdur, dörd əlli səy edəcəklər ki, ittifaqı və ittihadı ortalıqdan götürsünlər" (3, II c, s.249).

Aldanmaram ki, doğrudur ayinin, ey əmu,
Kəssin məni həqiqi isə dinin, ey əmu (2, I c, s.150).

Çünki bu, imperiyanın qanlı tarixindən süzülüb gələn bir əqidə, məslək, məfkurə qaynağı idi. O, müsəlman, xüsusilə də ətrafını sarmış türk dünyasının əhatəsində ona qarşı ən sınanmış bir vasitə idi. Məhz Rusiya imperiya elan olunana qədərki (1721-ci il) tarixində bütün yaxın-uzaq ətrafındakı müsəlman-türk xalqlarını özünə tabe etdikdən sonra mərkəzləşmiş Rus dövlətinin yaranmasına nail ola bilmişdi. Odur ki, o, özünün keçmiş qanlı mübarizə tarixini unutmadan XX əsrədək olan tarixində də, xüsusilə XX əsrin lap başlanğıcında da bu mübarizədən geri dayanmaq fikrində olmayacaqdı. Belə amansız mübarizədə çarizmin sınanmış silahı ruslaşdırmaq, zoraki xristianlaşdırmaq və assimilyasiya siyasəti idi. Lakin bütün bu bədbəxtliklərin içərisindən xalqımıza nəsib olan bir xoşbəxtlik ortaya çıxmış oldu: o da bu idi ki, türk-müsəlman xalqımız bu imperiyanın hiyləgər siyasəti çərçivəsində məhv olmamaq üçün çarpışarkən, qəti şəkildə anlamış oldu ki, o, məhz türkdür, müsəlmandır. Bu da "Rusiya türkləri üçün milli inkişaf dövrünün ibtidasını təşkil eyləmişdir" (4, s.18).

Yəni, xalqımız saxlanıldığı cəhalət və mövhumatın ən dərin qatlarında belə onu əzən, bundan çıxmağa qoymayan yadelli, yaddilli, yad əqidəli bir dövlətdən və millətdən tam fərqli olduğunu açıqca görə bildikcə dərk etməyə, anlamağa və qəti şəkildə buna əmin olmağa başladı. Xalqımıza yüzillik ağalığı dövründə bütün məhrumiyyətlərin acısını yaşatmış bu imperiya elə məhz bu səbəbdən dəridən-qabıqdan çıxsa da belə dili, dini, adət-ənənəsi, mənəvi-daxili aləmi tamamilə ona yad olan Azərbaycan türkünü, onun türklüyünü, hətta kimin əlilə olursa-olsun, nə ram edib özünə tabe edə, nə də öz içərisində əridib yox edə bilmədi. Bunun əsas, başlıca səbəbi isə riyakar, hiyləgər imperiya siyasətinin zəifliyi, acizliyi deyildi. Birincisi, o, xalqına sadiq olan vətənsevər millət fədailərinin canlarını fəda etməkdən qorxmayaraq mənfur imperiya siyasətinə mətanətlə sinə gərməsi, dayanması hesabına idi. İkinci səbəb isə bununla yanaşı, onların eləcə də xalqına, millətinə onun milli özünüdərkini, milli şüurunu aşılamasından və onu oyatmasından irəli gəlirdi.

Amansız rus işğalının fədakar xalqımız üçün istəməyərəkdən gətirdiyi əsl "xoşbəxtlik" elə onda idi ki, xalq həyat təcrübəsində müqayisədə ondan ayrı olduğunu anlaya bildi. İmperiya siyasəti onun milli özünüdərkinə, milli şüurunun məhvinə yönəldiyi halda, xalq da özlüyündə dərk edə bilmişdi ki, yadelli təcavüzə uğramışdır və məruz qaldığı bu yadelli təcavüzkar siyasətdən canını qurtara bilmək üçün hər cür çarpışmalara hazır dayanmalıdır. Macal tapdıqca, tarixi şərait yetişdikcə isə o, buna daha möhkəm əmin olmağa başlayırdı. Çünki imperiya əsarəti, üstəlik də görünməmiş dərəcədə getdikcə daha da gücləndirilən xristianlaşdırma-ruslaşdırma siyasəti onu tamamilə bu rejimdən iyrəndirmiş, ondan qurtuluş yollarını tapa bilməkdə güclü səy göstərməsinə meydan açmışdı. Xalq qürurunun tapdalandığının, murdar, yad pəncələr altında qalaraq kirləndiyinin hər zaman şahidinə çevrilmişdi. Bu da onun Allahına bağlı olan nəcib, həssas, saf islam duyğularıyla dolu olan qəlbini hər zaman həyəcana gətirmişdi.

Nəticə etibarı ilə XX əsrin yenilikçi ruhu, zamanın qəti hökmü çarizmin mənfur ideoloji siyasəti ilə uyğun gələ bilməzdi. Azərbaycanda da türk-müsəlman millətimizin qarşısında dayanan əsas istiqamət mütləq şəkildə onun oyanışından, milli özünüdərkindən başlamalı idi. Buna şərait yaradan ən mühüm amil isə əsrin özü ilə gətirdiyi yenilikçilik əhval-ruhiyyəsinin tələblərindən doğurdu. Millətimizin, xalqımızın qarşısında duran ən vacib, vaxtı çatmış, daha öz həllini gözləyə bilməyən mühüm amil onun oyanışına, sabaha doğru irəliləməsinə və tərəqqi tapmasına doğru getməkdə idi.

Bu, XX əsrin-yeni zamanın millətin qarşısına qoyduğu ən mühüm ehtiyaclarından birincisi idi. Zaman bu ehtiyacı çox nisbi sakit bir tərzlə, ehtiyatla millətin düşüncəsində saxlamışdı. O, milləti də əsrin, zamanın tərəqqisinə uyğun bir yönə- tərəfə çəkib çıxarmaqda qərarlı görünməkdə idi. Hər şey və hamı isə zamanın hökmünə tabe olmaq məcburiyyətində qalmışdı. Zaman milləti istəsə də, istəməsə də artıq ayılmaq, oyanmaq yoluna sövq etməli olacaqdı: o, millətimizin qarşısına bu rəqabəti qoymuşdu. Məhz milli Azərbaycan- türk düşüncəsinə beləcə işğal dövründə göstərilən danılmaz təsir çarizm üçün xoş olmasa da, zamanın tələbi kimi qarşıda qaçılmaz bir yola çıxış olmalı idi.

Xalqın, beləliklə, ümumiliklə, elliklə tərəqqi yoluna çıxa bilməsi hələlik tez olsa da, amma zaman özü buna doğru aparmaqda idi. Bu, onun milli-mənəvi oyanışını zəruri edən amillərdən olub, ona öz müsbət təsirini göstərməli idi. Odur ki, qabaqcıl Avropanın və Rusiyanın fikir cərəyanlarından qidalanan, onu görən və qəlbində, nəfəsində daşıyıb doğma Azərbaycan türkünə gətirən həmvətənləri olan görkəmli demokratik xadimlər, xüsusilə də, danılmaz haqqı olan yazıçı-şairlərimiz doğma millətinə çox böyük təsir göstərmiş oldular və imperiya əsarətinə qarşı azadlıq fikirlərini xalqla paylaşdılar.

O zaman XX əsrin əvvəllərindəki Azərbaycanın yerli əhalisi olan Azərbaycan türkləri rus hökuməti tərəfindən hansı adlarla çağırılsa, hansı səviyyədə dayansa belə, o, türk olaraq qalmaqda idi. O da Rusiya tabeliyindəki digər müsəlman-türk xalqları ilə dili, dini, kökü, mənəvi aləmi eyni sayılırdı. Bu mənada, bizim milli mənlik şüurumuzun oyanışının zəruriliyinin irəli sürülməsi zamanı bu oyanış müsəlmanların-ümumtürklərin oyanışı ilə sıx bağlı idi. Yəni, Azərbaycandakı türklərin ümummilli mənafeyi Sibirdən Aralıq dənizinə və Qara dənizdən uzaq Şimala qədərki böyük tarixi-coğrafi məkanda yaşayan türkdilli xalqların hamısının mənafeyi ilə canlı şəkildə bağlı götürülürdü. Odur ki, xalqımızın, millətimizin milli şüurunda ümumimüsəlman amili onun xristian olan imperiya əsarətinə tamamilə yad olduğunu ortaya çıxarırdı. Türklük mövqeyində qalmaqla isə bütün türklər kimi, bizlərin də milli özünüdərkinin oyanışı və sonralardan formalaşması yönündə mühüm addımlar atılacağına münbit zəmin hazırlanmış olurdu.

Halbuki Sovet dönəmində belə bütün araşdırıcılar-"dərin" tədqiqatçılar, guya humanist, demokratik, ədalətli cəmiyyətin düşüncə tərzini ifadə etdiklərinə görə, əslində isə, sırf humanizmə və ədalətə sığmayan şovinist, qərəzli, əksər hallarda isə saxtalıqlarla dolub- daşan fikirlər irəli sürür, əqidə, ideya formalaşdırmaq istəyirdilər. Onlar iynə ucu qədər əldə edə bildiklərini əllərində bayraq edərək, hər cür qarayaxmalar yarışına çıxırdılar. Ona görədir ki, bugünümüzdə istənilən tədqiqatçı obyektiv bir fikrə istinad etmək istədikdə onların əsərlərinə arxa çevirməkdə çox haqlı sayılır. Çünki bütün bu "tədqiqat" adlandırılan kitablar başdan-başa istənilən formada qərəzli, dolaşıq, saxta, uydurulmuş məlumatlar mənbəyinə çevrilmiş olur. Adətən, bunlar o zamanın, dövrün ideologiyasına xidmətin parlaq göstəricisi idi.

Əslində isə, orta əsrlərin şah-sultan saraylarından tutmuş çağdaş günümüzə qədərki olan dövrdə kimliyindən, daşıdığı əqidəsindən asılı olmayaraq, tədqiqatçı yalnız ədalətli tarixi həqiqətlərdən başqa heç nəyə söykənə bilməz və söykənməməlidir. Çünki qocaman tarixin sübutudur ki, həqiqətə söykənməyən bütün iddialar sonralardan qaranlıq künclərin bəzəyinə çevrilirlər. Heç kəs də heç nəyə faydalı olmadığı üçün heç bir yerdə onlardan yararlanmaq fikrində olmur. Bu, qocaman tarixin həyat meydanında ortaya qoyduğu böyük bir mənadır. Bu mənada Azərbaycan-türk xalqına atılan bütün qarayaxmalar keçən əsrlər kimi, bugünümüzdə də keçmişlərə tullanıldı. Çünki öz istiqlalına qovuşmuş millətimiz özünün azad, müstəqil inkişafını təmin edə biləcək və xalqımızın işıqlı sabahlarından xəbər verəcək möhtəşəm ideyalarını irəli sürmüşdü. O, özü də bu ideyaların gerçəkləşməsi üçün yorulmadan, böyük əzmlə səy və bacarığını ortaya qoyaraq, dünyaya sübut etmək qüdrətinə başqalarını da şahid etməyi bacardı.

Azərbaycanda xalqın rus çarizminin istismarından və imperiyanın "sömürgən" siyasətindən qurtulmağın yolu həmrəyliyə, birliyə nail olmaqdan keçirdi. Onun da başlanğıcı, ilk növbədə, millətin gerilikdən, cəhalətdən, mövhumatdan xilasından başlayırdı. Bundan xilas yolu milli düşüncəyə sıx bağlı idi. Çünki milli düşüncənin oyanışı ilə millətin şanlı tarixi keçmişi milli yaddaşını bərpa edəcək, onun özünə güvənini yaradacaq, bu zəmində, bu əsasda da müasirliklə ayaqlaşmağın zəruriliyi, vacibliyi anlaşılacaq qədər dərk ediləcəkdi. Yalnız bu yolla, yəni özünüdərk etməklə cəhalətin ən böyük və amansız düşmən olduğu bilinəcək, millət onunla böyük bir savaşa imza atacaqdı. Yoxsa belə olmadıqca, bu millət artıq yadellilərin, yaddilli və yad

mənəviyyatlıların iştahını açacaq qədər onların yem olacaq ağızlarında əriyib, itib gedəcək, tarixə qovuşacaqdı. Yalnız qurtuluş yolu görünməkdə olduğundan millətin oyanışına, milli özünüdərkinə inam gücləndi, yoxsa ki, xalqımız öz-özlüyündə öz məhvini hazırlayacaqdı.

Lakin dünyanın gerçək üzünü ortaya qoyan XX əsrin gəlişi ilə ədalətli tarix öz irəliyə doğru axan zamanının gedişini tənzimlədi, ilk mərhələdə əsrin sürətindən geri qalan xalqların qulağında cingiltili qulaqbatıran zənglərini səsləndirdi. Onları uca, ülvi ideallar ətrafında birləşmək yoluna səsləyib çıxardı. Bu mərhələdə xalqımız da belə yenilikçi ideyalarla tanış edildikcə möhtəşəm idealları özünə əldə bayraq etməklə, inkişafın məhz oyanışdan, birləşməkdən keçdiyini anlamaq halına gəldi. Çətin olsa da belə, onun dərkinə, qəbuluna nail ola bildi, özünü anlayıb, vəzifələrini, borclarını dərk etdikcə əsarətdən qurtuluşa doğru yenilməz qüdrəti və gücünü ortaya qoymağı bacardı. Bu zaman sadəcə lazım olacaqdı ki, xalqımızın, türk millətimizin düşüncə tərzi əsas-bazis olaraq "dildə, fikirdə, əməldə birlik" düsturunun üzərində köklənsin, "türkləşmək, islamlaşmaq və müasirləşməyin" çağdaş mübarizələr meydanında təklənməkdən xilas olması, qurtulması yolları tapıla bilsin.

Bu zaman ideya-siyasi istiqamətin mütləq şəkildə əsas tələbi olacaqdı ki, millətimizin XX əsrin əvvəllərində eyni zamanda və eyni məkanda, yəni bütün yaxn, qonşu və uzaq coğrafiyada mövcud olan digər doğma türk xalqları ilə istiqlal zəminindən qidalanan türk milli əqidə, düşüncə, əməl birliyinə nail olunsun. Sonralardan isə zamanın tədrici sürəti ilə ayaqlaşaraq, bu düşüncə- əməl birliyinə yeni mübariz ideyalarla ruh və can vermək gərəkli olacaqdı. Bu da zamanın yenilikçilik atmosferindən türk milli ruhuna çökürdü. Bu ideya istiqamətinin təmsilçiləri, siyasi baxış və əqidələrin daşıyıcıları olan görkəmli demokratik fikir nümayəndələri-ideoloqlar təkcə mənsub olduğu ayrıca, əlahiddə bir xalqın deyil, bütün əsarətdəki türk xaqlarının milli istiqlal ideyasına sədaqətinin nümunəsi oldular. Onlar milli-mənəvi birliyinin vacibliyinin çox dəyərli olduğunu əsaslandırırdılar və bu birliyin təminatı yolunda bütün vacib addımlarını atmaqdan geri durmadılar.

Deməli, Azərbaycan xalqı iki yerə parçalanandan sonra Şimali Azərbaycan türk mütəffəkirlərinin dünyagörüşlərində başlıca xətt hakim olmağa başladı. "Türk dünyasının gələcəyini "türklərin mənəvi birliyi" şəklində təsəvvür edən Ə.Hüseynzadə türk dünyasını nə müstəqil, nə muxtariyyət vəziyyətində deyil, hələlik Rusiya imperiyasının sərhədləri daxilində görürdü. Sonrakı yazılarında isə o, sadəcə, türklərin Rus imperiyasına qarşı mübarizəsi məsələsini qaldırır və hər hansı bir dövlət qurumundan söhbət açmır. Çünki 1904-1905-ci illərdə hələlik milli şüurun oyadılması uğrunda çalışan Ə.Hüseynzadə həmin məqaləsində üç həmrəylik sistemini açıqlayırdı: türkçülük, islamçılıq və rus vətəndaşlığı" (5, s. 60). Ə.Hüseynzadə yazırdı ki, "Məsləkimiz bunu iqtiza etdirir. Çünki bu surətlə qüvvətimiz...mübarizəyə iqtidarımız təzayüd edə bilir"(6, s.37).

XX əsrin əvvəllərində Azərbaycan ziyalıları milli kimlik istiqamətində millətin kimliyini, kim olduğunu anlatmağa səy edirdilər. Sovet dövründəki tədqiqatlarda bir neçə onillik tarixlərdə bizim şimaldakı torpaqlarımızın Rusiya tərəfindən işğalını mütərəqqi amil hesab edənlərin tez-tez təriflərinin "yarışları" keçirilirdi. Yəni bizim o tayda qalan qan qardaşlarımızın bizlərdən çox geridə qaldığı gözlərimizin önündə dəfələrlə təkrarlandırılırdı və inandırıcılığına da heç bir şübhə yeri saxlanılmırdı. Çar rus hökuməti dövründə bu inandırıcılığa şübhə edilsə də, Sovet dönəmində bu düşünülərəkdən çox şişirdilirdi və təhrif olunurdu. Halbuki parçalanma, ikiyə-yarıya bölünmə təbiətdə və cəmiyyətdə baş verən bütün obyektiv proseslərin normal gedişini həmişə pozmuş və onu inkişafdan geridə saxlamış çox böyük maneə hesab olunmaqdadır. Bu mənada belə bir parçalanma zamanı heç bir inkişafdan söhbət salınması ağlauyğun sayılmır.

İmperiyanın xalqımızın alçaldılmasına, milli ruhunun sındırılmasına və boğulmasına yönəlmiş siyasəti xalqın ağrılarını get- gedə artırsa da, onun milli düşüncəsini silkələyib ayıltdı, ona yavaş- yavaş milli mübarizənin mənasını anlada bildi. Doğrudur, imperiya hakimiyyəti buna heç vaxt inana bilməzdi ki, şovinist mustəmləkəçi siyasət yürüdən dövlətin- hakim millətin onun mənəviyyat aləminə yad olan, fərqli dili, dini olan xalqlara, millətlərə basqısı həmin xalqları da öz fəaliyyət proqramlarını düşünməsinə və ortaya çıxaracağına səbəb olacaqdı. Bu fəaliyyət proqramını hazırlayan, onun milli düşüncəsini uca tutan və onu milli ideologiya səviyyəsinə yüksəldə biləcək mübariz ruhlu demokratik fikir xadimləri idilər. Onlar xalqın milli ruhunu milli ideologiya şəklində sistemləşdirib xalqı milli azadlıq uğrunda mübarizədə arxasınca apara bildilər.

XX yüzilliyin millətimizin qarşısına qoyduğu tələblərdən ən vacibi onun milli kimliyinə sahib

çıxması olmuşdu. Zaman XIX əsrin rus istilasından başlanmış XX əsrin əvvəllərindək olan tarixi dövr ərzində unudulmaqda olan və unutdurulmağa çalışılan türklük düşüncəsini yenidən tarixi zərurət kimi cəmiyyət həyatının diqqət mərkəzinə çəkib gətirdi. Çünki məhkum xalqlardan biri kimi, bizim Azərbaycan türkləri də tarixi zərurət üzündən milli özünəməxsusluğunu yenidən axtarıb tapmağa səy etdilər. Obyektiv olaraq millətin əsarətdən qurtuluşu naminə tərəqqi və inkişaf yoluna çıxmaq istədiyindən milli mənlik şüurunun oyanmasına, mahiyyətcə milli oyanışa nail olmağa çalışıldı. Bununla da Azərbaycan türkləri imperiya əsarətindəki eyni dildən, eyni kökdən olan türk xalqları ilə yaradılmış əlaqələrə görə bu prosesdə fəal iştirakçıya çevrildilər. Rusiya imperiyasındakı türk xalqlarından biri kimi azərbaycanlılar da milli birlik axtarışına çıxmaqla Volqaboyunun-Krımın türk tatarları ilə özünəməxsus bağlılıq gördüklərindən, türkçülük düşüncəsinə doğru şanlı bir keçid dövrü başlandı.

Bu dövrdə Azərbaycanda nəşrə başlayan saysız- hesabsız qəzet və jurnallar sosial-siyasi həyatda xalqın, millətin oyanışına xidmət etməyə başladı. Burada şairlər, yazıçılar, dövrünün görkəmli xadimləri sosial- siyasi mövzularda çıxış edirdilər. Humanizmi, gələcək gözəl həyatı tərənnüm edən, dövrdən, zamandan şikayəti, üsyankarlığı ilə fərqlənən bu insanlarda vətən, millət sevgisi öndə dayandırdı.

XX əsrin ilk illəri Türkiyənin və Azərbaycanın toplumları arasında sanki mədəni bir bağlılıq yaranmağa başlayacağından xəbər verməkdə idi. Bu zaman eyni soykökdən olan iki xalqın-iki millətin mədəniyyətlərinin yaxınlaşması və bir-birindən bəhrələnməklə daha da zənginləşməsi baş verirdi. Onlar arasında mətbuat və ədəbiyyat vasitəsilə yeni mədəniyyət körpüləri qurulmağa başladı. Xüsusilə 1905-ci il rus inqilabından sonra isə Azərbaycan cəmiyyətində, sosial-siyasi həyatında başlanan yeniləşmə geniş miqyasda mətbuatın inkişafına, çiçəklənməsinə zəmin yaratdı və az keçməmiş Türkiyədə Məşrutiyyət hərəkatının gətirdiyi yenilikçi havasıyla mətbuatın daha da inkişafına səbəb oldu.

XX əsrin əvvəlində inqilab havası ilə gələn yeniliklər Azərbaycan türklərinin də dünyaya gözlərini açdı. Bu zaman Türkiyədəki qabaqcıl dünyagörüşlü insanlar Rusiya istilasında əriməkdə olan türk xalqlarının, xüsusilə də ona ən yaxın coğrafiyada-Cənubi Qafqazda yerləşən qardaş Azərbaycan türklərinin mətbuatının sürətli dirçəlişindən sevinmiş, yeri gəldikcə orada dərc olunmaq üçün məqalələr göndərmşdilər. Eyni zamanda da, Azərbaycanın görkəmli xadimlərinin göndərdikləri yazılar türk mətbuatında özünə geniş yer tuturdu. Bununla da, XX yüzilliyin əvvəllərində, xüsusilə onun ilk onilliyində Azərbaycanla Türkiyə arasındakı əvvəlki tarixi dövrlərdə baş tutmamış əlaqələr mətbuat vasitəsilə yaranmış oldu. Bütün bunların hamısı isə türk xalqlarının mədəniyyətlərinin daha çox yaxınlaşmasına səbəb oldu.

Türk-Turan mədəniyyətinin təbliği baş verirdi. Türklərə kimliyi tanıtdırılırdı, siyasətdə, elmdə və mədəniyyətdə onların daha da yüksəklərdə olmaq haqqına sahib olduqları bildirilirdi. Türk dilinin türk xalqlarının birləşdirilməsində, türk birliyində mühüm rol oynayacağı vurğulanırdı. Bu dil türk ellərini Türküstandan, Qafqazdan, Türkiyədən, Qazandan, Krımdan, Sibirdən üzü bəri-bütün türklərin doğma ana dili olduğundan, bugün də aktual səslənən bu ideyalar o zamankı mətbuatın səhifələrində mühüm yer tuturdu.

Çar Rusiyasında baş verən sosial-siyasi hadisələr, inqilablar fonunda müstəmləkə əsarətində olan digər millətlər kimi, Şimali Azərbaycan xalqı da milli azadlıq hərəkatından kınarda qala bilməzdi. Azərbaycan türklərinin də milli azadlıq hərəkatının əsas özəyində milli ideya və yaxud milli ideyalar dayanırdı. Çünki müstəmləkədən qurtulmaq istəyən millət ilk növbədə milli və ya milli ideyalarını müəyyənləşdirilməli idi ki,”bu fəlakətin onların üzərinə haradan gəldiyini” (7, s. 332) bilsinlər.

Məhz Ə. Hüseynzadənin türkçülük konsepsiyasına əsaslanan M.Ə.Rəsulzadə sonradan azərbaycançılıq nəzəriyyəsini işləyib hazırlayaraq, Azərbaycan türk millətinin suverenliyi və müstəqilliyini, onun öz milli dövlətini yaratmaq haqqını təsdiqləmişdir (8, s. 21). O cümlədən, Əhməd bəy Ağaoğlu istisnasız olaraq XX əsrin əvvəllərindəki Azərbaycanın çox mürəkkəb, qaynar, ziddiyyətli gerçəkliyində ziddiyyət, narahatlıq içərisində yaşadığı gerçəkliyin, məkan və zaman gerçəkliyinin qütbləri arasındakı əzablı məsafənin mərkəzində…vətən, millət yanğısını əslində ilk gəncliyindən başlayaraq ömrü boyu izləmişdi (9, s.103).

Sanki zaman, dövr-XX əsr də özlüyündə demokratik fikrə müraciətlə onu millətin birliyi üçün fəaliyyətlərini əlaqələndirməyə və tələsməyə səsləyirdi ki, “Millətin göz dikəcəyi, sizlərsiniz. Qoşunuz millətin imdadına, qoşunuz!” (10, s. 272). Demokratik fikir də özlüyündə, bu mənada, çalışıb zəhmətlər sərf etmək yolu ilə ittihada, ittifaqa səy edir və bunu çox vacib, əhəmiyyətli məsələ kimi irəli sürürdü.

Demokratik fikir təstiqləyirdi:

Cahanı titrədər tövhidi- millət
Qoparmazmı dağı olduqca himmət? (11, s.143).
Çoq əzildin, yetər, ər oğlu ər ol!
Çırpınıb çareyi- xilas ara, bul! (12, I c, s.54).

İmperiya dövlətinin siyasətinə və ideologiyasına boyun əyməyən demokratik fikir millətinin əsarətdəki həyatında bir qığılcım oldu, milli düşüncə aşılaya bildi və coşqun bir parıltı ilə onun gələcək azadlıq yolunu işıqlandırmağı bacardı. Millətini sevən, Vətəninin vətəndaşı olan bu görkəmli xadimlər imperiya siyasətindən irəli gələn xalqın, millətin beyninin, qəlbinin çürük fikir və xəyallarla doldurulub daşmasına seyrçi mövqelərdən baxmadılar. Onlar tarixin, zamanın onların qarşısına qoyduğu vəzifələri aydın dərk etdiklərinə görədir ki, belə əlverişli şəraitdən istifadə edərək, millətin qəsdən ətalət, cəhalət, mövhumat girdabında saxlanılmasına, onun yerindən tərpənməsinə maneçiliklər törədilməsinə qarşı özləri möhkəm gücə sahiblənə bildiklərinə əmin oldular. Millətin o dövrkü nəslinin övladları olan bu görkəmli demokratik xadimlər onun mənəvi-əxlaqi aləminin, milli düşüncə tərzinin necə zəhərləndiyini bildiklərindən, ona daha böyük sevgi ilə yanaşırdılar. Bu milləti bəyənməyib, ona alçaq nəzərlərlə, həqarətlə yanaşan, onu bu hala salan və ondan da qurtulmağa qoymayan güclü imperiyanın qaragüruhçu qüvvələrinə və millətimizə ağır, sağalmaz yaralar vuran şovinist, düşmən siyasətə qarşı dayanan demokratik fikir millətinin gələcək qanlı faciələrdən xilası yolunda yorulmadan çarpışdı.

XX əsrin əvvəllərinədək ruslaşdırma və zorakı xristianlaşdırma siyasətindən əl çəkməyən, bunun necə olursa-olsun uğurla nəticələnə biləcəyindən əminlik duyan Rusiyanın imperiya siyasəti bu yolda ən birinci əngəl kimi türkçülüyü görə bilmişdi. Çünki çox böyük əksəriyyəti müsəlmanlar-dan ibarət olan türkdilli xalqların vətənlərini işğal edib, istiqlaliyyətinə son qoyan Rusiya imperiyası onların həyatında sosial-siyasi və iqtisadi baxımdan yeniləşməyə, inkişafa heç bir yer saxlamadan, xüsusilə onların heç bir milli ideyaya sahiblənə bilməməsi üçün əlindən gələni əsirgəmirdi. Bunlar-dan məqsəd isə bütün türkdilli xalqların, o cümlədən də Azərbaycan türklərinin düşüncələrinə, ilk növbədə, müstəmləkə əsarətindən qurtuluşa səsləyəcək və türklərin hamısının birliyini, ittihadını uca tutacaq türkçülüyün cücərməsinə əngəl olmaq idi.

XX əsrin əvvəllərində xalqımız, millətimiz kənardan ona təbliğ edən və qəbulu üçün təzyiq göstərilən yad düşüncələrə, yad ideyalara, xüsusilə də ruslaşdırmaya və xristianlaşdırmaya güclü dirəniş göstərdi. Az qala Rusiya imperiyasının Şimali Azərbaycandakı ağalığının yüz illik bir dövründə imperiya torpaqlarını ikiyə parçaladığı və bir hissəsini işğal etdiyi xalqın, millətin özünüdərkinə apara biləcək, buna kömək edə biləcək bütün yolları bağlamış olduğunu güman etməkdə onsuz da yanıldığını sonradan özü də görə bildi. Bunun başlıca səbəbi türk-müsəlman xalqımızın əsarətdə qaldığı müddət ərzində, xüsusilə XX əsrin ilk onilliyində ona türkçülük ideyalarının bütün başqa qalan yad ideoloji təsirlərdən daha güclü çıxa bildiyinə bir danılmaz sübut oldu. Belə ki, Rusiya imperiyası ruslaşdırma, xristianlaşdırma siyasətinə böyük təpki göstərən xalqımızın, millətimizin istismarının daha da uzunmüddətli olması üçün onun Şərqin çoxəsrlik xurafat, mövhumat, cəhalət zəncirlərindən qopa bilməsinə əngəl olur, bütün səylərini bu ruhani-mənəvi əsarəti möhkəmləndirməyə yönləndirirdi.

Millətimizin dözülməz ağır vəziyyəti, müstəmləkəçi imperiya rejiminin bütün əsarətdəki xalqlardan fərqli olaraq, türk-müsəlman xalqlarına, o cümlədən Qafqaz türklərinə qarşı ayrıseçkilik siyasəti dərin narazılıq yaranmasına gətirib çıxarmışdı. Rusiya hökuməti bütün siyasi hüquqlarından məhrum etdiyi türk-müsəlmanların hamısını, o cümlədən də Qafaqazdakı türkləri mütləq şəkildə keçən əsrlərdən olan ruslaşdırma-xristianlaşdırma məsələsində yenə də israrlı görünürdü. Hətta onların içərilərinə rusdilli əhalini gətirib yerləşdirməkdə, onlara dəstək olmaqda idi. Lakin zaman hökmünü vermişdi. Milli-azadlıq hərəkatlarının güclədiyi XX əsrin əvvəllərində sosial-siyasi vəziyyətin mürəkkəbləşməsi ilə bu regionda yenilikçi ideya və ideologiyanın yaranması xalqı mütləqiyyətə , imperiyaya qarşı güclü mübarizədə birləşməyə səsləyirdi

Lakin XX əsrin obyektiv şəkildə cəmiyyətin sosial-siyasi həyatında irəli sürdüyü və həllinin vacibliyinə cavab istədiyi yenilikçilik, çağdaşlıq prosesləri zəruri olaraq milli özünüdərkin əngəllənməsi, ona törədilən və törədilə biləcək bütün maneələri bir güclü fırtına kimi bir kənara belə itələmədən tamamilə süpürüb atmağa başladı. Bununla da zaman obyektiv şəkildə millətin özünüdərkinə rəvac

verdi və subyektiv olaraq bu dərki aşılayacaq millət fədailərini mübariz həyat meydanlarında iştirakçı olmağa səslədi.

XX əsrin əvvəllərindəki müstəmləkə asılılığı dövründə millətin keçmiş şərəfinin özünə qaytarılması, ləyaqətinə sahib çıxması, milli düşüncəsinin oyanışı ilə milli istiqlalına qovuşa bilməsi yolunda universal zəkaya malik millət fədailərin sosial-siyasi həyatın bütün sahələrində göstərdikləri tarixi fəaliyyətləri təqdirəlayiqdir. Onlar görkəmli ictimai xadim və əvəzsiz söz sahibi olduqlarına danılmaz bir sübut olaraq qalmaqdadır, çünki mənsub olduğu millətini dünya arenasına çıxartmaq istəyi, arzusu sönmək bilən deyildi. Ona görə də onlar öz zəngin dünyagörüşləri və yaradıcı fəaliyyətləri sayəsində millətin milli düşüncə tərzinin oyanışı, imperiya əsarəti mühitində onun sonrakı formalaşması yolunda bütün səy və bacarıqlarını əsirgəmədən millətinin xidmətinə yönləndirdilər. Onlar əsrin əvvəllərindən başlayaraq, bütün mənalı ömürlərini müstəmləkə əsarətindəki millətinin azad, işıqlı gələcəyi uğrunda fəda etmişdilər. Görkəmli millət xadimlərinin yaradıcılıq ruhları dünyagörüşlərində dövrün, zamanın mütərəqqi sayılan bütün Şərq ruhunu, mənəviyyatını, türkçülüyünü, müsəlmanlığını-islama sadiqliyini uca tuturdu. Habelə, eləcə də yenilikçi dünyaya-Qərbin elminə, maarifinə, texnologiyasına və yenilikçi ideya- əqidə tərzinə irəliləməsi uğrunda millətinin belə mürəkkəb zamanda və imperiya əsarətindən qurtuluşu yolunda düzgün yol tutmağa çalışırdılar.

Digər tərəfdən isə onu sırf şərqliliyindən qoparmaq məqsədilə imperiya Rusiya üzərindən qərbləşdirməyə-Qərbə meyilli etməyə hazırlaşırdı ki, yenə də buradan bütövlükdə ruslaşdırma-qərbləşdirmə meylləri paralel aparıla bilsin ki, millətin türkçülüyü-islamlığı yenidən ona unutdurula bilsin. Ən başlıcası o idi ki, XX əsr dövrün bütün ziddiyyətlərini aşkara çıxardıqca çar hökumətinin xalqımıza, millətimizə ideoloji yöndən süni, obyektiv yanaşması, siyasətini bir qədər yumşaltmağa çalışması öz mərhəmətindən irəli gəlmirdi. Millətimizin sahiblənə biləcəyi yeni ideyalar, yeni bir ideologiya silahının ona qarşı tuşlanacağı Rusiyanın imperiya siyasətinə sərt bir cavab ola biləcəkdi. Bu mənada türkçülük ideologiyasının yaranması, meydana çıxması və cəmiyyət həyatına ayaq basması ilə imperiya siyasəti millətimiz haqqında ağlından keçməyənlərin və keçirə bilmədiklərinin əyani şəkildə nəticələrini görməyə başlayırdı. Bu dövrün görkəmli ideoloqlarının və demokratik fikrin görkəmli xadimlərinin müxtəlif təzadlı mövqeləri alt-üst, saf-çürük edilməklə vahid, aydın bir ideologiya bayrağı altında birləşmələriylə çox az bir vaxt ərzində aydın nəzərə çarpacaq hadisələr baş vermiş oldu. Onların uğrunda çarpışdıqları türkçülük ideyaları bütün türk xalqları kimi, bizim xalqımızı, millətimizi də ciddi şəkildə məşğul etməyə başladı. Bu milli ideologoyanın yaranması və inkişafı milli şüura əvəzsiz təsir göstərməklə millətin milli özünüdərkində başlıca rola sahib çıxdı və onu istiqlaliyyətə aparacaq, doğru yolu ona göstərəcək ən etibarlı əsasa çevrildi.

## ƏDƏBİYYAT


1. Ömər Faiq Nemanzadə. Seçilmiş əsərləri. Tərtib edəni, ön sözün və izahların müəllifi Şamil Qurbanov. Bakı, Şərq-Qərb, 2006, 352 s.
2. Mirzə Ələkbər Sabir. Hophopnamə. İki clddə (tərtib edəni, ön sözün, izahların və lüğətin müəllifi Məmməd Məmmədov). Bakı, Şərq-Qərb, 2004, 480 s.
3. Cəlil Məmmədquluzadə. Əsərləri. Dörd clddə (tərtib edəni, ön söz və izahların müəllifi İsa Həbibbəyli). Bakı, Öndər, 2004
4. Məmməd Əmin Rəsulzadə. Azərbaycan Cümhuriyyəti.Transliterasiya edəni, qeydlərin və lüğətin müəllifi Asif Rüstəmov. Bakı, Elm, 1990,116 s.
5. Mübariz Süleymanlı. Azərbaycan kulturoloji fikir tarixindən (XX əsrin əvvəlləri). Bakı, Nafta-Press, 2011, 208 s.
6. Əlibəy Hüseynzadə. Seçilmiş əsərləri. Transliterasiya və tərtib edəni Ofelya Bayramlı. Bakı, Şərq-Qərb, 2007, 480 s.
7. Əhmədbəy Ağaoğlu. Seçilmiş əsərləri. Ön sözün, izah və şərhlərin müəllifi Vilayət Quliyev. Bakı, Şərq-Qərb, 2007, 392 s.
8. Aydın Balayev. Məmməd Əmin Rəsulzadə (1884-1955). Bakı, Adiloğlu, 2011, 288 s.
9. Təranə Abdullayeva. Azərbaycan ədəbi fikrində qərbçilik meylləri. (XX əsrin əvvəlləri). Bakı, Avropa, 2014, 152 s.
10. Abbas Səhhət. Seçilmiş əsərləri.Tərtib edəni, ön söz və izahların müəllifi Kamal Talıbzadə).

Bakı, Lider, 2005, 456 s.
11. Məhəmməd Hadi. Seçilmiş əsərləri (İzah və qeydlərin müəllifi Əziz Mirəhmədov). Bakı, Şərq-Qərb, 2005, 464 s.
12. Hüseyn Cavid. Əsərləri. Beş cilddə. I-V cildlər. (Tərtib edəni Turan Cavid, ön sözün müəllifi Yaşar Qarayev). Bakı, Lider, 2005.

**ABSTRACT**

**Bagır Babayev**

**The article deals with the fact that the Azerbaijan democratic opinion proves that our nationality are turkish, Azerbaijan**

After the Russian occupation the tragedy, the imperial policy was brought in the social economic life of Azerbaijan. From the first day there was a chowvinistic policy against the Azerbaijan-Muslim turks. It was a violens christianization and assimilation politics. The ultimate political goal is to prevent the union of the multi-million muslim turks, by any means, shaked it, had to keep in isalation and the purpose was to break ties with the success of generation.

Terrible mighty looking Russian impire kept the ideological occupation of our land.The government was mobilized all the forces for pulling out Slavonic people they aren`t christian who stood second place Turkish-Muslim brain.

So terrible policy and ideology began to be implemented consistently.The spirit innovation of the XX century didn`t match with the political and ideological policy of tsar.

The policy of discrimination against Turkish-Muslim people of the empire colonial regime, turks in the Caucasus led to deep resentment. The strengthening of the national liberation movement of the early XX century, the people of this region and emergence of innovative ideas and ideology called to unitethec nation in the fight aginst the empire.

**РЕЗЮМЕ**

**Багир Бабаев**

**Проблема национальной принадлежности нащего народа в Азербайджанской демократической мысли XX века**

В социально- политической жизни Азербайджана после оккупации России имперская политика принесла стране больщие трагедии. С первых дней оккупации начался против тюрков-мусульмане Азербайджана шовинистическая политика ненависти. Это была политика насильственной христианизации и ассимиляции.

Главный скрытый политический цель империи была найти препятствии против единства многомиллионной мусульманской- тюркских народов, сохранит их в изоляции. Имперская политика направлено нарущить преемственностные связи наших предких и будущих поколений.

Грандиозная, огромная, в том числе и страшная Российская империя началь идеолгическая оккупачия нащей страны. Российская держава мобилизовала все свои силы против мышлении независимости тюрков-мусульман, занявших второе место после христианской- славянской народов Это было такая грозная, вражеская политика и идеология империи. Новаторский, свободный дух XX века не соответствовала грязный идеолгический политика царизма. Политика колниального имерского режима против дискркриминации тюркских-мусульманских народов, в том числе и Кавказских тюрков привело глубокого недовольству. В начале XX века связи с усилением национально- освободительной движении в этом регионе появилься новая идея и идеология. Она призывало обьединится всех тюрок-мусульман, в борбе против огромной империи.

NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor M. Rzayev*

**HAFİZ HÜSEYNOV**
*Naxçıvan Dövlət Universiteti*

***UOT :008.39***

# CƏMİYYƏTİN SOSİAL-SİYASİ İNKİŞAFINDA MULTİKULTURAL DƏYƏRLƏRİN YERİ VƏ ROLU

***Açar sözlər:*** *dövlət, siyasət, cəmiyyət, multikultural dəyərlər, sosial-siyasi sistem*
***Key words:*** *state, policy, society, multicultural values, social-political sytem*
***Ключевые слова****: государство, политика, общество, мультикультурные ценности, социально-политическая система*

Azərbaycan dövləti tarixən çoxmillətli, çoxdinli olub və burada müxtəlif xalqların, konfessiyaların nümayəndələri rahat, əminamanlıq şəraitində yaşayır, fəaliyyət göstərir. Onların hər biri Azərbaycan vətəndaşı kimi ölkəmizə, dövlətimizə, dinlər, xalqlar arasında sağlam mühitin əbədi olmasına xidmət edir. Azərbaycançılıq ideyası da Azərbaycanda yaşayan bütün insanları öz ətrafında birləşdirən bir dəyər, ideologiyadarı ki, buna hər bir xalq öz töhfəsini verməkdədir.

Ölkəmiz uzun əsrlərdir tolerant, millətlər, dinlər, etnik qruplar arasında sağlam münasibətlərin hökm sürdüyü bir məmləkətdir. Azərbaycan dünyada tolerantlıq nümunəsi kimi tanınır və burada mövcud olan mühit dünyanın bir sıra ölkələrinə nümunə ola bilər.

Bilirik ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə 2016-cı il Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilib. Sərəncamda bildirilir ki, tarixi İpək Yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əminamanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınıb: "Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması müasir dövrdə respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qalmasının bariz nümunəsidir.

Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı ildə Bakı şəhərində keçirilməsi barədə qərar qəbul edilməsi dünya ölkələrinin Azərbaycandakı multikultural mühitə olan münasibətinin real ifadəsidir".

Ümumi mənada siyasi sistem, cəmiyyətin siyasi həyatında rol alan siyasi qurumları və digər ictimai qurumları, bunların fəaliyyətini və qarşılıqlı münasibətləri ifadə edir. Əlbətdə ki, hər cəmiyyətin siyasi sistemi onun inkişafının qanunauyğun nəticəsi kimi formalaşır. Siyasi sistem cəmiyyətin sosial-siyasi təbiətini, mövcud siyasi münasibətləri, təsisatları, normaları və hakimiyyətin təşkili prinsiplərini ifadə edir. Kilsələr, yaxud vətəndaş cəmiyyətin digər ünsürləri, ictimai birliklər kimi, bunları da siyasi sistemin bir parcasıdır.

Siyasi sistem bütövlükdə ictimai sistemin mühüm hissələrindən, ünsürlərindən biridir. O, siyasi hakimiyyətin təşkilini, cəmiyyətlə dövlət arasındakı münasibətləri ehtiva edir və ictimai sistemin digər hissələri ilə – sosial, iqtisadi, ideoloji, etik, hüquqi, mədəni sistemlərlə qarşılıqlı əlaqədədir.

Konkret cəmiyyətin siyasi sistemi bir sıra amillərlə müəyyən olunur. Bu amillər içərisində cəmiyyətin sosial strukturunu, idarəçilik formasını, dövlətin tipini, siyasi rejimin xarakterini, sosial-siyasi münasibətləri, dövlətin siyasi-hüquqi statusunu, cəmiyyətdə siyasi-ideoloji və mədəni münasibətlərin xarakterini, siyasi həyatın formalaşmasının tarixi və milli ənənələrini göstərmək olar.

Elmi ədəbiyyatda siyasi sistemin müxtəlif, bəzən biri digərini tamamilə istisna edən anlayışları mövcuddur. Məsələn, Amerika politoloqu D.İston belə hesab edir ki, siyasi sistem bir-

biri ilə qarşılıqlı əlaqədə olan subyektlərin məcmusudur ki, həmin subyektlər vasitəsilə cəmiyyətdə dəyərlər hökmlə və peşəkarcasına bölüşdürülür. İ.Husa görə siyasi sistem bütövlük təşkil edən və müəyyən fəlsəfi, dini, idarəçilik forması məzmunu kəsb edən ideyaların, prinsiplərin, qanunların, doktrinaların və s. kompleksidir.

T.Madronun fikrincə, cəmiyyətin siyasi sistemi mürəkkəb münasibətlər şəbəkəsi vasitəsilə birləşən obyektlərin və onların əlamətlərinin məcmusudur.

Siyasi sistem nəzəriyyələrinin əksəriyyətində onun struktur baxımından təhlili aparıcı yer tutur. "Siyasi sistem" anlayışı geniş və dar mənalarda işlənir. Geniş mənada siyasi sistem siyasi münasibətləri, siyasi şüuru və cəmiyyətin siyasi təşkilatlarını özündə birləşdirir. Dar mənada siyasi sistem cəmiyyətin siyasi həyatında iştirak edən dövlət təsisatlarını, siyasi partiyaları və ictimai təşkilatları, kütləvi informasiya vasitələrini əhatə edir.Siyasi sistemin əsas ünsürlərinə aid olan başlıca tələblər bundan ibarətdir ki, onlar daxili nizamlılığa, mütəşəkkilliyə malik olmalı və siyasi xarakter daşımalıdırlar. Başqa sözlə, cəmiyyətin siyasi sisteminin ünsürü kimi nəzərdən keçirilən hər bir qurum təşkilati və siyasi əlamətlərə malik olmalıdır.

Hər hansı təşkilatın səciyyəvi əlamətləri onların yaradılması və fəaliyyətinin müəyyən qaydasının olması, daxili və xarici işlərini həll edən orqanların mövcudluğudur. Təşkilatın siyasi xarakteri isə hər şeydən əvvəl aşağıdakılarla müəyyənləşdirilir:

- müəyyən sosial təbəqənin siyasi mənafelərini ifadə etməsi;
- siyasi həyatda iştirak etməsi və siyasi münasibətlərin daşıyıcısı olması;
- dövlət hakimiyyəti, onun əldə edilməsi, təşkili, həyata keçirilməsi ilə bilavasitə və ya dolayısı əlaqədar olması;
- özünün fəaliyyətində cəmiyyətdə formalaşmış siyasi normalara və qaydalara əsaslanması.

Cəmiyyətin sosial-siyasi inkişafında dövlət mərkəzi yer tutur. Bu, hər şeydən əvvəl onunla əlaqədardır ki, dövlət siyasi hakimiyyətin xüsusi təşkilatıdır. Siyasi hakimiyyət iqtisadi, ideoloji, təşkilati-hüquqi təsirlər vasitəsilə, habelə nüfuzun, ənənənin, zorakılığın köməyi ilə insanların, sosial qrupların davranışına təsir göstərmək qabiliyyəti kimi səciyyələnir. Siyasi hakimiyyət insanların birgə fəaliyyətinin təşkili və tənziminin mühüm amili, onların qarşılıqlı münasibətlərinin qaydaya salınmasının, cəmiyyətdə nizam-intizamın və sabitliyin təmini vasitəsidir.

Siyasi hakimiyyət onu sosial varlığın təsirli amilinə çevirən təmərküzləşdirilmiş gücə malikdir. Belə güc kimi dövlətin müxtəlif institutları çıxış edir; onlar təşkilati cəhətdən hakimiyyəti rəsmiləşdirir, ona daimi fəaliyyət göstərən və ümumməcburi xarakter verir

Dövlətin siyasi xarakteri həm də onunla şərtlənir ki, dövlət bu və ya digər dərəcədə sosial qruplar arasındakı münasibətləri nizama salır. Cəmiyyətdə həmişə müxtəlif fərdlərin və qrupların fərqli maraqları var. Bu maraqları nizamlayan başlıca qüvvə isə dövlətdir. Beləliklə, dövlət cəmiyyətdə birləşdirən, təşkil edən və nizama salan başlıca qüvvədir.

Cəmiyyətin siyasi sistemində dövlətin xüsusi yeri və rolu həmçinin aşağıdakılarla şərtlənir: - dövlət bütün ölkə miqyasında tam hakimiyyətə malik olan yeganə təşkilatdır; - dövlət cəmiyyətin inkişafının əsas istiqamətlərini müəyyən edir, müxtəlif fərdi və kollektiv maraqların uzlaşmasını təmin edir; - dövlət cəmiyyətdə rəsmən zorakılıqdan istifadə inhisarına malik olan təşkilatdır.

Cəmiyyətin siyasi sistemində dövlətlə yanaşı digər təşkilatlar da – siyasi partiyalar və ictimai birliklər fəaliyyət göstərir. Onlar bu və ya başqa dərəcədə ölkənin siyasi həyatında iştirak edir və bununla da cəmiyyətin siyasi sisteminin ünsürləri kimi çıxış edirlər.

Cəmiyyətin siyasi sisteminin bütün ünsürləri sıx, üzvü vəhdətdə olur və bir-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərirlər. Siyasi sistemin bütün ünsürləri cəmiyyətin və dövlətin hüquqi əsasını təşkil edən qanunlar əsasında və çərçivəsində fəaliyyət göstərirlər.

Professor Etibar Nəcəfovun qeyd etdiyi kimi, Azərbaycanın sosial-siyasi inkişafında multikulturalizm elə bir siyasətdir ki, o, mədəni plüralizmi qəbul edir və onun inkişafına şərait yaradır. Bu, ölkə əhalisinin etnik irqi və dini müxtəlifliyindən asılı olmayaraq, onların hamısının hüquq və azadlıqlarına hörmətlə əlaqədardır. Multikultural cəmiyyətdə hər bir vətəndaş öz mədəniyyətini, dilini, ənənəsini, etnik və dini dəyərlərini inkişaf etdirmək, ana dilində məktəb açmaq, qəzet və jurnal dərc etdirmək sahələrində bərabər hüquqlara malikdir. Multikulturalizm siyasəti assimilyasiyanı inkar edən inteqrasiyaya aparır. Məhz buna görə də bu siyasəti təkcə siyasi

elita deyil, eyni zamanda millətin yüksək vəzifə tutmayan digər nümayəndələri ilə yanaşı həm də milli və dini azlıqlar da dəstəkləyirlər.

Multikulturalizmin nəzəri əsasını liberalizm, xüsusən də liberalizmin azadlıq, bərabərlik və qarqaşlıq kimi dəyərləri təşkil edir. Bu səbəbdən də multikultural cəmiyyətdə nəinki sosial ədalətsizliyi aradan qaldırmağa nail olmaq mümkündür, həm də burda irqçiliklə bağlı ədalətsizliyə qətiyyən yol verilmir. Lakin multikulturalizmlə liberalizm arasında bir mühüm fərq vardır. Liberalizmdən fərqli olaraq multikulturalizm fərdlərin deyil, qrupların hüquqlarını ön plana çəkir.

Multikulturalizm bir siyasət kimi öz mahiyyəti baxımından tolerantlıqla da sıx bağlıdır. O, müxtəlif mədəniyyətlərin paralel şəkildə yaşamasını qəbul edən tolerant cəmiyyətin başlıca xüsusiyyətlərindən biridir. Tolerant cəmiyyətdə multikulturalizm mədəniyyətlərin qarşılıqlı surətdə zənginləşməsinə, xalqları birləşdirən mədəniyyətin formalaşmasına səbəb olur ki, bu da insanların gələcək mədəni birliyi məqsədilə bir mədəniyyətin digər mədəniyyətə inteqrasiya prosesi ilə əlaqədardır.

Multikulturalizm cəmiyyətdə təzahür edən çoxnövlü mədəni müxtəlifliyin növlərindən biridir. Bundan başqa, biz multikulturalizmlə əlaqədar olan izolyasionizm (təcrid etmə), assimilyasiya və aparteidi kimi digər təzahürləri də qeyd edə bilərik.

Milli-mənəvi dəyərlər xalqımızın özünəməxsus xüsusiyyətidir. Azərbaycan xalqının söykəndiyi bu dəyərlər Ulu Öndər Heydər Əliyevin yaratdığı dövlətçilik prinsiplərinin əsasında durur. Ulu Öndərin yaratdığı dövlətçilik prinsiplərinin aparıcı xətti Azərbaycançılıq ideologiyasıdır. Azərbaycanın müstəqillik yolunda kövrək addımlarla irəlilədiyi ilk illərdə Ulu Öndər Heydər Əliyevin ölkənin vahidliyi və bütövlüyünü təmin etməyin ən uğurlu modeli kimi Azərbaycançılığı dövlət siyasəti halına gətirməsi, həmçinin, XXI əsrin astanasında beynəlxalq miqyasda iqtisadi-siyasi sferada dayanıqlılığı və etibarlı tərəfdaş imici ilə qəbul edilən ölkəmizdə multikulturalizmin dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilməsi Azərbaycan dövlətçilik tarixində imza atılan, dönüş xarakterli uğurlardan sayılır.

Beləliklə, Azərbaycançılıq ideologiyası etnik yox, siyasi və vətəndaşlıq xarakteri daşıyır, yalnız müstəqil Azərbaycanın vətəndaşlarına münasibətdə deyil, Azərbaycanın müstəqil dövlətçilik ideyasını əziz tutanlara münasibətdə də öz birləşdirici funksiyasını yerinə yetirir.

Azərbaycançılıq məfkurəsi multikultural münasibətlərin hakim olduğu Azərbaycan cəmiyyətində və ictimai-siyasi münasibətlərin qeyri-müəyyənliyi ilə diqqəti cəlb edən beynəlxalq aləmdə öz orijinallığı ilə seçilir. Hər iki məfhum bir-biri ilə üzvü vəhdət təşkil edən ideologiya və həyat norması kimi ölkədaxili ictimai-siyasi və sosial-mədəni münasibətlərin tənzimləyicisi və hərəkətverici qüvvəsi qismində çıxış edir, ziddiyyətlər və təlatümlər burulğanında siyasi maraqların diqtəsi altında hərəkət edən Qərblə Şərqin qovşağında qərar tutmuş Azərbaycanın alturist düşüncədən qaynaqlanan, bəşəri dəyərlərə ciddi önəm verən, mənəviyyatı və humanist prinsipləri bütün maraqların fövqündə saxlayan davranış tərzində öz aydın ifadəsini tapmışdır.

Məhz etnik-mədəni müxtəlifliklər arasındakı münasibətlərin düzgün tənzimlənməsi işində respublikamızın spesifik sülhsevər siyasətinin nəticəsidir ki, bu gün heç kim, hətta bizə ikili standartlar prizmasından yanaşmağı ənənəyə çevirmiş ölkələr də Azərbaycanda multikultural mühitin mövcudluğunu nəinki inkar edə bilmir, üstəlik bu sosial münasibət və dövlət siyasətinin dünya üçün nümunə olduğunu təsdiqləyirlər. Çünki tarixən Azərbaycan cəmiyyətinə xas olan fərqli mədəniyyət, din, dillərə ehtiram kimi humanist münasibətin dövlət tərəfindən inkişaf etdirilməsi istiqamətində həyata keçirilən çoxşaxəli fəaliyyət multikulturalizm fenomenini gerçək mahiyyətinə uyğun şəkildə dünya gündəmində aktuallaşdırmışdır.

Multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı bilavasitə dövlət dəstəyindən qaynaqlanır. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş, bütün sahələrdə inkişaf tempinə görə ölkəmizi dünyanın lider dövlətinə çevirən, ən əsası dövlət maraqları, xalqın mənafeləri, həmçinin bəşəri dəyərləri əsas götürən praqmatik siyasi kursun hazırda möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi respublikamızda multikultural mühitin möhkəmlənməsi, o cümlədən tolerantlıq ənənələrinin güclənməsinə də öz həlledici töhfələrini verməkdədir. Prezident İlham Əliyevin "Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilib" fikri multikulturalizmin mahiyyət etibarilə Azərbaycanda, eləcə də

multikulturalizmi gələcəkdə bəşəriyyətin inkişafının yeganə yolu hesab etməsi, bu anlayışın beynəlxalq əhəmiyyətini anlamaq baxımından bütün mətləblərə aydınlıq gətirir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Azərbaycanda multikultural münasibətlərin inkişafı yönündə atdığı addımlar davamlı xarakter daşıyır. Bu bəşəri dəyərə ciddi önəm verən dövlət başçısı hələ iki il öncə imzaladığı Sərəncamla Azərbaycan Respublikasının Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirinin xidməti, eləcə də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Azərbaycanda multikultural mühitin qorunması və inkişafı yönündə ardıcıl, məqsədyönlü addımların atılması, xüsusilə Prezident İlham Əliyevin multikulturalizmi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevirməsi Azərbaycan gerçəkliklərinin genişmiqyaslı ifadəsinin daha intensiv xarakter alması baxımından olduqca əhəmiyyətlidir.

## ƏDƏBİYYAT


1. Heydər Əliyev. "Müstəqillik yolu", Seçilmiş fikirlər, Bakı, 1997
2. Mirzəzadə R. Multikulturalizm siyasəti din və gender dialoqunda. Bakı, 2014
3. İbrahimli X. Politologiya. Bakı, 2008.



## ABSTRACT

**Hafiz Huseynov**

**The place and role of multicultural values in the social-political development of society**

In the article, social-political system, multicultural values, political institutions, and other public bodies involved in the political life of their mutual relations and scientific activities of society are described in general.It is noted that the social-political system of any society is formed as a natural result of its development. Because of the social nature of the political system, the current social-political relations, institutions, norms and principles of the organization of the government are dealt with.It is noted that all of the elements of the political system, intense, organic unity are working in cooperation with each other. The political system in which all elements of the society and state laws operate within a legal framework.

In the article, the social-political development of the society and the role of multicultural values are analyzed. Theoretical and practical significance put forward a number of valuable recommendations.



## РЕЗЮМЕ

**Хафиз Гусейнов**

**Место и роль мультикультуральных ценностей в социально-политическом развитии общества**

В статье научно откомментируются социально-экономическая система, мультикультурные ценности, политические и другие общественные структуры, играющие важную роль в политической жизни общества, их деятельность и взаимные отношения. Обосновывется мысль, что социально-политическая система каждого общества формируется как его закономерные последствия. Потому что система выражает социальную природу, существующие социально-политические отношения, нормы и принципов организации власти.

Подчеркивается, что все элементы политической системы общества находятся в тесной и органической связи друг с другом и функционируют на основе законов, организующих правовую основу государства.

Автор статьи научно анализирует место и роль мультикультурных ценностей в развитии социально-политическом развитии азербайджанского общества.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor M. Rzayev*

**NADİR HÜSEYNBƏYLİ**
*Naxçıvan Dövlət Universiteti*

*UOT: 94 (479.242)*

# NAXÇIVAN ZİYALILARI REPRESSİYA İLLƏRİNDƏ

***Açar sözlər:*** *musavat,təşkilat, vəziyyət, inqilabçı, antisovet, milliyətçi*

***Key words:*** *member of Musavat, organization, position, counter-revolutionary, intellectual, anti-Soviet, nationalist*

***Ключевые слова:*** *Мусаватист, организация, положение, контрреволюционер, интеллигент, антисоветский, националист*

Bolşeviklər ictimai şüurun bütün formaları üzərində marksist-leninçi kommunist ideologiyası inhisarını təmin etmək məqsədilə ictimai həyatın bütün sahələrində mədəni inqilab adı altında milli ideologiyaları və milli düşüncəyə malik olan ziyalıları bolşevik platformasının üzərinə gətirmək üçün təqib etməyə başladılar. Bunun üçün isə bolşevikləşmənin ilk günlərindən həyata keçirilən repressiyalar totalitar rejimin əsas idarə və iş üsuluna çevrildi.

Repressiya illərində hüquq-mühafizə orqanları qarşısında tələb qoyurdu ki, hər yerdə (xüsusilə də ziyalılar arasında) antisovet elementlər, trotskiçilər, terrorçular, sui-qəsdçilər, millətçilər, pantürkistlər, panislamistlər axtarmaq lazımdır. Bunun nəticəsində 30-cu illərin ortalarından başlayaraq «xalq düşməni», «vətən xaini» axtarışı daha da gücləndi.

Bəzi tədqiqatçıların fikrincə 1937-1938-ci illərdə 29 mindən çox ziyalı qətlə yetirildi. Bu ziyalılar arasında görkəmli şair-dramaturq Hüseyn Cavid də var idi. O, 3 iyun 1937-ci ildə Az. SSR XDİK DTİ tərəfindən imzalanmış 509 saylı orderə əsasən həbs olundu. Hüseyn Cavid aşağıdakılarda ittiham edilirdi:

«1. Əksinqilabçı müsavatçı mövqedə olarkən Bakıda olan antisovet millətçi təşkilatın tərkibinə daxil olduğuna və bu təşkilatın fəalları ilə əksinqilabi əlaqə yaratdığına görə;

2. Müsavatçı pantürkist mövqedə duraraq Az.SSR-dəki gizli əksinqilabçı müsavatçılar, Bakı şəhərində və Türkiyədə olan pantürkistlərlə əlaqədə olduğuna görə;

3. Şüurlu surətdə sovet mövzusuna etinasızlıq göstərərək, ədəbiyyat və dramaturgiya sahəsində praktiki əksinqilabi iş apardığına görə;

4. İran və Türkiyədə təhsil və tərbiyə alaraq, gənc yazıçılara əksinqilabi millətçi təsir göstərdiyinə, onları pantürkist ruhda tərbiyə etdiyinə və türk ədəbiyyatına istiqamətləndirməyə çalışdığına, bilərəkdən rus xalqının ədəbiyyatına saymamazlıqla yanaşdığına görə;

5. Bakıdakı Müsavat təşkilatının rəhbərlərindən biri olan Yusif Vəzirov ilə əlaqə yaratdığına və türk kəşfiyyatının xeyrinə casusluq fəaliyyəti göstərdiyinə, yəni Az.SSR CM-in 68, 72 və 73-cü maddələrində nəzərdə tutulan cinayətləri törətdiyinə görə ittiham edilir».

Bu kimi ağır cinayətlərdə ittiham edilən H.Cavid müddəti 4 iyun 1937-ci ildən hesablanmaqla səkkiz il müddətinə azadlıqdan məhrum edilir. Cəza müddətini başa vurmadan - 5 dekabr 1941-ci ildə İrkutsk vilayətinin Tayşet rayonunun Şevçenko kəndi yaxınlığında vəfat edən H.Cavidə 6 mart 1956-cı ildə Az.SSR Ali Məhkəməsi bəraət vermişdi.

1937-ci ilin ziyalı qurbanlarından biri də tanınmış «Mollanəsrəddinçi» şair Əliqulu Qəmküsarın qardaşı, tərcüməçi və müəllim Rzaqulu Ələkbər oğlu Nəcəfov və onun əmisi oğlu Həcəfov Nəcəfqulu Məşədi Məmmədhüseyn oğlu idi. R.Nəcəfov 1885-ci ildə Naxçıvan şəhərində anadan olmuş, 1909-cu ilədək Culfa şəhərində gömrükdə xidmət etmişdir. İran inqilabı zamanı həbs olunmuş və Astarxan şəhərinə sürgün edilmişdir. 1916-cı ildən "Molla Nəsrəddin" jurnalında işləmiş, 1919-cu ildə tərcüməçi missiyasını yerinə yetirmişdi.

Onu XDİK əməkdaşları ilk dəfə 1931-ci ildə xarici səfirliklə əlaqə saxlamaqda və İrana

casusluqda günahlandıraraq üç il müddətinə Orta Asiyaya sürgun etmişlər. Sürgün müddətini başa vurduqdan sonra Azərbaycana gələn R.Nəcəfov müxtəlif yerlərdə işləmiş və heç bir siyasi işlə məşğul olmamışdır. Lakin buna baxmayaraq, onun növbəti həbsi ilə əlaqədar 27 sentyabr 1937-ci il tarixdə 138 saylı order imzalanmış və o həbs edilmişdir.

Azərbaycan SSR XDİK-in 21 oktyabr 1937-ci il tarixli qərarı ilə Nəcəfov Rzaqulu əmlakı müsadirə olunmaqla güllələnməyə məhkum edilmişdir. 29 noyabr 1937-ci ildə gecə saat 2.50-də R.Nəcəfov və onun əmisi oğlu Nəcəfov Nəcəfqulu Məşədi Məmmədhüseyn oğlu güllələnmişdi .

Repressiyaların ağrılarını yaşayanlar arasında Azərbaycanın görkəmli səhnə ustası Kazım Ziya Kazımzadə 1937-ci ildə, yazıcı Ənvər Qasımov (Ənvər Yusifoğlu) isə 1938-ci ildə XDİK əməkdaşları tərəfindən həbs edilmiş, lakin uzun-uzadı dindirmələrdən, üzləşdirmələrdən, psixoloji sarsıntılardan, fiziki işgəncələrdən sonra əməllərində cinayət tərkibi olmadığına görə azadlığa buraxıldılar. Lakin Ə.Qasımov 1942-ci ildə yenidən həbs edildi və Azərbaycanı SSRİ-dən ayırmaqda ittiham edilərək 5 il müddətinə sürgün olundu.

Azərbaycanın tanınmış ziyalılarından olan şair Əli Səbri Qasımov da 1937-ci ildə antisovet millətçi panislamist təşkilatda iştirakda müqəssir bilinərək həbs edilmiş və 11 fevral 1940-cı ildə azadlığa buraxılmışdır. O, 1944-cü ildə yenidən həbs edilmiş və əməllərində cinayət tərkibi olmadığına görə 1945-ci ildə azadlığa buraxmışdır. Lakin 22 dekabr 1948-ci ildə «İttihat» təşkilatının rəhbərlərindən biri olmaqda, İran və Türkiyədə yaşayan emiqrantlarla əlaqə saxlamaqda, müstəqil Azərbaycan burjua dövləti yaratmaqda və s. ittiham edilərək həbs olunması barədə qərar qəbul olunur. 1949-cu il avqustun 17-də SSRİ DTN yanında Xüsusi Müşavirənin qərarı ilə o, müddəti 27 dekabr 1948-ci il tarixdən hesablanmaqla beş il müddətinə azadlıqdan məhrum edilir.

1930-cu illərdə repressiyaya məruz qalanlar arasında müxtəlif peşə sahibləri hətta hərbiçilər, o cümlədən generallar da var idi. Belə ki, Azərbaycanın hərbi quruculuğunda yaxından iştirak etmiş Qambay Vəzirov və Cəmşid Naxçıvanski 1937-ci ildə ailə üzvləri ilə birlikdə məhrumiyyətlərə düçar olmuşdu.

XDİK-in dövlət təhlükəsizlik kapitanı Avanesyan general Q.Vəzirovu Azərbaycan diviziyasındakı əksinqilabi millətçi, hərbi sui-qəsdçi təşkilatın üzvü olmaqda ittiham edərək XDİK-in sədri Sumbatovun razılığı ilə 27 iyul 1937-ci ildə həbs etdi. Həmin gün aparılan ilkin dindirmə zamanı Qambay Vəzirov özünün heç bir əksinqilabi millətçi, sui-qəsdçi, antisovetçi təşkilatda təmsil olunmadığını bildirdi .

Avanesyanın tərtib etdiyi ittihamnaməyə əsasən Qambay Məmməd oğlu Vəzirov aşağıdakılarda müqəssir bilinirdi:

a) o, Azərbaycanda olan əksinqilabi millətçi təşkilat mərkəzinin üzvü idi. Trotskiçi-zinovyevçi terror mərkəzi və sağların əksinqilabi mərkəzi ilə əlaqə saxlayaraq Azərbaycanı SSRİ-dən terror, casusluq və silahlı üsyan yolu ilə ayıraraq, burjua-demokratik dövlət yaratmağı qarşısına məqsəd qoymuşdu;

b) əksinqilabi millətçi təşkilat mərkəzinin tapşırığı ilə Azərbaycan diviziyasında və Azərbaycan diviziyasının səfərbərlik dairəsində hərbi sui-qəsd təşkil etmiş, 1934-cü ildən əksinqilabi millətçi hərbi təşkilat yaratmış və həbs olunan günədək ona rəhbərlik etmişdir;

v) əksinqilabi millətçi hərbi təşkilata Azərbaycan diviziyasından və Azərbaycan diviziyasının səfərbərlik dairəsindən 17 nəfər cəlb etmiş, nəticədə onun tapşırığı ilə əksinqilabi hərbi təşkilata cəlb olunanların sayı 60 nəfərə çatmışdır;

q) səfərbərlik planlarının axıradək işlənməməsi ucbatından diviziyanı sosial nöqteyi-nəzərindən yad elementlərlə, keyfiyyətsiz və əksinqilabi millətçilərlə doldurmuş, Azərbaycan diviziyasında millətçilik işi aparmışdır;

ğ) sovet hökuməti ilə mübarizə metodu kimi təxribat, terror və silahlı üsyan mövqeyində dayanmışdır.

1937-ci il oktyabrın 13-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının qapalı məhkəmə iclası keçirildi. Məhkəmənin hökmü ilə Qambay Vəzirov güllələndi. Yeri gəlmişkən qeyd edək ki, «Azərbaycan diviziyasının 40 nəfər yüksək rütbəli zabiti və respublika hərbi komissarlığının 20 nəfər zabiti bu işlə əlaqədar həbs edilib güllələndilər».

Məhkəmə başa çatmamış, 1937-ci il oktyabrın 5-də Qambay Vəzirovun həyat yoldaşı İzzət Vəzirova həbs edildi. O, XDİK-in 8-ci şöbəsinin baş inspektoru Moşeçkov tərəfindən cəmi bir dəfə dindirildi. Dekabrın 9-da onun barəsində belə bir hökm çıxarıldı: vətən xaininin ailə üzvü Vəzirova İzzət İsmayıl qızı 8 il müddətinə azadlıqdan məhrum edilsin .

İzzət xanım həbsxanada olarkən onun 9-cu sinifdə oxuyan oğlu Yavuz Vəzirov 1937-ci il noyabrın 11-də həbs edildi və azyaşlı olmasına baxmayaraq ona 3 il həbs cəzası kəsildi. Lakin İzzət Vəzirovanın və Yavuz Vəziorovun xalası Rzayeva Zeynəb İsmayıl qızının Stalinə və Sumbatova yazdıqları aramsız məktublarından sonra bu şagirdi azad etdilər.

Vəzirovlar nəslinin repressiyalara məruz qalan nümayəndələrindən biri də torpaq komissarı Heydər Vəzirov idi. Heydər Sadıq oğlu Vəzirov 1893-cü ildə Nehrəm kəndində anadan olmuşdu. İbtidai təhsilini maarif fədaisi Məhəmməd Tağı Sidqi tərəfindən 1894-cü ildə Naxçıvan şəhərində açılan «Məktəbi-tərbiyədə» almışdı. Sonra o, İrəvan seminariyasına daxil olmuş və oranı bitirdikdən sonra gimnaziyaya daxil olmuş və Birinci Dünya müharibəsinin başlanması onun buradakı təhsilini yarımçıq qoymuş və o qıssa müddətli hərbi məktəbə göndərilmişdir. 1915-ci ilin iyununda kiçik zabit rütbəsi ilə cəbhəyə göndərilən H.Vəzirov əsir düşmüş və 1918-ci ildə əsirlər dəyişdirilərkən vətənə qayıtmışdır. AXC elan olunduqdan sonra onun yaratdığı hərbi məktəbdə müəllim işləmiş və milli kadrların hazırlanmasında müəyyən rol oynamışdır. Bolşevikləşmə illərində o partiya sıralarına daxil olur və az müddətdən sonra «hərbiyyə məktəbi»nə rəis təyin edilir. «İyirminci illərin sonunda (1925-ci il) partiya onu Göyçay Qəza İcraiyyə Komitəsinin sədri, 1927-ci ildə Gəncə Qəza İcraiyyə Komitəsinin sədri, 1931-ci ildə Zaqafqaziya Sosialist Federativ Şura Cümhuriyyəti Xalq Torpaq komissarı, 1933-cü ildə isə Azərbaycan SSR torpaq komissarı təyin edir» .

Onu 1937-ci il iyulun 21-də XDİK kapitanı Tsinmanın hazırladığı arayışa əsasən həbs etdilər. Həmin arayışda göstərilirdi ki, 1893-cü ildə Naxçıvanın Nehrəm kəndində doğulmuş Neydər Vəzirov əksinqilabi təbliğat aparmış, Trotskçi təşkilatın fəal üzvlərindən olmuş və SSRİ-yə qarşı silahlı üsyan hazırlamışdır. Bunları əsas götürən Sumbatov-Topuridze onun həbsi və yaşadığı Bakı şəhəri, Qasım İsmayılov küçəsi 9, mənzil 1-də axtarış aparılması barədə 21 iyul 1937-ci ildə 797 saylı order imzaladı. Axtarış zamanı ondan istintaq üçün əhəmiyyət kəsb edə biləcək bir şey tapılmadığından ikinci dəfə 25 iyulda 837 saylı order imzalanda və yenə də heç nə tapılmadı. Lakin görünür yuxarıda göstərilənlər kifayət qədər hüquqi əsas verirdi ki, onu həbs etsinlər. 2 cilddən ibarət olan bu istintaq işində onun harada işləməsi, sovet hökuməti əleyhinə hansı işlər görməsi barədə suallar verilir və şahid dindirmələrindən sonra H.Vəzirovu sovet hökuməti üçün təhlükəli şəxs hesab edərək 13 oktyabr 1937-ci ildə güllələyirlər. 17 dekabr 1955-ci ildə ailə üzvlərinin müraciətindən sonra onun işinə yenidən baxılır və SSRİ Ali Məhkəməsi Səyyar Sessiyasının qərarı ilə heç bir günahı olmadığına görə tam bəraət verilir.

Heydər Vəzirovdan sonra həyat yoldaşı Leyla xanımı, oğlu Heydəri (oğluna öz adını qoymuşdu), Sədrəddin Vəzirovu (Qambay Vəzirovun qardaşı) «xalq düşmənləri»nin qohumları kimi həbs etmişdilər (96, 95). Ali təhsilli aqronom olan Leyla xanım Vəzirova Azərbaycan SSR XDİK-in əməkdaşı Koqan tərəfindən imzalanmış 2832 nömrəli orderə əsasən 20 fevral 1938-ci ildə həbs edildi və evində axtarış aparıldı. Leyla xanımın həbsinin yeganə səbəbi həyat yoldaşının «vətən xaini» olması idi. Leyla xanım İslah Əmək Düşərgəsində heç bir qanun pozuntusuna yol vermədiyinə görə 20 fevral 1946-cı ildə onu həbsdən azad etdilər. Qayıtdıqdan sonra özünə iş tapa bilməyən Leyla xanım müxtəlif yerlərə müraciət etsə də heç bir nəticə olmadı. O, yalnız fiziki və psixoloji təzyiqlərdən 29 aprel 1955-ci ildən sonra qurtara bildi. Ona görə ki, həmin vaxt ona bəraət verildi.

Belə mərhumiyyətlərə düçar olan ailələr arasında general Cəmşid Naxçıvanski də var idi. Onun ailə üzvlərinin bir qismi İranda və Türkiyədə mühacir həyatı yaşamağa məcbur olmuş, bir qisminə İrana getməyə sovet hökuməti razılıq vermiş, özü isə sovet hökuməti tərəfindən 3 dəfə cinayət məsuliyyətinə cəlb edilmişdi. Birinci dəfə polkovnik C.Naxçıvanskini 1920-ci il martın 31-də çar Rusiyasının və Azərbaycan Xalq Cümhuriyyətinin zabiti olmaqda təqsirli bildilər və istintaq zamanı əməllərində cinayət tərkibi olmadığına görə azadlığa buraxdılar.

İkinci dəfə isə onu general kimi 1931-ci il mayın 22-də əksinqilabi millətçi təşkilatın üzvü olmaqda günahlandıraraq məsuliyyətə cəlb etdilər. 1931-ci il sentyabrın 30-da ona güllələnmə hökmü oxundu. Lakin 5 aydan sonra, yəni 1932-ci il fevralın 2-də Azərbaycan DSİ-nin kollegiya iclasında Cəmşid Naxçıvanskinin cinayət işinə yenidən baxıldı və onun güllələnmə hökmü ləğv edildi.

Azadlığa buraxıldıqdan sonra C.Naxçıvanski yenə də hərbi işlə məşğul olmağa başladı və 1938-ci il mayın 20-də 3191 saylı orderlə həbs edildi . Həmin ilin avqust ayının 12-də dindirildi (yalnız bir dəfə) və aşağıdakılarda ittiham edildi: Azərbaycan antisovet milli mərkəzinin fəal iştirakçısı olmaqda, Azərbaycan SSR-in devrilməsi planını hazırlamaqda, Fars ordusuna xidmət edən qardaşı Kərbəlayı xanla əlaqə saxlamaqda, çevriliş etmək məqsədi ilə üsyan hazırlamaqda, «Azərbaycan Milli Mərkəzi»ndə antisovet millətçi təbliğat aparmaqda, 1921-ci ildən 1926-cı ilə kimi İranın xeyrinə casusluqla məşğul olmaqda. Bəzi mənbələrdə C.Naxçvanskinin «xan nəslindən çıxması» da güllələnmənin səbəbi kimi göstərilir . Bu uydurulmuş ittihamları rəhbər tutan SSRİ Ali Məhkəməsinin Kollegiyası 1938-ci il avqustun 26-da onun barəsində güllələnmə hökmü çıxardı və hökm həmin gün icra olundu.

Tədqiqatlar nəticəsində müəyyənləşdirildi ki, SSRİ-də, o cümlədən Azərbaycanda bolşevik totalitar rejiminin idarə və iş üsulu olan repressiyalar Naxçıvanda yalnız ərazi itkiləri ilə müşayət olunmadı, kollektivləşmə və kolxozlaşma illərində də minlərlə naxçıvanlı repressiyaya hədəf seçildi. Repressiyaları həyata keçirməkdə məqsəd sosializmin əyalətlərdə dayaqlarını daha da bərkitmək, onun tam və qəti qələbəsini təmin etmək, əhalidə, eləcə də milli ruha və milli düşüncəyə malik olan ziyalılarda beynəlmiləlçilik adı altında türkçülük məfkurəsini, onlardakı milli istiqlal düşüncəsini, müstəqil olmaq idealını məhv etmək idi. Aparılmış total siyasət nəticəsində türkçülük məfkurəsinə, müstəqilləşmək ideyasının həyata keçirilməsinə, milli istiqlal savaşına, islami dəyərlərə, milli adət-ənənələrə müəyyən zərbələr dəydi. Lakin bolşevik totalitar rejimi özünün 70 illik taırixində bunları tamamilə məhv edə bilmədi, xalq böyük ideyalar uğrunda mübarizəsini axıradək davam etdirərək öz müstəqilliyini yenidən bərpa edə bildi. Müstəqilliyin bərpasından sonra onun islami dəyərləri və türkçülük ənənələri də yaşamaq səlahiyyəti qazandı. Məhz müstəqillikdən sonra repressiyaya məruz qalmış şəxslərin hamısına bəraət verildi.

## ƏDƏBİYYAT


1. МТН архиви: ПР-18845
2. МТН архиви: ПР-22897
3. МТН архиви: ПР-11722
4. МТН архиви: ПР-6399
5. МТН архиви: ПР-25339
6. МТН архиви: ПР-8092
7. МТН архиви: ПР-16638
8. МТН архиви: ПР-21290
9. МТН архиви: ПР-33749


## ABSTRACT


**Nadir Huseynbayli**



The main object of the investigation consists of the social-political situation during the years of 1920-1930 in Nakhchivan, the traditions affected the repression, the policy against the independence of people, the persons, prominent intellectuals` activities in the totalitarian rejime.

During the repression the main goal was to investigate the reasons of destroying the intellectuals, different people of art who played the main role in the social- political life of Nakhchivan, the importance of political acts against the nationality, to determine the goals and duties of Law Enforcement Agencies.

The life of Hussein Javid, Gambay Vazirov, Heydar Vazirov, Jamshid Nakhchivanski and their families facing with the horrors of repression were researched on the base of archives materials.


## РЕЗЮМЕ

**Надир Гусейнбейли**

**Нахчыванская интеллечеция в годы репресии**

Обьектом исследования являются общественно-политическое полопсение в Нахчыване в 1920-1930 годы и тепрессия нахчыванской интеллигенции. В ней анализируются подверженные репресии народные обычаи и традиции, деятельность отдельных мыностеи, видных представителей интелигенции, известных родов, борьющехся за независимость народа, экономику страны, также политика умитожения тоталитарного репсима в отношении национального состава совешслого народа.

Целью исследования являются изучение причин унилитопсения пруставителей национальной интелличенции разлигных профессий особенно литературы и искусства, трающей вапсную роль в общественно-политицеской жизни Нахчивана, расирытие главны сущнрсты политиечских анции тоталитаризма против всего национального, определение сути целей и задач реализации репресии, осуществяемой правоохранительными органами государства. На архивных материалах рассмотрены факты подвержения репресии таких выдающихся Нахчыванцев, как Гусейна Джавида, Галибая Везирова, Гейдара Везирова, Джамшида Нахчыванского, и членов их семей.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *AMEA-nın müxbir üzvü Z.Şahverdiyev*

**VİDADİ SALMANOV**
*Naxçıvan Dövlət Universiteti*

***UOT :008.39***

# MULTİKULTURALİZM VƏ VƏTƏNPƏRVƏRLİK

***Açar sözlər****: multikulturalizm, dəyərlər, millət, tarix*
***Keys words****: multiculturalism, patriotism, history, nation*
***Ключевые слова****: мултикултурализм, ценности, народ, история*

Azərbaycan xalqı olduqca mühüm və bəşəriyyətə nümunə olan mənəvi keyfiyyətlərə malikdir. Bunlardan biri də əsrlərdən bəri formalaşaraq inkişaf edən, xalqımızın hümanist dünyagörüşünü özündə əks etdirən multikultural və tolerant dəyərlərdir. Təsadüfi deyil ki, tarixin bütün dönəmlərində bu coğrafiyada müxtəlif etnoslar, xalqlar, ayrı-ayrı dinlərə sitayiş edən insanlar əmin-amanlıq, mehriban qonşuluq şəraitində yaşamışlar. Tarixin bütün dövrlərində dünyanın demək olar ki, hər bir tərəfində milli və dini zəminlərdə qarşıdurmalar baş vermiş, insanlığa, bəşəriyyətə qarşı ağır cinayətlər törədilmişdir. Lakin Azərbaycanda yaşayan xalqlar arasında heç vaxt milli-etnik və dini zəmində ədavət baş verməmiş, bu məqsədlə kənardan edilən cəhdlər iflasa uğramışdır.

Qloballaşan dünya fərqli mədəniyyətlərin birgəyaşayışı olmadan mövcud ola bilməz. Artıq dünyada monokultural və monoetnik cəmiyyət və ölkə anlayışı qəbul olunmur. Beynəl-xalq münasibətlərdə də-istər siyasi, istərsə iqtisadi və ya mədəni sahə olsun-hər hansı dövlət özünütəcrid şəraitində inkişaf edə bilməz. Bəşəriyyət yalnız fərqliliklərin dəyərlərinə hörmət et-məklə inkişaf edə bilər. Dünyada çox az sayda mövcud olan monoetnik ölkələr isə ya coğrafi, tarixi, siyasi səbəblərdən təcrid olunmuşdur, ya da bu, ölkədə aparılan şovinist və dözümsüzlük siyasətinin təzahürüdür.

Bildiyimiz kimi, bəşəriyyət hər zaman qarşısına məqsəd və hədəflər qoyub. Hal-hazırda qlobal məqsəd çoxmədəniyyətli cəmiyyət, çoxmədəniyyətli məkan yaratmaqdır. Multikulturalizm mürəkkəb məqsəd, mürəkkəb ideyadır. Belə ki, dünya daha çox inkişaf etdikcə, hər bir fərd özünü daha çox müstəqil şəxsiyyət kimi dərk edir. Və hər bir fərdin maraqları ilə ümumi maraqlar arasında qarşıdurma yaranır. O cümlədən, ayrı-ayrı dövlətlər və ya bütövlükdə dünya maraqları arasında münaqişələr yaranır. Bununla bərabər,bu münaqişələr həmişə olub və olacaq. Əgər bu münaqişələr olmasaydı, cəmiyyətin dialektik inkişafı olmazdı. Ədalət ideyasını daşıyan islam dini də çoxlarını birləşdirib. Din istənilən tarixi dövrdə hər bir cəmiyyətin əxlaqi-mənəvi dəyərlər sisteminin ayrılmaz bir hissəsini təşkil etmiş və insanlar tərəfindən doğru dərk edildiyi zaman bu dəyərlərin zəmanətinə çevrilmişdir. Azərbaycan üçün əsas mühüm xüsusiyyətlərdən biri isə ondan ibarətdir ki, bu ölkə bütün islam aləmində dünyəvi dövlətçiliyin nadir modellərindən biridir. Ölkədə xristian pravoslav kilsəsinin fəaliyyətinin bərpası, Bakıda katolik kilsəsinin inşa olunması Azərbaycandakı dini müxtəlifliyin və bu müxtəlifliyə insanların tolerant münasibətinin bariz nümunəsidir.

Dastanlarımızdan, nağıllarımızdan, klassik ədəbi nümunələrimizdən qədim demokratik prin-siplərlə bağlı yetərincə misal və nümunələr göstərmək olar. Tarix boyu Azərbaycan mənəvi həyatın-da tolerantlıqdan xeyli danışmaq mümkündür. Bunlar, təbii ki, multikultural tərzin Azərbaycan cəmiyyətinə öncədən xas olmasına bir sübutdur.

Məlumdur ki, multikulturalizmin əsas prinsipi-mədəni həyatın müxtəlif formalarının bərabər hüquqlarla yanaşı mövcud olması, yəni azlıqla çoxluğun bərabər hüquqlara malik olmasıdır. Bu prinsip həmin azlığı dəstəkləmək və müdafiə etməklə bağlı xüsusi proqramın mövcudluğunu tələb edir. Azlığın dəstəklənməsi proqramının dövlət siyasətinin sadəcə bir xəttinə yox, ümumən bütün sosial-siyasi sistemin tərkib hissəsinə çevrilməsi vacibdir.

Multikulturalizmin vətəndaş cəmiyyətində həyat tərzinə çevrilməsi onun inkişafının ən

yüksək mərhələsidir. Bu mərhələdə bəşəri dəyərlərin, mərhəmət, şəfqət, acıma, dözümlülük, dəyər vermə kimi hisslərin cəmiyyətdə yayılması xüsusi miqyas kəsb edir. Multikulturalizm ideyaları ictimai şüurda möhkəmlənir.

Azərbaycan çoxkonfessiyalı bir ölkədir və burada tarixən müxtəlif dini, mədəni abidələr mövcuddur. Həmçinin ölkəmiz multikulturalizm istiqamətində böyük təcrübəyə malikdir. Buna baxmayaraq ölkəmiz tərəfindən hər zaman bu sahədə beynəlxalq təcrübələr də öyrənilir. Hazırda ölkəmizdə keçirilən çoxsaylı beynəlxalq tədbirlərdə dünyada milli və dini tolerantlığın gücləndirilməsi, multikulturalist dəyərlərin təbliği, dini zəmində ekstremizmə və ayrıseçkiliyə qarşı birgə mübarizə yollarının araşdırılması, fərqli dinlərin və mədəniyyətlərin daşıyıcısı olan insanlar arasında dialoq və qarşılıqlı anlaşmanın bərqərar edilməsi kimi aktual problemlər geniş müzakirə olunur.

Azərbaycanda multikulturalizmə dövlət səviyyəsində diqqətin sayəsində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Dünyanın heç bir yerində bu formada mərkəz yaradılmayıb. Azərbaycan burada da gözəl nümunə ortaya qoyub. Dövlət Bayrağı Meydanının, - bu bayraq dövlətçiliyimizin rəmzidir - yaxınlığında multikulturalizmə abidə ucaldılmışdır.

Ölkə rəhbərinin birbaşa diqqəti və nəzarəti ilə multikultural mühitin daha da möhkəmlənməsi və inkişafı istiqamətində görülən davamlı işlərin sistemliliyini və mütəşəkkilliyini artırmaq baxımından 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan olunması ilə bağlı sərəncamı xüsusi əhəmiyyətə malik təşəbbüs olaraq qeyd edilməklə yanaşı, dünya ictimaiyyətinə insan amilini, bəşəri dəyərləri bütün fəaliyyətlərin fövqündə tutan Azərbaycan Respublikasının bir mesajı kimi də dəyərləndirilə bilər.

Təsadüfi deyil ki, Azərbaycan xalqının zəngin multikulturalizm təcrübəsi, nümunəvi tolerant keyfiyyətlərə sahib olması beynəlxalq səviyyədə də tanınır və yüksək qiymətləndirilir. Məhz bundan irəli gələrək son illər ölkəmizdə sivilizasiyalararası dialoq və tolerantlıq mövzusunda çoxsaylı beynəlxalq tədbirlər keçirilib. Bütün bunlar ondan xəbər verir ki, Azərbaycan mədəniyyətlərarası və dinlərarası dialoq üçün mühüm mərkəzə çevrilib. Ölkəmiz daha bir mötəbər beynəlxalq tədbirə ev sahibliyi etdi. Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Azərbaycanda keçirilməsi barədə beynəlxalq təşəbbüs bir daha onu göstərir ki, multikultural və tolerant ənənələrə sadiq olan Azərbaycanın mədəniyyətlərin dialoqunun inkişafı, dini-mədəni müxtəlifliyin qorunub saxlanması, sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsi sahəsində zəngin təcrübəsi bütün dünyada qəbul olunur.

Azərbaycanda minilliklər boyu dinc yanaşı yaşamış fərqli dil, din və mədəniyyət daşıyıcıları varlıqlarını günümüzədək qorumuş, hazırda isə cəmiyyətdə bu yöndə mövcud olan pozitiv münasibətə çox mühüm çalar - dövlət siyasəti əlavə olunmuşdur ki, bu da respublikamızda multikultural mühitin uğurlu perspektivlərini təmin edir.

Multikulturalizm kimi bəşəri dəyərlərə Azərbaycanın münasibəti beynəlxalq səviyyəli təşəbbüslərdə praktik müstəvidə də özünü göstərir.

Azərbaycan bütün dünyaya örnək ola biləcək dəyərlərə sahibdir. BMT-nin Sivilizasiyalar Alyansının VII-ci Qlobal Forumunun Bakı şəhərində keçirilməsi Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun daha da artırılmasında, Azərbaycan xalqının tarixi-mədəni irsinin geniş miqyasda tanıdılmasında əhəmiyyəti böyükdür. Bu isə dünya ölkələrinin Azərbaycandakı multikultural mühitə olan münasibətinin real ifadəsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı ilin aprel ayında Bakıda keçirilən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun açılışında səsləndirdiyi fikirlər Azərbaycanda cəmiyyətin multikultural həyat tərzinə baxışını çox dəqiqliklə ifadə edir: "Azərbaycan əsrlər boyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir araya gəldiyi məkan olmuşdur. Biz Şərq ilə Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüyük. Əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri Azərbaycanda sülh şəraitində və ləyaqətlə yaşayıblar. Dini dözümlülük və multikulturalizm burada hər zaman mövcud olmuşdur. Multikulturalizm sözü mövcud olmadığı bir zamanda belə, həmin ideyalar daim yaşayıb" (2).

Bir ölkədə yaşanan müsbət dəyərlərin dünyaya yayılması istiqamətində həmin dövlətdə təşkil olunan idman yarışlarının da böyük əhəmiyyəti var. İdman yarışları əslində, elə tolerantlığı, sülhü təbliğ edir. Azərbaycan ilk Avropa oyunlarını təşkil etməklə həm də özünün tolerantlıq, dözümlülük dəyərlərini dünyaya bəyan etdi.

İ.Əliyev düzgün vurağulayaraq  qeyd etmişdi ki, …biz çox istəyirik ki, gənc nəsil milli ruhda, vətənpərvərlik ruhunda, öz tarixinə, mədəniyyətinə hörmət ruhunda böyüsün, tərbiyə alsın. Beləliklə, hesab edirəm ki, dünya üçün də və dünyada gedən proseslər üçün də bu, müsbət rol oynayacaqdır. Humanitar sahədə digər istiqamətlər də böyük əhəmiyyət daşıyır. Bəzi hallarda, misal üçün, idmanla bağlı məsələlərə biz sadəcə olaraq bir idman yarışı kimi baxırıq. Ancaq o da həqiqətdir ki, dünyada Olimpiya oyunları kimi ikinci belə mötəbər tədbir tapmaq çətindir ki, insanları bu qədər birləşdirsin. Olimpiya oyunları bütün xalqları, bütün insanları birləşdirir. Bu, həm rəqabətdir, həm yarışdır, həm də dostluq və qarşılıqlı anlaşma rəmzidir. Bəzi hallarda bir-biri ilə düşmənçilik edən ölkələrin nümayəndələri döyüş meydanında yarışırlar, bir-birinin əlini sıxır və bir-birini qələbə ilə təbrik edirlər. Əfsuslar olsun ki, biz bunu yalnız Olimpiya oyunları zamanı görə bilərik. Beləliklə, idman amili mədəniyyətlərarası dialoqun gücləndirilməsində də çox mühüm rol oynayır və biz Azərbaycanda bu sahəyə böyük diqqət göstəririk. İdmanda əksər hallarda mübarizə qaydalar əsasında aparılır və bu, yəqin ki, idmanı siyasətdən fərqləndirən əsas amildir .

Bu baxımdan "Formula-1" avtoyarışları üzrə Avropa Qran-Prisi, Şahmat Olimpiadası və 2017-ci ildə keçiriləcək IV İslam Həmrəylik Oyunları da böyük əhəmiyyət kəsb edir. Azərbaycan-da keçirilən beynəlxalq tədbirlər, forumlar, konfranslar, "Eurovision" mahnı yarışması, idman tədbirləri bir daha sübut edir ki, dünyanın aparıcı beyin, düşüncə mərkəzləri ölkəmizdəki bu maraqlı modeli qəbul edərək, dünyaya nümunə olaraq göstərirlər.

Ölkəmizin və xalqımızın sahib olduğu multikultural dəyərlərin, tolerantlıq ənənələrinin beynəlxalq ictimaiyyətə təqdim edilməsində Heydər Əliyev Fondunun xidmətləri böyükdür. Fond Azərbaycan multikultural ənənələrinin qorunub saxlanması, təbliği ilə bağlı olduqca əhəmiyyətli layihələr həyata keçirir. Bu layihələr Azərbaycan multikulturalizminin bir ölkə çərçivəsində qapalı inkişafını deyil, dünyada dinlərin və mədəniyyətlərin müxtəliflikləri şəraitində fəaliyyət göstərməsini reallaşdırır.

Azərbaycan müxtəlif xalqların və etnik qrupların dinc, dostluq, qardaşlıq şəraitində yaşadığı, sevinci və kədəri birgə bölüşdüyü bir məkandır. Burada yaşayan bütün xalqlar və etnik qruplar Azərbaycanı öz ortaq vətənlərinə çevirə biliblər. Bu gün Azərbaycana əsassız torpaq iddiası ilə çıxış edən separatistlərlə eyni millətdən olan, ancaq bu separatistlərin iddialarını qəbul etməyən Azərbaycan erməniləri də buranı öz vətənləri sayırlar. Bütün bu xalqların dil və mədəni zənginliklərini Azərbaycan dövləti öz zənginliyi, öz gücü sayır. Ümummilli lider Heydər Əliyev deyirdi: "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir". Azərbaycanda yaşayan bütün xalqların və etnik qrupların nümayəndələrini bu gün müstəqil Azərbaycanın hər bir sahəsində - siyasətdə, iqtisadi zonada, təhsildə, mənəvi həyatda, bir sözlə bütün sahələrdə görmək mümkündür.

Azərbaycanda yaşayan bütün millətlərin və dinlərin nümayəndələrinin dövlətçiliyimiz naminə daim həmrəylik nümayiş etdirmələri xalqımızın yüksək multikultural və tolerant dəyərlərə malik olmasının bariz nümunəsidir. Ölkəmizin inkişafı, qüdrətlənməsi ilə yanaşı, ərazi bütövlüyümüzün qorunmasında da burada yaşayan bütün xalqların və dinlərin nümayəndələri hər zaman qəhrəmanlıq və vətənpərvərlik nümunələri ortaya qoyublar. Biz aprel ayının əvvəllərində bunun bir daha şahidi olduq. Cəbhə xəttində erməni təxribatlarına qarşı Azərbaycan Ordusunun apardığı hərbi əməliyyatlarda ölkəmizdə yaşayan azsaylı xalqların nümayəndələri də əsl qəhrəmanlıq nümunələri göstərdilər. Onların arasında şəhidlik zirvəsinə ucalanlar oldu. Bir daha təsdiq olundu ki, Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi bu torpağı canı qədər sevir və uğrunda ölməyə hazırdır.

Müdafiə Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə tədbirlər planına əsasən həftəlik Multikulturalizm ili çərçivəsində reallaşır. Silahlı qüvvələrin bütün birlik, birləşmə, hərbi hissələri, xüsusi təyinatlı hərbi təhsil müəssisələrində əsgər və zabitlərin mövzu ətrafında məlumatlandırılması nəzərdə tutulmuşdur.

**Müdafiə Nazirliyinin rəsmisi A.Qurbani demişdir:** "Silahlı qüvvələr cəmiyyətin bir hissəsidir. Azərbaycanda yaşayan müxtəlif xalqların övladları bu gün silahlı qüvvələrdə vətən qarşısında öz əsgəri borclarını şərəflə, vicdanla yerinə yetirirlər. Tolerantlıq və multikulturalizm həftəsi əsgərlərdə vətənpərvərlik hissinin və döyüş ruhunun qüvvətlənməsinə səbəb olacaq və qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsinə zəmin yaradacaq" (4).

Hər bir şəxs Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir.

Ölkə Konstitusiyasının bir çox maddələri insan və vətəndaş hüquqları və azadlıqları onların müdafiəsi ilə bağlıdır. Məsələn, Konstitusiyanın "Bərabərlik hüququ" adlanan 25-ci maddəsinin 3-cü bəndində deyilir:

"Dövlət irqindən, milliyyətindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq vəziyyətindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır". (1)

Konstitusiyanın 44 və 45-ci maddələri müvafiq olaraq vətəndaşların milli mənsubiyyəti və ana dilindən istifadə hüquqlarını özündə əks etdirir. Həmin maddələrə əsasən hər kəsin milli mənsubiyyətini qorumaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz. Hər kəsin ana dilindən istifadə etmək hüququ vardır. Hər kəsin istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ vardır. Heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz.

47-ci maddədə göstərilir ki, hər kəsin fikir və söz azadlığı vardır. Lakin həmin maddənin 3-cü bəndində zox düzgün olaraq qeyd edilir ki, irqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir. (1)

Zənnimizcə, vətənə sədaqət (maddə 74), dövlət rəmzlərinə hörmət (maddə 75) və vətəni müdafiə (maddə 76) vətəndaşların ən müqəddəs vəzifələrindən hesab edilməlidir. (1)

Prezident İlham Əliyev tərəfindən yaradıldığı gündən bu günə qədər prioritet proyekti təhsil istiqamətində qurulub. Dünyanın 13 universitetində və Azərbaycanın 28 ali məktəbində bu gün "Azərbaycan multikulturalizmi" fənni keçilir. Azərbaycan multikulturalizminin və tolerantlığının elmi əsaslarla öyrənilməsi, həmçinin dünyada təbliği istiqamətində göstərdiyi konkret hədəflərə çatmaq üçün atılan əməli addımlar öz bəhrəsini verməkdədir. (3)

Azərbaycan təhsilində mövcud demokratizm, bütün millətlərin hüquq bərabərliyi, təhsilin dünyəvi və tərbiyəvi xarakteri, zaman-zaman təkmilləşməsi ideya istiqaməti, real həyatla möhkəm əlaqəsi onun strateci mahiyyətini təşkil edir. Təhsilin mühüm amillərindən biri onun eyni zamanda tərbiyəvi xarakter daşımasıdır. Yəni təhsil, elm, bilik yolçularına ən sadə anlayışlardan başlamış mürəkkəb prosesləri araşdırmaq təfəkkürü, qabiliyyət və bacarığı verirsə onu eyni zamanda şəxsiyyətin ictimai həyatda, istehsalatda fəal iştirakına nail olmaq üçün məqsədyönlü, sistemli sürətdə formalaşdırılması prosesi kimi də qəbul etmək olar.

Görünür ki, qloballaşma dövründə heç bir ölkə multikulturalizmin təsirindən yan keçə bilməz. Lakin inkişaf etmiş cəmiyyət öz mədəni, milli və mənəvi dəyərlərini mümkün olan dərin deformasiyalardan qoruyaraq böyük dəyişiklər dövrünün çağırışına adekvat cavab verməlidir.

Sonda qeyd etmək istəyirəm ki, tolerant mühitin qorunması isə bizim hamımızın vətəndaşlıq borcudur. İstər vəzifəli şəxslər, ziyalılar, din xadimləri, istərsə də sadə əhalimiz mövcud olan bu mehribanlığı qoruyub saxlamağa, möhkəmləndirməyə və gələcək nəsillərə ötürməyə borcludur.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, "Azərbaycan" nəşriyyatı, 1997, 112 s.
2. BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılışında Prezident İlham Əliyevin nitqi /26 aprel 2016-cı il/ - http://www.president.az/articles/19727

3.Abdullayev K. Multikulturalizmin elmi-nəzəri əsasları və Azərbaycan reallığında inkişaf perspektivləri. 525-ci qəzet, 2016, 10 fevral, s.4;7

4. Müstəqil Azərbaycan-25: multikulturalizmin və tolerantlığın bariz nümunəsidir. "Azərbaycan qəzeti" 28 aprel 2016, swra.gov.az /news/1557/

**ABSTRACT**

**Vidadi Salmanov**

**Multiculturalism and Patriotism**

The article is an example of moral qualities of the people is very important and humanity.

One of them is formed for centuries, evolving, reflecting the multicultural and tolerant outlook of our humanist values. From across the country through the policy of multiculturalism, ethnic, racial, religious and cultural diversity by adjusting the values that underlie these differences and has been able to maintain. It is compatible with the norms and principles of a democratic society. Scientific article also notes that the ethnic and cultural values of the peoples is an integral part of human rights protection.

The article also notes that the scientific basis of the study of multiculturalism and tolerance, as well as to promote the practical steps taken to achieve the objectives of the specific bearing fruit. And tolerance is our civic duty while protecting the environment. Both officials, intellectuals, religious leaders, as well as the kindness of the population is simple to maintain, strengthen and obliged to pass on to future generations.

**РЕЗЮМЕ**

**Видади Салманов**

**Мультикультурализм и патриотизм**

В статье говорится, что Азербайджанский народ обладает очень важными и моральными качествами, которые является примером к человечеству. Один из них, гуманистической, мультикультуралистический и толерантного мировоззрения, который формируются и развивается испокон веков, отражает ценности нашего народа.

Мультикультурализм внутри страны, этнической, расовой, религиозной и культурное разнообразие и их защите ценностей, составляющих основу добился этого разнообразия регулируя посредством политики Азербайджанской Республики.

Это соответствует нормам и принципам демократического общества. В научной статье также отмечается, что защита этно-культурного ценностей этих народов является составной частью прав человека.

В статье также отмечается, что Азербайджан приносят свои плоды для достижения целей, на изучения мультикультуралистики и толерантности на научной основе, также предпринятые пропаганды направленные на конкретные практические шаги в мире.

А защита толерантной среды, это - гражданский долг каждого из нас. Как должностные лица, представители интеллигенции, религиозные деятели, так и простое население обязан сохранить, укрепить и передать будущим поколениям ценности которые существует.

NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor M. Rzayev*

**ARZU ABDULLAYEV**
*Naxçıvan Dövlət Universiteti*
*a.ordubadi@yahoo.com*

***UOT:342***

# DÜNYƏVİ DEMOKRATİKLƏŞMƏ PROSESİNƏ AZƏRBAYCAN YANAŞMASI

***Açar sözlər:*** *Demokratik, region, Akt, xarici siyasət, vəkil, proses, Konstitusiya, Qanun*

***Key words:*** *Democratic, region, act, foreign policy, advocate, process, Constitution, law*

***Ключевые слова:*** *Демократические, регион, Акт, внешняя политика, адвокат, процесс, Конституция, Закон*

SSRİ-nin dağılması və Azərbaycanın öz müstəqilliyini 1991-ci ildə bərpa etməsi dünyada demokratikləşmə dalğasının yayıldığı bir dövrdə baş vermişdir. Azərbaycan digər postsovet respublikaları ilə birlikdə seçim qarşısında qalmışdı: dünyada vüsət alan demokratikləşmə yolunu seçərək Qərbə inteqrasiya, yoxsa Şərq aləmində və İslam dünyasında mövcud olan dövlət idarəçilik formalarından birini seçmək. Əlbəttə, artıq bir dəfə Azərbaycan Xalq Cümhuriyyətinin demokratik dövlət quruculuğu təcrübəsinin xalqın yaddaşında buraxdığı müsbət izlər, Azərbaycan xalqının demokratik təbiəti və inkişafa meylli olması, Sovet hakimiyyəti illərində əhalinin kütləvi savadlanması, respublikanın elm, təhsil, mədəniyyət sahəsində əldə etdiyi nailiyyətlər, ictimai-siyasi inkişaf demokratiya yönündə seçimin edilməsinə öz müsbət təsirini göstərdi. Eyni zamanda həmin dövrdə Qərb inkişaf modelinin və demokratiya yolunun bütün dünyada cəlbedici olması, sosialist-kapitalist qarşıdurmasında qalib gəlməsi Azərbaycanın seçiminə öz təsirini göstərdi.

1991-ci il oktyabr ayının 18-də Azərbaycan Respublikası öz müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Totalitar rejim tədricən demokratik rejimlə əvəz edildi, ölkədə əsl seçkili hakimiyyət yaradıldı. Demokratik qüvvələrin təsiri altında çətinliklə də olsa, respublikada demokratikləşmə prosesi başladı. Bu proseslərin inkişafında Avropa Şurası və Parlament Assambleyasının rolunu xüsusi qeyd etmək lazımdır. Azərbaycanın bu təşkilata daxil olmaq barədə müraciətindən onun tam hüquqlu üzv kimi fəaliyyət göstərdiyi hazırkı dövrə qədər ölkəmizdə hüquqi dövlət quruculuğu sahəsində həyata keçirilmiş geniş demokratik islahatları aşağıdakı formada sistemləşdirmək olar:

– dövlət idarəçiliyi və seçki islahatları, Azərbaycan Respublikasının siyasi sisteminin təkmilləşməsində çox böyük rol oynayan 1995-ci il noyabr ayının 12-də ölkənin yeni Konstitusiyasının, demokratik quruluşunun və hüquqi dövlətin təməlini qoymuş qanunların qəbul edilməsi;

– insanların şəxsiyyət azadlığına və toxunulmazlığına, habelə hüquqi müdafiəsinə təminat verilməsi, çoxpartiyalı sistemin yaradılması, siyasi plüralizm, söz və vicdan azadlığı, qanun qarşısında bərabərliyin təmin edilməsi;

− konstitusiya Məhkəməsinin yaradılması, ölüm cəzasının ləğv edilməsi, üçpilləli məhkəmə sisteminin yaradılması və şəffaf proseduralar əsasında hakimlər korpusunun seçilməsi və məhkəmənin müstəqilliyinin tam bərpa edilməsi;

− on minlərlə şəxs barəsində amnistiya verilməsi və xeyli sayda məhbusların əfv edilməsi;

− senzuranın aradan götürülməsi, kütləvi informasiya vasitələrinin azadlığı və qeyri-hökumət təşkilatlarının sərbəst fəaliyyətinin təmin edilməsi və s. (1, s. 468)

Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığının müasir dövr üçün siyasi aktuallığı və əhəmiyyəti isə bu əlaqələrin konkret sahələr üzrə ayrı-ayrılıqda təhlil edilməsini zəruri edir:

<u>Ölüm cəzasının ləğv edilməsi</u> – Azərbaycanda ölüm cəzasının ləğv edilməsi və cəza siyasətinin humanistləşməsi onun Avropa ailəsinə qoşulmasını təmin edən əsas amillərdən biri olmuşdur. Belə ki, 1950-ci ildə qəbul edilmiş İnsan hüquqlarına əsasən Avropa Konvensiyasının yaşamaq hüququ maddəsində ölüm cəzasının mövcudluğu qeyd olunmuş və 1983-cü ildə Avropa Şurası tərəfindən qəbul edilmiş bu Konvensiyanın 6 saylı əlavə Protokolunda ölüm cəzası birdəfəlik ləğv olunmuşdur. (2)

Ölüm cəzasını birdəfəlik ləğv etmək üçün Avropa dövlətləri uzun illər vaxt sərf etsə də,

hakimiyyətə gəldikdən sonra Heydər Əliyevin ilk qərarlarından biri ölüm cəzasına moratorium qoyulması olmuşdur. Bundan sonra ölüm cəzasının ləğv olunması yolunda bir neçə siyasi addımlar atılmışdır. 1995-ci ildə qəbul olunmuş yeni Konstitusiyada ölüm cəzasının tam ləğv edilənədək yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı xüsusilə ağır cinayətlərə görə müstəsna cəza tədbiri kimi göstərilmiş və artıq daimi cəza növü kimi nəzərdə tutulmamışdır. (3) Bundan sonra, 1996-cı ildə parlament Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsünü dəstəkləyərək yaşı 65-dən yuxarı olan kişilərin ölüm cəzasından azad olunması ilə bağlı qərar qəbul etmiş, eyni zamanda ölüm cəzasının tətbiqini nəzərdə tutan cinayətlərin sayı qanunvericilikdə 33-dən 12-yə endirilmişdir. Ulu öndər Heydər Əliyev ölüm cəzasını ləğv etməmişdən əvvəl bu məsələ ictimaiyyət tərəfindən müzakirə olunmuş, Avropa Şurası nümayəndələri ilə çoxsaylı danışıqlar aparılmışdır. Nəhayət, 1998-ci il fevral ayının 3-də ölkə prezidenti Milli Məclisə ölüm cəzasının ləğv olunması ilə bağlı etdiyi müraciətdə cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək idealları rəhbər tutmaqla ölkədə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəldiyini bildirmiş və bu tarixi bəyanatın zəruriliyini əsaslandırmışdır. Beləliklə, Heydər Əliyev Şərqdə ilk dəfə olaraq ölüm cəzasının ləğv olunması ilə bağlı qətiyyətli və humanist qərar qəbul etmişdir (4, s. 471).

Cəza siyasətinin humanistləşməsi ilə bağlı qanunvericilik aktlarında edilmiş ciddi dəyişikliklər, xüsusilə də Avropa Şurasının 50 illik yubileyi ilə əlaqədar 1998-ci ilin dekabr ayında verilmiş amnistiya Azərbaycanın Avropa Şurasına qəbul olunması yolunda apardığı diplomatik mübarizənin uğurlu sonluğundan xəbər verirdi.

Ombudsman təsisatı – Azərbaycanda insan hüquqlarının qorunması üzrə yeni sistem yaranmasının parlaq təzahürlərindən biri də "İnsan hüquqları üzrə müvəkkil (ombudsman) haqqında" Qanunun qəbul edilməsi olmuşdur. Yeni olduğu qədər də mürəkkəb bir sistem olan insan hüquqları təsisatının bu gün cəmiyyətdə hərtərəfli tam anlamı çox vacib məsələlərdəndir. Söz yox ki, Avropa üçün bu bir yenilik deyildi, lakin yenicə müstəqillik əldə etmiş Azərbaycan və Azərbaycan cəmiyyəti üçün bu bir yenilik idi. Onu da qeyd edək ki, müasir Avropa özünüdərkinin ən mühüm nailiyyətlərindən hesab olunan Ombudsman təsisatı bugünkü cəmiyyətin idarə olunmasında yeni yaranan daha bir sosial institutdur. Beləliklə, əməli fəaliyyətinin nəticələrini sistemləşdirib təhlil etməklə qanunvericiliyin yeniləşməsinə kömək edən, insan hüquqlarının beynəlxalq müdafiə vasitələrindən istifadəsi üçün kamil hüquq-müdafiə strukturlarından biri sayılan İnsan Hüquqları Üzrə Müvəkkil (Ombudsman) təsisatının yaradılması qabaqcıl dövlətlərdə tətbiq edilən səmərəli institutların ölkədə fəaliyyət göstərməsinə şərait yaratmış və Azərbaycanın dünyanın vahid hüquq məkanına inteqrasiyasına təkan vermişdir.

Seçki qanunvericiliyi – İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması, seçki ilə bağlı demokratik institutların inkişafı demokratik və hüquqi dövlətin əsas məqsəd və vəzifələrindən biridir. Dövlət demokratik prinsipləri və seçki hüququ normalarını müdafiə etmək yolu ilə vətəndaşların seçki və referendumlarda öz iradələrini sərbəst surətdə bildirməsinə təminat verir. İlk öncə "Referendum haqqında" 1997-ci il 30 dekabr tarixli Qanun, daha sonra "Azərbaycan Respublikası Prezidentinin seçkiləri haqqında" 1998-ci il 9 iyul tarixli qanun qəbul edilmişdir. Bu qanun müasir seçki qanunvericiliyinin əsasını qoyaraq bir növ örnək hüquqi-normativ sənəd olmuşdur. Daha sonra "Bələdiyyələrə seçkilər haqqında" 1999-cu il 27 iyun, "Milli Məclisə seçkilər haqqında" 2000-ci il 5 iyun tarixli qanunlar qəbul edilmişdir (5, s. 97).

Hüquqi dövlət quruculuğu yolunu seçmiş Azərbaycan Respublikasında demokratik şəraitdə prezident, parlament və bələdiyyə seçkiləri keçirilmişdir. Ölkəmizdə baş tutan seçkilərdə Avropa Şurası və digər təşkilatların xüsusi təyinatlı ekspert üzvləri mütəmadi olaraq iştirak edərək seçkilərin şəffaflığına nəzarət edirlər. Seçkilərin və referendumun keçirilməsi barədə vahid sənəd olan Seçki Məcəlləsini zəruri edən əsas amil seçki qanunvericiliyinin daha da təkmilləşdirilməsi ilə bağlı Avropa Şurası qarşısında götürülmüş öhdəlik olmuşdur. (6) Nəticədə, ölkə müstəqillik əldə etdikdən sonra seçkilərin və referendumun, o cümlədən prezident seçkilərinin demokratik və açıq şəraitdə keçirilməsinə tam təminat verən, bütövlükdə təzələnmiş möhkəm hüquqi baza yaradılmışdır.

Məhkəmə hüquq-islahatı-Avropa Şurasının tam hüquqlu üzvlüyünə qəbul olunması ərəfəsində Azərbaycan Respublikasında qanunvericilik sistemi tam yeniləşmiş, bu məqsədlə müvafiq qanunvericilik aktları qəbul edilmiş, təşkilati və digər tədbirlər görülmüşdür. Yeni Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki Prosessual, Cəzaların İcrası Məcəllələri, "Konstitusiya Məhkəməsi haqqında", "Prokurorluq

haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Polis haqqında" və digər qanunlar qəbul edilmişdir. Mövcud məhkəmə təsisatı tamamilə yenidən qurularaq üçpilləli məhkəmə sistemi yaradılmışdır. Test imtahanları və müsabiqə yolu ilə yeni hakimlər seçilmiş, Azərbaycanın penitensiar sistemi beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Konstitusion hüquqların təminatı baxımından "Konstitusiya Məhkəməsi haqqında" Qanunun qəbul edilməsi və bu məhkəmənin yaradılması demokratik hüquqi dövlət quruculuğu yolunda atılmış böyük addım olmuşdur. (7, s. 13)

Sözsüz ki, vətəndaşların Konstitusiya Məhkəməsinə birbaşa müraciət etmək hüququna malik olmaları onların hüquqlarının müdafiəsi baxımından olduqca əhəmiyyətli vasitənin əldə edilməsi deməkdir. Xüsusilə qeyd edilməlidir ki, 2002-ci il avqustun 24-də keçirilmiş referendum nəticəsində Konstitusiya Məhkəməsinin səlahiyyətlərində də əhəmiyyətli dəyişikliklər olmuşdur. Konstitusiyaya edilmiş dəyişikliklə Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ olan subyektlərin dairəsi xeyli genişlənmiş və əvvəlki subyektlər dairəsinə Ombudsman, ümumi yurisdiksiyalı məhkəmələr və vətəndaşlar da daxil edilmişdir.

İnsan hüquqlarının məhkəmədən kənar müdafiəsi mexanizmi də mühüm əhəmiyyət daşıyır. Hazırda Azərbaycanda 2000-ə yaxın ictimai təşkilat, o cümlədən onlarca hüquq-müdafiə təşkilatları rəsmi dövlət qeydiyyatına alınaraq normal fəaliyyət göstərir. Nizamnamə məqsədlərinə və fəaliyyətlərinə görə bu təşkilatlar qadın, uşaq, Gənclər, hüquq-müdafiə, xeyriyyə, mədəniyyət, təhsil, həmkarlar ittifaqları və digər sahələri əhatə edir. Hazırda regionda və dünyada baş verən əsas iqtisadi, siyasi, mədəni hadisə və proseslərdə Azərbaycan dövləti layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur. Respublikamızda həyata keçirilən demokratik islahatlar və iqtisadi dəyişikliklər, fəal xarici siyasət bu gün dünyanın ən qüdrətli dövlətlərinin, nüfuzlu təşkilat və qurumlarının diqqətini Azərbaycana yönəltmiş, beynəlxalq hüquq və normalara uyğun qarşılıqlı faydalı əməkdaşlığın qurulmasına və inkişafına əlverişli zəmin yaratmışdır.

## ƏDƏBİYYAT


1. Əli Həsənov. "Müasir Beynəlxalq Münasibətlər və Azərbaycanın xarici siyasəti". Bakı, 2005, 752 s.
2. www.coe.az\ xarici siyaset
3. az.wikipedia.org\azerbaycandemokratiklesme
4. Əli Həsənov. "Müasir Beynəlxalq Münasibətlər və Azərbaycanın xarici siyasəti". Bakı, 2005, 752 s.
5. Əli Həsənov. "Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996)". Bakı, 1998, 315 s.
6. "Azərbaycan bu gün və sabah" jurnalı. Politoloq-Rəşad Qasımzadə. 28-ci sayı. 2014
7. Elşən Nəsibov. "ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası". Bakı, 2006, 496 s.


## ABSTRACT


**Seculaar approach to the proces of democratization of Azerbaijan**

On the 18th of October in 1991 Azerbaijan Republic adopted Constitutional Act for its Independence.In spite of many difficulties the process of democratization has being started under the influence of democratic forces. On the 12th of November in 1995 new Constitution adopted.

Nowadays Democratic State of Azerbaijan is represented adequately in cultural,economic and political spheres, protected its position and supported its rights not only in our region but also all over the world.


## РЕЗЮМЕ


**Светское подход к процессу демократизации Азербайджана**

Азербайджанская Республика 18 октября 1991 года приняла Конституционный Акт о своей независимости. Под влиянием демократических сил, хотя и с трудом, в республике начался процесс демократизации. 12 ноября 1995 года была принята новая Конституция страны.

В настоящее время интересы Азербайджанского государства в экономических, политических, культурных, событиях u процессах происходящих в регионе и в мире по достойнству зашищаются и представляются отстаивая свою позицию.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *Filologiya üzrə elmlər doktoru, professor H.Həşimli*

**DİNARA AĞALIYEVA**
*AMEA-nın Fəlsəfə, Sosiologiya*
*və Hüquq İnstitutunun doktorantı*
*e-mail: d_agaliyeva@yahoo.com*

***UOT:341***

# ASİYA ÖLKƏLƏRİNDƏ TURİST FƏALİYYƏTİNİN NİZAMLANMASI MODELLƏRİNİN HÜQUQİ ASPEKTİ

***Açar sözlər**: Asiya, turist fəaliyyəti, hüquqi nizamlama, model, hüquqi aspekt*
***Key words**: east, tourism, model, regulation, legal aspect*
***Ключевые слова**: Восток, туризм, модель, регулирование, правовой аспект*

Turizmin inkişafı bir sıra ölkələrə dövlət büdcəsinə əhəmiyyətli dərəcədə gəlirlərin gətirilməsi ilə yanaşı, həmdə turizmlə sıx bağlı olan iqtisadiyyatın digər sahələrinin inkişafı üçün imkanlar yaradır. Müxtəlif ölkələrdə turizm sektorunun dövlət idarəetməsi modelləri müxtəlifdir, və bir çox hallarda onların ümumi iqtisadi inkişafından birbaşa asılıdır. Bu amil turizm sektorunda bir-birindən fərqli olan müxtəlif dövlət idarəetmə modellərinin formalaşmasının əsas səbəbini müəyyən edir. Turizmin dövlət nizamlanması modeli dövlət tərəfindən hüquq münasibətlərinin iştirakçılarının ümumi davranış norma və qaydalarının müəyyən edir. Onu da qeyd etmək lazımdır ki, ölkə hüquq ədəbiyyatında Asiya ölkələrində turizm sahəsində mövcud olan müxtəlif dövlət idarəetmə modellərinin hüquqi aspektlərinin tədqiq olunmasına dair ilk addımlar atılır. [13, s. 63-72; 14, s. 304-306] Asiya ölkələrində də mövcud olan turistik fəaliyyətin müxtəlif idarəetmə modellərinin hüquqi aspektlərinin araşdırılması və tədqiqi elmi cəhətdən böyük maraq yaradır. Onu da qeyd etmək lazımdır ki, Asiya ölkələrində mövcud olan turistik fəaliyyətin müxtəlif növlü modellərinə rast gəlmək olar. Məsələn, bir sıra Yaxın Şərq ölkələrində mövcud olan turistik fəaliyyətin idarəetmə modelinin xüsusiyyəti ondan ibarətdir ki, belə bir modeldə turizm sahəsində böyük səlahiyyətlərə malik olan və əhəmiyyətli dərəcədə bu sahə üzərində nəzarəti öz əllərində saxlayan güclü və nüfuzlu bir nazirliyin yaradılması nəzərdə tutulur. Belə bir səlahiyyətlərə malik olan turizm nazirliklərinin fəaliyyətlərinin əsas istiqaməti bu ölkələrdə turizmin təşviqinə yönəlib. Bu modeli seçmiş ölkələr sırasında Livanı, Omanı, Suriyanı, Yəməni, İsraili göstərmək olar. Turistik fəaliyyətin belə bir idarəetmə modeli həmdə bir sıra Cənubi-Şərq (məsələn, Kamboca, Laos, Malaziya) və Cənubi Asiya ölkələrində (Hindistan, Maldiv adaları) və bəzi digər ölkələrdə (Filippin) mövcuddur.

Məsələn, Hindistanda Turizm Nazirliyi bu ölkənin turizm sahəsində milli siyasətin və proqramların tərtib edilməsində və ştatların mərkəzi hökumətlərinin müxtəlif idarələrinin, həmdə ölkədə turizmin inkişafı üçün xüsusi sektorun fəaliyyətinin əlaqələndirilməsində aparıcı qurum kimi fəaliyyət göstərir. Bu nazirliyə turizm üzrə dövlət naziri başçılıq edir. Nazirliyin əsas məqsədi turizm saəhəsində dövlət siyasətinin həyata keçirilməsindən ibarətdir. Bu məqsədlə nazirlik funksiyası turizm sahəsində inkişaf strategiyasını müəyyən etmək, marketinqlə bağlı məsələləri nizamlamaq, bu sahədə investisiyaları cəlb etməkdə yardım göstərmək və s. ibarətdir [1].

Adətən bu ölkələrdə fəaliyyət göstərən turizm nazirlikləri şaxələnmiş struktura malikdirlər. Belə ki, belə bir struktura xaricdə ölkənin turizm sahəsində olan üstünlüklərini təbliq və reklam edən və həmdə marketinq fəaliyyəti ilə məşğul olan milli turistik idarəsi, və bununla yanaşı, müxtəlif növlü bölmələr, o cümlədən vergi, statistik, lisenziya və sertifikatların verilməsi, investisiya da daxil ola bilər. Turistik fəaliyyətinin belə növ idarəetmə modelininin aşağıdakı xüsusiyyətlərini qeyd etmək olar:

-ölkə iqtisadiyyatının digər sahələri ilə müqayisədə turizmə, və xüsusən ölkəyə gəlmə turizmin inkişafına daha çox önəm verilməsi;

- turistik infrastrukturunun yaradılmasına xarici investisiyaların cəlb edilməsi;

- turistik sektorunda kiçik və orta biznesin inkişafına dövlət dəstəyinin təmin edilməsi;

- ölkədə müxtəlif növlü risklərin yüksək səviyyəsinin mövcud olması halında turistlərin təhlükəsizliyi səhəsində səmərəli sistemin təşkil edilməsi zəruriliyi;

- turizmə aid ölkənin reklam edilməsinə, beynəlxalq sərgilərdə, müxtəlif növlü yarmarkalarda iştirak edilməsinə, İnternet resurslarının dəstəklənməsinə dövlət büdcəsindən əhəmiyyətli dərəcədə vəsaitlərin ayrılması və s.

Beləliklə, turizm sahəsində belə növ dovlət idarəetməsi modeli əsasən inkişaf etməkdə olan dövlətlərə xasdır.

Bir sıra digər ölkələrdə isə turistik fəaliyyətinin nizamlanmasında fərqli modellərə də rast gəlmək olar. Belə ki, bir sıra ölkələrdə turizmlə yanaşı ona yaxın olan digər sahələrlə də məşğul olan nazirliyin fəaliyyət göstərməsi nəzərdə tutulur. Bəzi hallarda turizm sahəsi mədəniyyət sahəsi ilə, digər hallarda isə idman və və ya gənclik siyasəti ilə birləşdirilir. Bu modeli seçmiş ölkələr sırasına Yaponiyanı, Cənubi Koreyanı, Tailandı, İndoneziyanı aid etmək olar. (Şərti olaraq bu modeli ikinci model adlandırırıq).

Məsələn, Yaponiyada turizm sahəsinin dovlət idarəolunması 6 yanvar 2001-ci ildə yaradılmış Torpaq, İnfrastruktur, Nəqliyyat və Turizm Nazirliyi tərəfindən həyata keçirilir. 1 oktyabr 2008-ci ildə onun tərkibində Yaponiya Turizm Agentliyi yaradılmışdır. [4] Yaponiya hökuməti turizm sahəsi ilə bağlı səylərin möhkəmlənilməsi və gücləndirilməsi üzərində çalışır. Yaponiya Turizm Agentliyi belə səylərin mərkəzi kimi çıxış edən bir qurumdur. Bu qurumun əsas funksiyalarına beynəlxalq turizmin inkişafı, o cümlədən xarici turistlərin Yaponiyaya gəlməsi, ölkədə turist səyahətlərinin yaxşılaşdırılmasına yönəlmiş şəraitlərin yaradılması, Yaponiyada cəlbedici turist istiqamətlərinin yaradılması, turistlərin tələbatlarına uyğun olunması məqsədilə turizm sahələrinin modernləşdirilməsi və s. də daxildir. Onu da qeyd etmək lazımdır ki Yaponiyada 13 dekabr 2006-cı ildə Turizmin Milli İrəliləməsi üzrə Əsas Qanun qəbul olunmuşdur (qanun 2007-ci ilin 1 yanvarından qüvvəyə minmişdir). Bu qanun turizmi 21-ci əsrdə Yaponiya siyasətinin əsaslarından biri kimi qiymətləndirir [**2**]. Bu qanunun 10(4) bəndinə əsasən 2012-ci ildə Yaponiya hökuməti yeni "Turizmin Milli İrəliməsi üzrə Əsas Planı" qəbul etdi [3].

Yaponiya ilə yanaşı bu modeli seçmiş yüksək səviyyədə inkişaf etmiş ölkələrdən Cənubi Koreyanı da göstərmək olar. Bu ölkədə o cümlədən, turizm sahəsində nizamlamanı həyata keçirən və bu sahəyə görə məsuliyyət daşıyan mərkəzi dövlət idarəsi qismində 29 fevral 2008-ci ilə yaradılmış çoxsahəli Mədəniyyət, İdman və Turizm Nazirliyi çıxış edir. Turizm sahəsini bu nazirlikdə Turizm Siyasəti Bürosu və Turizm və Asudə vaxt Siyasəti Bürosu məşğul olur. Turizm Siyasəti Bürosuna Turizm Siyasəti bölməsi, Turizm İndustriyası bölməsi, Beynəlxalq Turizm bölməsi daxildir.Turizm və Asudə vaxt Siyasəti Bürosuna isə Turizm İnkişafının Planlaşdırılması bölməsi, Turizm İnkişafının Dəstəklənməsi bölməsi, Turizm və Asudə vaxt İnfrastrukturu bölməsi daxildir [**5**].

Turizmin ölkə iqtisadiyyatının vacib bir sahəsinə çevrilən ölkələrdən biri də Tailanddır. Belə ki, bu ölkədə turizmdən gələn gəlir ölkə Ümumi Daxili Məhsulun hətta 2007-ci ildə - 6,7 % kimi qalxmışdır. 2014-cü ildə bu ölkəyə 24,7 mln. xarici gəlmişdir. Bundan əlavə, 2015-ci ildə isə ümumiyyətlə, turist sahəsinin artmasına ümid edilir. Belə ki, bu ildə 29 mln. xarici turistin ölkəyə gəlməsi və bunun nəticəsində 2,2 trln. bat (təxminən 66 mlrd. ABŞ dolları) məbləğində gəlirin götürülməsi gözlənilir [6].

Tailandda turizm sahəsinin dövlət idarəetməsini Turizm və İdman Nazirliyi tərəfindən həyata keçirilir. Bu nazirlik 2002-ci ildə yaradılmışdır. Nazirliyin strukturuna turizm sahəsinə rəhbərlik edənTurizmin İnkişafı İdarəsi daxildir.

Bu qurumun əsas məqsədi turist xidmətlərin standartlarının inkişafı və bütövlükdə ölkənin turist gözəgəlimliyini təblig etmək, və həm də turizmin daimi inkişafı üçün şərtlərin yaradılmasından ibarətdir. Bu məqsədə nail olmaq üçün bu qurum bir sıra aşağıda göstərilən səlahiyyətlərə malikdir:

- turist biznesinin qeydiyyatı və sertifikasiyası, o cümlədən icazələrin verilməsi, uzadılması və dayandırılması və ya icazənin və sertifikasiyanın ləğv edilməsi, turist biznesi ilə bağlı olan digər sənədlərin dublikatlarının verilməsi və s.;

- turizm haqqında statistik materialların yığımı, öyrənilməsi, analizi və tədqiqi, turizm sahəsində milli siyasətin və bütövlükdə ölkənin inkişaf planına uyğun olaraq turizmin inkişafında ana xəttin tərtib edilməsi;

- turist xidmətlərinin inkişafı planının hazırlanması, və həm də bu sahədə təsdiq olunmuş planın koordinasiyası, yardım edilməsi və dəstəklənməsi;

- turbiznes üçün inkişaf planının tərtib edilməsi və turist istiqamətlərini və turların qeydə alınması, və həm də qanunla nəzərdə tutulmuş qaydada bu sahədə təsdiq olunmuş planın həyata keçirilməsinin dəstəklənməsi;

- turbiznes operatorların və qidlərin bilik səviyyəsinin artırılmasına kömək və təşviq etmək və həmdə qanunlara və nazirliyin instruksiyalarına uyğun olaraq müvafiq standartların və metodikaların qəbul edilməsi;

- turizmin inkişafı nöqte-nəzərindən monitorinqin aparılması və səmərəliyinin qiymətləndirilməsi;

- turist istehsalatı və xidmətləri sahələrində və həm də onlara yaxın olan sahələrdə kinobiznesin dəstəklənməsi və təşviq edilməsi;

- öz səlahiyyətlərinə uyğun olaraq və ya nazirliyin və ya Nazirlər Kabinetinin tapşırığına əsasən qanunun müddəalarından irəli gələn digər hərəkətlərin edilməsi;

- turist biznesi sahəsində qanuna əməl edilməsinin təmin edilməsi məqsədilə turist biznes operatorların, kommersiya təşkilatlarının fəaliyyətinin yoxlanılması və onların üzərində nəzarətin həyata keçirilməsi;

- qanunun pozulduğu və ya qanunsuz hərəkətlərin edilməsi hallarında araşdırılmaların aparılması;

- turist biznesinin aparılması sahəsində qanuna və həmdə digər müvafiq qanunlara riayət edilməsinin təmin edilməsi. [7]

Bundan əlavə nazirliyə tabe olan Tailand Turizm Administrasiyası (Tourism Authority of Thailand-TAT) 18 mart 1960-cı ildən fəaliyyət göstərir. Onun əsas məqsədi dünya turist bazarlarında Tailandın təbliği ilə məşğul olmaq və ölkədə turizm industriyasının yaradlmasına yardım etməkdən ibarətdir. Hal-hazırda Tailandda bu qurumun 35 yerli (regional) və 27 xarici nümayəndəliyi fəaliyyət göstərir [8]. Onu da qeyd etmək lazımdır ki, TAT haqqında qüvvədə olan və fəaliyyətini nizamlayan qanun 1979-cu ildə qəbul olunmuşdur. [9] Bu qurum qanunun 7-ci maddəsinə əsasən hüquqi şəxs statusuna malikdir. TAT haqqında qanunun 8-ci maddəsinə əsasən bu qurum aşağıdakı məqsədləri güdür:

- turizmin və turizm industriyasına və həm də turizm industriyasında Tailand vətəndaşlarının məşğulluğuna kömək etmək;

- təbiətin gözəlliyi, tarixi yerlər, arxeoloji tapıntılar, tarix, incəsənət və mədəniyyət, idman, texnoloji inkişaf noqte nəzərindən Tailandı reklam etmək, və həm də turistləri cəlb edən digər tədbirləri həyata keçirmək;

- turistlərə əlverişli şəraitlərin yaradılması və onların təhlükəsizliyinin təmin edilməsi;

- turizm vasitəsilə insanlar arasında və ölkələr arasında bir-birlərini düzgün başa düşülməsinə və dostluq münasibətlərin qurulmasına kömək etmək;

- turizmin və infrastrukturun inkişafına və həm də turistlərə əlverişli şəraitlərin yaradılması üçün təşəbbüslə çıxış etmək.

Bu məqsədlərə çatmaq üçün TAT haqqında qanunun 9-cu maddəsinə əsasən bu qurum bir sıra səlahiyyətlə malikdir.O cümlədən TAT:

- turizmin inkişafı nöqte-nəzərindən daxili və beynəlxalq səviyyələrdə dövlət və xüsusi sektor arasında qarşlıqlı fəaliyyət və əlaqələndirmə üzrə məsləhətlər və tövsiyələr verir;

- turist industriyası üçün personalın müəyyən standartlara və kifayət olan səviyyəyə çatdırılması məqsədilə müxtəlif stajirovka və texniki təhsil kursları aparır və ya onların aparılmasına kömək edir;

- öyrənmə xarakterli turların inkişafına kömək edir;

- turist industriyasına dair statistik məlumatların tərtib edilməsi məqsədilə dövlət orqanları, təşkilatları, idarələri, hüquqi şəxslərin və turist industriyası operatorların məlumatlarını toplayır və tədqiq edir;

- kral fərmanına əsasən TAT-ın rəhbərliyi və idarəetməsi altında onları dövlət mülkiyyətində saxlamaq məqsədilə turist obyektləri və resursları kimi sahələri və yerləri müəyyən edir və tədqiq edir;

- müvafiq məsələlər üzrə qanunlara müvafiq olaraq turist obyektlərinin və həm də turist resurslarının və onları əhatə edən mühitin keyfiyyətinin tədqiq edilməsi, planlaşdırılması və tikintisinin həyata keçirilməsi, saxlanılması, bərpa edilməsi, rekonstruksiyası və ya inkişaf etdirilməsi;

- turist industriyasının lazımi səviyyəyə çatdırılması və həmdə turistlər üçün obyektlərin və infrastrukturun və ya turizmin inkişafı məqsədilə investisiyaların təkbaşına və ya digərləri ilə birgə qoyulması;

- ölkə hüdudlarında və ölkə hüdudlarından kənarda zayomların və kreditlərin cəlb edilməsi;

- turist industriyasının inkişafı məqsədilə kreditlərin və ya qiymətli kağızların cəlb edilməsi və s.

Göründüyü kimi, TAT-ın əsas missiyası Tailandı maraqlı turist istiqaməti kimi dünya üzrə təblig etməkdən və ölkə turizm industriyasının inkişafını dəstəkləməkdən ibarətdir. Bunun üçün TAT aparılan tədqiqatlar əsasında marketinq və kommunikasiya strategiyasını tərtib edir və həyata keçirir. Bu isə TAT-ın sərgilərdə iştirak etməsini və həm də turoperatorlarla birgə tədbirlərin keçirilməsini, o cümlədən kütləvi və elektron informasiya vasitələrində reklam kampaniyların keçirilməsini, sosial medya kanallarının və həm də veb-saytlardan istifadə edilməsini nəzərdə tutur.

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, Tailandda turizm sahəsi üzrə dövlət idarəetmə funksiyalarını birbaşa Turizm və İdman Nazirliyi həyata keçirir. Bu nazirliyin strukturuna daxil olan Turizmin İnkişafı İdarəsinin əsas məqsədi turist xidmətlərin standartları və turizmin daimi inkişafı üçün şərtlərin yaradılmasından ibarətdir. Lakin turizm sahəsində konkret olan məsələlər isə TAT-ın səlahiyyətlərinə aid edilir.

Turizmin ölkə iqtisadiyyatının vacib bir sahəsinə çevrilən ölkələr sırasına İndoneziyanı da aid etmək olar. 2010-cu ildə İndoneziyaya baş çəkmiş xarici turistlərin sayı 7 mln. çatmışdır. 2013-cü ildə isə bu ölkəyə 8, 6 mln. xarici turist gəlmişdir, 2014-cü ildə isə onların sayının 9,1 mln. kimi artması gözlənilir. İndoneziyada turizm sektoru işçi yerlərinin 7% və ÜDM 5% təşkil edir.

Turizm sahəsi nizamlanması "Turizm haqqında" 2009-cu ildə qəbul edilmiş və 23 noyabr 2011-ci ildən qüvvəyə minmişdir. [12]

Onu da qeyd etmək lazımdır ki, bu ölkədə turistik fəaliyyətinin nizamlanmasını uzun müddət turizmin dövlət idarəetməsini şərti olaraq ikinci modelinə aid etmək olardı. İlk öncə qeyd etmək lazımdır ki İndoneziyada XX əsrin sonunda, 1990-cı ildə turizmin inkişafı və idarəolunmasına görə cavab verən dövlət orqanı – direktorat yaradılmışdır.[10] Sonralar turizm sahəsinin əhəmiyyətinin artması ilə əlaqədar, o cümlədən bu departament əsasında yeni bir nazirlik – Turizm, Poçt və Telekommunikasiyalar Nazirliyi yaradılmışdır. 1998-ci ilin mart ayında turizm sahəsində dövlət idarəetmə qurumun adı dəyişilərək Turizm, İncəsənət və Mədəniyyət departamenti adlandı. Bundan sonra isə bu qurum Turizm və İncəsənət Dövlət Nazirliyi, 1999-cu ilin oktyabr ayından isə Turizm və Mədəniyyət Nazirliyi adlandı. 2000-ci illərin əvvəllərində prezident Meqavatinin dövründə bu qurumun adı yenidən dəyişdirilərək Mədəniyyət və Turizm Dövlət Nazirliyi oldu. Bundan sonra Susilo Bambang Yudhoyonun prezidentliyinin birinci müddətində nazirliyin adi yenidən Turizm və Mədəniyyət Nazirliyi adlandırıldı. Daha sonra Susilo Bambang Yudhoyonun prezidentliyinin ikinci müddətində nazirliyin adı dəyişdirilərək Turizm və Kreativ İqtisadiyyat Nazirliyi adlandırıldı. Nəhayət, 2014-cü ildə nazirliyin adı Joko Widodo-nun prezidentliyi müddətində yenidən dəyişdirilərək Turizm Nazirliyi adlandırıldı. [11] Nazirliyin əsas funksiyası turizm sahəsində dövlət siyasəti və idarəetməsini həyata keçirməkdən ibarətdir. Turizm Nazirliyi bu ölkənin turizm sektoruna dair milli siyasətin və müxtəlif proqramların hazırlanmasında, həm də ölkədə turizmin inkişafı üçün xüsusi sektorun fəaliyyətinin əlaqələndirilməsində əsas dövlət orqanı kimi fəaliyyət göstərir. Nazirliyin funksiyasına turizm sahəsində inkişaf strategiyasını hazırlamaq marketinqlə bağlı məsələləri nizamlamaq, bu sahəyə investisiyaları cəlb etməkdə yardım göstərmək və s. məsələlər daxildir. Beləliklə, nazirlik çoxsahəli yox bir sahə üzərində, yəni turizm üzərində öz fəaliyyətini qurur. Bu isə turizm fəaliyyətinin nizamlanmasında İndoneziyanın şərti olaraq ikinci modeldən birinci modelə keçməsinə ciddi əsas verir.

Turizm fəaliyyətinin nizamlanmasında ikinci modeli seçmiş ölkələr sırasına Vyetnamı,

Banqladeşi, Əfqanistanı, Myanmanı (Birma), Vanuatunu, Palaunu, Kiribatini də aid etmək olar. Bütövlükdə bu modeli seçmiş ölkələr iqtisadi baxımdan bir birindən fərqlənir. Məsələn, Yaponiya yüksək səviyyəli inkişaf etmiş ölkələr sırasına daxildir. Cənubi Koreya, Tailand yeni industrial ölkələr kateqoriyasına aid edilir. Vyetnam inkişafda olan ölkələr sirasına, Banqladeş, Əfqanistan, Myanma (Birma), Vanuatu, Palau, Kiribati isə az inkişaf etmiş ölkələr sırasına daxildir. Bütün bu ölkələri birləşdirən əsas amil onların turist sektorunun ölkə iqtisadiyyatın vacib bir bölməsinə çevrilməsindən ibarətdir.

Bir sıra digər ölkələrdə isə turistik fəaliyyətinin nizamlanması modelı turizm sahəsində mərkəzi icra hakimiyyəti orqanının olmamasını nəzərdə tutur.

Asiya ölkələrində belə ölkələr sırasına KXDR, Şərqi Timoru, bir sıra Sakit okean adalarında mövcud olan ölkələri (Nauru, Solomon adaları, Tuvalu, Nauru) və Kuveyti aid etmək olar.

Göründüyü kimi, bu modeli seçmiş ölkələr sırasına iqtisadi cəhətdən inkişaf etmiş olkələrlə yanaşı, həm də az inkişaf etmiş ölkələr də daxildir. Birinci halda, fikrimizcə bu modeli seçmiş ölkələr turizmin inkişafı ilə bağlı problemləri yerli (regional) səviyyədə və ya bazar iqtisadiyyatı prinsipləri əsasında təsərrüfat subyektləri (hüquqi şəxslər, turoperatorlar) tərəfindən müstəqil surətdə həll edilməsinə üstünlük verirlər. Onu da nəzərə almaq lazımdır ki, belə ölkələrdə ümumi və turist infrastrukturunun yüksək səviyyədə inkişaf etməsi, ümumiyyətlə turistlərin təhlükəsizliyinin təmin edilməsində effektiv sisteminin mövcudluğu, inkişaf etmiş bank, sığorta xidmətlərin göstərilməsi və həmdə tibbi xidmətlərin yüksək səviyyədə olması vacib əhəmiyyət kəsb edir. Təbii ki, belə halda turizmin idarə edilməsinə dair xüsusi dövlət orqanı olmaya da bilər. Digər tərəfdən belə bir model kifayət qədər inkişaf etməyən və ya turizmin inkişafı üçün kifayət qədər imkanları və vəsaitləri olmayan dövlətlərə xasdır.

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, Asiya ölkələrində turizm sektorunun dövlət idarəetməsi sahəsində müxtəlif modellər mövcuddur. Asiya ölkələrin əksəriyyətində turizm sektorunun dövlət idarəetməsində həm dövlət idarəetməsi və həm də bazar iqtisadiyyatına xas olan nizamlama elementləri birləşdirilir. Bu amil isə, öz növbəsində, turizm sahəsində müxtəlif dövlət idarəetməsi modellərinin yaranması və formalaşdırılmasına gətirir. Belə modellər turizm sahəsində ixtisaslaşdırılmış turizm nazirliklərinin fəaliyyət göstərməsindən turizm səhəsində fəaliyyət göstərən qurumlara (təşkilatlara) regional strukturlar köməyi ilə öz maraqlarını təqdim etmək imkanlarının yaranmasını əhatə edir. İnkişaf etmiş ölkələrdə turizm sahəsində idarəetməyə dövlətin müdaxiləsi minimal ola bilər.

Lakin inkişafda olan dövlətlər və ya turizmin ölkə iqtisadiyyatının vacib olan bir sahəsini təşkil edən ölkələr bu sahədə dövlət idarəetməsini yaratdıqları müxtəlif dövlət orqanları vasitəsilə həyata keçirirlər.

Bütövlükdə isə Asiya ölkələrində turizm sahəsində dövlət idarəetmə modellərinin müqayisəli-hüquqi tədqiq edilməsi Azərbaycanda turizm sahəsində daha effektiv dövlət idarəetmə modelinin təkmilləşdirilməsi prosesinə kömək edə bilər.

## ƏDƏBİYYAT

1. http://tourism.gov.in
2.Tourism Nation Promotion Basic Law// http://www.mlit.go.jp/kankocho/en/kankorikkoku/kihonhou.html
3.The Tourism Nation Promotion Basic Plan// http://www.mlit.go.jp/kankocho/en/kankorikkoku/kihonkeikaku.html
4.About JTA//http://www.mlit.go.jp/kankocho/en/about/index.html
5.Ministry of Culture, Sports and Tourism. Organization Chart// http://www.mcst.go.kr/english/ministry/organization/orgChart.jsp
6.Министерство туризма Таиланда ставит амбициозные цели на 2015 год// http://sayamatravel.com/news/70/ministerstvo-turizma-tailanda-stavit-ambitsioznye-tseli-na-2015-god
7.Ministry of Tourism and Sports//http://www.tatnews.org/ministry-of-tourism-and-sports
8.TAT HISTORY//HTTP://WWW.TOURISMTHAILAND.ORG/ABOUT-TAT
9.Tourism Authority of Thailand Act 1979 http://www.asianlii.org/th/legis/consol_act/taota1979337/
10.Indonesia. Direktorat Jenderal Pariwisata. Jakarta : Koperasi Pegawai Negeri Sipil, Direktorat

Jenderal Pariwisata, [1990]// http://trove.nla.gov.au/work/23361648?q&versionId=28295761
11. Jokowi's Cabinet announced, here is the lineup//The Jakarta Post, Jakarta | National | Sun, October 26 2014.
12. Law Of The Republic Of Indonesia Number 10 Of 2009//http://www.parekraf.go.id/userfiles/file/Pariwisata%20Final.pdf
13. Əliyev Ə.İ., Aslanov E.Z. Beynəlxalq turizm hüququ. Bakı, Çaşıoğlu, 2007, - 440 səh.
14. Агалиева Д.А.Туристская деятельность как объект международно-правового воздействия.// "Azərbaycanda hüquqi dövlət quruculuğunun aktual problemləri: fəlsəfi, sosioloji və hüquqi təhlil və proqnozlaşdırma" II Beynəlxalq elmi konfransın materialları.(Bakı, 23-24 oktyabr 2014-cü il). Bakı,"Teknur", 2014. s. 304-306.

## ABSTRACT

**Dinara Agaliyeva**

**Legal aspects of models regulation of tourist activity in asian countries**

The author considers the topical issues of legal aspects of the model regulation of tourist activity in asia. Based on the study of the legislation of various asian countries in the field of tourism, the author identifies several models of state regulation of tourist activities in Asia.

## РЕЗЮМЕ

**Динара Агалиева**

**Правовые аспекты моделей регулирования туристской деятельности в странах Азии**

В статье автор рассматривает актуальные вопросы правовых аспектов моделей регулирования туристской деятельности в странах Азии. На основании проведенного исследования законодательства различных азиатских стран в сфере туризма, автор выделяет несколько моделей государственного регулирования туристской деятельности в странах Азии.

NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).
Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor M. Rzayev*

**RƏŞADƏT YAQUBLU**

*Naxçıvan Dövlət Universiteti*

***UOT:101***

# DAVAMLI İNKİŞAF KONSEPSİYASININ FƏLSƏFİ MAHİYYƏTİ

***Açar sözlər:*** *davamlı inkişaf, dialektik ziddiyyət,insan təbiət münasibətləri, təbii resurslar, noosfer.*

***Key words:*** *sustainable development, dialectical contradiction, relations between human nature, natural resources, noosphere.*

***Ключевые слова****: устойчивое развитие, диалектический противоречие,отнощение человек,природные ресурсы, ноосфера*

Bəşəriyyət tarixində XX əsr, onda baş vermiş dramatik hadisələrin zənginliyinə görə əvvəlki bütün dövrlərdən kəskin fərqlənir. Belə hadisələrə: iki dünya müharibəsi; totalitar rejimlərin qurulması; tərəqqi, rasionallıq və humanizm ideyalarının böhranı; nəhəng iqtisadi kataklizmlər; texnologiyaların sürətli inkişafı və sənaye istehsalının əvvəllər müşahidə olunmamış artımı; eyni zamanda insan zəkasının məhsulu olan və xoş məramlı məqsədlərə xidmət üçün yaradılmış texnikanın nüvə təhlükəsi, qlobal ekoloji böhran və təbii ehtiyatların tükənmə səbəbi və mənbəyinə çevrilməsini nümunə kimi göstərmək olar.

Artıq XX əsrin ortalarında müasir texnologiyalarla silahlanmış iqtisadiyyatın gücü yaradıcılıqdan dağıdıcı gücə çevrilməyə başlayır. Məlum olur ki, təbii ehtiyatlar heç də sonsuz deyil və onların özünü bərpası uzunmüddətli prosesdir. İqtisadi artımın belə davam edəcəyi halda bəşəriyyətin qlobal böhranla–sosial-siyasi, iqtisadi və ekoloji böhranla üzləşməsi labüd olacaq. Nəticədə dünya, yaxınlaşmaqda olan böhranı zərərsizləşdirəcək yeni inkişaf modellərinin formalaşmasdırılması zərurəti ilə üz-üzə qalır. Belə inkişaf modellərindən biri də davamlı inkişaf konsepsiyası olmuşdur.

Yuxarıda qeyd etdiyimiz böhranlı situasiyaların nominal təhlili onları ən ümumi şəkildə "təbiət-insan" münasibətlərinin nəticəsi kimi təsnif etməyə imkan verir. Lakin, onu da xüsusi qeyd etmək lazımdır ki, bu münasibətlərin böhranlı situasiyaya düşməsi bütövlükdə heç də XX əsrdə baş verməmişdir.

"İnsan-təbiəti" münasibətlərində dayanıqlığın pozulması qədim tarixə malikdir. Belə fərz olunur ki, təqribən 12 min il əvvəl, pleystosen epoxasının sonunda ovçu və yığıcı tayfaları təbii ehtiyatları ciddi şəkildə tükətmişdir. Məhz onların fəaliyyəti nəticəsində bir sıra heyvan növləri, o cümlədən meqafaunanın nümayəndələri hesab olunan mamontlar, nəhəng ərinçəklər, yunlu kərkədanlar və əcdadlarımız üçün qida mənbəyi olan digər nəhəng məməlilərin nəsli kəsilmişdir.

Sonrakı minilliklərdə də, xüsusilə yerin şumlanması və kotanın ixtirasından sonra da ərtaf mühitin istismarı daha intensiv xarakter almışdır: meşələr qırılmış, torpaqlar eroziyaya məruz qalmışdır. Gəmiçilik sənətinin inkişafı meşələrin daha amansız qırılmasını şərtləndirmişdir.

Yeni dövrdə təbiətin demistifikasiyası baş verir -artıq təbiət cansız obyektlərin məcmusu kimi qavranılır. İnsan təbiətin bir hissəsi kimi yox, müstəqil subyekt hesab edilir. Məsələn, fransız filosofu R.Dekart əsərlərində insanın digər təbii obyektlərdən prinsipial fərqi haqqında geniş söhbət açmışdır.İngilis iqtisadçısı Adam Smitin əsərləri isə iqtisadiyyatın müstəqil fəaliyyət sferası kimi anlaşılmasının əsasını qoyur. Əslində bütün bunlar ilk öncə pozitiv nəticələr vermişdir. Belə ki, XVII-XIX əsrlərdə iqtisadi istehsalın inkişafı çoxsaylı insanların maddi tələbatlarının ödənməsinə, planet əhalisinin sürətli artımına (1750-1800-cü illərdə dünya əhalisi 760 mln.-dan 1mlrd. qədər artmışdır) gətirib çıxarmışdır. Lakin çox keçmir ki, ekstensiv iqtisadi artım öz neqativ cəhətlərini göstərir. Məhz bu neqativ amillərin aradan qaldırılması davamlı inkişaf konsepsiyasının yaranmasını şərtləndirmişdir.

Davamlı inkişaf konsepsiyasının mahiyətinə yanaşmalar müxtəlifdir. "Davamlı inkişaf" anlayışı meydana gəldiyi ilk gündən ona fərqli təriflər verilmiş və bu proses indi də davam etməkdədir. **"Davamlı inkişaf" anlayışına ilk tərif xanım Brutlandın rəhbərliyi altında hazırlanmış "Bizim ümumi gələcəyimiz" adlı məruzədə öz əksini tapmışdır:** "Davamlı inkişaf – bu elə bir inkişafdır ki, indiki zamanın tələbatlarını ödəyir, lakin gələcək nəsillərin öz tələbatlarını təmin etmək qabiliyyətini təhlükə altında qoymur. O iki əsas anlayışı ehtiva edir:

-tələbatlar anlayışı, xüsusilə birinci dərəcəli məsələ kimi, əhalinin yoxsul təbəqələrinin mövcudluğu üçün zəruri olan tələbatlar;

-ətraf mühitin indiki və gələcək tələbatları ödəmək qabiliyyəti üzərinə qorulan, texnologiyaların vəziyyəti və cəmiyyətin təşkili ilə şərtlənən məhdudlaşdırma anlayışı". (1, s.50)

Brutland komissiyanın təklif etdiyi bu tərif tədqiqatçıların böyük əksəriyyəti tərəfindən qəbul edilsə də, o praktiki fəaliyyət üçün konkret yol göstərməkdən daha çox strateji məqsədləri göstərir. Məhz bu səbəbdən ona yeni təriflərin verilməsi bu gün də davam edir. Əgər 1989-cu ildə bu anlayışa 30-a yaxın tərif verilmişdirsə, hal-hazırda onların sayı 100-dən çoxdur.(2) Davamlı inkişaf anlayışının məzmununun aydınlaşdırılması məqsədilə ona verilmiş digər tərifləri də nəzərdən keçirək.

Rus tədqiqatçısı A.B.Veberə görə bu anlayış "insan cinsinin mövcudluğunun təbii şəraitini dağıtmayan sosial inkişafı işarələmək üçün verilmişdir".(3, s.1058) **Onun fikrincə, bu konsepsiya təbii ehtiyatların tükənməsi, ətraf mühitin vəziyyətinin pisləşməsi və dünyada zənginlik və yoxsulluğun qütbləşməsi ilə əlaqəli sənayeləşmənin qlobal böhranına reaksiya kimi yaranmışdır.** Digər bir tərifdə isə gösətirir ki, "davamlı inkişaf bəşəriyyətin elə inkişafıdır ki, onda indiki nəsillərin tələbatı gələcək nəsillərə zərər yetirmədən ödənilir; bu həm də cəmiyyətin balanslaşdırılmış idarəedilən inkişafı olub özünün təbii əsaslarını dağıtmadan sivilizasiyanın davamlı tərəqqisini təmin edir" (4, s.1068).

Davamlı inkişaf anlayışına verilmiş təriflərin müxtəlifliyi, təkcə subyektiv səbəblərlə izah edilə bilməz. Bu ilk növbədə onunla əlaqədardır ki, "davamlı inkişaf" anlayışı insan fəaliyyətinin müxtəlif sahələrinə tətbiq edilir. Deməli, onun tətbiq edildiyi sahələrin xüsusiyyətlərindən asılı olaraq, verilmiş təriflər də müxtəlif çalar və təfsirə malik olur. Burada "davamlı inkişaf"anlayışının etimoloji təhlilinə ehtiyac yaranır.

Məlum olduğu kimi bu anlayış ingilis dilində "sustainable development" söz birləşməsinin dilimizə tərcüməsidir. Lakin, "sustainable" sözü həm də uzunmüddətli, kəsilməz, davamlı, sabit, balanslaşdırılmış, tarazlıq kimi də tərcümə oluna bilər. Rus dilinə isə bu termin "устойчивый" kimi tərcümə olunur. Lakin bu tərcümə tədqiqatçılar tərəfindən uğurlu tərcümə kimi qəbul edilmir. Çünki, Azərbaycan dilində tərcümədə "dayanıqlı" anlamı verən rus dilində "устойчивость" sözü "inkişaf" anlayışı ilə ziddiyyət təşkil edir. Belə ki, inkişaf onun baş verdiyi sistemin öz tarazlıq halından çıxmasını, dayanıqlığın pozulmasını tələb edir. Məhz bu baxımdan hesab edirik ki, "davamlı inkişaf" anlayışı ən uyğun tərcümədir. Sadəcə, bütövlükdə onun mahiyyətinin aşkarlanması və şərh edilməsi, eyni zamanda bu anlayışın fəlsəfi təhlilini zəruri edir.

Bir çox tədqiqatçılar davamlı inkişafa Kainatın qanunu kimi baxırlar. Bu qanun Kainatda baş verən bütün proses və hadisələrin fundamental xassəsi kimi qəbul edilir: dinamik tarazlıq, sabitlik və dəyişkənlik arasında mövcud uyğunluğu səciyyələndirir. Yəni, gerçəklikdə mövcud olan hər şey öz-özlüyündə yox, müəyyən dəyişikliklər məcmusuna münasibətdə sabit olurlar və əksinə, predmet və hadisələrin dəyişkənliyi zəruri olaraq varlığın sabitliyini ehtiva edir. Çünki, əslində dəyişmə prosesi dayanıqlı (konkret) subistansiyanın özünü aşkarlamasıdır.

Burada "inkişaf" kateqoriyası da öz fəlsəfi təhlilini tapmalıdır. Məlum olduğu kimi "inkişaf – geri dönməz keyfiyyət dəyişikliyidir... O, proqressiv, yəni obyektin nizamlılığı və mürəkkəbliyinin artması ilə və reqressiv, yəni obyektin deqradasiyası, dağılması ilə baş verə bilər".(5, s.285) Deməli, inkişaf minumum iki bir-birinə zidd yolla gedə bilər: dəyişkənlik və sabitlik, xaos və nizam, inqilab və təkamül. İnkişafın vəhdətdə və mübarizədə olan bu iki məqamında davamlı inkişaf əsas diqqəti təkamülə, harmoniya və dəyişikliklərin istiqamətliliyinə yönəldir. Belə inkişaf üçün xaos və fəlakətə zidd olaraq strukturların nizamı və təhlükəsizliyi, həyatın davamı və özünüqoruma fəaliyyəti səciyyəvidir. Beləliklə, davamlı inkişaf –bu sistemin

yaradıcı təkamülü olub, sistem daxilində baş verən hər bir dəyişikliyi onun dinamik tarazlığından çıxarmır.

Deyilənlər özünü inkişafın dialektik konsepsiyasında daha aşkar şəkildə göstərir. Məlum olduğu kimi inkişafın dialektik konsepsiyasının əsas prinsipi ziddiyyət prinsipidir. Dialektik ziddiyyət deyildikdə isə inkişaf edən obyektin eyni zamanda bir-birini həm ehtiva, həm də istisna edən tərəflərinin münasibəti başa düşülür. Bu isə aksliklərin harmoniyasını göstərir. Davamlı inkişafın dialektikasını da daha aşkar formada harmoniya anlayışı ifadə edir.

Qədim yunan filosofu Heraklitə görə harmoniya daxili əlaqə, gizli sövdələşmə, daha doğrusu tarazlıq olub əks təsirdə olan qüvvələrin hər zaman zəifləməyən qarşılıqlı münasibətindən törəyir. Ən ümumi dünya nizamını (kosmos), simvolizə edən Heraklit çay obrazı ilə ("panta reya") varlığın iki əks aspektini ifdə edir: şeylərin dəyişməsi və onların sabit qalması. Yəni öz-özünə eyni qalmalı olan çay daim axmaqda davam etməlidir. Bu isə onu bildirir ki, bütün predmetlər öz-özü ilə eyniyət halında qalır, eyni zamanda daimi dəyişmədədir, daha doğrusu əksiliklərin vəhdətini əks etdirir. Predmetlərin (ən ümumi anlamda) gizli harmoniyası ilahi nizamdır, onun pozulması yol verilməzdir. Əks halda ədalətli cəza qaçılmazdır. Bütün qədim yunan fəlsəfəsində olduğu kimi Heraklitin də fəlsəfəsində kosmik ədalət anlayışı hökmrandır. Kosmik ədalət isə "əksliklərin mübarizəsinin nə vaxtsa bir tərəfin tam qələbəsi ilə başa çatması imkanının qarşısını alır". (6, s.57)

Kosmik prinsip kimi götürülən ədalət tarazlığı ifadə etməklə yanaşı həm də bütün mövcudatın ölçü müəyyənliyini ifadə edir. Bu ölçünün pozulması isə yol verilməzdir və əks təqdirdə cəza labüddür. Ölçü qanunu kimi başa düşülən ədalət kosmik nizamın ayrılmaz səciyyəsidir. Ölçü qanunun sosial mahiyyəti, fikrimizcə insanın rasional tələbatlarının öyrənilmə dərəcəsini əks etdirir. Burada belə bir nəticəyə gəlmək olar ki, əslində cəmiyyətin davamlı inkişaf problemi elə ədalət problemidir.

Deməli, davamlı inkişaf qanunu həm də kosmik ədalət qanunudur. Əslində dünyada, daha doğrusu Marksın təbirincə desək, "birinci təbiətdə" bərabərlik və ahəngdarlıq hökmrandır. Bu isə öz növbəsində orada nizam və ədalətin mövcudluğunu təmin edir. Bu ədalətli düzən heç vaxt pozula bilməz. Qədim yunan filosofu Anaksimandra görə predmetlər "zamanın düzəninə" uyğun olaraq ədalətsizliyə görə cəzalandırılır.(7, s.118) Lakin insanın mövcud olub yaşadığı cəmiyyət dayanıqsız, harmoniyasız və ədalətsizdir.

İnsan cəmiyyəti ilə kosmik düzən arasında ciddi disharmoniya hökm sürür. İnsan varlığının harmoniyalaşdırılması, onun kosmik nizamla, təbiətin nəhəng dinamikası ilə uzlaşdırılması zəruridir. Deməli, cəmiyyətin davamlı inkişafı üçün həm cəmiyyət daxilində, həm də cəmiyyət-təbiət münasibətlərində harmoniya bərqərar olunmalıdır. Xanım Brutlandın rəhbərliyi altında yazılmış məruzədə də belə qeyd olunur :"davamlı inkişaf strategiyası insanlar arasında, cəmiyyət və təbiət arasında harmoniyanın əldə edilməsinə istiqamətlənib".(1, s.68)

Adı çəkilən məruzədə öz əksini tapmış prinsipərə görə cəmiyyətin davamlı inkişafı bütün mümkün münasibətlərdə balanslaşdırılmış inkişaf kimi başa düşülür. Aydındır ki, belə inkişaf ədalət prinsipi olmadan düşünülə bilməz. Konsepsiyada əksini tapmış dünya düzəni probleminə yeni yanaşma da tarixi prosesdə ədalətin yeri və rolunun anlaşılması ilə bağlıdır. Məruzədə "Ədalət və maraqların birgəliyi" adlı yarımfəsildə deyilir ki: "Beləliklə, bizim davamlı inkişaf prosesi üçün zəruri olan ümumi maraqlar konsepsiyasını etiraf və qəbul edə bilməməyimiz ölkə daxilində və ölkələr arasında iqtisadi və sosial ədalətə münasibətdə biganəliyin nəticəsidir".(1, s.55) Tarixi təcrübə göstərir ki, ədalət prinsipinin bərqərar olmadığı cəmiyyətlərdə davamlı inkişafa nail olmaq mümkün deyil. Davamlı inkişaf konsepsiyasının əsas səciyyəvi xüsusiyyətlərindən biri də odur ki, onda ədalət qayğısı gələcək nəsilləri də özündə ehtiva edir.

Davamlı inkişaf konsepsiyasının fəlsəfi təhlili zamanı bir çox hallarda rus tədqiqatçısı akademik V.İ.Vernadskinin noosfer haqqında təliminə müraciət edirlər. Bunun üçün "cəmiyyətin süni qurulmuş noosfer inkişafı" prinsipi müəyyənləşdirilir. Noosferogenez sosial məkanda insanların bütün fəaliyyətini və bütün istehsal vahidlərini nəzarətdə saxlamağa və tənzimləməyə imkan verəcək idarəetməyə keçid kimi təfsir olunur. Burada "noosfer" anlayışına aydınlıq gətirilməsi zəruridir. "Ümumiyyətlə V.İ.Vernadski noosfer dedikdə zəka sferasını, kommunizmin planetar analoqunu, təbiət və cəmiyyətin harmonik qovuşmasını, zəka və humanizmin təntənəsini,

elm, ictimai inkişaf və dövlətin vəhdətləşməsini, bəşəriyyətin elmin nəhəng gücünə inamının gerçəkləşdiyi silah, müharibə və ekoloji problemlərin olmadığı dünyanı nəzərdə tuturdu. Vernadski hesab edir ki, bütün insanların birliyi və bərabərliyinin dərki ilə əlaqədar olan təbiətin mənimsənilməsi və sərvətlərin düzgün paylanması üçün planlı, vahid fəaliyyət məsələsi bəşəriyyətin əsas məsələsi olmalıdır" (8, s.104-105). Demək olar ki, cəmiyyət total rasionallıq prinsipi üzrə idarə olunan nəhəng maşına bənzədilir. Davamlı inkişaf problemi isə təşkilatı-texniki məsələyə, cəmiyyətin ideal təşkilinə gətirilir. Bu texniki konsepsiya faktiki olaraq hipotetik "noosfer" demokratiyası ilə özünəməxsus texnoloji totalitarizm arasında sərhədləri aradan qaldırır.

Noosfer strategiyasının başqa bir variantını təşkil edən nəzəriyyə isə davamlı inkişafa keçidi bəşəriyyətin kosmosa kütləvi çıxışı ilə əlaqələndirir. Lakin belə baxışlar daha çox futuroloji səciyyə daşıyır və ciddi praktiki əhəmiyyətə malik deyil.

Hər bir cəmiyyətin davamlı inkişafının mahiyyətin aşkarlanması üçün ona sistemli yanaşma vacibdir. Belə ki, hər bir sistemin davamlı (yaxud, dayanıqlı) olması onun hansısa mahiyyət invariantını qoruyub saxlaması deməkdir. Yəni cəmiyyətin bir sistem olaraq heç bir xassəsi, ondakı münasibətlər, altsistemlər, bir sözlə bütövə immanent olan heç bir element təhlükəyə məruz qalmır. Göründüyü kimi davamlı inkişafın belə təfsiri davamlılığın ( və yaxud dayanıqlığın) kibernetik anlaşılmasına və onun riyazi formallaşdırlmasına uyğun gəlir. Ən ümumi halda, yəni, özündə canlı elementlər saxlayan bütün maddi sistemlər halında bunu sistemin yaşamasını qoruyub saxlaması kimi şərh etmək olar. Belə yanaşmada sivilizasiya üçün davamlılıq, demək olar ki, sağ qalmağın sinoniminə çevrilir.

Davamlı inkişaf konsepsiyası kompleks konsepsiya olub müasir dövrün daha kəskin problemlərinə cavab verməyə cəhd göstərir. Burada əsas diqqət sosial, ekoloji və iqtisadi problemlərin kompleks həllinə yetirilir. Bu özünü həm də dünyagörüşü səviyyəsində göstərir. Yəni, dünyagörüşünün yeni modeli kimi çıxış edən davamlı inkişaf konsepsiyası qlobal perspektivdə ətraf mühitin sosial, ekoloji, və iqtisadi ölçülərini birləşdirməyə cəhd göstərir. Bu model ayrı-ayrı fərdlərin tələbatlarını ödəməyə deyil, ən ümumi rifahın əldə edilməsinə doğru istiqamətlənmişdir. Cəmiyyətin əsas vəzifəsi, təkcə resursların istehlakının azaldılması yox, həm də istehlakın strukturunun dəyişdirilməsi olur. Davamlı inkişaf konsepsiyasının əsas məqsədi isə bütövlükdə bəşəriyyətin sağ qalması və ayrı-ayrılıqda hər bir insanın həyat keyfiyyətinin yüksəldilməsi olur.

## ƏDƏBİYYAT


1. Наще общее будуще: Доклад Международной комиссии окружаюшей среде и развитию (МКОСР). М., Прогресс, 1989, 376 с.
2. Стратегия и понятие устойчивого развития // http://www.ustoichivo.ru.
3. Вебер А.Б. Устойчивое развитие: Глобалистика, Энциклопедия. М., Радуга, 2003, 1058
4. Урсул А.Д. Устойчивое развитие: Глобалистика: Энциклопедия. М., Радуга, 2003, с. 1068
5. Философия: учебник для бакалавров. М.: Издательство Юрайт, 2012, 561 с. (с.285)
6. Рассел Б. История западной философии и ее связи с политичекими и социальными условиями от античности до наших дней. М.; Акад. Проект, 2000, 768 с.( С.57)
7. Фрагменты ранних греческих философов. Част I. От эпический теокосмогоний до возникновения атомистики. М., Наука, 1989, 578 с. (с.118)
8. Миркин Б.М., Наумов Л.Г. Устойчивое развитие. М.: Университетская книга, 2006, 312 с, (с. 104 -105).


## ABSTRACT


**Rashadat Yaqublu**



Philosophical analysis of the globalization process is investigated in this article. Definitions given to it were analyzed comparatively and the idea existing here is mentioned as the reasons of pluralism. The essence of objectors of the globalization - anti-globalists movement is clarified,

unilateral character of their position, as well as globalization being objective and historical process is grounded here.

It is noted that, every society should be approached systematically to find out it essence of sustainable development. Conception of sustainable development is comprehensive conception, attempts to meet more acute issues of the modern time. Different definitions given to the development conception were analyzed in the article.


**РЕЗЮМЕ**

**Рашадет Ягублу**

**Философская сущность концепции устойчивого развития**

В статье исследуется социально-философская сущность концепции устойчивого развития. Прежде всего, здесь излагаются социально-исторические факторы, которые влияют на возникновение концепции устойчивого развития. Для определения его социально-философской сущности, представляются категории развития диалектики. В то же время уделяется внимание на то, что устойчивое развитие носит комплексный характер и представлено, как новая модель мировоззрения.

Отмечается, что для выявления значимости устойчивого развития общества необходим системный подход. Концепция устойчивого развития стала всесторонней концепцией, и может отвечать на многие вопросы проблем современного мира.

В статье были проанализированы различные определения концепции устойчивого развития.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor M. Rzayev*

**SƏBUHİ İBRAHİMOV**
*Naxçıvan Universiteti*
E-mail: s.ibrahimov71 @mail.ru

***UOT:008.39***

# AZƏRBAYCANDA DİNİ MÜXTƏLİFLİLİK VƏ MULTİKULTURALİZM

***Açar sözlər:*** *Azərbaycan, multikulturalizm, sivilizasiya, mədəniyyət, tolerantlıq.*
***Key words*****:** *Azerbaijan, civilization, culture, tolerance, multiculturalism.*
***Ключевые слова:*** *Азербайджан, мультикультурализм, цивилизации, культура, толерантность.*

Azərbaycan xalqı əsrlər boyu qeyri-müsəlman xalqlarla birgə mehriban yaşamış, yaratmış və indinin özündə də öz tolerantlıq və multikultural dəyərləri ilə fəaliyyətini uğurla davam etdirir. Azərbaycan Respublikası yenidən müstəqilliyini bərpa etdikdən sonra ikinci dəfə siyasi hakimiyyətə gələn ümummilli lider Heydər Əliyev bu adət-ənənələri lazımınca qorunub saxlanılmasına nail olmuşdur.

Ümummilli lider Heydər Əliyev təkcə Azərbaycanda İslam dininin sərbəst fəaliyyətinin qaranti olmamış, eyni zamanda Azərbaycandakı üç İlahi dinin mövcudluğunun təminatçısı idi.

Elə bunun sayəsində də ulu öndərin uzaqgörən, düzgün siyasətinin nəticəsidir ki, çağdaş doğma Azərbaycanımızda dini zəmində heç bir neqativ hal, narazıçılıq, xoşagəlməyən ixtişaş olmamış və ümid edirik ki, bundan sonra da olmayacaqdır. Bir çox başqa ölkələrdən fərqli olaraq Azərbaycanda müsəlmanlar, xristianlar və yəhudilər daim dostluq, mehribanlıq, səmimi əməkdaşlıq şəraitində yaşamış və yaşamaqdadırlar. “Ulu öndər Heydər Əliyev doğma Azərbaycanımızda məqsədyönlü incə siyasətə nail olmaqla elə gözəl ab-hava yaradıb ki, ölkədə mövcud olan bütün dini qurumlar və multikultural dəyərlər dostluq telləri ilə bir-birinə möhkəm bağlanmışdır. Bu Azərbaycanda dini müxtəliflilik və multikulturalizm əlaqələrini eyni amal, eyni arzu-istək ideyalarını birləşdirir” (4, s. 15).

İudaizm, Xristianlıq, İslam Allahın bəşəriyyətə olan mərhəmət töhfəsidir. Onları bir-birinə qarşı qoymaq, hər hansı nöqsan aramaq əvəzinə qorumaq, ürəklərdə bəsləmək lazımdır, çünki qeyri-təkmil din yoxdur, onun ehkamlarının, müddəalarının təhrif edilməsi, səhv dərk olunması vardır. Dünyanın ekstremizm və terrorizmdən lərzəyə gəldiyi bir vaxtda bu təzahürlərin İslamla eyniləşdirilməsinə yol verməmək xüsusilə vacibdir. Bu bir həqiqətdir ki, ölkəmizdə bütün mühüm dini mərasim və tədbirlərdə dini icmaların başçıları – şeyx, yepiskop və ravvin həmişə birlikdə iştirak edir, birgə fəaliyyət göstərirlər. Elə həmin siyasətin mühüm nəticəsidir ki, ölkə rəhbəri cənab İlham Əliyev tərəfindən Azərbaycanda 2016-cı il “Multikulturalizm” ili elan edilmişdir. Budur, Azərbaycanda aparılan siyasi müdrikliyin bəhrəsi!

Azərbaycanda dini müxtəliflilik və multikulturalizm siyasəti istər ulu öndər Heydər Əliyev tərəfindən, istərsə də onun siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyev tərəfindən çox yüksək səviyyədə həyata keçirilir. Heç də həqiqəti danmaq olmaz ki, dində və siyasətdə incə mətləblər həddindən artıq çoxdur. Bu mətləbləri dərindən duymaq zəngin elmi dünya-görüş, adət-ənənələrə dərindən bələd olmaq, xalqların psixologiyasını mükəmməl bilmək, dövrün, zamanın ab-havasını duymaq, cəmiyyətin gələcək inkişaf yollarında ən mütərəqqi amilləri görmək çox vacibdir. İstər ümummilli lider Heydər Əliyev ideyalarında, istərsə də ölkə başçısı möhtərəm İlham Əliyev duyumunda bu məharət ən yüksək səviyyədə öz bariz nümunəsini bir daha göstərməkdədir.

Təsadüfü deyil ki, dünyada ölkəmizi dini tolerantlıq nümunəsi adlandırırlar. Odlar yurdu doğma Azərbaycanımızda ta qədimdən bütün mövcud dinlərə mənsub insanlar dini ayinlərini rahat həyata keçirir, yerli müsəlman əhalisi tərəfindən heç bir narazılıq, yaxud düşmənçiliklə qarşılaşmırlar. Burada müxtəlif xalqların, o cümlədən konfessional qrupların nümayəndələri

arasında müxtəlif zəruri olan hadisələr heç zaman qadağan olunmamışdır. Bu faktlar İslam dünyasına mənsub olan azərbaycanlıların böyük müdrikliyindən, xeyirxahlığından xəbər verir. "İnsanın həyat fəaliyyətinin təkmilləşməsi, qloballaşmadan yaranan yeni tələblər, dövlət və cəmiyyətin inkişafı, yeni texnologiyalardan düzgün istifadə üçün şəxsiyyət və liderlərin hazırlanmasına olan ehtiyac siyasi, sosial-iqtisadi və beynəlxalq proseslərin sistemli kulturoloji təhlilinə xüsusi ehtiyac yaratmış, bu isə, öz növbəsində humanitar elmlərin qovşağında yaranan bu sintezli elm sahəsinin əhəmiyyətinin artmasına səbəb olmuşdur. Kulturoloji tədqiqat, təhsil və maarifçilik olmadan balanslaşdırılmış siyasət və effektli dövlət idarəçiliyi, rəqabətqabiliyyətli iqtisadiyyat və yüksək sosial etika, beynəlxalq münasibətlər və dünyada mədəniyyətin bərqərar olmasını təsəvvür etmək mümkün deyil" (5, s. 7).

Müasir dövrdə dünyada bəzi separatçı qruplaşmalar bir çox hallarda öz fəaliyyətlərinə bəraət qazandırmaq məqsədilə dini amildən istifadə edirlər. Belə bir şəraitdə bəşər sivilizasiyasının müxtəlif mədəniyyətlərinin qorunması üçün dinlər və mədəniyyətlər arasında dialoqun yaranması böyük əhəmiyyət kəsb edir. Bu baxımdan tolerantlıq və dözümlülük ənənələri zəngin olan ölkə və regionların təcrübəsi nümunə ola bilər. Azərbaycan bir çox millətlərin və dini konfessiyaların dinc yanaşı yaşamasının unikal nümunəsidir. "Multikultural dəyərləri müxtəlif mədəniyyətlərə, dinlərə, sivilizasiyalara tolerant münasibət şərtləndirir" (1, s. 6).

Azərbaycanda dini müxtəliflilik və multikulturalizm fəlsəfəsinin geniş səpkidə araşdırılması günün ən aktual mövzularından biridir. Çünki eramızın birinci yüzilliyinin ortalarında xristianlığın ilk ardıcılları Azərbaycana pənah gətirmiş və sonradan burada yaranan Alban Aftokefal kilsəsinin əsasını qoymuşlar. İslamın Azərbaycana gəlişi ilə dini dözümlülük ənənələri daha da möhkəmlənmişdir. Müsəlman tolerantlığının əsasını Qurani-Kərimin müxtəlif surə və ayələri təşkil edir: "Dində məcburiyyət yoxdur" ( Bəqərə surəsi – 256).

Dini müxtəliflilik və multikuturalizm ətrafında təhlillər apararkən qeyd etmək lazımdır ki, müasir Azərbaycan Respublikasında dövlət-din münasibətləri modeli çərçivəsində bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir. Ölkə vətəndaşlarının əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarının təmin olunması ilə yanaşı dövlət respublikada yayılmış digər dinlərə də qayğı göstərir. Belə ki, 1920-ci ildə bağlanaraq fəaliyyətin dayandıran Jen Mironosets baş kilsəsinin binası 1991-ci ildə Rus Pravoslav Kilsəsinə verilmişdir. Azərbaycanda səfərdə olan Moskvanın və bütün Rusiyanın Patriarxı II Aleksey 27 may 2001-ci il tarixdə bu məbədi müqəddəs elan etmiş və ona baş kafedral kilsə statusu vermişdir. Bundan başqa, 1999-2001-ci illərdə paytaxtda digər pravoslav məbədi-Müqəddəs Məryamın Miladi baş kilsəsi bərpa olunmuşdur. Məhz bunun sayəsində də Azərbaycanda bərabərlik tərzi stabil olaraq qalır və qalmaqda davam edir. "Qərbin bir ideologiya olaraq baxdığı multikulturalizm bir çox yerlərdə, o cümlədən Azərbaycanda həyat tərzi olaraq qəbul olunur. İnsanlar minillər boyu yaşadıqları çox mədəniyyətli həyatı bir zənginlik kimi qəbul edirlər" (1, s. 6-7).

Dini müxtəliflilik və multikultural dəyərlər respublikada qədim ənənələrə malik olan yəhudi icmasının mədəni irsi də Azərbaycan hökumətinin qayğısı ilə əhatə olunmuşdur.

Azərbaycanda 2016-cı ili "Multikulturalizm" elan edilməsi bir növ ölkə daxilində antisemitizmə heç zaman yer olmadığını bəyan edir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 15 noyabr 1998-ci il tarixdə yəhudi icmaların rəhbərləri ilə keçirilən görüşdə qeyd edərək deyirdi: **"Respublikada belə hadisələr baş vermir və biz onların yaranmasına heç vaxt imkan verməyəcəyik"** (7, s. 46). Azərbaycanın dinlərarası dialoq və əməkdaşlıq sahəsində nadir təcrübəsi xaricdə yüksək qiymətləndirilmiş və tanınmışdır. Buna əsaslı dəlil olan – Roma-katoliq Kilsəsinin sabiq başçısı II İohann Pavelin respublikaya etdiyi tarixi səfəridir (22-24 may 2002-ci il). Bakıda olarkən pontifik Azərbaycandakı tarixi dözümlülük ənənələrini və multikutural dəyərlərə verilən önəmi xüsisi qeyd etmişdir. Bu da bir tarixi faktır ki, Roma hakimiyyəti tərəfindən vaxtilə təqib olunan xristianlar məhz Azərbaycanda sığınacaq tapmışdılar.

Belə ki, Rum patriarxı I Varfolomey 2003-cü il aprelin 16-dan 18-dək Azərbaycanda rəsmi səfərdə olmuşdur. Onun haqlı etirafına görə, respublikamızdakı dövlət-din konfessiyalar münasibətləri, habelə ənənəvi və qeyri-ənənəvi dini konfessiyalar arasındakı mövcud münasibətlər nümunəvidir. O demişdir: "Mən buradakı tolerantlığın səviyyəsindən məmnunam. Azərbaycanda

hər kəs istədiyi dinə etiqad edir, istədiyi kimi ibadət edə bilir” (7, s. 46).

Dini müxtəliflilik və multikulturalizm dəyərləri ilə yanaşı, İslami dəyərlər də Azərbaycanda öz yüksək məna çalarların fəlsəfi cəhətdən büruzə verməkdədir. Belə ki, “İslam sivilizasiyası Qafqazda” mövzusunda keçirilən Beynəlxalq simpoziumda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev çıxış edərək demişdir: **“Dünyada bir çox böyük dinlər mövcuddur. Hər dinin özünəməxsus yeri var. Biz azərbaycanlılar İslam dini ilə fəxr edərək, eyni zamanda heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq İslam dəyərlərinin xüsusiyyətidir. Bu, tarix boyu Azərbaycanda da, Qafqazda da öz əksini tapıbdır. Azərbaycanda İslam dini ilə yanaşı xristian dini də, yəhudi dini də əsrlər boyu yaşayıb və indi də yaşayır. Qafqazda da bu mənzərə var. Hesab edirik ki, insanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq, bütün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət etməli, o dinlərin bəzən kiməsə xoş gəlməyən adət-ənənələrinə dözümlü olmalıdırlar”** (7, s. 46).

“Kulturologiya dünya mədəni nailiyyətlərini obyektiv qiymətləndirməyə, onları bu və ya digər ölkənin milli-mədəni maraqları üzrə yaradıcılıqla bəhrələnməyə imkan verir. Kulturoloji biliklərlə zəngin ağıl və xeyirxah məqsədlərə yönələn iradə insan inkişafının pozitiv faktorudur” (5, s. 14).

Bildiyimiz kimi, müasir Azərbaycan siyasi-tarixində ulu öndər Heydər Əliyevə qədər ölkənin heç bir dövlət başçısı Məkkə və Mədinə ziyarətində olmamışdır. Ulu öndər İslamın müqəddəs yerləri Məkkə və Mədinəni ziyarət etməklə hər an dinə necə dərindən bağlı olduğunu bir daha nümayiş etdirdi. Azərbaycan xalqının milli düşüncə fenomeninin inkişafında ümummilli lider Heydər Əliyevin dini baxımdan əsaslandırılması tarixi faktdır. Məkkə və Mədinə şəhərlərini sözün əsl mənasında layiqli, özünəməxsus şəkildə ziyarət edib öz arzu və niyyətlərinə çatan ulu öndər biz nəsillər üçün böyük bir örnək yolu qoyub getmişdir. İslamın mənəviyyatını, fəlsəfəsini, elmini və ümumbəşəri duyğularını yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev Mədinə şəhərindəki sevimli Peyğəmbərimiz həzrəti Məhəmməd əleyhis-salamın məscidinin şərəf kitabına yazdığı mənalı eyni zamanda hikmətli sözləri xalqımızın milli düşüncəsinin mühüm qayəsini təşkil edən İslami dəyərlərə dərin hörmət və ehtiramın parlaq təcəssümünü ifadə edir. O, deyirdi: ***“Allaha şükr olsun ki, uzun illər qəlbimdə yaşayan arzuma, niyyətimə nail oldum. Bu tarixi hadisə qəlbimdə böyük həyəcan və rahatlıq hissi yaratdı. Bir daha İslam mənəviyyatının nə qədər ümumbəşəri, fəlsəfi, elmi əsaslara malik olduğunu dərk etdim. Böyük Allahın böyüklüyünü dərk etdim”*** (2, s. 37).

Aparılan məqsədyönlü tədqiqatın məntiqi nəticəsi olaraq Azərbaycan xalqının multikutural dəyərlərə sahib olması və onun qorunub saxlanılması siyasi-fəlsəfi mahiyyət kəsb etmişdir. Həmçinin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev şəxsiyyətinin sayəsində Azərbaycanda dini müxtəliflilik və multikulturalizm fəlsəfəsi qorunub saxlanılmış və inkişaf etdirilmişdir. Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin 21 yanvar 2013-cü il “Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi”nin ölkə miqyasında layiqincə keçirilməsi haqqında verdiyi sərəncamda bir daha vurğulamışdır: **“Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur”** (2, s. ).

## ƏDƏBİYYAT


1. Həbibbəyli İ.Ə. Multikulturalizmin Azərbaycan modeli. Müstəqil lider. (ictimai-siyasi, publisistik beynəlxalq jurnal). № 06 (44) dekabr, Bakı: 2012, 38 səh. 6-7.
2. İbrahimov S.M. Heydər Əliyev və əxlaqi dəyərlər. Naxçıvan-2013, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi.. 280 s.
3. Manafova M. Mədəniyyət tarixi və nəzəriyyəsi. Bakı: 2010, 450 s.
4. Məmmədəliyev V. Heydər Əliyev-85. Kəlam, Elmi-ədəbi publisistik jurnal. № (35). Bakı: 2008, 64 səh. 14-21.
5. Məmmədov R. Kulturologiya. Bakı: 2006, 215 s.

6. Şükürov A. Kulturologiya. Bakı: Adiloğlu, 2003, 273 s.
7. Xəzər E. Avropada islamafobiya güclənir. Kəlam, Elmi-ədəbi publisistik jurnal. № (35). Bakı: 2008, 64 səh. 44-46.

**ABSTRACT**

**Sabuhi İbrahimov**

**Differentation of religious and multiculturalism in Azerbaijan**

In the article the current topics of the day and multiculturalism and differentantion philosophy of religion in Azerbaijan to investigate a wide range. Some separatist groups used religious factor to justify their activities in the world in the modern era. In such conditions the establishment of a dialogue between religions and cultures is important for protection of various cultures of human civilization. From this point of view, experience of countries and regions rich in the traditions of tolerance and patience is an example.

A number of nations and religious confessions in Azerbaijan is a unique example of peaceful co-existence with their widely reflected in the research.

**РЕЗЮМЕ**

**Сабухи Ибрагимов**

**Религиозное разнообразие и мультикультурализм в Азербайджане**

В статье обширно исследована наиболее актуальная тема дня о философии мультикультурализма и разнообразии религий в Азербайджане. В настоящее время в мире некоторые сепаратистские группировки во многих случаях для оправдания своей деятельности используют религиозный фактор. В таких условиях создание диалога между религиями и культурами различных культур имеет большое значение для сохранения человеческой цивилизации. С этой точки зрения опыт стран и регионов богатых традициями толерантности и терпимости приводится в качестве примера.

Кроме этого, Азербайджан будучи уникальным примером мирного сосуществования разных национальностей и религиозных конфессий, нашло свое широкое отражение в исследавании.

NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor M. Rzayev*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2016, № 5(79)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2016, № 5 (79)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2016, № 5 (79)**

**AYNURƏ MUSAYEVA**
*ay.nur-musayeva@mail.ru*

***UOT:343***

# ŞƏXSİYYƏTİN ŞƏRƏF VƏ LƏYAQƏTİ ƏLEYHİNƏ OLAN CİNAYƏTLƏRLƏ MÜBARİZƏDƏ CİNAYƏT QANUNVERİCİLİYİNİN İNKİŞAFI TARİXİ

***Açar sözlər:*** *təhqir, böhtan, şərəf, ləyaqət*
***Keywords:*** *insult, slander, honor, dignity.*
***Ключевые слова:*** *оскорбление, клевета, честь, достоинство.*

Şərəf və ləyaqət hüququ insanların təbii hüquqlarından biridir və şərəf və ləyaqət əleyhinə edilən cinayətlərin tarixi çox qədimdir. Təhqir və böhtan şərəf və ləyaqət əleyhinə olan cinayətlərə daxil olduğu üçün bu cinayətlərin də tarixi qədimdir. Tarixə nəzər saldıqda bunu görə bilərik. Azərbaycanın cinayət qanunvericiliyində nəzərdə tutulan şərəf və ləyaqət əleyhinə olan cinayətlərin yəni, təhqir və böhtanın tarixindən danışmadan öncə bu cinayətin ümumilikdə yaranma tarixinə nəzər salaq. Belə ki, Hindistanda mövcud olan və brahmanların aliliyini, qüdrətini və yüksək təbii qüvvələrlə əlaqəsini təsdiq edərək brahmanist xarakter daşıyan Manu qanunlarında böhtan, söz və ya hərəkətlə təhqir etmə və zorlama cinayətlərini nəzərdə tutan "Şərəf və ləyaqət əleyhinə" olan cinayətlər öz əksini tapmısdır. Cəzanın ölçüsü təqsirkarın silki-kasta mənsubiyyətindən asılı olaraq müəyyən edilirdi. Məsələn, brahmanı təhqir etmiş kşatri (hərbi, siyasi, və iqtisadi hakimiyyət kşatrilərin əlində cəmlənirdi ) 100 pan (pan 9,76 qrama bərabər olan mis sikkə idi), vayşi (vayşilər kəndli-icmaçilatdan və tacirlərdən ibarət idi) onu təhqir etdiyinə görə 250 pan cərimə olunur, şudr (itaət edən təbəqə) təhqir etdiyinə görə isə cismani cəzaya məruz qalırdı. (VIII, 267, 268). Şudranın təhqir etməsi nəinki ağırlaşdırıcı hal, həm də "dəhşətli təhqir" hesab olnurdu. Belə cinayətə görə şudranın dili kəsilirdi.(VIII, 270) (9, s. 79). Söz və ya hərəkətlə təhqirə (VIII, 72) aid olan işlərin məhkəmə tərəfindən yoxlanması tələb olunmurdu. Qanunlar sübut qismində kasta mənsubiyyətinə uyğun olaraq and içməkdən istifadəni nəzərdə tuturdu.

Afina hüququnda da hələ eramızdan əvvəl böhtan və təhqir cinayəti mövcud olmuş və şəxsiyyət əleyhinə cinayətər kimi nəzərdə tutulmuşdu.

Klassik dövrün Roma hüququnda təhqir şəxsiyyət əleyhinə olan cinayət hesab edilirdi və xüsusi sayılan cinayətlərdən hesab edilirdi.

Romada e.ə I əsrdə "əlahəzrəti təhqir etmə" anlayışı ilə əhatə edilən bir sıra qanunlar verildi. Dövlətin təhlükəsizliyinə sui-qəsd, Roma xalqı "əlahəzrətinin " təhqir edilməsi, Roma dövlətinə ziyan vurma və s bunlara daxil idi. Bu cinayətlər dövlətin mənafeləri əleyhinə yönəldilmişdir. Prinsipat və dominat dövründə dövləti cinayətlərin xarakteri dəyişdi və artıq onlar imperator hakimiyyəti əleyhinə olan cinayətlərə daxil edildi. Məsələn, imperatorun həyatına qəsdetmə, ona qarşı ehtiyatsız söz işlətmə, hakimiyyəti ələ keçirmək məqsədilə sui-qəsd düzəltmə və s. hətta, imperatorun heykəlini təhqir etməyə görə də ölüm cəzası müəyyən edilmişdi. Bu zaman cinayətkarın usaqları da məsuliyyət daşıyırdı (9, s.199).

Ərəb xilafəti dövründə şəriətin bir şəxsin digər şəxsin üzərinə böhtan atmasını və ya onu təhqir etməsini pisləməsi Yaxın və Orta Şərq xalqlarının qədim adətləri və əxlaqi normaları ilə bağlıdır. Feodal münasibətləri inkişaf etdikcə dövlət quruluşunun əsaslarini və ictimai qaydanı daha da möhkəmləndirmək zərurəti ortaya çıxdı. Bununla əlaqədar olaraq, bir sıra əməllər –zəkat ödəməmə, yüngül bədən xəsarəti, xuliqanlıq, dələduzluq, rüşvətxorluq və s. cinayət sayılırdı (7, s. 195-196 ). Təhqir də bu qrupa daxil o lan cinayətlər sırasında idi və bu cinayətlərin cəzası müctəhidlərin fikrindən və hakimlərin müstəqil hökmlərindən asılı idi. Şəriətin normasına uyğun olaraq bir şəxsin yetkinlik yaşına çatmış namuslu müsəlman kişini və ya qadını zinakar, bic

adlandırmaqla təhqir etməsinə görə həmin şəxs paltarı çıxarılmadan 80 qırmanc zərbəsi ilə cəzalandırılır (8, s.146). İslamda böhtan atma isə ağır cinayət hesab edilirdi.

Quranda təhqir və böhtanla bağlı bəzi surələr öz əksini tapmışdir. "Əz-Zumər", "ər-Rum", "əl-Mütəffifin", "əl-Hicr","əz-Zuxruf","əl-Ənbiya", "əl-Casiyə", "ət-Tövbə","Yasin", "əl-Hucurat", "əl-Bəqərə" surələrində təhqir, məsxərəyə, lağa qoyma, rişxənd pislənir. Məsələn, əl-Hucurat surəsinde deyilirki, "bir qövm digərini lağa qoymasın. Ola bilsin ki, lağa qoyulanlar lağa qoyanlardan daha yaxşi olsunlar. Bəlkə rişxənd olunanlar rişxənd edənlərdən daha yaxşıdırlar. Bir-birinizə tənə etməyin və bir-birinizi pis ləqəblərlə çağırmayın"(14 s. 569).

Böhtanla bağlı isə "əl-Əhzab", "əl-İsra", "əl-Nur", "əl-Hucurat" və s. surələr vardır. Məsələn, əl-Əhzab surəsi 58-də deyilir ki, "Mömin kişiləri və qadınları etmədikləri bir işdən ötrü incidənlər, şübhəsiz ki, öz üzərlərinə böhtan və açıq-aydın bir günah götürmüşlər" ( 14 s. 480).

Türkiyədə feodalizm dövründə islam dövləti olduğu üçün törədilən cinayətlər üç yerə bölünürdü: hədd, qisas və təzir. Hədd cinayətləri allaha və cəmiyyətə qarşı olan cinayətlər sayılırdı. Bu cinayətlərə zinakarlıq, dindən dönmə, oğurluq, yolkəsənlik, hökuməti devirmək məqsədilə edilən üsyan və ya silahlı çıxışlar, spirtli ickilər qəbul etmə və böhtan bura daxil idi. Söyüş söymə isə təzir cinayətlərə aid idi. Təzir cinayəti dedikdə, Quranda adları çəkilməyən və cəzası hakim tərəfindən təyin olunan xırda və yüngül cinayətlər nəzərdə tutulurdu (10,s.140).

Feodalizm dövründə Çinin cinayət hüququnda ağır cinayətlərin bir neçə qrupu formalaşmışdı. Bunlara dövləti cinayətlər, qan qohumları əleyhinə olan cinayətlər və ailə əleyhinə olan cinayətlər daxil idi. Çində "imperatoru təhqir etmə" adlı norma var idi ki, bu ağır cinayət sayılırdı və dövləti cinayətlər bölməsinə daxil idi. Çinin cinayət qanunvericiliyində babanı, nənəni, valideynləri təhqiretmə adlı digər bir norma var idi ki, bu ailə əleyhinə olan cinayətlər qrupuna daxil idi.

Feodal Yaponyasında 1742-ci ildə 100 maddədən ibarət, mülki, cinayət və cinayət-prosessual hüququnun ümumi cəhətlərini əks etdirən "100 qanun külliyyatında" qanunu qəbul edilmişdiki, həmin qanuna görə samuray (xidmətdə olan zadəganlar) kəndlini təhqir etmək üstündə öldürə bilərdi.

Erkən Frank dövlətində Salik pravdasına (VI əsrin əvvəlləri) görə təhqir və böhtan şəxsiyyət əleyhinə edilən cinayət sayılırdı. Şərəf və ləyaqətə qəsd etmə də ayrıca bir cinayət norması sayılırdı və bu normada şəxsiyyət əleyhinə cinayətər qrupuna daxil idi. "Eybəcər, əxlaqsız qadın, dovşan, yalançı, xəbərçi" sözləri təhqir sayılırdı və cərimə cəzası ilə cəzalandırılırdı.

Fransa dövlətində senyorluq monarxiyası dövründə "əlahəzrəti" təhqir etmə dövlət əleyhinə edilən cinayət sayılırdı və iki növü fərqlənirdi: Birinciyə ağır cinayət sayılan krala və onun ailə üzvlərinə qəsd və dövlət əleyhinə sui-qəsd, ikinci növünə isə kralın nazirlərinə, kral ordusunun komandanlarına, əyalət qubernatorlarına, habelə digər yüksək vəzifəli şəxslərə qarşı sui-qəsd, fərarilik, casusluq, müharibədə xəyanət və s. aid idi.

Allahı və başqa müqəddəs sayılan şeyləri təhqir etmə dini cinayətlər qrupuna aid edilirdi. Əlahəzrəti təhqir etmək üstündə təqsiri olmayan azyaşlı uşaqlar, anlaqsız şəxslər, bəzən isə heyvanlar da cəzalandırılırdı. Cəza kimi boynun vurulması, asma, təkərləmə, şaqqalama, yandırma, hissələrə parçalama, diri bədədndən içi çıxarma, əridilmiş metalı boğaza tökmə, edam olunan şəxsi qazanasalma və s. vasitələrdən istifadə etməklə ölüm cəzası təyin edilirdi. Şikəst etmədən, cismani cəzalardan, həbs cəzasından və katorqa işlərindən. rüsvayçı cəzalardan (rüsvayçı dirəyin yanına qoyma, cərimə, çılpaq şəkildə gəzdirmə və s.), cərimə, əmlak müsadirəsi cəzasından geniş istifadə olunurdu.

Mütləq monarxiya dövründə Almanyada böhtan, Qədim Rus dövlətində təhqir etmə cinayəti şəxsiyyət əleyhinə edilən cinayətlərə daxil idi.

Rusiyada Silki-nümayəndəli monarxiya dövründə monarxı təhqir etmə ağır cinayət sayılırdı. Hətta adi niyyətə görə məsuliyyət nəzərdə tutulmuşdu.

Ümumiyyətlə Rusiyada şərəf və ləyaqət əleyhinə edilən cinayətlər qədim tarixə malikdir. Hələ Qədim Rus dövlətinin diqqətəlayiq mənbələrindən sayılam rus Pravdasında bu cinayət "обиды" adı altında yer almışdır və fiziki, maddi və mənəvi zərər vurma kimi anlaşılırdı. Təhqir (оскорбление) bu cinayətin növlərindən biri sayılırdı (16, s. 444).

1649-cu il Qanunnaməsində də təhqirlə bağlı cəza təyin edilərkən təhqirin edildiyi yer nəzərə

alınırdı. Belə ki, adi yerlərdə edilən təhqirdən fərqli olaraq, kilsədə və ya məhkəmədə edilən təhqirə görə daha ağır cəza müəyyən edilirdi. Ruhaniləri təhqir edənlərə qarşı daha sərt cəza tətbiq edilirdi. 1864-cü il nizamnaməsində isə şərəf və ləyaqət əleyhinə edilən cinayətlər bölməsinə təhqirlə bağlı altı, böhtanla bağlı iki maddə daxil edilmişdi. Nizamnamə təhqirin aşağıdakı formalarını nəzərdə tutmuşdu: 1) sözlə və ya məktubda, 2) hərəkətlə. Əgər təhqir yüksələ xətt üzrə qohumlara (valideyn, baba və s.) qarşı törədilərdisə daha sərt cəza tətbiq edilirdi. Usaqların valideynləri tərəfindən təhqirə məruz qalması umumiyyətlə məsuliyyət yaratmırdı.

Nizamnamədə böhtanın iki növü fərqləndirilirdi: sadə və ağırlaşdırıcı. Şərəf və ləyaqət əleyhinə edilən cinayətlərin sistemi 1903-cü il Qanunlar Külliyyatındada saxlanıldı (16, s.445).

Rusiya Federasiyasının 1960-cı il Cinayət Məcəlləsində də şərəf və ləyaqət əleyhinə iki maddə verilmişdi: böhtan (maddə 130), təhqir (maddə 131). Böhtanın anlayışı əvvəl verilən anlayışlardan demək olarki fərqlənmirdi. 1960-cı il Cinayət Məcəlləsində təhqirə aşağıdakı kimi anlayış verilirdi. Təhqir-şəxsin şərəf və ləyaqətini nalayiq formada alçaltmadır. Əvvəlki qanunvericiliklərdən fərqli olaraq 60-cı il məcəlləsində maddənin dispozisyasında təhqirin üsulları göstərilmirdi. Rusiya Federasiyasının 1996-cı il Cinayət Məcəlləsində təhqir və böhtana verilən anlayış az dəyişikliklə öz əksini tapmışdır.

Azərbaycanın cinayət qanunvericiliyində də şərəf və ləyaqət əleyhinə olan cinayətlər yer almış müəyyən illər ərzində dəyişiklər edilmişdir. Belə ki, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 2-ci sessiyası tərəfindən 9 dekabr 1922-ci il tarixdə qəbul edilmiş Azərbaycan İctimai Şura Cumhuriyyətinin Cəza Məcəlləsində Böhtan cinayət əməli kimi bu Məcəllənin "Həyat, səhhət və şəxsiyyətin heysiyyətinə qarşı olan cinayətlər" adlı 5-ci fəsilinə daxil edilmişdi. Şəxsiyyət və onun heysiyyətinə digər qəsdlərə aid edilən böhtan iki maddədə yerləşdirilmişdi:

Maddə 174. Böhtan, yəni bilə-bilə başqa şəxsi ləkələyən yalan halları elan etmək-altı ayadək müddətə azadlıqdan məhrum etmə və ya məcburi işlərlə cəzalandırılır.

Maddə 175. Çap və ya başqa vasitələrlə çoxaldılmış əsərlərdə böhtan atmaq-bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır (2, s. 104).

Həmin məcəllədə təhqir cinayəti isə aşağıdakı formada verilmişdir:

Maddə 172. Bir şəxsi sözlə və ya yazı ilə təhqir etmək-altı ayadək müddətə məcburi işlər və ya qızıl pulla 500 manatadək cərimə, yaxud hər ikisi ilə cəzalandırılır. Bu maddənin sanksiyasının ilkin mətni idi. 15 noyabr 1924-cü il tarixli 39 № ***li Q***ərarla maddənin sanksiyası yeni redaksiyada yəni, aşağıdakı kimi verilmişdir: altı ayadək müddətə məcburi işlər və ya 500 manatadək cərimə, yaxud hər ikisi ilə cəzalandırılır (QK, 1925-ci il, № 12, maddə 308).

Bu maddədə zərərçəkmiş tərəfindən edilmiş bərabər və ya daha ağır cəbr və ya təhqirin səbəb olduğu təhqirin cəzalandırılmaması ilə bağlı birbaşa göstəriş var idi.

Maddə 173. Camaat arasında yayılmış, ya camaat qarşısına göstəriş üçün qoyulmuş çap əsərlərində və ya rəsmlərdə bir şəxsi təhqir etmək-bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Azərbaycan Mərkəzi İcraiyyə Komiteti və Xalq Komissarları Sovetinin qərarı ilə 1927-ci il də, 3 dekabr təsdiq edilən, 1928-ci il 15 yanvarda qüvvəyə minən Azərbaycan SSR Cəza Məcəlləsi "Həyat, səhhət, azadlıq və şəxsiyyət heysiyyətinə qarşı olan cinayətlərin" yerləşdiyi altıncı fəsildə 202, 204, 205-ci maddələr təhqir və böhtana həsr edilmişdir.

Maddə 202. Bir şəxsi sözlə və ya yazı ilə təhqir etmək-üç yüz manata qədər cəriməyə və ya ictimai məzzəmətə səbəb olur.

Bir şəxsi hərəkətlə təhqir etmək-ya alti aylıq müddətə qədər məcburi işə və ya beş yüz manata qədər cəriməyə səbəb olur.

Bu maddənin qeyd hissəsndə göstərilirki, hər iki şəxsin bir-birini qarşılıqlı təhqir etmələri məsuliyyətə səbəb olmur.

Təhqir insanın şəxsi heysiyyəti hissini hər cür alçaltmaq deməkdir. Təhqir cinayətinin tərkibi məhkəmə tərəfindən şəxsiyyətə yalnız mənfi deyil, sosialist mənəviyyatı nöqteyi-nəzərindən dözülməz bir ədəbsizlik kimi qiymətləndirilməsi müəyyən edikdiyi halda mövcud olur.

Təhqir (nə şəkildə olursa-olsun), təhqir etmək məqsədinin mövcud olduğunu nəzərdə tutur, buna görə də təhqir ancaq qəsdən edilə bilər.

Sözlə təhqir etmək- zərər çəkmiş haqqında sosialist birgə yaşayış şəraitində adamın şəxsi heysiyyətini təhqir edən mənfi, ədəbsiz ifadələrdən ibarətdir. Cinayət tərkibinin mövcud olması üçün təhqirin ya üzbəüz və ya üçüncü şəxslərin yanında edilməsinin əhəmiyyəti yoxdur. Eyni surətdə də cinayət tərkibi üçün təhqirin ya şəxsən və ya qiyabında edilməsi fərqsizdir (2, s. 506).

1927-ci il Məcəlləsində qüsurlar olmasına baxmayaraq, üzbəüz və ya üçüncü şəxslərin yaninda edilib edilməməsinin nəzərə alınması bu məcəlləninin üstün cəhətlərindəndi.

Təhqir edici sənəd bilavasitə zərərçəkmişin özünə göndərildikdə və ya bu sənəd hər hansı bir yol ilə zərərçəkmişə məhdud olacağı şüuru ilə başqa şəxsin ünvanına göndərildikdə yazılı surətdə təhqir etmək (məktub, qeyd, şəkil və s) mövcud olar.

1927-ci il məcəlləsində dispozisyadan göründüyü kimi təhqirin söz və ya yazı ilə törədilməsi üsulu ilə yanaşı hərəkətlə törədilməsi də nəzərdə tutulmuşdur. Hərəkətlə təhqir etmə dedikdə, zərərçəkmişə qarşı onun şəxsi heysiyyəti hissini və ya heç olmazsa mühitin nəzərində alçaltmaq məqsədilə edilməkdən, bu və ya başqa ədəbsiz hərəkətlərin edilməsi başa düşülür. Sillə vurma (təhqir etmə məqsədilə), üzünə tüpürmə və başqa cür ədəbsiz hərəkətlər hərəkətlə təhqir etməyə aid edilirdi.

27-ci il Məcəlləsinin 204-cü maddəsi "mətbuatda təhqir etməni" nəzərdə tuturdu.

Maddə 204. Camaat arasında yayılmış, ya camaat qarşısına göstəriş üçün qoyulmuş çap əsərlərdə və ya rəsmlərdə bir şəxsi təhqir etmək-ya bir illik müddətə qədər məcburi işə və ya beş yüz manata qədər cəriməyə səbəb olur.

Mətbuatda təhqir etmə dedikdə, camaat arasında yayılmış və ya camaat qarşısında göstəriş üçün qoyulmuş çap əsərlərdə və ya rəsmlərdə təhqir etmə başa düşülürdü və bu təhqirin ən ağır növü sayılırdı.

Yuxarda göründüyü kimi 1922 və 1927-ci il Cinayət Məcəllələrində birbaşa olaraq "təhqir" in anlayışı verilmirdi. Təhqirin yalnız söz, yazı və hərəkətlə törədilməsi kimi üsulları göstərilirdi.

Maddə 205. Böhtan, yəni bilə-bilə başqa bir şəxsi ləkələyən uydurmalar yaymaq- ya altı aylıq müddətə qədər məcburi işə və ya beş yüz manata qədər cəriməyə səbəb olur.

Çap və ya başqa vasitələrlə çoxaldılmış əsərlərdə böhtan yaymaq-ya bir illik müddətə qədər məcburi işə və ya bir min manata qədər cəriməyə səbəb olur.

Böhtan, Sovet vətəndaşının şərəfi və şəxsi heysiyyətinə qəsd edən ən ağır cinayətlərdən biri sayılırdı.

1960-cı il Azərbaycan SSR Cinayət Məcəlləsində Təhqir və böhtan "Şəxsiyyət əleyhinə olan cinayətlər" adlanan üçüncü fəslə daxil idi. Böhtan adlanan 121-ci maddədə böhtana aşağıdakı kimi anlayış verilir:

Maddə 121. Böhtan

Böhtan, yəni bilə-bilə başqa şəxsi ləkələyən yalan uydurmalar yayma-biriləədək müddətə azadlıqdan məhrum etmə və ya eyni müddətə islah işləri, yaxud əlli manatadək cərimə ilə cəzalandırılır.

Bu maddənin birinci hissəsində nəzərdə tutulmuş əməllər kollektivdə həmin kollektivin üzvü barəsində edildikdə belə hərəkətlər üçün əvəllər ictimai təsir tədbirləri tətbiq edilmişsə-altıyadək müddətə azadlıqdan məhrum etmə və ya bir ilədək müddətə islah işləri ilə və ya əlli manatadək cərimə cəzalandırılır.

Çap edilmiş və ya sair üsulla çoxaldılmış əsərdə böhtan atma-iki ilədək müddətə azadlıqdan məhrum etmə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.

Xüsusi təhlükəli dövləti cinayəti cinayət və ya sair ağır cinayətdə ittiham etməklə böhtan atma-dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

1982-ci il 22 dekabr və 1985-ci il 18 noyabr tarixli fərmanla bu maddəyə dəyişiklik edilərək aşağıdakı redaksiyada verilmişdir:

Böhtan, yəni yalan olduğunu bilə-bilə başqa şəxsi ləkəyən uydurmalar yayma-bir ilədək azadlıqdan məhrum etmə və ya eyni müddətə islah işləri və ya minimum əmək haqqı məbləğinin üç yüz əlli mislində dörd yüz mislinədək miqdarda cərimə ilə cəzalandırılır.

Çap edilmiş və ya sair üsulla çoxaldılmış əsərdə, imzasız məktubda böhtan atma-üç ilədək müddətə azadlıqdan məhrum etmə və ya iki ilədək müddətə islah işləri və ya minimum əmək haqqı məbləğinin min mislindən min iki yüz mislinədək miqdarda cərimə ilə cəzalandırılır.

Çap edilmiş və ya sair üsulla çoxaldılmış əsərlərdə böhtan atma dedikdə -məzmunu şəxsiyyəti ləkələyən yalançı uydurmalarla bağlı məlumatlardan ibarət olan mətni mətbəə üsulu ilə kitabça, kitab formasında, qəzet səhifələrində kütləvi tirajla buraxmanı, habelə belə mətnlərin rotaprintlə və s. vəsaitlərlə çoxaldılması nəzərdə tutulur. İmzasız məktubla böhtan atmaya qarşı əhalinin ictimai rəyində belə təzahürlərə rəzil əməl kimi baxış formalaşmışdır. Ictimai rəyin təsiri altında qanunverici orqan vətəndaşların hüquqlarını daha təsirli qorumaq üçün belə halı ağırlaşdırıcı hal kimi qanuna daxil etmişdir (6, m. 218).

Xüsusi təhlükəli dövləti cinayətdə və ya sair ağır cinayətdə ittiham etməklə böhtan atma-beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Xüsusi təhlükəli dövləti cinayətlər CM-nin 57-65-ci maddələrində nəzərdə tutulan cinayətlərdir. Sair ağır cinayətlər CM-nin 7-1-ci maddəsində sadalanan cinayətlərdir (13, s. 169).

1960-cı il Azərbaycan SSR Cinayət Məcəlləsində Təhqir 122-ci maddədə öz əksini tapmışdı.

Maddə 122. Təhqir

Təhqir, yəni adamın şərəf və ləyaqətini qəsdən alçaltma, belə hərəkətlərə görə əvvəllər ictimai təsir tədbirləri tətbiq edilmişsə-bir ilədək müddətə islah işləri və ya otuz manatadək cərimə ilə, yaxud ictimai məzzəmətlə cəzalandırılır.

Çap yolu ilə və ya sair üsulla yayılan əsərdə təhqir etmə-bir ilədək müddətə azadlıqdan məhrm etmə və ya həmin müddətə islah işləri ilə, yaxud yüz manatadək cərimə ilə cəzalandırılır.

1982-ci il 22 dekabr tarixli Fərmanla, 1992-ci il 18 avqust tarixli, 274 saylı Qanunla maddəyə dəyişiklik edilərək aşağıdakı redaksiyada verilmişdir.

Təhqir, yəni şəxsiyyətin şərəf və ləyaqətini nalayiq formada qəsdən alçaltma-altı ayadək müddətə islah işləri və ya minimum əmək haqqı məbləğini altmış mislindən yetmiş mislinədək miqdarda cərimə ilə və ya ictimai məzəmmətlə cəzalandırılır.

Çap edilmiş və ya sair üsulla yayılmış əsərdə təhqir etmə, eləcə də təhqirə görə əvvəllər məhkum olunmuş şəxs tərəfindən təhqir etmə- bir ilədək müddətə azadlıqdan məhrum etmə və ya eyni müddətə islah işləri və ya minimum əmək haqqı məbləğinin üç yüz əlli mislindən dörd yüz mislinədək miqdarda cərimə ilə cəzalandırılır.

1960-cı il Cinayət Məcəlləsinin təhqirlə bağlı müddəasını təhlil edərkən ilk dəfə olaraq təhqirin şəxsiyyətin şərəf və ləyaqətini nalayiq formada qəsdən alçaltma kimi ifadə olunduğunu görürük. Təhqirin anlayışının verilməsi təbiiki təqdirə layiq idi. 1960-cı il Cinayət Məcəlləsində təhqirə ilk dəfə anlayış verilməklə yanaşı əvvəlki məcəllələrdən fərqli olaraq təhqirin üsulları yəni, sözlə, yazılı və ya hərəkətlə olması dispozisyaya daxil edilməmişdir.

Məcəllələrdə böhtanla bağlı verilən anlayışlara nəzər saldıqda isə hələ ilk Sovet Cinayət Məcələsi onu bilə-bilə yalan və başqa şəxsi ləkələyən məlumatların yayılması kimi nəzərdə tuturdu. Ilk məcəllədə verilən anlayış demək olarki öz mahiyyətini saxlamaqla növbəti məcəllələrdə öz əksini tapmışdır.

30 dekabr 1999-cu il 787-İQ qərarla qəbul edilən, 1 sentyabr 2000-ci ildə qüvvəyə minən Azərbaycan Respublikasının Cinayət Məcəlləsində də şərəf və ləyaqət əleyhinə cinayət kimi təhqir və böhtan “Şəxsiyyət əleyhinə olan cinayətlər” bölməsində, “Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər” fəsilində öz əksini tapmışdır. “Böhtan” adlanan 147 və “təhqir” adlanan 148-ci maddələri əhatə edirdi.

Maddə 147. Böhtan

147.1.Böhtan, yəni, yalan olduğunu bilə-bilə, hər hansı şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan məlumatları kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında yayma-yüz manatdan beş yüz manatadək miqdarda cərimə ilə və ya iki yüz qırx saatdan dörd yüz səksən saatadək müddətəictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

147.2. Ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma- iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Cinayət Məcəlləsində bəzi nüansları qüsurlu hesab edərək böhtan cinayətinin aşağıdakı redaksiyada verilməsini məqsədəuyğun hesab edirəm.

Maddə 147. Böhtan

147. 1. Böhtan, yəni yalan olduğunu bilə-bilə, hər hansı şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan məlumat və ya məlumatları yayma

147.2. eyni əməllər:

147.2.1. yalan olduğunu bilə-bilə, hər hansı şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan məlumat və ya məlumatları kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində yaymaqla törədildikdə;

147.2.2. Ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atmaqla törədildikdə (12, s.72);

147. 141.1 və ya 147.2-ci maddələrdə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda-

Maddə 148. Təhqir

Təhqir, yəni kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında şəxsiyyətin şərəf və ləyaqətinin nalayiq formada qəsdən alçatma- üç yüz manatdan min manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan dörd yüz səksən saatadək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır (1 s. 160).

Maddəni təhlil edərkən bəzi qüsurlara rast gəlinir. Fikirimcə, qüsurlar götürülüb aşağıdakı redaksiyada verilsə, maddənin tətbiqi daha səmərəli olar:

148.1. şəxsin şərəf və ləyaqətini qəsdən nalayiq formada alçaltma-

148.2. Eyni əməllər:

148.2.1. təkrar törədildikdə

148.2.2. iki və daha çox şəxsin şərəf və ləyaqətini qəsdən nalayiq formada alçaltmaqla törədildikdə;

148.2.3. vəzifəsindən istifadə edərək şəxsin şərəf və ləyaqətini nalayiq formada alçaltmaqla törədildikdə;

148.2.4. kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində şəxsin şərəf və ləyaqətinin nalayiq formada qəsdən alçaltmaqla törədildikdə (15,s.463).

148.3. 148.1 və ya 148.2-ci maddələrdə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda-

Maddə148-1. Ölmüş şəxsin xatirəsinin və ya cəsədinin təhqir edilməsi.

Ölmüş şəxsin xatirəsinin və ya cəsədinin təhqir edilməsi-

AR CM-nin 148-ci maddəsinə sadalanan bəndlərin və 148-1-ci maddənin əlavə edilməsi Cinayət Məcəlləsində təhqirlə bağlı müəyyən maddələrin (maddə 245 və maddə 332) bir maddə altında cəmlənməsinə imkan verir və bu da bu cinayətlərin təhlilini asanlaşdırır.

## ƏDƏBİYYAT


1.Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: "Hüquq yayın evi", 2015, 408 s.
2.Almanax. Cinayət Qanunları Külliyyatı 1920-2000. Bakı, "Hüquq Yayın Evi", 2014, 1184.
3.Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası. F.Y.Səməndərovun redaktəsi ilə. Bakı, "Digesta" nəşriyyatı, 2009, 1012 s.
4.Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası. F.Y.Səməndərovun redaktəsi ilə, I hissə, Bakı: "Hüquq Yayın Evi" nəşriyyatı, 2015, 752 s.
5.Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası. F.Y.Səməndərovun redaktəsi ilə, II hissə, Bakı: "Hüquq Yayın Evi" nəşriyyatı, 2015, 832 s.
6.Azərbaycan SSR Ali Sovetinin məlumati, 1985-ci il, 1985-ci il, №22. mad 218
7. Cəfərli N., Rüstəmov R. Müsəlman hüququnun əsasları. Dərslik. Bakı, "MBM", 2008, 260 s.
8. Kərimov Q.M. Şəriət və onun sosial mahiyyəti. Bakı: "Azərnəşr", 1987, 222 s.
9. Məlikova M.F., Nəbiyev E.Q. Xarici ölkələrin dövlət və hüquq tarixi.Dərslik. Bakı: "Qanun" nəşriyyatı, 1997, 416 s.
10.Musayeva A.T. Şəxsiyyət əleyhinə edilən olan cinayətlərin sistemində təhqir və böhtanın yeri //Bakı Dövlət Universiteti, Hüquq fakültəsi, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci il dönümünə həsr olunmuş "Heydər Əliyevin Azərbaycan

Respublikasının Hüquq elminin və təhsilinin inkişafında rolu” mövzusunda Beynəlxalq Elmi-praktik Konfransın materialları. II cild, Bakı, 2015, s.139-141.
11. Musayeva A.T., Kərimov Ş.M. Şərəf və ləyaqətin fəlsəfi anlayışı. //“Azərbaycan Hava Yolları” qapalı səhmdar cəmiyyəti Milli Aviasiya Akademiyası. Elmi Məcmuələr, 2016, cild 18№1, səh 60-63.
12. Musayeva A.T. Böhtan cinayətinin anlayışı və obyektiv əlamətləri // Qanun, 2016, №03(257), səh. 70-74.
13. Səməndərov F.Y. Şəxsiyyət əleyhin ə edilən cinayətlər. Dərs vəsaiti. Bakı: "Bakı Dövlət Universiteti" nəşriyyatı, 1997, 191 s.
14. Bünyadov Z.M., V.M.Məmmədəliyev. Qurani-Kərim. Bakı, “Çıraq” nəşriyyatı, 2004, 680 s.
15. Мусаева А.Т. Правовая природа и объективные признаки состава преступления оскорбления. //ІНСТИТУТ ДЕРЖАВА І ПРАВА імені В.М. Корецького НАН УКРАІНИ. Держава І право. Серія юридичнı науки, Віпуск 71, Киів, Видавництво, «Юридична думка» 2016, с. 455-466
16. Коробеева А.И. Полный курс уголовного права. В 5 томах. Под ред. Том II. Преступления против личности. Изд-во. Асланова Р. "Юридический центр Пресс" 2008, 682 с.

**ABSTRACT**

**Aynura Musayeva**

The article deals with the history of crimes committed against honor and dignity. It also deals with the legal development history of crimes-insult and slanders against dignity and honor in Azerbaijan.

**РЕЗЮМЕ**

**Айнура Мусаева**

В настоящей статье обсуждаются преступления, совершенные против чести и достоинства.

В статье говорится об истории развития отражения в законодательстве Азербайджана преступлений, совершенных против чести и достоинства – оскорбления и клеветы.

NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor M. Rzayev*

**FUAD XƏLİLZADƏ**
*Bakı Dövlət Universiteti*
*E-mail: xalifa@gmail.com*

***UOT:342.8***

# MAJORİTAR SEÇKİ SİSTEMİ VƏ BU SİSTEMİN DİGƏR SEÇKİ SİSTEMLƏRİNDƏN FƏRQİ

***Açar sözlər:*** *majoritar seçki sistemi, mütləq səs çoxluğu, nisbi səs çoxluğu*
***Key words:*** *majoritarian electoral system, absolute majority, relative majority*
***Ключевые слова:*** *мажоритарная избирательная система, абсолютное большинство голосов, относительное большинство голосов.*

Dünyada seçkilərin keçirilməsinin müxtəlif sistemləri tətbiq olunur. Bu sistemlərin hər biri uzun illərin sınağından keçərək, dünyanın,bəşəriyyətin dəyərlər sistemində özünə möhkəm yer qazanmışdır. Seçki sistemi dedikdə, seçkilərin keçirilməsi, səsvermənin nəticələrinin müəyyən edilməsi,seçki hüquqlarının həyta keçirilməsi ilə bağlı qaydaları və seçki münasibətlərini tənzimləyən hüquq normalarının məcmusu nəzərdə tutulur.

Dünyada çoxlu sayda seçki sistemləri vardır. Seçki sistemlərinin çoxluğu bu sistemlərin cəmiyyətin bütün siyasi qüvvələrini tam qane etməməsi, bir sistemin digərindən üstün və çatışmayan cəhətlərə malik olması ilə əlaqədardır. Bu baxımdan ölkələrin siyasi hakimiyyəti, qanunvericilik orqanları daha məqsədəuyğun hesab etdikləri seçki sistemlərini qəbul edirlər.

Beynəlxalq təcrübədə seçki sistemlərinin iki əsas forması - plüarilst majoritar seçki sistemi və proporsional nümayəndəlik seçki sistemi fərqləndirilir [3]. Lakin bəzi ölkələr seçkilər zamanı, əsasən də parlamaent seçkilərində hər iki sistemdən istifadə edirlər ki, bu da qarışıq sistem və ya yarıproporsional sistem adlandırılır.

**Majoritar** sözü fransız dilindən tərcümədə "çoxluq" deməkdir. Majoritar seçki sistemində kim çoxluğun səsini qazanarsa o da seçilir. Çox geniş yayılmış seçki sistemlərindən biri majoritar seçki sistemidir. Burada mahiyyət ondan ibarətdir ki, səslərin əksəriyyətini qazanmış namizədlər seçilmiş hesab olunurlar. Plüralist majoritar sistemin əsasında, hamısı qalibə çatır prinsipi dayanır. Majoritar sistem mahiyyətcə sadə və anlaşıqlı olsa da, siyasi partiyaların güclü olduğu dövlətlərdə bu sistemdən bütünnsiyasi qüvvələr razı qalmır [2, səh. 27]. Çünki, səslərin nisbi azlığını alan (seçicilərin qismən az hissəsinin müdafiə etdiyi) namizədlər kənarda qalırlar.

Majoritar seçki sisteminə birmandatlı seçki sistemi də deyilir. Yəni ölkə ərazisi müəyyən olunmuş deputat yerlərinin sayına uyğun sayda dairələrə bölünür. Hər dairədən isə, yalnız bir mandat-daha çox səs qazananlar qalib müəyyən edilir. Majoritar seçki sisteminin az hallarda çoxmandatlı dairələr üzrə tətbiqi hallarına da, təsadüf edilir. Məsələn, ABŞ-da prezident seçkiləri kolegiyasının seçkilərində prezident seçiciləri siyahılarının rəqabətdə olduğu ştatlar və federal dairə çoxmandatlı seçki dairələridir.

Majoritar sistemə rəğbətin köklərini yalnız tarixdə axtarmaq düzgün olmazdı, bunun daha rasional izahı var. Majoritar sistem parlametndə çoxluq təşkil edən partiyaya öz proqramını həyata keçirməyə imkan verir. Bu sistem hökumətin səmərəli fəaliyyət göstərməsinə şərait yaradır [3].

Majoritar sistemdə nisbi, mütləq və ya ixtisaslı səslər çoxluğu ola bilir ki, bu da majoritar sistemin növlərini təyin edir. Bu seçki sisteminə uyğun olaraq, deputatlığa (lat. «deputatus» - «göndərilmiş») namizəd seçkilərdə fərdi qaydada iştirak etməlidirvə o, seçkili orqana deputat seçilmək üçün seçki dairəsi üzrə digər namizədlərə nisbətdə daha çox səs toplamalıdır. Səs çoxluğunun sayından asılı olaraq majoritar seçki sisteminin iki növü müəyyən edilir: mütləq səs çoxluqlu majoritar seçki sistemi və nisbi səs çoxluqlu majoritar seçki sistemi.

Mütləq səs çoxluqlu majoritar seçki sistemi seçki dairəsi üzrə seçicilərin səslərinin yarıdan çoxunun, yəni 50%+l səsin toplanmasını tələb edir. Bu seçki sistemində qalib gəlməsi üçün namizəd seçki dairəsində çox böyük nüfuza malik olmalıdır. Sistemin əhəmiyyəti ondan ibarətdir ki, deputat Məclisdə seçicilərin yarıdan çoxunun iradəsini təmsil etmək imkanına malik olacaqdır. Namizədlərdən heç biri tələb olunan səs çoxluğunu (50%+1) toplamadıqda, birqayda olaraq, daha çox səs toplamış iki namizədin iştirakı ilə səs vermənin ikinci dövrəsi keçirilir. Səsvermənin ikinci dövrəsində daha çox səs toplayan namizəd parlamentə deputat seçilir. Sesvermənin bu dövrəsində nisbi səs çoxluqlu majoritar seçki sisteminin şərtləri tətbiq edilir.

Nisbi səs çoxluqlu majoritar seçki sisteminə uyğun olaraq ölkə ərazisi parlamentə seçilən deputatların sayına bərabər bir mandatlı seçki dairələrinə bölünür. Hər bir seçki dairəsindən yalnız bir deputat seçilə bilər. Səsvermə yalnız bir dövrədə keçirilir. Namizədlər sırasından daha çox səs toplayanı parlamentə deputat seçilir. Belə seçki sistemi müəyyən mənada seçicilərin iradəsinin təhrif olunmasına səbəb olur [2, səh. 27]. Bu seçki sistemi:

1) birnəfərin timsalında tanınmış hər hansı bir partiya deyil, konkret namizədə seçici səslərinin verilməsinə imkan yaradır,

2) seçicilərə deputatlığa namizədi daha yaxından tanımağa şərait yaradır,

3) deputat olduğu təqdirdə, üzərinə götürdüyü tapşırıqları yerinə yetirməkdə seçicilər qarşısında deputatlığa namizədin mənəvi məsuliyyətini artırır,

4) deputat apartın göstərişlərini deyil, seçicilərin rəyini və iradəsini rəhbər tutaraq sərbəst və müstəqil şəkildə fəaliyyət göstərməsinə təminat verir.

Son illərdə mütləq səs çoxluqlu majoritar sistemdə iştirakla bağlı məhdudiyyət tələbindən imtinaya meyl güclüdür. Bu da onunla əlaqədardır ki, seçki bir hüquqdur [4]. Heç kəs seçkilərə, səsverməyə məcbur edilə bilməz. İnformasiya və qloballaşan dünyada sadə xalqın siyasiləşməsinin azalması tendensiyası gedir və insanlar bəzən seçkilərdə iştiraka meyl etmirlər. Bu cür tələbin olması isə seçkilərin baş tutmasını sual altına qoya bilər, yaxud seçkilərə müdaxilə olunmasına (seçkilərin baş tutmasını təmin etmək üçün və s.) şərait yaradır.

Mütləq çoxluqlu majoritar sistemin nəticəsliyini aradan qaldırmaq üçün səsvermənin ikinci turundan yan keçməyə imkan verən digər üsulu alternativ səsvermədir. Bu sistem Avstraliyada parlamentin aşağı palatasının seçkiləri zamanı tətbiq edilir. Bu sistemlərdən başqa, ixtisaslı çoxluqlu majoritar sistem anlayışı da var. Bu sistemdə səslərin ixtisaslı çoxluğunu qazanmış namizəd (namizədlər siyahısı) seçilmiş hesab edilir. İxtisaslı əksəriyyət onunla müəyyənləşdirilir və hər halda mütləq əksəriyyətdən üstün olur. Bu sistem mütləq çoxluqlu sistemdən daha az nəticəli olması səbəbindən az tətbiq olunur. Məsələn, Çilidə deputatlar palatası (parlamentin aşağı palatası) ikimandatlı seçki dairələri üzrə seçilir. Dairədə etibarlı səslərin ümumi sayının 2/3ni qazanmış partiyalar dairədən hər iki mandatı əldə etmiş olur. Partiyalardan heç birisi həmin əksəriyyəti qazanmamışdırsa, mandatlar daha çox səs toplamış iki partiyaya verilir.

Daha bir seçki sistemi kumulyativ votum seçki sistemidir. Latınca “cumulatio” toplama deməkdir. Bu sistem onula səciyyələnir ki, çoxmandatlı dairədə hər bir seçici seçiləcək namizədlərin sayı qədər və ya daha az səsə malikdir və öz səslərini namizədlər arasında istədiyi qaydada bölüşdürür. Seçici hər bir namizədə bir səs verə və ya namizədlərdən hansınasa özünün bütün səslərinin topu halında verə bilər, yəni öz səslərini bir namizəd üçün toplaya bilər. Bu sistem Almaniyanın bir çox bölgələrində, o cümlədən Şərqi Alman ərazilərində tətbiq olunur.

Bu sistemlərlə yanaşı preferensal səsvermə kimi tanınan alternativ səsvermə və Fransada tətbiq olunan iki turluq sistem mövcuddur. Bunların hər ikisi, hamısı qalibə çatır, sistemin potensial qüsurunu aradan qaldırmağa imkan yaradır. Bu qüsur ondan ibarətdir ki, bir mandata iki namizəd iddia etdikdə, qələbə gözlənilmədən elə namizədə çata bilir ki, seçicilərə yenidən seçim imkanı verilsə, onlar həmin namizədi rədd edərlər. Alternativ səsvermə bu imkanı yaradır. Alternativ səsvermə sistemindən yalnız Avstraliyada və bir qədər dəyişilmiş şəkildə Sakit okeandakı Nauru ada dövlətində istifadə olunmasına baxmayaraq, bəzi ekspertlər onu dəstəkləyir. Bu sistemə görə namizədlər birmandatlı dairələr üzrə seçilir (majoritar sistemdə olduğu kimi). Lakin fərq ondan ibarətdir ki, seçicilər öz istəklərinə uyğun olaraq, namizədləri siyahı üzrə sıraya düzürlər. Siyahıda birinci yer tutana 1 bal, ikinci yer tutana 2 bal verilir və s. Namizədlərin heç birisəslərin əksəriyy-

ətini toplaya bilmədikdə, ən az səs toplamış namizəd sıradan çıxır. Bu proses o vaxta qədər davam edir ki,namizədlərin hansısa biri səslərinin 50%-ni toplamış olsun. Belə olduqda təkrar hesablama zamanı, namizədə verilmiş "ikinci yerlərin"cəmi nəzərə alınır. Fransada tətbiq olunan iki turluq sistem, analoji nəticənin əldə olunmasına yönəlib.

Qeyd edək ki, Azərbaycan Respublikasının Milli Məclisinə birinci (1995-ci il) və ikinci çağırışda (2000-ci ildə) seçkilər qarışıq seçki sistemi əsasında həyata keçirilmişdir [1]. Lakin Azərbaycan Respublikası Konstitusiyasında dəyişikliklər edilməsi haqqında 2002 il avqustun 24-ü ümumxalq referendumunda qəbuledilmiş dəyişikliklər nəticəsində Milli Məclisə yalnız majoritar seçki sistemi əsasında seçkilərin keçirilməsi müəyyən edildi [5, 6]. Bu heç də proporsional nümayəndəlik sistemindən birdəfəlik imtina deyil. Hazırda siyasi partiyaların mövcud durumunda, seçkilərin majoritar qaydada keçirilməsi məntiqlidir və fikrimcə bu hazırkı dönəmdə ən yaxşı seçki formalarındandır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitutsiyası. 12 noyabr,1995-ci il.
2. Çirkin V.Y., (tərcümə edəni Ə. H. Hüseynov). Xarici ölkələrin konstitutsiya hüququ. Bakı, Digesta, 2007, 720 s.
3. http://arxiv.az/az/bizimyol.info/7037762/Ziyafet+Esgerov:+Majoritar+secki+sistemi+daha+meqbuldur
4. https://az.facebook.com/permalink.php?story_fbid=513753322020147&id=505667012828778
5. http://az.apa.az/news/813281
6. http://modern.az/articles/50444/1/s.ərba



## ABSTRACT

**Fuad Halilzade**

**Majoritarian system, and unlike other electoral systems on the system**

This article deals with the essence of the concept of majority system, on the types of the so-called relative and absolute majority of votes, and unlike other electoral systems from the system. As well as being investigated adjustable attitude of the majority system, explains the legal issues related to the role and place of this system. By highlighting the advantages of the majoritarian electoral system, says the widespread use of this system in the modern world practice.



## РЕЗЮМЕ

**Фуад Халилзаде**

**Мажоритарная избирательная система и отличие других избирательных систем от этой системы**

В этой статье речь идет о сущности понятия мажоритарной системы, о типах так называемого относительного и абсолютного большинства голосов и отличие других избирательных систем от этой системы. А также выясняются регулируемые отношения мажоритарной системы, дается объяснение правовым вопросам, связанным с ролью и местом этой системы. Автор подчеркивая преимущества мажоритарной избирательной системы, говорит о широком применении этой системы в современной мировой практике.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor M. Rzayev*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2016, № 5(79)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2016, № 5 (79)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2016, № 5 (79)**

**RƏŞADƏ QULİYEVA**
*Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin*
*Məhkəmə Ekspertizası Mərkəzinin dissertantı*

***UOT:343***

# QRUP HALINDA TÖRƏDİLƏN TAMAH-ZORAKI CİNAYƏTLƏRƏ DAİR İŞLƏR ÜZRƏ SÜBUTETMƏDƏ MƏHKƏMƏ EKSPERTİZALARININ ROLU VƏ ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** *cinayətkar qrup, tamah-zorakı cinayətlər, qrup halında törədilən cinayətlərin istintaqında məhkəmə ekspertizaları.*

***Keywords:*** *criminal group, mercenary violent crimes, forensics in investigation of crimes committed by group.*

***Ключевые слова:*** *преступная группа, корыстно-насильственные преступления, экспертизы во время расследования преступлений совершенных группой.*

Son illərdə cinayətlərin yeni forma və növlərinin yaranması, cinayətkarların elmi-texniki tərəqqinin bəxş etdiyi ən müasir texniki vasitələrdən, informasiya-telekommunikasiya texnologiyalarından daha geniş şəkildə istifadə hallarının artması, cinayətkar qruplar tərəfindən törədilən tamah-zorakı cinayətlərin ictimai təhlükəliliyinin yüksəlməsi kimi bir şəraitdə cinayətlərin araşdırılması zamanı məhkəmə ekspertizasının rolu və əhəmiyyəti xeyli artmışdır. Bunu, son illərdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinə daxil olan ekspertizaların sayının daima artması da əyani şəkildə göstərir. Belə ki, 2012-ci ildə Məhkəmə Ekspertizası Mərkəzinə 21251 ekspertiza daxil olduğu halda, 2015-ci ildə daxil olmuş ekspertizaların sayı 29,8% artaraq 27584 təşkil etmişdir.

Cinayətkar qruplar tərəfindən törədilən kriminal əməllərə dair işlər üzrə müxtəlif ekspertizalar, o cümlədən daktiloskopik, məhkəmə-tibbi, psixiatrik, məhkəmə xətşünaslıq, trasoloji, ballistik, bioloji, fonoskopik və sair kimi ekspertizalar təyin oluna bilər. O.P.Berdnikova hesab edir ki, qrup halında törədilən cinayətlərin, xüsusən də soyğunçuluq və quldurluğun istintaqı zamanı daha çox məhkəmə-tibbi, trasoloji, daktiloskopik, ballistik və soyuq silahların ekspertizası təyin edilir (4, s.29). E.S.Kramskaya, bu kateqoriyalı cinayət işlərinin istintaqı zamanı böyük əksəriyyət hallarda məhkəmə ekspertizalarının təyin edildiyini, onların arasında isə qeyd olunanlarla yanaşı, məhkəmə-tibbi, məhkəmə-psixiatrik, məhkəmə-psixoloji ekspertizalarının da önəmli rol oynadıqlarını xüsusi olaraq qeyd edir (5, s.190).

Məhkəmə-istintaq və ekspert təcrübəsinin öyrənilməsi, müstəntiqlər və ekspertlər arasında keçirilən sorğuların nəticələri göstərir ki, qrup halında törədilən quldurluq, soyğunçuluq, tamah məqsədilə qəsdən adam öldürmə və sair kimi tamah-zorakı cinayətlərin istintaqı zamanı məhkəmə ekspertizaları faktiki olaraq əksər cinayət işləri (88%) üzrə təyin edilmişdir. Onların sırasında odlu və soyuq silahların ballistik ekspertizası(46%); hadisə yerindən götürülmüş əl, ayaq və nəqliyyat vasitələrinin izlərinin trasoloji ekspertizası (45%), sındırma alət və vasitələrinin, bağlayıcı qurğu və mexanizmlərin ekspertizası (38%); məhkəmə-tibbi ekspertiza (33,7%), lifli materialların kriminalistik ekspertizası (17%), məhkəmə-psixiatrik və ya məhkəmə-psixoloji ekspertiza (9,0%), fonoskopik ekspertiza (5%), digər ekspertizalar (19%) göstərilə bilər.

Qrup halında törədilən tamah-zorakı cinayətlərin açılması və istintaqında, cinayətkarların tez bir zamanda ifşa edilərək məsuliyyətə cəlb olunmasında maddi sübut kimi mikroobyektlərin kriminalistik tədqiqatının və bu əsasda alınan ekspert rəylərinin rolu və əhəmiyyəti böyükdür. Bunu istintaq təcrübəsi də əyani şəkildə göstərir. Məsələn, üç yeniyetmə Gəncə şəhərində qaranlıq küçələrin birində işdən evə qayıdan S.-nin qarşısını kəsmiş, yeniyetmələrdən ikisi onu tutub

saxlamış, digəri isə qadının boynundakı qızıl boyunbağını və əlindəki qızıl üzüyü, habelə çantasında olan 137 manat pulu götürərək qaçmışlar. İsti izlərlə keçirilən əməliyyat-axtarış tədbirləri ilə bu şəxslər tutulmuş, təxirəsalınmaz istintaq hərəkətləri və sonradan keçirilən məhkəmə ekspertizası vasitəsilə yeniyetmələrdən ikisinin paltarlarının üzərindən götürülən liflərin, qadının üzərində olan jaketin lifləri ilə eyni olması müəyyən edilmişdir. Beləliklə, ekspert rəyi cinayətin məhz bu şəxslər tərəfindən törədilməsinin sübut edilməsində istifadə edilmişdir.

Mikroobyektlərin (mikrohissəciklərin) xüsusi növlərindən biri də lifli materiallardır. Bu tip mikroobyektlər lifli materialların və onlardan hazırlanmış məmulatların kriminalistik ekspertizası çərçivəsində tədqiq edilir. Lifli materiallar və onlardan hazırlanmış məmulatların kriminalistik ekspertizasının vəzifələrinə aşağıdakılar daxildir: lifli materiallar və onlardan hazırlanmış məmulatların qrup mənsubiyyətinin müəyyən edilməsi; əşya üzərində aşkar edilmiş lif mikrohissəciyinin əmələgəlmə mexanizminin və baş vermiş hadisə ilə uyğunluğunun müəyyən edilməsi; müəyyən bir obyekt üzərində lif mikrohissəciyinin lokallaşması zonalarının müəyyən olunması; geyim dəstləri üzərində olan toxunma lif hissəciklərinə və çirklənmə izlərinə görə onların qarşılıqlı təmasda olması faktının müəyyən edilməsi; lif mikrohissəciklərinin və digər mikroizlərin məcmusuna görə geyim dəstlərinin cinayət aləti (məsələn, soyuq silah) və ya nəqliyyat vasitəsi ilə qarşılıqlı əlaqədə olması faktının müəyyən edilməsi; yanmış qalıqlara əsasən geyim əşyalarının və ya digər lif təbiətli obyektlərin növünün və təyinatının müəyyən edilməsi; konkret parça kəsiyinin, geyim əşyasının hissəsinə görə tamın müəyyən edilməsi; lif materiallarına əsasən geyim əşyalarının (əlcək dəstinin, sviterin) eyniləşdirilməsi və s.(2, s.118; 1, s.245; 3, s.104).

Cinayətkar qruplar tərəfindən törədilən tamah-zorakı cinayətlərin istintaqı zamanı yaranan çətinliklərdən biri də cinayətkar qrupun strukturunun üzə çıxarılması, qrupun hər bir iştirakçısının rolunun, qrupda şəxsiyyətlərarası münasibətlərin müəyyən edilməsi ilə bağlıdır. Bu hallarda məhkəmə-psixoloji ekspertizasının təyini və aparılması zərurililiyi yaranır.

Bu kateqoriyalı işlərin analizi ekspert-psixoloqların cəlb edilməsinin yüksək effektivliyini göstərir. Məsələn, A., K. və N. tərəfindən qrup halında törədilən quldurluğun istintaqı zamanı məhkəmə-psixoloji ekspertizası qarşısında həll edilmək üçün bu qrupun qeyri-formal liderinin müəyyən edilməsi vəzifəsi qoyulmuşdur. Cinayətkar qrup quldur basqınını maskalardan istifadə etməklə həyata keçirdiklərindən onların tanılması çətinləşmişdir. Ekspert-psixoloq apardığı tədqiqatlar nəticəsində bütün qrup üzvlərinin ətraflı psixoloji xarakteristikasını vermiş və öz rəyində göstərmişdir ki, tədqiq edilən qrupun qeyri-formal lideri A.-dır. Onun qrupun qeyri-formal lideri olmasını daha yüksək intellektual inkişaf səviyyəsi, inkişaf etmiş iradi keyfiyyətlərə və təşkilati bacarıqlara malik olması, ünsiyyətçilik, təşəbbüskarlıq, inadkarlıq, emosional dayanıqlıq kimi xüsusiyyətləri, böyük təcrübəyə, o cümlədən cinayətkar təcrübəyə malik olması, dünyagörüşcə digərlərindən əhəmiyyətli dərəcədə fərqlənməsi, soyuqqanlılıq, özünə inam, fiziki cəhətdən inkişaf etməsi və sair kimi xassə və xüsusiyyətlərin daşıyıcısı olması göstərir. Qeyd edək ki, məhkəmə ittiham hökmünü çıxararkən məhkəmə-psixoloji ekspertizası rəyində əks olunan faktiki materiallara əsaslanmışdır (6, s.14-15).

Qeyd edək ki, məhkəmə-psixoloji ekspertizası yarandığı, bu ekspertiza icraatının elmi-nəzəri və metodiki əsaslarının formalaşdığı illər ərzində onun bir sıra ənənəvi növləri təşəkkül tapmışdır: 1) iş üçün əhəmiyyətli halların qavranılması və onlar haqqında düzgün ifadə vermək qabiliyyətinin müəyyən edilməsi üzrə məhkəmə-psixoloji ekspertizası; 2) şəxsin özünün və ona qarşı edilmiş hərəkətlərin mahiyyətini dərk etmək qabiliyyətinin məhkəmə-psixoloji ekspertizası; 3) yetkinlik yaşına çatmamış təqsirləndirilən şəxslərin məhkəmə-psixoloji ekspertizası; 4) suisidal halların məhkəmə-psixoloji ekspertizası; 5) psixi-emosional halların məhkəmə-psixoloji ekspertizası; 6) yol-nəqliyyat hadisələri ilə əlaqədar məhkəmə-psixoloji ekspertizası; 7) texniki sistemlərin idarə edilməsi zamanı baş verən qəzaların məhkəmə-psixoloji ekspertizası.

Eyni zamanda cinayətkarlığın vəziyyəti, dinamikası və strukturunda kəmiyyət-keyfiyyət xarakterli dəyişikliklərin baş verməsi, bu neqativ sosial-hüquqi hadisədə bir sıra yeni neqativ meyllərin yaranması, cinayətlərin yeni növlərinin və onların törədilməsinin yeni üsullarının meydana gəlməsi, cinayətkar fəaliyyətin mütəşəkkilliyinin, peşəkarlığının artması, qrup halında törədilən ağır və xüsusilə ağır cinayətlərin xüsusi çəkisinin yüksəlməsi məhkəmə-psixoloji ekspertizasının yeni

istiqamətlərinin yaranması və inkişafı zəruriliyini şərtləndirir. Bu yeni istiqamətlər yeni, qeyri-ənənəvi ekspertiza növlərində reallaşdırılır. Məhkəmə-psixoloji ekspertizalarının belə qeyri-ənənəvi növlərindən biri də cinayətkar qrupların psixoloji ekspertizasıdır.

Psixologiya elminin müasir inkişaf səviyyəsi məhkəmə-psixoloji ekspertizası çərçivəsində cinayətkar qrupda şəxsiyyətlərarası münasibətlərin xarakterinin, liderlik xüsusiyyətlərinə malik olan, zorakılığa meylli olan şəxslərin, qrupun qeyri-formal strukturunu, qrup üzvlərinin, o cümlədən qrupun liderinin psixoloji xüsusiyyətlərinin müəyyən edilməsinə imkan verir.

İ.S.İlyin, cinayətkar qrupun liderinin və ya təşkilatçısının üzə çıxarılması və qrupun strukturunda onun aparıcı rolunun sübut edilməsi məqsədilə məhkəmə-psixoloji ekspertiza təyin edilməsinin əhəmiyyətini qeyd edir (7, s.5). V.Abramtsev da cinayətkar qruplaşmanın liderinin və qrupdaxili strukturunun müəyyən edilməsi məqsədilə məhkəmə-psixoloji tədqiqatların aparılmasının vacibliyini və hətta zəruriliyini qeyd edir. Müəllif, belə tədqiqatların aparılması zamanı ekspertin əsas vəzifəsinin cinayətkar qrupun liderinin üzə çıxarılmasından, cinayətkar qrupun hər bir iştirakçısının konkret cinayət epizodunda rolu haqqında ifadəsinin onun intellektual-iradi və xarakterioloji xüsusiyyətlərinə uyğunluğunun müəyyən edilməsindən ibarət olduğunu göstərir (8, s.284-285).

İ.A.Furmanov hesab edir ki, qrup halında törədilən cinayətlərin ibtidai istintaqında ekspert-psixoloqun əsas vəzifəsi qrup üzvləri arasında qarşılıqlı münasibətlərin tipik formalarının, qrupda liderin və ya təşkilatçının üzə çıxarılmasından, qrupun hər bir üzvünün tərədilmiş əməldə rolunun müəyyən edilməsindən ibarətdir (9, s.49-50).

Qrup halında törədilən tamah-zorakı cinayətlərin istintaqında məhkəmə-psixoloji ekspertizasının təyini zamanı işin konkret hallarından asılı olaraq aşağıdakı kimi suallar qoyula bilər: Qrup üzvlərindən hansı şəxs özünün fərdi-psixi xüsusiyyətlərinə görə qrupda lider mövqeyi tuta bilər; təqsirləndirilən şəxslərdən kim təlqinə qapılmağa, təsir altına düşməyə, tabe olmağa, qorxaqlığa, zəif iradi keyfiyyətlərə malikdir; təqsirləndirilən şəxslərin psixi inkişaf səviyyələri necədir (3, s.163-164; 6, s.83-85).

Beləliklə, cinayətkar qrupun strukturunun, onun ayrı-ayrı üzvlərinin cinayətkar fəaliyyətdə rolunun öyrənilməsi məqsədilə ekspert-psixoloqlar qarşısında aşağıdakı suallar qoyula bilər: müayinəyə təqdim olunanın fərdi-psixoloji xüsusiyyətlər nədən ibarətdir; müayinə olunan şəxsin cinayətkar qrupa qoşulmasının motivasiyası nədir; cinayət əməlində qrup üzvlərinin hər birinin rolu nədən ibarətdir; psixoloji tədqiqat obyekti olan şəxslərdən hansının şəxsiyyətinin psixoloji xüsusiyyətləri ona qrupda liderlik mövqeyini tutmağa imkan verir; müayinə edilən şəxslər arasında yüksək təlqinliyə qapılma, konformizm və ya yüksək təcavüzkarlıq, qəddarlıq kimi xüsusiyyətlərə malik olanlar varmı, varsa konkret olaraq kimdir; cinayətkar qrup iyerarxiyalıq, sabitlik, həmrəylik, rolların bölgüsü, liderin mövcudluğu kimi sosial-psixoloji əlamətlərin daşıyıcısıdırmı.

## ƏDƏBİYYAT


1. Sarıcalinskaya K.Q., Cavadov F.M., Mahmudov A.M., Əliyev B.Ə. Məhkəmə ekspertizası. Dərs vəsaiti, Bakı, 2003
2. Məhkəmə ekspertizası. Sxemlər albomu (dərs vəsaiti). Bakı, 2007
3. Məhkəmə ekspertizası qarşısında qoyulan sualların nümunəvi siyahısı. Bakı, 2005
4. Бердникова О.П. Особенности расследование грабежей и разбоев, совершенных организованными группами: Автореф.дисс…к.ю.н. Екатеринбург, 2016
5. Крамская Е.С. Методика расследования грабежей и разбоев, совершаемых группами несовершеннолетних: Диссерт….к.ю.н. М., 2008
6. Васильев В.Л. Психологические аспекты преступных формирований и расследования совершаемых ими преступлений. СПб., 1994
7. Ильин И.С. Отдельные аспекты доказывания структурированности деятельности, организованной преступной группы//www.apriori-cournal.ru /seria1/3-2015/
8. Аврамцев В. Нетрадиционные виды судебно-психологической экспертизы//«Черные дыры» в Российском законодательстве. М.,2006, №4.
9. Фурманов И.А. Судебно-психологическая экспертиза. Минск, 2014.

**ABSTRACT**

**Rashada Guliyeva**

This article researches a role and importance of forensic examination in providing proves on cases relating to mercenary violent crimes committed by group and analyzes capacities of a number of forensic examination types in investigation and solution of cases relating to deliberate murder with a view of robbery, brigandage and gain. Special attention is paid to forensic investigation of micro-objects (micro particles) as well to forensics of products made from such micro-objects. Key functions of this type of forensics in investigation of crimes committed by group are described in this article. In addition, the article notes the role and importance of untraditional type of forensic and psychological examination that includes psychological examination of the criminal groups for investigation and solution of mercenary violent crimes, and systematizes cases solved within the framework of this type of examination.

**РЕЗЮМЕ**

**Рашада Кулиева**

В статье исследованы вопросы, связанные с ролью и значением судебной экспертизы в доказывании корыстно-насильственных преступлений, совершенных группой, проанализированы возможности ряда видов судебных экспертиз в раскрытии и расследовании таких преступлений как грабёж, разбой, умышленное убийство в корыстных целях. Было уделено особое внимание криминалистическому исследованию микрообъектов (микрочастиц), в том числе криминалистической экспертизе волокнистых материалов и изделий из них. Указаны основные задачи такого рода экспертиз во время расследования преступлений, совершенных группой. В статье отмечена роль и значение нетрадиционного вида судебно-психологической экспертизы – психологической экспертизы преступных групп в раскрытии и расследовании корыстно-насильственных преступлений, совершенных группой, систематизированы задачи, решаемые в рамках такого рода экспертиз.

NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *Fəlsəfə üzrə elmlər doktoru, professor M. Rzayev*

**KÖNÜL SALMANOVA**
*Naxçıvan Dövlət Universiteti*

***UOT:14***

# FƏALİYYƏT ANLAYIŞININ SOSİAL-FƏLSƏFİ MAHİYYƏTİ

***Açar sözlər**: fəaliyyət, ünsiyyət, praktika, anlayış*
***Keys words**: action,communication, practice, concept*
***Ключевые слова**: деятельность, общение, практика, сущность*

Fəaliyyət problemi bütün dövrlərdə filosoflarını və konkret elm nümayəndələrinin diqqət mərkəzində olmuşdur. Lakin tarixən fəaliyyət anlayışı, onun mahiyyəti, strukturu qədim zamanlardan idealist fəlsəfədə işlənilmişdir. Şüurun fəal, yaradıcı xarakter daşıması idealistcəsinə məhz klassik alman fəlsəfəsində daha qabarıq şəkildə qoyulmuş və bir sıra dəyərli fikirlər söylənilmişdir. Fəaliyyəti ilk dəfə mədəniyyətin ən ümumi əsası dərəcəsinə yüksəldən Fixte olmuşdur. Fəaliyyətin ən inkişaf etmiş nəzəriyyəsini Hegel yaratmışdır. O, fəaliyyət anlayışını, onun strukturunu hərtərəfli təhlil etmiş, sosial-tarixi və mədəni cəhətdən şərtlənməsi və formaları haqqında maraqlı, məzmunlu müddəalar irəli sürmüşdür.

K.Marks klassik alman fəlsəfəsinin nümayəndələrinin dəyərli fikirlərindən istifadə edərək fəaliyyət anlayışının dialektik-materialist əsaslarını yaratmışdır. O, fəaliyyət anlayışı haqqındakı müddəasını praktika kimi inkişaf etdirir (1, s.57-58). K.Marksa görə insan təbii və sosial reallığa təsir göstərməklə və onu dəyişdirməklə yanaşı o, eyni zamanda özünün təbiətini də dəyişdirir. Maddi istehsalın və ictimai münasibətlərin tarixi inkişaf prosesində spesifik mənəvi istehsal yaranır və nisbi müstəqil inkişaf edir; maddi istehsal kimi mənəvi istehsal da universal-dəyişdirici və ictimai xarakterə malikdir. K.Marks fəaliyyət anlayışını geniş mənada, yəni ətraf aləmə rəngarəng, müxtəlif insani münasibət, insan mahiyyətinin çoxtərəfli təzahürü kimi işlədir. O, yazır :"...İnsan gerçəkliyi müxtəlif olduğuna görə insan mahiyyətinin və insan fəaliyyətinin müəyyən olunması da müxtəlifdir“ (2, s.592)

XIX əsrin sonu və XX əsrin əvvəlində fəaliyyətin mühüm elementi olan hərəkət haqqında müxtəlif fikirlər söylənilir. Belə ki, C.Dyun fəlsəfi praqmatizm istiqamətində hərəkət nəzəriyyəsini yaradır; M.Veber fərdi sosial hərəkətlərin müxtəlif növlərini təhlil edir; Piaje məntiqi-riyazi və psixoloji əsasda hərəkətin və insanın operasional intellektinin konsepsiyasını işləyib hazırlamışdır (3, s.26-27).

Bununla yanaşı, XX əsrdə Qərb fəlsəfəsində fəaliyyəti insan varlığının mahiyyəti və mədəniyyətin ümumi əsası olması haqqındakı müddəadan imtina etmək meyli meydana çıxır və getdikcə güclənir. Müasir dövrdə bir sıra Qərb fəlsəfi cərəyanlar (postmodernizm, poststrukturalizm, fenomenologiya, hermenevtika və s.) fəaliyyət mövqeyindən yanaşmanı hətta inkar edirlər.

XX əsrin 70-80-ci illərindən dünyanın müxtəlif ölkələrində fəaliyyət probleminə maraq artır, bir neçə beynəlxalq simpozium və konqreslər keçirilir, fəaliyyət problemini öyrənmək üzrə beynəlxalq cəmiyyət yaradılır və onun 1988-ci ildə Berlində ingilis dilində “Activity Theory” jurnalı nəşr olunur. XX əsrin sonu və XXI əsrin əvvəlində Rusiya və Azərbaycan fəlsəfi fikrində fəaliyyət kateqoriyasının statusu, fənlərarası xarakteri və digər humanitar anlayışlar (məsələn, davranış, hərəkət, ünsiyyət və s.) sırasında yeri, fəaliyyət mövqeyindən yanaşma prinsipinin izahedici funksiyası, tətbiq olunma sferaları və hüdudları, “fəaliyyətdən kənar” fəaliyyət tipli nəzəriyyə və s. haqqında qızğın mübahisələr gedir; bunun nəticəsində Moskvada 1990-cı ildə “Fəaliyyət: nəzəriyyələr, metodologiya, problemlər” adlı məcmuə, Azərbaycanda isə 2005-ci ildə İ.S.Qılıcovun “Fəaliyyət və dəyərlər seçimi” adlı dəyərli, maraqlı monoqrafiyası və bir neçə sanballı məqalələr çap olunur.

Dünya humanitar elmində “fəaliyyət” termini geniş mənada işlədilir. B.B.Davıdovun

“Activity” termini  uyğun gəlir və buna görə də praktiki və ya idrakı fəallığın istənilən növü “Activity” adlanır. Lakin insan həyatının fəallığının təzahürlərinin hamısı  fəaliyyətə aid edilə bilməz. Həqiqi fəaliyyət həmişə gerçəkliyin yeniləşdirilməsi  ilə bağlıdır. Azərbaycan dilində də “fəaliyyət” termini fəal sözündən əmələ gəlmişdir və bu ingilis dilindəki “Activity” sözünə yaxındır. Gerçəkliyin dəyişdirilməsi kontekstində “fəaliyyət” termininə alman dilindəki “Tatigkeiz” və “Handlung” sözləri daha çox uyğun gəlir (3, s.28).

Fəlsəfi və psixoloji ədəbiyyatda fəaliyyətə müxtəlif və çoxsaylı təriflər verilməsinə baxmayaraq bu anlayış və onun başlıca atributları barədə birmənalı və hamı tərəfindən qəbul olunan vahid fikir yoxdur. Fəaliyyət anlayışı yalnız təbiətşünaslıq və konkret humanitar elmlərdlə (psixologiya, linqvistika, etnoqrafiya və s.) deyil, fəlsəfənin özündə də müxtəlif aspektlərdə araşdırılır. Yusif Rüstəmov bu münasibətdə, aşağıdakı aspektləri göstərir: a) ümumiyyətlə, insan fəaliyyətinin tədqiqi ilə məşğul olan fəlsəfi bilik sahəsinə praksiologiya (yun. “praktikos” – fəallıq) deyilir; b) sosial fəlsəfə fəaliyyəti şəxsiyyətin sosiallaşması üsulu kimi  öyrənilir;  c) sosiologiyada fəaliyyət (sosial hərəkət) sosial orqanizmin başqalarına yönəlmiş subyektiv motivasiyası ilə xarakterizə edilən və şəxsiyyət ilə cəmiyyət arasında əlaqəni təmin edən hüceyrəsi kimi tədqiq edilir; ç) ontologiyada fəaliyyət insanın elə varlıq formasıdır ki, burada onun mövcudluq qüvvəsi daha yaxşı üzə çıxır; d) idrak nəzəriyyəsində maddi olan hissi-əşyavi fəaliyyət nəzərdən keçirilir; e)aksiologiyada fəaliyyət dəyərlər və dəyərlər movqeyindən yanaşma prinsipi əsasında nəzərdən keçirilir ( 4, s.19; 282).

Qeyd etdiyimiz kimi, nəzəri tədqiqatlarda fəaliyyət termini çox geniş mənada işlədilir və birmənalı istifadə olunmur. Belə ki, bura cansız təbiətin də müxtəlif təzahür formaları daxil edilir. Məsələn, “çayların fəaliyyəti”, “okeanın fəaliyyəti”, “vulkanın fəaliyyəti”, “ali əsəb fəaliyyəti”, “genlərin fəaliyyəti” və s. haqqında  danışırlar. Sözügedən terminin fəlsəfədə də buna oxşar şəkildə işlədilməsinə rast gəlmək olar (4, s.4). Məsələn, Hegel “fəaliyyət” termini ilə anlayışını hərəkətini ifadə edirdi. O, prosesin, o cümlədən kimyəvi çevrilmələrin fəaliyyəti, substansiya və səbəbin fəaliyyəti və s. haqqında yazırdı (5, s.180-183; 290).

“Fəaliyyət” termininin məzmunuunu həddindən artıq geniş mənada götürülməsini, onu bioloji aləmə və cansız təbiət hadisələrinə şamil edilməsini tədqiqatçıların böyük əksəriyyəti qəbul etmir. İ.S.Qılıcov haqlı olaraq bu müddəanı  düzgün tənqid edir və göstərir ki, belə halda həmin anlayış müəyyən hərəkətlər etmək, yəni enerji sərf etməklə dəyişikliklər yaratmaq mənası ilə eyniləşdirilir, bioloji aləm və təbiət prosesləri ilə müqayisədə sosial proseslərin fərqinə məhəl qoyulmur. Ən başlıcası isə budur ki, fəaliyyətin insanın dünyada spesifik mövcudluq  üsulu  olması mahiyyəti kölgədə qalır.

İ.S.Qılıcov “fəaliyyət” termini haqqında fikrini ümumiləşdirərək  yazır: “fəaliyyət anlayışını yalnız cəmiyyətə xas olan keyfiyyət, insanın həyata özünəməxsus münasibət forması kimi səciyyələndirmək  məqsədəuyğundur” (6, s.193).  Mən də hesab edirəm ki,  fəaliyyət anlayışı  yalnız cəmiyyətə  xas olan  sosial keyfiyyətdir,  onunla bioloji  və cansız  təbiətdə gedən dəyişikliklərin oxşar cəhətlərə malik olması məqamını şişirtmək  metodoloji cəhətdən  düzgün deyildir.

Müasir dövrdə fəaliyyətin və əməyin insan həyatında yeri və rolu keyfiyyətcə dəyişmişdir; bu proses getdikcə daha geniş miqyas alır. Belə ki, indi onun məzmunu sırf maddi nemətlər istehsalı və ya obyektiv şəraitin dəyişdirilməsi sferasından kənara çıxır, elm və biliklərə qovuşur və getdikcə daha çox kollektiv fəaliyyət kimi çıxış edir, onun kommunikasiya ilə əlaqələri çoxtərəfli xarakter alır. Bu fakta əsaslanaraq bəzi müəlliflər fəaliyyət ilə kommunikasiyanı (ünsiyyəti) bir-birinə qarşı qoyur. Bu fikir ilə razılaşmaq çətindir. Çünki müasir  şəraitdə kommunikasiyanın özü də fəaliyyətin bir növünə çevrilməyə başlayır.

İctimai həyatın bütün sahələrində baş verən köklü transformasiya prosesləri insan fəaliyyətinin nəinki yeni növləri və formalarını, səpkilərini, məna çalarlarını yaradır, həm də onların müasir metodoloji prinsiplər əsasında araşdırılmasını sosial fəlsəfənin  qarşısında mühüm bir vəzifə kimi qoyur.

Fəaliyyətin, daha dəqiq desək insan fəaliyyətinin sosial-fəlsəfi mahiyyətini açmaq üçün ilk növbədə ona çox yaxın olan və çox hallarda onunla eyniləşdirilən anlayışlar (ictimai münasibətlər, ünsiyyət, davranış, praktika) arasındakı ümumi və fərqli cəhətləri, onlardan hər birinin nisbi müstəqilliyə malik olmasını təhlil etmək zəruridir.

Fəlsəfi ədəbiyyatda əsassız olaraq fəaliyyət və ictimai münasibətlər eyniləşdirilir (7, s.103-107; 8,

s.98). Lakin fəlsəfə elminin ən yeni nailiyyətləri onları eyniləşdirməyə imkan vermir. Fəaliyyət və ictimai münasibətlərin əlaqəsi mürəkkəb və birmənalı deyildir; onların eyni real, predmet praktiki sferanın hadisəsi olması şübhə doğurmur. Məhz ictimai münasibətlər fəaliyyətin təşkili üsulunu, insanın öz fəaliyyətini həyata keçirmək üçün zəruri olan obyektiv şəraitlə birləşmə üsulunu müəyyən edir. L.P.Buyeva düzgün qeyd edir ki, ictimai əlaqə və münasibətlərdən kənarda insan fəaliyyəti potensial imkan olaraq qalır (8, s.50). İctimai münasibətlər fəaliyyətin hissəsi, növü, tərəfi, aspekti deyildir; ictimai münasibətlər insanların fəaliyyətinin nəticəsidir. Həqiqi ictimai münasibətləri və onların həqiqi inkişafını tədqiq etməklə, biz canlı şəxsiyyətin fəaliyyətinin məhsulunu tədqiq etmiş oluruq. Bunu da nəzərdə tutmaq lazımdır ki, ictimai münasibətlərin fəaliyyətdən asılılığını yalnız nəticə və səbəb, ilk və törəmə əlaqəsi kimi başa düşmək düzgün olmazdı. Bu münasibətdə E.V.Semyonovun belə bir fikri ilə razılaşmaq olar ki, ictimai fəaliyyətin müəyyən növünə müəyyən ictimai münasibətlər uyğun gəlməlidir. Başqa sözlə, fəaliyyətin xarakterinə uyğun olaraq bu və ya digər ictimai münasibətlər təşəkkül tapır. Ictimai münasibətlər zəruri olaraq insan fəaliyyəti əsasında və onunla əlaqədar olaraq formalaşır və inkişaf edir (9, s.87-103). Buradan beli bir nəticə çıxartmaq olar ki, sosial fəaliyyət ictimai münasibətlərə nisbətən gerçəkliyin daha dərin və konkret amilidir. Ictimai münasibətlər fəaliyyətin inkişafının özünəməxsus nəticəsi, zahiri ifadəsidir. Ancaq bu fəaliyyətə nisbətən ictimai münasibətlərin daha geniş kateqoriya olması təsəvvürü yaratmamalıdır. Çünki belə halda fəaliyyət ictimai münasibətlərin obrazlı şəkildə desək "kərpici" olacaqdır. Zənnimcə, fəaliyyət və ictimai münasibətlər öz həcmlərinə görə müqayisə oluna bilməzlər; onların bir-birini qarşılıqlı şərtləndirilməsi prosesi daha mürəkkəb və çoxmənalıdır.

İnsan fəaliyyəti – ictimai münasibətlərin "materialıdır". Ictimai münasibətlər insanların fəaliyyətinin zəruri, vacib tərəfi olsa da, həmin fəaliyyətin mövcudluğunun və realizəsinin yalnız formasıdır. K.Marks yazırdı: "maddi münasibətlər... maddi və fərdi fəaliyyətin həyata keçirilməsinin yalnız zəruri formasıdır (10, s.403). İnsan fəaliyyəti özünün forması olmadan, yəni ictimai münasibətlərsiz mövcud ola bilməz. Məhz buna görə də, ictimai münasibətlər fəaliyyətin həyata keçirilməsinin müqəddəm şərti, konkret tarixi şəraiti, varlıq üsulu, forma və nəticəsi kimi çıxış edirlər.

Fəaliyyət və ictimai münasibətlər obyektiv proseslərə münasibətdə gerçəkliyin müxtəlif tərəflərini əks etdirirlər, vahid ictimai-tarixi praktikanın müxtəlif tərəfləri kimi çıxış edirlər. Sosial fəaliyyət O.V.Xanovanın dediyi kimi gerçəkliyin varlığının yeganə mümkün və yaxud əsas üsuludur; hər cür sosial qarşılıqlı təsir, bu və ya digər obyektlə əlaqədar olaraq insanlar arasındakı hər cür münasibətlər həmişə fəaliyyət mübadiləsi və ya həmin mübadilənin nəticəsi, yekunu kimi təzahür edir (11, s.4).

İctimai münasibətləri və insan fəaliyyətini fərqləndirərkən birincinin özünün müxtəlif səviyyələrini nəzərə almaq çox vacibdir. Bu o deməkdir ki, ictimai münasibətlərin hadisə səviyyəsində və mahiyyət səviyyəsində çıxış etdiyini müəyyən etmək lazımdır. Başqa sözlə, ictimai münasibətlərin bilavasitə mövcud olması ilə onun mahiyyət səviyyəsində mövcud olmasını eyniləşdirmək olmaz. Vahid sosial bütövlükdə fəaliyyət ictimai proseslərin dinamikasını, ictimai münasibətlər isə nisbi sabitliyi ifadə edir. Çox vaxt ictimai münasibətləri dəyişmək üçün insanların aktiv fəaliyyəti həyata keçirilir. Fəaliyyət yalnız bir aspektdə ictimai münasibətlərdən törəmədir və ya ikincidir. V.N.Saqatovskinin fikrincə, həmin aspekt fəaliyyətin obyektiv determinasiyası ilə bağlıdır. Məhz ictimai münasibətlər sistemi, onun cəmiyyət həyatında yaratdığı geniş imkanlar və məhdudiyyətlər insan fəaliyyətini obyektiv determinantı kimi çıxış edirlər. Insan fəaliyyətinin ictimai münasibətlərdən bu asılılığı elmi-idraki baxımdan olduqca vacibdir. Obyektiv reallığı münasibətdə insanın bütün fəaliyyəti subyektiv qismində çıxış edir; ictimai şüura münasibətdə isə o, obyektiv hadisə kimi çıxış edir. Fəaliyyətin obyektivliyi ondan ibarətdir ki, hər bir nəsil özünü təkcə öz fəaliyyətinin nəticələrində deyil, həm də onun həyata keçirilməsində obyektivləşdirir. Elmi ədəbiyyatda fəaliyyəti ya təkcə obyektiv, ya da yalnız subyektiv faktor kimi izah etməyə cəhd göstərən müəlliflər "obyektiv" və "obyektiv reallıq" anlayışları arasındakı mürəkkəb dialektik əlaqəni nəzərə almırlar. Subyektiv (ideal) reallıq ilə subyektivliyi də həmçinin bir-birindən fərqləndirmək lazımdır. Çünki, yalnız ideal deyil, həm də insanların maddi fəaliyyəti də subyektivdir. Tarixi materialistcəsinə başa düşməyin marksist təliminin müsbət və mənfi tərəflərini təhlil edib ümumiləşdirən T.İ.Oyzerman yazır: "Sosial obyektiv reallığın spesifikliyi bundadır ki, o təkcə obyektiv deyildir; bu – subyektiv ilə obyektivin və ya başqa sözlə deyilsə, subyekt-obyekt reallıqdır. Bu əksliklərin vəhdəti onların qarşılıqlı surətdə bir-birinə

keçməsini nəzərdə tutur. Sosial obyektiv ictimai istehsalla şərtlənən insan fəaliyyətinin obyektivləşməsi nəticəsində yaranır; ictimai istehsal da öz növbəsində əvvəlki ictimai istehsal ilə şərtlənən insan fəaliyyəti prosesidir (12, s.4). Beləliklə, ictimai münasibətlər insan fəaliyyətinin hissəsi, növü aspekti deyildir; ictimai münasibətlər insan fəaliyyətinin zəruri tərəfi, onun həyata keçirilməsinin müqəddəm şərti, konkret tarixi şəraiti, varlıq üsulu, forma və nəticəsidir. Ona görə də, insan fəaliyyətinin və ictimai münasibətləri sıx, ayrılmaz vəhdətdə götürmək lazımdır. Insan fəaliyyəti ictimai münasibətləri törədir; sonuncu da öz növbəsində insan fəaliyyətinin (onun fəaliyyət mahiyyətinin) zəruri ictimai formasına çevrilir. Onları nə eyniləşdirmək, nə də bir-birinə qarşı qoymaq olmaz.

İnsan fəaliyyəti anlayışına aydınlıq gətirə biləcək mühüm kateqoriyadan biri də ünsiyyət kateqoriyasıdır. Ünsiyyət fəaliyyətlə ayrılmaz vəhdətdədir, onlar arasında oxşar cəhətlər çoxdur. Insan fəaliyyəti anlayışında olduğu kimi ünsiyyət anlayışı haqqında fəlsəfi , sosioloji və psixoloji ədəbiyyatda hamı tərəfindən qəbul edilən ümumi tərifi yoxdur. Azərbaycanın məşhur psixoloqları Ə.S.Bayramov və Ə.Ə.Əlizadə ünsiyyətə aşağıdakı tərifi verirlər: "Ünsiyyət: iki və daha çox adamın münasibətləri aydınlaşdırmaq və ümumi nəticə əldə etmək məqsədilə öz səylərini əlaqələndirməyə və birləşdirməyə yönəldilmiş qarşılıqlı təsirinə ünsiyyət deyilir" (13, s.502). Bu tərif ümumilikdə sovet psixologiya elmindən götürülsə də ünsiyyətin psixoloji məqamlarını aydın şəkildə izah edir. Onların fikrincə ünsiyyətin funksiyaları aşağıdakılardır: a) insanların birgə fəaliyyətinin təşkili; b) şəxsiyyətlərarası münasibətlərin formalaşması və inkişafı (13, s.502). Ünsiyyətin yerinə yetirdiyi funksiyalara uyğun olaraq Ə.S.Bayramov və Ə.Ə.Əlizadə ən ümumi şəkildə ünsiyyət situasiyasının iki tipini fərqləndirmək olar: a) birgə fəaliyyətdə ünsiyyət; b) şəxsi (şəxsiyyətə məxsus) ünsiyyət (13, s.503).

Psixologiya elmində ünsiyyət başlıca olaraq insanlar arasında bilavasitə qarşılıqlı təsiri səciyyələndirir; ünsiyyət fərdlərarası əlaqə olmadan həyata keçirilə bilməz. Başqa sözlə, ünsiyyət bilavasitə kontaktlara müncər edilir, insanların birgə fəaliyyətini təşkil edir, şəxsiyyətlərarası münasibətləri formalaşdırır və inkişaf etdirir. Sözügedən tərifin üstün cəhəti orasındadır ki, burada insan fəaliyyəti və ünsiyyət eyniləşdirilmir, ikinci birincinin tərkib hissəsi kimi verilir, onlar arasındakı fərq xüsusi vurğulanır.

Ünsiyyət anlayışı müxtəlif sosial və mədəni sistemlər arasındakı qarşılıqlı təsiri səciyyələndirmək üçün də istifadə olunur (məsələn, "millətlərarası ünsiyyət", "mədəniyyətlərin ünsiyyəti", "beynəlxalq birliyin ünsiyyəti" və s.). Başqa sözlə, ünsiyyət yalnız şəxsiyyətlərarası əlaqə kimi götürülmür, ünsiyyət situasiyası təbii şəkildə fərdlərarası kontakt hüdudlarından kənara çıxır. Insan fəaliyyətini qarşılıqlı təsir və qarşılıqlı fəaliyyət kimi mənalandıran İ.S.Qılıcov yazır: "Bu halda fəaliyyətin iştirakçılarının qarşılıqlı təsiri kommunikasiya kimi nəzərdən keçirilir. Sonuncu o deməkdir ki, müasir fəaliyyətin iştirakçıları bu prosesdə yaranan problemləri daim birlikdə müzakirə etməli, qarşılıqlı surətdə dialoqda olmalıdır (6, s.185).

Sosial-fəlsəfi ədəbiyyatda fəaliyyət və ünsiyyətin nisbəti haqqında iki fikir, mövqe vardır: a) ünsiyyət fəaliyyətin xüsusi növüdür (14, s.64; 71). Psixoloji ədəbiyyatda bundan fərqli olsa da buna oxşar baxış vardır. Məsələn, O.K.Tixomirov yaradıcı fəaliyyət nəzəriyyəsindən bəhs edərkən "fəaliyyət" və "qarşılıqlı təsir", "fəaliyyət" və "ünsiyyət" kateqoriyalarının bir-birinə qarşı qoyulmasının yolverilməz olduğunu göstərir. O, sübut etməyə çalışır ki, fəaliyyət və ünsiyyətin qarşılıqlı təsiri fəaliyyət vasitəsi ilə olur, ünsiyyət isə birgə fəaliyyətə qovuşur, müəyyən hallarda isə hətta onun özü də fəaliyyətə çevrilir (ünsiyyətdə olmaq tələbatı, kommunikativ məqsədlər). O.K.Tixomirovun ünsiyyəti fəaliyyətin xüsusi növü hesab edən müəlliflərdən fərqi orasındadır ki, o, ünsiyyət və fəaliyyəti bir-birinə qarşı qoymur, onun fəaliyyətə qovuşduğunu, fəaliyyətin tərkib hissəsi olduğunu və yalnız müəyyən hallarda fəaliyyətə çevrildiyini xüsusi qeyd edir (15, s.32); b) ikinci baxışa əsasən ünsiyyət, fəaliyyətin növü deyildir, sosial gerçəkliyin xüsusi fenomenidir. Və belə hesab etmək olar ki, ünsiyyət və fəaliyyət ayrılmaz vəhdətdə olsalar da, onlar arasında bir çox oxşar cəhətlər olsa da, ünsiyyət özlüyündə fəaliyyət deyildir, onu fəaliyyətin bir növü hesab etmək nəzəri və praktiki cəhətdən özünü doğrultmur. Doğrudan da, insan fəaliyyətinin bütün növləri və formaları fəaliyyət prosesində iştirak edən bütün subyektlərin ünsiyyətdə olmasını, yəni onların qarşılıqlı təsirini, qarşılıqlı anlamını, informasiya mübadiləsini və s. tələb edir. Ünsiyyət maddi və mənəvi fəaliyyəti vasitələndirən başlıca amillərdən biridir.

İnsan fəaliyyətin növləri və formaları sistemində ünsiyyət anlayışının yerini, spesifikliyini müəyyən etməyə cəhd göstərən digər bəzi tədqiqatçılar ünsiyyəti fəaliyyətin yalnız zəruri şərti kimi

deyil, həm də ön öz məzmununa görə müxtəlif olan ictimai münasibətlərin (iqtisadi, siyasi və ideoloji) realizəsinin üsulu (ya forması) hesab edirlər (17, s.192). Onların fikrincə, ən ümumi şəkildə ünsiyyətin sosioloji funksiyası bundan ibarətdir; ünsiyyət sosial qarşılıqlı təsirin spesifik formasıdır.

Predmet fəaliyyətinin bütün növlərindən fərqli olaraq ünsiyyət ətraf aləmin obyektlərinə yönələn hərəkət deyildir; o, fəaliyyət prosesində subyektlərin fəal qarşılıqlı təsirini səciyyələndirir, bir subyektin başqa subyektə yönəlmiş fəallığını ifadə edir. Ona görə də adətən fəaliyyəti subyekt düsturu ilə təsvir edirlər. Bununla əlaqədar olaraq M.S.Kaqan düzgün göstərir ki, ünsiyyət prosesində onun iki iştirakçısı bir-birinə münasibətdə fəaldırlar, eyni dərəcədə bir-birinə oriyentasiya götürürlər, yəni bir subyekt öz partnyorunu obyektə çevirmir (18, s.46). Lakin bu heç də ünsiyyəti birbaşa təmasa müncər etməyə əsas vermir. Sosial təkamül və mədəniyyətin inkişafı gedişində fərdlər arasında yanakı, dolayı ünsiyyəti təmin edən müxtəlif predmet və işarə vasitələri də meydana çıxır. Belə halda ünsiyyətin iştirakçıları zaman və məkan etibarilə ayrılmış vəziyyətdə olurlar. Bu isə o deməkdir ki, fəaliyyət və ünsiyyət anlayışlarını bir-birindən ayırmaq olmaz. Ancaq, bununla yanaşı, fəaliyyət və ünsiyyət anlayışları arasındakı çox mühüm fərqdən sərf-nəzər olmaq olmaz. "Müasir fəlsəfi lüğət" kitabında bu fərq çox aydın və dəqiq müəyyən olunmuşdur. Həmin lüğət kitabında deyilir: "Fəaliyyət anlayışı insan qüvvələrinin realizəsinə diqqəti cəlb edir, ünsiyyət anlayışı isə insanı həmin qüvvələrin birbaşa və yanakı əlaqələrinə cəlb edir. Hər iki anlayış müxtəlif tərəfdən insan qüvvələrinin və qabiliyyətinin sosial məkanda və sosial zamanda hərəkətinin, kooperasiyasının, translyasiyasının formalarını aşkara çıxarır" (19, s.429). Bu o deməkdir ki, ünsiyyəti subyektlərarası qarşılıqlı təsirə, fəaliyyəti isə insanın əşyaya təsir etməsinə müncər etmək olmaz. Ünsiyyət fərdlər arasındakı birbaşa təmasdan daha geniş məzmuna malikdir.

Fəaliyyət və ünsiyyət anlayışları onların tərkibindəki ünsürlərə, elementlərə görə də fərqlənirlər.

Beləliklə, insan fəaliyyəti və ünsiyyət anlayışları ayrılmaz vəhdətdə olsalar da, onlar arasında oxşar cəhətlər olsa da, hər iki anlayış insanın mahiyyət qüvvələrinin sosial məkanda və sosial zamanda hərəkətinin, kooperasiyasının, translyasiyasının formalarını müxtəlif tərəfdən aşkar edir. Belə ki, fəaliyyət anlayışı insanın mahiyyət qüvvələrinin realizə olunmasını səciyyələndirir və bunu diqqət mərkəzinə çevirir; ünsiyyət anlayışı isə diqqəti insanın mahiyyət qüvvələrinin birbaşa və dolayı (yanakı) əlaqələrinə cəlb edir. İnsan fəaliyyəti predmetlə ünsiyyətlidir, yəni onda birbaşa və ya gizli şəkildə subyektlərin qarşılıqlı təsiri iştirak edir.

Yuxarıda qeyd etdiyimiz kimi hər bir fəlsəfi kateqoriya özlüyündə deyil, müəyyən kateqoriyalar sistemində, yəni digər kateqoriyalar ilə qarşılıqlı əlaqədə mövcud olur və fəaliyyət göstərir. Həmin kateqoriyalar sırasına fəaliyyət anlayışı ilə yanaşı praktika anlayışı da daxildir. İnsan fəaliyyəti kimi praktika da insan varlığının ən mühüm problemlərindən biridir. Praktika insanın şüurlu, məqsədyönlü, subyektiv fəaliyyətindən ayrılmazdır, insan fəaliyyəti olmadan praktika həyata keçirilə bilməz. Fəaliyyət də praktikanın topladığı təcrübəyə söykənmədən uğurlar qazana bilməz. Lakin bu heç də praktika ilə fəaliyyətin eyniyyət təşkil etməsi demək deyildir. Fəaliyyət probleminin mürəkkəbliyi təkcə onun strukturunun, məzmununun, mahiyyətinin mürəkkəb xarakter daşımasından irəli gəlmir; bu həm də fəaliyyətin ona yaxın olan digər fenomenlərlə xarici əlaqələrinin mürəkkəb xarakter daşımasından irəli gəlir.

Biz fəlsəfi ədəbiyyatda praktika haqqında yürüdülən fikirlərə və alınan nəticələrə əsaslanaraq onunla insan fəaliyyəti anlayışı arasındakı ümumi və fərqli cəhətləri ayırd etmək fikrindəyik. Sosial-fəlsəfi ədəbiyyatda insan fəaliyyəti və praktika anlayışlarının qarşılıqlı münasibəti məsələsinə əsasən iki cür yanaşma vardır: a) insan fəaliyyəti və praktika anlayışları tam eyniləşdirilir, birinci anlayış aradan çıxarılır, onun əvəzinə praktika anlayışından istifadə edilir. Məsələn praktikanın strukturu haqqında maraqlı və məzmunlu tədqiqat əsəri yazan B.A.Voronoviç fəaliyyəti yalnız insan tələbatını ödəməyə yönələn fəallıqla məhdudlaşdırılır, praktikanı isə varlığın yeniləşdirilməsi hesab edir. O, bu münasibətdə yazır: "Praktikada subyekt bilavasitə xarici aləmi dəyişdirmək məqsədi güdür, onda özünün yaradıcı və sosial mahiyyətini təcəssüm etdirməyə, özünü təsdiq etməyə səy göstərir. Praktikadan fərqli olaraq istehlak fəaliyyəti varlığın yeniləşdirilməsi vəzifələrinin həlli ilə həmişə bağlı deyildir" (20, s.265-266) b) ikinci yanaşmanın tərəfdarları praktika anlayışının daha geniş məzmunda götürür, insan fəaliyyətini və digər fenomenləri onun tərkibinə daxil edirlər. İnsan fəaliyyəti və praktika haqqında bir sıra dəyərli fikirlər söyləyən Şvırev

S.V. ikincinin dünyanı dəyişdirən və yeniləşdirən fəaliyyət hesab edir. Onun fikrincə, praktika aşağıdakı məqamları özündə ehtiva edir: a) insana əvvəlcədən verilən mövcud gerçəkliyin real yeniləşdirilməsi; b) bu yeniləşmə prosesində və ona münasibətdə insanların ünsiyyəti və c) şüurun obrazlar şəklində mövcud olan və praktiki fəaliyyətin məqsədyönlü xarakterini təmin edən norma də dəyərlərin (dəyər-məqsəd strukturlarının) məcmusu (21, s.476). O, daha sonra yazır ki, praktika anlayışının məzmununa insan mövcudluğunun real şəraitinin dəyişdirilməsinə və inkişafına yönələn həyat fəaliyyətinin bütün növləri – sosial praktikanın müxtəlif növləri, təlim və tərbiyə üzrə fəaliyyət, elmi-eksperimental fəaliyyət, idman və s. daxil olmalıdır (21, s.478).

Zənnimcə, sözügedən problemin həlli məsələsində hər iki yanaşmanın tərəfdarlarının elmi mövqeyi birtərəfli və ifrat mövqedir. Biz belə hesab edirik ki, fəaliyyət anlayışı praktika anlayışından genişdir; maddi dəyişdirici fəaliyyət kimi praktika insan fəaliyyətinin bir növü sayıla bilər. S.V.Şvirevdən fərqli olaraq biz bütün fəaliyyət növlərini praktika anlayışına deyil, insan fəaliyyəti anlayışına daxil edirik.

Belliklə, insan fəaliyyəti mürəkkəb çoxölçülü, çoxsəviyyəli struktura malik olub, müəyyən sosial-mədəni şəraitdə həyata keçirilir və aşağıdakı məqamları özündə ehtiva edir:

- fəaliyyət anlayışının sosial-fəlsəfi mənası ondan ibarətdir ki, subyekt-obyekt münasibətləti, real hərəkətlər əsasında ictimai varlığı, tarixi insanlar yaradır; fəaliyyət insan tərəfindən insan aləminin, ona məxsus ictimai münasibətlərin və özü-özünü, öz şəxsiyyətini yaratmasıdır. Fəaliyyət cəmiyyət və insanın inkişafıının ən ümumi formasıdır.
- fəaliyyət təbii və sosial gerçəkliyə fəal, azad, yaradıcı münasibətin insana məxsus spesifik formasıdır; onun məzmunu mədəniyyətin mövcud formalarının (sosial normalarını, dəyərlərin, proqramların və s.) mənimsənilməsi və inkişafı əsasında dünyanın məqsədəuyğun, məqsədyönlü, şüurlu, düşünülmüş şəkildə mənalandırılması, dəyişdiirilməsi və yeniləşdirilməsi təşkil edir;
- insan fəaliyyəti, onun fəallığı özbaşına yaranmır. O, insanın maddi və mənəvi tələbatları, mənafeləri, məqsədləri, motivləri və dəyər oriyentasiyaları əsasında yaranır;
- fəaliyyət anlayışı sosial proseslərin əlaqəsinin, insanın özünü realizə etməsinin və gerçəkliyə spesifik münasibətinin üsuludur.

## ƏDƏBİYYAT


1. Лекторский В.А. Деятельностный подход: смерть или возрождение? «Вопросы философии», 2001, №2, с.56-65
2. Маркс К., Энгельс Ф. Изданных произведений. М., 1976
3. Давыдов В. В. О перспективах теории деятельности. «Вестник Московского университета», серия 14. Психология. 1993, №2, с.25-31
4. Воронович Б.А., Плетников Ю.К. Категория деятельности в историческом материализме. М., 1975, 64 с.
5. Гегель. Наука логики. Сочинения, т.3, М., 1972
6. Qılıcov İ.S. Fəaliyyət və dəyərlər seçimi. Bakı, 2005, 371 s.
7. Перфильев М. Общественные отношения. Л., 1974
8. Буева Л.П. Человек: деятельность и общение. М.,1978, 215 с.
9. Семенов Е.В. Кооперация деятельности как проблема исторического материализма. Новосибирск, 1983, 195 с.
10. Маркс К., Энгельс Ф. Соч., т.27
11. Ханова О.В. Культура и деятельность. Саратов, 1978, 254 с.
12. Ойзерман Т.И. Материалистическое понимание истории: плюсы и минусы. «Вопросы философии». 2001, № 2, с.4-12
13. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya, Bakı, 2006
14. Демин М.В. Природа деятельности. М., 1984, 168 с.
15. Тихомиров О.К. Теория деятельности измененной информационной технологией. Вестник московского университета. серия 14,. Психология, 1993, №2, с.31-41
16. Смирнов С.Д. Методологические уроки концепции А.Н.Леонтьева. Вестник московского университета, серия 14,. Психология, 1993, №2,
17. Парыгин Б.Д. Основы социально-психологической теории. М., «Мысль», 1971, 245 с.

18. Каган М.С. Опыт системного анализа человеческой деятельности. «Философские науки», 1970, № 5
19. Современный философский словарь. Под общей ред. В.Е.Кемерова, Т.Х.Керимова. М., 2015, 823 с.
20. Воронович Б.А. Философский анализ структуры практики. Изд-во «Мысль», 1972, 272 с.
21. Введение в философию. Учебное пособие изд. четвертое. М.. Культурная революция, 2007, 623 с.
22. Брушлинский А.В. Деятельностный подход и психологическая наука. «Вопросы философии». 2001, №2, 89-95 с.

## ABSTRACT

**Konul Salmanova**

**Social-philosophical essence of the meaning of Activity**

It is stated in scientific article that, activity problem has always philosophers' and scientists' center of attention. But, the real meaning of the structure and the essence of activity has been used in idealistic philosophy been in.

It is also stated in the article that, to clarify the essence of social-philosophic activity of an individual, first off all, we need to analyze the different and common features amongst very close concepts (social relationship, intercourse, behavior and practice) that in many ways are considered as the same, Then we should analyze every each of them whether they have relative independence or not.

As we know, when we say activity, it is understood as peoples' purposeful, changing influence process. In this process, both the object and its subject (people) that have been verged is being changed. As it seems, activity in one sense means changing the environment on the other hand peoples' refreshment. It should be noted that, activity has objective content since it expresses the mutual influence of object and subject. And it is clear that, the social knowledge that expresses activity can have objective sense.

Of an individual is a material of social relationship. Although, Social relationship is a important part of social relationship, its only the form of realization and existence of this activity.

Basically, Practical activity is a combination of internal and external world. Its also a change or an adoption of object of an external world that we conceive. Only a thinking being that is a human, can realize understanding the intention which is important for him/herself.

## РЕЗЮМЕ

**Кенуль Салманова**

**Сущность деятельности в социально-философском аспекте**

В статье говорится, что проблема деятельности во все времена было в центре внимания среди философов и ученых конкретных знаний. Но в истории понятие деятельности, его характер, структура с древних времен, была использована в идеалистической философии.

В статье анализируются сущности деятельности в социально-философском аспекте.

А также в статье говорится, чтобы раскрыть сущность деятельности, если точно сказать человеческой деятельности, в социально-философском аспекте в первую очередь близкий к нему и в большинстве случаев идентифирующий понятия (социальные отношения, общение, поведение, практика) важно определить между ними общие и отличительные особенности, и необходимо проанализировать относительную независимость каждого из них.

Человеческая деятельность это "материал" общественных отношений . Общественные отношения хотя и важный аспект для человеческой деятельности единственная форма существования и реализации.

NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2016, № 5(79)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2016, № 5 (79)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2016, № 5 (79)**

# İQTİSADİYYAT

**AĞARZA RÜSTƏMOV**
*Naxçıvan Dövlət Universiteti*

*UOT:332*

## TOXUM FONDLARININ YARADILMASI BİTKİÇİLİYİN İNKİŞAFINDA YENİ MƏRHƏLƏ KİMİ

***Açar sözlər:*** *kənd təsərrüfatı, toxum fondları, aqrar sahə, təsnifləşdirmə, təşkilati əlamətlər*
***Key words****: agriculture, seed funds, the agricultural sector, grouping, organizational features*
***Ключевые слова:*** *сельское хозяйство, семенные фонды, аграрная отрасль, группирование, организационные признаки.*

Müasir inkişaf mərhələsi ölkəmizin, o cümlədən Naxçıvan Muxtar Respublikasının iqtisadi həyatının sürətli inkişafı ilə müşayət olunmaqdadır. Ölkənin aparıcı sahələrinin fəaliyyətinin məqsədyönlü şəkildə, idarəetmə, texniki, təşkilati, quruluş və digər yönlərdən tənzimlənməsi, beynəlxalq təcrübəni geniş şəkildə öyrənilməsi və tətbiqi imkanlarının qiymətləndirilməsi kimi addımların atılması yeni təkamül mərhələlərinə keçidlə yekunlaşmaqdadır. Hal-hazırda aparılan iqtisadi siyasətin tərkib hissəsi olan aqrar siyasət, ərzaq təhlükəsizliyinin təmin olunması öz növbəsində kənd təsərrüfatı sahəsində görüləcək çoxsaylı işlərin, onlarla əlaqəli vəzifələrin təyinatı və istiqamətlərini şərtləndirməkdədir.

İlk növbədə qeyd etmək lazımdır ki, ölkə iqtisadiyyatının aparıcı sahələrindən olan kənd təsərrüfatı öz daxilində təkrarən təsnifləşdirilməklə iki istiqamətə – bitkiçilik və heyvandarlığa aidiyyatı ilə fərqlənən çoxsaylı istehsal növlərini özündə birləşdirir. Mövzumuzun toxumçuluqla əlaqəli olmasını nəzərə alaraq biz araşdırma obyektlərimizə həm ümumilikdə, həm də ayrı-ayrı komponentlər səviyyəsində, bitkiçilik bazasında aydınlıq gətirməyə, onun kifayət qədər əhəmiyyətə malik bəzi məsələləri ilə bağlı sistemli baxışlarımızı ifadə etməyə çalışacağıq. Digər tərəfdən hələ formalaşma mərhələsində olan bu fondlar üzrə nəzəri, metodiki, metodoloji fikir və düşüncələri ortaya qoymaq, onların perspektiv dövrlərdə təkamülünün proqnozlaşdırılması elmi araşdırmaların daim diqqətində olmalıdır.

Aqrar sahənin təsnifat genişliyini nəzərə almaqla haqqında bəhs olunan məsələlər üzrə aşağıdakı mühüm bəndləri fərqləndirmək məqsədəuyğun olardı: 1.Ölkənin aqroməhsullar üzrə daxili istehlak və ixrac həcmləri və imkanlarını nəzərə alaraq istehsal kəmiyyətlərinin müəyyən edilməsi; 2.Regionlar üzrə aqrohasilat, iqlim, təchizat və digər xüsusiyyətlərin nəzərə alınması; 3.Regionların kənd təsərrüfatı sahələri üzrə ixtisaslaşmasının təmin edilməsi sayəsində müvafiq işlərin görülməsi; 4.Hasilat subyektləri üzrə maddi-texniki bazanın yaradılması və möhkəmləndirilməsi yönündə fəaliyyətin həyata keçirilməsi; 5. Aqrar sahənin real infrastruktur imkanlarının (yolların, saxlama kameralarının, enerji təminatının, emal güclərinin) qiymətləndirilməsi və bu istiqamətdə həm ümumilikdə ölkə üzrə, həm də regional səviyyələrdə sistemli perspektiv planlaşdırma təşkilati işlərinin aparılması; 6. Elmi-araşdırma nəticələrinin istehsalata tətbiqi, geniş diapozonlu seleksiya tədbirlərinin həyata keçirilməsi üzrə imkanların yaradılması; 7.Ölkənin aqrar sektorunda fəaliyyət göstərən, toxum istehlakçısı "rolunda çıxış edən" hasilatçılara kompleks məsləhət xidmətlərinin göstərilməsinin mümkünlüyü və s.

Ayrıca maddələr şəklində ifadə olunan hər bir bənd özlüyündə daxili sistemınə (xüsusi tədqiqat metodu və metodologiyasına) malik "moduldan" ibarətdir. Onlarla əlaqəli təşkil olunacaq

fəaliyyət bir tərəfdən real toxum ehtiyatlarının mövcudluğuna dəlalət etməli, digər tərəfdən isə toxum resurslarının çatdırılması və istifadəsi zamanı zəruri köməkliklərin göstərilməsinin məcmusu kimi ifadə olunmalıdır. Aqrar sahənin mövcud vəziyyəti və inkişaf perspektivlərinin araşdırılması digər şərtlərlə yanaşı toxum fondlarının yaradılması, onlardan istifadə imkanlarının qiymətləndirilməsi zəruriliyi ilə seçilən birinci dərəcəli məsələlərdən hesab olunur. Haqqında bəhs olunan tədqiqat obyektinin öyrənilməsi müxtəlif üsulları və həmin üsullar üzrə istifadəsi mümkün ola biləcək metodologiyanın tətbiqini nəzərdə tutur. Toxum fondlarının yaradılması yönündə çoxsaylı təsnifləşdirmə əlamətləri mövcuddur ki, bunlardan da mühüm olanlarına aiddir: mülkiyyət formasına görə; aqrar sahə daxilindəki fəaliyyətə görə; məhsul növləri daxilindəki qruplaşdırmaya görə; hasilatın regional xüsusiyyətlərinə görə; infrastruktur və digər imkanlarına görə.

Toxum fondlarının hansı mülkiyyət formasına aidiyyat baxımdan yaradılması ilk növbədə dövlət toxum fondlarının və qeyri-dövlət mülkiyyəti (özəl və s.) əsasında formalaşdırılan toxum fondlarının bərqərar olmasını istisna etmir. Müvafiq fondlar tərəfindən təkcə aidiyyati elmi-tədqiqat dövlət müəssisələri (eksperimental toxumçuluq təsərrüfatları və s.) tərəfindən seleksiya yolu ilə yaradılan toxum növləri deyil, həm də bu sahədə ixtisaslaşan ölkələrdən idxal olunan yüksək məhsuldarlığa malik, yerli təbii şəraitə uyğunlaşa bilən toxum sortlarının əldə olunaraq hasilata yönəldilməsi mümkündür.

Aqrar sahə daxilindəki fəaliyyət toxum fondlarının formalaşdırılmasını aşağıdakı istiqamətlər üzrə bərqərar edir: a) ərzaq təyinatlı kənd təsərrüfatı məhsulları üzrə toxumçuluq işlərinin aparılması; b)meyvəçilik istiqaməti üzrə nümunəvi toxum sortlarının yaradılması və ya ölkə hüdudlarından kənardan gətirilməsi; c)tərəvəzçilik istiqamətində toxumçuluq yönündə fəaliyyətin təşkili; ç) texniki bitkilər (yemçilik və s.) üzrə yeni toxum sortlarının kəşfi, idxalı; d) qarışıq, çoxtəyinatlı (yuxarıda sadalanan bir deyil, bir neçə bəndi özündə birləşdirən) toxum fondları; e) regional səviyyədə ixtisaslaşan toxum fondları və s. Ölkədə qəbul edilən vahid strateji xətt – aparıcı kənd təsərrüfatı məhsulları üzrə ölkə tələbatının ilk növbədə daxili istehsal hesabına ödənilməsindən ibarətdir. Bu yöndə görülən işlərin nəticəsi olaraq taxıl, digər dənlilər və paxlalılar, üzüm, müxtəlif meyvə tərəvəz növləri üzrə son illərdə kifayət qədər böyük irəliləyişlər müşahidə olunmaqdadır. Araşdırılan vəziyyət ölkənin artan əhali sayı fonunda nəzərdən keçirilməli və perspektivə hesablanan göstəricilər, onların həcmləri bəhs olunan faktoru kənarda saxlamamalıdır.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi üzrə işlərin tərkib hissəsi olan toxumçuluğun inkişafı yuxarıdakı təsnifatda sadalanan istiqamətlərin ilk növbədə aşağıdakı mühüm maddələri (komponentləri) nəzərə almalıdır:

*Real (bəzi hallarda isə həm də perspektiv) istehlakçı sayı.* Bu bənd özündə istehlakçıların iki fərqli mərhələ üzrə həcm göstəricilərinə aydınlıq gətirmək niyyətindədir. Bunlardan birincisi "istehlakı müəyyən edən istehsal" üzrə dövriyyəyə aydınlıq gətirmək məqsədini güdür.

Ölkədə aqrar müəssisələrin hasilat ixtisaslaşmalarının aparılması bu bəndin mühüm başlangıc nöqtələrindən hesab olunmalıdır Hər bir aqrohasilat vahidi özünün istehsal plan-proqnozlarından, hər hektara fərqli əkin istiqamət və obyektləri (məhsulları) üzrə gedəcək toxum miqdarından və keyfiyyətindən, əlaqəli digər şərtlərdən asılı olaraq özünün nümunəvi toxum istehlakı göstəricisini müəyyənləşdirir.

Zəruri toxum həcmi aqrosubyektin özü tərəfindən hasil edilə bildiyi kimi, həm də ölkə daxilindəki digər təsərrüfat qurumlarından alına, və ya ölkə xaricindən idxal oluna bilər. Fikrimizcə, toxum fondlarının yaradılmasının bu məsələ üzrə mühüm məqsədlərinə aid edilməlidir: müvafiq istiqamətdə işlərin sistemləşdirilməsi; təchizat prosesinin asanlaşdırılması; toxumların seleksiyasının təşkili yönündə zəruri bazanın yaradılması və təşkilati məsələlərin həyata keçirilməsi; ölkədə daha keyfiyyətli toxum sortlarının kəşfi və istehsala tətbiqi yolunda kompleks yanaşmanın tətbiqi və s.

*İstehlak normativləri.* Öz aktuallığı ilə seçilən bu maddə müxtəlif aspektlərdə tədqiq və təhlil oluna bilər. Belə ki, bitkiçilikdə ən optimal və ən çox istifadə olunan "hektar" miqyası müxtəlif bitkilər üzrə fərqlənir. Məsələn, bir hektar hesabı ilə taxıl əkini zamanı normativ həcmi 170 kiloqrama bərabər əkmə buğdasından istifadə olunur. Bu göstərici lobya, çuğundur, qarabaşaq, kartof, soğan və digər kənd təsərrüfatı məhsulları üzrə fərqlənir ki, bu da bir çox amillərdən asılıdır.

Bəhs olunan məsələdə regional xüsusiyyətlər də nəzərə alınmalıdır. Həmçinin qeyd etmək yerinə düşər ki, toxumların istehlak normativləri ilə yanaşı digər komponentlərin də müxtəlif gübrələrin, suyun və s. istehlak normativlərinə də riayət olunması məqsədəmüvafiqdir.

*Hasilatın ümumi həcmi*. Haqqında bəhs olunan göstəricinin məcmu şəklində araşdırılması ümumilikdə kənd təsərrüfatı təyinatlı, o cümlədən ərzaq təyinatlı məhsulların ümumi həcmi haqda təsəvvür yarada bilər. Aqrar subyektlərin bu göstəriciləri bitkiçilik, meyvəçilik, tərəvəzçilik, yemçilik və digər (zəruri toxum bazasının yaradılmasını tələb edən) əkinçilik istiqamətləri üzrə fərdi qaydada natura və dəyər ifadəsində, istər də ümumi həcm ifadəsində ancaq dəyərcə ifadə edilməlidir. Əkinçiliyin son məhsulu ilə yanaşı hasilatın ümumi həcminin tərkibinə yarımfabrikatlar və əlavə məhsullar da (taxıl istehsalında saman və s.) daxil edilməlidir.

*Ərzaq təyinatlı məhsulların fərdi məhsuldarlığı*. Təsnifatın ayrıca maddə kimi nəzərdən keçirilən fərdi məhsuldarlıq göstəriciləri əkinçiliyin bütün sahələrində nəzərdə saxlanılır və ilk növbədə toxumların çeşid və növlərinin daxili keyfiyyət xüsusiyyətlərindən irəli gəlir. Misal olaraq əkinçilikdə taxıl bitkisinin fərdi məhsul göstəricilərini nəzərdən keçirək. Düzdür, iri aqrar təsərrüfatların statistik göstəriciləri taxılın fərdi məhsuldarlığının hər hektardan 55 sentner səviyyəsində qərarlaşdığını ifadə etsə də, ümumilikdə sahə üzrə bu istiqamətdə orta göstərici illərə nəzərən 27-32 sentner olduğunu göstərir. Toxumçuluq fondlarının qarşısında duran vəzifələrdən biri də məhs fərdi məhsuldarlığın artırılması istiqamətində zəruri işlərin aparılması hesab olunmalıdır. Həmçinin nəzərdən yayınmamalıdır ki, aqrar sahə əmtəələri üzrə proqnoz və faktiki icra həcmləri bu göstəricilərin müvafiq nisbətlərinin də diqqətə alınması şərtilə müəyyən edilməlidir.

Fikirlərimizi ümumiləşdirərək qeyd edə bilərik, respublikada yaradılmasına start verilən toxum fondları aqrar subyektlərdə fəaliyyətin təşkilinə təsir göstərərək, vahid məcmu şəklində kənd təsərrüfatı sahəsinin hasilat və sonrakı reallaşdırma mərhələlərində müsbət mənada öz sözünün demiş olacaqdır. Araşdırmada biz bu istiqamətdə mövcud olan bəzi məsələlərə toxunduq. Lakin zərurət yarandıqda onların hər biri daha dərin və dəqiq tədqiqata məruz qala bilər.

## ƏDƏBİYYAT


1. "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı". Bakı, 25 avqust 2008-ci il.
2. Rüstəmov A.A., Qasımov D.Q. Aqrar sferanıniqtisadiyyatı və idarə edilməsi. Bakı: Avrora, 2013, 406 s.
3. Bağırov M.S. Kənd təsərrüfatında istehsal vəsatış münasibətlərinin formalaşmasının müasir vəziyyəti və xüsusiyyətləri. (monoqrafiya). Naxçıvan: Qeyrət, 2014,107s.
4. Bağırov M.S. Aqrar sahədə resurs potensialı, onun istehsal və satış sisteminin formalaşmasında rolu. Naxçıvan: Qeyrət, 2014, 130s.
5. İbrahimova N.H. Regionda aqrar sahənin istehsal-iqtisadi əlaqələrinin təkmilləşdirilməsi istiqamətləri. Naxçıvan: İdeya, 2011, 124 s.


## ABSTRACT


**Agarza Rustamov**


### Creating a seed funds as new stage in the development of crop


In the article the main object of study selected institutional reforms and transformative processes carried out in the agrarian-sector. Ongoing work in this area are characterized by their systemic, vyrabotaanostyu based on a theoretical framework and practical features, complexity and relevance.

Special attention is paid to the study of the development of the Seed-tion in the autonomous republic, carried out in this direction mnogozhyl nym development. Its main purpose is primarily

utilization of the at maturity requirements for different species and varieties of seeds of possibility, a new organizational structure - seed funds.

It is known that has a relatively high specific gravity in the production of the autonomous republic the agricultural sector. The same thinking can be, you said in relation to the proportion in total rastenieodstva agriculture.

This article is intended to create a scale of seed funds including The-cludes a republic-wide and regional settings. With yuschy-high specific gravity in the process of general security in the plant-seed duction software also acts as an indicator of a guarantor to increase productivity. The views expressed in this direction of thought must have an impact on the development of plant-duction in the Republic of Azerbaijan and the Nakhchivan Autonomous Republic.

## РЕЗЮМЕ

**Агарза Рустамов**

**Создание семенных фондов как новая стадия в развитии растениеводства**

В статье основным объектом исследования выбраны проводимые в аграрном секторе организационные реформы и трансформативные процессы. Проводимые в этом направлении работы отличаются своей системностью, выработааностью на основе теоретической базы и практических возможностей, комплексностью и актуальностью.

Особое внимание в исследовании уделено вопросам развития семеноводства в автономной республике, проводимым в этом направлении многожыльным разработкам. Его основной целью в первую очередь является использование при погашении потребностей на различные виды и сорта семян возможностей новой организационной структуры – семенных фондов.

Известно, что в производстве автономной республики аграрная отрасль обладает довольно большим удельным весом. То же мышление может быть высказано в отношении удельного веса растениеодства в общем объеме сельского хозяйства.

В статье предназначенный масштаб для создания семенных фондов включает в себя как общереспубликанские, так и региональные параметры. Обладающий большим удельным весом в процессах общего обеспечения в растение-водстве семенное обеспечение также выступает в роли показателя гаранта увеличения производительности. Высказанные в этом направлении мышления  должны оказать влияние на развитие растение-водства как в Азербайджанской Республике, так и в Нахчыванской Автономной Республике.

NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2016, № 5(79)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2016, № 5 (79)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2016, № 5 (79)**

**MÜSLÜM CABBARZADƏ**
*Naxçıvan Dövlət Universiteti*
*muslum_cabbarzade@yahoo.com*

***UOT 330.322.21***

# REGİON İQTİSADİYYATINDA ÖZƏL BÖLMƏNİN İNKİŞAFI: NAİLİYYƏTLƏR VƏ PERSPEKTİVLƏR

***Açar sözlər:*** *özəl bölmə, özəlləşdirmə, region iqtisadiyyatı, iqtisadi inkişaf, regional inkişaf*
***Key words:*** *private sector, privatization, regional economy, economic development, regional development*
***Ключевые слова:*** *частный сектор, приватизация, экономика региона, экономическое развитие, региональное развитие*

Aparılmış iqtisadi islahatlar nəticəsində ölkəmizin iqtisadiyyatında təsərrüfatçılığın bazar prinsiplərinə uyğun olan yeni təşəkkül tapmış bölməsi – özəl sektor artıq tam formalaşmış və respublikamızın ayrı-ayrı regionlarında həm iqtisadi, həm də sosial sahədə mövcud olan problemlərin həllində mühüm mövqeyə yiyələnmişdir. Ona görə də iqtisadiyyatımızın artıq formalaşmış özəl bölməsinin sosial-iqtisadi inkişafda rolunun müəyyən edilməsinin, səmərəliliyinin, mövcud problemləri və onların həlli yollarının, habelə özəl sektorun bütövlükdə bir sistem kimi elmi-tədqiqat və araşdırmalara cəlb edilməsi elmi və təcrübi baxımdan mühüm əhəmiyyət kəsb edir. Özəl bölmənin regionların iqtisadiyyatında rolunun müəyyən edilməsi dövlətin son illərdə daha da aktuallaşan regional siyasəti ilə həmahənglik təşkil edir.

İqtisadi ədəbiyyatda, normativ hüquqi aktlarda iqtisadiyyatın sektoral bölgüsü xüsusi yer tutur və "dövlət sektoru", "özəl sektor" anlayışları iqtisadi nəzəriyyənin mühüm anlayışları kimi qəbul olunur. Elmi ədəbiyyatda bu anlayışlar müxtəlif yönlərdən izah edilir. Lakin mahiyyətcə və məzmunca konkret olaraq dövlət sektoru təsərrüfatçılıq və operativ idarəetmə hüququ olan unitar dövlət müəssisələrinin, təsisatlarının, nizamnamə kapitalının 50%-dən çox hissəsi və ya səhmlərin nəzarət paketi dövlətə məxsus olan səhmdar cəmiyyətlərinin məcmusundan ibarətdir. Özəl sektor dedikdə isə - iqtisadiyyatın dövlətin bilavasitə nəzarətində olmayan, müstəqil sahibkarların mülkiyyətindən ibarət olan hissəsi nəzərdə tutulur. Ev təsərrüfatları və xüsusi kapitala mənsub olan firmalar birləşərək özəl sektoru əmələ gətirir (4).

Özəl sektorun formalaşmasının əsasında bazar iqtisadi sisteminin fundamental əsasını təşkil edən xüsusi mülkiyyət dayanır. Xüsusi mülkiyyət institutunun yaranması isə bəşər cəmiyyətinin inkişafı ilə bağlıdır. Artıq demək olar ki, dünyanın bütün ölkələrinin iqtisadi həyatında bazar institutlarına, o cümlədən xüsusi mülkiyyət institutuna və özəlləşdirməyə doğru meyllərin güclənməsi nəzərə çarpır. Geniş anlamda özəlləşdirmə anlayışı insanların ehtiyacların təmin edilməsi məqsədilə cəmiyyətin özəl strukturlara daha çox etibar etməsi kimi tərif edilir (3).

Ölkəmiz özəl sektorun fəaliyyətinin hüquqi tənzimlənməsində mühüm mərhələyə gəlib çatmışdır. 1995-ci ilin 29 sentyabrında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı"nın təsdiq edilməsi, Azərbaycanda faktiki olaraq özəlləşdirmənin əsasını qoymuşdur. 2000-ci ilin avqust ayında "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun və "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nın qüvvəyə minməsi ilə özəlləşdirmənin ikinci mərhələsinə start verilmişdir.

Naxçıvan Muxtar Respublikasında əhalinin 70%-dən çox hissəsi kənd yerlərində yaşayır və iqtisadiyyatın da əsas və aparıcı hissəsini məhz kənd təsərrüfatı təşkil edir. aqrar islahatlar nəinki

Azərbaycanda, hətta MDB ölkələrində ilk dəfə olaraq məhz Naxçıvanda həyata keçirilməyə başlanmışdır. Respublika səviyyəsində 1995-ci ildən başlanan bu strateji tədbirə əslində ilk dəfə Naxçıvanda start verilmiş, bazar iqtisadiyyatının mühüm şərti olan özəl mülkiyyətin genişləndirilməsi istiqamətində ilk və zəruri addımlar atılmışdır. Belə ki, hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən ümummilli lider Heydər Əliyev tərəfindən 1992-ci il aprel ayının 6-da iki böyük əhəmiyyətli qərar qəbul edildi. Bunlardan biri "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və ikincisi isə "Rentabelli işləməyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" idi. Həyata keçirilən iqtisadi islahatlar və sonrakı dövrdə onun müəyyən etdiyi sosial-iqtisadi inkişaf strategiyasının ardıcıl həyata keçirilməsi nəticəsində bütövlükdə ölkədə olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da iqtisadiyyatın bütün sahələrində inkişaf meylləri meydana çıxmış və güclənmiş, özəl bölmə hakim mövqe tutmağa başlamışdır. Muxtar respublikada mülkiyyətin çoxnövlülüyünün təmin olunması və müxtəlif təsərrüfatçılıq formalarının yaradılması məqsədi ilə torpaq islahatları həyata keçirilmiş və başa çatdırılmışdır.

Sahibkarlıq subyektlərinin sayının ilbəil yüksəlməsi nəticəsində iqtisadiyyatın dövlət və özəl bölmələrinin nisbəti ikincinin xeyrinə dəyişmişdir. İqtisadiyyatın özəl və dövlət bölmələrinin hansının daha səmərəli olması və bu bölmələr arasında optimal nisbətin yaradılması problemi uzun müddət iqtisadçıların araşdırma mövzusu olsa da hələ də bu məsələdə siyasətçilər, dövlət və ictimai xadimlər, alimlər və praktik iqtisadiyyatla məşğul olanlar arasında müxtəlif fikirlər səslənməkdədir. Bir çoxları özəl sektorun daha səmərəli olması barədə arqumentləri əsaslandırarkən digərləri özəlləşdirmə nəticəsində öz sahibini dəyişmiş, lakin ətalətdən və tənəzzüldən xilas ola bilməyən kifayət qədər müəssisənin iqtisadiyyata külli miqdarda zərər vurması barədə danışırlar.

Ona görə də region iqtisadiyyatında dövlət və özəl bölmələrin optimal nisbətinin müəyyən edilməsi, həmçinin dövlət-özəl əməkdaşlığının səmərəli formalarının müəyyənləşdirilməsi olduqca zəruridir. Fikrimizcə, Naxçıvan iqtisadiyyatında dövlət və özəl bölmələr arasında optimal nisbət problemi həm region iqtisadiyyatının spesifik xüsusiyyətlərindən, həm ölkəmizdə bərqərar olan iqtisadi modelin iqtisadi və sosial sahədə qarşıya qoyduğu məqsədlərdən asılı olaraq, həm də bazar iqtisadiyyatının ortaya çıxardığı şərtlər kontekstində həll olunmalıdır. Optimal hesab ediləcək hər hansı nisbət həm də regionun iqtisadi təhlükəsizliyinin qorunmasına, əhalinin sosial rifahının yüksəlməsinə, dövlətin öz iqtisadi funksiyalarını tam və dolğun şəkildə həyata keçirməsinə xidmət etməlidir. Həmçinin hesab edirik ki, dövlət və özəl sektorlar arasında bərqərar olmuş müəyyən nisbət fiksə edilmiş olmamalıdır, qarşıya çıxa biləcək hər hansı situasiyadan asılı olaraq həm dövlət, həm də özəl sektorun xeyrinə dəyişilə bilməlidir.

Bu zaman təbii ki, iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə dövlət və özəl sektorların nisbəti eyni olmayacaqdır. İqtisadiyyatın müəyyən qrup sahələri üzrə həddindən artıq liberallıq, digər qrup sahələri üzrə isə bir qədər mühafizəkarlıq səmərəli hesab edilə bilər. İqtisadiyyatın sahə quruluşundakı fərqli cəhətləri və digər amilləri nəzərə alsaq, belə nəticəyə gələ bilərik ki, dövlət və özəl bölmələrin nisbəti heç də bütün regionlarda və ölkə üzrə eyni ola bilməz və hətta bir-birindən kəskin fərqlənə bilər.

Naxçıvan Muxtar Respublikasında istehsal yönlü sahibkarlığın inkişafının, son məhsul istehsalının artırılmasının, daxili bazarın əsasən yerli istehsal məhsulları hesabına təmin edilməsinin, yerli xammal və materiallardan istifadə əsasında istehsal potensialının gücləndirilməsinin iqtisadi cəhətdən stimullaşdırılması özəl bölmənin və bütövlükdə iqtisadi və sosial inkişafın hərəkətverici qüvvəsinə çevrilmişdir.

Yeni təsərrüfatçılıq şəraitində sahibkarlıq kənd təsərrüfatı məhsullarının istehsalında məhsuldarlığın da artmasına səbəb olmuşdur. Bu eyni zamanda kənd təsərrüfatı istehsalının strukturunun dəyişməsi, daha məhsuldar toxumlardan istifadə, suvarma sisteminin qaydaya salınması və s. ilə əlaqədar olsa da hesab edirik ki, ən başlıca amil özəl sektorun təsərrüfatı daha səmərəli istifadə mexanizmlərinə malik olmasından ibarətdir.

Muxtar respublikanın kənd təsərrüfatı sektorunda 1995-ci ildən başlayaraq kifayət qədər dayanıqlı inkişaf müşahidə olunmuşdur. Lakin aparılan tədqiqatlar göstərir ki, hələ də muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsal həcmini artırmaq imkanları mövcuddur. Bu

imkanları həm intensiv, həm də ekstensiv amillər müəyyən edir. Təhlil göstərir ki, muxtar respublikada özəl sektorun öz vəsaitləri və kredit vəsaitləri hesabına suvarma sistemlərini təkmilləşdirmək, inkişaf etdirmək, meliorasiya tədbirləri həyata keçirməklə əkin sahələrini artırmaq mümkündür. Digər tərəfdən, regionun həm əkinçilik sahəsində, həm də heyvandarlıq məhsullarının istehsalının intensiv inkişaf etdirilməsi sahəsində böyük imkanlar mövcuddur. Belə ki, qabaqcıl təsərrüfatçılıq təcrübəsinin tətbiqi, kənd təsərrüfatında kooperasiyalaşdırma, daha məhsuldar toxumlardan və cins mal-qaradan istifadə, texnika və texnologiyanın səmərəli tətbiqi özəl təsərrüfatlar tərəfindən düzgün qiymətləndirilərsə, istifadə edilməmiş imkanların reallaşdırılması məhsul istehsalın həcminin artırılmasına kömək edə bilər.

Təhlillər göstərir ki, bəzi özəl müəssisələrin məhsuldarlığı yüksəltmək imkanları içərisində ərazi üzrə ixtisaslaşmanın mühüm əhəmiyyəti vardır. Belə ki, kənd təsərrüfatı istehsalının rayonlar üzrə ərazi strukturunun təkmilləşdirilməsi, hər bir rayonun daha yüksək məhsuldarlığı təmin edən kənd təsərrüfatı məhsulları istehsalı üzrə ixtisaslaşması nəticəsində istehsalın həcmini artırmaq mümkündür. Araşdırmalardan belə müəyyən etmişik ki, muxtar respublikada özəl kənd təsərrüfatı müəssisələrinin təxminən 30%-ə qədəri öz əvvəlki ixtisaslaşdığı sahəni yeni sahə ilə əvəz etmişdir. Bu, xüsusilə əkinçilik sahəsində özünü daha qabarıq şəkildə göstərir. Yeni istehsal sahəsinə meyllilik əvvəlki sahənin az məhsuldar olması və ya həmin məhsulların rentabellik səviyyəsinin aşağı olmasıdır. İxtisaslaşmanın seçilməsində dövlətin təşviqedici rolu da mühüm rol oynamışdır.

Rəqabətə davamlı sənaye məhsulları istehsalının müntəzəm olaraq dəstəklənməsi və ixrac yönlü istehsal sahələrinin yaradılmasının təşviqi, dövlət mülkiyyətində olan və ya səhmlərinin nəzarət paketi dövlətə məxsus olan sənaye müəssisələrinin sağlamlaşdırılması, özəlləşdirmədən sonrakı mərhələdə müəssisələrin fəaliyyətinin dəstəklənməsi, kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin geniş şəbəkəsinin təşkili bu tip müəssisələrin ixrac potensialının artırılması muxtar respublikada sənaye sahəsində əsas strateji istiqamət kimi saxlanılmaqdadır. Uzun illər ərzində blokada ilə əlaqədar olaraq fəaliyyətini dayandırmış müəssisələrin işə salınması, yeni istehsal müəssisələrinin yaradılması hesabına sənaye məhsulu istehsalında dinamik artım əldə edilmişdir.

Son onillikdə dövlətin maliyyə dəstəyi ilə və sahibkarların şəxsi vəsaitləri hesabına özəl sektor tərəfindən əvvəllər muxtar respublika sənayesində olmayan yeni müəssisələr, o cümlədən meyvəqurutma müəssisələri, soyuducu anbarlar, çay, tütün istehsalı müəssisələri, yeni texnologiya əsasında fəaliyyət göstərən şərab istehsalı müəssisələri, tikinti materialları istehsalı ilə məşğul olan müəssisələr, poladəritmə müəssisələri, plastik borular və su sistemləri məhsulları istehsalı müəssisələri, meyvə şirələri və mineral sular istehsal edən müəssisələr, qum-çınqıl istehsalı müəssisələri, boya istehsalı müəssisələri, karton tara və kağız emalı müəssisələri, plastik tullantıların təkrar emalı müəssisələri, sanitar texnikası avadanlıqları istehsalı müəssisələri, quşçuluq müəssisələri, ət və süd emalı müəssisələri, tikiş müəssisələri, avtomobil istehsalı müəssisəsi və s. kimi yeni texnologiyalı və yerli tələbata uyğun məhsullar istehsal edən müəssisələr yaradılmışdır.

Bütövlükdə 1996-2011-ci illər ərzində sənaye sektorunda 364 yeni müəssisə fəaliyyətə başlamış və sənaye müəssisələrinin sayı 420-yə çatmışdır. Analoji qaydada istehsal edilən sənaye məhsullarının sayı da artmaqda davam edir. Yerli istehsal sahələrinin inkişafının nəticəsidir ki, bu gün muxtar respublikada 361növdə məhsul istehsal olunur ki, bunların da əksəriyyəti özəl sektorun payına düşür. Bu məhsulların 119 növü ərzaq, 242 növü qeyri-ərzaq məhsullarıdır. 107-si ərzaq, 236-sı qeyri-ərzaq olmaqla, 343 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi təmin edilmişdir (1).

Naxçıvanda tikinti sahəsinin formalaşmasında da özəl sektor böyük xüsusi çəkiyə malikdir. Muxtar respublikada investisiya qoyuluşlarının əsas hissəsi özəl sektor tərəfindən maliyyələşdirilir. Burada özəl sahibkarlıq subyektlərinə verilən kreditlərin də müəyyən payı vardır. Fikrimizcə, yaxın perspektivdə özəl sektor tərəfindən qoyulacaq sərmayələr əsasən regionun yerli tələbatının ödənilməsinə xidmət edən sahələrə istiqamətləndirilməlidir.

Regionda infrastruktur sahələrin inkişafında da özəl sektor mühüm əhəmiyyətə malikdir. Düzdür, elektrik enerjisi, qaz və su təsərrüfatı kimi strateji əhəmiyyətli sahələrdə dövlətin dominant mülkiyyətçiliyi saxlanılsa da, nəqliyyat və rabitə, sosial infrastruktur sahələrində özəl sektorun rolu nəzərəçarpacaq dərəcədə yüksəkdir.

Əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində özəl sektor mühüm funksiyalar yerinə yetirmişdir. Ümumiyyətlə, özəl bölmədə məşğul olanların ümumi məşğulluqda çəkisi ilbəil yüksələrək 2011-ci ildə 81,2%-ə çatmışdır. 2003-cü ildə yeni yaradılan iş yerlərinin 49,7%-ni özəl müəssisələr təşkil edirdisə, 2016-cı ildə bu rəqəm 63,6%-ə yüksəlmişdir. Bu göstəriciyə istinad edərək əhalinin yeni iş yerləri ilə təmin edilməsinin gələcəkdə tamamilə özəl sektorun hesabına həyata keçiriləcəyini proqnozlaşdırmaq mümkündür. Eyni zamanda özəl bölmədə əmək haqqı səviyyəsinin dövlət bölməsinə nisbətən yüksək olması, habelə, məşğul əhalinin böyük qisminin özəl müəssisələrdə çalışması əhali gəlirlərinin formalaşmasında da qeyri-dövlət bölməsinin dominantlığını təmin etmişdir.

Özəl sektorun inkişafının mühüm nəticələrindən biri yüksək keyfiyyətli, beynəlxalq standartlara cavab verən yerli istehsal məhsullarının dünya bazarlarına sərbəst çıxarılmasından, satış problemlərinin səmərəli həllindən, ixrac potensialının gücləndirilməsindən ibarətdir. Son dövrlərdə muxtar respublikanın xarici iqtisadi əlaqələrində özəl sektorun xeyli rolu artmışdır. Bununla da xarici ticarət dövriyyəsində dövlət müəssisələri ilə yanaşı qeyri-dövlət müəssisələrinin də payı artmaqdadır ki, bu da regionda özəl sektorun rolunun vacib göstəricilərindən hesab edilə bilər.

## ƏDƏBİYYAT


1. 2016-cı ilin yanvar-iyun aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı. http://statistika.nmr.az/x_news/news/2016-II.rub.pdf
2. Cabbarzadə M.Ə. Dövlət müəssisələrinin özəlləşdirilməsi və inkişafının regional problemləri (Naxçıvan MR timsalında): İqtisad elmləri namizədi alimlik dər. almaq üçün təqd. edilmiş dissertasiya. Bakı, ADİU, 2003, 143 s.
3. Savas E.S. Özəlləşdirmə və ictimai-özəl əməkdaşlıqlar. Bakı: "Azərbaycan Milli Ensiklopediyası" nəşriyyatı, 2001, s. 23
4. Ивашковский С. Н. Макроэкономика. Москва, Дело, 2000, с. 278



## ABSTRACT

**Muslum Jabbarzade**

**Development of the private sector in the region's economy: achievements and prospects**

In the article were reviewed the private sector concept and its role in economic development, the formation of the modern economic system, the importance of private sector of the economy.

The formation of the Nakhchivan Autonomous Republic, the economic reforms and private sector as well as public and private sectors in the economy of the region, a large study of the problem of the optimal ratio, and the potential of the region has been analyzed for the development of private sector and the interaction of private sector and socio-economic development of the autonomous republic was investigated in this article.

Based on the analysis of the material of the article the development of the private sector in the Nakhchivan Autonomous Republic have been considered is an important aspect of raising the level of socio-economic development as a whole. Financial manufacturing, infrastructure, social sectors, as well as strengthening ways of the private sector role in the process of globalization and integration have been identified.

The main provisions which obtained as a result of research are explained and concrete proposals and recommendations have been put forward for improvement the role of the private sector in social and economic development.

## РЕЗЮМЕ

**Муслум Джаббарзаде**

**Развитие частного сектора в экономике региона: достижения и перспективы**

В статье исследованы понятие частный сектор и его роль в экономическом развитии, значение частного сектора в формировании современной экономической системы, закономерности развития данного сектора экономики.

Здесь особое место было уделено исследованию проблемы экономических реформ и формирования частного сектора в Нахчыванской АР, а также оптимальному соотношению государственного и частного секторов в экономике региона. Был проанализирован нынешний потенциал региона для развития частного сектора, исследовано двухстороннее отношение частного сектора и социально-экономического развития в автономной республике.

Развитие частного сектора в Нахчыванской АР было рассмотрено как важное направление повышения уровня социально-экономического развития. Основываясь на материалы анализов, были определены пути усиления значения частного сектора в таких процессах, как материальное производство, инфраструктура, социальная сфера, а также глобализация и интеграция.

В статье были прокомментированы основные понятия, приобретенные вследствие исследования, с целью повышения значения частного сектора в социально-экономическом развитии были выдвинуты конкретные предложения и советы.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov*

**TEYMUR ABBASOV**
*Naxçıvan Dövlət Universiteti*
Email:teymurabbasov56@mail.ru

***UOT :332.1***

# NAXÇIVAN MR-in SOSİAL-İQTİSADİ İNKİŞAFINDA SAHİBKARLIĞIN ROLU VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *sahibkarlıq, sosial-iqtisadi inkişaf, əhalinin rifahı, bələdiyyə, dövlət büdcəsi, iqtisadi siyasət, region problemləri, özəlləşdirmə.*

***Key words:*** *entrepreneurship, sociol-economic development, population welfare, municipal, budget, economic policy, regional issues, privatization.*

***Ключевые слова:*** *предпринимательство, социально-экономическое развитие, благосостояние населения, муниципалитет, государственный бюджет, экономическая политика, проблемы региона, приватизация.*

Region iqtisadiyyatının inkişafı indiki tarazlı inkişaf strategiyasının reallaşması kontekstində mühüm əhəmiyyət kəsb edir. Regionun kompleks inkişaf məqsədi, onun ərazisində formalaşan potensialın istifadəsi və təkrar istehsalı üçün zəruri olan vəzifələrin əsas tədbirlərin hazırlanması və tətbiqi ilə mümkündür. Sahibkarlıq ümumi iqtisadi problem olmaqla onun regionda formalaşması və inkişafı, bir sıra təşkilatı-iqtisadi şərait, yaradılan mexanizmlər və həmçinin əhalinin rifahının artması meylləri və əsas göstəriciləri əsasında konkretləşir.

Regionda sahibkarlıq həmin regionda bazar münasibətlərinin təşkilati forması olmaqla region məqsədlərinin və onun iqtisadi sosial potensialının maksimal istifadəsi qanunauyğunluqlarını əhatə edir. Əgər hər bir regionun öz sahə şəraiti onun ilkin resurs potensialını yaradırsa, onun sonrakı inkişafı, iqtisadi siyasətin, dövlətin iqtisadi rolu ilə daha da artır, təkmilləşir.

Sahibkarlığın makrosəviyyəli əhəmiyyəti, onun ictimai tələbat və əhali rifahında resurs və istehlak tələbatının ödənilməsində rolu ilə müəyyən olunur. Mikrosəviyyəli əhəmiyyəti konkret regionda yeni iş yerlərinin açılması və orada yaşayanların rifahının təmin olunması meyllərini əhatə edir.

Sahibkarlıq makroiqtisadi problem olmaqla, ərazi məhsuldar qüvvələrinin təşəbbüskarlıq və maraqlar prinsipi əsasında iqtisadi dövriyyə cəlb olunmasının təsərrüfat forması kimi çıxış edir. Əhalinin rifahının mənbəi və iqtisadi artımının mülkiyyət formalarından asılı olaraq dəyişmə meyllərini formalaşdırır və onun mənbəə, ərazi və sahə strukturunu müəyyənləşdirir. Sahibkarlığın makroiqtisadi göstəriciləri, onun ümumi daxili məhsulun artımında rolu, adam başına düşən məhsul istehsalında sahibkarların rolu və həmçinin sahibkarların bazar tələbatı və təklifinin, pul dövriyyəsinin ölkədə olan əmtəə-pul münasibətlərində fəallığı ilə müəyyənləşir. Xarakterik hal olaraq sahibkarlığın fəal rolu hər hansı ərazidə məşğul olan iş qabiliyyətli əhalinin sayında payının dinamikası əhəmiyyət kəsb edir. Hər hansı ərazidə sahibkarlığın rolu konkret vəzifələrin reallaşması üçün zəruri olan tədbirlərin və nəticələrin meyarı ilə ölçülür. Respublikadaxili regionların sosial-iqtisadi inkişafında sahibkarlıq həmin regionların resurs potensialı və onların istifadəsi nəticəsində bazar tələbatını ödəyən məhsulların dinamikası və xüsusi çəkisi ilə ölçülür. Regionda resurs potensialının mövcud ehtiyatları ilə yanaşı təkrar istehsalı üçün lazım olan resurs strukturunun təkmilləşdirilməsi də mühüm istiqamət olaraş əhəmiyyət kəsb edir.

Regionda sahibkarlığın inkişafı həmin regionun resurslarını və onun əhali tələbatının

ödənilməsi amili kimi baxılır. Ona görə də onun təşkilatlanmasında, tam bazar diktəsinin tətbiqi, yaxud tələb və təklifin ancaq özü-özünü tənzimləmə kriteriyası kimi qəbul edilməsi, ərazi proporsiyalarının pozulmasına, miqrasiyanın güclənməsini və regionların kompleks tarazlı və sahələrin əlaqəli inkişafına əks təsir edə bilər. Ona görə də ərazi proporsilarının tarazlı inkişafının təmin edən tənzimləmə obyekti kimi, sahibkarlığın inkişafı dövlət tənzimləmə obyekti olaraq əsaslandırılır və onun inkişafında dövlət və yerli orqanların vəzifələri müəyyən edilir.

Sahibkarlıq özü-özündə təşəbbüskarlıq, gəlir gətirmək və rəqabətə dözümlü, fəaliyyət təşkil edən həm geniş təkrar istehsalı həm də bazar tələbatına uyğun çevir riskli siyasət həyata keçirən təsərrüfat amili kimi tədqiq olunur. Azərbaycanda sahibkarlığın inkişafı bütün iqtisadi idarəetmə istiqamətində atılan mexanizmlərin tətbiqi sferası kimi özünün meyllərini və dəyişmə dinamikasını xüsusiyyətlərini doğurur. Onun dövlət himayəsi və ümumi iqtisadi problemləri, sahə və ərazi problemləri, funksional və kommerisya səyləri daim inkişaf edir, çevik iqtisadi idarəetmə mexanizminə çevrilir.

Sahibkarlığın makroiqtisadi rolu, iqtisadi və sosial inkişafın surətlənməsi və əhalinin rifahının yüksəldilməsi və iqtisadi müstəqillik istiqamətləri üzrə əldə olunan nəticələrlə ölçülür. ÜDM-un artım tempində sahibkarlığın rolu, bütövlükdə onun yaratdığı dəyər və son məhsul, yaxud xalis məhsul kimi ÜDM-un artım tempindəki rolu ilə xarakterizə olunur. Sahibkarlığın sosial-iqtisadi inkişafda rolu onun ayrı-ayrı sahələrinin və bu sahə daxilində qeyri dövlət sektorunun xüsusi çəkisi ilə müəyyən olunur. Ölkənin iqtisadi artım tempi, ümumi daxili məhsulda qeyri-dövlət sektorun rolu, idxal və ixracatda özəl sektorun rolu, makroiqtisadi tənzimləmə obyekti olaraq ümumi strateji sahibkarlıq meyllərini aşkar edir.

Planlı təsərrüfat sistemindən bazar münasibətlərinin yaranmasının ilkin şəraiti və əsas amili olaraq özəlləşdirmənin prioritetləri və əsas istiqamətləri müəyyən olunur. Bu məqsədlə aqrar sektorun iqtisadi rolu və onun özəlləşdirməsinin əsas xüsusiyyətləri sonrakı inkişaf şəraiti və əsas istiqamətlərini müəyyən edir.

Azərbaycanda sahibkarlığın sahə quruluşu formalaşmış potensialın sahə qurluşu ilə müəyyən olunur. O cümlədən, əhalinin məşğuliyyət sahələrinin prioritetliyi onun, təbii və resurs potensialının iş qüvvəsinin formalaşma növü və təsərrüfat fəaliyyəti, regionlarda sahibkarlığın əsas sahə və funksional xüsusiyyətlərini meydana atır.

Sahibkarlığın makroiqtisadi səmərəsi, onun sosial-iqtisadi nəticələri ilə ölçülür. Özəl müəssisələrin istehsal həcmi ilə yanaşı onun əhalinin məşğulluğu və əmək haqqı, gəlirlərinin formalaşmasında rolu, keyfiyyətcə yeni meyarlarla ölçülür. Əgər ixracatda sahibkarların rolunu da qiymətləndirsək onda əmtəə və tələb və təklifinin tarazlı inkişafında onun rolunun qiymətləndirilməsi metodologiyası daha aparıcı həlqə olur.

Regionlarda sahibkarlıq region, sahə ixtisaslaşması və kompleks region iqtisadi inkişaf konsepsiyası baxımından ölçülür. Regionda sahibkarlıq mülkiyyət münasibətlərinin qarlışıqlı əlaqəsi, onların resurs potensialında istifadə, sahiblik və sərəncam vermək hüququ ilə müəyyən olunur. Hər bir regionda əsas resurslar üzərində xüsusi mülkiyyət dövlət və bələdiyyə (yerli) sahibkarlıq forması mövcuddur. Özəlləşdirmənin birinci proqramına (1998-2000-ci illərdə) görə əsas fondların tərkib hissəsi olan torpaq və kənd təsərrüfatı avadanlıqları üzərində xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti forması xarakterik cəhət olaraq qalır.

Kənd regionlarında torpaq üzərində xüsusi mülkiyyət və əsas becərilən torpaqların onun istifadəçilərinə verilməsi, digər insanların və hətta yaşamayan əhalinin pul vəsaitindən istifadə edilməsi imkanlarını azaldır. Kənd yerlərində torpaqların becərilməsi üçün lazım olan texniki vəsaitlərin və emal sənayesinin inkişafı üçün kəndlilərin maliyyə imkanlarının çatışmamazlığı müşahidə olunur.

Bələdiyyə torpaqları istifadə edilmədən qalır, ya da icariyyə verilir. İcariyyə haqqı, icarədarların torpaqlan istifadəsinin hüquqi əsasları hələ ki, təminatlı olmadığı və onun istifadəsində əlavə kapitalın təminatının hüquqi və təşkilati bazası inkişaf etmədiyi üçün, bələdiyyə torpaqlarının tam iqtisadi dövriyyə cəlb edilməsi çətinliklərə gətirib çıxarır. Bələdiyyə mülkiyyətinin iqtisadi dövriyyə cəlb edilməsində ərazinin və bütün ölkənin iqtisadi

və maliyyə potensialının istifadəsi üçün ilkin şərait tam yaradılmamışdır.

Bələdiyyə mülkiyyəti, bələdiyyə torpaqları və onların istifadəsi nəticəsində əldə olunan xammal və hazır məhsul istehsalını özündə birləşdirir. Bələdiyyə torpaqları üzərində tikilən müəssisələr və xidmət sahələri həmin bələdiyyətinin gəlirlərini verir. Bələdiyyə mülkiyyətinin istifadəsi nəticəsində formalaşan gəlirlər və onun təsərrüfat formaları ərazinin kompleks inkişafı üçün iqtisadi idarəetmə, təşkilati və maliyyə strukturu kimi inkişaf edir və ərazi münasibətlərinin əsas sahəsi kimi çıxış edir. Ərazilərdə kompleks inkişaf və sahibkarlıq mühiti həmin ərazidə mülkiyyət formalarının və mülkiyyət hüquqlarının vahid sistem halında ərazi potensialının maksimal istifadəsi meyarına uyğun formalaşır və inkişaf edir.

Mülkiyyət münasibətlərinin təkmilləşməsi aqrar sektorun və sahibkarlığın digər sahələrinin əlaqə formalarının təkmilləşdirilməsi gəlirlərinin formalaşması maliyyə mənbələrinin regionun sosial-iqtisadi inkişafına yönəldilməsinin səmərəli variantları ilə təmin olunur.

Bələdiyyə (yerli) gəlirlər onun büdcə xərclərini və sahibkarlığın inkişafı üçün maliyyə əsaslarını müəyyən edir. Ərazinin sosial-iqtisadi inkişafının maliyyə əsasları həmin regionun yerli gəlirləri, büdcədən ayrılan dotasiyalar və yerli büdcə gəlirləri ilə formalaşır. Ona görə də hər bir regionun kompleks sosial-iqtisadi inkişaf proqramı həmin regionda olan təsərrüfat formalarının ərazidə formalaşan hüquqi və fiziki şəxslərin büdcəsini və xərclərinin imkanlarını nəzərə alır.

Dövlət büdcəsinin gəlirləri sahibkarlığın özünün inkişafı, onun vergi növləri üzrə potensialı, həmçinin vergi verməyin fəallığı ilə formalaşır. Dövlət büdcəsində həmçinin xərclərin istiqamətinə uyğun olaraq gəlirlərin artırılması imkanlarının maddi və maliyyə bazası yaradılır. İqtisadi və sosial inkişafın büdcə vasitəsi ilə maliyyə bazası və onun istifadəsinin texnologiyası əsaslandırılır. Dövlət büdcəsinin xərclərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri, sahələr, funksional vəzifələr və iqtisadi məqsədlər üzrə təsnifatlaşdırılır və prioritetlərə uyğun olaraq xərc strukturu formalaşdırılır. Hər bir regionun gəlirləri ilə xərcləri arasında mövcud fərqlər, büdcə vasitəsi ilə maliyyələşdirilir ki, bu fərqin yaranmasının iqtisadi əsasları və normativ-hüquqi göstəriciləri əsasında tərtib olunur.

Regionların büdcəsi xərcləri və gəlirləri arasında fərq həmin regionların sosial-iqtisadi inkişafında ələbaxımlıq, yaxud başqa regionların maliyyəsi hesabına ödənilməlidir. Bu kompensasiya sosial kontingentlərin ehtiyaclarını ödəmək üçün mərkəzləşdirilmiş büdcə və fondlar hesabına ödənilir.

Hər bir regionda sosial-iqtisadi inkişaf həmin əhalinin məşğuliyyət qurluşu, yaşamaq üçün zəruri olan şərait və məhsulların təminat səviyyəsi və onlardan istifadə imkarları əsasında formalaşır.

Sahibkarlığın inkişafının regional problemləri və əsas istiqamətləri həmin regionun resurslarından və onun əsas tələbat sisteminin ən səmərəli ödənilməsi yollarından və xüsusiyyətlərindən asılıdır. Regionun kompleks iqtisadi inkişaf proqrammı həmin regionun imkanalırını nəzərə almaqla bazar tələbatına uyğun istehsal və istehlak səviyyəsini təmin etmək üçün zəruri olan iqtisadi-təşkilati tədbirləri əhatə edir. Sosial-iqtisadi inkişafın surətlənməsi üçün özəlləşdirilmiş müəssisələrin, o cümlədən regionlar üçün əsas iqtisadi potensial olan kənd təsərrüfatı və onunla bağlı olan sahələrin kompleks əlaqələrini təmin edən inkişaf şəraitini yaratmaqdan ibarətdir.

Regionun inkişafında tələbat sistemi, həmin regionun idxal və ixrac potensialı və onun tənzimlənməsi dövlətin siyasətindən xeyli asılıdır. Regionun potensialını artırmaq həmin regionda olan təbii resurslarının sahibkarlıq yolu ilə istehsal olunan və əhalinin fiziki şəxs kimi, yaxud sahibkarlıq fəaliyyəti olaraq əhalidən aldığı məhsulların satışını təşkil edən müəssisə fəaliyyəti kimi səmərəli təşkilat formalarından asılıdır. Hər bir regionda istehsal strukturu, kənd təsərrüfatı məhsullarının istehlak və marketinq strukturu ilə müəyyən olunur.

Ona görə də özəlləşdirilmiş müəssisələrin inkişafı, onların sonrakı planlaşdırılması və idarəedilməsi əsas potensial amil olaraq inkişafın stimullaşdırılması rolunu oynayır. Sahibkarlıqda xarici bazar çıxış, öz məhsullarının reallaşması üçün bazar məkanının genişlənməsi, bir başa əlaqə və yaxud məhsulun marketinq qurluşunun dəyişməsi ilə baş verir.

Ona görə də marketinq strukturunun təkmilləşdirilməsi makrosəviyyədə iqtisadi inkişaf üçün əsas strateji məqsəd rolunu oynayır. Xarici ölkələrə hazır məhsulun ixracatında şirkətlərin və sahibkarların maraqlarının nəzərə alınması üçün şərait yaradılması bazar mühitində haqsız rəqabət və stimul yaratmaqla həyata keçirilir. Xarici ölkələrdə ixracat prosesi dinamik olaraq sahibkarlığın inkişafı, onun məhsuldarlığı və təsərrüfat əlaqələri məqsədi ilə yerli sahibkarlığın texnoloji qurluşunun təkmilləşdirilməsi və yeni marketinq strukturları ilə məhsul istehsal etməklə daha səmərəli inkişaf baş verir.

Sahibkarlığın inkişafında, əmtəə və xidmət bazarının genişlənməsi, onun ərazi və ayrı-ayrı ölkələrə nüfuz etməsi, həmçinin daxili bazarın qorunması və sahibkarlığın özünün stimullar əsasında artması üçün əmtəə və xidmət bazarının dövlət tərəfindən qorunması mühüm amil və tədbirlər məcmuudur. Dövlət idxal və ixrac prosesində həm ölkənin iqtisadi müstəqilliyini, onun istehsal potensialını və əhalinin maraqlarını qorumaq üçün sistem siyasəti həyata keçirir.

Sahibkarlığın inkişafının stimullaşdırma xarakteri və meyli onun strukurunun və elmi texniki təminatına şərait yaradır. Yeni texnologiyaya tələbat daxili istehsal, yaxud xarici ölkələrin yeni texnologiyasının gətirilməsi hesabına baş verir. Texnologiyaların seçilməsi və onların tətbiqi respublikada əmək məhsuldarlığının artımına və hər vahid məhsulun istehsal xərclərinin azalmasına gətirib çıxarır. Respublikanın ayrı-ayrı sahələrində sahibkarlığın əhatə əmsalı və onun iqtisadi səmərəliliyi artmış olur. Yeni texnologiyanın tətbiqinin iqtisadi əhəmiyyəti onun yeni iş yerlərinin açılmasına, səmərəli istehsal prinsipinin təşəkkülünə və daha çox valyuta gətirən sahələrin inkişafına səbəb olur.

Sahibkarlığın inkişafı, həmçinin regionun kompleks inkişafı ərazidə olan mülkiyyət münasibətlərinin təkmilləşməsi, onların əlaqəsi və vahid məqsəd olan ərazinin sosial-iqtisadi şəraitinin dəyişməsinə təsir edir. Təsərrüfat amili kimi məskunlaşma, sosial təminat və ərazilərin məhsuldar qüvvəsinin təşkilati forması kimi ərazi-idarəetmə funksiyasını təkmilləşdirir.

Sahibkarlıq biznes məqsədləri güdsə də onun sosial-iqtisadi mahiyyəti və inkişaf meylləri baxımından prioritetliyi daha üstün qiymətləndirilir.

Regionların inkişaf dinamikasında eynilik və onların maliyyə imkanlarının artırılması üçün özünü idarəetmə funksiyası daha əməli xarakter alır.

Sahibkarlıqda prioritetlik, həmin sahibkarlıq növünün regionun aparıcı problemlərin həllində rolu ilə müəyyənləşir. Belə ki, aqrar sahibkarlıq əhatə dairəsinə görə resursların daha çox tərkib hissəsini özündə birləşdirir. Daha çox əhali, iş qüvvəsini əhatə edir və bazarın əmtəə, xidmət, tələb və təklifinin formalaşmasında aparıcı həlqə rolunu oynayır.

Aparıcı həlqə kimi ümumi sahibkarlıq sistemində kənd təsərrüfatı sahələrinin inkişafı strateji və dominant olaraq məqsəd funksiyasını oynayır. Neft sektoru xarici inteqrasiya amilləri aqrar problemlərin perspektiv həllinə yönəldilir. Sahibkarlığın inkişafının sosial-iqtisadi mahiyyəti ikili yanaşma baxımından həll olunur. Bir tərəfdən iqtisadi artımın əsas amili və sosial təminat kimi yeni iş yerlərinin açılması sahəsi kimi nəzərdə tutulur. Digər tərəfdən investisiya, kapital və maliyyə-büdcə xərcləri və onların daha səmərəli idarə olunması baxımından həll olunur. Sahibkarlıq regionda məşğulluq və əhalinin həyat səviyyəsinin həlli üçün, yoxsulluq proqrammı çərçivəsində problemlərin həllinə yönəlir. Respublikada işçi qüvvəsinin təkrar istehsalı üçün lazım olan resursların həcmi yaşayış minimumunu müəyyən edir. Yeni iş yerlərinin açılması həmçinin sosiad müdafəi və yoxsulluğun ləğvi üçün inkişaf etdirilir.

Bu tələblər baxımından sahibkarlığın inkişafına respublikada mənfəət, biznes fəaliyyəti kimi baxılmır, həmçinin sosial iqtisadi inkişafın sosial amili və yeni iş yerlərinin təşkili və əhalinin rifahının yüksəldilməsi, məskunlaşmasının əsas amili kimi qiymətləndirilir. Respublikada yeni iş yerlərinə tələbatın ödənilməsi, iş qüvvəsinin istifadəsinin artımı yolu ilə təmin olunur. Bu meyllər keçid iqtisadiyyatı mərhələsində fəaliyyət göstərən respublikalar üçün səmərəli formadır və Azərbaycan Respublikasının təcrübəsi digər MDB respublikaları üçün tətbiq oluna bilər. Ona görə də Azərbaycanın sahibkarlıq modeli, yerli resursların səmə-

rəli iqtisadi dövriyyə cəlb olunması və yoxsulluğun ləğv edilməsi metodologiyasına əsaslanır. Sosial obyektlərin üstün artmasına, xidmət sahələrinin prioritet inkişafına üstünlük verilməsi məhz sahibkarlığın inkişafının sosial aspektlərini əks etdirir. Sahibkarlığın tənzimlənməsində aparılan dövlət tənzimləmə metodları vergi dərəcələrinin azalması, vergiyə cəlb olunan iqtisadi bazanın artırılması ilə konsepsiyasına əsaslanır. Ölkə iqtisadiyyatında önəmli meyl olaraq əmək tutumlu sahələrin daha üstün artması, məhz Azərbaycan Dövlətinin strateji tənzimləmə siyasətidir. Kiçik biznes fəaliyyəti maliyyə-vergi, bank, kredit və investisiya fəaliyyətinini tənzimləmək üçün ən üstün sferalardan birinə çevrilmişdir.

Kommersiya banklarının kiçik biznesin maliyyələşdirilməsində rolunu artırmaq tədbirləri həyata keçirilmişdir. Kommersiya banklarından savayi kiçik biznesin maliyyələşdirilməsinin xarici mənbələrindən biri olan vençur investisiyalarına keçmək üçün atılan addımlardır. Kiçik firmaların arxasında duran iri korporasiyaların və dövlətin fəaliyyətinə üstünlük verilir. Kiçik firmaların fəaliyyətini tənzimləmək məqsədi ilə dövlətin məqsədli proqramlar və məqsədli fondların yaradılması üçün hüquqi baza və təşkilati strukturlar yaradılır. Məhz iqtisadi idarəetmə strukturunda funksional təyinatına görə iriləşdirmək siyasəti bu istehsal daxili resursların müxtəlif məqsədlər üçün istifadəsində və səmərəli təşkilində rol oynayır. İnkişaf etmiş ölkələrin sahibkarlı təcrübəsindən istifadə etməklə lizinq krediti, daşınmaz əmlakın lizinqi kimi yeni strukturların hüquqi bazası, təşkilati quruluşu və metodikası hazırlanmışdır. Kiçik sahibkarlığın maliyyə bazasını yaratmaq üçün kiçik sahibkarlar arasında yaradılan kredit ittifaqları mühüm əhəmiyyət kəsb edir. Sahibkarlığın inkişafına dövlət köməyi dövlət proqramları vasitəsilə həyata keçirilir. Dövlət proqramı yolu ilə sahibkarlığa maliyyə yardımı, güzəştli xidmətlər və vergi tətbiqi, gömrük rüsumları və dövlət rüsümlarının tədbiqi son nəticədə sahibkarlığın rəqabət mühütində canlanması və özünün dayanıqlı fəaliyyəti üçün dövlətin qarant olmasını sübut edir. Əlbəttə, sahibkarlıq iqtisadi və sosial artımının əsas mənbələrindən olduğu üçün, onun səmərəli təşkili bütövlükdə ölkədə olan istehlak bazarının həcminə, strukturuna, əhalinin alıcılıq qabiliyyətinə və qiymətinə təsir edir. Məhz Azərbaycan iqtisadiyyatının sahibkarlıq konsepsiyası bu məqsədlərə yönəldilib.

Respublikada sahibkarlıq maliyyə-büdcə və regionlarda maddi-maliyyə balanslarının formalaşmasına səbəb olur.

Sahibkarlığın region xüsusiyyətləri həmin sahibkarlıq növünün və onun inkişafı üçün lazım olan region potensialının xüsusiyyətləri ilə müəyyənləşir. Belə ki, aqrar bazar xüsusiyyətlərinə uyğun sahibkarlıq növü, onun əsas məhsulların istehlakına, emalına və ixracatına uyğun olaraq inkişaf meylini nəzərdə tutur.

Aqrar bazarın marketinq qurluşu, onun istehsal və istehlak üzrə seqmentləri həmin bazarın texnoloji qurluşunu təkrar istehsal və fondlar üzrə silahlanma qurluşunu özündə birləşdirir.

Aqrar sahibkarlığın təsərrüfat formaları və hər bir regionda olanların inkişaf xüsusiyyətləri müvafiq resursların və əhali tələbatının konkret xüsusiyyətlərinə əsaslanır. Aqrar bazarın əmtəə və xidmət təklifi və emal sənayesinin tələbat sistemi uyğun olaraq istehsal texnologiyaların və təsərrüfatın texniki qurluşunu, onun digər sahələrlə əlaqəsini, ixtisaslaşma və kombinələşmə istiqamətlərini müəyyənləşdirir.

Aqrar bazar münasibətləri hər bir məhsulun ehtiyatlarının və onların istifadəsi xüsusiyyətlərini nəzərə almaqla reallaşır. O cümlədən, kənd təsərrüfatının kompleks inkişafı, onun ətraf mühit, təbii xüsusiyyətlərini və mövsümü xarakter almasını nəzərə alaraq təsərrüfatın təşkili formaları mütərəqqi forma olaraq dəyişilir. Dünya ölkələrinin standartların uyğun və yerli maraqlarını nəzərə alan təsərrüfat formaları yaradılır. Kəndli (fermer) təsərrüfatı, müştərək müəssisə, aqroservis xidmətləri, payı bəlli təsərrüfatlar, inkubatorlar və ticarət zonaları yaratmaqla sahibkarlığın region strukturu formalaşdırılır. Regionda təsərrüfat fəaliyyətinin təşkili, qurluşu təkmilləşdikcə, sahə və ərazi üzrə komplekslər yarandıqca, istehsal güclərinin daha da mərkəzləşməsi baş verir. Regionun kompleks sosial-iqtisadi inkişafı onun əhalisinin alıcılıq qabiliyyətinə, pul gəlirlərinə və məşğuliyyətinə, psixoloji sosial mühitinə təsir edir.

Aqrar bazarın region xüsusiyyətləri, həmin regionun sahibkarlığının əsas istiqamətlərini,

onun marketinq strukturunu və perspektiv ixtisaslaşmasını müəyyənləşdirir. Daha çox cari tələbatı ödəyən sahələrin və əmtəə istehsalının minimal səviyyəsini müəyyən edir.

Naxçıvan Muxtar Respublikasının kompleks inkişaf konsepsiyası, onun ərazisində mülkiyyət münasibətlərinin köklü islahatları ilə və resursların iqtisadi dövriyyə cəlb edilməsi məqsədi ilə qurulub və idarə olunur. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf göstəricilərinin ümumi dinamikası, onun islahatlar proqramı ilkin növbədə onun daxili resurslarının iqtisadi dövriyyə cəlb etmək və əhalinin sərhəd regionlarında məskunlaşmasını təmin etmək məqsədini güdür. Naxçıvanın ərazi xüsusiyyətləri, respublikada olduğu kimi, 1991-1995-ci illərdə tənəzzül, sonrakı islahatlar və 1996-cı illərdən isə artmı templəri ilə xarakterizə olunur.

Bu artımın əsas amili kimi sabitlik, sərhəd keçidlərində məskunlaşma proqramı və qonşu xarici ölkələrin iqtisadi potensialında, o cümlədən Türkiyə və İran İslam Respublikasının xaridi iqtisadi və mənəvi əlaqələrindən istifadə etmək meylləri və tədbirləri hesabına baş verir.

Naxçıvanda sahibkarlıq fəaliyyəti daha zəruri amil olaraq respublikadan tez başlanmışdır. Kolxoz və sovxozların ləğvi, onların əmlakının özəlləşdirməsində pulu və pulsuz metodların tətbiqi, özəl sektorun səmərəli forma kimi əhali arasında normativ hüquqi əsaslandırılması 1992-ci ildən başlamışdır.

Özəlləşdirmə xüsusi mülkiyyətin yaradılmasının ilkin şərti və şəraiti olmaqla inkişaf üçün əsas metodoloji və üzvü quruluş kimi özünəməxsus inkişaf meylləri və region xüsusiyyət kəsb edir. Məhz özəl sektorun sonrakı inkişaf proqrammı məcmuu və onların daha əməli və radikal xarakteri ilə sosial-iqtisadi nəticələr verir. Özəlləşdirmə ilə yanaşı baş verən işsizlik, bazarda bəzi məhsulların azlığı, inflyasiya və digər nəticələrin qiymətləndirilməsi və uyğun təşkilati kompensasiya tədbirləri görülməsi məhz idarəetmə prinsipləri və metodlarının təkmilləşdirilməsi ilə mümkündür.

Naxçıvan Muxtar Respublikasının iqtisadi böhrandan çıxarmaq və onun resurslarını istifadə etmək üçün əsas istiqamət olaraq heyvandarlığın inkişafı, onun əsas təbii sərvətinin emalı və ixracatı üçün zəruri olan şəraitin yaradılması idi. Bu şəraitin yaradılması Naxçıvanan daxili və respublikadan ayrılan az vəsaitlə mümkün deyildir. Ona görə də Naxçıvan Muxtar Respublikasında xarici investisiyaların cəlb edilməsi, əhalinin vəsaitlərinin istifadəsi üçün özəlləşdirmənin daha miqayslı və radikal keçirilməsi vacib və spesifik şərait idi. Naxçıvanın əhalisi, onun istehsal potensialı və əhalisinin iş qüvvəsi kimi respublikanın bütün ərazilərində, Türkiyyə və Rusiyada işləməsi hesabına gəlirləri formalaşır. Əhalinin artımı ilə iş yerlərinin artımı arasında nisbətlər daha da qütbləşir. Regionun sosial və iqtisadi inkişafı üçün iş yerlərinin açılması və yoxsulluğun ləğvi prioritet problem olaraq qalır. Bu məqsədlə Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafı yeganə dayanıqlı inkişaf və blokada şəraitində olan Naxçıvan üçün əsas inkişaf istiqaməti olaraq formalaşır.

Naxçıvan Muxtar Respublikasının ərazi yerləşməsi onun sahəsində tranzit məqsədləri üçün azad iqtisadi zona kimi istifadə edib, beynəlxalq məqsədlər üçün istifadə etmək olar. O cümlədən, yerli istehsalın tələbatının ödənilməsi məkanı kimi təkcə Naxçıvan Muxtar Respublikası deyil, həmçinin İran və Türkiyə bazarları, Yaxın Şərq və Avropa ölkələri üçün son məhsul istehsal edib, ixracat etmək mümkünlüyü var. Bu məqsədlə əsaslı vəsait qoyuluşu, azad iqtisadi zona kimi onun hüquqi bazasını və müəyyən güzəştli sistemilər tətbiq etmək yolu ilə mümkündür.

Naxçıvan Muxtar Respublikasında sahibkarlığın formalaşması üçün yerli xammala əsaslanan xarici bazar seqmentləri ilə idarə olunan forma və idarəçiliyə daha üstünlük vermək olar. Belə ki, Naxçıvan Muxtar Respublikasının duz mədənləri, mineral, su ehtiyatları təbii bitkilər, daş, daş karxanaları açmaq, turizm bazası kimi servis xidmətlərini genişləqdirmək, iqtisadi cəhətdən səmərəli və ərazinin sosial-iqtisadi inkişafı üçün kompleks yanaşma texnologiyasıdır.

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf dinamikası və meylləri, onun kənd təsərrüfatı məhsullarının emalı və ixracı istiqamətlərinin güclənməsi ilə mümkündür. Bu məqsədlə suvarma su ehtiyatlarını, həmçinin emal müəssisələri üçün daxili investisiyaların və xarici ölkələrin vəsaitlərinin cəlb edilməsi əsas götürülür. Naxçıvan Muxtar Respublikasında kiçik biznes və kiçik sahibkarlıq daha səmərəli effekt verər.

Bu məqsədlə kredit ittifaqları sahibkarlıq birlikləri, emal sənayesi ilə kənd təsərrüfatı arasında müddətli ödəmə şərtləri və xarici ölkələrlə müştərək bazar və istehsal yaratmaq formaları Naxçıvanın sosial-iqtisadi inkişafının əsas istiqamətləridir.

## ƏDƏBİYYAT


1.Abasov İ.D. Azərbaycanın kənd təsərrüfatı. Bakı, Elm və təhsil, 2010, 592s.
2. Abbasov T.A.Kənd təsərrüfatının resurs potensialı və ondan səmərəli istifadənin regional problemləri. Bakı, Elm, s.185.
3. Abbasov T.A. Naxçıvan MR-da aqrar bazar : konseptual əsaslar və inkişaf istiqamətləri.
4. Abdullayev A. İqtisadiyyat və iqtisadi siyasət. Bakı: «Asiya» nəşriyyatı, 2003, 205 s.
5. Əlirzayev Ə.Q. Sahibkarlığın sosial-iqtisadi inkişaf problemləri. Bakı, 2000, s.114
6. Əlirzayev Ə.Q. İqtisadiyyat: düşüncələr, baxışlar. Bakı: Elm, 2002, 465 s.
7. Əlirzayev Ə.Q., Əliyev K.Q. Sahibkarlığın inkişafının təminatı. /İqtisadiyyat və audit, 2002, №2, 33-34 s.
8. Əliyev K.Q. Bazar iqtisadiyyatı şəraitində sahibkarlığın inkişaf problemləri./ İqtisadiyyat və audit jurnalı 2003, №10, 24-25 s.
9.Verdiyev Ə.Ç., Qarayev İ.Ş. Aqrar bazarın formalaşmasının iqtisadi problemləri. Bakı, Şirvannəşr, 2000, 256 s.
10. Cəbiyev R.M. Azərbaycanda bazar infrastrukturunun formalaşması və inkişafı. Bakı: «Adiloğlu» 2002, 231 s.


## ABSTRACT


**Teymur Abbasov**


**The role and development trends of entrepreneurship in socio-economie development of the Nakhehivan Autonomous Republic**


The article deals with the macro level importance of entrepreneurship in the autonomous republic`s socio-economic development, its role in the population welfare and payment of resource and consumption demand. It is noted that the role of entrepreneurship in the regions` socio-economic development is measured by the results that have been gained on acceleration of economic and social development and improving of population welfare.


## РЕЗЮМЕ


**Теймур Аббасов**


**Роль и направления развития предпринимательства в социально- экономическом развитии Нахчыванской АР**


В статье говорится о макроуровневом значении предпринимательства в социально-экономическом развитии автономной республики, его роли в удовлетворении ресурса и потребительского спроса в благосостоянии населения. Отмечается, что роль предпринимательства в социально-экономическом развитии регионов измеряется полученными результатами по ускорению социального и экономического развития, а также повышению благосостояния населения.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

**MEHDİ BAĞIROV**
*Naxçıvan Dövlət Universiteti*

***UOT:332***

# KƏND TƏSƏRRÜFATI İNFORMASİYASININ FORMALAŞMASINDA MARKETİNQİN ROLU

***Açar sözlər:*** *kənd təsərrüfatı, marketinq fəaliyyəti, informasiya təminatı, marketinq növləri, aqrar istehsal*

***Keywords:*** *agriculture, marketing activities, information provision, marketing of agricultural produce*

***Ключевые слова****: сельское хозяйство, маркетинговая деятельность, информационное обеспечение, виды маркетинга, аграрное производство*

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra sosial-iqtisadi inkişaf istiqamətində sürətlə irəliləməkdədir. Artıq bir neçə təkamül mərhəsini geridə qoymuş müstəqil ölkəmiz fiskal siyasət hesabına sahə, region və digər bölgülər əsasında hərtərəfli, kompleks irəliləməni məqsəd olaraq qəbul etmiş və bu yöndə öz fəaliyyətini davam etdirməkdədir. Bəhs olunan istiqamətlər üzrə statistik informasiyadan istifadə xüsusilə də son 20 il üzrə respublikamızın bütün sahələrində ardıcıl planlaşdırma işləri əsasında düşünülmüş addımların atılmasına, prioritetlərin zəruri təşkilatlanmaların müəyyən etilməsinə və həyata keçirilməsinə, bunun nəticəsində isə iqtisadiyyatın, demək olar ki, bütün sahələrində yüksəlişə nail olunmasına dəlalət edir. İfadə edilən fikir və düşüncələr aqrar sahədən də yan keçməmiş, onun inkişafına öz təsirini göstərmişdir.

Ölkə üzrə kənd təsərrüfatı sahəsindəki işlərin qanunauyğun şəkildə tənəzzül nöqtəsindən oynadılması və məqsədyönlü şəkildə inkişaf etdirilməsi onun inzibati məkanlarının öncüsü hesab olunan Naxçıvanın təkamülündən start verildi. Bir tərəfdən Ulu Öndər Heydər Əliyevin iqtisadiyyat sahəsindəki səriştəsi, istehsal sferasındakı beynəlxalq alət və vasitələrin fəaliyyəti üzrə biliklərinin olması, digər tərəfdən isə zəngin (lakin həmin dövrdə istifadəsində çoxlu sayda problemlər yaşanan) yerli potensialdan düzgün istifadə məcmu halında tədricən müsbət nəticələrini verməyə başladı. İlk mərhələdə torpaqların dövlətsizləşdirilməsi və özəlləşdirlməsi, texnikanın və heyvanların kənd əhalisi arasında bölüşdürülməsi, sonralar isə vergidən azad olunma, gübrələrin və yanacağın imtiyazlı satışı, aqrolizinq xidmətlərinin göstərilməsinə start verilməsi, hər hektar hesabı ilə yardım şəklində kənd sahibkarlarına ödənilən vəsaitlər, aşağı faizli kreditlərin verilməsi aqrar sferanın təkanverici, həmçinin stimaullaşırıcı elementlərinə çevrildi.

Zaman keçdikcə aqrar sahə üzrə beynəlxalq (o cümlədən, elmi-nəzəri) təcrübənin öyrənilməsi bu istiqamətə müxtəlif iqtisadi alət və vasitələrin cəlbini zəruriləşdirdi ki, onlardan da biri kimi marketinq çıxış edir. İlk baxışda ancaq “aqroməhsulların satışını həyata keçirən mexanizmlər məcmusu” təsəvvürünü yaradan marketinq əslində kifayət qədər əhatəli sistemə malikdir, məhsula olan tələbatın formalaşmasından onun faktiki ödənilməsinədək olan mərhələlər çoxluğunu özündə birləşdirir. Bəhs edildiyi kimi, göstərilən ardıcıllıqda ilk kateqoriyanı aqrar sahədə istehsal olunmuş məhsula olan tələbat təşkil edir. Onun formalaşmasında istehlakı ödəməli olan məhsulun xeyli keyfiyyətləri birmənalı qəbul edilməməli və incəliklə araşdırılmalıdır. Reallığa gəldikdə istər ölkənin, istərsə də muxtar respublikanın aqrar sektoru aid informasiyanın istifadəsi yönündə, demək olar ki, nəzərə çarpacaq addımlar atmamışdır. Halbuki məlumatlandırma mexanizmlərindən düzgün istifadə çoxsaylı məsələyə aydınlıq gətirmək iqtidarındadır ki, bunlardan da əsasları aşağıdakılardır:

- ✓ ölkə və regionlar üzrə istehlakı qarşılaya biləcək aqrar məhsul həcmlərinin fizioloji normalar əsasında müəyyən edilməsi və uyğun faktiki göstəricilərin həcmləri ilə müqayisəsi;
- ✓ məhsul bölgüsünün həyata keçirilməsi qayda və qanunauyğunluqlarının müəyyən edilməsi;

✓ həmin məhsullar üzrə ixrac və idxalın nəzərdə tutulan və real ölçülərin hesablanması;

✓ satılması nəzərdə tutulan və yerli istehsalı təmsil edən məhsul həcmlərinin (növlər üzrə) aydınlaşdırılması;

✓ aqroməhsulların digər mövsümlərdə satılması məqsədilə saxlama məkanlarına göndərilməsi;

✓ məhsulverimi, əmək məhsuldarlığı və əmək tutumu, istehsalın texnika ilə təmi-natı, gəlirlilik kimi göstəricilərinin səviyyələrinin öyrənilməsi və s.

Sadalananların nəzərə alınması informasiya üzrə işlərin həyata keçirilməsinin əsas şərtlərindən biri hesab olunur. Məhs onların hesaba alınması bu mərhələdə subyektlərdəki aidiyyatı boşluqların aradan qaldırılmasına, məlumatların əldə edilməsi baxımından cavablandırılmayan sualların qalmamsına gətirib çıxaracaq. Həmçinin yaddan çıxarmamalıdır ki, özündə tətbiq etdiyi marketinq imkanları və mexanizmləri ilə yanaşı aqrar istehsal subyekti digər hasilat vahidlərinin istifadə etdiyi marketinq "addımlarında" iştirakçı (alıcı) sifətilə çıxış edə bilər. Bu isə həmin iqtisadi alətin əhəmiyyətindən, nə qədər geniş yayılmasından xəbər verir.

Marketinq fəaliyyətinin təşkilində müraciət olunan 2 (məhsulun alıcıdan satıcıya hərəkətinin xüsusiyyətlərini müəyyənləşşdirəcək) mərkəz mövcuddur: 1. mövcud tələbat əsasında təşkil olunan istehsal; 2. baş tutmuş istehsal əsasında sonradan formalaşan tələbat. Təsnifatdan da göründüyü kimi, birinci bənd ənənəvi təməllər üzərində mövcud olduğu halda, ikinci – nisbətən yeni olan aqroməhsulların istehsalçılara qəbul etdirilməsi qayda və prinsipləri üzərində qurulmuşdur. Adətən onlar hər hansı ölkədə (regionda) istehlak olunacaq əmtəələrin siyahısına daxil edilməyə çalışılır. İstənilən hasilat obyekti və prosesində bunlardan hər hansı birinə üstünlük verilməsi özü ilə spesifik şəraiti yaratmaqla bərabər özünəməxsus alət və vasitələrin (tanıtım-reklam fəaliyyəti, inandırma, stimullaşdırıcı satış, "keyfiyyət-qiymət" tarazlığı əsasında reallaşdırma, qiymətin müəyyənləşdiril-məsində təsir amillərinin aydın ifadə edilməsi, təklif olunma (qablaşdırma, alıcıya çatdırma və s.) forması, qiymətlərin alış həcminə uyğun fərqlənməsi və s.) istifadəsini də nəzərdə tutur.

Marketinq öz fəaliyyətini istehsal-satış prosesi boyu təşkil edir. Belə ki, istehsalına hələ başlanmamış aqroməhsullar üzrə tələbatı ödəyəcək xarakterik xüsusiyyətlərin nəzərə alınması qanunauyğun şəkildə ona olan ehtiyacın artırılması ilə müşayət olunur. Bu fakt nəticədə yük dövriyyəsinin, sonradan isə zəncirvari əlaqə qaydasında satış həcminin, gəlirlərin və rentabelliyin səviyyəsində özünü biruzə verəcəkdir. Hazır məhsulların bölgüsünün həyata keçirilməsi qaydaları və qanunauyğunluqları özünün spesifikliyi ilə fərqlənir. Bu addımın düzgün atılması hazır məhsul üzrə israfçılığı xeyli azaldacaq; maliyyə göstəricilərinin səviyyələrinə təsir edəcək; əhalinin təbii və mexaniki artım templərini daim nəzərə alacaq; bazarda həmin məhsula olan tələbatın səviyyəsində kəskin kənarlaşmaların qarşısına alacaq, onun qiymət tərəddüdünün geniş miqyasda dəfə hesabı ilə baş tutmasına, süni qiymət artımlarına imkan verməyəcək; insanları ilboyu yeni (konservasiya olunmamış, qurudulmamış) kənd təsərrüfatı məhsulları ilə təmin etməyə imkan verəcək və s.

Mövzunun tərkib hissələrindən biri kimi satış kanallarının və məkanlarının imkanlarının artırılması çıxış edir. Məhs bu amil məhsul əsasındakı "istehsalçı-istehlakçı" əlaqələrində təması artırır, növ-çeşid və ümumi həcm üzrə aqroəmtəələrin öz alıcısını tapmasına şərait yaradır. Bir tərəfdən risk səviyyəsi yüksək olan, digər tərəfdən dünyanın əksər ölkələrindəki kimi yardımlarla fəaliyyətini davam etdirən kənd təsərrüfatı sahəsi insanların birbaşa və ya dolayı istəklərini ödəməklə öz vəzifəsini yerinə yetirməkdədir. Bununla belə bir sıra hallarda ortaya aşağıdakı situasiyalar çıxır: 1. Həcm və keyfiyyət etibarı ilə kifayət edəcək həcmdə hasil edilən ərzaq məh-sulları istehsalçının anbarlarında (saxlama məkanlarında) qalaraq xarab olur; 2. Şəhər əhalisi elə həmin məhsullara olan tələbatını ödəmək üçün ya kənddən az həcmdə gətirilərək baha qiymətə təklif olunan, yaxud da müxtəlif ölkələrdən gətirilən (keyfiyyət göstəriciləri şübhəli olan) əmtəə kütləsindən istifadə olunur və s. Araşdırılan istiqamətdə atılan müsbət addımlardan biri kimi də Ölkə Prezidenti İlham Əliyev tərəfindən 15 yanvar 2014-cü il tarixlə imzalanan, "fermer mağazaları" və "yaşıl marketlər"in yaradılmasını nəzərdə tutan Sərəncam qiymətləndirilə bilər. Onun imzalanması Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutsa da, "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın icrası sahəsində əlavə tədbirlərin görülməsinin

sistemləşdirilməsi, kənd təsərrüfatı məhsulları ixracının artırılması, aqrar sahədə istehsalçıların və istehlakçıların maraqlarının qorunması və ərzaq bazarının səmərəli fəaliyyətinin təmin edilməsi məqsədlərini güdür ki, burada da marketinqin rolu əvəzolunmazdır.

Aqrar sahə məhsullarının sənaye təyinatlı emalını da (ASK şəklində) tələbatın tərkibində fərdi qaydada araşdırmaq zəruridir. Belə ki, məsələn, bağlarda istehsal olunmuş meyvə məhsullarının heç də bütün həcmi məqbul zaman kəsiyində istehlak olunmur, onun bir hissəsinin uyğun sənaye sahəsi əsasında emal edilərək istehlak çeşidini artırması marketinq fəaliyyətinin rəngarəngliyini yüksəldir ki, bu da müvafiq mübadilə məkanınn strukturunun dəyişilməsinə, orada iştirakçı sifətilə təmsil olunan məhsulların xüsusi çəki etibarı ilə dəyişməsinə gətirib çıxarır. Buna həmçinin ilk növbədə hasilatın yerli xammala əsaslanması da əlavə olunmalıdır.

## ƏDƏBİYYAT


1. Bağırov M.S. Kənd təsərrüfatında istehsal vəsatış münasibətlərinin formalaşmasının müasir vəziyyəti və xüsusiyyətləri. (monoqrafiya). Naxçıvan: Qeyrət, 2014,107s.
2. Bağırov M.S. Aqrar sahənin inkişafı və marketinq prinsiplərindən istifadə. (monoqrafiya). Naxçıvan: Qeyrət, 2014, 102s.
3. Bağırov M.S. Statistika kursu. Naxçıvan: Əcəmi, 2014, 608
4. Rüstəmov A.A., Qasımov D.Q. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı: Avrora, 2013, 406s.
5. Nuriyev Ə.X. Regional idarəetmənin əsasları. Bakı: Elm, 2007, 428s.
6. Abbasov T.A. Naxçıvan MR-də aqrar bazar: konseptual əsaslar və inkişaf istiqamətləri. Bakı: AzTU-nun mətbəəsi, 2015, 301s.
7. İbrahimova N.H. Regionda aqrar sahənin istehsal-iqtisadi əlaqələrinin təkmilləşdirilməsi istiqamətləri. Naxçıvan: İdeya, 2011, 124s.
8. Bağırov E.A. Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı. Bakı: Avropa, 2015, 332s



## ABSTRACT

**Mehdi Bagirov**

**The role of marketing for the formation agricultural information**

The article is taken from the main subjects acting in the field of agriculture as a subject. In modern times, the socio-economic development of the Autonomous Republic is of a systematic nature. The work done in this direction in the affected area of agriculture.

The increase in production in the agrarian sector from day to day, its material-technical base of the well continuous reform and transforming the nature of work in this area on many factors. Among the activities mentioned component-specific aspects of the implementation of the necessary different.

The present stage of development, along with other factors, the availability of information provision also includes the organization of marketing activity. This is the general area of destination, as well as selected individual products in the relevant field of work and services can be organized.

The article marketing activities of agriculture as one of the principal methods of data acquisition-thirds have been considered. Indeed, the implementation of the study, the use of different situations, it is recommended selecting the components of the marketing system. National and regional scale is considered to be done.

## РЕЗЮМЕ

**Мехти Багиров**

**Роль маркетинга в формировании информации сельского хозяйства**

В статье основным объектом исследования выбраны субъекты, действующие в аграрном секторе. Социально-экономическое развитие автономной республики на современном этапе носит сстемный характер. Проводимые в этом направлении работы не обошли стороной и сельскохозяйственную отрасль.

Повседневный рост производства в сельском хозяйстве, улучшение его материально-технической базы, проводимые реформы и работы трансформационного характера формируютсф на основе сществующих многочисленных факторов. Среди повествуемых компонентов проведение необходимых работ по информативности отличается своими специфичными чертами.

На современной стадии развития существование информационного обеспечения наряду с другими факторами воспроизводит в себе и организацию маркетинговой деятельности. Эта деятельность может быть организована как по общему профилю отраслей, так и внутри отрасли по индивидуальным товарам, работам и услугам.

В статье маркетинговая деятельность рассматривается как один из способов по получению информации в сельском хозяйстве. В проведении исследования рекомендуется выборочное использование составных компонентов марке-тинговой системы по различным ситуациям. Проводимые работы включают в себя общереспубликанские и региональные масштабы.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov*

**GÜLARƏ RƏHİMOVA**
**KƏMALƏ İBRAHİMOVA**
*Naxçıvan Dövlət Universiteti*
*gularaisayevaali@mail.ru*

***UOT:330.4***

# *EKONOMETRİK MƏSƏLƏLƏR VƏ ONLARIN RİYAZİ HƏLLİ*

***Açar sözlər***: *avtoreqressiya modeli, klassik reqressiya modeli, determinasiya əmsalı, etibarlı interval, əsaslı qiymətləndirmə .*

***Key words*** *: autoregressive model, classical normal regression , coefficient of determination (R-squared) , confidence interval, consistent estimator.*

***Ключевые слова*** *: авторегрессионная модель, классическая регрессионная модель, коэффициент детерминации, доверительный интервал, состоятельная оценка.*

Müasir dünyada hər bir insan üçün riyaziyyatın rolu bilavasitə 2 əsas faktorla təyin edilir: İnformasiyanın emalı texnologiyası və riyazi savadla. Riyaziyyat digər elm və texnologiyalara reallıq modelləri sistemi və bu modellərin tədqiqi alətlərini təklif edərək bütün insanların həyatına hiss olunacaq dərəcədə təsir edir. Bir çox məsələlərin və həllərin əsasında riyaziyyat durur. Bu həm də siyasətə, ekologiyaya, şəxsi həyata aid və professional sferanın xaricində olan seçmə, planlaşdırmaya da aid edilir.

Təsadüfi deyil ki, son zamanlar kompyuterləri riyazi maşın da adlandırırlar və bu, "Hesablama maşını" adlandırılmasından daha doğru səslənir. Çünki, kompyuterlər özü riyazi üsullarla yaradılmışdır. Başqa sözlə, maşınlar "riyaziləşdirilməsi" mümkün olan işi görürlər. Məsələn, obrazların tanınması və ya şifahi nitqin tanınması məsələlərinin həllini klassik riyaziyyat nöqteyi-nəzərindən təsəvvür etmək mümkün deyil. Riyaziyyat yeni tətbiqi riyaziyyatın diskret kəmiyyətlərlə işləyən metod və modellərinin geniş spektrini hazırlamışdır və bu zaman hesablama üsulları üçün keçilməz adlanan məsələlər ortaya çıxır.

Riyazi savadın şərti olaraq aşağıdakı növlərini qeyd etmək olar: Cəbri savad (düsturda yerinə qoymaq, cavab almaq); Həndəsi savad; Ehtimal və statistik savad; Məntiqi savad-çoxluqlar və xassələr, müraciətdə, o cümlədən riyazi olmayan obyektlər haqqında müzakirələrdə arqumentasiya-nın ortaya qoyulması; Alqoritmik savad, həmçinin, hesablama mürəkkəbliyindən irəli gələn mülahi-zələrdən istifadə etmək bacarığı və kompyuterin işinin fundamental riyazi əsaslarının (Proqramlaşdırma texnologiyası) başa düşülməsi; Modelləşdirmə bacarığı, Kəsilməz və diskret modellər də daxil olmaqla riyaziyyat və reallığın qovuşmasında yaranan savad.

Bu növlərin qovuşması yeni bir anlayışı "ekonometrik savad" anlayışını meydana çıxarır. Elmin çox sürətlə inkişaf edən bir bölməsinin - ekonometrikanın dolğun tərifini vermək, onun predmet və metodlarını təsvir etmək kifayət qədər çətindir. Əgər desək ki, "ekonometrika- iqtisadi ölçmələr haqqında elmdir", bu elə "Riyaziyyat - rəqəmlər haqqında elmdir" frazası ilə eyni cür səsələnəcək. Əslində isə ekonometrika anlayışı hərfi mənada ifadə edilmiş bu informasiyadan daha böyük məzmunu və mənanı ifadə edir [4]. Ekonometrikaya müasir baxış aşağıdakı tərif1ə ifadə edilə bilər:

***Ekonometrika*** – İqtisadi nəzəriyyə ilə şərtləndirilmiş ümumi (keyfiyyət) qanunauyğunluqlara konkret kəmiyyət qiymətləri verən, bazasında: İqtisadi nəzəriyyə, İqtisadi statistika, Riyazi-statistik instrumentari, Ehtimal nəzəriyyəsi, Kompyuter texnologiyası duran, nəzəri nəticələr, metod və modellər toplusunu özündə birləşdirən elmi fəndir. Başqa sözlə, ekonometrika – iqtisadi nəzəriyyənin müddəaları və iqtisadi statistikanın ilkin verilənləri bazasında, zəruri riyazi-statistik instrumentaridən istifadə edərək, ümumi (keyfiyyət) qanunauyğunluqlara konkret kəmiyyət qiymət-ləri vermək imkanına malikdir. İqtisadi analiz üsulu özündə analizin statistik və riyazi metodlarını

birləşdirir. Bu cəhd iqtisadi siyasətin müfəffəq planlaş-dırılması və iqtisadi proqnozları yaxşılaşdırmaq üçündür. Ekonometrikada İqtisadi nəzəriyyə riyazi münasibətlər şəklində ifadə edilir, sonra isə emprik – statistik metodlar yoxlanılır [5].

Riyazi iqtisadiyyatda olduğu kimi, ekonometrika da ekonometristlərin məşğul olduğu predmet oblastı olub, emprik verilənlərin statistik metodlarla öyrənilməsi ilə bağlıdır: bunun məqsədi - İqtisadi nəzəriyyə tərəfindən təklif edilən münasibətlərin qiymətləndirilməsi və hipotezlərin yoxlanılmasındadır. Bu zaman Riyazi iqtisadiyyat iqtisadi analizin yalnız nəzəri aspektləri ilə məşğul olduğu kimi, ekonometrika da artıq aşkar riyazi münasibətlər şəklində təsvir olunmuş nəzəriyyənin [falsify] düzgünlüyünün yoxlanılması ilə məşğul olur. Lakin elmin bu iki oblastı tez-tez kəsişir. Bu kəsişmədə intellektual mülahizələr, intellektual biliklər mühüm rol oynayır.

***Məsələnin qoyuluşu***. Məlumdur ki, iqtisadiyyatın inkişafı həmişə risklərlə müşayət olunur. Ona görə də ekonometrika xətaları və sapmaları azaltmaq üçün bütün faktorları nəzərə almaqla hesabat aparmağa, iqtisadi fəaliyyətin müvəffəqiyyətini təmin edən ən səmərəli metodlar seçməyə imkan yaradır. Bu elm dövlətin və müəssisələrin iqtisadi cəhətdən dayanıqlı inkişafını təmin etməyə, etibarlı və əsaslandırılmış idari qərarların qəbuluna kömək göstərir. Qarşıya qoyulmuş məqsədlərə nail olmağa kömək edən idari qərarların düzgün variantını seçmək yalnız ekonometrik hesablamalar vasitəsilə mümkün olur. Bundan başqa, ekonometrik hesablamalar iqtisadi konyunkturanı nəzərə almaqla iqtisadi durumu proqnozlaşdırmağa imkan yaradır.

Ekonometrik hesablamaların aparılması, metodlar və alınan proqnozlar bu və ya digər nəzəri və praktiki konsepsiyaların seçiminin doğruluğunun sübutu üçün böyük önəm daşıyır [3].

Qarşıdakı vəzifənin qoyuluşundan asılı olaraq ekonometrik hesablamaları mütəmadi yoxlamaqla müntəzəm aparmaq, hədəfləri müəyyən eləmək, alternativ tədbirlər görmək, ekonometrik proqnoz və modellər hazırlamaq üçün məlumatlar toplamaq, xərcləri nəzərdə tutulan nəticələrlə müqayisə etmək, təkmilləşdirilmiş yeni modellər aşkarlamaq lazımdır.

Ekonometrik tədqiqatlarda entropiyanın nəzərə alınması gözlənilməz vəziyyətlərin müəyyənləşdirilməsinə və onların son səmərəliliyə təsirini qiymətləndirməyə əsas yaradır [1].

Bu məsələlərin həlli uyğun misallara, alqoritmlərə, göstəricilərə əsaslanır, beləki, onların tətbiqi qarşılıqlı əlaqələrin statistik öyrənilməsi haqda danışmağa əsas verir.

Yuxarıda söylədiklərimizi ekonometrik misallarla izah edək.

*Məsələ 1.*

Azərbaycan Respublikasının 7 ərazisi üzrə 2015-ci il üçün 2 əlamətə görə aşağıdakı göstəricilər məlumdur. Cədvəl 1.

Cədvəl 1

| Rayon | Ümumi gəlirdən ərzaqın alınması üçün sərf olunan pul, %, y | Bir işçinin günlük qazancı, x, man |
|---|---|---|
| Bakı | 69,8 | 44,1 |
| Sumqayıt | 63 | 58 |
| Şamaxı | 60,9 | 55,7 |
| Gəncə | 57,7 | 60,8 |
| Naxçıvan | 56 | 57,8 |
| Mingəçevir | 55,8 | 46,2 |
| Qəbələ | 50,3 | 53,7 |

Tələb olunur:

1. Y-in x-dən asılılığının xarakteristikası üçün aşağıdakı funksiyaların parametrlərini hesablayın:

a) xətti; b) qüvvət üstlü (həmçinin fikirləşmək olar ki, verilmiş modeli əvvəlcədən necə xəttiləşdirməli).

2. Hər bir modeli approksimasiyanın orta xətti $\bar{A}$ və F-Fişer kriteriyası vasiəsilə qiymətləndirməli.

*Məsələnin həlli.*

1a. y=a+b*x xətti reqressiyasında a və b parametrlərini hesablayaq. Normal tənliklər sistemini a və b –yə nəzərən həll edək:

$$\begin{cases} n*a+b\sum x=\sum y \\ a\sum x+b\sum x^2=\sum yx \end{cases}.$$

İlkin verilənlərə görə hesablayaq: $\sum y, \sum x, \sum yx, \sum x^2, \sum y^2$.

Cədvəl 2.

| | Y | X | Yx | $x^2$ | $y^2$ | $\hat{y}_x$ | $y-\hat{y}_x$ | $A_i$ |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | 69,8 | 44,1 | 3078,18 | 1944,81 | 4872,04 | 62,411 | 7,4 | 10,6 |
| 2 | 62,7 | 58 | 3636,6 | 3364 | 3931,29 | 57,546 | 5,2 | 8,3 |
| 3 | 60,9 | 55,7 | 3392,13 | 3102,49 | 3708,81 | 58,551 | 2,5 | 4,1 |
| 4 | 57,7 | 60,8 | 3508,16 | 3696,64 | 3329,29 | 56,566 | 1,1 | 1,9 |
| 5 | 56 | 57,8 | 3236,8 | 3340,84 | 3136 | 57,616 | -1,6 | 2,9 |
| 6 | 55,8 | 46,2 | 2577,96 | 2134,44 | 3113,64 | 61,676 | -5,9 | 10,6 |
| 7 | 50,3 | 53,7 | 2701,11 | 2883,69 | 2530,09 | 89,051 | -8,8 | 17,4 |
| Yekun | 413,2 | 376,3 | 22130,94 | 20466,91 | 24621,16 | - | - | 55,8 |
| Orta qiymət | 59,03 | 53,76 | 3161,56 | 2923,84 | 3517,31 | | - | 7,97 |
| $\sigma$ | 5,72 | 5,81 | | | | | | |
| $\sigma^2$ | 32,77 | 33,70 | | | | | | |

$$b=\frac{\overline{y\cdot x}-\bar{y}\cdot\bar{x}}{\sigma_x^2};\ \sigma_x^2=\overline{x^2}-\bar{x}^2;\ \sigma_y^2=\overline{y^2}-\bar{y}^2$$

$$\sigma_x^2=2923{,}84-2890{,}14=33{,}7;\ \sigma_x^2=5{,}81$$

$$\sigma_y^2=3517{,}31-3484{,}54=32{,}77;\ \sigma_y^2=5{,}72$$

$$b=\frac{3161{,}56-59{,}03\cdot 53{,}76}{5{,}81^2}=\frac{-11{,}89}{33{,}7}=-0{,}35$$

$$a=\bar{y}-b\cdot\bar{x}\quad a=59{,}03-(-0{,}35)\cdot 53{,}76=77{,}846.$$

Reqressiya tənliyi:

$$\hat{y}_x=77{,}846-0{,}35\cdot x.$$

Orta günlük əmək haqqının 1 manat artırılması ərzaq məhsullarının alınmasına çəkilən xərci orta hesabla 0,35%-aşağı salır [2].

Cüt korrelyasiyanın xətti əmsalını hesablayaq:

$$r_{xy}=b\frac{\sigma_x}{\sigma_y},\quad r_{xy}=-0{,}35\cdot\frac{5{,}81}{5{,}72}=-0{,}357.$$

Əlaqə sadə tərs formadadır [3].

Determinasiya əmsalını hesablayaq:

$$r_{xy}^2=(-0{,}35)^2=0{,}127.$$

12,7% nəticə variasiyası x faktorunun variasiyası ilə izah olunur. X-in faktiki qiymətini reqressiya tənliyində yerinə yazsaq, $\hat{y}_x$-in nəzəri (hesabi) qiymətlərini alarıq.

$\bar{A}$-approksimasiyanın orta səhv kəmiyyətini tapaq:

$$\bar{A}=\frac{1}{n}\sum A_i,\qquad \bar{A}=\frac{55{,}8\cdot 100\%}{7}=7{,}97\ \%.$$

Hesablanmış orta qiymət faktiki qiymətdən 7,97% meyl edir.

F- kriteriyasını hesablayaq: $F=\frac{r^2}{1-r^2}\cdot(n-2)$, F= $\frac{0{,}127}{1-0{,}127}\cdot 5=0{,}7$.

Alınmış qiymət asılılığın təsadüfi təbiəti və tənliyin parametrlərinin statistik əhəmiyyətsizliyi

və əlaqənin sıxlıq göstəricisi haqda $H_0$ hipotezinin qəbul edilməsinin zəruriliyini göstərir.

1b. y= $a \cdot x^b$ qüvvət üstlü modelinin qurulması dəyişənlərin xəttiləşməsi prosedurunu qabaqlayır [7].

Misalda xəttiləşmə tənliyin hər iki tərəfini loqarifmləməklə aparılır:

log y=log $a$ +b $\cdot$ log x, Y=C+b $\cdot$ X, harada ki, Y=log y, X=log x, C=log $a$ .

Hesablamalar üçün 3 cədvəlinin verilənlərindən istifadə edəcəyik.

Cədvəl 3

| | Y | X | Y X | $X^2$ | $Y^2$ | $\hat{y}_x$ | $y-\hat{y}_x$ | $(y-\hat{y}_x)^2$ | $A_i$ |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 1,8439 | 1,6444 | 3,0321 | 2,7041 | 3,40 | 59,48 | 10,32 | 106,50 | 14,79 |
| 2 | 1,7973 | 1,7634 | 3,1694 | 3,1096 | 3,2303 | 58,46 | 4,24 | 17,98 | 6,76 |
| 3 | 1,7846 | 1,7459 | 3,1157 | 3,0482 | 3,1848 | 58,61 | 2,29 | 5,24 | 3,76 |
| 4 | 1,7612 | 1,7839 | 3,1418 | 3,1823 | 3,1018 | 58,28 | -0,58 | 0,34 | 1,005 |
| 5 | 1,7482 | 1,7619 | 3,080 | 3,1043 | 3,1043 | 58,47 | -2,47 | 6,1 | 4,41 |
| 6 | 1,7466 | 1,6646 | 2,9073 | 2,7709 | 2,7709 | 59,31 | -3,51 | 12,32 | 6,29 |
| 7 | 1,7016 | 1,73 | 2,9438 | 2,9929 | 2,9923 | 58,74 | -8,44 | 71,23 | 16,78 |
| Yekun | 12,3834 | 12,0941 | 21,3901 | 20,9123 | 20,9123 | 411,35 | 1,85 | 219,71 | 53,795 |
| Orta qiymət | 1,7691 | 1,7277 | 3,0557 | 2,9875 | 2,9875 | - | - | 31,39 | 7,7 |
| $\sigma$ | 0,04 | 0,1122 | | | | | | | |
| $\sigma^2$ | 0,0016 | 0,0126 | | | | | | | |

C və b-ni hesablayaq:

$$b=\frac{3,0557-1,7691\cdot 1,7277}{0,0126}=\frac{3,0557-3,0565}{0,0126}=-0,0635.$$

C=$\overline{Y}-b\cdot\overline{X}$ C=1,7691+0,0635$\cdot$ 1,7277=1,7691+0,1097=1,8788.

Xətti tənlik alarıq:

$$\hat{Y}=1,8788-0,0635\cdot X.$$

Onun potensiallanmasını yerinə yetirək, x-in faktiki qiymətinə görə $\hat{y}_x$ nəticəsinin nəzəri qiymətini alırıq.

Bu qiymətlərə uyğyn göstəriciləri hesablayaq: əlaqənin sıxlığı – $\rho_{xy}$ korrelyasiya indeksini və $\overline{A}$ approksimasiyanın orta səhvi:

$$\rho_{xy}=\sqrt{1-\frac{\sum(y-\hat{y})^2}{\sum(y-\overline{y})^2}},\quad \rho_{xy}=\sqrt{1-\frac{31,39}{32,77}}=\sqrt{1-0,96}=\sqrt{0,04}=0,2.$$

$$\overline{A}=\frac{1}{7}\cdot 53,795=7,7\%.$$

Üs***tl***ü model göstərir ki, ***o qar***şılıqlı əlaqəni xə***tt***i funksiyaya görə daha yaxşı əks etdirir [4].

Region iq***t***isadiyya***t***ının ekonome***t***rik ***t***ədqiqinə aid daha bir misala baxaq.

Regionun yüngül sənaye müəssisələri üzrə məhsul buraxılışı həcminin (Y mil. man) kapital qoyuluşu həcmindən (X mil. man) asılılığını xarakterizə edən informasiya alınmışdır. (Cədvəl 4).

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| $X_i$ | 33 | 17 | 23 | 17 | 36 | 25 | 39 | 20 | 13 | 12 |
| $Y_i$ | 43 | 27 | 32 | 29 | 45 | 35 | 47 | 32 | 22 | 24 |

İlkin verilənlər. Cədvəl 4.

Xətti reqressiya parametrlərinin hesablanması üçün köməkçi cədvəli quraq.

Cədvəl 5.

| | $X_i$ | $Y_i$ | $Y_i*X_i$ | $X_i^2$ | $Y_i^2$ | $Y(x_i)$ | $Y_i$ - $Y(x_i)$ | $(Y_i - Y(x_i))^2$ | A |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 33 | 43 | 1419 | 1089 | 1849 | 42,23428 | 0,765721183 | 0,5863289 | 1,78% |
| 2 | 17 | 27 | 459 | 289 | 729 | 27,69234 | -0,692335546 | 0,4793285 | 2,56% |
| 3 | 23 | 32 | 736 | 529 | 1024 | 33,14556 | -1,145564273 | 1,3123175 | 3,58% |
| 4 | 17 | 29 | 493 | 289 | 841 | 27,69234 | 1,307664454 | 1,7099863 | 4,51% |
| 5 | 36 | 45 | 1620 | 1296 | 2025 | 44,96089 | 0,03910682 | 0,0015293 | 0,09% |
| 6 | 25 | 35 | 875 | 625 | 1225 | 34,96331 | 0,036692818 | 0,0013464 | 0,10% |
| 7 | 39 | 47 | 1833 | 1521 | 2209 | 47,68751 | -0,687507544 | 0,4726666 | 1,46% |
| 8 | 20 | 32 | 640 | 400 | 1024 | 30,41895 | 1,581050091 | 2,4997194 | 4,94% |
| 9 | 13 | 22 | 286 | 169 | 484 | 24,05685 | -2,056849728 | 4,2306308 | 9,35% |
| 10 | 12 | 24 | 288 | 144 | 576 | 23,14798 | 0,852021726 | 0,725941 | 3,55% |
| Cəm | 235 | 336 | 8649 | 6351 | 11986 | 336 | 0,00 | 12,019795 | 31,93% |
| Orta | 23,5 | 33,6 | 864,9 | 635,1 | 1198,6 | 33,6 | 0,00 | 1,2019795 | 3,19% |
| Δ | 9,102198 | 8,345058 | - | - | - | - | - | - | - |
| $\delta^2$ | 82,85 | 69,64 | - | - | - | - | - | - | - |

*Məsələ 2.*

Xətti reqressiya tənliyinin parametrlərini hesablayın, reqressiya əmsallarının iqtisadi şərhini verin.

Yuxarıdakı misala analoji olaraq aparılan hesablamalardan sonra xətti model aşağıdakı şəkli alır:

$$Y = 12{,}24152 + 0{,}908871x\ ,$$

reqressiya əmsalı 0,908871 təşkil edir. Reqressiya parametrlərinin iqtisadi mənası belədir: kapital qoyuluşunun 1 vahid artırılması məhsul buraxılışı həcmini 0,908871 qədər artırır.

*Məsələ 3.*

*Qalığı hesablayın; qalıqların cəminin kvadratını tapın; qalıqların dispersiyasını qiymətləndirin; Qalıqların qrafikini qurun.*

Qalıqların hesablanması cədvəl 2-də göstərilmişdir. Qalıqların kvadratlar cəmi 12,02 təşkil edir. Qalıqların dispersiyası:

$$D_{qal} = ((Y- Y_{or.})^2 - (Y(x_i) - Y_{or.})^2)/ (n – 2) = 1{,}502474351.$$




Qalıqların qrafiki. Şək.1

*Məsələ 4. Hesablamaları Ms Excel-də aparmaqla* Ən kişik kvadratlar üsulunun yerinə yetirilməsini yoxlayın.

Qalıqlar homoskedastdır, avtokorrelyasiya yoxdur (qalıqların korrelyasiyası və X faktoru 0-ra bərabərdir şək.1), qalıqların riyazi gözləməsi 0-ra bərabərdir, qalıqlar normal paylanıblar.




X dəyişəninin və qalıqların korrelyasiyası. Şək. 2.

*Məsələ 5.*

t-Styudent kriteriyasının köməyilə reqressiya tənliyi parametrlərinin qiymətliliyini yoxlamaq üçün müşahidələr aparın (α = 0,05).

Reqressiya tənliyinin standart səhvini tapın:

$$m_b = (D_{qal.} / \sum(x - x_{or.})^2)^{½} = 0,042585061.$$

İndi reqressiya tənliyi parametrlərinin qiymətliliyini yoxlayaq:

$$t_b = b / m_b = 21,3424949.$$

α = 0,05 və sərbəstlik dərəcəsinin sayı (n – 2) üçün $t_{cəd.}$ = 2,3060. Beləki, t-kriteriyanın faktiki qiyməti cədvəl qiymətindən böyükdür, onda əhəmiyyəsizlik haqqında hipotezi rədd etmək olar. Reqressiya əmsalı üçün inamlı interval b ± t* $m_b$ kimi təyin olunur. Reqressiya əmsalları üçün b sərhəddi belə təyin edilir:

$$0,908871 - 2,3060*0,042585061 \le b \le 0,908871+2,3060*0,042585061$$

$$0,81067 \le b \le 1,0070722.$$

Sonra a parametrinin standart səhvini tapaq:

$$m_a = (D_{qal.} *( \sum x^2 / (n*\sum(x - x_{or.})^2))^{1/2} = 1,073194241,$$

$$t_a = a / m_a = 11,4066218.$$

Biz görürük ki, *a* parametrinin faktiki qiyməti onun cədvəl qiymətindən böyükdür, uyğun olaraq, *a* parametrinin əhəmiyyətsizliyi haqqında hipotezi rədd etmək olar. İnamlı interval: $a \pm t^* m_a$ təşkil edir.

Parametrlərin sərhəddi isə:

$$12,24152 \pm 2,3060*1,073194241,$$

$$9,766735 \le a \le 14,716305.$$

Korrelyasiya əmslının səhvi əsasında xətti korrelyasiya əmslının qiymətliliyini yoxlayaq:

$$m_r = ((1 - r^2) / (n - 2))^{1/2} = 0,046448763.$$

Styudentin *t* kriteriyasının faktiki qiyməti belə təyin olunur:

$$t_r = (r / (1 - r^2)) * (n - 2)^{1/2} = 21,3424949.$$

$t_r$ faktiki qiyməti cədvəl qiymətindən böyükdür, uyğun olaraq, qiymətlilik səviyyəsi α = 0,05 və sərbəstlik dərəcəsi (n – 2) olduqda, korrelyasiya əmsalı əhəmiyyətli dərəcədə 0-dan fərqlidir və asılılıq əhəmiyyətli dərəcədədir [5,6].

***Misal** 6.*

Determinasiya əmsalını hesablayın, Fişerin f – kriteriyasının köməyilə reqressiya tənliyinin əhəmiyyətliliyini yoxlayın (α = 0,05), approksimasiyanın nisbi orta səhvini tapın. Modelin keyfiyyəti

haqqında nəticə çıxarın.

$R^2 = R_{xy}^2 = 0{,}98274$ – determinasiya.

$F = (R^2/(1 - R^2))*((n - m - 1)/m) = 455{,}5020887.$

$5{,}32\ F_{cəd.} < F_{kr.}\ 455{,}5020887$

– bu o deməkdir ki, reqressiya tənliyi statistik cəhətdən əhəmiyyət kəsb edir.

Approksimasiyanın orta səhvi A = 3,19%. Bu o deməkdir ki, reqressiya tənliyinin keyfiyyəti yaxşıdır. Hesablanmış qiymətlər faktiki qiymətlərdən 3,19% meyl edir .

*Misal 7.*

X faktorunun proqnoz qiymətinin maksimal qiymətdən 80% meyl etdiyi halda α =0.1, əhəmiyyətlik səviyyəsi ilə Y göstəricisinin orta qiymətinin proqnozlaşdırılmasını icra edin.

Əgər proqnozlaşdırılmış qiymət $X_p = 0{,}8X_{max} = 0{,}8*39 = 31{,}2$ mil.man. olarsa, onda kapital qoyuluşu həcminin proqnoz qiyməti aşağıdakı kimi olar:

$Y_p = 12{,}24152 + 0{,}908871*31{,}2 = 40{,}598295$ mil.man.

Proqnoz səhvi:

$m_{yp} = D_{qal.}*(1+(1/n)+((x_k - x_{or})^2 / \sum(x - x_{or})^2)^{1/2} =$

$=1{,}502474351*(1+(1/10)+((31{,}2 - 23{,}5)^2 / 828{,}50))^{1/2} = 1{,}6262596$ mil. man

təşkil edəcək. Proqnozun limit səhvi :

$\Delta y_p = t_{cəd} * m_{yp} = 2{,}3060 * 1{,}6262596 = 3{,}7501546.$

Proqnozun inamlı intervalı:

$\gamma_{yp} = Y_p \pm \Delta y_p$

$\gamma_{ypmin} = 40{,}598295 - 3{,}7501546 = 36{,}848141$ mil.man.

$\gamma_{ypmax} = 40{,}598295 + 3{,}7501546 = 44{,}348449$ mil.man.

Göstəricinin orta qiyməti:

$Y_p = (36{,}848141 + 44{,}348449) / 2 = 40{,}598295$ mil.manadır.

*Misal 8.*

Y proqnoz qiymətinin model və faktiki qiymətini qrafik olaraq təsvir edin:




Faktiki və proqnozlaşdırılan parametrlərin qrafiki . Şəkil.3

*Misal 9.*

Qeyri-xətti reqressiyanın tənliyini qurun: Hiperbolik; Qüvvət; Üstlü formada.

Qurulmuş reqressiya tənliyinin qrafikini tərtib edin .

$Y(x) = 54{,}1842 + (-415{,}755) * 1/x$ – hiperbolik reqressiya tənliyi.

$Y(x) = 4{,}746556 * X^{0{,}625215}$ – Qüvvət reqressiya tənliyi.

$Y(x) = 17{,}38287 * 1{,}027093^X$ üstlü reqressiya tənliyi.

Modellərin qrafiki 4,5 və 6-cı şəkillərdə göstərilib.







Şəkil 4 Şəkil 5.




Şəkil 6.

***Misal 11.***

Göstərilən modellər üçün determinasiya əmsalını, elastiklik əmsalı və approksimasiyanın orta nisbi səhvini tapın. Bu xarakteristikalara görə modeli müqaisə edin və nəticə çıxarın.

Determinasiya əmsalı (indekslər) :

$R^2_{hip} = R_{xy} = 0,869064776.$

$R^2_{qüvvət} = R_{xy} = 0,978207122.$

$R^2_{üstlü} = R_{xy} = 0,959136358.$

Elastiklik əmsalı:

$E_{hip} = -b / (a * x + b) = 0,484804473.$

$E_{qüvvət} = b = 0,625215.$

$E_{üstlü} = x * \ln b = 0,628221.$

Approksimasiyanın orta nisbi səhvi:

$A = 1/n * \sum |y - y_{xi}| * 100\%$

$A_{hip} = 7,26\%$

$A_{qüv} = 3,40\%$

$A_{üstlü} = 3,82\%.$

Görürük ki, qüvvət reqressiyası iqtisadi cəhətdən daha çox maraqlıdır, ona görə də onun approksimasiya səhvinin orta göstəricisi çox aşağıdır, ən yüksək göstərici isə elastiklik və determinasiya əmsalına malikdir. Bu isə o deməkdir ki, qüvvət reqressiya modeli yüksək keyfiyyətə malikdir, o daha çox gəlir təklif edir və X faktorundan (kapital həcmi) daha çox asılıdır.

***Misal 11.***

***Məsələnin şərti:***

Ekonometrik modelin qurulması:

*X* = (6,1; 6; 6,7; 7,3; 7,9; 8,3; 7,5; 6,3; 7; 7,2; 7,8; 7,6; 8,2; 9,2; 9,5; 9,9)
*Y* = (11,21; 15,21; 17,31; 18,51; 19,51; 15,81; 12,81; 15,31; 17,01; 18,41; 15,71; 14,61; 20,61; 23,61; 24,41; 26,81).

***Həlli:***

X ilə asılı olmayan dəyişəni (faktor), y ilə asılı dəyişəni (göstərici) işarə edək. Fərz edək ki,

ekonometrik model xətti formalı struktura malikdir:

$y = ax + b + u$

harada ki, $a, b$ – u-stoxastik tərkibə (qalıqlar) malik modelin parametrləridir. Ən Kiçik Kvadratlar Üsulundan istifadə edək. Məchul dəyişən kimi x- qəbul etməklə normal tənliklər sistemin yazaq:

$$\begin{cases} a\sum x_i + bn = \sum y_i \\ a\sum x_i^2 + b\sum x_i = \sum x_i y_i \end{cases}$$

Harada ki, $n$ – müşahidələrin sayıdır.

Məsələnin verilənləri əsasında köməkçi cədvəli tərtib edək.

| | *x* | *y* | $x^2$ | *xy* |
|---|---|---|---|---|
| | 6,1 | 11,21 | 37,21 | 68,381 |
| | 6,0 | 15,21 | 36,00 | 91,260 |
| | 6,7 | 17,31 | 44,89 | 115,97 |
| | 7,3 | 18,51 | 53,29 | 135,13 |
| | 7,9 | 19,51 | 62,41 | 154,19 |
| | 8,3 | 15,81 | 68,89 | 131,23 |
| | 7,5 | 12,81 | 56,25 | 96,075 |
| | 6,3 | 15,31 | 39,69 | 96,453 |
| | 7,0 | 17,01 | 49,00 | 119,00 |
| 0 | 7,2 | 18,41 | 51,84 | 132,52 |
| 1 | 7,8 | 15,71 | 60,84 | 122,58 |
| 2 | 7,6 | 14,61 | 57,76 | 111,06 |
| 3 | 8,2 | 20,61 | 67,24 | 169,02 |
| 4 | 9,2 | 23,61 | 84,64 | 217,22 |
| 5 | 9,5 | 24,41 | 90,25 | 231,85 |
| 6 | 9,9 | 26,81 | 98,01 | 265,49 |
| **S** | **122,5** | **286,86** | **958,21** | **2257,345** |

Aşağıdakı tənliklər sistemin alarıq:

$$\begin{cases} 958{,}21a + 122{,}5b = 2257{,}345 \\ 122{,}5a + 16b = 286{,}86 \end{cases}$$

Kramer düsturuna görə sistemin həlli:

$$a_i = \frac{\Delta_i}{\Delta}$$

Harada ki, Δ – sistemin baş determinantıdır.

$$\Delta = \begin{vmatrix} 958{,}21 & 122{,}5 \\ 122{,}5 & 16 \end{vmatrix} = 325{,}11$$

$$\Delta_a = \begin{vmatrix} 2257{,}345 & 122{,}5 \\ 286{,}86 & 16 \end{vmatrix} = 977{,}17 \qquad a = \frac{\Delta_a}{\Delta} = \frac{977{,}17}{325{,}11} = 3{,}0057$$

$$\Delta_b = \begin{vmatrix} 958{,}21 & 2257{,}345 \\ 122{,}5 & 286{,}86 \end{vmatrix} = -1652{,}6419, \qquad b = \frac{\Delta_b}{\Delta} = \frac{-1652{,}6419}{325{,}11} = -5{,}0833.$$

Uyğun olaraq, xətti model aşağıdakı kimi alınar:

$$y = -5{,}0833 + 3{,}0057x.$$

Reqressiya xəttini təsvir etməklə korrelyasiya sahəsinin qurulmasını icra edək.




*<u>Nəticə:</u> Verilənləri yoxlayaraq belə bir nəticəyə gəlirik ki, seçilmiş trend model yalnız və yalnız real müşahidələr sırasına adekvat olduğu halda ondan proqnoz qiymətləndirməni qurmaq üçün istifadə etmək olar. B.s., Fişer kriteriyasının qiyməti cədvəl qiymətindən kiçik olduqda reqressiya tənliyinin adekvat olduğunu söyləmək olur. Bu zaman alınmış nəzəri tənlik ilkin verilənlər çoxluğuna uyğun olacaq. Korrelyasiyanın meyl etməsi 1-ə yaxındırsa, onda parabolik asılılıq emprik verilənləri daha yaxşı approksimasiya edəcək.*

## *ƏDƏBİYYAT*


1. Елисеева И.И., Курашева С.В., Гордеенко Н.М. Практикум по эконометрике: Учеб. пособие / и др.; Под ред. Елисеевой. И.И.– М.: Финансы и статистика, 2011. – 192.: ил.
2. Елисеевой И.И. Эконометрика. Учебник для вузов.; Под ред. чл. – кор. РАН– М.: Финансы и статистика, 2012. – 344.
3. Ансофф И. Стратегическое управление: Пер. с англ. / Под ред. Евенко Л.И. М.: Экономика, 2009.

4. Грабауров В.А. Информационные технологии для менеджеров: 2-е изд. М.: Финансы и статистика, 2005.

6. Altman, E.I., Saunders, A. Credit risk measurements: Developments over the last 20 years // Journal of Banking and Finance. 2008. № 21, p. 1721-1742.

7. Порядина О.В. Эконометрическое моделирование линейных уравнений регрессии: Учебное пособие. - Йошкар-Ола: МарГТУ, 2005. - 92 с.


## ABSTRACT


**Gulara Rahimova**
**Kamala Ibrahimova**


### Econometric tasks and their mathematical decision


In any sphere the successful solution of a number of mathematical tasks requires use of computer facilities. It allows to increase quality of calculations and much more to accelerate work process. And carrying out any econometric research is impossible without use of the computer equipment. Complexity of calculations and their algorithms is the reason of it. It is obvious that such tasks can't be quickly and are correctly solved without use of computer tools. The tools are understood as the software products made for the solution of the mathematical tasks arising when carrying out econometric research. Most often similar products aren't limited only to econometrics as economic tasks in most cases have complex character. In when carrying out experiences, there

are always errors and to twice receive identical results very difficult. To consider such changes at further calculations, it is necessary to use statistical methods. Methods which are used in our work allow to find the effective technological decision and provide reliability and reliability of results of research. Knowledge of the statistical analysis of experiment has been fixed in work: stay arithmetic-mean selections, mean square deviation, dispersion, correlation coefficient. Having analysed results by statistical methods, have received a reliable assessment of data. In view of everything told above, in our article we wanted to consider in details by this method.


## РЕЗЮМЕ

**Гюлара Рагимова**
**Камала Ибрагимова**

**Эконометрические задачи и их математические рещение**

В любой сфере для успешного решения ряда математических задач необходимо использование вычислительной техники. Это позволяет повысить качество расчетов и намного ускорить процесс работы. И проведение любого эконометрического исследования невозможно без использования компьютерной техники. Причиной этого является сложность расчетов и их алгоритмов. Очевидно, что такие задачи не могут быть быстро и правильно решены без использования компьютерного инструментария. Под инструментарием понимаются программные продукты, сделанные для решения математических задач, возникающих при проведении эконометрического исследования. Чаще всего подобные продукты не ограничиваются только эконометрикой, поскольку экономические задачи в большинстве случаев носят комплексный характер.

В при проведении опытов, всегда возникают погрешности и дважды получить одинаковые результаты очень трудно. Для того, чтобы учесть такие изменения при дальнейших расчетах, необходимо использовать статистические методы. Методы, которые используются в нашей работе, позволяют отыскать эффективное технологическое решение и обеспечивают достоверность и надежность результатов исследования. В работе были закреплены знания о статистическом анализе эксперимента: нахождение среднеарифметического выборки, среднеквадратического отклонения, дисперсии, коэффициента корреляции. Проанализировав результаты статистическими методами, получили достоверную оценку данных. Принимая во внимание все сказанное выше, в нашей статье мы хотели детально рассмотреть этих методов.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov*

**HÜSEYN BAĞIRSOYLU**
*Naxçıvan Dövlət Universiteti*

***UOT :332.1***

# SƏRBƏST TİCARƏT ZONALARININ YARADILMASINDA REGİONAL İMKANLARIN MÖVCUDLUĞU VƏ ONLARIN QİYMƏTLƏNDİRİLMƏSİ YOLLARI

***Açar sözlər:*** *sərbəst iqtisadi zonalar, sərbəst ticarət zonaları, regional imkanlar, ticarət əməliyyatları, qiymətləndirmə fəaliyyəti*

***Key words****: special economic zones, free trade zones, region, orqanizational-management issues, international practice.*

***Ключевые слова:*** *свободные экономические зоны, свободные торговые зоны, региональные возможности, торговые операции, оценочная деятельность.*

Müasir iqtisadi şərait cəmiyyətdə baş verən çoxsaylı və rəngarəng proseslərin mövcudluğu ilə, işgüzar fəaliyyətin idarəetmə, regional, tənzimləmə, inzibati və digər yön və xüsusiyyətlərinin təzahürü ilə səciyyələnir. İstər istehsaldan istehlaka doğru gedən yolun ümumi qiymətləndirilməsində, istər sə də bu prosesin daha əhatəli, ayrı-ayrı maddələr, iştirakçı subyektlər, tərəflər üzrə həyata keçirilməsində tələblərə müvafiq araşdırma proseslərinin təşkili və icrası mühüm əhəmiyyət kəsb edir. Nəzərə alınmalıdır ki, bu əməliyyatların hər biri ümumi məqsədin (əhalinin tələbatının ödənilməsinin) həyata keçirilməsinin tərkib hissəsi hesab olunur, fərdi xüsusiyyətlər məcmusu kimi çıxış edir, müxtəlif situasiyalarda fərqli ifadə olunma parametrlərinə, kombinasiya və şəklinə malikdirlər.

Regional imkanların qiymətləndirilməsində "istehsal – bölgü – mübadilə - istehlak" ardıcıllığının hər bir mərhələsinin özünəməxsus cəhətləri nəzərə alınmalı, fəaliyyətin təşkilinin ümumi mənzərəsində onun payı müəyyənləşməlidir. Digər tərəfdən, mərhələlərdə təsərrüfat-təşkilati proseslərin formalaşması və inkişafı istiqamətləri də diqqətdən kənarda qalmamalıdır.

Məqalədə əsas araşdırma elementi kimi sərbəst ticarət zonalarının sistemli öyrənilməsi, onların ümumi cəhətlərinin regional imkanlarla qarşılaşdırılması və bu əsasında spesifik quruluşa malik mübadilə məkanının müəyyənləşdirilməsi nəzərdə tutulur.

Müvafiq zonaların tarixi inkişafı prosesi özünəməxsusluğu ilə fərqlənir. Belə ki, təməlini azad (sərbəst) zonalaradan götürən bu qrup bir tərəfdən sələfinin xarakter və xüsusiyyətlərini özündə daşımaqdadırsa, digər tərəfdən özünün xatis ticarət seqmentinə aid olması ilə spesifikasını sərgiləmiş olur. "Nəticə etibarı ilə, azad zonalar – ilk dəfə olaraq, xaricdən ölkəyə gələn malların boşaldılması, başqa ölkələrə, və ya ixrac olunmuş ölkəyə təkrarən qaytarılacağı, gömrük rəsmiləşdirilməsindən tam və ya qismən azad olunması mümkün olan liman mənasında işlədilmişdir. [4;11]

Ardıcıl iqtisadi inkişaf mərhələləri üzrə tədqiqatın təşkili sərbəst iqtisadi (*işgüzarlıq*) zonalar haqqında ilk fikir və informasiyaların XV əsrə təsadüf etdiyini göstərir. Merkantilizm ideyalarının geniş vüsət aldığı həmin dövrdə sərbəst (müstəqil) şəhərlər və onlarla bağlı ticarət və nəqliyyat xidmətlərinin maneəsiz həyata keçirilə biləcəyi sərbəst məkanlar (adətən şəhərlərdənkənar, lakin çox uzaq olmayan) ifadəsi ilə rastlaşılır. Zamanla iqtisadi sanksiya xarakteri daşıyan alətlərin (idxala qarşı qoyulan qadağalar və s. üzrə) istifadəsi bir çox istiqamətlərdə bərqərar olmuşdur ki, bunun nəticəsində də sərbəst (açıq) şəhərlərin işgüzar fəaliyyət imkanlarının səviyyəsi mütəmadi olaraq aşağı düşür, toplanacaq vergi və rüsumların həcmlərində geriləmələr müşahidə olunmaqda idi.

Yaranan vəziyyət ilk növbədə ticarət sahəsində ixtisaslaşan zonalara özünün mənfi təsiri ilə seçilirdi. Bu məqsədlə artıq XVI əsrdən başlayaraq Ağdəniz şəhərlərinin (xüsusilə də Çekova şəhərində) daha mütərəqqi sərbəst fəaliyyət mühitinə transformasiyası təmin olunur. Zamanla istər bu şəhərlərin sayı, istərsə də onların aid olduğu ölkələrin sayı artır. Müasir dövrdə artıq dünyanın bir çox ölkələrində tanınmış və kifayət qədər ixtisaslaşma səviyyələrinə malik sərbəst zonalar (Honq-Konq

(Çin), Altonaya (Danimarka), Dunkirk, Bayonne, Loriend (Fransa) və s.) fərqləndirilir. XX əsrin sonlarına doğru sərbəst iqtisadi zonaların ölkələr üzrə dinamikasında baş verən dəyişikliklər onların sayının kifayət qədər sürətlə artması haqqında fikir söyləməyə imkan verir. Belə ki, ABŞ-da 1970-ci ildə mövcud olmuş 10 müvafiq zonaya qarşılıq bu göstərici 1980-ci ildə 60-a (yəni 6 dəfə çox), 1990-cı ildə isə 80-ə bərabər idi (müvafiq olaraq 8 dəfə və 1,33dəfə). Bu göstərici eyni zaman ifadələrində Avropa Ölkələrində 50, 90, 120, Afrika ölkələrində 10, 50, 70, Orta Şərq ölkələri üzrə 2, 15, 50, Uzaq Şərq ölkələri üzrə 15, 35, 60 vahidi təşkil etmişdir. Ümumilikdə dünya üzrə isə sərbəst iqtisadi zonaların sayı 1970-ci ildəki 131-dən, 1980-ci ildə 362-yə, 1990-cı ildə isə 500-ə yüksəlmişdir.

Həmçinin bir faktı qeyd etmək yerinə düşər ki, sərbəst iqtisadi zonaların yaradılmasında əsas ağırlığı inkişaf etməkdə olan və zəif inkişaf etmiş ölkələr təşkil edir. Misal üçün, 1975-ci ildə təkcə zəif inkişaf etmiş ölkələr tərəfindən 103 sərbəst iqtisadi zonanın yaradılması haqqında informasiyalar mövcuddur.

Sərbəst zonaların tarixi inkişafı onların tərkibinin müəyyənləşməsinə də təsir göstərmişdir. Bu baxımdan bildirilən düşüncələr sərbəst zonaların aşağıdakı qruplarının seçilməsini səciyyələndirir (sxem 1.)

***Sxem 1. Sərbəst iqtisadi zonaların formaları***




***Mənbə: sxem müəllif tərəfindən tərtib olunub***

Sxem 1-in məlumatlarından da göründüyü kimi, sərbəst iqtisadi zonalar kifayət qədər geniş tərkibə malikdirlər. Bununla belə ifadə olunan qruplar zonalar üzrə fərdiliyin qorunmasına işarə vurur. Halbuki beynəlxalq təcrübədə bu qrupların (məsələn bankçılıq və sığortaçılıq istiqamətlərinin) eyni zonada fəaliyyət göstərməsinə də rastlanılır. Düşünürük ki, müvafiq istiqamətdə sərbəst universal (bir neçə formanı birləşdirən) zonanın yaradılması imkanlarının (sahəvi yerləşdirmə, optimallıq və s. baxımdan) nəzərdən keçirilməsi, bu istiqamətdə sistemli araşdırmaların aparılması məqsədəuyğun olardı.

İqtisadi təcrübədə haqqında bəhs etdiyimiz "universallıq" məsələsi bir neçə aspektdə qiymətləndirməyə məruz qala bilər. Bu, bir tərəfdən daha əhatəli, çoxtərəfli xidmətlərin göstərilməsini özündə ehtiva etdiyi halda digər tərəfdən isə elə həmin zonalar üzrə fərdi geriləmə hallarının aradan qaldırılması (məsələn, 1958-ci ildə İrlandiyada – Şennon hava limanında olduğu kimi) üçün istifadə oluna bilər

Sərbəst iqtisadi zonaların aparıcı tərkib hissəsini təşkil edən sərbəst ticarət zonaları tədqiqatın həyata keçirilməsində əsas məqamlara toxunmağa imkan verir. Bu baxımdan araşırma işində biz ilk növbədə aşağıdakı iki maddəni dərindən incələməli, müvafiq fərqləndirmə işlərini aparmalıyıq:

1. sərbəst ticarət zonasının ümumi təzahür forma və imkanları, onların çoğrafi yerləşdirilmə və fəaliyyətinin təşkili məsələləri və s.

2. regional səviyyədə (konkret halda Naxçıvan Muxtar Respulikası sərhədləri çərçivəsində) ümumi cəhətlərin ifadə olunma xüsusiyyətləri.

"*Sərbəst ticarət zonaları*" anlayışı məzmun ifadəsində ilk növədə aşağıdakı parametrlərin mövcudluğuna diqqəti çəkir:

✓ istənilən ölkə üzrə xarici ticarətdə tətbiq olunan qanun və qadağaların tamamilə və ya qismən dondurulması, fəaliyyətin həyata keçirilməsi baxımından daha əlverişli hala gətiril-məsi;

✓ onların yaradılmasında məkan ifadəsinin əlverişliliyinin nəzərə alınması (əsasən sərhədyanı bölgələrdə, dəniz və hava limanlarında və ya onların yaxınlıqlarında, dəmir yolundan aktiv istifadə imkanları olan ərazilərdə və s.);

✓ sərbəst ticarət zonasının ixtisaslaşma istiqamətinin (iqtisadi sahələr və fəaliyyət istiqamətləri üzrə) müəyyən edilməsi;

✓ sərbəst ticarət zonasının imkanlarının beynəlxalq təcrübə əsasında tarazlanması, onların səmərəlilik prinsipi əsasında optimallaşdırılması;

✓ məhsulların reallaşdırırlmasında "son istehlak ünvanı" (sərbəst ticarət zonasında satış prosesinin həyata keçirilməsi) və ya "tranzit ticarət" (reeksport və s.) qaydalarının tətbiqi;

✓ zonalar daxilində mübadilə prosesinin diapozonunun müəyyənləşdirilməsi, fəaliyyətin açıq və ya qapalı qaydada təşkilinə üstünlüyün verilməsi;

✓ zonaya kapital qoyuluşunun edilməsi şərtlərinin (iştirakçı tərəf, kapital qoyuluşunun istiqaməti, həcmi və s.) dəqiqləşdirilməsi;

✓ sərbəst ticarət zonasında baş verən əməliyyatları üzrə pul dövriyyəsinin tənzimlənməsinə yönəlik işlərin həyata keçirilməsi;

✓ onların fəaliyyəti üzərində hüquqi-inzibati və digər nəzarət formalarının fasiləsiz təşkilinin mümkün olması və s.

Sadalanan bəndlərdən hər biri sərbəst ticarət zonalarının xarakterizə olunmasında özünəməxsusluğu ilə fərqlənir. Belə ki, onlar məzmun etibarı ilə rəngarəngdir, araşdırma obyektinə fərqli "yanaşma bucaqlarını" təcəssüm etdirir.

İlk növbədə qeyd etmək lazımdır ki, beynəlxalq praktikada sərbəst ticarət zonalarının *açıq* və *qapalı* varintda fəaliyyəti təmin olunmaqdadır. Burada istifadə olunan hər iki ifadə sərbəst ticarət zonalarının fəaliyyət obyektləri ilə əlaqədardır. Belə ki, əgər həmin zonalarda hazır məhsul obyektlərinin növ, sahəvi aidiyyat, təyinat və digər şərtlər qoyulmadan satışı təşkil olunursa, bu zona açıq, əgər bəlli sahələrdə məhdudiyyətlər movcuddursa – qapalı zona qrupuna aiddiyyatı bildirir.

Digər tərəfdən reallaşdırılan məhsulların sahə aidiyyatı baxımından da sərbəst ticarət zonaları üzrə qruplaşdırmalarən aparılması mümkündür. Bəhs olunan əlamət nəzərə alınmaqla müvafiq zonalar 2 qrupa bölünür:

1. hər hansı konkret sahə və ya istiqamətə aidiyyatı ilə seçilən sərbəst ticarət zonaları;
2. konkret sahə aidiyyatı bildirməyən, "*qarışıq*" məhsulların reallaşdırılması məkanı rolunu oynayan sərbəst ticarət zonaları.

Yerləşmə əlaməti baxımından limanlarda, gömrüklərdə və ya əlaqəli icra orqanları tərəfindən ayrılmış yerlərdə fəaliyyət göstərən sərbəst ticarət zonaları üstünlük təşkil edir.

Sərbəst ticarət zonalarının elmi araşdırmalarında qarşıya çıxan mühüm məsələlərdən birini də bu zonaların Naxçıvan Muxtar Respublikasının ərazisində yaradılma və yerləşdirilmə imkanlarının hərtərəfli öyrənilməsi təşkil edir. Bu məsələ bir çox aspektlərin optimal şəkildə əlaqələndirilməsini və vahid məcmuda fəaliyyətinin həyata keçirilməsini şərtləndirir.

Muxtar respublikanın sərbəst ticarət zonalarının yaradılması baxımından xarakterizə edilməsi ilk növbədə aşağıdakı komponentlərin mövcudluğunu zəruri edir:

1. Naxçıvanın iqtisadi potensialının atran templərə malik olması, bu məkanda istehsal olunan məhsulların həcm, keyfiyyət, çeşid əlamətləri baxımından yüksəlişinin təmin edilməsi;
2. xarici ölkələrlə birbaşa həmsərhəd ərazilərin mövcudluğu;
3. qanunvericilik bazasının hazırlanması,onun tətbiqi imkan və xüsusiyyətlərinin qiymətləndirilməsi;
4. sərbəst ticarət zonasının yaradılması ilə bağlı yerli idarəetmə orqanının yarana biləcək mübahisəli məqamlara operativ reaksiya vermə imkanlarının mövcudluğu;
5. sərbəst iqtisadi zonalarının mövcudluğunu təmin edəcək infrastruktur elementlərinin təşkil olunması və istifadəyə verilməsi imkanlarının qiymətləndirilməsi və s.

Muxtar respublikada yaradılması mümkün olan sərbəst ticarət zonasının ixtisaslaşması, fikrimizcə qarışıq xarakterə malik olmalı, özündə məhsul etibarı ilə daxili və xarici istehsalı təcəssüm etdirməlidir. Bu, ilk növbədə Naxçıvan iqtisadiyyatının məhsul istehsal etmək qabiliyyətinin

kəmiyyət səviyyəsinin nisbətən aşağı rəqəmlərlə ifadə olması ilə səciyyələnməlidir. Bəhs olunan məsələ ilk növbədə aşağıdakı amillərlə əlaqəli şəkildə nəzərdən keçirilməlidir:

- ✓ müasir iqtisadi şəraitin qloballaşma meylinin daima diqqətdə saxlanılması;
- ✓ sağlam rəqabət mühitinin yaradılması;
- ✓ qiymətləndirmə fəaliyyətinin istehsalın elementləri və alıcı kontingentinin imkanları əsasında həyata keçirilməsi;
- ✓ əmək bazarının genişləndirilməsi, iştirakçıların sayının artırılması;
- ✓ regiondakı real maliyyədövriyyəsinə bu zonadan daxil olacaq vəsaitlərin təsiri;
- ✓ fiskal qaydada muxtar respublika iqtisadiyyatının digər sahə və istiqamətlərinə müsbət təsirin təmin olunması;
- ✓ muxtar respublikanın "Bakı – Tiflis – Axalkalaki – Qars" dəmir yolu sisteminə qoşulması hesabına yaradılması mümkün olacaq sərbəst ticarət zonası məhsullarının Avropa, Asiya, Fars körfəzi və Hindistana qədər çatdırılması və s.

Sadalanan faktorlar ümumi qaydada, beynəlxalq təcrübədən istifadə etməklə və daxili xüsusiyyətlər nəzərə alınmaqla qiymətləndirilməlidir. Sistemli araşdırmalar ayrı-ayrı məhsul növləri üzrə optimal konfiqurasiyaların təşkilini də nəzərə almalıdır ki, bu da istər reallaşacaq məhsulların həcminə, alıcı sayının artmasına, qiymətlərin səviyyəsinin aşağı düşməsinə, istərsə də keyfiyyət, ticarət əməliyyatlarının avtomatlaşdırma səviyyəsinin yüksəlməsinə, ticarət mədəniyyətinin müasir inkişaf mərhələsinə uyğun formalaşmasına şərait yaradacaqdır.

## ƏDƏBİYYAT


1. Abdullayev A.P. İqtisadiyyat və iqtisadi siyasət. Bakı: Asiya, 2003, 216 s.
2. Vəliyev D.Ə. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı: Adiloğlu, 2008, 428s.
3. İbrahimova N.H.Müasirləşən iqtisadiyyat və təsərrüfat fəaliyyətinin iqtisadi təhlili. Naxçıvan: Əcəmi, 2015, 184s.
4. Qəribov.A.H. Azad iqtisadi zonalar və iqtisadi təhlükəsizliyin tənzimlənməsi. Naxçıvan: İdeya, 2011, 264s.
5. Qəribov A.H. Azad iqtisadi zonalar: imkanlar, prespektivlər. Bakı: Təhsil, 2001, 136s.
6. Qəribov A.H., Bağırova İ.V. Gömrük işinin təşkili və regionun sosial-iqtisadi inkişafı. Naxçıvan: İdeya, 2012, 164s.
7. Əhmədov N.H. Maliyyənin əsasları. Bakı: ADPU mətbəəsi, 2016, 448s.
8. Bağırov M.S. Azərbaycanda irihəcmli iqtisadi layihələr: nəzəri mahiyyəti, hazırlanma prinsipləri və tətbiq istiqamətləri. Türkiyə, "Bilimsel Eksen", №1, Bahar buraxılışı, 2010, s.168-175.


## ABSTRACT


**Huseyn Bagirsoylu**


### Organizational and management issues of the establishment of free trade zones


The article, which is considered a form of free trade zones, special economic zones, is about the most important. The research leading to these zones have been involved in the creation and implementation of the organizational and management issues listed.

That will form the legal basis for the establishment of free trade zones and spaces within the specialization on the basis of legislation, to determine the parties' rights and obligations, zone operator and administrator of the identification and systematization of the zone to be applied to the complexity of the instruments and means of investigation and other issues attention is paid.

The study of the economic, organizational and management issues, including free trade zones have been provided on the basis of which an international the approach.

The article highlighting the free trade zones, in addition to the organizational and governance issues in terms of generalization can express his respects at the regional level has been an important place.

## РЕЗЮМЕ

**Гусейн Багирсойлу**

**Существование региональных возможностей при создании свободных торговых зон и пути их оценивания**

В статье особое внимане уделяется созданию свободных экономических зон, организации и регулированию их деятельности как внутри нашей страны, так и на международной арене. Отмечается, что одним из основных составных форм свободных экономических зон являются свободные торговые зоны. Такие зоны, основанные еще в пятнадцатом веке, подверглись постоянным усовершенствованиям. В работе используются примеры по свободным экономическим зонам с применением конкретных количественных показателей.

В общем плане, торговля считается одним из опорных точек совокупности экономической деятельности. Она также является пусковым элементом при повторных производственных процессах. Именно ускорение торгового оборота оказывает влияние на увеличение уровеня производства и других сопредельных факторов.

Проведение торговых операций путем свободных зон обладает своими особенностями. Эти особенности были учтены при проработке статьи.

Свободные торговые зоны были выбраны основными оюъектами исследования. При организации работ в статье в довольно широком плане повествуется о признаках их группирования, о способах правового и административного регулирования, об оценивании создающихся возможностей в этом направлении.

В статье также обращается внимание на возможности создания свободных торговых зон в Нахчыванской Автономной Республике и особенностям организации их деятельности.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov*

**CAVADXAN QASIMOV**
*AMEA Naxçıvan Bölməsi*
*E-mail: cavadxan.yusifoglu@mail.ru*

***UOT:331***

# MƏŞĞULLUQ MÜASİR DÖVRÜN AKTUAL MƏSƏLƏSİ KİMİ

***Açar sözlər****: məşğulluq, miqrasiya, milli iqtisadi inkişaf, iqtisadi islahatlar və s.*
***Key words****: employment, migration, national economic development, economic reforms, etc.*
***Ключевые слова****: занятость, миграция, национальное экономическое развитие, экономические реформы и т.д.*

Yeniləşən dünyanın günbə-gün çətinləşən, sərtləşən qanunları, həyat əhəmiyyətli proseslərin uğursuzluğa düçar olması, ölkələrin və xalqların müharibə, terror, silahlı münaqişə təhdidindən olduqca neqativ təsirə düşməsi və bundan əziyyət çəkməsi dünya miqyasında sosial gərginliyin geniş əhatəsini formalaşdırmaqdadır. Hadisələrin gedişi göstərir ki, müasir dövrdə bütövlükdə dünyanın özü sosial tarazlığın pozulması nəticəsində:

1. ölkələrin əhalisinin kütləvi şəkildə qətlə yetirilməsi;
2. onların demoqrafik tarazlığının pozulmasına;
3. işsizliyin ciddi təhdidə çevrilməsinə və təbii ki, məşğulluq səviyyəsinin olduq qədər aşağı düşməsinə və s. problemlərin baş verməsinə məruz qalmışdır.

Təəssüf ki, bu acı gerçəkliklər təkcə bir regionun deyil, həm də materiklərin və qitələrin çıxılması çətin olan bataqlığa düşməsinə səbəb olmaqdadır. Suriyada, Liviyada, Misirdə, Əfqanıstanda, İraqda və s. ölkələrdə cərəyan edən müharibə və terror hadisələri yerli əhalinin kütləvi şəkildə qətlinə şəriat yaratmaqdadır. Ölkələrin sosial-iqtisadi inkişafının, ictimai-siyasi sabitliyinin təhlükə altına alan bu faciələr bütövlükdə həmin ölkələrin mövcudluğuna şübhə yaratmaqdır. Bu isə təbii ki, onların miqrantla, işsizliklə müşayiət olunan tənəzzül meylləri ilə sarsılmasına səbəb olmuşdur. Nəticədə isə Avropanın İtaliya, Fransa, Almaniya və digər ölkələrinin qeyd olunan problemlərin həlli sahəsində aciz qaldıqlarını görməkdəyik. İstər mövcud və yeni yaranan müharibə ocaqlarının, istərsə də iqtisadi böhranın dərinləşməsindən öz ölkələrini tərk etmək məcburiyyətində qalan insanlar ya üz tutduqları ölkələrin sərt miqrant siyasəti ilə üzləşir, yaxud da həmin ölkələrə gedərkən faciəli qəzaların qurbanı olurlar. Hadisələrin gedişi göstərir ki, təkcə 2014-cü ildə 200 mindən çox qeyri-qanuni miqrant Aralıq dənizindən keçməklə Avropa məkanına keçməyi bacarmışdır. Qeyd edək ki, miqrantların böyük hissəsi əsasən dəniz nəqliyyatı vasitəsilə daşınır. Xoşagəlməz halların və qəzaların baş verməsi nəticəsində ötən 2015-ci ilin birinci yarısında (əsasən aprel ayında) Aralıq dənizində 800-dən çox insan həyatını itirməli olmuşdur.

Heç şübhəsiz ki, bütün bunlar müasir dünyanın ən acınacaqlı vəziyyətini ortaya qoymuş, nəticədə isə yaranan ən ciddi problemlər meqaiqtisadi tarazlığın pozulmasında özünü göstərməkdədir. Dünya əmək bazarında tələb və təklifin bir-biri ilə ziddiyyət təşkil etməsi milyonlarla işçi qüvvəsinin öz əməyini reallaşdıra bilməməsinə səbəb olmuşdur. Bu isə həm işsizlik kimi ciddi təhdidə çevrilmiş, həm də miqrant problemi baxımından mənşə, tranzit və təyinat ölkələrin işçi qüvvəsinin də hədsiz ucuzlaşmasına zəmin yaratmışdır. Təbii ki, bu amil nəticəsində isə sözü gedən ölkələrin iqtisadi siyasətində məşğulluq potensialını sıfıra endirmişdir.

Ümumiyyətlə, məşğulluq bütün dövrlərdə öz aktuallığnı saxlayan, iqtisadi sistemlərin və formasiyaların necəliyindən asılı olmayaraq ölkələrin sosial-iqtisadi siyasətlərinin ən zəruri tərkib hissəsini və hədəflərini təşkil edən strateji məqsəddir. Məşğulluğun sosial-iqtisadi mahiyyəti onun insanların məqsədyönlü və səmərəliliyə söykənən fəaliyyətinin nəticəsindən ibarətdir. Elmi mənada isə məşğulluq müvafiq qanunvericiliklə tənzimlənməklə, iqtisadi kateqoriya kimi, real gerçəklikdə

iş qüvvəsi daşıyıcılarının iş yerləri arasında bölünməsi və onların istehsal vasitələri ilə birləşməsi üzrə olan ictimai iqtisadi münasibətləri əks etdirir. Ümumiyyətlə, məşğulluq bütün dövlətlərin iqtisadi siyasətinin zəruri məqsədlərinə aid olaraq işsizliyin azaldılması və əhalinin maddi-rifah halının yüksəlməsində böyük əhəmiyyət daşıyır. İqtisadiyyatın bu strateji məsələsi haqqındakı qeyd olunanlarla birlikdə, həm də aşağıdakıları vurğulamaq olar:

-Məşğulluq nəzəri mahiyyət daşısa da, daha çox gerçək və praktik olaraq, insanlar arasında sosial-iqtisadi münasibətlərin əsas tənzimləyicisi kimi çıxış etməkdədir;

-Məşğulluq cəmiyyətin dünəni, bu günü və gələcəyinin əsası olmaqla, bütün dövrlərdə özünü göstərmiş və mövcud olmuşdur. Bundan sonra da olacaqdır;

-Məşğulluq iş qüvvəsinin düşünülmüş, planlaşdırılmış məqsədinin səmərəliliklə, faydalılıqla müşayiət edilən son nəticəsidir;

-Məşğulluq iş qüvvəsinin tam hərəkətə gətirilməsinin əsas meyarıdır. Bu anlayışda insanların ehtiyaclarının və artan tələbatının məcmuusu və təminatı məsələsi özünə yet tapır;

-Məşğulluq şəxsi (təhsil almaq, gəlir əldə etmək) və ictimai maraqların (iqtisadiyyatı inkişaf etdirmək, uşaqlara və yaşlılara xidmət göstərmək, hərbi xidmətə getmək və s.) təmin edilməsindəki bütün fəaliyyəti də (təbii ki, qanunvericilik əsasında) özündə birləşdirir və s.

Qeyd edək ki, məşğulluq haqqında bəhs etdiyimiz təriflərin davamını da göstərmək mümkündür.

Məlumdur ki, 27 iyun 1991-ci ildə əhalinin məşğulluğu haqqında Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir. Daha sonra 2 iyul 2001-ci il tarixdə məşğulluq haqqında Qanununda məşğulluğun bütün prinsipləri müəyyən edilmişdir.

27 iyun 1991-ci il tarixdə qəbul edilmiş Məşğulluq haqqındakı Qanunda göstərilmişdir:

"Məşğulluq-vətəndaşların Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan, onların şəxsi və ictimai tələbatının ödənilməsi ilə bağlı olan və bir qayda olaraq onlara qazanc (əmək gəliri) gətirən hər hansı fəaliyyətidir" (2).

2 iyul 2001-ci il tarixdə qəbul edilmiş eyni adlı qanunda bu anlayış müasir dövrümüzlə səsləşmək, uyğunlaşdırılmaq və gələcək üçün çox münbit zəminlər nəzərdə tutmaqla, daha da təkmilləşdirilmişdir. Həmin hüquqi sənəddə dövlətimizin müəyyən etdiyi siyasət, məşğul şəxs adlandırılan insanlar, məşğulluq sahəsində insanların hüquqları, məşğulluğun tənzimlənməsi, məşğulluq sahəsində həmkarlar ittifaqlarının iştirakı, işaxtaranlarla işəgötürənlərin qanunla müəyyən olunan münasibətləri və digər mühüm məsələlərə ətraflı olaraq aydınlıq gətirilmişdir. Orada məşğulluğun müasir dövrümüzə xas tərifi aşağıdakı kimi müəyyən olunmuşdur:

"Məşğulluq-Azərbaycan Respublikası vətəndaşlarının, Azərbaycan Respublikasında daimi yaşayan və vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin (bundan sonra vətəndaşların) Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və bir qayda olaraq onlara qazanc (gəlir) gətirən fəaliyyətidir" (2).

Qeyd edilənlərdən də aydın olur ki, məşğulluq dövlətimizin daimi diqqət mərkəzində saxladığı əsas məsələ və tədbirdir. Bütün dövrlərdə məşğulluq probleminin səmərəli həlli üçün qanunvericilik bazasının təkmilləşdirilməsi və gücləndirilməsi dövlətimizin əsas məqsədini təşkil etmişdir. Məşğulluq haqqında qanunumuzda məşğul olan şəxslərə aşağıdakılar aid edilmişdir:

1) muzdla işləyən, o cümlədən əmək müqaviləsi (kontraktı) ilə tam və ya tam olmayan iş vaxtı ərzində haqq müqabilində iş görən, habelə haqqı ödənilən başqa işi (xidməti) olanlar;

2) sahibkarlar, fərdi əmək fəaliyyəti ilə məşğul olanlar, mülkiyyətində torpaq payı olanlar;

3) haqqı ödənilən vəzifəyə seçilən, təyin və ya təsdiq edilənlər;

4) Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə xidmət edənlər;

5) əmək qabiliyyətinin müvəqqəti itirilməsi, ixtisasartırma, tətil, istehsalatın dayanması və başqa səbəblər ilə əlaqədar iş yerində müvəqqəti olmayanlar;

6) Azərbaycan Respublikasının ərazisində qanuni əsaslarla haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər;

7) Azərbaycan Respublikasının hüdudlarından kənarda qanuni əsaslarla əmək fəaliyyəti ilə məşğul olan Azərbaycan Respublikasının vətəndaşları (2).

Ölkəmizdə milli iqtisadi inkişafın bazar münasibətlərinə əsaslanmaqla bərqərar edilməsi imkan verir ki, burada əhalinin məşğulluq probleminin həll edilməsinin dövlət tərəfindən tənzimlənməsi mexanizmi aşağıdakı metodlarla müəyyən olunsun:

İqtisadi metodlar. İş yerlərinin yaradılması və mövcud olanların saxlanılması üçün saibkarları stimullaşdırmaq məqsədi ilə güzəştli kreditləşdirmə, vergitutma və büdcə siyasəti yeridilməsi, peşəkar kadrların hazırlanmasının hayata keçirilməsi;

Təşkilati metodlar: Məşğulluq və işədüzəltmə xidmətinin, informasiya və peşəyönümlü kadrların hazırlanması və yenidən hazırlanması sistemlərinin yaradılması;

Qanunvericilik yolu ilə: qanunvericilikdə nəzərdə tutulan inzibati metodlar-əmək müqavilələrinin bağlanılması, iş gününün uzunluğu, işçilər iş vaxtından artıq işlədikləri hallarda əməyin haqqının ödənilməsi, saatlıq minimum əmək haqqının müəyyən edilməsi, məşğulluğun təmin olunması ilə əlaqıdar sahibkarlar tərəfindən milli fondlara ödəmələrin tətbiqi, işədüzəltmə kvotalarının müəyyənləşdirilməsi qaydalarının nizama salınması və s (1. s. 518).

Hazırda dünya ölkələrinin bir çoxunda, xüsusən də iqtisadi inkişaf səviyyəsinə yüksəlmiş dövlətlərdə məşğulluq siyasətinin tənzimlənməsi arzuolunan və qəbul edilmiş formalarından geniş şəkildə istifadə edilməkdədir. Hansı ki, bu siyasət özünü effektiv nəticə kimi təqdim etməklə, həmin istiqamətdə təcrübəyə ehtiyacı olan ölkələrin strateji hədəflərini təşkil edir və bir model olaraq qəbul olunur. Bir sıra iqtisadi ədəbiyyatlarda bu modellərdən Yapon, ABŞ və İsveç modellərinin adlarını qeyd edirlər (3, s. 143).

## ƏDƏBİYYAT


1. Məmmədli O. Q., İsmayılov F. İ. İqtisadi nəzəriyyə. Bakı: MBM, 2007, 800 s.
2. Məşğulluq haqqında Azərbaycan Respublikasının qanunu. www.e-qanun.az
3. Muradov Ş.M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Bakı: Elm, 2004, 660s.



## ABSTRACT

**Javadkhan Gasimov**

**Employment as actual problems of modern**

The article shows that the socio-economic tensions in many countries turned them into centers of economic strength. Also refers to the occurrence of the bitter consequences of the new hotbeds of war, terrorist acts, illegal immigrants, unemployment. At the same time, it notes that employment is a key priority for solving the problems shown.



## РЕЗЮМЕ

**Джавадхан Гасымов**

**Занятость как актуальная проблема современности**

В статье показано, что социально-экономической напряженности во многих странах превратило их в центры экономической напряженности. А также говорится о возникновении таких горьких последствий этого как новые очаги войны, террористические акты, нелегальные мигранты, безработица. Наряду с этим, отмечается, что обеспечение занятости является основным приоритетом для решения показанных проблем.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov*

**SEVİNC CABBAROVA**
*AMEA Naxçıvan Bölməsi*
*E-mail: sjabbar@mail.ru*

***UOT :331***

# DÖVLƏTİN SOSİAL SİYASƏTİ VƏ ƏMƏK POTENSİALINDAN SƏMƏRƏLİ İSTİFADƏSİ

***Açar sözlər:*** *sosial siyasət, əmək potensialı, məşğulluq, iqtisadi təhlükəsizlik və s.*
***Keywords:*** *social policy, employment potential, employment, economic security.*
***Ключевые слова:*** *социальная политика, трудовой потенциал, занятость, экономическая безопасность.*

Müasir dünyada əmək potensialından səmərəli istifadə edilməsi inkişaf səviyyəsindən asılı olmayaraq bütün ölkələrdə öz aktuallığını saxlayır. Qeyd etmək lazımdır ki, bu problem inkişaf etməkdə olan, xüsusilə də iqtisadi inkişafda regional disproporsi-yaların güclü olduğu ölkələrdə, daha ciddi xarakter daşıyır. Əmək potensialından istifadə səviyyəsi bir sıra amillərdən, xüsusilə də, ölkənin iqtisadiyyatının, məhsuldar qüvvələrinin inkişafının, beynəlxalq əmək bölgüsündə iştirakının, iş qüvvəsinin peşə-ixtisas üzrə hazırlığının və s. səviyyəsindən asılıdır. Buna görə də dövlətin mövcud əmək potesialın-dan səmərəli istifadə edilməsinə istiqamətlənmiş siyasəti o zaman səmərəli nəticələr verə bilər ki, o, ölkədə mövcud olan reallığa əsaslansın və perspektivə hesablansın.

Məlumdur ki, bazar sistemi sosial problemləri effektiv həll etmək iqtidarında olmur. Doğrudur, ayrı-ayrı bazar modellərində sosial problemlərin həllində dövlətin iştirakı dərəcəsi və mexanizmləri fərqli olsa da, bu bir reallıqdır ki, bütün ölkələrdə dövlətin mühüm funksiyalarından biri səmərəli sosial siyasətin reallasdırılması ilə bağlıdır [4, s. 76]. Sosial siyasət dövlətin ümumi iqtisadi siyasətinin tərkib hissəsi olmaqla aşağıdakı problemlərin mümkün qədər həllinə yönəldilir:

1) əhalinin sosial cəhətdən zəif təbəqəsini müəyyənləsdirmək əsasında onlara müvafiq imtiyazların tətbiqinə;

2) Sosial standartların (minimum əmək haqqı, yasayış minimumu, təqaüdün minimum səviyyəsi və s.) tətbiq edir;

3) işsizliyin aradan qaldırılması, məsgullugun təmininə;

4) əhalinin pullu (ödənişli) və ödənişsiz sosial xidmətlərilə təmin edilməsinə;

5) Sosial infrasturuktur sahələrinin dövlət və bazar mexanizmləri əsasında maliyyələsdirilməsi və inkişaf etdirilməsi və s.

Dövlətin sosial siyasətində əsas məqsəd ümumi həyat səviyyəsini yüksəltməklə yanaşı müxtəlif əhali qrupları arasında mövcud olan fərqi azaltmaqdan ibarətdir. Mövcud iqtisadi ədəbiyyatında və təcrübədə sosial imkanlarına görə əhali 4 qrupa bölünür:

1) yoxsul; 2) kasıb; 3) orta; 4) tam təmin edilmis.

Ölkənin milli təhlükəsizliyinin təmin edilməsində əsas göstəricilərdən biri yoxsullugun səviyyəsinin beynəlxalq təcrübədə onun müəyyənləşmis həddən yuxarı olmamasına nail olmaqdan ibarətdir. Yuxarıda qeyd olunan hər göstərilən qruplar üzrə dövlətin xüsusi sosial tədbirləri hazırlanır və həyata keçirilir. Sosial problemlər mümkün qədər ədalətli həll etmək üçün dövlət, ilk növbədə, asagıdakı vəzifələri müəyyənləsdirir (həyata keçirir):

1) Hər sosial qrupa aid olan əhalinin sayını;

2) əhalinin demoqrafiya və miqrasiyasına nəzarəti həyata keçirir;

3) Sosial infrastruktur sahələrini inkisaf etdirir;

4) Sosial xidmət sahələrində ödənişsiz limitləri təyin edir;

5) Minimal sosial standartların səviyyələrinə, sosial normalara mütəmadi olaraq yenidən baxır;

6) işsizlik, uşaq ölümü, mənzil çatısmazlıgı, səhiyyə və təhsildə olan problemləri həll etmək üçün dövlət proqramlarını isləyib hazırlayaraq reallasdırır;

7) Sosial ödəmələrin, müavinətlərin, kompensasiyaların məbləglərinə nəzarət etməklə onların ünvanlı olmasına çalışır;

8) Sosial siyasəti reallaşdırmaq və ona nəzarəti təskil etmək üçün dövlət orqanlarını yaradır və s; [4, s 86].

Dünya təcrübəsində 5 sosial siyasət modeli mövcuddur:

1) Poternalist siyasət modeli: Bu model keçmis SSRə-də tətbiq edilən model olmaqla aşagıdakı müsbət xüsusiyyətlərə malik olmusdur: dövlət vətəndaşların hərtərəfli sosial iqtisadi vəziyyətinə görə məsuliyyəti öz üzərinə götürür, əhali üçün zəruri olan əmtəə və xidmətlərin istehsal və bölgüsünü özü həyata keçirir, sosial sabitliyə nail olmaga çalışır. Mənfi xüsusiyyətlərinə aid edilir: əqtisadi səmərəliliyin aşagı olması nəticəsində bütün vətəndasların yüksək sosial rifahına nail olmaq mümkün olmur və əsas əhali kütləsi üçün sosial sərvətlərin limiti müəyyənləşdirilir. Bu sosial siyasəti həm inzibati, həm də iqtisadi metodlarla reallasdırılır.

2) Sosial siyasətin İsveç modeli: Modelin müsbət cəhətlərinə dövlətin sosial sfera sahələrinin yüksək səviyyədə tənzimlənməsi, sosial problemlərin həllində dövlət məsuliyyətinin yüksək olması, ümumən, əhalinin güclü sosial müdafiəyə ilə əhatə olması aid edilə bilər. Mənfi cəhətlərinə isə sosial sfera sahəsində mərkəzləsmənin yüksək olması nəticəsində istirakçılar üçün seçim azadlığında müəyyən məhdudiyyətlərin olması, yüksək vergiqoymanı göstərmək olar.

3) Sosial rifahın dövlət modeli: Tipik bazar iqtisadiyyatı modeli olmaqla dövlətin vətəndaslarının sosial sabitlik səraitində yasamasını öz üzərinə götürməsi və çoxlu sayda sosial xidmətlərin mövcudlugu modelin müsbət cəhətləridir.

Mənfi cəhət kimi xərclərin yüksək olması, minimal standartların ölkə üzrə orta göstəricilərə yaxınlaşdırılması çıxıs edir.

Müstəqillik əldə etdikdən sonra aparılan iqtisadi islahatlar nəticəsində ölkəmiz özünün sosial-iqtisadi inkişafında yeni mərhələyə qədəm qoymuşdur. İqtisadiyyatda müşahidə olunan sabit artım templəri ölkənin sosial yönümlü inkişafını təmin etmiş, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, yeni iş yerlərinin açılması və mövcud əmək potensialından daha səmərəli istifadə edilməsi üçün əlverişli şərait yaratmışdır. Əmək potensialından səmərəli istifadə edilməsi, əmək qabiliyyətli əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi məqsədi ilə həyata keçirilən məşğulluq siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarının əsas müddəaları 2001-ci il iyulun 2-də qəbul olunmuş “Məşğulluq haqqında” Qanunda, Azərbaycan Respublikası Prezidentinin 26 oktyabr 2005-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Məşğulluq Strategiyasında (2006-2015-ci illər), 15 may 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramında (2007-2010-cu illər)” öz əksini tapmışdır. Qeyd edilən hüquqi sənədlərdən irəli gələn vəzifələrin reallaşdırılması ölkəmizdə əmək potensialından səmərəli istifadə edilməsi üçün imkan və zəmin yaratmışdır. 2004-cü ildə qəbul edilmiş “Azərbaycan Respublikası Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)” həyata keçirilməsi, 2009-cu ildə qəbul edilmiş “Azərbaycan Respublikası Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında (2009-2015-ci illər)” nəzərdə tutulmuş tədbirlərin reallaşdırılması, ölkəmizin regionlarında mövcud əmək potensialından istifadəni yaxşılaşdırmağa, əhalinin məşğulluq səviyyəsinin müəyyən dərəcədə yüksəldilməsinə imkan vermişdir.

Azərbaycanın müxtəlif iqtisadi rayonları tarixən inkişaf səviyyəsinə görə bir-birindən əhəmiyyətli dərəcədə fərqlənmişlər. Müəyyən obyektiv və subyektiv səbəblər üzündən son illər bu fərq daha da artmış, mövcud əmək potensialından səmərəli istifadə edilməsi, məşğulluğun səviyyəsinin yüksəldilməsi, əmək qabiliyyətli əhalinin rayonlardan iri şəhərlərə, xarici ölkələrə axının qarşısının alınması ən vacib sosial – iqtisadi problemə çevrilmişdir. Bu mənada ölkəmizin rayonlarında əhalinin məşğulluğunun təmin edilməsində önəmli rol oynayan Lənkəran iqtisadi rayonunda əmək po-tensialının, məşğulluğun quruluşunun formalaşması və təkmilləşdirilməsi, onlara təsir edən sosial-iqtisadi amillərin rolunun və xüsusiyyətlərinin tədqiqi, meydana çıxan

problemlərin aradan qaldırılması yollarının araşdırılması, əmək potensialından istifadənin səviyyəsinin yüksəldilməsi və məşğulluğun artırılması istiqamətlərinin müəyyən edilməsi, Azərbaycanın rayonlarında əmək potensialından istifadə səviyyəsinin yüksəldilməsi baxımından çox önəmli problemlərdir və bu nöqteyi-nəzərdən tədqiqatın mövzusu mühüm aktuallıq kəsb edir.

Hər bir ölkədə, eləcə də onun regionlarında, əmək potensialının formalaşmasının başlıca şərti bu ərazilərdə müəyyən sayda əhalinin mövcud olması və onun doğulub törəməsidir. Əhali, forma və məzmu-nundan asılı olmayaraq, bütün cəmiyyətlərdə ictimai istehsal prosesinin baş verməsi və onun daim təkrarlanması üçün zəruri şərtdir. Deməli, istehsal prosesinin daim təkrarlanması üçün əhalinin, onun tərkib hissəsi olan əmək potensialının da təkrar istehsalı baş verməlidir. Əmək potensialının istehsalı və təkrar istehsalı ölkədə yaşayan əhalinin sayı ilə yanaşı, onun cins-yaş tərkibindən, təhsil səviyyəsi və peşə hazırlı-ğından, kəbin və boşanma səviyyəsindən, miqrasiyası və yerləşməsi vəziyyətindən asılıdır. Bu proseslərin normal gedişi isə hər bir ölkənin malik olduğu istehsal münasibətlərinin xarakteri və məhsuldar qüvvələ-rin inkişaf səviyəsindən asılıdır.

Hər bir ölkədə məşğulluğun quruluşu, əsasən, həmin ölkədə iqtisadiyyatın (xüsusilə ilə maddi istehsal sahələrinin) formalaşmış quruluşundan asılıdır, başqa sözlə, məşğulluğun quruluşu ilə iqtisadiyyatın quruluşu arasında birbaşa əlaqə vardır. Deməli, məşğulluğun quruluşunun təkmilləşdirilməsi bilavasitə iqtisadiyyatın quruluşunun təkmilləşdirilməsindən asılıdır.

İqtisadiyyatın quruluşunun formalaşması ölkədə məhsuldar qüvvələrin ümumi inkişaf səviyyəsindən asılı olsa da və onunla şərtlənsə də, onun inkişafı və təkmilləşdirilməsi, hər halda, cəmiyyətin məcmu tələbatının təsiri (dəyişməsi) səbəbindən baş verdiyindən, əmək qabiliyyətli əhalinin məşğulluq quruluşu-nun səmərəliliyinin yüksəlməsi əsasında reallaşır.

Əmək potensialının quruluşunu xarakterizə edən əsas göstəricilər iqtisadiyyatda məşğul olan əhalinin xalq təsərrüfatının müxtəlif sahələri və ölkənin regionları arasında bölünməsi nisbəti və bu nisbətin zaman etibarı ilə dəyişməsidir. Məşğul olan əhalinin ölkənin regionları arasında bölünməsi məşğulluğun quruluşuna əsaslı şəkildə təsir etməklə yanaşı, əhalinin ölkə daxili miqrasiyasının səviyyəsinə də təsir göstərir. Naxçıvan MR əmək ehtiyatlarının davamlı və intensiv axını var, deməli inkişafı üçün geniş imkanlar yaranır, müxtəlif müəssisə və sahələrin inkişaf edtirilməsi ücün şərait yaradılır. Dövlətimizin prioritet vəzifəsi daim onun sahə strukturunun təkmilləşdirilməsi və əhalinin məşğulluğunun artırılmasından ibarətdir. Ölkəmizdə bu problemin həlli üçün mühüm müsbət irəliləyişlər əldə olunub. Qəbul olunan “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” işaxtaranların sosial müdafiəsinini gücləndirilməsi, işaxtaranların özünüməşğulluğunun təmin edilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkil edilməsinə imkan yaradacaq və işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şəraitin yaradılmasına səbəb olacaq.

Razılaşmaq lazımdır ki, bütövlükdə ölkə üzrə və eləcə də Naxçıvan Muxtar Respublikasında savadlı və yüksək səviyyəli kadrların hazırlanmasında müəyyən nöqsanlar peşəkar əmək bazarının formalaşmasına, əhalinin rifah halının, məşğulluq səviyyəsinin və işsizliyinin azaldılmasına neqativ təsir göstərir. Buna görə gənclərin peşə və ixtisaslara yiyələnməsi üçün dövlət tənzimləməsi siyasəti zəruri hesab olunur.

Əmək prosesində innovasiyalardan istifadə həyat tərzinin, davranış oriyentasiyası və mədəniyyətin törəməsidir. Bu əmək prosesində elmi yaradıcılığın və müəyyən əhəmiyyətli nəticələrin nailiyyətini nəzərdə tutur. Əmək prosesində innovasiyaların formalaşması üçün müəyyən işçinin çalışdığı təşkilatın, müəssisənin innovasiya potensialı, yeni ideyaların tətbiq etməsi üçün hazır olmağı son dərəcədə əhəmiyyətli hesab olunur.

Hal-hazırda Naxçıvan Muxtar Respublikasının keyfiyyətcə yeni demoqrafik və sosial məhdudiyyətlər şəraitində əmək sahəsində mövcud olan çatışmazlıqlar əmək potensialının idarə olunmasında təsirli sistem yaradılmasını tələb edir.

İqtisadi fəal əhalinin ətraf mühitin innovasiya dəyişikliklərinə qabaqlayıcı uyğunlaşmasını təmin etməsi üçün aşağıdaki təkliflər irəli sürülür: fasiləsiz peşə təhsili sistemi, məzunların peşəkar ixtisaslaşdırılmalarının şəhadətnaməsi, təhsil prosesinin təşkilində dövlət ilə özəl sektorun əməkdaşlığının təmin olunması.

Bazar iqtisadiyyatının inkişafı şəraitində elmi-texniki tərəqqinin yüksəlməsi əmək potensialının

kəmiyyət və keyfiyyət xüsusiyyətlərinə tələbi artırır. Təsadüfi deyil ki, bir sıra ölkələrdə, eləcə də Azərbaycanda iş yerlərinin və işçilərin tarazlaşdırılmaması əmək resurslarının az olması ilə yox, məhz keyfiyyət baxımından uyğun olan işçilərin çatışmaması ilə müşahidə edilir. [6, s 234]. Bazar şəraitində istehsalın səmərəliliyinin artırılması istehsal edilən məhsulda işçinin qabliyyətinin, biliklərin və əməyə yaradıcı münasibətin reallaşdırma səviyyəsi kimi cıxış edir. Başqa sözlə, əmək potensialı insanın qabiliyyətini kəmiyyətcə və keyfiyyətcə xarakterizə edən inteqral bir formadır. Beləliklə, yeniliklərdən istifadə etmə yeni iş yerlərin acılmasına, Naxçıvan Muxtar Respublikasının məşğulluq səviyyəsinin yüksəldilməsinə şərait yaratmışdır.

Regionun məşğulluq strukturunun dəyişikliklərinə yuxarıda göstərilmiş tədbirlərlə yanaşı başqa amillər də təsir edir: çoxquruluşlu iqtisadiyyatın formalaşması, sahə istehsal strukturunun dəyişilməsi, bazar sisteminin inkişafı və s. Potensialın təkrar istehsalına sistemli yanaşmanı, regional strategiyanın hazırlanmasını və əmək potensialının məqsədyönlü inkişaf proqramları əsasında regionun sosial-iqtisadi inkişaf proqramının bir hissəsi kimi həyata keçirtmək olar. Bu halda hədəflər, məsələlər, prioritetlər, resurslar və reallaşma mexanizmi regionun başqa inkişaf istiqamətləri ilə bağlı olmalıdır. Naxçıvan Muxtar Respublikasında belə strateji sənəd kimi “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” hesab ola bilər.

## ƏDƏBİYYAT


1. Nadirov A., Muradov Ş. Azərbaycan iqtisadiyyatı. Bakı-Elm, 2003.
2. Akademik Ə.Mahmudovun 75 illiyinə həsr olunmuş elmi konfrans materialları. AMEA-nın İqtisadiyyat institutu, 1998.
3. Nadirov A., Nuriyev Ə., Muradov Ş. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı, Elm, 2000
4. Əhmədov M.A., Hüseyn A.C. İqtisadiyyatın dövlət nənzimlənməsinin əsasları. Bakı, İqtisad Universiteti, 2011, 120 s.
5. Quliyev C. Naxçıvan statistika güzgüsində. Bakı 1999.
6. Muradov Ş. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Bakı-Elm. 2004. 459 s.
7. Экономическая статистика. Под редакцией Ю. Н. Иванова. Москва. Инфра-М 2004.
8. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin saytı www.azstsat.org.


## ABSTRACT


**Sevinj Jabbarova**


**Social state policy and effective use of labour potential**


The article refers to the social policy of the state and factors of formation of labor potential. There is carried out anal labor potential of Nakhchivan Autonomous Republic and justified from a scientific point of view of the future prospects of its development. It is shown that an effective social policy in the region plays a crucial role in the use of labor potential.


## РЕЗЮМЕ


**Севиндж Джаббарова**


**Социальная полика государства и эффективное использование трудового потенциала**


В статье говорится о социальной политике государства и факторах формирования трудового потенциала. Здесь проводится аналих трудового потенциала Нахчыванской Автономной Республики и обосновываются с научной точки зрения будущие перспективы его развития. Показано,что эффективная социальная политика в регионе играет решающую роль в использовании трудового потенциала.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov*

**RÜFƏT ƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*
*r.aliyevr@mail.ru*

***UOT :336.7***

# SIĞORTA FƏALİYYƏTİ, FORMALARI, NÖVLƏRİ VƏ ƏSAS STRATEGİYASI

***Açar sözləri:*** *Sığorta, sığorta fəaliyyəti, inkişaf strategiyası*
***Key words:*** *insurance , insurance activities, development strategy*
***Ключевые слова:*** *страхование, активность страхование , стратегия развития*

Sığorta – şəxslərin əmlakı, həyatı, sağlamlığı, mülki məsuliyyəti, həmçinin qanunvericiliklə qadağan olunmayan fəaliyyəti, o cümlədən sahibkarlıq fəaliyyəti ilə əlaqədar olan əmlak mənafelərinin müdafiəsi sahəsində riskin ötürülməsinə və ya bölüşdürülməsinə əsaslanan münasibətlər sistemidir.

İxtisaslaşdırılmış təşkilatlar-sığorta şirkətləri tərəfindən sığorta etdirənlərin sığorta haqlarından (mükafatlarından) formalaşan, sığorta hadisəsi nəticəsində sığorta etdirənə dəyən zərərin ödənildiyi sığorta fondunun hesabına fiziki və hüquqi şəxslərin əmlak maraqlarının qorunması ilə bağlı olan münasibətlər sistemidir.

Ümumilikdə sığorta istehsal münasibətlərinin mühüm elementlərindən biridir. Bu, istehsal prosesində maddi itkilərin ödənilməsi ilə əlaqədardır və normal, fasiləsiz və müntəzəm təkrar istehsalın əsas şərtlərindən hesab edilir. Sığorta xidmətləri sığorta bazarlarında yayılır. Sığorta bazarı – pul münasibətlərinin xüsusi sferasıdır və burada alqı-satqı obyekti kimi spesifik xidmət – sığorta müdafiəsi, təklif və ona olan tələbatı formalaşdıran pul münasibətləri kimi çıxış edir.

Sığorta könüllü və icbari formalarda həyata keçirilə bilər. Könüllü sığorta sığortaçı ilə sığortalı arasında müqavilə əsasında həyata keçirilir. Sığortanın aparılmasının ümumi şərtlərini və qaydalarını müəyyən edən könüllü sığorta qaydası sığortaçı tərəfindən müstəqil müəyyən olunur. Sığortanın konkret şərtləri sığorta müqaviləsinin bağlanması zamanı müəyyən olunur. İcbari sığorta qanunun qüvvəsi ilə həyata keçirilən sığortadır.

Qanunvericiliyə zidd olmayan aşağıdakı əmlak mənafeləri sığorta obyektləri ola bilər: sığortalının və ya sığorta olunan şəxsin həyatı, sağlamlığı, əmək qabiliyyəti və pensiya təminatı ilə əlaqədar (şəxsi sığorta); əmlakın sahibliyi, istifadəsi və sərəncamlığı ilə əlaqədar (əmlak sığortası); sığortalı tərəfindən ona və ya fiziki şəxsin əmlakına vurulmuş ziyanın, eləcə də hüquqi şəxsə dəymiş ziyanın ödənilməsi ilə əlaqədar (məsuliyyət sığortası).

Ölkə ərazisində yerləşən hüquqi şəxslərin əmlak mənafelərinin (təkrar sığorta və qarşılıqlı sığorta istisna olmaqla) və ölkənin rezidentləri kimi fiziki şəxslərin əmlak mənafelərinin sığortası yalnız sığorta fəaliyyətinin həyata keçirilməsinə lisenziyası olan hüquqi şəxslər tərəfindən həyata keçirilə bilər.

Sığortaçılar sığorta agentləri və sığorta brokerləri vasitəsi ilə sığorta fəaliyyətini həyata keçirə bilərlər.

Verilmiş səlahiyyətlərə uyğun olaraq sığortaçının adından və onun tapşırığı ilə fəaliyyət göstərən fiziki və ya hüquqi şəxslər sığorta agentləridir. Sığortalının yaxud sığortaçının tapşırıqları əsasında öz adından sığorta üzrə vasitəçilik fəaliyyətini həyata keçirən sahibkarlar qismində müəyyən olunmuş qaydada qeydiyyatdan keçən hüquqi və ya fiziki şəxslər sığorta brokerlər sayılır.

Sığorta cəmiyyətin ictimai-iqtisadi həyatının bütün tərəflərini əhatə etməklə əhalinin maddi rifahının və sahibкarlıq risкinin zəmanətçisi кimi çıxış edir, gözlənilməz və fövqəladə hadisələr zamanı əmlaк mənafelərinin qorunmasına, dövlətin maliyyə sisteminin möhкəmləndirilməsinə təsir göstərir. O, nəinкi sığorta hadisələri zamanı büdcəni dəyən zərərlərin ödənilməsindən azad edir, hətta uzunmüddətli investisiyaların mənbəyinə çevrilir. Sığorta ixtisaslaşdırılmış sığorta təşkilatları tərəfindən həyata keçirilir. Bu təşkilatlar dövlət və qeyri-dövlət təşkilatları ola bilər. Onların fəaliyyət sahəsi daxili (məhdud), xarici və yaxud qarışıq sığorta bazarlarını əhatə edir. Sığorta

bazarının yüksək inkişafı şəraitində sığorta həm ölkə daxilində, həm də xaricdə həyata keçirilə bilər. Bu sığortanın təşkilati təsnifləşdirilməsidir. İstənilən təsnifləşdirilmənin əsası elə əlamətlərdən ibarət olmalıdır ki, bu bütün həlqələrin qarşılıqlı əlaqələrini təmin etsin. Təsnifatın əsasında iki əlamətin nəzərə alınması mümkündür: sığorta obyektlərinin və sığorta məsuliyyətinin səviyyəsində fərqlər. Bunlara uyğun olaraq iki təsnifləşdirmə tətbiq edilir: sığorta obyektləri üzrə və təhlükəlilik səviyyəsi üzrə. Birinci təsnifat ümumidir, ikincisi isə yalnız əmlak sığortasını əhatə etməklə sahə xarakteri daşıyır. Sığorta münasibətləri məcburi və кönüllü formalarda həyata кeçirilir. Məcburi sığorta dövlət tərəfindən qanunvericiliк əsasında həyata кeçirilməklə cəmiyyətin maraqlarının təmin edilməsi üçün hüquqi və fiziкi şəxslərin sığorta edilməsidir. Bu müvafiq sığortalanmış qrupların qəti müəyyən olunmuş sığorta ödənişinin həyata keçirilməsi deməkdir. Yəni maddi zərərlərin ödənilməsi və yaxud digər pul yardımı göstərilməsi lazım gəldikdə bu, təkcə konkret zərərçəkənin marağına deyil, ictimai marağa da xidmət edir. Başqa sözlə desək, sığortanın məcburi forması sığortaçını müdafiə edir. Ona görədə sosial sığorta, hərbi xidmətçilərin sığortası və digər bir neçə sığorta forması bizim ölkədə məcburi sığortadır. Hər bir ölkədə məcburi sığorta obyektləri müxtəlifdir Məcburi sığortada bu prinsiplər fərqləndirilir:Sığorta edən müvafiq obyektlərin sığortası üçün məcburi sığorta qanunu tətbiq edir, sığorta olunanlar isə sığorta ödənişlərini ödəməlidir. Qanun, adətən, aşağıdakı məsələləri nəzərə alır: məcburi sığortaya aid edilən obyektlərin siyahısı; sığorta məsuliyyətinin səviyyəsi; tarif dərəcələrinin tətbiq olunma qaydaları; sığorta ödənişlərinin aparılması dövrü; sığorta edənin və sığorta olunanın əsas hüquq və vəzifələri. Məcburi sığorta qanununun həyata keçirilməsi bir qayda olaraq dövlət sığorta orqanlarına tapşırılır. Qanunda göstərilmiş obyektlərin məcburi sığortasının bütünlüklə əhatə olunması. Bunun üçün sığorta orqanları hər il bütün ölkə üzrə sığortalanmış obyektlərin qeydiyyatını aparır, sığorta ödənişlərinin hesablanmasını və müəyyən olunmuş müddətə yığılmasını həyata keçirir. Qanunda göstərilmiş məcburi sığorta obyektlərinin avtomatik olaraq əhatə olunması. Yəni heç bir məcburi sığorta obyekti kənarda qala bilməz. Sığorta ödənişlərinin ödənilməsindən asılı olmayaraq məcburi sığortanın fəaliyyət göstərməsi. Sığortalananlar, hesablanmış sığorta ayırmalarını ödəmədiyi hallarda məsələyə məhkəmə qaydasında baxılır. Məcburi sığortanın müddətsizliyi. Sığortaçının sığortalanmış əmlakdan istifadə etdiyi bütün dövr ərzində məcburi sığorta fəaliyyətdə olur. Yalnız sahibsiz və köhnəlmiş əmlak bu sığortaya aid edilmir. Əmlakın başqasına keçməsi vaxtı sığorta dayandırılmır. Bu sığorta yalnız sığortalanmış əmlak öldükdə və ya məhv olduqda öz qüvvəsini itirir. Sığortanın bu formasının həyata кeçirilməsinə səlahiyyəti olan orqanlar qanunvericiliк əsasında müəyyən edilir. Məcburi sığortadan fərqli olaraq sığortanın кönüllü formasında sığortaçılarla sığorta olunanlar arasında müqavilə кönüllü olaraq bağlanılır. Qanunvericiliyə uyğun olaraq кönüllü sığortanın hər bir növü üzrə qaydalar müəyyənləşdirilir, dövlət sığorta nəzarəti orqanları tərəfindən lisenziya verilir. Bir qayda olaraq кönüllü sığorta müqaviləsi əvvəlcədən müəyyən edilmiş sığorta müddəti üçün bağlanılır. Könüllü sığorta forması aşağıdakı prinsipləri özündə birləşdirir: Könüllü sığorta qanuni yolla və könüllü əsaslarla fəaliyyət göstərir. Qanun könüllü sığortaya aid olan bütün obyektləri müəyyənləşdirir. Konkret şərait sığorta qaydaları vasitəsilə tənzimlənir; Sığortada könüllü iştirak. Əgər sığortalama şərtlərinə zidd deyilsə, onda sığortaçının obyekti sığorta etməməyə haqqı yoxdur. Həmin prinsip sığortalanma haqqında ilk tələbdən sonra sığorta müqaviləsinin bağlanmasına təminat verir; Könüllü sığorta obyektlərinin müəyyən hissəsini əhatə edir. Belə ki, heç də bütün şəxslər sığortada iştirak etməyi arzulamır. Bundan başqa, sığorta şərtlərinə uyğun olaraq sığorta müqaviləsinin bağlanması üçün bəzi məhdudiyyətlər mövcuddur; könüllü sığorta həmişə sığorta müddəti ilə məhdudlaşdırılır. Müqavilədə müddətin başlama və sona çatma vaxtı xüsusi olaraq müəyyənləşdirilir. Könüllü sığortada fasiləsizlik yalnız müddət bitməmişdən qabaq təkrar müqavilənin bağlanması yolu ilə müəyyən edilir; Könüllü sığorta, sığorta ayırmalarının həm bir dəfəyə, həm də dövrü olaraq ödənilməsi şəraitində fəaliyyət göstərir. Könüllü sığorta müqaviləsi yalnız sığorta ayirmalarının bir dəfəlik və ya dövrü olaraq ödənilməsi şəraitində qüvvəyə minir. Sığorta ayırmalarının ödənilməsi uzunmüddətli sığorta müqaviləsinin fəaliyyətinin dayandırılmasına səbəb olur. «Sığorta haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən sığorta iкi əsas sahədən: həyat və qeyri-həyat sığortası sahələrindən ibarətdir. Sığortaçılar bu sahələrdən biri və ya hər iкisi üzrə fəaliyyət göstərə

bilərlər. Həyat sığortası–sığortalının ölümü, sağlamlığının, iş qabiliyyətinin qocalığa yaxud əlilliyə görə təmamilə və ya qismən itirilməsi halları üçün aparılan sığortadır. Həyat sığortası üzrə müqavilə müddəti bitdikdə və ya sığorta hadisəsi baş verdikdə sığorta məbləği sığorta müqaviləsində müəyyən edilmiş qaydada və şərtlərlə sığortaçıya və ya onun varisinə ödənilir. Həyat sığortası müqavilələri uzun müddətə bağlanılır və bu müddətdə yaranmış inflyasiya sığortalıya təminatın verilməsinə maneçilik yarada bilər. Bu baxımdan sığorta şirkəti öz fəaliyyətini elə qurmalıdır ki, sığorta müqavilələri üzrə qəbul etdiyi öhdəlikləri müqavilə ilə müəyyən olunmuş şərtlər çərçivəsində həyata keçirə bilsin. Qeyri-həyat sığortası-sığorta hadisəsi baş verdiyi zaman sığortaçıya vurulan zərər ödənilməklə onun məsuliyyəti, əmlakı və əmlak mənafeləri ilə bağlı risklərin sığortasıdır.

## ƏDƏBİYYAT


2. Xankişiyev.B.A "Sığorta fəaliyyətinin əsasları (dərs vəsaiti). Bakı, 2006.
3. Xankişiyev.B.A "Sığorta". Bakı, 2005.
4. Xankişiyev.B.A., Abdullayev.P.N. "Sığorta işi" (dərs vəsaiti). Bakı, 2014.


## ABSTRACT


**Rufat Aliyev**



Insurance - the property, life, health, civil liability, as well as activities not prohibited by law, as well as in protection of the proprietary interests in connection with business activities or the distribution of relations based on a system of risk transfer. In general, insurance is one of the important elements of the relations of production. This is due to the compensation of financial losses in the production process and normal, continuous and regular repetition of the basic conditions of production are considered. Insurance services insurance market spreads. The insurance market - money and scope of the relations between the purchase and sale of insurance protection as an object of a specific service offering and the demand for it is the relationships that form the money.


## РЕЗЮМЕ


**Руфат Алиев**



Страхование - собственность, жизнь, здоровье, гражданской ответственности, а также деятельности, не запрещенные законом, а также в защите имущественных интересов в связи с предпринимательской деятельностью или распределением отношений, основанных на системе передачи риска. В общем, страхование является одним из важных элементов производственных отношений.

Это связано с возмещением финансовых потерь в производственном процессе и нормальной, непрерывной и регулярное повторение основных условий производства рассматриваются. Страхование страховых услуг на рынке распространяется. Страховой рынок в денежном выражении и объем купли-продажи страховой защиты как объекта конкретного предложения услуг и спрос на него отношения, которые формируют деньги



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov*

**İLHAM HÜSEYNOV**
*Naxçıvan Dövlət Universiteti*

***UOT :332.1***

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA HƏYATA KEÇİRİLƏN İNVESTİSİYA SİYASƏTİ VƏ AQRAR SAHƏNİN İNKİŞAFI

***Açar sözlər:*** *investisiya fəaliyyəti, aqrar sahəyə investisiyala, investisiya formaları, investor, muxtar respublika, proqnozlaşdırma və tənzimləmə istiqamətləri*

***Keywoods****: investment, investment firms, investment in agrarian sfere, investor, autonomous republic, prognostication and regulation directions.*

***Ключевые слова:*** *инвестиционная деятельность, инвестиции в аграрную отрасль, формы инвестирования, инвестор, автономная республика, направления прогнозирования и регулирования.*

Müasir iqtisadi şərait Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının məqsədyönlü və dinamik inkişafı ilə müşayət olunur. Həyata keçirilən sistemli işlər, özünün kompleks yanaşması ilə fərqlənən hüquqi-normativ bazanın təkmilləşdirilməsi, mütərəqqi təsərrüfatçılıq üsul, alət və mexanizmlərindən istifadə bu regionun sosial və iqtisadi simasını günü-gündən dəyişir. Bununla yanaşı perspektiv dövrün məqsədlərinin həyata keçirilməsi, əhali və iqtisadi sahələr üzrə artan tələbatların daha dolğun qarşılanması konkret inkişaf proqramları işlənib hazırlanması, onların yüksək tələbkarlıq əsasında icrası zərurətini şərtləndirir. Bu istiqamətdə investisiya fəalittərinin düzgün təşkili, müvafiq vəsaitlərin səmərəli bölüşdürülməsi və istifadəsi öz aktullığı ilə seçilən məsələlərdəndir.

Özünün kifayət qədər möhkəm nəzəri metodoloji aspektlərinə, beynəlxalq təcrübənin mütərəqqi üsul və vasitəlrinin mənimsənilərək iqtisadiyyata tətbiqi ilə seçilən investisiyalaşma fəaliyyəti kifayət qədər qədim köklərə malik olması ilə yanaşı geniş tətbiq arealına, müxtəlif varianlarda həyata keçirilmə imkanlarına malikdir. Mövzunun vahid sistem şəkildə araşdırılması onun ikinci “tədqiqat tərəfi” olan aqrar sahənin qarşılıqlı əlaqə və təsir şəraitində öyrənilməsini də şərtləndirir.

İlk növbədə investisiya məvhumunun mahiyyətinə sahənin inkişafını təmin etmək baxımından nəzər yetirdikdə onun gəlir və ya müəyyən sosial səmərə əldə olunması məqsədilə sahibkarlıq və yaxud digər fəaliyyət növləri obyektlərinə uzun müddətə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarət olduğunu görmək mümkündür. Belə vəsait və sərvətlərin tərkibində xüsusi qruplar kimi pul, məqsədli bank əmanətləri, kreditlər, paylar, səhmlər və d. qiymətli kağızlar; daşınan və daşınmaz əmlak (tikililər, qurğular, avadanlıq və s.maddi sərvətlər); müvafiq qaydada rəsmiləşdirilmiş elmi-təcrübi və digər intellektual sərvətlər; bu və ya digər istehsal növünün təşkili üçün zəruri olan, ancaq patentləşdirilməmiş, texniki sənədləşdirmə, vərdiş və istehsalat təcrübəsi kimi tərtib edilmiş texniki, texnoloji, kommersiya və d. biliklərin məcmusu (“nou-hau”); torpaqdan, sudan və digər təbii ehtiyatlardan, binalardan, qurğulardan, avadanlıqlardan istifadə hüquqları, habelə müəlliflik hüququndan irəli gələn başqa əmlak hüquqları və s. qruplar fərqləndirilir. Təcrübədə istifadəsi mümkün olan maliyyə nəzəriyyələrinə əsaslanaraq qeyd etmək olar ki, investisiya anlayışı real və maddi aktivlərin əldə edilməsi kimi xarakterizə olunmalıdır.

Digər tərəfdən, aqrar sahəyə edilən investisiya - əsas və dövriyyə fondlarının yaradılmasına, genişləndirilməsi və yenidən qurulmasına sərf olunan birbaşa və dolayı xərclərin məcmusundan ibarətdir, onun makro və mikroiqtisadi anlamlarda ifadə edilən təməlləri mövcuddur.

“Aqrar sahə - investisiyalaşma” müstəvisində məsələnin öyrənilməsi onun daha konkret “ünvanlar” əsasında araşdırılmasına şərait yaradır. Bu kontekstdə aparılan tədqiqatın obyektinin Naxçıvan Muxtar Respublikası olaraq seçilməsi bir tərəfdən öyrənilən məcmu çərçivəsini daraltdığı halda, digər tərəfdən isə ölkənin başqa regionları üzrə analoji tədqiqatların təşkili və həyata keçiril-

məsində nümunə rolunu oynamaq iqtidarındadır.

Düşünürük ki, muxtar respublikanın aqrar sferasında investisiyaların nə kimi rol oynamasını dəqiqləşdirmək üçün onların istifadə istiqamətlərinə ehtiyac vardır. Bu baxımdan ilk növbədə aşağıdakı qrupların fəarləndirilməsi zəruridir:

1. Aqrar sahədə istehsal proseslərinin geniş diapozona malik maddi-texniki bazasının formalaşdırılmasına, kənd təsərrüfatı istehsalının genişlənməsinə və müasirləşməsinə yönəldilən investisiyalar;

2. Sahənin birbaşa və dolayı yolla fəaliyyətinə təsir edəcək infrastrukturun (nəqliyyat, sosial və s.) yaradılmasına istiqamətləndirilmiş investisiyalar;

3. Birinci dərəcəli material ehtiyatları və ümumiyyətlə dövriyyə vəsaitləri üzrə bazanın formalaşdırılmasına yönəldilən investisiyalar;

4. Sahə məhsullarının reallaşdırılmasına köməklik edəcək obyekt (bazar, firma mağazar və s.) və fəaliyyətlərin (satış-sərgilərin, yarmarkaların təşkili və s.) bərqərar olması məqsədini güdən investisiyalar;

5. Aqrar sahəyə birbaşa və dolayı əlaqəsi ilə seçilən işçi heyətinin əmək vərdişlərinin yüksəldilməsinə yönəldilən investisiyalar;

6. Aqrar sahənin regional xüsusiyyətləri, mövsümilik və s. bu kimi amillərin tarazlanmasına yönəldilmə məqsədini güdən investisiyalar və s.

Məzmunca, iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına yönəldilən investisiyalar özü ilə əsaslı vəsait qoyuluşunu ehtiva edir ki, burada da başlıca məqsəd "sahibkar – dövlət (region) – əmtəə istifadəçisi" əlaqələrində qarşılıqlı və çoxtərəfli faydanın əldə olunmasıdır. Belə ki, real sahədə tətbiqi mümkün olmuş investisiyalar bir tərəfdən sahibkarln istehsal imkanını artırır, onun məhsul-darlıq və digər göstəricilərinə təsir edir, dövlətin ərzaq təhlükəsizliyi və digər istiqamətlərdə həyata keçirdiyi siyasətə müsbət təsir göstərir, digər tərəfdən isə əhali və emal sənayesi daha ucuz və keyfiyyətli məhsullarla təmin olunur ki, bu da istehsalın genişləndirilməsi, insanların maddi rifah halının yaxşılaşdırılması, sosial təminatının yüksəldilməsi kimi məsələlərdə tərəqqiyə yol açır.

Eyni zamanda qeyd olunmalıdır ki, innovasiya fəaliyyəti ölkə iqtisadiyyatında struktur dəyişiklikləri aparmaq məqsədilə reallaşdırılacaq uzunmüddətli elmi-texniki tədqiqat və fundamental araşdırma işlərinin maliyyələşdirilməsi kimi də çıxış edir. Ölkə və ya region miqyasında investisiya gəaliyyətinin səmərəliliyini şərtləndirən cəhətlərdən biri kimi investisiya bazarının dinamikliyi də qiymətləndirilir.

Beynəlxalq təcrübədə investisiyanın iki əsas forması fərqləndirilir: birbaşa və portfel investisiyalar. Real investisiyalar da adlanan birbaşa investisiyalar kapitalın kənd təsərrüfatı və digər sahələrin müəssisələrinə bilavasitə yerləşdirilməsini nəzərdə tutur. Məzmun etibarı ilə bu forma aqrar sahənin tələblərinə daha uyğundur  Portfel (və ya maliyyə) investisiyaları isə səhmlərə, istiqrazlara və digər qiymətli kağızlara investisiyalardır.

ÜDM-də investisiyaların xüsusi çəkisi, iqtisadi inkişafın vacib şərtidir. Azərbaycan Respublikasının "İnvestisiya fəaliyyəti haqqında" Qanununda əks olunduğu kimi, hüquqi bazanın təkmilləşdirilməsində məqsədlərindən biri ölkə iqtisadiyyatına investisiyaların cəlb olunması prosesinin intensivləşdirilməsidir. Nəzəri materiallara əsaslanaraq göstərə bilərik ki, muxtar respublikada bu sahədə aparılan mütəşəkkil işlər onun ardıcıl artımı ilə nəticələnmişdir. Deyilənləri aşağıdakı cədvəllər əsasında müqayisəli şəkildə nəzərdən keçirək.

**Cədvəl 1. Muxtar respulibkanın 2015-ci il və 2016-cı ilin I yarısını əhatə edən əlaqəli makroiqtisadi göstəricilər**

| Müqayisə predmeti | | 2015-ci il | | 2016-cı ilin yanvar-iyul ayları | |
|---|---|---|---|---|---|
| | | Faktiki, min man. | 2014-cü ilə nisbətən, %-lə | Faktiki, min man. | 2015-ci ilin müvafiq dövrünə nisbətən, %-lə |
| 1 | Əsas kapitala yönəldilən investisiyalar | 951196,5 | 102,9 | 562200,3 | 100,6 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2 | Kənd təsərrüfatının ümumi məhsulu | 402991,8 | 112,2 | 213904,0 | 105,1 |

Cədvəl məlumatlarından aydın olur ki, əsas kapitala yönəldilən investisiyaların həcminin artması kənd təsərrüfatında işlərin səmərəliliyinin yüksəlməsinə təsir edərək onun həcminin 2015-ci ildə 12,2%, 2016-cı ilin I yarısında isə 5,1% artmasına səbəb olmuşdur.

Digər tərəfdən, ölkə və muxtar respublika üzrə analoji göstəricilərin müqayisəsi bu asılılığın muxtar respublikada daha yaxşı nəticələrlə yekunlaşdığına şahidlik edir. Belə ki, istər 2015-ci ildə, istərsə də 2016-cı ilin I yarısında əsas kapitala yönələn isvestisiya həcmlərində muxtar respublikada artım müşahidə olunduğu halda (+2,9%; +0,6%), bu göstərici respublika üzrə geriləmələrlə icra olunmuşdur.

**Cədvəl 2. Ölkənin və muxtar respublikanın 2015-ci il və 2016-cı ilin I yarısını əhatə edən əlaqəli makroiqtisadi göstəricilərin artım templəri**

| Müqayisə predmeti | | 2015-ci il | | 2016-cı ilin I yarısı | |
|---|---|---|---|---|---|
| | | respublika üzrə | MR üzrə | respublika üzrə | MR üzrə |
| 1. | Əsas kapitala yönəldilən investisiyalar | -11,1 | +2,9 | -29,7 | +0,6 |
| 2. | Kənd təsərrüfatının ümumi məhsulu | +6,6 | +12,2 | +2,6 | +5,1 |

Muxtar respublikada həyata keçirilən investisiyalaşma prosesinin kənd təsərrüfatı istehsalında özünü ifadə etməsini dimanika baxımdan da xarakterizə etmək mümkündür.

**Cədvəl 3. Muxtar respublikada kənd təsərrüfatının ümumi məhsulu (faktiki mövcud qiymətlərlə, min manat)**

| İllər | Kənd təsərrüfatının ümumi məhsulu | | | | | |
|---|---|---|---|---|---|---|
| | Cəmi | Öncəki dövrə nisbətən | o cümlədən | | | |
| | | | bitkiçilik məhsulu | | heyvandarlıq məhsulu | |
| | | | Faktiki | Öncəki dövrə nisbətən | Faktiki | Öncəki dövrə nisbətən |
| 1995 | 38572.2 | - | 22296.0 | - | 16276.2 | - |
| 2000 | 55408.2 | +43,6% | 32187.0 | +44,4% | 23221.2 | +42,7% |
| 2005 | 98255.1 | +77,3% | 59513.4 | +84,9% | 38741.7 | 66,8% |
| 2010 | 247126.6 | +151,5% | 156037.2 | +162,2% | 91089.4 | +135,1% |
| 2011 | 296117.0 | +19,8% | 192998.8 | +23,7% | 103118.2 | +13,2% |
| 2012 | 318836.0 | +7,7% | 211595.0 | +9,6% | 107241.0 | +4% |
| 2013 | 337127.2 | +5,7% | 222964.2 | +5,4% | 114163.0 | +6,5% |
| 2014 | 355156.7 | +5,3% | 232645.2 | +4,3% | 125510.5 | +9,9% |
| 2015 | 402991.8 | +13,5% | 256082.4 | +10% | 146909.4 | +17% |

Cədvəl 3-də verilmiş mütləq ifadələr əsasında dövrlər üzrə nisbi artım templəri silsiləvi qaydada tərəfimizdən müəyyən edilmişdir. Alınan nəticələr həm mütləq, həm də nisbi ifadədə hər üç göstəricinin ahəngdar artıma malik olması haqqında fikir söyləmətə imkan verir. Digər tərəfdən, təkcə 2005-2015-ci illəri əhatə edən on üç Dövlət Proqramının (əhalinin ərzaq təminatı, taxilçılığın, kartofçu-luğun, meyvəçiliyin və s.aqrar istiqamətlərin inkişafı üzrə) qəbul edilməsi 2015-ci ildə 1995-ci ilə nisbətən artımın müvafiq olaraq 10,5 dəfə, 11,9 dəfə və 9 dəfə, 2005-ci ilə nisbətən 4,1 dəfə, 4,3 dəfə və 3,8 dəfə təşkil etdiyini göstərir.

Kənd təsərrüfatının inkişafında bitkiçilik sahəsi, onun əkin sahələri ilə təmin olunması, bitkiçilik məhsulları istehsalı özünəməxsusluğu ilə fərqlənir. Bu baxım-dan səyyari və uçot-statistika müşahidəsi yolu ilə əldə olunan informasiyaların nəzərdən keçirilməsi və ümumiləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Bəhs olunan fikirləri daha dərindən araşdırmaq və təhlil etmək üçün cədvəl 3.9-un öyrənilməsi zəruridir. Həmin cədvəl 2 blokdan ibarət olmaqla 1970-2015-ci illərdə muxtar respublikada bitkiçilik təyinatlı əsas aqrar məhsulların əkin sahələri və məhsul istehsalı haqqında məlumatları özündə əks etdirir.

**Cədvəl 4. Muxtar respublikada kənd təsərrüfatı bitkilərinin əkin sahələri və məhsul istehsalı**

| Göstəricilər | İllər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | **1970** | **1980** | **1990** | **1995** | **2000** | **2005** | **2010** | **2015** |
| I.Kənd təsərrüfatı bitkilərinin əkin sahələri, ha | | | | | | | | |
| Cəmi əkin sahəsi | 41100.0 | 28400.0 | 34715.0 | 25476.6 | 37104.0 | 48810.0 | 59204.2 | 61414.0 |
| dənli və dənli paxlalılar (qarğıdalı daxildir) | 24200.0 | 11600.0 | 15500.0 | 20715.0 | 15275.0 | 26764.0 | 36738.2 | 39435.0 |
| tərəvəz | 900 | 1200 | 1400 | 210 | 4856 | 5686 | 6006 | 6131 |
| kartof | 100 | 100 | 400 | 200 | 1451 | 1990 | 2740.5 | 2967 |
| bostan bitkiləri | 500 | 600 | 600 | 128 | 2461 | 2844 | 2819 | 2753 |
| yem bitkiləri | 9000 | 12100 | 15700 | 2427.6 | 10666 | 9767 | 8943.1 | 9859 |
| texniki bitkilər | 6400 | 2800 | 1115 | 1796 | 2395 | 1759 | 1957.4 | 269 |
| II.Bitkiçilik məhsulları istehsalı, ton | | | | | | | | |
| dənli və dənli paxlalılar (qarğıdalı daxildir) | 22500 | 27000 | 32200 | 23642 | 54428 | 103566.8 | 105055 | 117351.8 |
| tərəvəz | 8400 | 16300 | 20000 | 1292 | 42723 | 56414 | 64782.3 | 82016.3 |
| kartof | 900 | 1300 | 2600 | 400.0 | 13454 | 26317.5 | 37901.0 | 45042.5 |
| bostan bitkiləri | 2300 | 4000 | 5300 | 404.0 | 33568 | 39841 | 40023.7 | 38002.7 |
| yem bitkiləri | 108900 | 142780 | 9285.8 | 11177.6 | 56469 | 61175 | 70083.4 | 121069 |
| texniki bitkilər | 2300 | 6400 | 4528 | 8841 | 45576 | 23984.5 | 26774.6 | 690.2 |

İstehsal olunmuş məhsulların ümumi həcmi ilə yanaşı onların bir nəfər hesabı ilə hasilat kəmiyyətlərində də artım müşahidə olunmaqdadır. Bu baxımdan aşağıdakı cədvələ müraciət etmək məqsədəuyğun olardı.

**Cədvəl 5.Muxtar respublikada əsas ərzaq məhsullarının istehsalı, hər bir nəfərə il ərzində, kq**

| Göstəricilər | İllər | | | | |
|---|---|---|---|---|---|
| | **1995** | **2000** | **2005** | **2010** | **2015** |
| Taxıl (təmizləndikdən sonrakı çəkidə) | 66 | 151 | 245 | 237 | 265.4 |
| kartof | 18 | 37 | 69 | 94 | 101.9 |
| tərəvəz | 74 | 118 | 148 | 159.4 | 185.5 |
| ərzaqlıq bostan bitkiləri | 11 | 93 | 105 | 99 | 86 |
| meyvə və giləmeyvə | 55 | 79 | 96 | 96 | 115.6 |
| ət | 12 | 15 | 21 | 25 | 31.2 |
| süd | 101 | 151 | 170 | 187 | 181.5 |
| yumurta, ədəd | 117 | 163 | 127 | 158 | 166.2 |

İnvestisiyaların istiqamətlərinin sistemli şəkildə araşdırılması onun təkcə istehsal sferası ilə məhdudlaşdırılmadığını, əlaqəli müxtəlif xidmət sahələrini də əhatə etdiyini göstərir. Bu baxımdan istər texniki vasitə və avadanlıqların sahibkarlar tərəfindən əldə olunmasına, istərsə də təsərrüfatların genişləndirilməsinə, istixana və saxlama anbarlarının yaradılmasına, suvarma sistemlərinin, yol təsərrüfatının, digər infrastruktur istiqamətlərinin formalaşdırılması və müasirləşdirilməsinə yönəl-dilən investisiyalar özünəməxsusluğu ilə fərqlənir və mühüm amillərdən hesab olunur. Məsələnin konkret təcrübi tərəfini nəzərdən keçirmək üçün cədvəl 6-nın maddələrini təhlil etmək yerinə düşərdi. Bu cədvəldə mütləq ifadələrlə yanaşı, tərəfimizdən keçən ilə nisbətən baş vermiş kənarlaşmalar da hesablanmışdır.

**Cədvəl 6. Naxçıvan MR iqtisadiyyatının ayrı-ayrı istiqamətlərində baş vermiş dəyişikliklər**

| | Araşdırma obyekti | 2015-ci ildə faktiki (öncəki ilə nisbətən kənarlaşma, ± ) |
|---|---|---|
| 1. | “Naxçıvan Aqrolizinq” ASC xətti ilə muxtar respublikaya gətirilmiş müxtəlif təyinatlı aqrotexnika və texnoloji avadanlıq, ədəd | 1685 |
| | Onlardan 2015-ci ildə gətirilmişdir, ədəd | 180 (+7,5%) |
| 2. | 2015-ci ildə “Naxçıvan Aqrolizinq” ASC xətti ilə MR sahibkarlarına lizinq yolu ilə verilmiş texnika və texnoloji avadanlıq sayı, ədəd | 187 (+10%) |
| 3. | “Naxçıvan Aqrolizinq” ASC xətti ilə məhsul istehsalçıları mineral gübrə ilə təmin olunmuşlar, ton | 6024,7 (+2,6%) |
| 4. | Kənd təsərrüfatı məhsullarının istehsalçılarına hər ha əkin sahəsinin becərilməsin və çoxillik əkmələrin aparılmasında istifadə etdikləri yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına ödənilən vəsait, manat | 50 (+25%) |
| 5. | MR-də istifadəyə verilmiş istixanalar, vahid | 7 (+34,0%) |
| 6. | MR-də təhvil verilmiş saxlama anbarları (soyuducular), vahid | 2 (ümumi tutum 480t) |
| 7. | Yaradılmış heyvandarlıq təsərrüfatları, vahid | 4 (+25%) |
| 8. | Genişləndirilmiş heyvandarlıq təsərrüfatları, vahid | 5 (+20%) |
| 9. | Süni mayalandırılmış mal-qaradan alınmış sağlam bala, baş | 3411 (+18,2%) |
| 10. | MR-ə gətirilmiş damazlıq cins mal-qara, baş | 1937 |
| | o cümlədən 2015-ci ildə | 249 (+5,5%) |
| 11. | Yaradılmış və genişləndirilmiş arıçılıq təsərrüfatları, vahid | 2 |
| 12. | 01.01.2016-cı il tarixə MR-də bütün təsərrüfat kateqoriyalarında arı ailələrinin sayı, ailə | 70396 (+1,4%) |
| 13. | Yaradılması davam etdirilən quşçuluq təsərrüfatları | 1 |
| 14. | Kənd təsərrüfatı ilə məşğul olan təsərrüfat subyektlərinə kreditlərin verilməsi, min manat | 20860,5 (+16,1%) |
| 15. | Suvarma sisteminin yaxşılaşdırılması məqsədilə tikilmiş, bərpa olunmuş və təmir edilmiş subartezian quyuları və kəhrizlər, ədəd | 29 (+52%) |
| 16. | Muxtar respublikada bank və kredit təşkilatları tərəfindən verilən kredit həcmi, min manat | 70221,5 (+28,9%) |
| 17. | Sahibkarlıq fəaliyyəti üçün verilən kreditlərin həcmi, min manat | 38586,6 (+1,49%) |
| | o cümlədən fərdi sahibkarlığın inkişafına, min manat | 27212,1 (+16,7%) |
| | yeni istehsal sahələrinin yaradılmasına və genişləndirilməsinə, min manat | 11374,5 (+13,6%) |

Qeyd etmək yerinə düşər ki, aqrar sahə subyektlərinin yaradılması, yenidən qurulması, ge-nişləndirilməsi müvafiq investisiya qoyuluşlarını və ondan səmərli istifadə edilməsini tələb edir. Cə-miyyət üzvlərinin artmaqda olan ərzaq və digər tələbatının ödənilməsi mövcud istehsal

potensialından tam və səmərəli istifadə edilməsini bir vəzifə kimi qarşıya qoyur. Bu baxımdan investisiya qoyuluşlarının rolu və əhəmiyyəti son dərəcə yüksəlmiş olur. Ölkədə makroiqtisadi göstəricilərin yüksəldilməsi ümumi daxili məhsulun strukturunda aparıcı sahələrin, xüsusilə strateji sahələrin rol və əhəmiyyətinin getdikcə artırılmasını tələb edir. Bu cəhətdən respublikada investisiya qoyuluşlarının artırılması və onun dövlət tərəfindən tənzimlənməsi, iqtisadiyyatın inkişafında lazımi nisbətlərin təmin edilməsi böyük elmi və praktiki əhəmiyyət kəsb edir.

Kənd təsərüfatında investisiya fəaliyyətini stimullaşdırmaq məqsədilə normativ-hüquqi aktları dünya standartlarına uyğun olaraq təkmilləşdirmək lazımdır. Məlum olduğu kimi, bu istiqamətdə respublika hökuməti lazımi tədbirlər həyata keçirmiş və hal-hazırda da bu istiqamətdə işlər davam etməkdədir. Belə ki, iqtisadi əlaqələrin inkişafı və tənzimlənməsi istiqamətində qiymətlərin liberallaşdırılması, daxili və xarici ticarətin stabilləşdirilməsi və investisiyaların cəlb edilməsi ölkədaxili və ölkələrarası sərbəst əmtəə mübadiləsinin həyata keçirilməsi üzrə bir sıra tədbirlər də yerinə yetirilmişdir.

Məqalədə istifadə olunmuş nəzəri düşüncələr və təcrübi kəmiyyət ifadələri deməyə imkan verir ki, investisiyaların tətbiqi:

a) konkret proqramlara əsaslanmalı;
b) sistemli xarakterə malik olmalı;
c) sahənin əsas aparıcı mexanizmlərini nəzərə almalı;
d) mütəmadi müşahidə prosesləri əsasında edilməli;
e) əsaslandırılmış olmalı və s.

Bəhs olunan bəndlər əsasında investisiya fəaliyyətinin təşkili muxtar respublikada aqrar sahənin daha sürətli təkamülünün qarantı rolunda çıxış edəcəkdir.

## ƏDƏBİYYAT


1. Bağırov M.S. Naxçıvan Muxtar Respublikasının aqrar sektoru: hasilat-reallaşdırma sistemi və marketinq prinsipləri. Naxçıvan: Əcəmi, 2016, 344s.
2. Bağırov M.S. Aqrar sahədə resurs potensialı, onun istehsal və satış sisteminin formalaşmasında rolu. Naxçıvan: Qeyrət, 2014, 130s.
3. Bağırov E.A. Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı. Bakı: Avropa, 2015, 332s.
4. Rüstəmov A.A., Qasımov D.Q. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı: Avropa, 2013, 406 s.
5. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Bakı: ADİU, 2009, 291s.
6. Vəliyev D.Ə. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı: Adiloğlu, 2008, 428s.
7. Малахова Н.Г. Финансы и кредит. Москва: Дело и сервис, 2010, 544с.
8. www.stat.gov.az
9. www.statistika.nmr.az


## ABSTRACT

**İlham Huseynov**

# The investment policy in Nakhchivan Autonomous Republic and development in the agrarian sfere

The article is about of the direct and indirect impact of investment politics to the agrarian sector in Nakhchivan Autonomous Republic. The content of the research on systematic investment

in the region to express complex ideas, their types, the application creates a mechanism to clarify the situation. Taken as a whole, and investment - at the expense of investments necessary to eliminate shortcomings in the autonomous republic, a new foundation for the introduction of advanced technologies, which meet the highest demands on infrastructure serves as an important tool to achieve higher results.

Investments in the creation and systematization of theoretical and methodological foundations in accordance with the requirements of the properties in accordance with its internal character and makes it possible to classify on the basis of need. Investment trends seen in terms of a different approach to the different situations that may arise in this financial instrument in the sense that they allow you to put forward a detailed idea of its agricultural sector, in particular the important "member" to have played a crucial role as justified.

The application of investment in the agricultural sector is accompanied by the specific aspects. When you use a different expression, investment volumes korrektəyə exposure in terms of the needs of agriculture, which has a picture of the area or direction of investment efficiency, efficiency assessment of factors related rates are affected by issues such as research articles, reviews of different aspects of the real figures by referring to it on the basis of were clarified.


## РЕЗЮМЕ

**Ильхам Гусейнов**

**Проводимая в Нахчыванской Автономной Республике инвестиционная политика и развитие аграрной отрасли**

В статье повествуется о непосредственном и косвенном влиянии на аграрный сектор проводимой в Нахчыванской Автономной Республике инвестиционной политики. Организация системного исследования позволяет выдвигать комплексные мышления о сущности инвестиций в этом регионе, разъяснять на практике их виды и механизмы применения. Вцелом, инвестиции в автономной республике являются важным средством в устранении недостатков путем капиталовложений, в организации базы для применения более усовершен-ствованных технологий, создании инфраструктуры, отвечающей более высоким требованиям и т.д.

Создание и систематизирование теоретико- методологической базы, отвечающей современным требованиям, делает возможным его группирование на основе внутренних характеристик и свойств. Характеризование инвестиций по различным направлениям подхода позволяет высказать более конкретизированные мышления об этом финансовом инструменте по возможным различным ситуациям, о его активной роли в аграрной сфере.

Применение инвестиций в целях аграрной сферы сопровождаются специфичными чертами. В статье расстотрены такие вопросы как, использование в различном временном отношении, подвержение корректированию объемов инвестиций для потребностей сельского хозяйства, изучение степени эффективности по их применению в различных внутриотраслевых направлениях и его пофакторный анализ, на основе реальных количественных показателей разъяснены различные относящиеся к теме вопросы и проблемы.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov*

**ŞƏNAY İSAYEVA**
**SAHİL MURTUZAYEV**

***UOT:336.7***

# DEVALVASİYANIN İQTİSADİ MAHİYYƏTİ VƏ ƏHƏMİYYƏTİ-AZƏRBAYCAN NÜMUNƏSİNDƏ

***Açar sözlər:*** *devalvasiya, problem, həll yolları, Azərbaycanda devalvasiya, görülən işlər, effektiv həll yolları*

***Key words:*** *devaluation, problem, solutions, the devaluation in Azerbaijan, done works, effective solitions*

***Ключевыеслова:*** *девальвация, проблема, решения, девальвация в Азербайджане, выполненные работы, эффективные решения*

Dünya iqtisadiyyatında baş verən dəyişikliklər- neft birjalarında qara qızılın kəskin enişi, güclü iqtisadiyyata sahib ölkələrin monetar siyasəti Azərbaycanda da iqtisadi sferada müəyyən işlər görməyi labüd etdi. ABŞda dolların uçot dərəcəsinin aşağı salınması və Çində yuanın devalvasiyası fonunda neft gəlirlərimizdəki kəskin enişin xarici valyuta ehtiyatlarının tükənməsinə səbəb olması Hökumətin manatı iki dəfə devalvasiya edərək onun dəyərini xarici valyutalara nisbətdə aşağı salmağa vadar etdi. Bunun nəticəsində dollara nisbətdə manat öz dəyərini ikincidevalvasiya sonrası 49% faiz itirdi. 1 dollar 1.04 manat ikən devalvasiya sonrası 1.55 manat dəyərincə bahalaşdı.




*Qrafik-1. Azərbaycan manatının 21.12.2015 tarixindəki devalvasiyadan əvvəl və sonra dollara nisbətdə məzənnəsi.( Qeyd: statistik məlumatlar Azərbaycan Mərkəzi Bankın rəsmi internet saytından götürülərək müəlliflər tərəfindən hazırlanmışdır)*

Devalvasiya proses olaraq sabit (fiksə edilmiş) məzənnə sisteminə xasdır, ani və gizli şəkildə hökumətlər tərəfindən həyata keçirilir. Hərfi mənada ``enmə``, ``düşmə`` kimi tərcümə olunsa da iqtisadi ədəbiyyatlarda yerli pulun dəyər itirməsi və ya xarici pulun məzənnəsinin yüksəlməsi kimi izah edilir. [1]

Devalvasiyadan sonra ölkəmizdə üzən məzənnə sisteminə keçid oldu və beləcə manatın kursunu bazarda olan tələb-təklif münasibətləri formalaşdırmağa başladı. Üzən məzənnə sisteminə valyuta məzənnəsində kiçik həcmli dalğalanma xasdır, yəni praktiki olaraq devalvasiya mümkün deyil. Qrafik-2 dən göründüyü kimi devalvasiya sonrası manat və dollar arasındakı məzzənə fərqi 0.10 azn civarında kiçik dalğalanma göstərməkdədir.




*Qrafik-2. Azərbaycan manatının 21.12.2015 tarixindəki devalvasiyadan sonra dollara nisbətdə dalğalanan məzənnəsi.( Qeyd: statistik məlumatlar Azərbaycan Mərkəzi Bankın rəsmi internet saytından götürələk müəlliflər tərəfindən hazırlanmışdır)*

Dünya praktikasında yalnız ölkələrin 30%-i üzən məzənnə sistemindən istifadə edir və onların təqribən yarısı isə minimal müdaxilələrlə məzənnələrə təsir edirlər. [5]

Devalvasiya bir iqtisadi-siyasi fəaliyyət olaraq ölkənin sahib olduğu xarici valyuta ehtiyatlarının sərfiyyatının azaldılması, ticarətdə idxalın azaldılması, ixracın canlandırılması, xarici investorların ölkəyə təşviqi, yerli məhsulların istehsalı və sahibkarlığın dəstəklənməsi, rəqabət qabiliyyətli məhsul istehsalının təmin edilməsini ehtiva edir. Məhz bütün bunları piroritet seçərək hökumətlər devalvasiyaya getsələrdə onlar ilkin mərhələlərdə bir sıra problemlərlə qarşılaşırlar. ``Economics``(Jack Atkinson and Alain Andersan "Economics". Pearson Education Limited-2012. 435s.) kitabında devalvasiyadan sonra iki əsas problemin-J effekti və inflyasiya baş verdiyi qeyd edilir. Belə ki, devalvasiya sonrası ölkə iqtisadiyyatında kanyuktura sarsılır və şok effekti yaranır. Yerli pulun dəyər itirməsi xarici bazarla ticari əqdlərdə daha çox valyuta sərfinə səbəb olur. Amma müəyyən zaman keçəndən sonra idxal azalmağa və ixracın əməliyyatlatı isə əhəmiyyətli miqdarda artım baş verir və iqtisadi durğunluq canlanma ilə əvəz olunur. Bütün bu prosesin ölkənin sahib olduğu valyuta ehtiyyatları fonunda yaratdığı situasiya J əyrisi effekti adlanır.[2]

Bu effektin əmələ gəlməsində bir sıra təsirlər-devalvasiya sonrası idxal və ixrac əməliyyatlarının daha öncə bağlanmış müqavilələrə əsasən aparılması, istehlakçıların dəyişmiş yeni qiymətlərə alışmasının və istehlak vərdişlərinin dəyişməsinin müəyyən vaxt tələb etməsi, devalvasiya sonrası iqtisadi əlaqələrin yeni situasiyalarda bərpasının müəyyən vaxt aparması, bəzi bazar iştirakçılarının gözləmə mövqeyi tutması xüsusi rol oynayır.




*Şəkil-1. Devalivasiya sonrası ölkə valyuta ehtiyatlarında baş verən ümumi dəyişiklik. Ilkin olaraq çökmə(A nöqtəsindən) daha sonra isə canlanma müşahidə edilir.*

Devalvasiya sonrası təbii olaraq dəyişmiş valyuta məzənnələrindən asılı olaraq əmtəə və xidmətlərin dəyərlərində qiymət artımı müşahidə olunur. Bu artımın bir dəfə və devalvasiya edilən həcmindən çox olmayaraq baş verməsi qəbul ediləndir, amma bu qiymət artımları spiralvari

formada davam edərsə artıq bu inflyasiya yaradacaq. Məhz devalvasiya sorası qiymətlərin tənzimlənməsi hökumətlərin qarşısında duran əsas məsələlərdəndir. [2]

Hökumətlər devalvasiya edərkən ticarət balansında idxalın daralması siyasəti ilə daha az valyuta sərf etməklə yanaşı, ixracı canlandıraraq daha çox xarici valyutanın ölkəyə gətirilməsinə çalışırlar. Amma bütün bunlar bir çox inkişafda olan ölkələrdə, o cümlədən, Azərbaycanda da olduğu kimi bir sıra səbəblərə-beynəlxalq iqtisadi sistemdə istehsalın zəifliyi, yəni təmərküzləşmənin olmaması, ishehsalın az olması və ya dar istehsal sahələrinin olması, idarəetmə və texnologiyalarda olan geriliyə görə lazımi effekti vermir.

**Devalvasiya sonrası sağlam iqtisadi mühitin yaradılması üçün nələr edilməlidir?**

Devalvasiya sonrası iqtisadi proses və situasiyalar hesablanması, müsbət tendensiyalı olması üçün bir sıra kompleks tədbirlər həyata keçirilməlidir. Məhz bütün bunların məntiqi davamı olaraq ölkələr devalvasiya sonrası qiymətlərin sabit qalması üçün inzibati və iqtisadi metodlardan istifadə etməlidirlər. Bu sahədə Azərbaycanda ilk aylarda ciddi işlər aparıldı, xüsusilə böyük firmaların süni qiymət artımı siyasəti sərt intizam-cəza tədbirləri ilə İqtisadiyyat Nazirliyi tərəfindən alındı. Amma bu işin davamı istənilən həcmdə gəlmədi və hətta yerli istehsal məhsulları təkrarlanan qiymət artımlarına məruz qaldı.

Devalvasiya sonrası ixracın artan tredli olması üçün ölkələr mütləq mənada ehtiyat əmtəələrə sahib olmalıdırlar. Əgər ölkədə tam məşğulluqdursa, yəni iqtisadiyyat tam həcmdə fəaliyyət göstərirsə bu halda ya xammal mənbələrinin əlyetərliliyi yaxşı səviyyədə olmalı və qısa müddətdə dövriyəsi reallaşmalı, ya da ki, ``nontrade`` məhsullar-binalar və s. ixrac edilməlidirlər (icra, satış və.s).

Həmçinin hökumətlər dövriyədə olan pulun həcmini də artımalıdırlar, çünki idxal edilən məhsulların artan qiymətlər(məzənnə fərqindən yarana) insanların daha çox pul sərf etməyə vadar etdiyindən yerli əmtəəllərin istehlakı üçün əlavə vəsaitə ehtiyac duyulacaqdır. Buna görə dövrüyyəyə əlavə vəsaitin cəlb edilməsində əsas diqqət ediləcək nüans pul aqreqatlaının həcmidir. Bu həcmdevalvasiya sonrası yaranan əlavə pul tələbindən çox olmamalıdır.

Sabit bazarlar və istehlakçi vərdişləri də diqqət ediləcək nöqtələrdəndir belə ki, əgər istehlakçılar təklif edilən əmtəənin keyfiyyətsiz olduğu inamına sahibdirlərsə qiymətlərin aşağı olması heç də həmin əmtəənin tez və çox miqdarda reallaşacağı demək deyil. Məhz buna görə ölkələr bu kimi hallarda uğurlu reklam siyasəti də işləyib hazırlamalıdırlar.

Pulun devalvasiya edildiyi faiz də gələcək inkişaf üçün çox əhəmiyyətlidir. Əgər pulun devalvasiya edilmiş faizi ölkəxarici və ölkədaxili inflyasiya faizlərinin fərqinə bərabərdisə, onda real və nominal kurslar bərabərləşdiyi üçün uzunmüddətli inkişafa imkan yaranmır. Məhz buna görə də devalvasiya bu fərqdən kəskin fərqlənən böyük həcmdə olmalıdır ki, uzun müddətli iqtisadi inkişafa nail oluna bilinsin. [3]

**Devalvasiya zamanı Ölkəmizdə mövcud vəziyyət və görülən işlər**

Azərbaycanda devalvasiyadan sonra iqtisadi konyukturada kəskin dəyişikliklər baş verdi. Əsas yeyinti məhsullarının və gündəlik tələbat mallarının idxala əsaslanması qısa müddətli olsa da ölkədə qıtlığa səbəb oldu. İlkin olaraq əhalidə təşviş yarandı və qiymət artımının gözlənilməsinə adekvat reaksiya olaraq kütləvi alışlar baş verdi. Bu da ani olaraq ölkədaxili tələbi kəskin artıraraq ehtiyatda olan ərzaq məhsullarının qısa zamanda qeyri-bərabər istehlakına səbəb oldu. Devalvasiyanın məntiqi davamı olaraq qiymət artımı baş verdi. Ölkənin xarici bazardan asılı olduğu sektorlar və əmtələr qısa müddətdə bahalaşaraq qıtlaşmağa başladı. Kütləvi informasiya vaistələrində savadsız və səhv olan informasiyaların yayılması və işbazların bu sahədə dırnaqarası uğurlu ticarəti Azərbaycan hökumətini açıq iqtisadi fəaliyyətə- inzibati və iqtisadi müdaxilələrlə atılmağa vadar elədi. [4]

Devalvasiya zamanı baş verən hadisələrin axarını nəzarətdə saxlamaq və devalvasiya siyasətinin uğurlu olması üçün bir sıra işlər görülməyə başladı. Belə ki, ölkədə fəaliyyət göstərən valyuta dəyişmə məntəqələrinin fəaliyyəti sonlandırıldı. Bu səlahiyyətin ancaq banklara verilməsi qara bazar ticarətinin qarşısının alınmasına, süpekilatif addımların önlənməsini nəzərdə tuturdu.

Qeyd etdiyimiz kimi bir çox gündəlik tələbat mallarının idxala əsaslanması və xüsusən bəzi növ əmtəələrin istehsalında idxala əsaslanan xammalın istifadə edilməsi ölkədə ciddi problemlər yaratmağa başladı. Xüsusən çörək və un məhsulunun xammalının 80% nin idxala əsalanması kəskin

və ani qiymət artımına səbəb oldu. Qiymətlərin bəzi məhsullarda və sahələrdə sabit qalması üçün adekvat addımlar atılmağa başladı və bu işin məntiqi davamı olaraq 15 yanvar 2016 cı ildə un və buğda idxalı ƏDV dən azad edildi.

Devalvasiya sonrası qiymət fərqilə yerli məhsulların dünya bazarında rəqabəti artıracaq üstünlük qazanması ölkəmiz üçün piroritet olan istehsal sahələrinin genişləndirilməsi zərürəti yaratdığından aqrar sahənin fəaliyyətinin canlandırılması üçün "Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam (11 aprel 2016-cı il) imzaladı.

Qeyri-neft ixrac potensialının artırılması, idxalın əvəzlənməsi, o cümlədən yerli sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi, mövcud iqtisadi potensialdan, əlverişli investisiya mühitindən daha səmərəli istifadəni, bu sahədə təşviqat və ictimai iştirakçılıq sistemlərinin tətbiqi məqsədi ilə "İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi" publik hüquqi şəxsi yaradıldı. Həmçinin, milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətlərinin hazırlanması və müvafiq icraatlara başlanılması, investisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və investisiya layihəsinin həyata keçiriləcəyi inzibati ərazi vahidlərinin formalaşdırılması bu işin uğurla icrası üçün atılan addımlardandır.

Devalvasiya sonrası iqtisadi sferada yaranan pul tələbinə adekvat olaraq əhalinin müxtəlif təbəqələrinin maaşlarında artım həyata keçirərək hökumət dövrüyəyə əlavə pul kütləsi daxil etdi.

Ölkəmizdə yaranan səmərəli investisiya mühitə dəstək olaraq Azərbaycan Respublikası Prezidenti "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər" haqqında Fərmanı imzaladı. (18 yanvar 2016-cı il) [6]

**Devalvasiya sonrası yaranmış iqtisadi situasiyalardan effektiv şəkildə faydalanmaq üçün nələr etmək olar?**

Devalvasiya pulun dəyər itirməsi olsa da, obrazlı desək iqtisadiyyata bir çox faydalar qazandıra bilər. Devalvasiya sonrası sağlam və rəqabət qabiliyyətli iqtisadi sistem qurmaq devalvasiya zamanı ölkə iqtisadiyyatının ümumi halından, istehsal gücü və sferalarından, ölkənin xammal təminatı, satış bazarlarına yaxınlığı və inzibati-admistrativ quruluşu, hüquqi-qanunverici bazanın effektivliyindən asılı olmaqdadır. Devalvasiya sonrası proseslərin müsbət məcrada davam etməsi üçün bir sıra əlavə tədbirlərin görülməsi fikirimizcə daha da effektiv olacaqdır. Birinci olaraq devalvasiya sonrası ucuzlaşan xidmət sahəsinin təmsilində turizmə diqqətin artırılması lazımdır. Məhz bu ilin(2016) mart ayında 3min turistin 1 həftə ərzində İrandan Azərbaycana gəlməsi devalvasiyanin uğurunun göstəricisi saymaq olar və Azərbaycanın qonşu ölkələr, xüsusən, İran və orta Asiya üçün kifayət qədər cazibədar turistik ölkə olduğunu unutmamaq lazımdır. Sadəcə, bu işin dəstəyi üçün- viza rejimi sadələşməli, təbliğat kompaniyaları aparılmalı və bu sahədə dövlət dəstəyinin artırılmalıdır. Bütün bunlar ölkəmizə daha çox turist cəlb etməkdən, Azərbaycana xarici valyuta gətirməkdən əlavə xidmət sferasını canlandıra bilər. İkinci olaraq onu əlavə edim ki, devalvasiya sonrası durğunluq bir çox sahibkar və investorları( xüsusən riskdən qaçan ) gözləməyə, yada daha risksiz sektorlara yönəlməyə vadar edə bilər. Buna görə də bəzi müəssisə və firmaların( xüsusən istehsal və kənd təsərrüfatında) dövlət xətti ilə yaradılmasını, daha sonra (1-2 il və ya daha uzun müddətə) dövlətsizləşdirmə və ya özəlləşdirmə ilə investor və sahibkarlara ötürülməsini məqsədə uyğun sayıram. Nəzərə alsaq ki, kənd təsərüffatının riskli olması və bəzi həsas nöqtələrin (məsələn suvarma sistemlərinin, bazarların tapılması və avadanlıqlarının bahalı olması) sahibkarlara maniələr yaratması, sahibkarlar üçün fəaliyyətdə olan və qazanc gətirən, qurulmuş bir firmaya sahib olmağın 0-dan başlayaraq yenidən qurulmaqda olan bir müəssədən daha cazibədar olması və bürokratik əngəllərin, bir çox rəsmi pürosedurların, süründürməçilik hallarının olması dövlət xətti ilə müəssisələrin qurulmasını daha da vacib edir. Bütün bunlarla paralel xarici investorların ölkəyə gətirilməsi üçün xüsusi proqramlar işlənib hazırlanmalıdır. Bu sahədə xüsusən xarici investorların sığortalanması və onlara dövlət güvəncəsinin verilməsi çox əhəmiyyətli nüanslardır. Xarici valyutanın dəyər qazanması, ölkədə istehsal ediləcək məhsulun qiymət rəqabətində öz mövcudluğunu saxlaya bilməsi xarici investorlar üçün ölkəni daha cazibədar hala gətirir. İnvestorların cəlb edilməsi üçün bir sıra situmullaşdırıcı tədbirlər( mənffəətin 50

faizindən vergi tutulması) edilsə də, lazımi hüquqi və iqtisadi bazanın formalaşdırılması daha həssas önəmə sahibdir. [7]

Hazırki situasiyada iqtisadi sferanın canlandırılması, yerli istehsalın təşviqi, ölkənin ərzaq təhlükəsizliyinin təmini, xarici investorlar başda olmaqla regionlarda innovativ istiqamətli investisiya layihələrinin təşkili Azərbayran üçün ən mühüm vəzifələrdən hesab edilir.

## ƏDƏBİYYAT


1. V.Zeynalov. " Maliyyə, pul tədavülü və kredit ". Bakı, 2007, Azərnəşr. 400s.
2. Jack Atkinson and Alain Anderson "Economics". Pearson Education Limited-2012. 435s.
3. HalilSeyidoğlu "Uluslararası İktisat-Teori, Politika ve uygulama". Seçkin-2015.940s
4. http://www.prezident.az
5. http://www.anspress.com
6. http://www.economy.gov.az
7. http://www.maliyye.gov.az
8. http://www.cbar.az/infoblocks


## ABSTRACT


**Shanay Isayeva**
**Sahil Murtuzayev**


### The nature and importance of devaluation-in the case of Azerbaijan


The article explains devaluation as policy weapon and represent different conditions which occur during long and short term. Also try to show all possible obstacles and key points to challenge with different situations. Additionally text explains package of measures designed by Azeri government to increase competitiveness and performance of economy.


## РЕЗЮМЕ


**Шанай Исаева**
**Сахиль Муртузаев**


### Экономическая значимость девальваци и иеговажность напримере Азербайджана


Статья разъясняет девальвацию как политическое оружие и представляет различные условия в короткоми долгосрочном периодах. Также показывает все возможные препятствияи ключевые моментыв различных ситуациях. Ктому же статья рассматривает переченьмер напримере Азербайджанского государства для увеличения конкуренто способности и эффективности экономики.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov*

**HƏVVA ADIGÖZƏLOVA**
*Naxçıvan Dövlət Universiteti*
*eva.alieva.2012@mail.ru*

***UOT :378***

# İNNOVASİYALARIN MÜƏSSİSƏLƏRİN FƏALİYYƏTİNİN TƏŞKİLİNDƏ ROLU

***Açar sözlər**: innovasiya, innovasiya fəaliyyəti, elmtutumlu sahələr, elmi-texniki tərəqqi, yeni əmək məhsulları.*

***Key words**: innovation, knowledge-intensive areas of scientific and technological progress, new labor products.*

***Ключевые слова**: инновация, инновационная деятельность, наукоемкие сферы, научно-технический прогресс, новые трудовые товары.*

XX əsrin son onilliklərindən bu günədək insan cəmiyyətində çox sürətli dəyişikliklər getmişdir. Bütün bu dəyişikliklərin əsası innovasiya ilə əlaqədardır. İnnovasiya fəaliyyəti dedikdə, bütünlükdə yeniliklərə fərdi tələbi, eləcə də cəmiyyətin tələbatını ödəmək üçün yeni və yaxşılaşdırılmış məhsulların (xidmətlərin) və onların istehsalının yeni üsullarının alınması məqsədilə elmi, elmi-texniki və intellektual potensial tədbirləri sistemi başa düşülür. İnnovasiyaya olan baxışlar müxtəlifdir. İnnovasiyaya müxtəlif təriflər verilmiş və o müxtəlif formada izah edilmişdir. Bunlardan bəzilərini qeyd edək:

T.Ə.Quliyev göstərir ki, innovasiya yenilikdir, yeni fikrin məhsuludur (2, səh.438) A.Abbasovaya görə innovasiya idarəetmə obyektinin dəyişdirilməsi və iqtisadi, sosial, ekoloji, elmi-texniki və digər növ effekin alınması məqsədilə yeniliklərin tətbiqinin son nəticəsidir (3, səh.88). M.C.Atakişiyev, Q.S.Süleymanovun fikrincə, innovasiya bazar iqtisadiyyatına uyğun elm və texnikanın nəaliyyətləri əsasında istehlakçıların tələbatını ödəmək məqsədilə yeni əmək məhsullarını təklif etmək üzrə tədbirlər olub, investisiyanın keyfiyyət tərəfini xarakterizə edir (11, səh.8).

İnnovasiya – yeni texnoloji ideyaların, təkliflərin elmi-texniki qərarların praktiki tətbiq edilməsi və həyata keçirilməsidir. İnnovasiya yeni texnologiya şəklində yeniliklərin, məhsul və xidmət növlərinin, istehsal, maliyyə, kommersiya və inzibati xarakterli təşkilati-texniki və sosial-iqtisadi qərarların mənfəətlə istifadə edilməsidir. İnnovasiya – aparılmış elmi-tədqiqatların və xidməti kəşflərin istehsala tətbiq edilən (əvvəlki analoqlardan fərqli) obyektlərdir.

Beləliklə, innovasiya müxtəlif sahələrdə yeniliklərin, yeni ideyaların, dəyişikliklərin və qaydaların yaradılması və təcrübədə istifadə edilməsi prosesidir. Y.Şumpeter bu cür dəyişikliklərin beş tipini fərqləndirirdi:

1) yeni texnika, yeni texnoloji proseslərdən və ya istehsalın yeni bazar təminatından istifadə edilməsini;

2) yeni xassələrə malik məhsulun tətbiqini;

3) yeni xammaldan istifadə edilməsini;

4) istehsalın təşkilində və onun material-texniki təminatında dəyişikliklər edilməsini;

5) yeni satış bazarının meydana çıxmasını.

O sübut etdi ki, iqtisadiyyatda mərkəzi fiqur novator-sahibkar olacaqdır. J. Sumpeterə görə, innovasiya-yeni növ istehlak mallarının, yeni istehsal və nəqliyyat vasitələrinin, bazarların və sənayedə təkilati formaların tətbiqi və istifadəsi məqsədilə bas verən dəyisikliklikdir.

Mütərəqqi yeniliklərin əksəriyyəti öz real təcəssümünü elmtutumlu və rəqabətqabiliyyətli məhsulların yaradılmasında tapır. Yeniliklərin yayılma diapazonu praktika əsasında genişlənir. Onların dəyəri insanla və onun tələbatı ilə kontaktda üzə çıxır. Dəyər münasibətləri bazar iqtisadiyyatında tənzimləmə amillərinin ayrıca bir qrupunu təşkil edir. Bu halda

elm və texnika inkişaf etdikcə əmtəələrin dəyərində fiziki əməkdən daha çox intellektual əmək sərfinə əhəmiyyət verilir.

İnnovasiya prosesi müxtəlif resursların istehsal fəaliyyətinə cəlb edilməsilə bağlıdır. Əsas resurslar yeni məhsul istehsalının geniş miqyasda mənimsənilməsi ilə əlaqədar olan tədqiqatlar və araşdırmalar aparılmasına, layihə - texnoloji və başqa işlərin yerinə yetirilməsi üçün investisiyalar və vaxt sərf olunur. Bütövlükdə innovasiya fəaliyyəti sisteminə elm, texnologiya, innovasiya və təhsil kimi tərkib hissələri daxildir. Bu komponentlərdən hər hansı birinin olmaması innovasiya fəaliyyəti sisteminin bütövlüyünün pozulmasına gətirib çıxarır.

Eyni qayda ilə, bütöv sistemin komponentlərindən birinin inkişafına lazımınca diqqət yetirilməməsi nəticəsində məhsulun rəqabətlilik qabiliyyəti aşağı düşəcəkdir, çünki bu halda məhsulun elmtutumluluğu azalır, yaxud təhsil sahəsinə lazımınca diqqət yetirilməməsi təkcə yeni məhsullar yaradan təşkilatlarda və elmi müəssisələrdə deyil, eyni zamanda iqtisadiyyatın müxtəlif sahələrində də kadr problemlərinin kəskinləşməsinə gətirib çıxarır. Bütövlükdə innovasiya fəaliyyəti sistemində yuxarıda nəzərdən keçirilən komponentlərin içərisində ən əsas ünsür insandır. Elm insanın tələbatına birbaşa və ya texnologiya, iqtisadiyyat və məişət vasitəsilə dolayı şəkildə təsir göstərir. Məqsədlərin, ideyalların və maraqların dəyişməsi ictimai istehsalda hökmranlıq edən texnoloji quruluşa adekvat olan yeni dəyərlərin inkişafına şərait yaradır. Buna görə də elmin inkişafının bir mərhələsinə xas olan dəyərlər başqa, daha mütərəqqi mərhələdə öz əhəmiyyətini itirə bilər.

Bazar iqtisadiyyatı inkişaf etmiş ölkələrdə elmi-texniki tərəqinin inkişafı innovasiya sahibkarlığı ilə bağlıdır. Ümumiyyətlə, sahibkarlığın 2 formasını fərqləndirmək olar: onlardan biri yeniliklərin tapılması və reallaşdırılmasıdır ki, buna da innovasiya sahibkarlığı deyilir. Digəri isə xalis bazar sahibkarlığıdır. Buna da marketing deyilir. Elmi-texniki nəaliyyətlərin istehsala tətbiqi innovasiyanı şərtləndirir. İnnovasiya prosesi hər şeydən əvvəl aşağıdakıların yerinə yetirilməsindən ibarətdir:

- Yeni məhsulların mənimsənilməsi, buraxılan məhsulun modernləşdirilməsi.
- Yeni istehsal vasitələrini istehsal prosesinə cəlb edilməsi.
- Yeni texnologiya və məhsulun istehsalı üsullarından istifadə edilməsi
- İstehsalın təşkili və idarə olunmasının daha mütərəqqi formaları.

İnnovasiyanın nəticələri isə aşağıdakılardan ibarətdir.

- Məhsulun çeşidi təzələnir, rəqabət qabiliyyəti yüksəlir, əhalini tələbatının ödənilməsinə kömək edir.
- İstehsalın səmərəliyi yüksəlir, məhdud resurslardan qənaətlə istifadə olunur, istehsal xərcləri azalmaqla mənfəət artır.
- Yeniliklər sosial nəticələrlə səciyyələnir.

Lakin qeyd etdiyimiz kimi, innovasiya sahibkarlığını təşkil etmək o qədər də asan deyil, bunun üçün çoxlu miqdarda maliyyə vəsaiti tələb olunur. Bu çətinliyi aradan qaldırmaq yollarından biri də lizinq müqavilələrinın bağlanmasıdır. Bu müqaviləyə uyğun olaraq, lizinq şirkəti sifariş olunan maşın, avadanlıq və s. malı istehlakçıdan alır və sifarişçiyə icarəyə verir. Müqaviləyə əsasən icarə haqqı amartizasiya ayırmaları və lizinq şirkətinin mənfəətindən ibarət olur.

Xarici iqtisadçılar isə innovasiya sahibkarlığı ilə iri müəssisələrin məşğul olmasını məqsədəuyğun sayırlar. Buna səbəb bilavasitə, yuxarıda qeyd etdiyimiz kimi innovasiyanın mənimsənilməsinin yüksək xərc tələb etməsidir. Bu xərc isə əsasən qiymətli ixtiralar və yeni sınaq nümunələrinin hazırlanması işinin çoxsaylı əmək kollektivinin səyini və çox güclü maddi texniki baza tələb etməsindən irəli gəlir. Odur ki, yalniz yüksək maliyyə vəsaitinə malik olan iri firmalar innovasiya layihələrini başa çatdıra bilərlər. İri firmaların digər üstünlüyü orada çoxməqsədli tədqiqatların hazırlanmasıdır. Həm də bu firmalarda sınaq, layihə və elmi tədqiqat işlərinin aparılması zamanı müxtəlif yanaşmalardan istifadə edilməsi də onların digər üstünlüyünü müəyyən edir.

Sənaye cəhətdən inkişaf etmiş ölkələrdə ixtiraçılıq fəaliyyətinə elmi-texniki tərəqqinin əsas amili kimi baxıldığından bu ölkələrdə ixtiranı müdafiə etmək üçün patent sistemi tətbiq edilir. Bu sistemə əsasən patent sahibinə həmin ixtiranin xüsusi mülkiyyətçisi hüququ verilir və ixtiraya intellektual əmək məhsulu kimi baxılır.

Təəsüflə qeyd etmək lazımdır ki, hal-hazırda respublikamızda innovasiya sahibkarlığından zəif istifadə edilir. Halbuki, müəssisələrin modernləşdirilməsi, müasir və mütərəqqi texnologiyanin tətbiqi, bazarda amansız rəqabətə davam gətirə bilən məhsulların istehsalı innovasiya sahibkarlığından çox asılıdır. İqtisadiyyatın, sənayenin gələcək inkişafı innovasiya sahibkarlığına əsaslanmalıdır. Çünki, iqtisadi artımın əsası kimi struktur dəyişikliklər texnoloji proseslərsiz mümkün deyil. Burada hərəkətverici qüvvə innovator, ətraf mühit və müəssisədir. Bu üç sistem bir-biri ilə qarşılıqlı əlaqədədir. Yeniliklər bazarının normal fəaliyyəti intellektual mülkiyyətdən düzgün istifadəni tələb edir. İntellektual mülkiyyət əsasən 4 növə ayrılır: Patent, ticarət markası, müəlliflik hüququ və sənaye sirləri. Bunların hərəsinin öz funksiyası var. Belə ki, patent- ixtiraçılar arasında müqavilə, ticarət markası-firmanın, müəssisənin rəmzi, müəlliflik hüququ isə orginal müəlliflik deməkdir.

İnnovasiya sahibkarlığının müvəffəqiyyətinin əsas şərtlərindən biri innovasiya fəaliyyətının qiymətləndirilməsidir. Bu asan deyil, lakin zəruridir, çünki innovasiya prosesinin stimullaşdırılması həyata keçirilməlidir. Ölkədə innovasiyanın rolunu daha dərindən dərk etmək üçün tanınmış alim P.Drukerin dediyi bir kəlamı yada salmaq kifayətdir: "Gələcəkdə dünyada varlı yaxud kasıb ölkələr anlayışı olmayacaqdır. İnnovasiyaya üstünlük verən ölkələr və ona diqqət yetirməyən "inamsız" ölkələr olacaqdır".

## ƏDƏBİYYAT


1. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment, Bakı, 2005
2. Quliyev T.Ə.«Menecmentin (idarəetmənin) əsasları», Bakı, 2001
3. Atakişiyev M., Süleymanov Q. «İnnovasiya menecmenti», Bakı, 2004
4. «İqtisadiyyat və həyat» jurnalı (9-10*2006)
5. «İqtisadiyat və həyat» jurnalı, (3-4*2004)


## ABSTRACT


**Adigezalova Havva**


**The role of innovations in the organization of the business**


The article started essence of innovation and its application in production as a result of changes in production are described. It was noted that innovation - new technological ideas, proposals and implementation of practical application of scientific and technological decisions. Innovation in the form of new technology innovations, product and service categories, manufacturing, financial, commercial and administrative, organizational, technical and socio-economic decision-profit use. Acceleration of the process of production, the introduction of innovations, earnings growth is reflected in the reduction of physical inputs. In addition, the article also examined the impact of innovation in the economy.


## РЕЗЮМЕ


**Адыгезалова Хавва**


**Роль инноваций в организации деятельности предприятий**


В статье раскрывается сущность инноваций и изменения, происходящие в результате их внедрения в производство. Также замечено, что инновация – это практическое применение и внедрение новых технологических идей и предложений. Инновация – это прибыльное использование информаций, товаров и услуг, производства, финансов и коммерции в решении социально-экономических, организационно-технических целей. Внедрение инноваций в производство выражается в ускорении производственных процессов, в повышении прибыли и в сокращении расхода физического труда. Кроме этого в статье рассматривается влияние инноваций на экономику страны в целом.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2016, № 5(79)**
NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2016, № 5 (79)**
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2016, № 5 (79)**

**HAKAN GÜNGÖRMEZ**
*hakanunv76@hotmail.com*

***UOT :330***

# TUZUN SAĞLIKTAKİ ÖNEMİ VE EKONOMİDEKİ BOYUTU

***Anahtar kelimeler**: Tuz, sağlık, Tüketim, Ekonomi*

**Giriş:** İlk çağlardan bu yana insanların hayatında önemli bir yer işgal eden tuzun kullanım alanları çeşitlilik gösterir. Başta gıdaların korunması ve tatlandırılması olmak üzere, tıptan sanayiye, hayvancılıktan tarıma kadar bir çok konuda tuza ihtiyaç duyan insan, bu maddeyi temin etmede bir hayli çaba sarf etmiştir. Günümüzde olmasa bile tuz için insanlar büyük sıkıntılara göğüs germişler ve emek vermişlerdir.

Eski çağlardan itibaren insanlar yiyeceklerini çürümelere karşı korumak ve tatlandırmak için tuza ihtiyaç duymuşlardır. Daha sonraki dönemlerde tuzun söz konusu işlevlerine ilave olarak, sanayide ve insan sağlığının korunmasında da işe yaradığı anlaşılmış ve önemi daha da artmıştır. Bu makalede de tuzun insan sağlığı üzerindeki rolü ve ekonomik etkisi anlatılmaktadır.

**Tarih boyunca tuzun önemi.**Tuz uygarlık tarihi bakımından önemi olan ve tarih öncesinden beri bilinen değerli bir (mineral) madendir. İnsan ortaya çıktıktan kısa bir süre sonra tuzu kullanmayı öğrenmiş ve önemi günden güne artmıştır. Eskiden sadece gıdaların lezzetini arttırmak ve onları saklamak için kullanılan tuz zaman içinde sanayide de yer almaya başlamış, son iki yüz yıl içinde de sağlık dahil bir çok alanda tüketilen bir madde durumuna gelmiştir. 1700' lü yıllara kadar sadece besinlerde lezzet amacıyla kullanılan tuz on dokuzuncu yüzyılda besinleri saklama, konserve yapma gibi saklama yöntemleri için kullanılmaya başlamıştır.

Günümüzde besin eklemesinden daha çok endüstriyel amaçla kullanılmaktadır.

Tarih öncesinde M.Ö 6000' lerde Çin' de, M.Ö 5000' lerde Polonya' da, M.Ö 3500' lerde İspanya' da ve aynı dönemlerde Avusturya' da tuz yataklarının ya da tuz madenlerinin varlığına işaret eden verilerden söz edilmektedir. M.Ö 2700' lerde Çin' de tuzun ilaç olarak tedavi amaçlı kullanıldığı, yine Çin' de M.Ö 800' lerde tuzun ticaretinin yapıldığı ve aynı yöntemin 1000 yıl kadar sonra Romalılar tarafından da kullanıldığına ait veriler mevcuttur. Anadolu' da tuzun kullanımına ait belgeler Hititlere aittir. Hititler ekmeği tuz, kimyon, çörekotu, kişniş ve bal ile tatlandırarak kullanmaya başlamışlardır. Boğazlayandaki kanıtlar M.Ö 1200' li yıllarda Hititlerin tuz ticareti yaptığı ve barış anlaşması metinlerinde tuz yataklarının yer aldığını göstermektedir. Ortadoğu' da Ölü Deniz yakınındaki tuz yatakları Bronz çağından beri işletildiği bilinen en eski tuz yataklarıdır. Deniz suyundan tuz elde etmeyi öğrenen Romalılar tuzu yarımadanın iç kesimlerine yollamak için ilk Roma yollarından olan tuz yollarını(via salaria) inşa etmişlerdir. Araştırmalar Avrupa' da Keltlerin tuza sahip olduğu dönemde, Amerika' da da Mayaların tuza sahip olduğunu göstermiştir.

(Türkiye Aşırı Tuz Tüketiminin Azaltılması Programı 2011- 2015;Sağlık Bakanlığı)

Tarihte tuz para yerine kullanılacak kadar değerli olmuştur. İngilizcede yer alan "maaş,ücret" anlamındaki "salary" kelimesinin Latince kökenli "salarium" dan geldiği ve bu kelimenin başlangıçta Romalı askerlere verilen tuz tahsisatını ifade ediyordu. Günümüzde hala Afrika' daki bazı toplumların tuzu para gibi işlem gören bir değişim aracı olarak kullandığı bilinmektedir.

Tuzun tarihinin irdelendiği bir çalışmada et ve balığı tuzlayarak saklayan ilk uygarlığın Mısırlılar olabileceği belirtilmiş, balığı tuzda saklamaya ilişkin en eski Çin belgelerinin M.Ö. 2000' li yıllara rastladığı ifade edilmiştir. Ayrıca çok daha eski tarihlerden kalan mısır mezarlarında da tuzlanmış balık ve kuş eti bulunduğuna da dikkat çekilmiştir. Günümüzde birçoğu sağlık alanında olmak üzere tuz, yaklaşık on dört bin ayrı ürünün imalatında kullanılmaktadır. Koruyucu görevini

şişeleme, konserveleme, vakumlama ve derin dondurma gibi daha yeni yöntemler üstlenmiştir. (Türkiye Aşırı Tuz Tüketiminin Azaltılması Programı 2011- 2015;Sağlık Bakanlığı)

**Tuz- Sodyum Nedir?**

Türk Gıda Kodeksi Tuz Tebliğine göre tuz, ana maddesi sodyum klorür olan ham tuzdan tüketime uygun nitelikte üretilen tuzlardır. Sofra tuzunun asıl adı sodyum klorürdür. Sodyum klorür diyetle alınan tuzun kimyasal adıdır. Tuzun %60'ı klor, %40'ı ise sodyumdan oluşur. Tuz besinlerde bulunabildiği gibi göllerden, denizlerden ve kayalardan saf olarak elde edilir.

İnsan vücudunun bazı fonksiyonları için sodyuma ihtiyacı varken fazla alınması yüksek kan basıncı başta olmak üzere inme, kalp hastalıkları ve böbrek hastalıklarına neden olabilmektedir. Vücutta sıvı ve kan basıncı dengesinin düzenlenmesi, kas ve sinir sisteminin düzgün çalışması için sodyum gereklidir. Bir yetişkinin sağlıklı bir biçimde yaşantısını sürdürebilmesi için günde 1500 mg sodyuma ihtiyacı vardır. Bu değer bile son dönemde bazı kaynaklarda yüksek olarak nitelendirilmektedir.(Tebliğ No 2004/44)

**Tuz ve Sodyum Gereksinmesi Ne Kadardır?**

Sodyum yetersizliği nadirdir. Genellikle besinler gereksinenden daha fazla sodyum içerirler. Yetişkinler için minimum sodyum gereksinmesi günde 500 mg'dır. Bu miktar yaklaşık ¼ tatlı kaşığı tuzdur. Maksimum tuz alımı ise günlük 6 g (2.4 g sodyum) olarak belirlenmiştir. (T.C. Sağlık Bakanlığı, Temel Sağlık Hizmetleri Genel Müdürlüğü, Türkiye'ye Özgü Beslenme Rehberi, Ankara, 2004.)

**Sodyum Kaynakları.**

Sofra tuzu, kabartma tozu ve yemek sodası sodyumun en iyi kaynaklarıdır. Tuzun 1 gramında 400 mg sodyum bulunur.

Tüketilen sodyumun büyük bir kısmı mutfak masasında yemeklere eklenen tuzdan değil, işlem görmüş besinlerden gelir. İşlenmiş besinler sodyum alımının %75' ini oluşturur.

Salamura besinler de (zeytin, turşu, peynir gibi) sodyum alımına önemli oranda katkıda bulunur. Sodyum doğal olarak işlem görmemiş besinlerde de bulunmaktadır.

(T.C. Sağlık Bakanlığı, Temel Sağlık Hizmetleri Genel Müdürlüğü)

**Besinlerin İşlenerek Saklanmasında Tuzun Rolü.**

Tuzun, besinlere lezzet verme dışında besin saklamada da önemli rolü vardır.

Şekerden sonra en önemli saklama aracı tuzdur.

• Tuz antiseptiktir. Her ne kadar bütün bakterileri yok etmese de, nem miktarını önemli ölçüde düşürerek bozulmayı yapan bakterileri denetim altında tutar.

• Tuz, suyun ozmotik çekilmesiyle kurutucu olarak etki eder. Tuzlanmış ve kurutulmuş et ve balıklarda, bakteri ve enzim etkisi durdurulur. Süt, peynir haline geldikten sonra %16'lık tuzlu salamura ile saklanır.

• Yeşil biber, yeşil fasulye, yeşil domates, salatalık, lahana, karnabahar gibi sebzeler, genellikle %15'lik tuzlu salamura içerisinde saklanır. Bu yoğunluktaki tuz çözeltisinde çok az mayalanma olur, fakat korunma sağlanır. Bu şekilde hazırlanmış yiyecek "turşu" diye tanımlanır.

• Günümüzde bir çok kürlenmiş besinde, koruyucu olarak tuz veya sodyum içeren bileşikler (sodyum nitrat gibi) kullanılmaktadır. Örneğin; sucuk ve konserve et kürlenmiş besinlerdir.

• Birçok besinde doku yapısına tuzun etkisi vardır. Örneğin; tuzlu mayalı ekmeklerde daha iyi bir yapı oluşurken, tuzsuz yapılanlar daha sert olurlar. (Catering Quide;2012)

**Aşırı Tuz/Sodyum Tüketiminin Sağlığa Etkileri**

İnsanlar, diğer tüm memelilerde olduğu gibi birkaç milyon yıldan beri günde 0.25 gramdan az tuz tüketmektedir. Yaklaşık 5000 yıl önce Çinliler tarafından gıdaların korunmasında tuzun kullanımı keşfedilmiştir. Tuzun gıdaların kış boyunca saklanmasındaki öneminin anlaşılmasından sonra ekonomik önemi de artmıştır. Tuz en önemli vergi ve ticari mal haline gelmiştir. Bununla birlikte derin dondurucuların ve buzdolabının bulunması ile artık tuzun koruyucu etkisine eskisi kadar gerek kalmamıştır. Bu nedenle bu süreçte tuz tüketimi azalmış gibi gözükse de yüksek tuz içerikli işlenmiş gıdaların tüketimindeki artış ile beraber tuz tüketimi yeniden artmıştır.

İnsanlar genetik olarak günde 0.25 gramdan daha az tuz almaya programlanmıştır. Bu nedenle son yıllarda yüksek tuz alımı ile böbrekler yoluyla fizyolojik sistemlerde problemler oluşmaktadır.

Yüksek tuz tüketiminin artmasının önemi; kan basıncını yükseltmesi dolayısı ile de kardiyovasküler hastalıklar verenal hastalıkların riskini arttırmasından gelmektedir. Bundan başka yüksek tuz alımının; inme, solventriküler hipertrofi, renal hastalıklarda ilerleme ve proteinüri oluşumunda direk etkileri vardır.

Tüm dünya genelinde bir milyon hipertansiyon hastası bulunduğu ve bu hastaların %17-30' unun aşırı sodyum tükettiği belirlenmiştir. Son yıllarda yapılan analizler tüm dünya genelinde 2006-2015 2.5 Aşırı Tuz/Sodyum Tüketiminin Sağlığa Etkileri kadar 8.5 milyon ölümün sadece diyetteki sodyumun azaltılması ile önlenebileceğini göstermiştir.

(Türkiye'ye Özgü Beslenme Rehberi, Ankara, 2004)

Dünya Sağlık Örgütü (WHO)' nun 2010 yılında yayınladığı raporda aşırı tuz tüketiminin sağlığa etkileri birkaç maddede aşağıdaki gibi özetlenmiştir.

• Tuzla hipertansiyon arasında doza bağlı dolaysız bir ilişki mevcuttur.

• Diyetteki tuzun azaltılması sağlık için faydalıdır.

• Tuz alımının azaltılması uzun dönem kardiyovasküler hastalık ve inme riskini azaltır.

• Diyetle alınan tuzun 10 gramdan 5 grama düşürülmesi ile inme riskinin %23 ve kardiyovasküler hastalıkların riskini %17 azaltabilir.

• Kan basınıcı yükseldiğinde inme riski, sistolik kan basıncının normal olarak belirtildiği 120-140mmHg değerinde olduğundan üç kat daha fazla riske sahiptir.

• Orta ve ileri yaş yetişkinlerde inme ve iskemik kalp hastalıklarından ölüm arasında bir ilişki mevcuttur. Kan basıncının 20 mmHg' ye çıkması inme ve iskemik kalp hastalıklarından ölümleri iki kat arttırır.

• Sistolik kan basınıcının 10mmHg' ye düşürülmesi ile koroner kalp hastalıklarında %22 ve inmelerde %41 lik bir düşüş olur. Bu her yıl 2.5 milyon önlenebilir ölüm anlamına gelmektedir.

• Toplumda tuz tüketiminin azaltılması maliyet etkin sonuçlara sahip halk sağlığı uygulamalarının başında gelir.

• Tuz tüketiminin günde 6 grama düşürülmesi her yıl yaklaşık 2.5 milyon önlenebilir ölüm anlamına gelmekte, gıda endüstrisinin gönüllü olarak yaptığı işlenmiş gıdalardaki tuzun azaltılması çalışması sağlık harcamalarında milyonlarca doların korunması anlamına gelmektedir.

İnsanların fizyolojik tuz gereksinimleri, yaşlarına, ağırlıklarına, erkek ve kadın olduklarına, sarf ettikleri güç ve bulundukları çevreye, gıda rejimlerine göre değişik miktarlardadır, örneğin, daha fazla et ve balık yiyen insanların tuz gereksinimi az, unlu, nişastalı maddeler yiyenlerin daha fazladır.

**Türkiye'de tuzun ekonomiye katkilari**

**Tuzun üretimi**

Tuz sektöründe yaklaşık 600 üretim tesisinin olduğu tahmin edilmekle birlikte, sektörde kayıt altına girmiş ve KOBİ niteliği taşıyan 85 firma faaliyet göstermektedir.

• Söz konusu bu tesislere ait toplam kapasitelerin 1.226.082 ton (2000 yılı) ve ülkemiz toplam kapasitesinin de yaklaşık olarak 2.000.000 ton olduğu değerlendirildiğinde sektörde kapasite açısından % 39 oranında bir kayıt dışılık olduğu görülmektedir.

• Değişik bir açıdan sorunu değerlendirdiğimizde sektördeki tesislerin yaklaşık % 15'inin kayıt altında olduğu geriye kalan % 85'inin ise kayıt dışı üretimde bulundukları görülmektedir.

• Tuz üretiminde iki yöntem kullanılmaktadır.

• Termik rafinasyon yöntemi

• Mekanik yıkama yöntemi

• Ülkemizde yıllık:

• 300.000 ton rafine tuz üretimi

• 700.000 ton mekanik yıkama yöntemi

• Geri kalan 3.000.000 ton tuz ham tuz olarak üretim ve tüketimi yapıldığı tahmin edilmektedir. (Çankırı Tuz Çalıştayı Raporu 2012)

**Türkiye'de Tuz Üretim Miktarları(ton)**

| Yillar | Kaya tuzu | Göl tuzu | Deniz tuzu | Kaynak tuzu | Toplam |
|---|---|---|---|---|---|

| | | | | | |
|---|---|---|---|---|---|
| 1960 | 31.254 | 98.599 | 273.436 | 42.057 | 445.346 |
| 1970 | 38.007 | 200.915 | 359.064 | 50.792 | 648.778 |
| 1980 | 63.347 | 604.760 | 460.477 | 40.747 | 1.169.331 |
| 1990 | 76.340 | 1.268.696 | 504.160 | 39.766 | 1.888.962 |
| 2000 | 84.080 | 1.433.901 | 532.489 | 16.107 | 2.066.577 |
| 2005 | - | - | - | - | 3.000.000 |
| 2010 | - | - | - | - | 4.000.000 |

**Kaynak:** Sanayi ve Ticaret Bakanlığı Tuz Sanayi Sektör Araştırması -2005 ve SI raporu

**Üretim:** Ülkemizde Tekel Genel Müdürlüğü 600.000 ton/ yıl ham tuz üretim kapasitesiyle bu konuda ülke İhtiyacını karşılamakta, ayrıca çok ilkel metodlaria yurdun çeşitli bölgelerinde mahalli ihtiyaçları karşılamak amacıyla tuz madenciliği yapmaktadır. Tekel Genel Müdürlüğüne bağlı olarak 1 deniz, 2 göl, 6 kaya ve 49 memba tuzlacaları faaliyettedir.

**a)** deniz tuzu üretimi: Çamaltı tuzlalarından yaklaşık 300.000 ton/yıl kapasiteli deniz tuzu ihtihsal edilmektedir

**b)** göl tuzu üretimi: Tuz gölü kıyısındaki Yavşan ve Kaldırım tuzlarından, yılda yaklaşık 200.000 ton tuz üretilmektedir. Kullanılan üretim metodunun eski oluşu nedeniyle, düşük kaliteli tuz üretilmektedir.

**c)** kaya tuzu üretimi: Kaya tuzu üretimi Kırşehir, Çankırı ve Kağızman bölgesindeki toplam 6 kaya tuzu yatağından, yeraltı işletmeciliğine göre yapılmaktadır. Kapasitelerin düşüklüğü nedeniyle üretim maliyeti yüksektir(Madencilik Dergisi Cilt: XIII Sayı: I)

Tüketim: Yurt içi tuz tüketimine ait gerçek rakamları bulmak mümkün olmamıştır. Bununla birlikte 1970 yılı tahmini tuz tüketimi; üretimden 300.000 ton fazladır. Ancak bunun Tekel dışındaki kaynaklardan karşılandığı tahmin edilmiştir. DPT Tuz Sanayii Alt Komisyonu Raporuna göre 1970-80 yıllarına ait tahmini tüketim miktarları aşağıda verilmektedir.

| | 1970 | 1975 | 1980 |
|---|---|---|---|
| İnsan Gıdası | 350.000 | 397.000 | 451.000 |
| Gıda Sanayii | 49.000 | 61.000 | 80.000 |
| Deri Endüstrisi | 50.000 | 382.000 | 443.000 |
| Hayvancılık | 330.000 | 71.000 | 102.000 |
| Su Tasfiyesi | 90.000 | 115.000 | 147.000 |
| Klor Alkali | 8.000 | 13.000 | 21.000 |
| Soda | _ | 240.000 | 360.000 |
| Diğerleri | 96.000 | 266.000 | 276.000 |
| Toplam | 973.000 | 1.542.000 | 1.880.000 |

- Havza çevresinde en verimli iş, hayvancılık. Havza etrafında yapılan hayvancılıktan yılda 182 milyon dolar gelir elde ediliyor.
- Havzada 290 bin hektar az bulunan doğal bozkır alanı var. 52 bin hektar alanda sulu tarım yapılıyor ve 130 milyon dolar gelir elde ediliyor. Kuru tarım geliri ise 25 milyon dolar.
- Tuz Gölü□nün kirli su deposu olarak kullanılması bile, yılda 55 milyon dolar kazandırıyor.
- Tuz üretiminden yılda 15 milyon dolar, sodyum sülfat elde edilmesinden ise 2 milyon dolar gelir sağlanıyor.
- Mantar, doğal bitkiler ve bal üretiminden 1,5 milyon dolar, Şereflikoçhisar (ayrıca Şereflikoçhisar□da tuzlu çamurdan yapılan çömlekler 36 bin dolar) ve Eşmekaya□da kesilen sazlıklar da 6 bin dolar gelir sağlıyor. Bunlar küçük gelirler de olsa bölge insanı için hayati kaynaklar oluşturuyor.

**Türkiye'de tuz/sodyum tüketimi durumu ve aşiri tuz tüketiminin azaltılması ile ilgili çalışmalar**

Ülkemizde ilk on ölüm nedeni içerisinde iskemik kalp hastalıkları 1.sırada, hipertansif kalp hastalıkları 6.sırada, inflamatuar kalp hastalıkları ise 10. sıradadır. Temel hastalık gruplarına göre ölüm nedenleri sıralamasında ilk iki sırada kronik hastalıklar yer almakta ve kardiyovasküer hastalıklar %48 ile ilk sırada yer almaktadır.

Türk Hipertansiyon ve Böbrek Hastalıkları Derneği tarafından 2008 yılında yapılan SALTurk çalışmasında (Türk Toplumunda Tuz Tüketimi ve Kan Basıncı Çalışması), Türkiye'de günlük tuz alımının diğer ülkelere göre daha fazla olduğu belirlenmiştir. Türk toplumunda hem günlük ortalama tuz tüketimi hem de Türk toplumunun kan basıncı değerleri diğer ülkelere kıyasla daha yüksektir. Sağlıklı yetişkinler için önerilen ortalama günlük tuz miktarı yaklaşık 5 gram iken Türkiye'deki günlük tuz alımı ortalaması kişi başı yaklaşık 18 gramdır. SALTurk çalışmasında vücut ağırlığı parametreleri sınıflandırılara yapılan analizlerde, alınan tuz miktarının artış oranına paralel olarak kan basıncı değerleri de artmaktadır. Vücudu daha az tuz tutabilecek bireylerde (Kreatinin/ağırlık oranı 10-40 arası) yaklaşık her 6 g sodyum (100m Eq/gün sodyum) alımında sistolik kan basıncı (SKB) 3,5 mmHg ve diyastolik kan basıncı (DKB) 2,5 mmHg artmaktadır. Daha çok tuz tutabilecek bireylerde ise (kreatinin/ağırlık oranı 15-25 arası) yaklaşık her 6 gr sodyum alımında ise SKB 8,2 mmHg ve DKB 4,9 mmHg artmaktadır. Hipertansiyonun kontrol altına alındığında, inme ve kalp yetersizliği görülme oranı yarıya inerken, kalp krizi riskini üçte bir oranında azalmaktadır. Ancak, hipertansiyonu olan on hastanın yedisinde hedef kan basıncı (tansiyon) değerleri olan 140/90 mmHg' dan düşük değerlere ulaşılamamaktadır (diyabet ve böbrek hastalarında hedef değer: <130/80 mmHg'dır).Hedef kan basıncı değerlerine ulaşmak için, tuz alımını azaltmak gibi önemli yaşam tarzı değişikliklerinin yanında iki veya daha fazla ilaca ihtiyaç duyulmaktadır. Kronik Böbrek Hastalığı, tüm dünyada olduğu gibi ülkemizde de hızla artan bir sağlık sorunudur ve böbrek kaybı ile kardiyovasküler komplikasyonlar bu duruma eşlik etmektedir. Türkiyede Kronik Böbrek Hastalığı durumunu belirlemek amacıyla gerçekleştirilen ve 2011de yayınlanan toplum bazlı CREDIT çalışmasında; Kronik Böbrek Hastalığı prevalansının %15.7 , hipertansiyon prevalansının %32.7 olduğu saptanmış ve kardiyovasküler risk faktörlerinin Kronik Böbrek Hastalığı olanlarda anlamlı bir şekilde daha yüksek olduğu belirlenmiştir.

Yine "Türkiye Sağlıklı Beslenme ve Hayat Programı 2010-2014" çerçevesinde "B.Obezitenin Önlenmesine Yönelik Çalışmalar B.4 Obezitenin Önlenmesinde Gıda Sanayi ile İşbirliğinin Sağlanması" bölümünde obezitenin önlenmesine yönelik tuz oranı azaltılmış gıdaların üretiminin arttırılması konusunda aktiviteler bulunmaktadır.

Ayrıca ülkemiz WHO ve AB gibi uluslararası sağlık otoritelerinin konuyla ilgili çalışmalarında yer almış ve ilgili Dünya Sağlık Asamblesi kararlarını kabul etmiştir. Ancak ülkemiz için önemli bir sorunu olan ve bir çok kronik hastalığın temelini oluşturan aşırı tuz tüketiminin azaltılması stratejilerinin, konunun önemi ve kapsamının geniş olması gereği ve WHO, AB üyesi olan ülkeler ile diğer ülke deneyimlerinde olduğu bir eylem planı çerçevesinde ele alınması gerektiği düşünülmüş ve eylem planı dört temel başlık altında yürütülecek eylem planı oluşturulmuştur.

"Türkiye Aşırı Tuz Tüketiminin Azaltılması Eylem Planı" 4 bölümden oluşan ve 2011-2015 tarihleri arasında uygulanacak olan söz konusu eylem planının amaç, hedef ve stratejileri aşağıda yer almaktadır.

**Türkiye aşiri tuz tüketiminin azaltılması eylem planı amaç, hedef, strateji ve aktiviteler**

**Mevcut durum ve hedefler**

**Amaç:**Toplumda tuz tüketiminin azaltılmasına yönelik önleyici faaliyetlerin yürütülmesine temel oluşturacak verilerin sağlanması ve ulusal hedeflerin belirlenmesi

**Hedef:** 2012 yılına kadar bilimsel yöntemlerle toplumda tuz tüketimi ve aşırı tuz tüketimine neden olan majör faktörler saptanacak buna göre kısa ve uzun vadede tuz tüketiminin azaltılmasına yönelik hedefler belirlenecektir.

**Stratejiler:**

1. Tuz tüketimi ulusal danışma kurulu ve tuz tüketimi yürütme kurulunun kurulması
2. Günlük tüketilen ortalama tuz miktarının saptanması
3. Toplu beslenme sistemlerinde tuz tüketiminin saptanması
4. Aşırı tuz tüketiminin sağlık etkilerinin belirlenmesi

5. Ulusal tuz azaltma hedeflerin belirlenmesi

**Aktiviteler:**

1) Sağlık Bakanlığı koordinesinde; ilgili kamu kuruluşları, üniversiteler, gıda ve ilgili sektör temsilcileri tarafından ulusal kurullar oluşturulacak ve çalışma usul ve esasları Makamın Onayı ile belirlenecektir

2) Ülke genelini yansıtacak besin tüketimi ve idrar sodyum düzeylerini de içeren ulusal bir araştırma planlanıp yürütülecektir

3) Toplu beslenme sistemlerinde aşırı tuz tüketimine yönelik mevcut durumun saptanmasını sağlayacak bir araştırma planlanıp yürütülecektir

4) Aşırı tuz tüketiminin ulusal hastalık yükü, sağlık harcamaları, DALY vb gibi göstergelere ne oranda katkı sağladığını otaya koymak için Sağlık Bakanlığı' nın yürüttüğü hastalık yükü çalışmalarında tuz tüketiminin yer alması sağlanacaktır

5) Mevcut tuz tüketimi göz önünde bulundurularak ulusal düzeyde yaş, cinsiyet ve risk gruplarına göre

a) Tüketilmesi önerilen tuz miktarları b) Tuz azaltma oranları belirlenecektir

6) Kısa ve uzun dönemde ekmekte yapılacak tuz azaltma oranları belirlenecektir

7) Farklı gıda kategorilerine göre işlenmiş ürünlerde kısa ve uzun dönemde yapılacak tuz azaltma oranları (alt ve üst sınırlar) belirlenecektir

8) Restoran, fast-food, lokanta vb. yerlerdeki menüler incelenerek tuz miktarlarında azaltılacakoranlar belirlenecektir

9) Belirlenen ulusal hedefler doğrultusunda Ulusal Tuz Kullanım Rehberi oluşturulacaktır

**Müdahale alanlari**

**Amaç:** Aşırı tuz tüketimine neden olan faktörlerin kontrol altına alınmasına yönelik faaliyetlerin belirlenmesi

**Hedef:**

Tuz Tüketimi Ulusal Kurulu tarafından belirlenen alanlardaki tuzun azaltılmasına yönelik hedeflere ulaşmak

**Stratejiler**

1.Ekmekte tuzun azaltılması

2.İşlenmiş ürünlerde tuz içeriğinin azaltılması

3.Toplu beslenme yapılan yerlerde tuzun azaltılması

4.Yasal Düzenlemeler

5.Programın İl Düzeyinde Uygulanması

**Aktiviteler**

1) Öncelikle Fırıncılar Federasyonu ve yerel yönetimler olmak üzere tüm ekmek üreten işletmelerde tuz oranı Ulusal Kurul tarafından belirlenen sürede ve oranlarda kademeli olarak azaltılacaktır

2) İşlenmiş gıdalarda tuz oranının azaltılmasından dolayı ihtiyaç duyulabilecek alternatif üretim metodları (reformulasyon çalışmaları) geliştirilecek, üreticiye sunulacak ve kullanımları desteklenecektir

3) Ürünlerinde sodyum/tuzu azaltan başarılı gıda firmaları basın yoluyla duyurulacaktır

4) Çok uluslu firmaların ürünlerindeki tuz içeriklerinin diğer ülkelerle aynı/daha düşük seviyelere çekilmesine yönelik girişimlerde bulunulacaktır

5) Masalardan tuzlukların kaldırılması, küçük paketlerde iyotlu tuzların bulundurulması sağlanacaktır

6) Menülerde yiyeceklerin enerji değerlerinin yanında tuz içeriklerinin de yer alması önerilecektir

7) Ekmek başta olmak üzere tuz içeriği yüksek olan gıdaların tuz/sodyum miktarlarının Gıda Kodeksi Tebliğlerinde kademeli olarak azaltılması yönünde girişimlerde bulunulacaktır

8) Türk Gıda Kodeksi Etiketleme Tebliğinde gıda ürünlerinde tuz ve sodyum oranlarının yazılması ve yüksek, orta ve düşük tuz/sodyum içeriğinin ifade veya logoyla belirtilmesi sağlanacaktır

9) Programın İl Sağlık Müdürlüklerince çalışma planları oluşturulup illerde yürütülmesi sağlanacaktır.

**Farkındalık**

**Amaç:** Ulusal düzeyde aşırı tuz uz tüketiminin azaltılmasını sağlayacak eğitim ve farkındalık çalışmalarının yürütülmesi

**Hedef:** 2015 yılına kadar toplumu tuzun zararları ve azaltılmasına yönelik yöntemlerle ilgili konularda bilgilendirmek.

**Stratejiler**

1. Ulusal nitelikli sempozyumların düzenlenmesi
2. Sağlık kuruluşlarında halka yönelik eğitim çalışmalarının yapılması
3.Özel gruplara yönelik eğitim çalışmaları
4.Tüketicilerin bilgilendirilmesi
5.Gıda ve toplu beslenme sektörünün bilgilendirilmesi
6.Eğitim materyallerinin etkin kullanımı
7.Web sayfalarının düzenlenmesi

**Medya çalışmaları**

**Aktiviteler**

1) Aşırı tuz tüketimi ile ilgili uluslararası katılımlı sempozyum düzenlenecektir

2) Sağlık kuruluşlarına başvuran tüm poliklinik hastalarına tuzun azaltılmasına yönelik bilgilendirmeler yapılacaktır (Adison hastalığı ve özel durumu olanlar hariç)

3) Aile hekimliği ve toplum sağlığı merkezlerinde yürütülen uygulamalarda tuz tüketiminin azaltılması konularına yer verilecektir

4) Okul, kreş ve bakımevi, işyerleri,spor merkezleri, yaşlı bakım evleri ve yaygın eğitim kurslarında tuz tüketiminin azaltılmasına yönelik bilgilendirme eğitimleri yapılacaktır

5) Türk Silahlı Kuvvetleri, Emniyet Teşkilatı, MEB ve bunlara bağlı birimlerde tuz tüketiminin azaltılmasına yönelik bilgilendirme eğitimleri yapılacaktır

6) Tuzun azaltılması konusunda kalp, hipertansiyon, böbrek yetmezliği olan vb. özel hasta gruplarının ihtiyaçlarına yönelik eğitim materyalleri hazırlanacak ve farkındalık çalışmaları yürütülecektir

7 ) Gıda etiketlerinin okunması konusunda eğitim çalışmaları yapılacaktır

8) Tuzun azaltılmasına yönelik mesajların cep telefonu ve faturalarda yer alması sağlanacak ve ekartlar hazırlanacaktır

9) Tuz tüketiminin azaltılmasına yönelik bilgilendirmeler için Diyanet İşleri Başkanlığı ile işbirliği yapılacak din görevlilerinden yararlanılacaktır

10) Büyük marketler ve alışveriş merkezlerinde program tanıtılacak ve mesajların iletilmesi sağlanacaktır. İl düzeyinde özel market aktiviteleri düzenlenecektir

11) İl düzeyinde geleneksel tuz uygulamalarının yoğun olduğu bölgelerde özel eğitim programları yürütülecektir

12) Yerel yönetimlerin yürüttüğü sağlık ve eğitim programlarında tuz tüketiminin azaltılmasına yönelik uygulamaların yapılması sağlanacaktır

13) Merkez ve il teşkilatı ile ilgili kuruluşlarda 17 Mayıs Dünya Hipertansiyon Günü, 11 Mart Dünya Böbrek Günü, 1-7 Şubat Tuz Haftası, Kalp Sağlığı Haftası gibi özel günlerin çeşitli etkinliklerle kutlanması sağlanacaktır.

14) Hastane bekleme salonları, metro, havayolları, otobüs ve trenlerde vb yerlerde hazırlanan film ve spotların gösterimi sağlanacaktır

15) Beslenmemizde tuzu azaltma zamanı, ne kadar tuza ihtiyacımız var, damak tadını değiştirmek için 6 hafta vb ilgi çekici konularda ulusal medya kampanyaları düzenlenecektir

16) Bebek, çocuk, risk grupları dahil olmak üzere günlük diyette aşırı tuzun azaltılması için halka yönelik ülkemize özgü öneriler ve mesajlar hazırlanarak duyurulması sağlanacaktır

17) Gıda sektörünün temsilcileri ulusal program hakkında bilgilendirilecek, planlanan ve yürütülen çalışmalar paylaşılacaktır

18) İl düzeyinde toplu beslenme sistemindeki yöneticiler ve çalışan personel için tuzun

azaltmasına yönelik eğitim modülleri ve/veya eğitim/uygulama rehberleri hazırlanacak ve bilgilendirme eğitimleri yapılacaktır.

19) Toplu beslenme hizmetinden yararlananların bilgilendirilmesi, tuzun azaltılmasına yönelik afiş ve broşürlerin bulundurulması sağlanacak, broşürlerin yemek öncesi tüketiciye verilmesi sağlanacaktır

20) Sağlık personelinin eğitimine yönelik eğitim materyalleri hazırlanacaktır

21) Çocuk, adölesan, yetişkin ve yaşlıları hedef alan eğitici film, spot , animasyon broşür, kitap, afiş vb hazırlanacaktır

22) Pratik tuz azaltma önerilerini ve tuzun zararlarını içeren interaktif web sayfası hazırlanacaktır

23) Medya mensuplarının, ajansların ve ilgili derneklerin katılacağı bilgilendirme toplantıları yapılacaktır

24) İl Sağlık Müdürlükleri tarafından yerel medyada konunun ele alınması ve gündemde kalması sağlanacaktır

25) Yazılı basın, gazete ve dergilerde tuzun azaltılmasına yönelik haberlerin düzenli olarak yer alması için girişimlerde bulunulacaktır

26) Sık seyredilen, beğeni kazanılan radyo ve televizyon programlarında konunun sıklıla yer alması için girişimlerde bulunulacaktır

**İzleme ve degerlendirme**

**Amaç:** Aşırı Tuz Tüketiminin Azaltılması Programında yer alan faaliyetlere yönelik izleme ve değerlendirme sisteminin kurulması

**Hedef:** 2015 yılına kadar Aşırı Tuz Tüketiminin Azaltılması Programı'nda belirlenmiş olan hedeflere ulaşılabilirliği değerlendirmek

**Stratejiler**

1.İzleme ve değerlendirme kurulunun oluşturulması ve çalışma sisteminin kurulması

2.Programın izleme ve değerlendirme kriterleri

3.İlgili kurum ve kuruluşların çalışmalarının değerlendirilmesi

**Aktiviteler**

1) İzleme ve değerlendirme için ilgili kurum ve kuruluşlardan oluşan İzleme ve Değerlendirme Kurulu oluşturulacaktır. Çalışma usul ve esasları Makam Onayı ile belirlenecektir

2) 2016 yılında tüm programın değerlendirilmesine yönelik bir sonuç raporu hazırlanacak, Tuz Tüketimi Ulusal Danışma Kurulu değerlendirdikten sonra yayımlanarak duyurulacaktır

3) Ulusal düzeyde sağlıklı verilerin toplanabilmesi için standartlar (ölçütler) belirlenecektir

4) Tuz içeriği yüksek olarak belirlenmiş olan besinlerin yıllık satış oranları değerlendirilecektir

5) Ulusal yıllık tuz satış raporları incelenerek değerlendirilecektir

6) Sağlık Bakanlığı merkez ve taşra teşkilatında aşırı tuz tüketiminin azaltılması konusunda verilen eğitim/kişi/kurum sayısı yıllık olarak değerlendirilecektir

7) Medyada aşırı tuz tüketiminin azaltılması konusunda yer alan haberlerin niteliği izlenecektir

8) Toplu beslenme yapılan restoran, lokanta, fast-food ve beslenme hizmeti sunulan kurum ve kuruluşlarda aşırı tuz tüketiminin azaltılmasına yönelik yürütülen çalışmalar değerlendirilecektir

9) Yapılan çalışmalar ve sonuç raporu WHO, WASH, ESAN gibi organizasyonlarla paylaşılacak ve uluslar arası platformda duyurulması sağlanacaktır

**Tuz tüketimini azaltmanin yollari**

• Daima taze ve tuz eklenmemiş besinleri tercih ediniz.

• Eğer hipertansiyon gibi sağlık probleminiz varsa, mutlaka satın aldığınız hazır ürünlerin etiketlerini okuyunuz. "Tuzsuz" ya da "tuzu azaltılmış" besinleri tercih ediniz.

• Sofrada tuzluk kullanmamakla tuz alımı % 15 azaltılabilir.

Yemeklerin tadına bakmadan tuz kullanma alışkanlığından vazgeçiniz.

• Baharat ve maydanoz, nane, kekik, dereotu, rezene, fesleğen gibi aroma sağlayıcıları tuz

yerine tercih ediniz.

• Turşu, ketçap, hardal, zeytin, soya sosu, salata sosları vb. yiyeceklerin tuz içeriği yüksektir. Bu besinlerden uzak durunuz ya da çok nadir tüketiniz.

• Taze sebze ve meyve tüketimini arttırınız.

• Maden suları kaynağına göre farklı miktarlarda çözünmüş halde yapısında; sodyum, kalsiyum, magnezyum, demir ve alüminyum olmak üzere çok sayıda mineral ve doğal gaz içermektedir. Bu nedenle satın aldığınız maden sularının sodyum içeriğini etiketinden kontrol ediniz.

**Sonuç**

İlk çağlardan bu yana insan hayatında önemli bir yer alan tuzun insanın sağlığı üzerindeki olumsuz etkileri makalenin içeriğinde de belirtildiği gibi aşikardır. Dünya ülkeleri arasında en fazla tuz tüketimine sahip ülke olarak bizlerin bu konu üzerinde daha detaylı araştırmalar yapıp raporlar çıkartarak böyle önemli bir konu üzerinde insanları bilinçlendirme yolunda önemli adımlar atmalıyız.

Tuzun ekonomik açıdan getirisini arttırmak içinse, mevcut tuz yataklarına sahip olan alanların çevresinin şehir atıklarından ıslah edilip, çıkarılacak tuz madenini en az kayıpla kullanabilmeliyiz. Dolayısıyla çıkarılacak olan tuz madeninin ülkemiz ihtiyacını karşıladıktan sonra ihraç potansiyelini geliştirerek, ekonomik kapasiteye katkı sağlayacağı düşünülmektedir.

## KAYNAKÇA


- T.C. Sağlık Bakanlığı, Temel Sağlık Hizmetleri Genel Müdürlüğü,
- Türkiye'ye Özgü Beslenme Rehberi, Ankara, 2004.
- Tuz Tüketimi ve Sağlık. T.C Sağlık Bakanlığı Temel Sağlık hizmetleri Genel Müdürlüğü,
- Beslenme ve Fiziksel Aktiviteler Daire Başkanlığı Yayını, Ankara, 2008.
- Türkiye' ye Özgü Beslenme Rehberi. H.Ü Sağlık Bilimleri Fakültesi Beslenme ve Diyetetik Bölümü- T.C Sağlık Bakanlığı Temel Sağlık Hizmetleri Genel Müdürlüğü, Ankara, 2004.
- T.C. Sağlık Bakanlığı Temel Sağlık Hizmetleri Genel Müdürlüğü Beslenme ve Fiziksel Aktiviteler Daire Başkanlığı Türkiye Aşırı Tuz Tüketiminin Azaltılması Programı 2011-2015 Ankara Kasım 2011
- "Tuz Sodyum Klorür", TekelGenel Müdürlüğü Yayın No: 165 EAG/DKY 47, İstanbul
- Catering Quide Temmuz 2012 Sayı 31
- Çankırı Tuz Çalıştayı Raporu 2012
- Sanayi ve Ticaret Bakanlığı Tuz Sanayi Sektör Araştırması -2005 ve SI raporu
- Madencilik Dergisi Cilt: XIII Sayı: I
- http://www.msxlabs.org/forum/soru-cevap/242977-tuz-golunun-turkiye-ekonomisine-katkisi-nedir.html


## ABSTRACT


Live life, which has an important place of salt, are located in all areas of our lives. Livestock on our tables, from agriculture to industry has established itself in many areas. Salt to our research of the positive and negative effects on human health by logging, production and consumption of the precious metal in our country will explore the dimensions. Based on this information production and consumption of salt in the importance of health and economic benefits that have been taken to Turkey will try to provide information about.



NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov*

**ŞƏFA BAĞIROVA**
*Lənkəran Dövlət Universiteti*
*shefa.baqirova@mail.ru*

***UOT:332***

# AZƏRBAYCANDA İNVESTİSİYA QOYULUŞLARININ ÜMUMİ TƏHLİLİ

***Açar sözlər:*** *iqtisadiyyat , kapital,investisiya, sektor*
***Keywords:*** *economy, capital, investment, sector*
***Ключевые слова:*** *економика, капитал, инвестиции, сектор*

Son dövrlərdə aparılan investisiya siyasəti Azərbaycan iqtisadiyyatının əsaslı şəkildə inkişafına, onun sturukturunun təkmilləşməsinə şərait yaratmışdır. Əsas kapitala yönəldilmiş investisiyanın obyekt quruluşuna baxdıqda (cədvəl 1) görmək olar ki, sərmayələrin əsas hissəsi tikinti–quraşdırma işlərinə yönəldilir.

**Əsas kapitala yönəldilmiş investisiyanın quruluşu (ümumi yekuna görə, faizlə)**

**Cədvəl 1.**

| | Cəmi investisiyalar | o cümlədən: | | |
|---|---|---|---|---|
| | | tikinti-quraşdırma işləri | maşın, avadanlıq, alət və inventarlar | sair işlər |
| **2004** | 100,0 | 50,5 | 23,9 | 25,6 |
| **2005** | 100,0 | 53,9 | 23,4 | 22,7 |
| **2006** | 100,0 | 50,7 | 30,0 | 19,3 |
| **2007** | 100,0 | 51,6 | 27,1 | 21,3 |
| **2008** | 100,0 | 59,5 | 27,5 | 13,0 |
| **2009** | 100,0 | 67,1 | 19,1 | 13,8 |
| **2010** | 100,0 | 66,3 | 26,1 | 7,6 |
| **2011** | 100,0 | 61,2 | 18,6 | 20,2 |
| **2012** | 100,0 | 61,1 | 15,2 | 23,7 |
| **2013** | 100,0 | 66,3 | 12,5 | 21,2 |
| **2014** | 100,0 | 75,4 | 11,7 | 12,9 |

Əsasən infrasturuktur layihələrinin həyata keçirilməsindən ibarət olan tikinti quraşdırma işlərinin belə geniş şəkildə maliyyələşdirilməsi müasir dövrdə mühüm istehsal amili hesab olunan infrasturukturun yaxşılaşdırılmasına istiqamətlənmiş dövlət siyasətinin nəticəsidir. Əsas kapitalın daha məhsuldar hissəsi hesab olunan və milli gəlirin yaranmasında daha fəal aktivlər olan maşın, avadanlıq və alətlərin alınmasına sərf olunan investisiyaların xüsusi çəkisinin digər investisiya növlərinə nisbətən azlığı faktı heç də investisiyaların qismən az səmərə verən obyektlərə qoyulması mülahizəsi üçün tam əsas hesab oluna bilməz. Məhsuldar aktivlər o zaman səmərəli olur ki, onların istehsal gücündən tam istifadə olunsun. Bu isə müvafiq miqyaslı satış bazarlarının, müasir infrasturukturun və məhsulların rəqabət qabiliyyətinin mövcudluğunu tələb edir. Dövlətin bu istiqamətdə gördüyü tənzimləyici tədbirlərin yaxın gələcəkdə investisiyaların obyekt quruluşunda fəal aktivlərin xeyrinə dəyişikliklərin olacağına möhkəm inam yaradır.

Əsas vasitələrə qoyulan investisiyaların daxili və xarici mənbələr üzrə bölgüsü də maraq doğuran faktlardandır. 2-ci cədvəldə 2004-2014-cü illərdə əsas kapitala yönəldilmiş investisiyaların tərkibi göstərilmişdir. Əgər daxili və xarici mənbələr üzrə investisiyaların həcmcə dinamikasına baxsaq, görmək olar ki, 2009-cu il istisna olmaqla hər il əvvəlki ilə nisbətən daha böyük həcmdə daxili investisiyalar reallaşdırılmışdır. Bunun nəticəsidir ki, 2014-cü ilin 12,7 milyard manatlıq daxili investisiya göstəricisi 2004-cü ilin müvafiq göstəricisi ilə müqayisədə təxminən 9,6 dəfə böyükdür. Daxili investisiyaların həcmi 2007-ci ildən başlayaraq xarici investisiyalarda çox olmuş və bu fərq sonrakı illərdə daha da artmışdır. Belə ki daxili investisiyalar xarici investisiyalardan 2011-ci ildə 3,9 dəfə, 2012-ci ildə 3,7 dəfə, 2013-cü ildə 2,8 dəfə, 2014-cü ildə isə 2,5 dəfə çox olmuşdur. Xarici investisiyaların həcmi 2006-cı ildən başlayaraq azalmağa başlamışdır. Bu azalma 2009-cu ilədək davam etmiş, sonrakı illərdə isə müəyyən artım olmuşdur. 2014-cü ildəki xarici investisiyalar 2010-cu ilin müvafiq göstəricisindən 2 dəfə böyük olmuşdur.

**Cədvəl 2.**

**2004-2014-cü illərdə əsas kapitala yönəldilmiş investisiyaların tərkibi**

| | Əsas kapitala yönəldilmiş investisiyalar, cəmi | | o cümlədən: | | | |
|---|---|---|---|---|---|---|
| | | | Məhsul istehsalı obyektlərinin tikintisinə | | Xidmət sahələri üzrə obyektlərin tikintisinə | |
| | min manat | əvvəlki ilə nisbətən, faizlə | min manat | əvvəlki ilə nisbətən, faizlə | min manat | əvvəlki ilə nisbətən, faizlə |
| 2004 | 4 922 755,9 | 130,0 | 3 973 010,4 | 129,9 | 949 745,5 | 130,3 |
| 2005 | 5 769 876,3 | 117,2 | 4 262 797,1 | 107,3 | 1 507 079,2 | 158,7 |
| 2006 | 6 234 483,7 | 108,1 | 4 365 127,0 | 102,4 | 1 869 356,7 | 124,0 |
| 2007 | 7 471 189,9 | 119,8 | 4 838 690,3 | 110,8 | 2 632 499,6 | 140,8 |
| 2008 | 9 944 153,8 | 131,8 | 4 651 970,1 | 95,2 | 5 292 183,7 | 199,0 |
| 2009 | 7 724 944,8 | 81,6 | 3 522 058,9 | 79,5 | 4 202 885,9 | 83,4 |
| 2010 | 9 905 665,8 | 121,2 | 4 821 024,8 | 129,4 | 5 084 641,0 | 114,3 |
| 2011 | 12 799 061,3 | 127,3 | 6 033 002,7 | 123,3 | 6 766 058,6 | 131,1 |
| 2012 | 15 407 274,4 | 118,5 | 7 187 757,7 | 117,3 | 8 219 516,7 | 119,6 |
| 2013 | 17 850 815,7 | 115,1 | 8 781 648,6 | 121,4 | 9 069 167,1 | 109,6 |
| 2014 | 17 618 601,1 | 98,3 | 10 225 173,7 | 116,0 | 7 393 427,4 | 81,2 |

Əsas kapitala yatırılmış daxili investisiyaların mülkiyyət növünə görə təhlili göstərir ki, bu sahədə dövlətin payı kifayət qədər böyükdür (şəkil 1). Dövlətin investisiyalarının daxili investisiyalarda xüsusi çəkisi 2004-2008-ci illərdə 14,4 dəfə artmış, sonrakı illərdə isə həm həcminə, həm də xüsusi çəkisinə görə davamlı olaraq artaraq 2014-cü ildə 8,67 milyard manata yüksəlmişdir. 2014-cü ilin dövlət investisiyaları həcminə görə 2004-cü ilin müvafiq göstəricisindən 21,8 dəfə çox olmuşdur.

Qeyri dövlət sektorunun investisiyalarının dövlət investisiyaları ilə müqayisədə az olmasına baxmayaraq bu sektorda da investisiya fəallığı müşahidə olunur (şəkil 2). Əlbəttə, dövlətin investisiya xərclərinin kəskin artımı digər sahələr üçün törəmə tələbatlar yaratmaqla özəl sektor üçün əlverişli investisiya formalaşdırır. Bunun nəticəsidir ki, qeyri-dövlət sektoru investisiyaların 2014-cü ildəki 4,05 milyard manatlıq həcmi 2004-cü illə müqayisədə 4,4 dəfə, 2009-cu ilə nisbətən 2,2 dəfə, 2011-ci illə müqayisədə isə 1,4 dəfə çox olmuşdur.




**Şəkil 1. Əsas kapitala daxili investisiyaların dövlət və qeyri-dövlət sektoru üzrə sturukturu (%-lə)**



**Şəkil 2. Əsas kapitala yönəldilmiş daxili investisiyaların mülkiyyət növlərinə görə bölgüsü (min manatla)**




**Şəkil 3. Daxili investisiyaların sahələr üzrə bölgüsü (min manatla)**

Daxili investisiyaların sahələr üzrə bölgüsünün dinamikasının (şəkil 3) təhlili göstərir ki, sahələr üzrə investisiya qoyuluşlarının artım templəri müxtəlifdir. Xam neft və qaz hasilatı, nəqliyyat, mənzil tikintisi, emal sənayesi, aqrar sektor və digərləri daxili investorları xüsusi ilə cəlb edir. Nəqliyyat sahəsinə investisiyaların kifayət qədər iri həcmlərlə artımı dövlət tərəfindən maliyyələşdirilən infrasturuktur layihələri ilə əlaqələndirilir.

Son illərdə aqrar sektora, ticarət obyektlərinə və mənzil tikintisinə investisiya qoyuluşlarının artımı bu sahələrin də investorlar üçün cəlbedici olmasından xəbər verir. Ölkə iqtisadiyyatına qoyulan xarici investisiyaların sahələr üzrə sturukturuna diqqət yetirdikdə, bu investisiyaların əsas hissəsinin mədənçıxarma sənayesinə, xüsusilə xam neft və qaz hasilatı sahələrinə yatırıldığını görərik. Nəqliyyat sektoru üzrə artan investisiyalar bu sektorun da xarici investorların maraqlarına uyğun gəldiyini göstərir. Tikinti, informasiya və rabitə sahələrinə xarici investisiya qoyuluşlarındakı artım meylləri bu sahələrin də xarici investorlar üçün cəlbedicilik baxımından perspektivli olmasını göstərir (şəkil 4 və 5).




**Şəkil 4. Əsas kapitala yönəldilmiş daxili və xarici investisiyalar (min manatla)**

Azərbaycanda emal sahələrinin xarici investorlar üçün cəlbedici olmaması faktı bu sahədə rəqabətqabiliyyətliliklə bağlı müəyyən prablemlərin hələ də qalmasından xəbər verir. Belə hal iqtisadiyyatın innovativ inkişafında, elmi biliklərə və ixtisaslı kadrlara tələbatın formalaşmasında xüsusi əhəmiyyət kəsb edən emal sənayesinin və digər qeyri-neft sektoru sahələrinin xarici investorlar üçün cəlbediciliyinin təmin olunması üçün hələ görüləsi işlərin çoxluğundan xəbər verir. Azərbaycan iqtisadiyyatına investisiyaların ölkələr üzrə sturukturunun dinamikası 5-ci şəkildə

verilmişdir. Şəkildən göründüyü kimi, Azərbaycan iqtisadiyyatının əsas xarici investorları Böyük Britaniya, ABŞ, Yaponiya, Norveç, Türkiyə, beynəlxalq maliyyə təşkilatları və digər ölkələrdir.




**Şəkil 5. Xarici ölkələr üzrə əsas kapitala yönəldilmiş xarici investisiyalar (min manatla)**

Dünyanın ən sürətli inkişaf edən ölkələrindən biri kimi´ xarakterizə edilən Azərbaycanda sosial-iqtisadi sahədə qazanılan nəaliyyətlər beynəlxalq miqyasda da yaxından izlənməkdə, diqqətlə öyrənilməkdədir. Bu sahədə araşdırma aparan təşkilatların, ekspertlərin yekun qənaəti belədir ki, Azərbaycan iqtisadi sferada uğurlarla zəngin bir yolda irəliləyir və artıq özünəməxsus cəhətləri olan inkişaf modelinin əsasını qoyub. Qeyd edilənlərin məntiqi nəticəsidir ki, son bir neçə ildə Azərbaycan Ümumi Daxili Məhsulun artım dinamikasına görə, dünya dövlətlərinin lideri statusunu daşıyır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Statistik Göstəriciləri. 2001, 2002, 2005, 2009, 2010, 2014
2. Məmmədov Ə., Seyfullayev İ. Vergi və investisiya mühiti. Bakı, 2014, 376 səh.
3. Allahverdiyev H.B., Məmmədov Z.T. İnvestisiya proseslərinin tənzimlənməsi. Bakı, 2003, 71 səh.
4. Hüseynova A.M. Statistikanın ümumi nəzəriyyəsi. Dərs vəsaiti. Bakı, 2008
5. http://stat.gov.az/ Dövlət Statistika Komitəsinin rəsmi saytı.

## ABSTRACT

**Shafa Bagirova**

**General analysis of the investments in Azerbaijan**

In the result of rational use of investment directed to fix ed capital submission into use o lot of new important objects were provided.After gaining of the independence the am ount of direct investment invested by foreign and joint companies to non-oil sector of the economy during last years has increased each year.

## РЕЗЮМЕ

**Шафа Багирова**

**Общие анализ инвестиционных вложений в Азербайджане**

В результате рационального и целесообразпого использования направленного на основной капитал инвестиций было обеспечено здача на использование много новых объектов важного значения. После восстановленния независимости в течении прошедших лет в стране было увеличено из года в год непосредственной инвестиции в ненефтьяной сектор экономики со стороны действующих предприятий.

NDU-nun Elmi Şurasının 31 oktyabr 2016-cı il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur (protokol № 02).

Məqaləni çapa təqdim etdi: *İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov*

# MÜNDƏRİCAT

## TARİX

1. **Zəhmət Şahverdiyev**. XX əsrin axırlarında Naxçıvanda tarixi hadisələrin xronoloji təhlili.........3
2. **Fəxrəddin Səfərli**. "Naxçıvanqala" tarix-memarlıq muzey kompleksində nümayiş etdirilən epiqrafik abidələr ..........................................................................................................9
3. **Vidadi Muradov**. XVIII-XX əsrin əvvəllərində Ordubad şəhərinin iqtisadi həyatına dair........13
4. **Şamxal Məmmədov**. XVIII əsrə qədərki dövrdə Rusiya-erməni əlaqələri..........................18
5. **Məmməd Əliyev**. Naxçıvanda muzey quruculuğunun sürətli inkişafı................................24
6. **Emin Şıxəliyev**. Böyük Britaniyanın arxiv materialları əsasında İngiltərənin "erməni" siyasəti və Naxçıvana təsiri (1917-1920-ci illər)…………………………………………28
7. **İsmayıl Zeynalov.** XIX-əsrin sonu XX-əsrin birinci yarısında Azərbaycanın Naxçıvan bölgəsində əkinçilik təsərrüfatı (taxılçılıq)..........................................................................37
8. **Abdulla Mustafayev, İlqar Kəngərli**. Osmanlı dövləti ərazisində erməni xəyanətkarlığı..44
9. **Xəzər Hüseynov.** Naxçıvan Muxtar Respublikasında taxılçılığın inkişaf etdirilməsi tarixindən (1991-2015-ci illər)...............................................................................52
10. **İsa Arslan.** Şah I Abbasın hakimiyyəti dövründə Azərbaycan Səfəvi dövləti ilə Osmanlı dövləti arasında siyasi münasibətlər...............................................................................58
11. **İbrahim Kazımbəyli.** Rusiya işğalından sonra İrəvan bölgəsinin idarəçiliyi……………...63
12. **Zenfira Seyidova**. El sənəti – nümunələrimizin təbliğ olunduğu muzey............................ 72
13. **Elnur Kəlbizadə**. Naxçıvanın ərazisi və sərhədləri (XVIII əsrin birinci yarısında)............76
14. **Zeynəb Quliyeva**. I Kültəpədən aşkar edilmiş obsidian alətlər (2014-2016)..................... 81
15. **Sara Hacıyeva, İlhami Əliyev**. Orta əsrlər dövrü Naxçıvanda ipəkçiliyin inkişafı..............88
16. **Emin Məmmədov**. Qədim Şərur bölgəsinin erkən tunc dövrü keramikası tarixindən (1991-2015-ci illər)...............................................................................................................93
17. **Toğrul Xəlilov**. Naxçıvanın erkən tunc dövrü dulusçuluq məhsulları................................ 97

## SOSİAL ELMLƏR VƏ HÜQUQ

18. **Məmməd Rzayev**. Sivilizasiyalararası dialoqda şəxsiyyət amili....................... .........103
19. **Əmir Əliyev, Pərvinə İsmayılova.** Beynəlxalq və milli hüquqda mədəni hüquqların təsnifatı.....................................................................................................................107
20. **Elman Cəfərli.** Keçmiş SSRİ konstitusiyalarında muxtar respublikalarla bağlı hüquqi normalar və Naxçıvan muxtariyyəti...............................................................................113
21. **Sevinc Abbasova.** Azərbaycan Respublikasında qadın qeyri-hökumət təşkilatları yeni inkişaf mərhələsində (2007-2013-cü illər)…………………………………………………....120
22. **Müslüm Nəzərov.** Postindustrial cəmiyyətdə peşə strukturunda baş verən dəyişikliklər……….126
23. **Musa Haqverdiyev.** Türkdilli dövlətlər birliyi: genezisi və inkişaf yolları………. …….130
24. **Novruzəli Rəhimov**. Qloballaşma şəraitində dini tolerantlığın və multikultural dəyərlərin qorunması...................................................................................................................138
25. **Bağır Babayev**. XX əsr Azərbaycan demokratik fikrində milli birlik problemi...............145
26. **Hafiz Hüseynov.** Cəmiyyətin sosial-siyasi inkişafında multikultural dəyərlərin yeri və rolu……………………………………………………………………………………...153
27. **Nadir Hüseynbəyli**. Naxçıvan ziyalıları repressiya illərində..........................................157
28. **Vidadi Salmanov**. Multikulturalizm və vətənpərvərlik……………………………….162
29. **Arzu Abdullayev**. Dünyəvi demokratikləşmə prosesinə Azərbaycan yanaşması...............167
30. **Dinara Ağalıyeva**. Asiya ölkələrində turist fəaliyyətinin nizamlanması modellərinin hüquqi aspektləri...................................................................................................................170
31. **Rəşadət Yaqublu**. Davamlı inkişaf konsepsiyasının fəlsəfi mahiyyəti.............................176

**32. Səbuhi İbrahimov**. Azərbaycanda dini müxtəliflilik və multikulturalizm..........................181
**33. Aynurə Musayeva**. Şəxsiyyətin şərəf və ləyaqəti əleyhinə olan cinayətlərlə mübarizədə cinayət qanunvericiliyinin inkişafı tarixi.............................................................................185
**34. Fuad Xəlilzadə**. Majoritar seçki sistemi və bu sistemin digər seçki sistemlərindən fərqi............192
**35. Rəşadə Quliyeva**. Qrup halında törədilən tamah-zorakı cinayətlərə dair işlər üzrə sübutetmədə məhkəmə ekspertizalarının rolu və əhəmiyyəti..............................................195
**36. Könül Salmanova**. Fəaliyyət anlayışının sosial-fəlsəfi mahiyyəti....................................199

# İQTİSADİYYAT

**37. Ağarza Rüstəmov.** Toxum fondlarının yaradılması bitkiçiliyin inkişafında yeni mərhələ kimi.....................................................................................................................206
**38. Müslüm Cabbarzadə**. Region iqtisadiyyatında özəl bölmənin inkişafı: nailiyyətlər və perspektivlər.........................................................................................................210
**39. Teymur Abbasov**. Naxçıvan MR-in sosial-iqtisadi inkişafında sahibkarlığın rolu və inkişaf istiqamətləri...................................................................................215
**40. Mehdi Bağırov**. Kənd təsərrüfatı informasiyasının formalaşmasında marketinqin rolu...........222
**41. Gülarə Rəhimova, Kəmalə İbrahimova.** Ekonometrik məsələlər və onların riyazi həlli……226
**42. Hüseyn Bağırsoylu**. Sərbəst ticarət zonalarının yaradılmasında regional imkanların mövcudluğu və onların qiymətləndirilməsi yolları……………………………………237
**43. Cavadxan Qasımov**. Məşğulluq müasir dövrün aktual məsələsi kimi.................................242
**44. Sevinc Cabbarova**. Dövlətin sosial siyasəti və əmək potensialından səmərəli istifadəsi…….245
**45. Rüfət Əliyev**. Sığorta fəaliyyəti, formaları, növləri və əsas strategiyası............................249
**46. İlham Hüseynov**. Naxçıvan Muxtar Respublikasında həyata keçirilən investisiya siyasəti və aqrar sahənin inkişafı……………………………………………………………………252
**47. Şənay İsayeva, Sahil Murtuzayev**. Devalvasiyanın iqtisadi mahiyyəti və əhəmiyyəti- Azərbaycan nümunəsində...........................................................................................259
**48. Həvva Adıgözəlova**. İnnovasiyaların müəssisələrin fəaliyyətinin təşkilində rolu...............264
**49. Hakan Güngörmez**. Tuzun sağlıktaki önemi ve ekonomideki boyutu…………………...267
**50. Şefa Bağırova.** Azərbaycanda investisiya qoyuluşlarının ümumi təhlili............................276